# HEYDƏR ƏLİYEV

---

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

### *b e ş i n c i   k i t a b*

***noyabr, 1995 - mart, 1996***

***çıxışlar***
***nitqlər***
***bəyanatlar***
***məktublar***
***müsahibələr***

**AZƏRNƏŞR**
**BAKI-1998**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1998, 500 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1995-ci il noyabrın sonlarından 1995-ci il martın ortalarına qədər olan dövrdəki çıxışları, nitqləri, müraciətləri, bəyanatları, müsahibələri, məktubları və s. toplanmışdır.

Azərbaycanın tərəqqi və inkişafının əsas istiqamətləri, uğurlu daxili və xarici siyasət nəticəsində respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması, dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin gücləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh və danışıqlar yolu ilə ədalətli həlli xəttinin prioritetliyi, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün və sərhədlərİnin toxunulmazlığının təmin edilməsi uğrunda ardıcıl və məqsədyönlü mübarizənin siyasi, diplomatik və nəzəri əsasları bu kitabda özünün parlaq əksini tapmışdır.

**BBK – 66.3(5Aze)8**

**Ə $\frac{0801000000}{M - 651(07) - 98}$**

**© Azərnəşr, 1998**

# KİTABIN İÇİNDƏKİLƏR


**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA NİTQ**
***24 noyabr 1995-ci il*****......** **10**

**LONDONDA ADAM SMİT ADINA İNSTİTUTUN VƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN BİRGƏ HAZIRLADIQLARI "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
***28 noyabr 1995-ci il*****......** **15**

**"AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
***29 noyabr 1995-ci il*****......** **17**

**"AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI**
***29 noyabr 1995-ci il*****......** **22**

**AZƏRBAYCAN RESPUBLİKASI SƏFİRLİYİNİN YENİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
***29 noyabr 1995-ci il*****......** **25**

**ADAM SMİT İNSTİTUTUNUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ**
***29 noyabr 1995-ci il*****......** **27**

**"AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINDA YEKUN NİTQİ**
***30 noyabr 1995-ci il*****......** **29**

**"AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINDA İŞTİRAK EDƏN İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
***30 noyabr 1995-ci il*****......** **34**

**Bİ-Bİ-Sİ KORPORASİYASINDAKI GÖRÜŞDƏ Bİ-Bİ-Sİ-nin MÜXBİRİ İLƏ MÜSAHİBƏ**
***30 noyabr 1995-ci il*****......** **37**

**BÖYÜK BRİTANİYANIN "EKONOMİST" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
***1 dekabr 1995-ci il*****......** **39**

**AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ**
***1 dekabr 1995-ci il*****......** **42**

**RİTA-SÖTA-nın MÜXBİRİNƏ MÜSAHİBƏ**
***1 dekabr 1995-ci il*****......** **46**

**"MOND DİPLOMATİK" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ**
***3 dekabr 1995-ci il*****......** **48**

**İNGİLTƏRƏNİN "MİDDL İSTMEQEZİN" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
***4 dekabr 1995-ci il*****......** **53**

"İNTERNEŞNL HERALD TRİBYUN" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*4 dekabr 1995-ci il*........................................................................................ 55

"MOND" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ
*4 dekabr 1995-ci il*........................................................................................ 57

"KREDİ KOMMERSİAL DE FRANS" BANKININ RƏHBƏRLƏRİ VƏ İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*4 dekabr 1995-ci il*........................................................................................ 60
YEKUN SÖZÜ
*4 dekabr 1995-ci il*........................................................................................ 61

ÜMUMDÜNYA BANKININ TƏŞKİL ETDİYİ "AZƏRBAYCAN ÜÇÜN İNVESTİSİYALAR" BEYNƏLXALQ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*5 dekabr 1995-ci il*........................................................................................ 62

NAXÇIVANDA BAŞ VERMİŞ TƏYYARƏ QƏZASINDA HƏLAK OLAN HƏMVƏTƏNLƏRİMİZİN XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN KEÇİRİLMİŞ MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ
*7 dekabr 1995-ci il*........................................................................................ 68

AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT
*7 dekabr 1995-ci il*........................................................................................ 70

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*7 dekabr 1995-ci il*........................................................................................ 71

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ M. Ə. RƏSULZADƏ ADINA BDU-nun TƏLƏBƏ ŞƏHƏRCİYİNDƏ MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ QAÇQINLARIN GÖRÜŞÜNDƏ ÇIXIŞ
*8 dekabr 1995-ci il*........................................................................................ 73

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ
*8 dekabr 1995-ci il*........................................................................................ 74

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ FƏXRİ AKADEMİKİ ADINA LAYİQ GÖRÜLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ
*8 dekabr 1995-ci il*........................................................................................ 78

TÜRKİYƏNİN VƏ AZƏRBAYCANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*8 dekabr 1995-ci il*........................................................................................ 80

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİRGƏ BƏYANATI
*8 dekabr 1995-ci il*........................................................................................ 81

AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*8 dekabr 1995-ci il*........................................................................................ 84

TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ AZƏRBAYCAN

**İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ**
*8 dekabr 1995-ci il*........................................................................................................ **87**

**BAKIDA İLK BEYNƏLXALQ TELEFON STANSİYASININ VƏ YENİDƏN QURULMUŞ ŞƏHƏRLƏRARASI RABİTƏ STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ**
*9 dekabr 1995-ci il*........................................................................................................ **92**

**XALQ ARTİSTİ SƏYAVUŞ ASLANA**
*11 dekabr 1995-ci il*...................................................................................................... **93**

**AZƏRBAYCAN KİNEMATOQRAFÇILARININ VIII QURULTAYINA**
*15 dekabr 1995-ci il*...................................................................................................... **94**

**AZƏRBAYCAN KİNEMATOQRAFÇILAR İTTİFAQININ YENİ SEÇİLMİŞ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*16 dekabr 1995-ci il*...................................................................................................... **95**

**AZƏRBAYCANIN XALQ ŞAİRİ NƏBİ XƏZRİYƏ**
*19 dekabr 1995-ci il*...................................................................................................... **100**

**YAZIÇI YUSİF SƏMƏDOĞLUNA**
*19 dekabr 1995-ci il*...................................................................................................... **101**

**YAZIÇI YUSİF SƏMƏDOĞLUNUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ**
*19 dekabr 1995-ci il*...................................................................................................... **102**

**BAKIDA RƏSMİ SƏFƏRDƏ OLAN ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KLAUS KİNKELİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ NİTQ**
*22 dekabr 1995-ci il*...................................................................................................... **105**

**BAKI MƏİŞƏT KONDİSİONERLƏRİ ZAVODUNUN ƏMƏK KOLLEKTİVİNƏ**
*25 dekabr 1995-ci il*...................................................................................................... **107**

**BAKI MƏİŞƏT KONDİSİONERLƏRİ ZAVODUNUN 20 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MİTİNQDƏ ÇIXIŞ**
*25 dekabr 1995-ci il*...................................................................................................... **108**

**RESPUBLİKA AİLƏ-SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞINDA ÇIXIŞ**
*29 dekabr 1995-ci il*...................................................................................................... **112**

**9 YAŞLI RƏSSAM ƏLİ CƏFƏRİN SƏRGİSİNİN AÇILIŞINDA ÇIXIŞ**
*30 dekabr 1995-ci il*...................................................................................................... **116**

**1995-ci İLDƏ BEYNƏLXALQ YARIŞLARDA YÜKSƏK NAİLİYYƏTLƏR ƏLDƏ ETMİŞ AZƏRBAYCAN İDMANÇILARI VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*30 dekabr 1995-ci il*...................................................................................................... **118**

**DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT**
*30 dekabr 1995-ci il*...................................................................................................... **122**

**YENİ İL MÜNASİBƏTİLƏ BAKI ŞƏHƏRİNDƏKİ UŞAQ EVLƏRİNDƏ VƏ İNTERNAT MƏKTƏBLƏRDƏ TƏRBİYƏ ALAN UŞAQLARLA GÖRÜŞDƏ ÇIXIŞ**
*31 dekabr 1995-ci il*...................................................................................................... **123**

**AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ**
*31 dekabr 1995-ci il*........................................................................................................ **124**

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA**
*5 yanvar 1996-cı il*......................................................................................................... **129**

**AZƏRBAYCAN RESPUBLİKASININ İLK KONSTİTUSİYASINA UYĞUN OLARAQ İCRA VƏ İDARƏETMƏ İŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN İLK İCLASINDA GİRİŞ SÖZÜ**
*8 yanvar 1996-cı il*......................................................................................................... **130**
**YEKUN SÖZÜ**
*8 yanvar 1996-cı il*......................................................................................................... **131**

**FRANSA TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ**
*11 yanvar 1996-cı il*....................................................................................................... **137**

**MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*17 yanvar 1996-cı il*....................................................................................................... **139**

**AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASiYASI HÖKUMƏTLƏRİ ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ HAQQINDA SAZİŞLƏR İMZALANDIQDAN SONRA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN RUSİYANIN BAŞ NAZİRİ V. S. ÇERNOMIRDİNLƏ BİRGƏ MƏTBUAT KONFRANSI**
*18 yanvar 1996-cı il*....................................................................................................... **140**

**RUSİYA PREZİDENTİ APARATI İNFORMASİYA İDARƏSİ RƏİSİNİN MÜAVİNİ MARINA NEKRASOVAYA MÜSAHİBƏ**
*18 yanvar 1996-cı il*....................................................................................................... **142**

**MOSKVADAN VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL "VNUKOVO-2" AEROPORTUNDA JURNALİSTLƏRƏ BƏYANAT**
*20 yanvar 1996-cı il*....................................................................................................... **144**

**QANLI YANVAR FACİƏSİ ŞƏHİDLƏRİNİN XATİRƏ GECƏSİNDƏ ÇIXIŞ**
*20 yanvar 1996-cı il*....................................................................................................... **145**

**RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ GENNADİ NİKOLAYEVİÇ SELEZNYOV CƏNABLARINA**
*23 yanvar 1996-cı il*....................................................................................................... **149**

**RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ SƏDRİ YEQOR SEMYONOVİÇ STROYEV CƏNABLARINA**
*24 yanvar 1996-cı il*....................................................................................................... **150**

**FƏLƏSTİN MUXTARİYYƏTİNİN BAŞÇISI YASİR ƏRƏFAT CƏNABLARINA**
*24 yanvar 1996-cı il*....................................................................................................... **151**

**ƏMƏKDAR ELM XADİMİ SARA XANIM AŞURBƏYLİYƏ**
*26 yanvar 1996-cı il*....................................................................................................... **152**

**TÜRKİYƏ RESPUBLİKASI BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ, ZATİ-ALİLƏRİ MUSTAFA KALEMLİ CƏNABLARINA**
*30 yanvar 1996-cı il*................................................................................................ **153**

MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏRİNİN BİRİNCİ FORUMUNDA NİTQ
*2 fevral 1996-cı il*........................................................................................................ 154

İRAN İSLAM İNQİLABININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*3 fevral 1996-cı il*........................................................................................................ 163

RUSİYA FEDERAL SƏRHƏD XİDMƏTİNİN DİREKTORU A. İ. NİKOLAYEVLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT
*14 fevral 1996-cı il*...................................................................................................... 165

HƏŞTƏRXAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏSİ
*15 fevral 1996-cı il*...................................................................................................... 167

AZƏRBAYCANDA ÇIXARILACAQ İLKİN NEFTİN RUSİYA FEDERASİYASININ ƏRAZİSİ VASİTƏSİLƏ NƏQLİNƏ DAİR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*16 fevral 1996-cı il*...................................................................................................... 170

ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK
*17 fevral 1996-cı il*...................................................................................................... 171

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN VƏ RABİTƏ İŞÇİLƏRİNİN BİR QRUP NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*17 fevral 1996-cı il*...................................................................................................... 172

AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ
*17 fevral 1996-cı il*...................................................................................................... 174

KALMIKİYA PREZİDENTİ KİRSAN İLYUMJİNOVUN BAKI SƏFƏRİ ZAMANI AZƏRBAYCAN İLƏ KALMIKİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA KALMIKİYA TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ
*20 fevral 1996-cı il*...................................................................................................... 178

XOCALI SOYQIRIMININ DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏTİ
*24 fevral 1996-cı il*...................................................................................................... 179

XOCALI SOYQIRIMININ DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR XOCALI SAKİNLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ
*24 fevral 1996-cı il*...................................................................................................... 180
YEKUN SÖZÜ
*24 fevral 1996-cı il*...................................................................................................... 180

BİRİNCİ RESPUBLİKA SƏRGİ-YARMARKASININ AÇILIŞINDA ÇIXIŞ
*27 fevral 1996-cı il*...................................................................................................... 186

BAKIDA RUSİYA FEDERASİYASI SƏFİRLİYİNİN TİKİLMƏKDƏ OLAN KOMPLEKSİNİN BÜNÖVRƏSİNƏ İLK DAŞ QOYULMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*27 fevral 1996-cı il*...................................................................................................... 187

"AZƏRSUTİKİNTİ" DÖVLƏT KONSERNİNİN KOLLEKTİVİNƏ
*29 fevral 1996-cı il*...................................................................................................... 189

**ATƏT-in SƏDRİ, İSVEÇRƏNİN XARİCİ İŞLƏR NAZİRİ FLAVİO KOTTİ İLƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
***29 fevral 1996-cı il*......................................................................................................... 190**

**RESPUBLİKA HÜQUQİ İSLAHAT KOMİSSİYASININ İLK İCLASINDA GİRİŞ VƏ YEKUN SÖZÜ**
***4 mart 1996-cı il*............................................................................................................ 193**

**İSRAİLDƏ YAŞAYAN KEÇMİŞ AZƏRBAYCAN VƏTƏNDAŞLARI ASSOSİASİYASININ TƏŞƏBBÜSÜ İLƏ HAZIRLANMIŞ VƏ ÇAPDAN ÇIXMIŞ "HEYDƏR ƏLİYEV: SİYASİ PORTRETİN CİZGİLƏRİ" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ HEYDƏR ƏLİYEVİN NİTQİ**
***4 mart 1996-cı il*............................................................................................................ 195**

**AZƏRBAYCAN VƏ DAĞISTAN RƏHBƏRLİYİ ARASINDA DANIŞIQLARIN YEKUNLARINA ƏSASƏN SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ BƏYANAT**
***5 mart 1996-cı il*............................................................................................................ 198**

**NİKOLAY KONSTANTİNOVİÇ BAYBAKOVA**
***5 mart 1996-cı il*............................................................................................................ 201**

**BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ TƏBRİK SÖZÜ**
***7 mart 1996-cı il*............................................................................................................ 202**

**GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB**
***8 mart 1996-cı il*............................................................................................................ 203**

**AZƏRBAYCAN VƏ GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN VƏ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
***8 mart 1996-cı il*............................................................................................................ 204**

**GÜRCÜSTAN PARLAMENTİNİN XÜSUSİ İCLASINDA NİTQ**
***8 mart 1996-cı il*............................................................................................................ 206**

**GÜRCÜSTAN PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ**
***8 mart 1996-cı il*............................................................................................................ 210**

**TBİLİSİ NƏBATAT BAĞINDA FƏTƏLİ XAN XOYSKİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
***9 mart 1996-cı il*............................................................................................................ 212**

**CÜMƏ MƏSCİDİNDƏ MÖMİN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞ**
***9 mart 1996-cı il*............................................................................................................ 214**

**TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ**
***9 mart 1996-cı il*............................................................................................................ 215**

**GÜRCÜSTANDA YAŞAYAN AZƏRBAYCANLILARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
***9 mart 1996-cı il*............................................................................................................ 217**

GÜRCÜSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*10 mart 1996-cı il*.......................................................................................................... 223

BAKIDA BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU MİŞEL KAMDESSÜ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ
*12 mart 1996-cı il*.......................................................................................................... 226

1991-ci il DEKABRIN 8-də RUSİYANIN, UKRAYNANIN VƏ BELORUSİYANIN İMZALADIĞI "BELOVEJSK SAZİŞİ"Nİ LƏĞV ETMİŞ RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ 1996-cı il 15 MART TARİXLİ QƏRARI İLƏ ƏLAQƏDAR BƏYANAT
*16 mart 1996-cı il*.......................................................................................................... 228

AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV – TÜRKMƏNBAŞININ BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT
*18 mart 1996-cı il*.......................................................................................................... 230

AZƏRBAYCAN–TÜRKMƏNİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI
*18 mart 1996-cı il*.......................................................................................................... 231

TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV – TÜRKMƏNBAŞI İLƏ BAKI DƏMİR YOLU NƏQLİYYATI TEXNİKUMUNUN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞAN FÜZULİ, ZƏNGİLAN, ŞUŞA, XOCALI QAÇQINLARININ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*18 mart 1996-cı il*.......................................................................................................... 235

M. Ə. RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVA – TÜRKMƏNBAŞIYA BDU-nun FƏXRİ DOKTOR DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*18 mart 1996-cı il*.......................................................................................................... 236

TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVUN – TÜRKMƏNBAŞININ ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*18 mart 1996-cı il*.......................................................................................................... 239

AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN BİNƏ HAVA LİMANINDA BİRGƏ İMZALADIQLARI BAKI BƏYANATI
*19 mart 1996-cı il*.......................................................................................................... 241

BAKIDA BEYNƏLXALQ BANKIN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*19 mart 1996-cı il*.......................................................................................................... 242

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA NİTQ

*24 noyabr 1995-ci il*

Hörmətli deputatlar, hörmətli qonaqlar, səfirlər,
xanımlar və cənablar!

Müstəqil Azərbaycan Respublikasının ilk parlamentinin – Milli Məclisinin işə başlaması münasibətilə sizi səmim-qəlbdən təbrik edirəm, Milli Məclisə, sizə bu şərəfli işinizdə uğurlar arzulayıram.

Biz tarixi hadisələrin şahidiyik, tarixi proseslərin iştirakçısıyıq. Azərbaycan dörd il bundan öncə dövlət müstəqilliyini əldə edib, xalqımız milli azadlığa nail olubdur. Ötən dörd il ərzində Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyalında ağır, çətin ictimai-siyasi proseslər gedib və nəhayət, respublikamızın dövlət müstəqilliyi möhkəmlənib dönməz olubdur, ictimai-siyasi vəziyyət sabitləşibdir və müstəqil Azərbaycan Respublikası özünün ali qanununu – Konstitusiyasını qəbul etməyə imkan əldə edib, ilk parlamentini – Milli Məclisini seçibdir.

Bunlar böyük nailiyyətdir, tarixi nailiyyətdir. Bunlar onu sübut edir ki, artıq Azərbaycan xalqı müstəqillik yolu ilə cəsarətlə, əzmlə, uğurla irəliləyir və dövlət hakimiyyətinin bütünlüklə təşkilini təmin etmək üçün lazımi sənədlər qəbul edir. Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunubdur. Bu konstitusiya xalqımızın keçdiyi tarixi yolun məntiqi nəticəsidir. Xalqımızın böyük tarixi var. XX əsrdə tariximiz xüsusən böyük bir yol keçibdir və keçdiyimiz yolda bizim konstitusiya təcrübəmiz də var. Azərbaycanın indi qəbul olunmuş konstitusiyası onun dördüncü konstitusiyasıdır. 1921-ci ildə birinci konstitusiya, 1937-ci ildə ikinci konstitusiya, 1978-ci ildə üçüncü konstitusiya qəbul edilib və nəhayət, on il, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi referendum nəticəsində dördüncü konstitusiya qəbul olunubdur. Ancaq bu konstitusiya keçmiş konstitusiyalardan tamamilə fərqli konstitusiyadır, yeni konstitusiyadır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır, Azərbaycanın hər bir vətəndaşının doğma konstitusiyasıdır. [5-6]

Biz bu gün tarixi keçmişimizə hörmət edərək, keçdiyimiz yolun nə qədər əzab-əziyyətli olduğunu qeyd edərək, eyni zamanda xalqımızın müstəqillik yolunda inamla irəli getməsindən məmnun olduğumuzu bildirərək, buna görə fəxr etdiyimizi bildirərək yeni konstitusiyamızın qəbul olunmasını tarixi bir hadisə kimi, böyük bir bayram kimi qeyd etməyə haqqımız var, ixtiyarımız var. Mən sizi, bütün Azərbaycan xalqını müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunması münasibətilə ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu konstitusiya Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, insanların, vətəndaşların hüquq və azadlıqlarının qorunması, Azərbaycanda demokratik hüquqi dövlətin qurulması və inkişaf etməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Biz yeni bir mərhələdəyik və bundan sonra çox ciddi, cəsarətli addımlar atmağa imkanımız var. Çünki bunun üçün qanuni əsaslar yaranıbdır. Yeni qəbul olunmuş konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır, xalqımız bu konstitusiyanın müddəalarından daim istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir.

İnsan, vətəndaş hüquqlarının, azadlıqlarının qorunmasına konstitusiyanın çox hissəsi, demək olar ki, üçdə bir hissəsi həsr olunubdur. Bu da təbiidir. Biz keçmişdən, totalitar sistemdən yeni bir sistemə keçirik. Biz demokratiyanı inkişaf etdirməliyik, xalqımızı demokratiya yolu ilə aparmalıyıq, insanların hüquqlarının qorunmasının hər yerdə, hər sahədə təmin olunması üçün əsaslar yaratmalıyıq. Bütün bu əsasları da yeni qəbul olunmuş konstitusiya verir və bütün təminatları biz konstitusiyanın maddələrindən almışıq. Konstitusiya Azərbaycanda dövlət hakimiyyətinin təşkil olunmasını tam demokratik prinsiplər əsasında təsdiq edibdir. [6-7]

Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və hər bir hakimiyyət ancaq xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkil olunması konstitusiyada hakimiyyətin səlahiyyət bölgüləri əsasında nəzərdə tutulubdur: qanunvericilik hakimiyyəti, icra hakimiyyəti, məhkəmə hakimiyyəti. Bu prinsip XVIII əsrdə fransız filosofları Jan Jak Russo, Monteskye, Didro və digərləri tərəfindən sübut olunub, əsrlərin sınağından keçib, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrində hökm sürür və biz də bu prinsipi demokratik hüquqi dövlət yaratmaq üçün və respublikamızda demokratiyanı inkişaf etdirmək üçün, vətəndaşların, insanların hüquqlarını qoruyub təmin etmək üçün əsas götürmüşük. Konstitusiyamızda bu prinsip əsasında hakimiyyət bölgüsü tam demokratik olaraq öz əksini tapıbdır və bizim də vəzifəmiz, borcumuz konstitusiyaya riayət etmək və konstitusiyanın müddəaları əsasında hakimiyyətin təşkilini bundan sonra da təmin etməkdən ibarət olacaqdır.

Konstitusiya insan, vətəndaş hüquqlarının, azadlıqlarının təminatı ilə əlaqədar vətəndaşların qarşısında olan böyük vəzifələri də çox gözəl, ətraflı əks etdiribdir. Hər bir vətəndaşın hüququ var, o hüquqlar qorunmalıdır və bir də qeyd edirəm, konstitusiyamız buna çox gözəl əsaslar yaradıbdır. Ancaq hər bir vətəndaşın vətəndaşlıq vəzifəsi var, borcu var. Vətən qarşısında borcu var, vəzifəsi var. Bunlar da konstitusiyada öz əksini tapıbdır.

Konstitusiyanın müddəaları haqqında, onun nə qədər dəyərli olması haqqında biz konstitusiyanı hazırlayarkən geniş məlumatlar vermişik. Ancaq indi, konstitusiya qəbul olunandan sonra hesab edirəm ki, konstitusiyanın hər bir vətəndaş tərəfindən mənimsənməsi üçün və konstitusiyanın hər bir vətəndaş üçün yeganə meyar, yeganə qanun olması üçün onun təbliğinə, onun maddələrinin izahına çox böyük ehtiyac var. Güman edirəm ki, bizim müvafiq orqanlarımız bundan sonra konstitusiyanın təbliği, onun maddələrinin izahı ilə, şərhi ilə çox ciddi məşğul olmalıdırlar.

Bu gün Milli Məclisin ilk iclasının başlandığı dəqiqələrdə də mənim müşahidələrim bunu göstərdi ki, konstitusiyanı hamımız yaxşı öyrənməliyik. Əgər Milli Məclis üzvlərinin bəziləri konstitusiyanın maddələrini unudurlarsa, yaxud onlara riayət etmək istəmirlərsə, demək, belə nəticə çıxarmaq olar ki, biz hələ uzun müddət işləməliyik, çalışmalıyıq ki, hər bir və[7-8]təndaşımız bu konstitusiyanı bilsin və ondan istifadə edə bilsin. Həm özü üçün, həm də ölkəmizi, dövlətimizi qorumaq, yaşatmaq üçün. Buna çox böyük ehtiyac var və güman edirəm ki, bu iş bizim qarşımızda duran əsas vəzifələrdən biridir.

Bildiyiniz kimi, konstitusiya komissiyası layihəni hazırlamaq üçün çox iş görmüşdür. İyun ayından noyabrın 12-nə qədər, altı ay müddətində konstitusiya komissiyası və onun yaratdığı işçi qrupu ardıcıl surətdə, çox səmərəli, məhsuldar işləmiş və məhz bunun nəticəsində biz ictimaiyyətə, xalqa layiqli konstitusiya layihəsi təqdim edə bilmişik. Ona görə də mən bu gün konstitusiya komissiyasının üzvlərinə, konstitusiya komissiyasının işçi qrupunun üzvlərinə və layihənin hazırlanması prosesində konstitusiya komissiyası tərəfindən cəlb olunmuş və xidmət göstərmiş bütün vətəndaşlarımıza təşəkkür edirəm. Hesab edirəm ki, konstitusiya komissiyası böyük iş görübdür və komissiya üzvlərinin işi yüksək qiymətə layiqdir. Mən sizə təşəkkür edirəm, sağ olun.

Konstitusiya layihəsi dərc olunandan sonra ümumxalq müzakirəsi keçirilibdir. Hesab edirəm ki, müzakirə çox geniş, səmərəli, ətraflı olubdur və şübhəsiz ki, bu müzakirə avtomatik şəkildə keçirilməyibdir, xaotik olmayıbdır. Bu müzakirə eyni zamanda müvafiq orqanlar tərəfindən təşkil olunubdur və müzakirə prosesi həyata keçirilibdir. Müzakirədə bizim vətəndaşlarımızın əksəriyyəti iştirak edibdir. Konstitusiya haqqında minlərlə fikir söylənilib, konstitusiya komissiyasına konstitusiyanın maddələrinə aid üç mindən artıq təklif, düzəliş göndərilibdir. Bunlar hamısı respublikamızın vətəndaşlarının konstitusiya hazırlanmasına olan böyük marağını, münasibətini göstəribdir. Nəhayət, konstitusiya ümumxalq səsverməsi yolu ilə qəbul olunubdur. 1995-ci il noyabrın 12-də konstitusiyanın qəbul olunması üçün referendum, ümumxalq səsverməsi keçirilibdir. Referendum komissiyası səlahiyyətlərini həyata keçirən Mərkəzi seçki komissiyasının məlumatından görünür ki, konstitusiyanın qəbul olunması üçün referendumda seçicilərin 86 faizi iştirak edibdir və referendumda iştirak edən seçicilərin 91,9 faizi konstitusiyanın layihəsini bəyənib, beləliklə də seçicilərin, xalqımızın əksəriyyəti tərəfindən konstitusiya qəbul edilib və ümumxalq konstitusiyası olubdur.

Bu da çox əlamətdar hadisədir. Biz ilk dəfə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etmişik və bu konstitusiya xalqın ümumxalq səsverməsi yolu ilə – referen[8-9]dum yolu ilə qəbul olunubdur. Demək, bu, xalqın konstitusiyasıdır, hər bir vətəndaşın konstitusiyasıdır. Ona görə də mən konstitusiya layihəsinin müzakirəsində fəaliyyət göstərmiş bütün orqanlara, təşkilatlara, kütləvi informasiya vasitələrinə, yerli icra hakimiyyəti orqanlarına, ictimai təşkilatlara və bütün bu prosesdə iştirak etmiş təşkilatlara, orqanlara və konstitusiyanın qəbul olunması üçün ona səs vermiş bütün vətəndaşlara minnətdarlığımı və təşəkkürümü bildirirəm. Bir daha qeyd etmək istəyirəm ki, bizim konstitusiyamız, xalqın konstitusiyasıdır, hər bir vətəndaşın konstitusiyasıdır.

Əminəm ki, konstitusiyanın qəbul olunması gələcək işlərimizin daha da mütəşəkkil aparılması üçün gözəl şərait yaradıbdır və bizim vəzifəmiz bu şəraitdən bütün sahələrdə səmərəli istifadə etməkdir. Ən əsası isə, yeni qəbul edilmiş konstitusiya Azərbaycanda çox ehtiyac olan daxili ictimai-siyasi sabitliyin təminatıdır. Əmin olduğumu bildirmək istəyirəm ki, bu konstitusiya qəbul ediləndən sonra və konstitusiyaya uyğun seçki qanunu əsasında Azərbaycanın yeni parlamenti, müstəqil respublikamızın ilk parlamenti – Milli Məclisi seçiləndən, işə başlayandan sonra artıq Azərbaycanda son illərdə mövcud olan hərc-mərcliyə, ayrı-ayrı qrupların hakimiyyət iddiasına, cürbəcür təxribat niyyətlərinə və ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələrin niyyətlərinə son qoyulacaq və xalqımız, ölkəmiz bundan sonra əmin-amanlıq, ictimai-siyasi sabitlik şəraitində yaşayacaqdır.

Konstitusiya bunun üçün bütün şəraitləri yaradır və hamımızın borcu konstitusiyadan istifadə edərək bunu təmin etməkdən ibarətdir.

Konstitusiya komissiyası konstitusiyanın layihəsini hazırlayarkən eyni zamanda və öncə Milli Məclisə – parlamentə seçkilər üçün qanun hazırladı və həmin qanun Milli Məclisdə qəbul olundu, onun əsasında seçkilər keçirildi. Bilirsiniz ki, seçkilərin keçirilməsi ilə əlaqədar cürbəcür fikirlər var. Konstitusiyanın müzakirəsində də onun bəzi maddələrinə aid ayrı-ayrı tənqidi fikirlər söylənilmişdir. Ancaq bu gün mən məmnuniyyət hissi ilə

qeyd etmək istəyirəm ki, bu tənqidi fikirlərin təbii olduğunu nəzərə alaraq, eyni zamanda həm seçkilərin keçirilməsi barədə qanun haqqında, həm də konstitusiyanın layihəsi haqqında prinsipial xarakter daşıyan etirazlar, tənqidi fikirlər olmamışdır və həm seçki qanunu, həm də konstitusiya layihəsi layihə müzakirə olunarkən ümumən yüksək qiymət[9-10]ləndirilmişdir. Konstitusiyanın qəbul olunması, seçkilərin keçirilməsi və Milli Məclisin deputatlarının seçilməsi onu göstərir ki, həqiqətən bizim konstitusiyamız da, seçki qanunumuz da tam demokratik prinsiplər əsasında qurulmuşdur, yaranmışdır. Buna görə də mən hesab edirəm ki, biz böyük nailiyyətlər əldə etmişik. Qəbul olunan konstitusiya və bu gün işə başlayan qanunverici orqan – parlament, Milli Məclis Azərbaycanda bundan sonra demokratik hüquqi dövlət quruculuğu prosesini inkişaf etdirmək üçün, respublikamızda iqtisadi islahatları, özəlləşdirmə proqramını həyata keçirmək üçün və sosial-iqtisadi sahədə böhranın aradan qaldırılması üçün, vətəndaşlarımızın rifahının yaxşılaşdırılması üçün gözəl əsaslar yaradır.

Bir cəhəti də qeyd etməyi lüzumlu hesab edirəm. Azərbaycan Respublikası yeddi ildir ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Nəticədə respublikamızın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş ərazilərdən, torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşübdür, öz yerlərini tərk edibdir, didərgin düşübdür, respublikanın başqa regionlarında ağır vəziyyətdə, əksəriyyəti çadırlarda yaşayır. Belə bir vəziyyətdə, belə bir şəraitdə, 7 milyon əhalisinin bir milyonu yerindən didərgin düşüb əksəriyyəti çadırlarda yaşadığı bir zamanda, ağır həyat tərzi keçirdiyi bir zamanda və ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edildiyi bir zamanda yeni konstitusiyanın qəbul olunması, seçkilər aparılması, yeni parlamentin, Milli Məclisin seçilməsi, hesab edirəm ki, böyük nailiyyətdir və bu tədbirlərin keçirilməsi sahəsində başqa ölkələrə nisbətən ciddi fərqimizi göstərir. Əgər biz belə bir şəraitdə konstitusiya qəbul edə bilmişiksə və seçicilərin 86 faizi referendumda iştirak edib ondan 91,9 faizi bu konstitusiyaya səs veribsə, demək, bu, böyük nailiyyətdir. Əgər biz belə bir şəraitdə yeni parlament yaratmaq üçün seçkilər keçirə bilmişiksə və artıq 96 deputat seçilibsə, bu, böyük nailiyyətdir. Biz bunlarla fəxr edə bilərik.

Hesab edirəm ki, qəbul olunmuş qanun əsasında respublikamızda ilk parlament seçkiləri demokratik prinsiplərə əsaslanaraq keçirilibdir, demokratik prinsiplərə riayət olunubdur və Mərkəzi seçki komissiyası səmərəli, çox gərgin iş görübdür. Nəticədə həm referendum keçirilib, həm də parlament seçilibdir. [10-11]

Doğrudur, Milli Məclisin deputatlarının seçilməsi ilə əlaqədar ayrı-ayrı şikayətlər var, beynəlxalq müşahidəçilər tərəfindən nöqsanlar, qüsurlar göstərilibdir. Bunlar həqiqətdir və heç birimiz həqiqəti inkar etməməliyik. Eyni zamanda bunlar təbiidir. Biz heç vaxt belə fikirdə deyildik ki, ağır, çətin bir şəraitdə keçirilən bu ümumxalq tədbiri çox hamar keçəcək, çəhrayı rənglərlə boyalı nəticələr verəcək və hamısı tam müsbət olacaqdır. Biz heç vaxt belə fikirdə olmamışıq. Çünki, yenə də deyirəm, biz Azərbaycanda demokratik prinsipləri tətbiq edirik, onların bərqərar olmasına çalışırıq, insanları demokratiyaya öyrədirik. Bizim respublikamız demokratiya dərsi keçir, demokratiya təlimi keçir. Demokratiya yolu ilə getmək üçün böyük bir yola, geniş bir yola çıxıbdır. Bu ağır və çətin yolda, şübhəsiz ki, səhvlər də olacaqdır, nöqsanlar da, qüsurlar da olacaqdır, qanun pozuntuları da olacaqdır. Bunlar təbiidir və mən hesab etmirəm ki, buraxılmış səhvlər, nöqsanlar əldə etdiyimiz ümumi nailiyyətləri hörmətdən salır, yaxud ləkələyir. Xeyr! Əgər kim hesab edirsə ki, hər şey qüsursuz olacaqdır, onlar yəqin köhnə əhval-ruhiyyə ilə yaşayırlar.

Xüsusən mən görürəm ki, bu nöqsanların olmasını bir ittiham kimi irəli sürən bəzi müxalifət dairələridir. Əgər onlar doğrudan da, həqiqətən demokratiya yolu ilə gedirlərsə, keçmiş adət-ənənələri unutmalıdırlar. Bəli, keçmişdə hər şey yaxşı idi, hər şey əla idi. Heç bir halda heç bir qanun pozuntusu olmurdu, heç bir yerdə heç bir qusur olmurdu. Bu, keçmiş adət-ənənələrdir. Biz bunlardan xilas olmalıyıq, bu fikirlərdən xilas olmalıyıq. Bugünkü Milli Məclisin iclasının da aparılmasında artıq keçmiş reqlamenti də unutmalıyıq, keçmiş adət-ənənələri də unutmalıyıq, yəni parlamentdə mövcud olmuş ənənələri deyirəm, – onları unutmalıyıq və hər bir şeyi həqiqi, demokratik prinsiplər əsasında qurmalıyıq.

Ona görə də mən hesab edirəm ki, beynəlxalq təşkilatların, xaricdən gələn müşahidəçilərin tənqidləri də ədalətlidir və ayrı-ayrı vətəndaşlar tərəfindən edilən tənqidlər də ədalətlidir. Bizim özümüz də dərk edirik ki, görülən işlərdə səhvlər, nöqsanlar da var, qüsurlar da var. Amma bunlar ümumi işin müsbət nəticəsinə heç bir təsir etmir. Bütün xarici, beynəlxalq təşkilatların, müşahidəçilərin qeyd etdiyi kimi, parlament seçkilərinin nəticəsi Azərbaycanda demokratiya yolunda atılan ilk addımdır və hesab edirəm ki, çox böyük addımdır. Bir də qeyd edirəm, biz demokratiyanın uzun yoluna indi qədəm qo[11-12]yuruq. Əgər atdığımız addım demokratiya yolunda atılan addımdırsa, bu, artıq nailiyyətdir.

Nəzərə almaq lazımdır ki, – mən qeyd etdim, – cəmiyyətdə və dövlət quruculuğunda demokratiyanın əsasını qoyanlar fransız filosofları XVIII əsrin ikinci yarısında bu prinsipləri meydana atıblar. Neçə əsr keçibdir. Bəzi ölkələr illər boyu, on illər boyu o prinsiplərdən istifadə edərək demokratiya sahəsində yüksək nailiyyətlər əldə edirlər. Ancaq Azərbaycan isə bu addımları indi atmağa başlayır. Hesab edirəm, ən böyük uğurumuz ondan ibarətdir ki, biz bu addımları atırıq, inamla atırıq, qətiyyətlə atırıq və bundan sonra da bu yolla gedəcəyik. Bizim qəbul etdiyimiz konstitusiya və seçilmiş parlament demokratiya yolu ilə gedəcəkdir. Mən buna əminəm və bir prezident kimi konstitusiya ilə mənim üzərimə qoyulan vəzifələri həyata keçirərkən hər saniyə, hər dəqiqə, hər

gün yalnız və yalnız demokratik prinsiplərə əsaslanacağam, qəbul olunmuş konstitusiyanın bütün maddələrinə, bütün müddəalarına, bütün fikirlərinə əsaslanacağam.

İlk parlamentə 96 deputat seçilibdir. Biz keçən parlament seçkilərindən indiyə qədər ötən beş ilə nəzər salmalıyıq. Şübhəsiz ki, sonra, güman edirəm, bu beş il təhlil olunacaqdır, onun müsbət və mənfi tərəfləri göstəriləcəkdir. Mən indi bu məsələ ilə məşğul olmaq fikrində deyiləm, ancaq bir neçə kəlmə qeyd etmək istəyirəm. 1990-cı ildə seçilmiş parlament sovet hakimiyyəti dövründə seçilmiş parlament idi. Bakıda Yanvar faciəsinin, tökülmüş qanların əsasında yaranan hakimiyyət tərəfindən təşkil edilmiş və seçilmiş parlament idi. O parlament beş il müddətində müəyyən dəyişikliklərlə işlədi və nəhayət, bu gün öz fəaliyyətinə xitam verir.

Bu müddətdə parlamentin fəaliyyətində müsbət tərəflər də çoxdur, ancaq mənfi, dəhşətli tərəflər də çoxdur. Müsbət cəhətlər ondan ibarətdir ki, bütün bu dövrün mürəkkəbliyinə və qarmaqarışıqlığına baxmayaraq, bu parlament fəaliyyət göstərmiş və bu günə qədər ölkəmizdə qanunvericilik fəaliyyəti funksiyasını həyata keçirmişdir. Müsbət cəhət bir də ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinə xalqın istəyi nəticəsində parlament də qərar vermiş və 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuşdur. Başqa müsbət cəhətləri də var. Ancaq mənfi cəhətləri də çoxdur. Mənfi cəhətlər ondan ibarətdir ki, birincisi, parlament Bakıda fövqəladə vəziyyət [12-13] şəraitində seçilmiş və xalqın, parlamentin üzvlərinin dəfələrlə tələb etməsinə baxmayaraq, bu fövqəladə vəziyyət, 1990-cı il 20 Yanvar faciəsindən sonra yaranmış fövqəladə vəziyyət uzun müddət davam etmiş və insanlar həmin şəraitdə yaşamışlar. Şübhəsiz ki, burada hüquqdan da o qədər geniş söhbət gedə bilməzdi. Mənfi cəhət həm də bundan ibarətdir ki, parlamentin və o vaxtkı hakimiyyətin qorunub saxlanmasını təmin edə bilməmişdir. Bu müddətdə respublikada üç dəfə hakimiyyət dəyişikliyi baş vermişdir. Parlament burada gücsüzlük göstərmiş və bəzi hallarda hətta xalqa xəyanətkar mövqedə də durmuşdur.

Parlamentin mənfi cəhətlərindən onu da qeyd etmək istəyirəm ki, 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başlanmasının qarşısını ala bilməmişdir. Şübhəsiz ki, bu, təkcə parlamentin işi deyildi, amma mən parlamentin üzərinə düşən vəzifə nöqteyi-nəzərindən bunu deyirəm, Azərbaycanda vətəndaş müharibəsi başlamış, Azərbaycan Respublikası artıq parçalanmağa başlamış, ölkənin ayrı-ayrı regionlarında hakimiyyət müxtəlif qrupların əlinə keçmiş və nəhayət, dövlət çevrilişi baş vermişdi. Eyni zamanda onu qeyd etmək istəyirəm ki, həmin vaxt bütün bu hadisələrin ağırlığına, çətinliyinə baxmayaraq, parlament 1993-cü il iyun hadisələrindən sonra bu məsələləri təhlil etmək və vəziyyəti normallaşdırmaq üçün xeyli fəaliyyət göstərə bilmişdir. Şübhəsiz ki, onun bu fəaliyyətini müsbət qiymətləndirməyə bizim tam əsasımız var.

Ondan sonrakı dövrdə parlament əsasən səmərəli işləmiş bir çox qanunlar qəbul etmiş və parlamentin fəaliyyəti nəticəsində biz indiki vəziyyətə gəlib çatmışıq ki, seçki qanunu qəbul etmək, yeni seçkilər keçirmək və yeni konstitusiyanın qəbul olunması üçün şərait yaranmışdır. Bu sahədə də parlamentin xidmətlərini qeyd etmək lazımdır.

Düzdür, seçkilər 90-cı ilin sentyabrında keçirilib, amma parlament öz fəaliyyətinə 91-ci ilin fevral ayında başlayıbdır. Güman edirəm, bunu da qeyd etmək yerinə düşərdi ki, o vaxt parlament seçkiləri – o zaman Ali Sovet deyirdilər – Ali Sovet seçkiləri 1990-cı ilin sentyabrında başladı, amma parlamentin ilk iclası 91-ci il fevralın 5-də keçirildi. İndi isə, – bəlkə bu müqayisəyə ehtiyac yoxdur, ancaq sadəcə olaraq bunu qeyd etmək istəyirəm, – parlament seçkiləri noyabrın 12-də başlandı, qurtardı və bu gün – noyabrın 24-də, 12 gündən sonra par[13-14]lament öz işinə başlayır. Bu da keçmişə nisbətən çox böyük bir fərqi nümayiş etdirir.

Beş il fəaliyyət göstərən parlamentin işinə bu gün xitam verilir. Ona görə də fəaliyyətində olan qüsurları, mənfi cəhətləri də qeyd edərək, fəaliyyətindəki nailiyyətləri, müsbət cəhətləri də qeyd edərək, mən hesab edirəm ki, biz öz tariximizə daim hörmət etməliyik və beş il fəaliyyət göstərən parlamentə, onun üzvlərinə bu gün öz təşəkkürümüzü və minnətdarlığımızı bildirməliyik.

Konstitusiyanın qəbul olunması üçün referendumun və seçkilərin keçirilməsində, qeyd etdiyim kimi, Mərkəzi seçki komissiyasının çox gərgin işi və böyük xidməti olubdur. Onların işi hələ bu gün də qurtarmır, davam edir. Mərkəzi seçki komissiyasının sədri Cəfər Vəliyev bu gün məlumat verdi ki, ayın 26-da 20 dairədə təkrar səsvermə olacaqdır, 8 dairədə isə sonra yenidən seçkilər keçiriləcəkdir. Elə bu faktın özü də Azərbaycanda seçkilərin nə qədər demokratik keçirildiyini göstərir. 100 dairədən, – onların birində seçkilər keçirilməməlidir – 99 dairədən ancaq 71-də seçkilər tamamlanıb, deputatlar seçilib. 20-sində yenidən, təkrar səsvermə olacaqdır. 8-də isə seçkilər yenidən keçiriləcəkdir. Bu, demokratiyanın parlaq nümunəsidir. Bizim seçkilər doğrudan da demokratik şəraitdə keçirilibdir. Yenə deyirəm, Mərkəzi seçki komissiyası gərgin işləyib, çox iş görübdür. Onun fəaliyyətindəki nöqsanları tənqid etmək olar, qüsurlardan da danışmaq olar, onun buraxdığı səhvlərlə əlaqədar şikayətlər də etmək olar. Ali Məhkəmə bu şikayətlərə baxmalıdır. Ancaq bütün bunlarla yanaşı, mən hesab edirəm ki, Mərkəzi seçki komissiyası çox böyük iş görübdür. Bu gün mən, güman edirəm, sizin – deputatların iradəsini ifadə edərək, eyni zamanda Azərbaycan xalqının iradəsini ifadə edərək Mərkəzi seçki komissiyasına, onun üzvlərinə və onun sədri Cəfər Vəliyevə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Cəfər Vəliyev məlumat verdi ki, seçilmiş deputatların arasında 8 partiyanın nümayəndəsi var. Ümumiyyətlə, Azərbaycanda bu seçkilər hər sahədə yeni bir anlayışdır və o cümlədən seçkilərin çoxpartiyalılıq prinsipi əsasında keçirilməsi tamamilə yeni bir hadisədir. Hesab edirəm ki, kiminsə, nədənsə narazılığı ola bilər, şikayəti də ola bilər, bunlar da təbiidir. Bütün bunlara baxmayaraq, hesab edirəm ki, biz Azərbaycanda ilk dəfə çoxpartiyalılıq əsasında seçkilər keçirmişik və əgər [14-15] bu parlamentə seçilmiş 96 deputatın tərkibində 8 partiyanın nümayəndəsi təmsil olunursa, bu özü demokratiyanı nümayiş etdirən böyük nailiyyətdir. Parlamentin tərkibində deputatlar hansı partiyaya mənsubluğundan asılı olmayaraq, dünyagörüşündən, siyasi baxışından asılı olmayaraq bir amala xidmət etməlidirlər: konstitusiyaya riayət olunmalıdır, qəbul edilmiş konstitusiyanın müddəaları həyata keçirilməlidir və hər bir kəs konstitusiyanı əsas tutaraq öz fəaliyyətini həyata keçirməlidir.

Mən bir prezident kimi bu gün bəyan edirəm ki, hakimiyyətin təşkilində hakimiyyət bölgüsünün budaqlarından biri Milli Məclis, o birisi icra hakimiyyəti – prezident və onun yaratdığı icra hakimiyyəti orqanları, üçüncüsü məhkəmə hakimiyyəti, – hamısı birlikdə ahəngdar fəaliyyət göstərməlidir. Deputatları, Milli Məclisi əmin etmək istəyirəm ki, icra orqanları ilə, prezident ilə parlament arasında işgüzar, sağlam münasibətlər indiyə qədər olduğu kimi, bundan sonra da olacaq və konstitusiyanın bütün müddəalarına mən bir prezident kimi və bütün icra orqanları da riayət etməyə çalışacağıq. Əminəm ki, parlamentdə də deputatlar fikir müxtəlifliyi ilə və məsələlərin müzakirəsində fəallığı ilə qanunların qəbul olunması üçün böyük səylər göstərəcəklər və bundan sonra respublikamız üçün lazım olan qanunlar yüksək səviyyədə qəbul ediləcəkdir.

Konstitusiyaya görə qanunları prezident imzalayır və mən arzu edərdim ki, qanunlar müzakirə zamanı, hazırlanma zamanı və qəbul olunan zaman o qədər ətraflı və konstitusiyaya uyğun hazırlansın, qəbul olunsun ki, onların imzalanması üçün ayrılmış vaxt uzanmasın və qəbul edilən hər bir qanun prezident tərəfindən imzalana bilsin. Mənim arzum, istəyim bundan ibarətdir.

Bizim hamımız birlikdə ən yüksək amala xidmət etməliyik: bu da Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, Azərbaycanın müstəqilliyini təmin etmək, ölkəmizin düşdüyü müharibə vəziyyətindən çıxarılması üçün lazımi tədbirlər görmək, respublikamızın hər yerində və ətrafında sülh münasibətləri yaratmaqdan ibarətdir. Konstitusiyaya görə respublikanın prezidenti Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısıdır. Belə bir məsuliyyət hakimiyyət bölgüsündə yalnız və yalnız prezidentin üzərinə düşübdür, prezidentə həvalə olunubdur və bu məsuliyyəti prezident [15-16] daşıyır. Çox böyük məsuliyyətdir. Mən sizə söz verirəm və sizi əmin edirəm ki, konstitusiya ilə üzərimə qoyulmuş bu məsuliyyəti şərəflə həyata keçirməyə çalışacağam və bunu təmin etmək üçün parlamentlə bərabər fəaliyyət göstərəcəyəm və xalqın indiyə qədər olan etimadını bundan sonra da doğrultmağa çalışacağam.

Parlamentin qarşısında çox böyük işlər durur. Hesab edirəm ki, bu işləri görmək üçün çox yüksək səviyyəli parlament seçilibdir. Kimsə, haradasa parlamentin tərkibini, seçilən adamların ayrı-ayrılıqda hər birini tənqid edə bilər. Biz konstitusiyamızda insanlara bütün azadlıqları vermişik, yəni konstitusiyamız veribdir, – bizə də veribdir, sizə də veribdir, hamıya veribdir. Ona görə də söz azadlığı, mətbuat azadlığı və siyasi plüralizm bundan sonra da təmin olunacaqdır, buna əmin ola bilərsiniz. Bu baxımdan ayrı-ayrı yazılar, ayrı-ayrı sözlər heç kimi narahat etməsin. Hərənin öz fikri var, hərə öz düşündüyünü deyir. Mən hesab edirəm ki, müstəqil Azərbaycanın yeni seçilmiş ilk parlamentinin deputat tərkibi çox yüksək səviyyədədir. O barədə bu gün Cəfər Vəliyev məlumat verdi. Burada respublikanın ziyalıları, alimləri, hüquqşünasları, mühəndisləri, mütəxəssisləri, mədəniyyət xadimləri var.

Hər bir xalqın onu təmsil edən qüvvələri var, onlar da bir gündə meydana çıxan qüvvələr deyil. Xalq öz içindən illər boyu, əsrlər boyu istedadlı, bacarıqlı insanları, yüksək təhsilə malik olan, yüksək intellektə malik olan, yüksək tərbiyəyə malik olan, yüksək əxlaqa malik olan insanları hazırlayır, yetişdirir və onlar xalqın tanınmış adamları, hörmətli adamları, ziyalı adamları hesab olunur. "Ziyalı" sözü məhz bu mənanı daşıyır və bu baxımdan hesab edirəm ki, yeni seçilmiş parlament Azərbaycanın, xalqımızın intellektual səviyyəsini, mədəni səviyyəsini, xalqımızın mənəvi varlığını təmsil edən, təcəssüm edən bir parlamentdir. Biz belə bir parlamentlə fəxr edə bilərik. Parlamentdə Azərbaycanın tanınmış adamları, sayılan, hörmətli adamları, ziyalı adamları var. Belə olan halda şübhəsiz ki, parlamentin işi də səmərəli olacaqdır və belə olan halda hesab edirəm ki, hazırlanan, qəbul edilən qanunlar da konstitusiyaya uyğun, bizim tutduğumuz yola, demokratiya prinsiplərinə uyğun qanunlar olacaqdır.

Mən sizin hamınızı, seçilən deputatları xalq tərəfindən sizə göstərilən etimad münasibətilə və müstəqil Azərbaycan Respublikasının ilk parlamentinə – Milli Məclisinə deputat seçil[16-17]məyiniz münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, səadət arzulayıram, hamınıza birlikdə, müstəqil Azərbaycanın ilk Milli Məclisinə uğurlar diləyirəm.

Mən bu gün burada çox böyük iftixar hissi ilə çıxış edirəm. Ona görə ki, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunubdur. Ona görə ki, müstəqil Azərbaycanın ilk parlamenti – Milli Məclisi seçilibdir. Tarixi hadisələrdir. Mən buna sevinirəm, bununla fəxr edirəm və xalqımızı, bütün Azərbaycan vətəndaşlarını bu münasibətlə təbrik edirəm. Əminəm ki, xalqımız tutduğumuz yolla inamla gedəcək və biz hamımız birlikdə Azərbaycanın müstəqilliyini bundan sonra qoruyub saxlayıb əbədi edəcəyik və Azərbaycanın xoşbəxt gələcəyini təmin edəcəyik. Sağ olun! [17-18]

## LONDONDA ADAM SMİT ADINA İNSTİTUTUN VƏ AZƏRBAYCAN HÖKUMƏTİNİN BİRGƏ HAZIRLADIQLARI "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*28 noyabr 1995-ci il*

**- Cənab prezident, Azərbaycan özünün investisiya üçün imkanlarını əslində ilk dəfə olaraq belə geniş miqyasda bütün dünyaya tanıtdıracaq. Azərbaycanın dövlət başçısı kimi, siz bu beynəlxalq tədbirin həm iqtisadiyyatımız, həm də müstəqilliyimiz üçün əhəmiyyətini nədə görürsünüz?**

- Bilirsiniz ki, mən Azərbaycanın dövlət başçısı olduğum gündən bəri xarici ölkələrə çox səfərlər etmişəm. Bu səfərlərin böyük əksəriyyəti getdiyim ölkələrin dövlət başçılarının dəvəti ilə həyata keçirilib və rəsmi xarakter daşıyıbdır. Eyni zamanda beynəlxalq təşkilatların yüksək səviyyəli toplantılarında Azərbaycanın nümayəndə heyətinə başçılıq edərək ölkəmizi təmsil etmişəm. İndiki səfər isə başqa xarakter daşıyır. Bu, Azərbaycanın iqtisadiyyatı ilə bağlı olan bir səfərdir.

Çox yaxşı və təqdirəlayiq haldır ki, qarşıdakı beynəlxalq konfrans dünyanın böyük iqtisadi təsisatlarının və maliyyə mərkəzlərinin Azərbaycana göstərdikləri maraqdan irəli gələn tədbirdir. Məlum olduğu kimi, dünyada çox məşhur və çox böyük tarixi olan Adam Smit adına İqtisadiyyat İnstitutu var, onun baş qərargahı Londonda yerləşir. Bu institutun əməkdaşları ən əvvəl məşhur iqtisadçı alim Adam Smitin ideyalarını həyata keçirərək, dünyada iqtisadiyyatın, xüsusən bazar iqtisadiyyatının inkişafı məsələləri ilə məşğul olurlar. Onlar təşəbbüs irəli sürmüşlər. Bilirsiniz ki, onlar Azərbaycana çoxdan maraq göstərirlər. Ötən il Adam Smit institutunun təşəbbüsü ilə Azərbaycanda da tədbir keçirilmişdir. Lakin bu dəfə onlar çox geniş miqyaslı tədbir hazırlayıblar. Həm də onu neçə ay [18-19] idi ki, hazırlayırdılar. Onlar beynəlxalq iqtisadiyyat və maliyyə mərkəzlərinə məlumat vermişlər. Bu tədbir Azərbaycanın dünya iqtisadiyyatı ilə inteqrasiyası üçün və dünya investorlarının ölkəmizə marağını araşdırmaq, onları bu işə cəlb etmək üçün keçirilir. Məclisə çox adam, o cümlədən Azərbaycandan da bir çox sahələrimizin rəhbərləri dəvət olunublar. Onlar məni də dəvət ediblər və öz proqramlarında mənim çıxışımı nəzərdə tutublar. Mən bunu nəzərə alaraq oraya gedirəm. Güman edirəm ki, bu, bizim üçün böyük hadisədir.

Biz ölkəmizin dünyada mövqelərini möhkəmləndirmək üçün çox siyasi tədbirlər görmüşük. Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də, İslam Konfransı Təşkilatında, böyük ölkələrin dövlət başçıları ilə görüşlərimdə çox işlər görmüşük və bu da, bir tərəfdən, Azərbaycanın müstəqilliyini möhkəmləndirməklə, digər tərəfdən isə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə əlaqədardır.

Lakin eyni zamanda biz bütün bu müddətdə Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə getməsi, dünya iqtisadiyyatına qoşulması işləri ilə də məşğul olmuşuq. Bilirsiniz ki, biz bir çox tədbirlər görmüşük, iqtisadi islahatlar sahəsində addımlar atmışıq, qanunlar, o cümlədən özəlləşdirmə haqqında qanun, proqramlar qəbul etmişik, aqrar sektorda islahatlar həyata keçərmişik, maliyyə sistemimizi dünya maliyyə sisteminə, bank sisteminə uyğunlaşdırmaq üçün işlər görmüşük. Bunlar da artıq öz nəticələrini vermişdir. İndi beynəlxalq maliyyə mərkəzləri bizə maraq göstərir, kreditlər ayırır. Ancaq bu məsələni daha yüksək pilləyə qaldırmaq üçün London konfransını yaxşı bir fürsət hesab edirəm. Ümidvaram ki, orada keçirəcəyimiz görüşlər bizim üçün bu baxımdan əhəmiyyətli olacaq və yaxşı nəticə verəcəkdir.

Şübhəsiz ki, mən Londonda bu konfrans çərçivəsindən kənarda bir çox başqa görüşlər də keçirəcəyəm, bir çox bankların rəhbərləri mənim oraya səfərimə maraq göstərir, mənimlə Görüşmək istəyirlər. Bizimlə əməkdaşlıq edən "Britiş Petroleum" şirkəti də Londona səfərimizə çox maraq göstərir. Mənim Böyük Britaniyada dövlət və hökumət başçıları ilə də görüşlərim olacaqdır. Ümumiyyətlə, proqram çox genişdir.

**- Cənab prezident, bu səfərin gedişində hansısa [19-20] konkret layihənin və ya layihələrin müzakirəsi gözlənilirmi?**

- Heç bir layihə yoxdur. Biz Azərbaycana investisiya qoyulması üçün imkanların nə qədər geniş olduğunu bir daha bildirmək istəyirik. Oraya çox qonaqlar, investorlar, bır sıra maliyyə mərkəzlərinin nümayəndələri gələcəklər. Onlar sadəcə olaraq görməlidirlər ki, biz nə kimi imkanlara malikik. Azərbaycana investisiya qoyulması, ölkəmizin dünya iqtisadiyyatına bağlanması üçün yaratdığımız qanuni şərtlər, qanunlarımız, imkanlarımız nədən ibarətdir. Hər hansı bir ölkəyə gətirib investisiya qoymaq istəyən adam, şübhəsiz, öz

mənfəətini axtarır. Bu mənfəəti də əldə etmək üçün o bilməlidir ki, qoyduğu kapitaldan nə götürəcək və onu götürmək nə dərəcədə əlverişlidir, münasibdir. Bunları sübut etməliyik. Bu, asan məsələ deyildir. Yəni təminat, hüquqi təminat olmalıdır.

Məsələn, indi respublikamızda yaranmış iqtisadi-siyasi sabitlik, müharibənin dayandırılması, yəni il yarımdan artıq müddətdə atəşkəs rejiminə əməl edilməsi – bütün bunlar dünya investorlarına Azərbaycanla doğrudan da uzunmüddətli əməkdaşlıq etmək üçün şəraiti yaratmışdır. Onlar bu şəraiti görürlər. Amma biz bunları izah edəcək, bildirəcəyik və danışıqlar aparacağıq.

Ola bilsin ki, müəyyən təkliflər, müəyyən layihələr yar. Biz onlara baxacağıq. Əgər onlar əlverişli olsa, güman ki, orada qərar qəbul edə bilərik, yaxud investorları Azərbaycana dəvət edərik.

Londondan sonra mənim Parisə səfərim var. Orada Beynəlxalq Bank böyük bir toplantı, elə London konfransına bənzər toplantı keçirəcək. O da məhz Azərbaycana həsr olunubdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Beynəlxalq Bankın öz təşəbbüsü ilə Azərbaycana, xüsusən özəl sektora investisiya qoyulması məsələsinə toxunulacaqdır. Paris toplantısının əsas xüsusiyyəti ondan ibarətdir ki, orada özəl sektora investisiya qoyulması məsələləri ön sıraya çəkiləcək, daha mühüm yer tutacaqdır. Oraya da bir çox beynəlxalq bankların, ayrı-ayrı böyük bankların nümayəndələri dəvət edilibdir. Mən orada da bu işlərlə məşğul olacağam. Şübhəsiz ki, orada da bir çox dövlət dairələrinin nümayəndələri ilə görüşəcəyəm. [20-21]

## "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*London*

*29 noyabr 1995-ci il*

Hörmətli cənab sədr!
Hörmətli cənab Lanq!
Hörmətli cənablar!

Öncə Azərbaycanın problemlərinə həsr olunmuş belə bir geniş konfransı təşkil etdiyinə görə Adam Smit İnstitutuna səmimi minnətdarlığımı bildirmək istəyirəm. Mən həmçinin bu mühüm konfransın hazırlanmasında iştirak edən bütün təşkilatlara təşəkkürümü bildirirəm. Bu konfrans Azərbaycana həsr olunub, daha konkret desək, Azərbaycan qlobal biznesdə, dünya iqtisadiyyatında, Azərbaycanda investisiya imkanları mövzusuna həsr olunubdur. Adam Smit İnstitutu kimi mühüm və dünyada məşhur olan elm və iqtisadi mərkəzin Azərbaycan Respublikasının problemlərinə, Azərbaycanın iqtisadi inkişafına bu qədər böyük diqqət yetirməsi bizi hədsiz dərəcədə sevindirir. Biz bunu yüksək qiymətləndiririk və indiki keçid dövründə iqtisadiyyatımızın dünya iqtisadiyyatına qoşulması üçün respublikamıza konkret kömək, konkret yardım hesab edirik.

Konfransın bütün iştirakçılarını ürəkdən təbrik edirəm. Mən çox şadam ki, Adam Smit İnstitutunun dəvətinə müxtəlif şirkətlərin maliyyə mərkəzlərini, maliyyə qruplarını təmsil edən və şübhəsiz ki, Azərbaycanın problemlərinə, bizim respublikamızla iqtisadi əlaqələr yaratmağa maraq göstərən çoxlu insanlar səmimi yanaşmış və onu qəbul etmişlər.

Mən konfransa bu qədər böyük sayda və belə geniş tərkibdə iştirakçıların gəlməsini bir tərəfdən, Adam Smit İnstitutunun məşğul olduğu məsələlərə onların hamısının xeyirxah, həssas münasibət bəsləməsi kimi qiymətləndirirəm, digər tərəfdən isə Azərbaycana böyük diqqət göstərilməsi, Azərbaycan Respublikası ilə sıx əlaqələr yaratmaq arzusu kimi qəbul edirəm. [21-22]

Mən belə hesab edirəm ki, – hörmətli sədr də bunu qeyd etdi, buraya gələnlərin hamısı istəyir ki, Azərbaycanın bugünkü günü, dünya birliyində, dünya iqtisadi sistemində onun tutduğu yer haqqında, bu gün və gələcəkdə onunla nə kimi münasibətlər yaratmağın mümkün olması barədə məlumatı bilavasitə bizim özümüzdən alsınlar. Hesab edirəm ki, Azərbaycandan gəlmiş nümayəndə heyəti üzvlərinin çıxışları konfrans iştirakçılarında bu barədə kifayət qədər təsəvvür yaradacaqdır. Mən isə öz çıxışımda başlıca, ümumi məsələlərə toxunacağam və təbii ki, bu, sizdə yarana biləcək bir çox suallara cavab olacaqdır.

Azərbaycan yeni, gənc müstəqil dövlətdir, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkədir, dünya birliyində öz layiqli yerini tutan, hamı tərəfindən qəbul olunmuş dünya standartları əsasında dünya iqtisadiyyatına sıx bir şəkildə qoşulmağa çalışan ölkədir. Bildiyiniz kimi, Azərbaycan Qafqazda, Avropa və Asiyanın qovuşuğunda yerləşir. Onun qədim və zəngin mədəniyyəti var. Azərbaycan bütün dövrlərdə dünya mədəniyyətinə layiqli töhfələr vermişdir. Məhz bu zəmində də indi Azərbaycan böyük potensiala malikdir.

Azərbaycan özünün coğrafi mövqeyi sayəsində keçmiş zamanlardan diqqəti cəlb etmiş, mühüm beynəlxalq ticarət mərkəzi olmuşdur. Neft yataqlarının sənaye miqyasında işlənməsinə başlanması ilə əlaqədar, XIX əsrin ikinci yarısında Azərbaycana maraq artmışdır. Bu, Azərbaycana iri xarici kapitalın, Avropa kapitalının axınına səbəb oldu, XIX əsrin ikinci yarısı və XX əsrin başlanğıcı Azərbaycana xarici, Avropa kapitalının böyük miqyasda investisiya edilməsi ilə əlamətdar olmuşdur. Bu, Azərbaycanda neft sənayesinin və ümumiyyətlə bütün sənayenin inkişafına şərait yaratdı. Təbii ki, bütün bunlar öz izlərini qoymuşdur.

Bu gün ölkəmizə gələn insanlar Azərbaycanda orta əsr abidələrini, həmin o uzaq dövrlərdə Azərbaycanın Asiya ilə Avropa arasında beynəlxalq ticarət mərkəzi olmasından xəbər verən karvansaraları görə bilərlər. Bu tarixi abidələr məhz ticarət əlaqələrindən xəbər verir. Həmin abidələrlə yanaşı, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda investisiya, sənaye inkişafı dövründə tikilmiş böyük sarayları və iri binaları görmək mümkündür.

Azərbaycan sonralar, Sovetlər İttifaqının tərkibində olarkən, xüsusən İkinci dünya müharibəsindən sonrakı illərdə [22-23] bütün sahələrdə böyük inkişafa nail olubdur. Bütün bu dövrdə – sona çatmaqda olan XX əsr ərzində Azərbaycanın iqtisadi inkişafı neft ilə, neft sənayesi və neftin çıxarılması, emalı ilə bağlı digər sənaye sahələri ilə əlaqədar olubdur. Ancaq eyni zamanda İkinci dünya müharibəsindən sonra Azərbaycanda sənayenin və bütünlükdə iqtisadiyyatın bir çox başqa sahələri də inkişaf edibdir.

70-ci illərdə Azərbaycanda dəqiq cihazqayırma, mikroelektronika, elektrotexnika, cihazqayırma sənayesi də inkişaf edibdir. Neft və neft emalı sənayesi, iri neft maşınqayırma kompleksi, kimya, neft kimyası müəssisələri və maşınqayırmanın müxtəlif sahələrini əhatə edən müəssisələr hesabına genişlənibdir.

Beləliklə, Azərbaycanda iri sənaye potensialı yaranıbdır. Azərbaycanın bioiqlim şəraiti burada kənd təsərrüfatının, kənd təsərrüfatı sahələrinin geniş inkişaf etməsinə imkan veribdir. Ona görə də Azərbaycan tarazlaşmış iqtisadiyyata malikdir – onun özünün xammal imkanları, emal bazası, sənaye müəssisələri var və bunlar hamısı birlikdə vahid iri iqtisadi potensial təşkil edir.

Ancaq bütün bunlarla yanaşı, 80-ci illərdə sosialist idarəetmə sisteminin tənəzzülə uğraması nəticəsində Azərbaycanda iqtisadiyyatın inkişafında nəinki durğunluq yarandı, həm də iqtisadiyyat geriləməyə başladı. Bu da təbiidir. Sonra Sovetlər İttifaqının dağılması ilə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi və yeni prinsiplərə əsaslanan inkişaf yoluna çıxdı. Respublikamızın həyatının indi yaşadığımız bu mərhələsi, şübhəsiz ki, bir tərəfdən iqtisadi, sosial böhranla, digər tərəfdən isə iqtisadiyyatımızı tamamilə yeni prinsiplər üzərində qurmaq üçün göstərdiyimiz səylərlə səciyyələnir.

Azərbaycan dörd il bundan öncə dövlət müstəqilliyi əldə edibdir. Azərbaycan demokratik, hüquqi dövlət quruculuğu yoluna, bazar iqtisadiyyatına, bazar münasibətlərinə əsaslanan demokratik vətəndaş cəmiyyəti formalaşdırmaq yoluna qədəm qoyubdur və mövcud beynəlxalq standartlara uyğun olaraq dünya iqtisadiyyatına sıx bir şəkildə qovuşmaq istiqamətində strateji xətt götürübdür.

Şübhəsiz ki, bütün bunlar asan məsələ deyildir və böyük çətinliklər yaradır. İdarəetmənin sosialist inzibati-amirlik sistemindən, sosialist iqtisadiyyatından bazar münasibətlərinə, inki[23-24]şafın bazar qanunlarına, azad sahibkarlığa əsaslanan iqtisadiyyata keçməyin nə demək olduğunu siz yaxşı təsəvvür edirsiniz. Ancaq bütün bu mürəkkəbliklərinə, çətinliklərinə baxmayaraq, dünya üçün təbii proses olduğuna görə bu yol labüddür, onu keçməliyik. Eyni zamanda bu yol xalqımızın da, dövlətimizin də mənafeyinə və istəyinə tamamilə uyğundur. Yəni müstəqil dövlət kimi Azərbaycan gələcəkdə də bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı iqtisadi və siyasi münasibətlər əsasında dünya birliyinin fəal iştirakçısı olmağı nəzərdə tutaraq, özünün müstəqilliyini daha da möhkəmləndirmək və inkişaf etdirmək yolu ilə gedir, eyni zamanda xarici investorların, dünya maliyyə mərkəzlərinin, transmilli korporasiyaların, xarici şirkətlərin imkanlarından istifadə etməklə iqtisadiyyatı bazar prinsipləri zəminində yenidən quraraq iqtisadi yüksəlişə böyük təkan vermək üçün tədbirlər görülür.

Bundan ötrü Azərbaycanda böyük imkanlar var. Azərbaycanın təbii ehtiyatları, ilk növbədə iri neft və qaz yataqları, digər yeraltı sərvətləri və artıq qeyd etdiyim kimi, formalaşmış sənaye potensialı, kənd təsərrüfatının inkişafı üçün zəngin təbii ehtiyatları qarşıya qoyduğumuz vəzifələrin həyata keçirilməsindən ötrü əlverişli şərait yaradır və biz bu vəzifələrin həllinə dair tədbirlər görürük.

Artıq tarixə qovuşmuş illər ərzində Azərbaycanda böyük ziyalı potensialı, elmi potensial da yaranıbdır.

İqtisadiyyatımızı qısa bir müddətdə yenidən qura bilməyimiz üçün ölkəmizdə iri ali təhsil müəssisələri, elmi tədqiqat idarələri, layihə institutları, yüksək ixtisaslı elmi, texniki kadrlar, kifayət qədər işçi qüvvəsi var. Şübhəsiz ki, iqtisadiyyatımızı yenidən qurarkən biz xarici investorların imkanlarından da səmərəli istifadə etməli, birgə layihələr həyata keçirməliyik.

Bu baxımdan Adam Smit İnstitutunun təşkil etdiyi belə bir görüşün bizim üçün əhəmiyyəti böyükdür. Burada qeyd olunduğu kimi, bir il bundan öncə Azərbaycanda belə bir görüş keçirilibdir. Ancaq mən bu gün belə hesab edirəm ki, həmin görüş indiki böyük görüş üçün hazırlıq, başlanğıc idi. Ona görə hörmətli dostlar, xanımlar və cənablar, biz buraya böyük bir arzu ilə gəlmişik ki, bu gün Azərbaycan necə varsa, onu sizə elə də təqdim edək, siz və xarici investorlar, xarici şirkətlər [24-25] bizimlə fəal əməkdaşlıq etmək, bizimlə birgə işləmək üçün Azərbaycana qətiyyətlə üz tuta biləsiniz.

Təbiidir ki, mən indi hər şeydən öncə iqtisadiyyatdan, bu sahədə gördüyümüz tədbirlərdən, iqtisadi sahədə götürdüyümüz xətdən danışıram, ancaq bütün bunlar həm də Azərbaycanda mövcud olan dövlət quruluşu ilə və ictimai-siyasi mühitlə bağlıdır. Son illərdə, yəni dövlət müstəqilliyimizi əldə etdikdən sonra Azərbaycan özünün milli dövlət quruculuğunda kifayət qədər mürəkkəb yol keçibdir. Biz problemlərlə qarşılaşmışıq, daxili çətinliklərimiz olubdur. Ancaq biz bunları aradan qaldırmışıq və qaldırırıq.

Bütün dünyaya məlumdur və sız də yaxşı bilirsiniz ki, Azərbaycanda, həm də təkcə burada deyil, bütün Qafqazda vəziyyəti mürəkkəbləşdirən amil hərbi münaqişələrdir və bunlar təəssüf ki, Qafqazın müxtəlif regionlarında mövcuddur. Belə münaqişələrdən biri artıq yeddi ildir ki, Ermənistan ilə Azərbaycan arasında davam edir. Bu hərbi münaqişə Ermənistan Respublikasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsini təcavüz yolu ilə ilhaq etmək cəhdləri nəticəsində başlanmışdır.

Artıq yeddi il davam edən bu təcavüz nəticəsində Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal edibdir, həmin ərazilərdən Azərbaycanın bir milyondan çox vətəndaşı zorla qovulubdur və indi onlar respublikanın müxtəlif bölgələrində, əksəriyyəti çadır şəhərciklərində son dərəcə ağır, dözülməz şəraitdə yaşayırlar.

Şübhəsiz ki, bu təkcə respublikamızda deyil, həm də bütün regionda ictimai-siyasi vəziyyəti mürəkkəbləşdirir. Böyük itkilər verməyimizə, Azərbaycana vurulmuş iqtisadi zərərə baxmayaraq, biz sülhsevər mövqe tuturuq, bu məsələni sülh yolu ilə, ATƏT-in Minsk qrupu çərçivəsində, digər beynəlxalq təşkilatların imkanlarından istifadə etməklə həll etməyə alışırıq, bu istiqamətdə intensiv danışıqlar aparırıq. Bu problemi məhz sülh yolu ilə həll etmək istədiyimizi belə bir fakt da sübut edir ki, il yarım bundan öncə biz münaqişənin mövcud olduğu bütün dövr ərzində ilk dəfə olaraq atəşkəs haqqında Ermənistanla sazişə nail ola bilmişik və il

yarımdır ki, heç bir xarici vasitəçi olmadan atəşkəs rejimini qoruyub saxlayırıq. Yəni indi atəş yoxdur, hərbi əməliyyatlar aparılmır, ancaq tam sülh də yoxdur.

Biz isə tam sülhə nail olmağa çalışırıq. Əminəm ki, bizim [25-26] səylərimiz və şübhəsiz ki, beynəlxalq təşkilatların və dünyanın böyük ölkələrinin, dövlətlərinin dəstəyi Azərbaycanın tam ərazi bütövlüyünün, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi, işğalçı qoşunların Azərbaycan ərazisindən çıxarılması, qaçqınların öz yaşayış yerlərinə qaytarılması şərtilə bu məsələnin sülh yolu ilə həllinə nail olmaqda və bunun nəticəsində Ermənistanla dinc, mehriban qonşuluq münasibətləri yaratmaqda bizə kömək edəcəkdir.

Mən belə hesab edirəm ki, məsələnin həllinin qəti yolu, son mərhələsi məhz bu cür olmalıdır. Başqa yol yoxdur, bu məsələnin hərbi yolla həlli ola bilməz və şübhəsiz ki, biz heç vaxt razılaşa bilmərik ki, ölkəmizin ərazisinin hansısa bir hissəsi digər bir ölkənin tərkibinə keçsin.

Şübhəsiz ki, Azərbaycanın dünya iqtisadi birliyində öz yerini tuta bilməsi üçün hər bir investor ilk növbədə onunla maraqlanır ki, bu və ya digər ölkədə ictimai-siyasi vəziyyət necədir. Mən artıq qeyd etdim, bütün bu dörd il ərzində Azərbaycanda çox mürəkkəb daxili siyasi proseslər də gedibdir. Bunlar sizə məlumdur, vaxtınızı almaq istəmirəm. Ancaq onu demək istəyirəm ki, artıq son iki ildə biz ölkədə ictimai-siyasi vəziyyəti tam sabitləşdirməyə nail ola bilmişik. İndi bu sabitlik uzunmüddətli xarakter, cəsarətlə deyə bilərəm ki, daimi və əbədi xarakter daşıyır.

Bunu hər şeydən öncə sübut edən odur ki, Azərbaycanda daxili siyasi həyat bütünlüklə demokratik əsaslar üzərində qurulur, vətəndaşların hüquq və azadlıqlarının qorunması, siyasi plüralizm, şəxsiyyət azadlığı təmin edilir. Ölkəmizdə 30-dan çox siyasi partiya sərbəst fəaliyyət göstərir, külli miqdarda qəzet, informasiya agentlikləri, mətbuat, söz azadlığından istifadə edərək fəaliyyətlərini həyata keçirirlər. Nəhayət, bu il noyabrın 12-də Azərbaycanda, mən deyərdim ki, tarixi əhəmiyyətə malik hadisə baş veribdir. Ümumxalq səsverməsi – referendum nəticəsində müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul olunubdur. Azad, demokratik seçkilər əsasında müstəqil Azərbaycan Respublikasının ilk demokratik parlamenti seçilibdir.

Qəbul olunmuş konstitusiya nəinki daxili siyasi sabitliyi təmin edir, həm də götürdüyümüz strateji xəttin həyata keçirilməsi üçün bütün şəraitin və imkanların yaradılmasını nəzərdə tutur, buna hər cür təminat verir. Təkrar edirəm, demokratik hüquqi dövlət qurulması, demokratik vətəndaş cəmiyyəti yara[26-27]dılması, bazar iqtisadiyyatına uyğun dəyişikliklərin, iqtisadi islahatların həyata keçirilməsi, xarici investisiyalar, azad sahibkarlıq üçün şərait yaradılması və onun mənafelərinin qorunması, xüsusi mülkiyyətin inkişafının təmin olunması, habelə şəxsiyyətin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi – bütün bunlar konstitusiyamızın müvafiq maddələrində kifayət qədər dolğun və konkret təcəssümünü tapıbdır.

Bununla yanaşı konstitusiya sahibkarlıq üçün, xarici investisiyalar üçün, xüsusi mülkiyyətin inkişafı üçün tam təminat verir, xüsusi sahibkarlığın mənafelərinin qorunmasını təmin edir.

Buna uyğun olaraq biz iqtisadi islahatların həyata keçirilməsinə dair tədbirlər görürük, mülkiyyətin özəlləşdirilməsi haqqında qanun və proqram qəbul olunub və həyata keçirilir. Əslində bu, ticarət sahəsində, xidmət sahəsində artıq həyata keçirilibdir və hesab edirəm ki, qarşıdakı illərdə Azərbaycanda mülkiyyət tamamilə özəlləşdiriləcəkdir. İndi aqrar bölmədə islahatlar uğurla aparılır və ümidvaram ki, bu, konkret praktiki nəticələr verəcəkdir. Bütün bunların hamısı bizim bazar iqtisadiyyatına uyğun dəyişikliklər yolu ilə, dünya iqtisadiyyatına qovuşmaq yolu ilə getmək istəyimizi konkret şəkildə nümayiş etdirir.

Bu sahədə bizim kifayət qədər böyük nailiyyətlərimiz də var. Bilirsiniz ki, çox mürəkkəb danışıqlar nəticəsində bir il bundan öncə, keçən ilin sentyabrında respublikamızda Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsinə dair dünyanın ən iri neft şirkətləri ilə müqavilə imzalanıbdır. Onu "Əsrin müqaviləsi" adlandırırlar. Bu da tamamilə doğrudur, çünki həmin müqavilə Azərbaycan neft şirkəti ilə dünyanın tanınmış 11 şirkətinin – "Britiş Petroleum", "Statoyl", Amerikanın "AMOKO", "Pennzoyl", "Yunokal", "Mak Dermott", "Eksson" şirkətlərinin, Səudiyyə Ərəbistanının "Delta" şirkətinin, Türkiyənin "Türk petrolları" şirkətinin, Rusiyanın "LUKoyl" şirkətinin daxil olduğu konsorsium arasında imzalanıbdır. Bu şirkətlərin hamısı bir konsorsiumda birləşiblər. 30 il müddətinə imzalanmış bu müqavilənin böyük iqtisadi imkanları var.

Həmin müqavilənin imzalanmasına nail olmaq asan olmayıbdır. İstər daxili, istərsə də xarici xarakterli çoxlu əngəllər var idi. Biz bütün bunları aradan qaldırdıq, müqavilə imzalan[27-28]dı. Onu imzalayanda bəziləri bu müqavilənin imkanlarına şübhə ilə yanaşırdılar, hesab edirdilər ki, o kağız üzərində qalacaqdır. Lakın bu gün mən dərin məmnuniyyət hissi ilə sizə bildirmək istəyirəm ki, müqavilə yaşayır və fəaliyyət göstərir. Keçən bir il ərzində çox iş görülübdür. Ötən dövrün mühüm qərarı isə budur ki, oktyabrın 9-da konsorsium həmin müqavilə üzrə çıxarılacaq ilkin neftin ixracı üçün iki marşrutla neft kəmərlərinin çəkilməsi haqqında qərar qəbul edibdir. Bu kəmərlərdən biri Rusiya ərazisi ilə Qara dənizə, digəri Gürcüstan ərazisi ilə yenə Qara dənizə çıxacaqdır.

İlkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsi haqqında qərar mühüm addım, bir il bundan öncə imzalanmış böyük neft müqaviləsinin praktiki surətdə həyata keçirilməsi deməkdir. Bundan əlavə, gələn il üçün də konkret tədbirlər nəzərdə tutulubdur. Təkcə onu demək kifayətdir ki, müqavilənin proqramının həyata keçirilməsinə konsorsiumun 1995-1996-cı illər üçün kapital qoyuluşu təqribən 700 milyon dollara çatır. Ancaq biz bununla kifayətlənmirik. Bu il noyabrın 10-da biz "Qarabağ" adlanan iri neft yatağının kəşfiyyatı və

işlənməsinə dair daha bir mühüm müqavilə imzalamışıq. Həmin müqavilədə də konsorsium – Amerikanın "Pennzoyl", İtaliyanın "ACİP", Rusiyanın "LUKoyl" şirkətlərindən və Azərbaycan Neft Şirkətindən ibarət olan konsorsium iştirak edir. Burada da böyük proqram və müqavilə nəzərdə tutulur və onun praktiki nəticələr verəcəyi gözlənilir.

Bu müqavilələrin imzalanması və bunlarla bağlı tədbirlərin həyata keçirilməsi çox inandırıcı şəkildə göstərir ki, Azərbaycan xarici investorlar üçün, investisiyalar üçün açıqdır. Azərbaycan qarşılıqlı surətdə faydalı əməkdaşlıq, fəal əməkdaşlıq üçün açıqdır. Ancaq bunlar iri tədbirlərdir. Bununla bərabər, biz respublikamızda həm kiçik, həm də orta bizneslə əməkdaşlığı təmin etməkdən ötrü bütün imkanlardan istifadə edirik.

İndi Azərbaycanda mindən çox xarici firma, xarici şirkət, yaxud xarici tərəfdaşlarla yaradılmış birgə müəssisə var və onlar müxtəlif sahələrdə, o cümlədən ticarət sahəsində, bütün başqa sahələrdə fəaliyyət göstərirlər. Azərbaycanda infrastruktur yaradılmasına da kapital qoyulur. Yeri gəlmişkən deyim ki, bu da xarici investorlar üçün çox maraq doğuran sahədir. Ona görə ki, həm neft müqavilələri, həm də yaxın vaxtlarda həyata keçirəcəyimiz digər layihələr, şübhəsiz ki, Azərbaycanda çox [28-29] güclü, dünya standartlarına uyğun gələn infrastruktur yaradılmasını tələb edir.

Ona görə Azərbaycanda xidmət sahəsinə, infrastruktur yaradılması sahəsinə investisiyalar qoyulması da çox faydalıdır və güman edirəm ki, xarici investorlar buna diqqət yetirəcəklər. Biz iqtisadiyyatımızı dünya iqtisadiyyatına qovuşdurmaq üçün başqa formalardan da istifadə edirik. BMT-nin Sənaye İnkişafı Təşkilatı ilə birlikdə hazırda Sumqayıt şəhərində azad iqtisadi zona yaradılması üçün fəal iş görürük. Sumqayıt Azərbaycanın iri sənaye mərkəzidir, burada kimya, neft kimyası məhsulları, qazma boruları, alüminium istehsal edən müəssisələr, yüngül sənaye müəssisələri yerləşir. Burada azad iqtisadi zona yaradılması xarici investorlarda böyük maraq oyadıbdır. Biz hesab edirik ki, bu iş çox perspektivlidir.

Biz iri müəssisələrimizdən bəzilərinin idarə olunmasını xarici şirkətlərə vermək qərarına gəlmişik və bu qərarı həyata keçirmək niyyətindəyik, hesab edirəm ki, bu, indi burada iştirak edənləri maraqlandıracaqdır. Bəzi başqa ölkələrdə keçmişdə Sovetlər İttifaqının tərkibində olan müstəqil dövlətlərdə artıq belə bir təcrübə var. Biz müvafiq tədbirlər hazırlamışıq və bunlar da həyata keçiriləcəkdir. Yəni biz müxtəlif istiqamətlərdə iş görürük və hesab edirik ki, bunun müqabilində müvafiq cavab addımları olacaqdır. Biz başa düşürük ki, yalnız öz imkanlarımız hesabına və sadəcə olaraq, xarici investorları cəlb etməklə bazar iqtisadiyyatına uyğun dəyişiklikləri, özəlləşdirməni həyata keçirmək, iqtisadiyyatda struktur dəyişikliklərinə nail olmaq mümkün deyildir. Ona görə də biz dünya maliyyə mərkəzləri ilə fəal əməkdaşlıq edirik.

Məhz buna görə də son vaxtlar dünyanın maliyyə mərkəzləri Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin real surətdə həyata keçirildiyinə, bizim özəlləşdirmə, iqtisadi islahatlar aparmağa səy göstərdiyimizə əmin olublar. Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Şurası bizə maraq göstərirlər. Bu əməkdaşlıq nəticəsində Ümumdünya Bankı da, Beynəlxalq Valyuta Fondu da, Avropa Yenidənqurma və İnkişaf Bankı da həm iqtisadiyyatımızda struktur dəyişiklikləri etmək üçün reabilitasiya kreditləri, həm də respublikamızda su və enerji təchizatı sahələrində nəzərdə tutduğumuz tədbirlərin [29-30] həyata keçirilməsi üçün kreditlər ayırıblar. Ümumən bu il və gələn il üçün bizə ayrılmış kreditlərin həcmi təqribən 400 milyon dollardır.

Ancaq mən hesab edirəm ki, bu, yalnız başlanğıcdır, bizim ilk addımlarımızdır, Azərbaycanda iqtisadi islahatların dəstəklənməsi yolunda dünya maliyyə mərkəzlərinin atdığı ilk addımlardır və ümidvaram ki, bu, gələcəkdə davam edəcəkdir. Biz iqtisadiyyatımızı bazar prinsipləri əsasında yenidən qurmaq üçün hər şeyi edirik. Bu, valyuta-kredit sisteminə, bank sistemimizin yenidən qurulmasına da aiddir. Biz bu istiqamətdə bir sıra tədbirlər görmüşük və kifayət qədər yaxşı nəticələrə nail olmuşuq. Mənim fərmanlarıma uyğun olaraq qiymətlərin sərbəstləşdirilməsinə, xarici ticarətin sərbəstləşdirilməsinə dair tədbirlər həyata keçirilmiş və ölkəmizə xarici kapitalın cəlb olunması üçün, Azərbaycan ilə xarici firmalar arasında sərbəst mal mübadiləsinin həyata keçirilməsi üçün bir sıra başqa tədbirlər də görülmüşdür.

Biz bu əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli iqtisadi imkanlar yaradırıq və bundan sonra da yaradacağıq. Qeyd etdiyim kimi, bu konstitusiyada da təsbit olunmuşdur. Biz öz əməli tədbirlərimizlə xüsusi sahibkarlığı və təbii ki, müvafiq xarici tərəfdaşlarımızla birgə xüsusi sahibkarlığı da təşviq edir və bundan ötrü əlverişli imkanlar yaradırıq. Maliyyə, valyuta-kredit sistemimizdə, vergi sistemimizdə həyata keçirdiyimiz tədbirlər də buna kömək edir və bütün bunlar qəbul etdiyimiz konstitusiyada öz əksini tapdığına görə daha çox kömək edəcəkdir.

Gördüyümüz bu tədbirlər nəticəsində ölkəmizdə maliyyə vəziyyəti də sabitləşibdir. Artıq bir ildir ki, bizim milli valyutamızın – manatın mübadilə məzənnəsi sabit qalır. İnflyasiyanın səviyyəsini də xeyli aşağı salmışıq. Əgər 1995-ci ilin əvvəlində inflyasiya 60 faizə çatırdısa, indi, axırıncı yarım ildə 2 faizdən yuxarı qalxmır. Həm də bu göstərici sabitdir. Yəni demək istəyirəm ki, inflyasiyanın səviyyəsinin belə aşağı olması və milli valyutamızın, onun mübadilə məzənnəsinin dəyişməməsi, mənim fikrimcə, kifayət qədər sübut edir ki, xarici investorları cəlb edən layiqli tərəfdaş olmaq üçün biz bundan sonra da maliyyə sahəsində, bank sistemi, valyuta sistemi sahəsində tədbirlər görməyə qadirik.

Hesab edirəm, bütün bunlar hamısı birlikdə sizdə kifayət qədər təsəvvür yaradır ki, bugünkü Azərbaycan

böyük poten[30-31]sial imkanlara malik olan, inkişaf edən ölkədir. Azərbaycan ictimai-siyasi həyatda, həm dövlət quruculuğunda, həm də iqtisadiyyatda demokratikləşmə yolu ilə inamla irəliləyir. Azərbaycan özəlləşdirmə, xüsusi sahibkarlığın inkişafı və xüsusilə biznes üçün daha geniş şərait yaradılması yolu ilə inamla gedir. Azərbaycan iqtisadiyyatın bütün kompleksinin yeni sima alması və dünya standartlarına uyğun olması üçün müxtəlif iqtisadi islahatlar, o cümlədən aqrar bölmədə islahatlar keçirməsi yolu ilə inamla irəliləyir.

Aydındır ki, hər hansı xarici investor üçün ən mühüm cəhət bu və ya digər ölkədə ictimai-siyasi şəraitin necə olmasıdır. Azərbaycanda ictimai-siyasi sabitlik təmin olunmuşdur, möhkəm təmin olunmuşdur, müvafiq təminatlar yaradılmışdır, qanunlar hökm sürür və respublika həyatının bütün sahələrinə nəzarət etməyə və məhz götürdüyümüz, gələcəkdə də inkişaf edəcək həmin iqtisadi xətti təmin etməyə qadir olan dövlət var.

Ona görə də mən sizin hamınızı bizimlə fəal əməkdaşlıq etmək üçün Azərbaycana dəvət edirəm. Ölkəmizə gələn hər bir investor özünün təkliflərinə müvafiq olan dəstək və yardım ala bilər, ən başlıcası isə – mehriban münasibətlə qarşılanacaqdır. Çünki biz belə əməkdaşlığı istəyirik, arzu edirik ona maraq göstəririk. Biz Azərbaycana xarici kapital axınını istəyirik, öz iqtisadiyyatımızı dünya iqtisadiyyatına qovuşdurmaq istəyirik. Ona görə də mən sizi dəvət edirəm.

Mən Adam Smit İnstitutunun dəvətini böyük məmnuniyyətlə qəbul etdim və xüsusi olaraq buraya gəldim ki, sizinlə şəxsən görüşüm və sizə, bu konfransın iştirakçılarına respublikamız haqqında, onun bugünkü vəziyyəti, ölkəmizdəki ictimai-siyasi mühit haqqında, bizim imkanlarımız və əməkdaşlıq etmək istəyimiz barədə danışım. Ona görə də mən sizi əməkdaşlığa dəvət edirəm. Hesab edirəm ki, Adam Smit İnstitutu bundan sonra da Azərbaycana diqqət göstərəcək və bizə, necə deyərlər, ayağa qalxmaqda, seçdiyimiz demokratik yolda iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə birlikdə addımlamaqda kömək edəcəkdir. Bir neçə gündən sonra Parisdə Ümumdünya Bankının təşəbbüsü ilə təxminən elə bu mövzuya həsr olunmuş görüş keçiriləcəkdir. Lakin həmin görüş daha çox iqtisadiyyatın xüsusi bölməsi ilə bağlı olacaqdır. Təbiidir ki, indi bizdə hər şey özəlləşdirməyə doğru gedir, ona doğru gedir ki, Azərbaycanda xü[31-32]susi bölmə üstün yer tutsun. Biz Ümumdünya Bankının dəvətini qəbul etmişik və həmin görüşdə də iştirak edəcəyik.

Mən ev sahiblərinə, – təkcə Adam Smit İnstitutuna deyil, Böyük Britaniya hökumətindən bu konfransın hazırlanmasında iştirak edən və bu gün bizimlə burada olan şəxslərə təşəkkür etmək istəyirəm. Konfransımızın müvəffəqiyyətlə işləməsi üçün gözəl şərait yaratdıqlarına, bizə göstərdikləri və dünən buraya gəldiyimiz andan hiss etdiyimiz mehribanlığa, qonaqpərvərliyə görə londonlulara təşəkkürümü bildirmək istəyirəm. Konfransın bütün iştirakçılarına bir daha müraciət edərək onları Azərbaycanla əməkdaşlığa çağırıram.

Sizə bir daha təşəkkür etmək istəyirəm ki, Adam Smit İnstitutunun dəvətini qəbul edərək bu konfransa gəlmisiniz. Hamınıza gələcək fəaliyyətinizdə uğurlar, firavanlıq, konkret əməli nəticələr, xüsusən Azərbaycan Respublikası ilə əməkdaşlıqda konkret əməli nəticələr diləmək istəyirəm. [32-33]

## "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINA HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSI

*London*

*29 noyabr 1995-ci il*

**Sual: Mən Londonda çıxan "Yurpien" qəzetinin müxbiriyəm. Sualım sizə xeyli mürəkkəb görünəcəkdir. Avropada Əməkdaşlıq və Kooperasiya Təşkilatı Azərbaycanda seçkilərə dair özünün son hesabatını dərc etmiş və bu seçkiləri ədalətsiz elan etmişdir. Mən bilirəm ki, bu hesabat Xarici İşlər Nazirliyinə verilmişdir. Hesabatda deyilir ki, Azərbaycanla işgüzar əlaqələri inkişaf etdirmək qorxulu ola bilər, çünki seçkilərlə bağlı problemlər ortaya çıxır. Seçkilərin yalan elan edildiyini nəzərə alaraq, bu məsələ barədə sizin fikrinizi bilmək istərdim.**

**Cavab**: Sizin sualınız təəccüb doğurur, çünki adını çəkdiyiniz bəyanat barədə bizə heç nə məlum deyildir. Azərbaycanda seçkilər baş tutub, parlament seçilib, öz fəaliyyətinə başlayıbdır. Noyabrın 24-də onun ilk iclası olubdur. Seçkilər zamanı bir çox ölkələrdən, o cümlədən beynəlxalq təşkilatlardan müşahidəçilər ayrı-ayrı qüsurların, qanun pozuntularının olmasını qeyd edibdir, ayrı-ayrı şikayətlər də olubdur. Lakin sizin dediyiniz kimi bəyanat olmayıbdır. Biz bu barədə heç nə bilmirik.

Bizdə Avropa Parlamentinin, Fransanın parlament nümayəndə heyətinin bəyanatları var, ATƏT və Birləşmiş Millətlər Təşkilatı nümayəndələrinin də bəyanatı var. Bunların hamısında seçkilər zamanı olan qüsurlar qeyd edilibdir. Bir də ki, bu müstəqil Azərbaycan Respublikasında çoxpartiyalılıq əsasında, demokratik prinsiplər üzrə keçirilən ilk seçkilər idi. Şübhəsiz ki, qanun pozuntuları da, nöqsanlar da olubdur. Ancaq bütün bəyanatlarda qeyd olunan bir müddəa bizim üçün çox mühümdür, yəni müşahidəçilər bu seçkiləri demokratiyaya [33-34] doğru, demokratiya yolunda atılmış addım hesab edirlər. Biz bunu normal hesab edirik. Sizə deyə biləcəyim yalnız bunlardır.

**Sual**: **Mən başqa bir məsələyə – Azərbaycanın gələcək tərəqqisi məsələsinə toxunmaq istərdim. Necə bilirsiniz, əsas boru kəmərinin marşrutu barədə qərar nə vaxt qəbul olunacaq. Siz hansı marşruta üstünlük verirsiniz və bu barədə qərar tez qəbul ediləcək ki, sizi özünüzün neft ehtiyatlarınızdan mənfəət götürəsiniz? Çox sağ olun.**

**Cavab**: Boru kəmərinin, yəni neftin ixracının marşrutları haqqında qərar oktyabrın 9-da Bakıda konsorsiumun rəhbər əməliyyat komitəsinin iclasında qəbul olunubdur. İlkin neftin ixracı üçün neft kəmərinin iki marşrutu seçilmişdir. Marşrutlardan biri Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına, digər marşrut isə Gürcüstan ərazisi ilə yenə Qara dənizə çıxır. Bu marşrutların hər ikisi bizim üçün eyni dərəcədə əhəmiyyətlidir və əslində də bu barədə qərar qəbul olunubdur. Hesab edirəm ki, artıq bu qərar geniş məlumdur və mən bugünkü çıxışımda da bu barədə danışdım. Neft müqaviləsinin proqramına uyğun olaraq Azərbaycanda ilkin neft 1996-cı ilin sonunda çıxarılacaq, 1997-ci, 1998-ci illərdə onun həcmi artacaqdır. Həmin iki neft kəməri o vaxtadək hazır olacaq və şübhəsiz ki, çıxarılan neft ixrac ediləcək və buna müvafiq olaraq biz mənfəət götürəcəyik.

Budur, baş nazir mənə deyir ki, konsorsiumun əməliyyat komitəsinin rəhbəri cənab Terri Adams sabah bu konfransda bu məsələ barədə çıxış edəcəkdir.

**Sual**: **"Plats" şirkəti İranla sizin münasibətlərinizin vəziyyətini öyrənmək istərdi. Sizcə, İran "Şahdəniz" layihəsində iştirak etməyi qərara alacaqmı?**

**Cavab**: Azərbaycanın İranla mehriban qonşuluq , dostluq münasibətləri var, normal münasibətləri var. Azərbaycan ilə İran arasında uzun sərhəd var, bizim tarixi əlaqələrimiz var. Azərbaycanın keçmişi bir çox cəhətdən İranla bağlı olubdur. Bütün bunlar bizim bugünkü münasibətlərimizin əsasını təşkil edir. Şübhəsiz ki, bu münasibətlər iki müstəqil dövlət – İran ilə Azərbaycan Respublikası arasında olan münasibətlərdir. Biz iqtisadi əməkdaşlığı, ancaq qarşılıqlı surətdə faydalı, həm İranın, həm də Azərbaycanın mənafelərinə cavab verən əməkdaşlığı inkişaf etdirmək üçün tədbirlər görürük. O ki [34-35] qaldı "Şahdəniz" yatağının neft və qaz ehtiyatlarından istifadə etmək üçün yaradılacaq konsorsiumda İranın iştirakı məsələsinə, bu, İranın özündən asılıdır. İrana belə bir təklif edilibdir.

**Sual: "Azadlıq radiosu" – Axundova. Hörmətli cənab prezident, Azərbaycanın iqtisadi inkişafı, geniş miqyasda özəlləşdirmə ərəfəsində siz Qərbə – Böyük Britaniya və Fransaya səfər edirsiniz. Bu o deməkdirmi ki, siz Azərbaycanda əsaslı bazar islahatları keçirilməsində məhz Qərbə üstün əhəmiyyət verirsiniz və bu konfransda iştirak etməkdən əlavə, Böyük Britaniya və Fransaya səfərinizdə sizdən ötrü konkret olaraq üstün cəhət nədir? Sağ olun.**

**Cavab**: Bəli, mənim indiki səfərim əvvəlki bütün səfərlərimdən fərqlənir. Bu səfərlər məhz iqtisadi problemlərə həsr olunubdur və indiki halda Adam Smit İnstitutunun dəvəti ilə bağlıdır. Mən buna çox böyük əhəmiyyət verirəm. Mən konfrans iştirakçılarının siyahısı ilə, yəni onun işində iştirak etmək üçün buraya kimlərin gəlməsi ilə tanış oldum, görürəm ki, bu, çox mötəbər konfransdır. Burada dünyanın bir çox ölkəsinin nümayəndələri var, özü də təkcə Avropa və Asiya ölkələrindən yox. Doğrudur, mən bu konfransın belə nüfuzlu xarakter daşıyacağını hiss edirdim, ancaq açığını deyim ki, onun bu qədər mötəbər və maraqlı olacağını təsəvvür etmirdim.

Ona görə də indiki halda mənim Londona səfərim məhz bununla bağlıdır. Sonra Parisə səfərim də iqtisadiyyat problemləri ilə bağlı olacaqdır, çünki Ümumdünya Bankı Parisdə işgüzar adamların, biznes adamlarının Azərbaycanda xüsusi biznesin inkişafı problemlərinə həsr edilmiş görüşünü keçirir. Biz bu məsələləri həqiqətən də indi özümüz üçün üstün məsələlər hesab edirik. Çünki biz dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramının geniş miqyasda həyata keçirilməsinə başlamaq üçün uzun müddətdir ki, işləyirik. Şübhəsiz ki, bundan ötrü də bizə, xarici şirkətlərlə, investorlarla, ölkəmizdə özəlləşdirmə prosesində iştirak etmək istəyənlərlə bilavasitə əlaqələr yaratmağımız gərəkdir. Onu da qeyd edim ki, qəbul olunmuş və mətbuatda çoxdan dərc edilmiş özəlləşdirmə haqqında qanun Azərbaycanda mülkiyyət əldə etməkdə xarici şirkətlərin iştirakının mümkünlüyünü, özü də kifayət qədər güzəştli şərtlərlə mümkünlüyünü nəzərdə tutur.

Deməli, bununla əlaqədar indiki konfrans da, Ümum[35-36]dünya Bankı çərçivəsində Parisdə keçiriləcək görüş də bizim üçün üstün əhəmiyyət kəsb edir. Ancaq bunu Qərbə meyl adlandırmaq dəqiq olmazdı. Biz dünyanın bütün ölkələri ilə qarşılıqlı fayda əsasında əməkdaşlıq etmək istəyirik. Məsələn, konfrans iştirakçılarının siyahısında mən Yaponiyadan, Hindistandan olan şirkətləri də gördüm. Ona görə də, əgər nümayəndələri bu konfransa gələn Yaponiya şirkətləri Azərbaycanda da hansısa layihələrin həyata keçirilməsində iştirak etsələr, biz buna şad olarıq.

Mən bugünkü çıxışımda hamıya müraciət etdim. Bir halda ki, indi burada mətbuat, kütləvi informasiya orqanlarının nümayəndələri iştirak edirlər, sizə də müraciət edirəm. Öz imkanlarınızdan istifadə edin, xəbər verin ki, biz hamını dəvət edirik və iqtisadi islahatlar proqramımızı həyata keçirmək, bazar iqtisadiyyatına uyğun dəyişikliklər, özəlləşdirmə aparmaq üçün hamı ilə əməkdaşlıq etməyə hazırıq.

**Sual: Bi-Bi-Si şirkətinin jurnalisti. Prezident Rusiyadan olan təhlükəni necə qiymətləndirir? Mən onu nəzərdə tuturam ki, Rusiya birdən təkid edər ki, Xəzər dənizinin bütün təbii ehtiyatları Xəzəryanı ölkələrin hamısının arasında bölüşdürülsün. Sizcə Rusiyada seçkilərdən sonra bu problemə münasibət daha mühafizəkar, daha millətçi xarakter ala bilərmi?**

**Cavab**: Əvvəlcə Xəzər dənizi barəsindəki sualınıza cavab verim. Biz özümüz də Xəzər dənizinin bölüşdürülməsinin, sektorlara bölünməsinin tərəfdarıyıq. Əslində o, Xəzəryanı dövlətlərin sektorlarına bölünmüşdür. Bu bölgü çoxdan, hələ Sovetlər İttifaqı mövcud olan zaman aparılmışdır. Biz indi Xəzər dənizinin özümüzə, Azərbaycana aid olan sektorundan istifadə edirik.

O ki, qaldı hansısa təhlükənin, yaxud daha nəyin isə ola biləcəyinə... Bilirsiniz, belə götürdükdə Xəzər dənizi bir dövlətə deyil, Xəzəryanı dövlətlərin hamısına məxsusdur və hər bir dövlətin, o cümlədən də Azərbaycanın ona eyni dərəcədə, bərabər hüququ var. Mənəvi hüquq baxımından yanaşdıqda isə, Azərbaycan artıq çoxdandır ki, Xəzər dənizindən neft çıxarır, digərləri bu işə təzəcə hazırlaşırlar. Əgər sənaye miqyasında neft hasilatından danışsaq, demək lazımdır ki, biz 45 il bundan öncə Azərbaycanda dənizdən neft çıxarılmasına başlamışıq. Bu. bütün dünyaya məlum olan məşhur "Neft Daşları"dır. [36-37]

Ona görə də əslində bu məsələdə bizim narahatçılığımız yoxdur. Xəzər dənizi haqqında danışmaq, bu problemi müzakirə etmək olar. Ancaq bununla yanaşı, hər kəs öz işini görməlidir və biz də öz işimizi görürük.

Sizin sualınızın ikinci hissəsi Rusiyadakı vəziyyətə aiddir, yəni seçkilərdən sonra nə olacaq? Bilirsiniz ki, mən ümumiyyətlə, proqnozlarla məşğul olmuram, münəccim deyiləm, seçkilərdən sonra Rusiyada nə olacağını bilmirəm. Lakin nə olur-olsun, bir siyasətçi kimi mən hesab edirəm ki, Rusiya həm demokratik dəyişikliklər yolu ilə, həm də bazar iqtisadiyyatını inkişaf etdirmək yolu ilə gedəcəkdir. Bu isə bizdən ötrü çox mühümdür.

**Sual: "Faynenşl tayms". İki ay bundan əvvəl azərbaycanlıların bir çoxu deyirdi ki, Çeçenistandakı hadisələrlə əlaqədar onların Rusiyaya gedib-gəlmələri çox çətinləşmişdir. Mən istərdim biləm, indi vəziyyət necədir, azərbaycanlıların Rusiyaya gediş-gəlişi asanlaşıbmı?**

**Cavab**: Yox, deyə bilərəm ki, asanlaşmayıb. Bilirsiniz ki, Çeçenistanda hərbi əməliyyatlar, döyüş əməliyyatları başlayandan bəri Azərbaycan ilə Rusiya arasındakı sərhəd – bu, bizim şimal sərhədimizdir – əslində bağlanmışdır. Azərbaycan sakinlərinin sərhəddən Rusiyaya keçmələri son dərəcə çətinləşmişdi. Təəssüf ki, bu rejim indi də qalmaqdadır. Bu, təkcə adamların gediş-gəlişinə deyil, həm də yüklərin daşınmasına mane olur və bu, bizdən ötrü böyük çətinliklər yaradır. Sərhəddəki rejimi müəyyən qədər asanlaşdırmaq üçün biz Rusiya Federasiyasının hökuməti ilə danışıqlar aparmışıq və aparırıq. Lakin vəziyyət hələ əvvəlki kimi qalmaqdadır.

**Sual: Bağışlayın, mən verdiyim suala qayıtmaq istərdim. Mən Azərbaycandan neft ixrac edəcək iki boru kəməri haqqında soruşurdum. Azərbaycandan sonradan neftin ixrac ediləcəyi kəməri, əsas boru**

**kəmərini nəzərdə tuturam. Haqqında danışdığınız iki boru kəmərinin yox, əsas neft kəmərinin marşrutu barədə hansısa bir ideyanız varmı?**

**Cavab**: Neft müqaviləsinin proqramına və əslində elə müqavilənin özünə uyğun olaraq həmin boru kəməri, yəni sizin dediyiniz böyük, əsas kəmər müqavilə imzalandıqdan sonra 54 ay ərzində çəkilməlidir. İlkin neftin ixracı üçün nəzərdə tutulan kəmər isə müqavilə imzalandıqdan sonra 18 ay ərzin[37-38]də hazır olmalıdır. Deməli, əslində biz məsələni mərhələ-mərhələ həll edirik. Biz ilkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi haqqında qərar qəbul etmişik, lakin şübhəsiz ki, müəyyən olunmuş müddətdə, 54 ay ərzində əsas kəmərin çəkilməsi məsələsi üzərində də işləyirik. Boru kəmərini neftin əsas hissəsi çıxarılana qədər çəkməyin mənası yoxdur, bu iş ahəngdar getməlidir. Hesab edirəm ki, böyük neft kəməri o vaxtadək hazır olacaqdır.

Marşruta gəldikdə isə, variantlar çoxdur, onlar nəzərdən keçirilir. İqtisadi baxımdan, habelə başqa mülahizələrə görə hansı marşrut konsorsiumun bütün iştirakçıları üçün münasib olarsa, həmin marşrut da qəbul ediləcəkdir.

**Sual: Biz bu gün konfransın keçirildiyi salonda deyil, kənarda gedən söhbətlərdən eşitdik ki, neft şirkətinin prezidenti cənab Əliyev Azərbaycan prezidentinin oğludur. Siz bu şayiələri təsdiq edə bilərsinizmi, əgər təsdiq edərsinizsə, onda Qərbdə deyildiyi kimi, bu naqolay vəziyyətdir. Bu barədə sizin şərhiniz varmı?**

**Cavab**: Neft şirkətinin prezidenti Əliyevlə mənim familiyam eynidir, – yeri gəlmişkən deyim ki, Azərbaycanda Əliyev familiyası çox geniş yayılmışdır, – onun mənə heç bir qohumluğu yoxdur. Ancaq oğlum neft şirkətinin xarici iqtisadi məsələlər üzrə vitse-prezidentidir. Hesab edirəm ki, burada qanuna, yaxud etikaya zidd heç nə yoxdur.

**Sual: Oktyabrın 9-da bildirilmişdir ki, neft kəmərinin marşrutu məsələsi barədə noyabrın 1-dək Rusiya ilə saziş əldə olunacaqdır. Siz nə baş verdiyini aydınlaşdıra bilərsinizmi, saziş nə üçün noyabrın 1-dək imzalanmadı və nə vaxt imzalanacaq?**

**Cavab**: Həqiqətən də nəzərdə tutulurdu ki, daha doğrusu, konsorsium istəyirdi ki, Rusiyanın ərazisindən keçəcək neft kəməri haqqında noyabrın 1-dək Rusiya ilə saziş imzalansın. Bu, oktyabrın 9-da qərar alınmışdı. Bununla əlaqədar əməliyyat komitəsinin rəhbəri cənab Terri Adams və Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndələri Rusiyanın rəhbərləri ilə, o cümlədən baş nazir cənab Çernomırdinlə, yanacaq-energetika sənayesi naziri cənab Şafranniklə və digər şəxslərlə görüşərək sazişin layihəsini müzakirə etmişlər.

Ancaq bilirsiniz ki, müvafiq qaydalarla, tərəflərin hər biri ekspertiza keçirməli, hüquqşünaslar, mütəxəssislər məsələni [38-39] araşdırmalıdırlar, bu da vaxt apardı. Moskvada ikinci görüş keçirilibdir. Mənə məlum olduğuna görə, razılıq əldə edilibdir, yəni saziş tezliklə imzalanacaqdır.

Sağ olun. Yenə sualı olan varmı?

**Sual: Hörmətli cənab prezident, sizə belə bir sual vermək istərdim. Birləşmiş Ştatların və digər Qərb dövlətlərinin hökumətləri əsas boru kəmərinin marşrutunun seçilməsinə necə təsir göstərmişlər və sizcə, bu marşrutun seçilməsində Qərbin mövqeyi, Birləşmiş Ştatların və Qərbin təsiri nədən ibarət idi?**

**Cavab**: Bilirsiniz ki, konsorsiuma 11 neft şirkəti daxildir və onlardan 5-i Amerika Birləşmiş Ştatlarının neft şirkətləridir. Ancaq konsorsiuma "Britiş petroleum", "Statoyl" şirkətləri, Rusiya Federasiyasının "LUKoyl" şirkəti, Səudiyyə Ərəbistanının "Delta" şirkəti, Türkiyənin "Türk petrolları" şirkəti də daxildir. Ona görə də, şübhəsiz, belə vəziyyətdə, yəni konsorsiumdakı 11 şirkət 7 ölkəni, 7 dövləti təmsil edirsə, deməli hər bir dövlət və ona məxsus olan şirkət öz mövqeyini bildirir və qərarların qəbul olunmasına müəyyən təsir göstərir. Son nəticədə isə konsorsium bu qərarı yekdilliklə qəbul edibdir.

Sağ olun. Yenə sual varmı?

**Sual: Cənab prezident, siz dediniz ki, konfrans iştirakçılarının siyahısından çox razısınız. Mən demək istəyirəm ki, bizim institut yalnız iştirakçıları cəlb edə, konfransı təşkil edə bilmişdir. Lakin məsələ, cənab prezident, məhz sizin iştirak etməyinizdə, sizin ölkənizin rolundadır, bu qədər iştirakçını cəlb edən də budur. Suallara cavab verdiyinizə görə sizə təşəkkür etmək istəyirik. Bəlkə konfrans barədə sizin hansısa qeydləriniz var.**

**Cavab**: Mənim heç bir qeydim yoxdur. Bu konfransı belə yaxşı səviyyədə təşkil etdiyinizə görə sizə təşəkkür etmək i bu, Azərbaycana olan diqqətdir, ancaq bütün bu işi iqtisadiyyat, biznes aləmində yaxşı adı və böyük nüfuzu olan Adam edibdir. Ona görə də mən konfransın belə yaxşı təşkili üçün son dərəcə minnətdaram. Ümidvaram ki, konfrans sabah da ö davam etdirəcəkdir. Mətbuat konfransının iştirakçılarına, buraya gəlmiş mətbuat orqanlarının, informasiya orqanlarının nü fəaliyyətlərində uğurlar diləmək istəyirəm. Bu bəyanatımı nəzərə alın ki, mən informasiya orqanlarına, mətbuata və özlə həsr edən şəxslərə böyük hörmət və ehtiram bəsləyirəm. Diqqətinizə görə təşəkkür edirəm. [40-41]

## AZƏRBAYCAN RESPUBLİKASI SƏFİRLİYİNİN YENİ BİNASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*London*

*29 noyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün bizim həyatımızda doğrudan da yeni bir əlamətdar hadisə baş verir. Böyük Britaniya kimi nüfuzlu və dünya miqyasında özünəməxsus görkəmli yer tutan bir ölkədə müstəqil Azərbaycan Respublikasının səfirliyi fəaliyyət göstərir. Bu səfirlik artıq yeni binada yerləşir və bu bina da Azərbaycanındır, ölkəmizə məxsusdur. Azərbaycanın mülkiyyətidir.

Azərbaycan cəmi dörd ildir müstəqil dövlətdir. Bu dörd ildə müstəqilliyimizi möhkəmləndirmək üçün, dünyanın bütün ölkələri ilə əlaqələr yaratmaq Üçün, dünya birliyində öz yerimizi tutmaq Üçün çox işlər görülüb, çox nailiyyətlər əldə edilib. Azərbaycanın xarici siyasətini daha müvəffəqiyyətlə aparmaq üçün Azərbaycan Respublikasının xarici ölkələrdə səfirliklərinin açılması, onların fəaliyyəti üçün şərait yaradılması bu nailiyyətlər sırasına daxildir.

İki il bundan öncə biz Böyük Britaniyada Azərbaycan səfirliyinin açılması haqqında qərar qəbul etdik. 1994-cü ilin əvvəlində burada səfirlik fəaliyyətə başlayıb. Burada Azərbaycanı təmsil edən bu səfirliyin və diplomatların yaxşı işləməsindən ötrü və eyni zamanda Böyük Britaniyada, onun ətrafındakı ölkələrdə doğma bir mərkəz yaradılmasından ötrü Azərbaycanın Böyük Britaniyadakı səfirliyi üçün bina alınması haqqında qərar qəbul edildi. Bina alınıb və artıq səfirliyin binası var. Beləliklə, müstəqil Azərbaycan xarici ölkələrdə öz mövqeyini addım-addım möhkəmləndirir və bu addımlardan biri də Böyük Britaniyada həm Azərbaycan səfirliyinin fəaliyyətidir, həm də bu səfirliyin yeni binasının açılmasıdır.

Mən sizin hamınızı Azərbaycan Respublikasının Böyük Britaniyadakı səfirliyinin binasının, özü də ilk binasının açılması münasibətilə təbrik edirəm və səfirliyin işçilərinə onların Üzərinə düşən vəzifələrin yerinə yetirilməsində uğurlar diləyirəm. [41-42]

Böyük Britaniyada yaşayan bütün azərbaycanlılara ölkəmizin siyasətini həyata keçirmək üçün bu səfirliyin imkanlarından və onun binasından səmərəli istifadə etməkdə müvəffəqiyyətlər arzulayıram. Sizin hamınızı bu münasibətlə təbrik edirəm.

Səfirliyin işçiləri sayca az olsalar da, onlar üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər. Mən əmin olduğumu bildirmək istəyirəm ki, bu bina Böyük Britaniyada olan hər bir azərbaycanlı üçün cazibədar nöqtəyə çevriləcək, hər bir azərbaycanlını buraya cəlb edəcək, Böyük Britaniyada yaşayan bütün azərbaycanlılar bu binanın ətrafında daha sıx birləşəcək və bir-biri ilə daha yaxın, daha mehriban olacaqlar. Beləliklə, müstəqil Azərbaycan Respublikası dünyanın bütün ölkələrində, ilk növbədə, böyük ölkələrdə tədricən öz diasporunu yaradacaq, öz soydaşlarını bir yerə yığacaq, onların bir-biri ilə əlaqələrini yaradacaqdır. Buna bizim çox ehtiyacımız var.

Dünyanın bir sıra ölkələrinə səpələnmiş azərbaycanlılar çoxdur. Axtarıb-arayanda hər bir ölkədə azərbaycanlı tapmaq olar. Ancaq bu azərbaycanlıların bir çatışmazlığı var ki, onlar qürbətdə olanda, yaxud başqa bir ölkədə işləyəndə bir-biri ilə ünsiyyət yaratmaqda fəal olmurlar. Bəlkə də belə deməyə əsas var ki, onlar passiv olurlar. Güman edirəm ki, biz həyatımızdakı, indiyədək keçdiyimiz yoldakı çətinliklərin çoxunun öhdəsindən gəldiyimiz kimi, bu çatışmazlığı da aradan qaldıracağıq. Dünyada 40 milyondan çox azərbaycanlı yaşayır. Lakin Azərbaycanın özündə 7,5 milyon əhali vardır, azərbaycanlıların qalan hissəsi isə başqa ölkələrdədir. Müstəqil Azərbaycan Respublikası hər bir azərbaycanlı üçün doğma vətəndir. Odur ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı özünü daim azərbaycanlı kimi hiss etməli və Azərbaycan haqqında düşünməlidir. Azərbaycana olan sevgi və məhəbbətini heç vaxt kəsməməlidir, Azərbaycanla əlaqə yaratmalı və inkişaf etdirməlidir. Bunun üçün hər bir ölkədə yaşayan azərbaycanlılar bir-biri ilə daha sıx əlaqədə olmalı, daha mehriban olmalı, bir-birinə arxa-dayaq olmalıdırlar, bir-birinə kömək etməli, bir-birinin qayğısına qalmalıdırlar və beləliklə, biz bütün ölkələrdəki azərbaycanlıların daha yaxşı yaşamasına nail olacağıq. Buna görə də hər bir ölkədə belə səfirlik binalarının yaradılması qarşımızda duran böyük vəzifələrdən biridir. [42-43]

İqtisadi çətinliklərə baxmayaraq, biz bu vəzifələri bundan sonra da həyata keçirməyə çalışacağıq. Ancaq hər bir azərbaycanlının da, hər bir soydaşımızın da vəzifəsi ondan ibarətdir ki, o, birləşməyə səy göstərsin, yaxınlaşmağa səy göstərsin. Azərbaycanla əlaqəsini daha da möhkəmləndirsin, eyni zamanda, yaşadığı ölkələrdə bir-biri ilə əlaqələrini möhkəmləndirsinlər. Azərbaycanın nümayəndəlikləri ilə, səfirlikləri ilə əlaqələrini möhkəmləndirsinlər. Mən görürəm ki, buraya xeyli soydaşımız toplaşıb. Belə başa düşürəm ki, onlar Londonda yaşayan, buraya qonaq gələn azərbaycanlılardır. Eyni zamanda bizim londonlu, ingiltərəli, böyük

britaniyalı qonaqlarımız da var. Onların da burada olmasından mən çox məmnunam və onlara təşəkkürümü bildirirəm.

Əgər indi bu binanın qarşısına bu qədər adam toplaşmışsa, zənnimcə, biz bu işlərimizi müvəffəqiyyətlə apara bilsək, onda bir aydan, iki aydan sonra, bir ildən sonra buraya bundan beş dəfə, altı dəfə çox azərbaycanlı toplaşa bilər. Azərbaycana məhəbbət bəsləyən başqa millətlərin nümayəndələri toplaşa bilərlər. Azərbaycanla əlaqə yaratmaq istəyən başqa ölkələrin vətəndaşları toplaşa bilərlər. Bizim səfirliklər məhz belə bir cazibədar mərkəzə dönməlidir. Bir daha deyirəm, buna görə də bizim səfirliklər öz işlərini bundan sonra daha yaxşı qurmalıdırlar. Ancaq hər bir azərbaycanlı da, hər bir soydaşımız da bu işlərin dediyim istiqamətdə getməsinə çalışmalıdır.

Siz əmin ola bilərsiniz ki, öz tərəfimizdən biz Azərbaycan dövlətçiliyinin bundan sonra da möhkəmləndirilməsi üçün səylərimizi gücləndirəcəyik. Bilirsiniz ki, artıq müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası ümumxalq səsverməsi yolu ilə, referendum yolu ilə qəbul olundu. İlk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının parlamentinə seçkilər keçirildi. Azərbaycanın yeni demokratik parlamenti yaradılıbdır. Azərbaycan dövlət quruculuğu sahəsində çox güclü addımlar atır. Azərbaycanın daxili ictimai-siyasi vəziyyəti artıq sabitləşdirilibdir. Azərbaycanda müxtəlif silahlı dəstələr, ayrı-ayrı mafioz qruplar, ölkəni içindən dağıtmağa can atan qrupların əksəriyyəti zərərsizləşdirilib, cinayətkarlar aradan götürülüb, insanların rahat yaşaması üçün imkanlar yaradılıbdır. Bu sahədə qarşımızda duran vəzifələri də bilirik. Biz onların həyata keçirilməsi üçün bundan sonra da çalışacağıq. [43-44]

Sizin üçün, bizim üçün, bütün dünyada yaşayan azərbaycanlılar üçün bir böyük problem var. Bu, ölkəmizin yarası, yəni Ermənistanın Azərbaycana etdiyi təcavüz və bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çox bir hissəsinin işğal olunmasıdır. İşğal edilmiş torpaqlarımızdan bir milyon nəfərdən artıq soydaşımız öz doğma yerlərindən didərgin salınmış və onlar Azərbaycanın başqa məntəqələrində çox ağır vəziyyətdə, əksəriyyəti də çadırlarda yaşayırlar. Bu, bizim ağrımızdır, ürəyimizdə olan yaradır. Bu, bizim böyük problemimizdir. Lakin biz bunu da həll etməyə qadirik. Biz bunu da həll edəcəyik. Doğrudur, ağırdır, çətindir. İşğal olunmuş torpaqları geri qaytarmaq, işğalçıları oradan çıxarmaq çox çətindir. Halbuki bu torpaqları qorumaq onları əldən verməkdən, sonra da işğalçıları oradan çıxarmaqdan daha asan idi. Ancaq nə edək, Azərbaycanın taleyi əsrlər boyu belə çətin mərhələlərlə rastlaşıbdır. Biz indi də Azərbaycanın tarixində çətin bir mərhələ yaşayırıq. Lakin biz bu mərhələni də keçəcəyik. Ümidvaram ki, işğal olunmuş torpaqlar azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, işğal edilmiş torpaqlardan didərgin düşən vətəndaşlarımız öz yerlərinə qayıdacaqlar və Azərbaycan beynəlxalq hüquq normaları ilə tanınmış öz hüquqlarının sahibi olacaq, öz ərazisinin sahibi olacaqdır.

Bir şeyə əmin ola bilərsiniz, mən bunu dünyaya dəfələrlə bəyan etmişəm ki, Azərbaycan daim müstəqil dövlət olacaq, öz müstəqilliyini heç vaxt əldən verməyəcəkdir. Azərbaycan demokratiya yolu ilə gedir, demokratik prinsiplər əsasında dövlət quruculuğu prosesini başa çatdıracağıq. Azərbaycan dünya birliyinə daxil olubdur, ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri əsasında iqtisadi əlaqələr qurulur və bundan sonra da qurulacaqdır. Azərbaycanda insanların azad yaşaması üçün, onların hüquqlarının qorunması üçün, hər bir insana sərbəstlik vermək üçün, sahibkarlığa imkan yaratmaq üçün, hər bir şəxsin mülkiyyətini qorumaq üçün və bütün azadlıqların təmin edilməsi üçün yeni qəbul olunmuş konstitusiyada çox gözəl və gərəkli müddəalar öz əksini tapıbdır. [44-45]

Yəni Azərbaycan demokratik hüquqi dövlət kimi daim yaşayacaqdır və hər bir azərbaycanlı da öz hüquqlarından bundan sonra istədiyi kimi istifadə edə biləcəkdir. Buna əmin ola bilərsiniz. Bu, bizim qarşımızda duran vəzifədir, bu, bizim borcumuzdur. Əmin olun ki, bu borcumuzu, bu vəzifəmizi biz şərəflə yerinə yetirəcəyik.

Sizi bu münasibətlə bir daha təbrik edirəm. Hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya cansağlığı və ona həyatında müvəffəqiyyətlər arzulayıram. Sağ olun. [45-46]

## ADAM SMİT İNSTİTUTUNUN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*London*

*29 noyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz burada, Böyük Britaniyada, Londonda Adam Smit İnstitutunun təşəbbüsü sayəsində böyük bir əlamətdar hadisənin, böyük bir mərasimin iştirakçısıyıq. Azərbaycan Respublikasının, müstəqil Azərbaycan iqtisadiyyatına, ölkəmizdə biznesin inkişafına və Azərbaycana yatırım, investisiya gətirilməsi problemlərinə həsr olunmuş çox mötəbər konfrans keçirilir. Çox sevindirici hal budur ki, bu konfransa dünyanın bir çox ölkələrindən nümayəndələr, qonaqlar gəliblər, konfransın işində iştirak etməyə cəhd göstəriblər. Bu, bizi çox sevindirir və bir tərəfdən, Adam Smit İnstitutunun nə qədər hörmətli iqtisadi mərkəz olduğunu göstərir, ikinci tərəfdən, dünyada müstəqil Azərbaycan Respublikasına, onun iqtisadiyyatına nə qədər böyük maraq olduğunu sübut edir.

Bugünkü konfrans haqqında çox danışmaq olar. Ancaq mən belə başa düşdüm ki, burada Böyük Britaniyanın adətinə görə sağlığı çox qısa demək lazımdır! Cənablar, siz nəyi alqışlayırsınız! İstəyirsiniz qısa danışım, yoxsa... Qafqazda hər sağlığın vaxtı bir saatdır. Amma Böyük Britaniyada kraliçanın sağlığına üç kəlmə söz dedilər. Siz hansı qaydanı istəyirsiniz – Qafqazdakı kimi, yoxsa Böyük Britaniyadakı kimi? Mən sizin vaxtınızı çox almayacağam. Ancaq yalnız bir fakt haqqında demək istəyirəm. Bu gün axşam bu ziyafətə gələndə bir çox adamlarla görüşdüm. Cənubi Afrika Respublikasının Ankaradakı səfiri də, o həm də bu ölkənin Azərbaycanda səfiridir, – mənə yaxınlaşdı, yəqin ki, indi buradadır. O, mənə dedi ki, böyük bir məsafə qət edib, məhz ona görə buraya gəlmişəm ki, Azərbaycanın iqtisadiyyatı ilə daha yaxından tanış olum və Cənubi Afrika Respublikasının Azərbaycana investisiya qoyması problemləri ilə məşğul olum, öz dövlətimə, hökumətimə lazımi məlumatlar verim.

Görün dünya nə qədər dəyişibdir! Dörd il bundan öncə [46-47] Azərbaycanda tək-tək adam tapılardı ki, Cənubi Afrika Respublikasının harada olduğunu bilsin. İndi isə dünyada gedən dəyişikliklər bir tərəfdən Azərbaycanı müstəqil dövlət edib, respublikamız müstəqil dövlət kimi bütün ölkələrlə əlaqə yaradır, ikinci tərəfdən də baş vermiş dəyişikliklər ölkələri bir-birinə o qədər yaxınlaşdırıbdır ki, məsafə anlayışı burada heç də əhəmiyyət kəsb etmir.

Bir cəhət də maraqlıdır. Bu gün konfrans keçirdiyimiz salon da elə bu böyüklükdə idi. İndi ziyafət masasının arxasında əyləşmiş adamların hamısı səhər başlanmış konfrans zamanı salonda oturan adamlardır, bəlkə də çoxdur. Burada hərənin öz marağı var. Amma hamının marağı birdir, hamı istəyir ki, iqtisadi əlaqələr daha da güclənsin, daha da inkişaf etsin. Azərbaycan isə istəyir ki, ölkəmizə investisiya qoyuluşu artsın. Azərbaycanın açıq qapılarına bütün ölkələrdən investorlar, yatırım qoyanlar gəlsinlər.

Bugünkü konfransa maraq o qədər böyükdür ki, hətta Azərbaycanın ən yüksək səviyyəli incəsənət ustaları – çox məşhur pianoçu Fərhad Bədəlbəyli və Azərbaycanın ulduzları – Fidan və Xuraman Qasımova kimi müğənnilərimiz də məhz bu konfransda iştirak etməyə gəliblər və bu gün öz mahnıları ilə bizi çox sevindirdilər. Siz Azərbaycan incəsənətinin, mədəniyyətinin kiçik bir nümunəsini hiss etdiniz. Azərbaycana gəldikdə isə həm çox böyük iqtisadi imkanları müşahidə edəcəksiniz, həm də ölkəmizin zəngin mədəniyyəti, incəsənəti ilə tanış olmaq imkanı əldə edəcəksiniz.

Bir daha sizin hamınızı Azərbaycana dəvət edirəm.

Azərbaycana həm qonaq gələ bilərsiniz, həm də ölkəmizdə bizneslə məşğul olmağa gələ bilərsiniz.

Bu gözəl ziyafəti təşkil edib bizi bu axşam gözəl salona toplayanlara – Adam Smit İnstitutuna və onun rəhbərlərinə, "Mak-Dermott" şirkətinə və tədbirin hazırlanmasında iştirak edən bütün başqa şirkətlərə və şəxslərə təşəkkürümü bildirirəm. Böyük Britaniya torpağına, onun gözəl xalqına hörmət və ehtiramımı bildirirəm. Böyük Britaniyanın qədim, zəngin tarixi var. Bütün bəşəriyyətin inkişafında Böyük Britaniyanın və onun xalqının əvəzsiz xidmətləri var. Ona görə də Böyük Britaniyanın adı gələndə hər bir kəs şlyapasını çıxarır və bəşəriyyət qarşısındakı xidmətlərinə görə ona baş əyir.

Hörmətli ev sahibləri, sizin ölkənizin adət-ənənələri, böyük tarixi hamımız üçün böyük örnək, nümunədir. Bu gün də siz [47-48] yeni müstəqillik əldə etmiş ölkələrə, o cümlədən Azərbaycana ayağa qalxmaqda, iqtisadiyyatda doğru yolla getməkdə kömək edirsiniz.

Bəşəriyyətdə sülhün və əmin-amanlığın şərəfinə, insanlar arasında sağlam münasibətlərin və yüksək mənəviyyatın şərəfinə; qanlı müharibələrə, münaqişələrə son qoyulmasının şərəfinə; qanlı müharibələrə, münaqişələrə son qoyulmasının şərəfinə, ölkələrin bir-biri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığının şərəfinə; biznesin, biznes mədəniyyətinin şərəfinə və dostluq, qardaşlıq şərəfinə; Adam Smit İnstitutunun himayəsi altında iqtisadiyyatın bundan sonra da inkişafının şərəfinə; Böyük Britaniyanın, onun xalqının şərəfinə; hörmətli

dostlar, xanımlar və cənablar, sizin hamınızın şərəfinə. [48-49]

## "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINDA YEKUN NİTQİ

*London*

*30 noyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən çox böyük məmnunluq hissi keçirirəm ki, Londonda Adam Smit İnstitutunun təşəbbüsü ilə belə mötəbər konfrans – Azərbaycanın problemlərinə, iqtisadi inkişaf problemlərinə, müstəqil Azərbaycan Respublikasının gələcəyinə həsr edilmiş konfrans keçirilmişdir.

Biz dünya birliyində bərqərar olmaq, öz layiqli yerimizi tapmaq üçün, təbii ki, bütün bunlardan respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etmək üçün öz tariximizin – müstəqillik tariximizin qısa dövründə çox tədbirlər həyata keçirmişik. Bu tədbirlər öz nəticələrini verir. Biz dünya birliyinin tam hüquqlu üzvüyük. Biz, demək olar, bütün beynəlxalq təşkilatlarda iştirak edirik. Biz dünyanın bir çox ölkələri ilə, xüsusən iqtisadiyyatı və demokratik ənənələri inkişaf etmiş olan ölkələrlə səmimi münasibətlər yaratmışıq.

Lakin biz hələ daha böyük yol keçməliyik ki, dünya birliyində öz yerimizi daha da möhkəmlədək, bugünkü Azərbaycanı həm dövlət quruluşu, həm ictimai-siyasi həyat, həm iqtisadi baxımdan yenidən quraq və xüsusən iqtisadiyyatın intensiv inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin edək, – bu isə bütün həmin məqsədlərə çatmaq üçün ən mühüm amildir, – yəni bazar iqtisadiyyatının inkişaf et-dirilməsinə, bazar iqtisadiyyatı islahatlarının həyata keçirilməsinə yönəldilmiş strateji xəttin yeridilməsinə ardıcıl surətdə çalışmalıyıq.

Biz aydın təsəvvür edirik ki, biz bu yolun başlanğıcındayıq. Aydın başa düşürük ki, qarşıda hələ çox işlər və təbii olaraq, çox çətinliklər durur. Lakin bununla yanaşı biz bu yolu kifayət qədər aydın, onun bizim üçün kifayət qədər əlverişli olduğunu görürük. Odur ki, ikinci gündür burada, Londonda, Adam [49-50] Smit İnstitutu çərçivəsində keçirilən məhz bu konfrans bizdə inam yaradır.

İki gündür ki, bir çox ölkələrin, işgüzar dairələrin, maliyyə mərkəzlərinin, dünyanın ən iri şirkətlərinin nümayəndələri burada, bu salonda Azərbaycanın imkanlarını səbirlə, eyni zamanda böyük maraq və qətiyyətlə öyrənməyə çalışırlar. Bu iki gündə Azərbaycan nümayəndələri əzmlə çalışırlar ki, sərmayələr qoymaq üçün, müştərək layihələr həyata keçirmək üçün, sıx iqtisadi inteqrasiya üçün Azərbaycanda olan imkanları, şəraiti bu məclisə gələnlərə, burada toplaşanlara izah etsinlər. İndi, konfrans işini başa çatdırdığı və biz ona yekun vurduğumuz bir vaxtda tam inamla demək olar ki, qarşıya qoyulmuş məqsədə çatılmışdır. Tam inamla demək olar ki, konfrans baş tutmuş, uğurlu olmuşdur.

Sözün düzü, mən buraya, bir tərəfdən, böyük ümidlə və təbii olaraq, inamla, digər. tərəfdən isə, müəyyən şübhə hissi ilə gəlmişdim: Adam Smit İnstitutu belə mötəbər konfrans keçirir, dünyanın hər yerindən işgüzar adamları, maliyyə mərkəzlərinin nümayəndələrini dəvət etmişdir. Bəs konfrans necə olacaq, baş tutacaqmı? Biz uzun illər ərzində sosialist cəmiyyəti sistemində yaşamışıq, mən tarixdən də, öz keçmişimizdən də bilirəm ki, belə konfranslar, belə böyük tədbirlər adətən cidd-cəhdlə, səylə hazırlanır, – mən onu nəzərdə tuturam ki, bizim keçmiş zamanlarımızda məhz belə olmuşdur, – adamlar müəyyənləşdirilir. Bu tədbirə, hər hansı digər konfransa gəlmək onlar üçün icbari səciyyə daşıyır. Həyatımızın əsas hissəsini yaşadığımız keçmiş Sovet İttifaqında, sosialist cəmiyyətində belə olmuşdur.

Buna görə də onu və keçmişdə məndə olmuş təəssüratları əsas tutaraq güman edirdim ki, konfrans necə olacaqdır.

Nəhayət, yenə də keçmişi əsas tutaraq deyim ki, konfransın başlanğıcı adətən çox fəal olur, amma sonra iştirakçıların sıraları tədricən seyrəlir, adamların sayı azalır və nəhayət məclisin sonuna yaxın əslində ancaq ən fəallar qalırlar. Təkrar edirəm, əgər bu, icbari xarakter. daşımırsa. Düzdür hətta o dövrlərdə, bizim keçmiş Sovet İttifaqında yuxarıdan aşağıyadək ciddi nizam-intizam olmasına baxmayaraq, müxtəlif bəhanələrlə belə konfransların yarısından çıxıb getməyə müvəffəq olurdular. Halbuki konfransın sonu başlanğıcından əməlli-başlı fərqlənirdi.

Şübhələnmək üçün mənə müəyyən dərəcədə əsas verən də [50-51] məhz keçmişdəki müşahidələrim olmuşdur, necə olacaq, nə olacaq. Sizə açığını deyim, mən belə mötəbər beynəlxalq konfransda ilk dəfə iştirak edirəm. Təbii ki, əvvəllər böyük hökumət nümayəndə heyətlərinin başçısı kimi hansısa bir ölkə tərəfindən təşkil olunan qurultaylarda, konfranslarda iştirak edirdim. Amma çox nüfuzlu, əlbəttə, hörmətli institut tərəfindən hazırlanmış və keçirilən belə konfrans, açığını deyim, bizim üçün hadisədir, ən yüksək qiymətə layiq hadisədir. Bu elə bir konfransdır ki, sponsorlar tərəfindən himayə edilir və buraya marağı olan çoxlu adam gəlmişdir. İki gün ərzində onlar bütün çıxışları diqqətlə və səbirlə dinləmişlər. Elə biz də konfransa hansı heyətlə başlamışdıqsa, onu təxminən həmin heyətlə də başa çatdırırıq.

Buna görə də mən bu konfransın keçirilməsi təşəbbüsü Üçün, onun hazırlanması sahəsində göstərilmiş səylər üçün ən əvvəl Adam Smit İnstitutuna təşəkkür etmək istəyirəm. Şübhəsiz ki, konfransa aylarla ciddi, əsaslı hazırlıq görülmüşdür. Mən bu konfransla bağlı məsələlərlə daha konkret surətdə maraqlandıqda mənə bütöv bir sıra sənədlər, prospektlər, proqramlar təqdim etdilər. Onlar bir neçə ay bundan əvvəl Adam Smit İnstitutu tərəfindən hazırlanmış və marağı olan bütün orqanlara, şirkətlərə, firmalara, banklara, işgüzar dairələrə göndərilmişdir. Buna görə də mən Adam Smit İnstitutuna bir daha çox sağ olun deyirəm, təşəbbüs üçün, böyük hazırlıq işi üçün və bu konfransın müvəffəqiyyətlə keçirilməsi üçün təşəkkür etmək istəyirəm. Çox sağ olun.

Adam Smit İnstitutu görkəmli alimin, görkəmli iqtisadçının, elə bir iqtisadi sistemin banisinin adını daşıyır ki, bu sistem planetimizdə bir çox dəyişikliklər baş verməsinə baxmayaraq, zamanın sınağından çıxmışdır və bu gün də dünyanın bütün ölkələri üçün, bütün qitələr üçün ən üstün sistemdir. Bu institut elə bir iqtisadi sistemin banisinin adını daşıyır ki, biz hamımız bu sistemi mənimsəməyə çalışırıq. Elə institutun özü də onun üzərinə qoyulmuş vəzifəni hazırda layiqincə həyata keçirir. Biz instituta, onun rəhbərlərinə, bütün əməkdaşlarına, konfransı bu institutla birlikdə hazırlamış və belə uğurla keçirmiş olan bütün təşkilatlara çox sağ olun deyirik. Biz sizə çox sağ olun deyirik və belə konfransların keçirilməsində və qarşınıza qoyulmuş böyük və nəcib bir vəzifənin yerinə yetirilməsində sizə yeni-yeni uğurlar arzulayırıq. Çox sağ olun. [51-52]

Mən bu konfransın hazırlanmasının və keçirilməsinin sponsorlarına təşəkkürümü bildirmək istəyirəm. Sözün düzü, sponsor anlayışı, sponsor rolu bizim üçün, bu sistemə ümumiyyətlə, yenicə qoşulan adamlar üçün o qədər də yaxşı anlaşıqlı və tanış deyildir. Mən sizinlə çox açıq, səmimi danışıram və sözün düzünü deyirəm. Düşünürdük ki, sponsor sponsordur. Əvvəllər biz bilirdik ki, sponsor olur və o, hər hansı bir aktyorun, yaxud hər hansı bır bədii tamaşanın işinə sponsorluq edir və sair. Bizim üçün bütün bunlar yeni anlayışlardır. Lakin indi biz sponsorun kim olduğunu, nə kimi rol oynadığını, necə bir həqiqətən nəcib rol oynadığını yavaş-yavaş başa düşürük.

Buna görə də bu konfransın sponsorunun konkret surətdə kim olduğunun, – bu Adam Smit İnstitutuna məlumdur, təfsilatına varmadan, bütün sponsorlara və bütün o kəslərə təşəkkürümü bildirirəm ki, onlar Adam Smit İnstitutu ilə birlikdə bu konfransın və dünən, bu gün burada olmuş görüşlərimizin hazırlanması və keçirilməsi üçün səy göstərmişlər. Sizə çox sağ olun deyirik.

Biz hesab edirik ki, konfrans Azərbaycan üçün, respublikamızın gələcəyi üçün artıq öz rolunu oynamışdır və onun respublikamız üçün bəhrələri də, konkret əməli nəticələri də, şübhəsiz, olacaqdır. Özü də yaxın gələcəkdə! Bizim üçün vacib olan budur ki, biz bu gün Azərbaycanın siyasi baxımdan, sosial baxımdan, ictimai baxımdan, iqtisadi baxımdan nə demək olduğunu bu konfrans vasitəsilə bütün dünyaya, dünya biznesinə, dünya iqtisadiyyatına, dünyanın işgüzar dairələrinə nümayiş etdirdik. Onların bizimlə fəal əməkdaşlığı üçün Azərbaycanın nə kimi potensiala malik olduğunu nümayiş etdirə bildik. Biz qarşılıqlı surətdə fayda, gəlir götürmək üçün respublikamıza fəal surətdə sərmayələr qoymaqdan ötrü imkanlarımızı nümayiş etdirə bildik.

Mən belə düşünürəm ki, biz bunu edə bildik. Doğrudur, bəlkə də istədiyimiz dərəcədə olmadı, lakin bizim üçün bu da ilk təcrübədir. Hər halda biz çalışdıq. Elə burada çıxış edən bütün Azərbaycan nümayəndələri də konfrans iştirakçılarına bacardıqca daha çox informasiya verməyə çalışdılar ki, sonra bu öz səmərəsini versin, yəni bunun ardınca bizimlə iqtisadi əlaqələr yaradılması sahəsində konkret addımlar atılsın. Zənnimcə, biz konfrans iştirakçılarını və onların vasitəsilə, təbii olaraq, bizim üçün maraq doğuran dairələri inandıra bildik ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, bazar [52-53] islahatları aparılması, iqtisadiyyatda struktur dəyişiklikləri həyata keçirilməsi, bank sistemində, maliyyə sistemində islahatlar edilməsi, aqrar sektorda islahatlar keçirilməsi yolu ilə qətiyyətlə gedir. Azərbaycan mülkiyyətin özəlləşdirilməsi yolu ilə dönmədən irəliləyir, özəl mülkiyyətin yaradılması, möhkəmləndirilməsi və inkişafı üçün imkan açır, bu mülkiyyət üçün təminat verir, yəni Azərbaycan böyük dəyişikliklər yolundadır və şərait yaradırıq ki, Azərbaycana maraq göstərən hər bir kəs bizə arxayınca və inamla gələ bilsin.

Bizə elə gəlir ki, bütün bunlar gələcəkdə yaxşı əməkdaşlıq üçün əsas yaradır. Buna görə də hesab edirəm ki, bu konfrans öz faydasını verəcəkdir. Biz bu faydanı konfransın iştirakçılarından, əcnəbi sərmayədarlardan gözləyirik. Əlbəttə, o mənada yox ki, kimsə bizə nəsə gətirəcək, bağışlayacaqdır. Məhz o mənada ki, biz yeni əlaqələrə, yeni müqavilələrə, yeni sazişlərə malik olacağıq və bunlar da iqtisadiyyatımızı dünya iqtisadiyyatına birləşdirməyə imkan verəcəkdir. Biz sərmayələrə malik olacağıq. Görəcəyik ki, xarici şirkətlər, sərmayədarlar mülkiyyət əldə etmək üçün Azərbaycanda özəlləşdirmə prosesinə necə fəal qoşulur, digər bütün iqtisadi dəyişikliklərdə necə iştirak edirlər. Biz buna ümid bəsləyirik və konkret əməli nəticələr gözləyəcəyik.

Mənə məlum oldu ki, burada, konfransda ortaqlarımız, xarici şirkətlər, əcnəbi sərmayədarlar üçün böyük əhəmiyyət kəsb edən bəzi məsələlərə maraq göstərilir. Bu məsələlərdən biri sərmayələrin qorunması ilə bağlıdır. Çıxışlarımızda deyildiyi kimi, Azərbaycanda sərmayələrin müdafiəsi haqqında qanun var. Lakin bu gün biz bildiririk, mən sizi əmin edirəm ki, sərmayələrin müdafiəsinin bütün sistemini təkmilləşdirmək üçün bütün işləri görəcəyik. Əgər bu qanuna hər hansı dəyişikliklər, əlavələr etmək lazım gələrsə, biz bunun qarşısında da dayanmayacağıq, yəni sərmayələrin, xarici sərmayələrin müdafiəsi üçün möhkəm, sabit,

uzunmüddətli qanunverici əsas və təminat yaradan əlavə tədbirlər görəcəyik. Əmin ola bilərsiniz ki, respublika prezidenti kimi mən sizə verdiyim vədlərin həyata keçirilməsinin gedişinə şəxsən nəzarət edəcəyəm.

Burada deyilən və mən bilən, həmçinin müəyyən narahatlıq doğuran ikinci məsələ Azərbaycanda xarici sərmayələrin təşkili və idarə edilməsi məsələsidir. Mən bir daha demək istəyirəm ki, biz bu problem üzərində işləmişik.

Bu yaxınlarda mən sərmayələrin idarə edilməsi üçün xüsusi [53-54] milli agentlik yaradılması haqqında fərman vermişəm. Bu milli agentlik Azərbaycanda sərmayə qoyuluşu prosesini təşkil və idarə etmək üçün kifayət qədər tam səlahiyyətlərə malikdir.

Bu, inzibati xarakterli təşkilat deyil, məhz agentlikdir. O, Azərbaycanda səhmlərin təşkilinə və səhmdarlara kömək edəcəkdir ki, onlar öz səhmlərini qoymaq üçün yerləri bacardıqca tez bir zamanda tapa bilsin və özlərinə müvafiq ortaqlar tapsın, müvafiq razılaşmalar bağlasınlar. Yəni Azərbaycana səhmlər axınının təşkilinə və hər bir sərmayədara, Azərbaycanla əməkdaşlıq edən hər bir kəsə kömək etməli olan bu agentlik qarşısında qoyduğu bütün tədbirləri tezliklə həyata keçirmək istəyir.

Bir sözlə, mən belə düşünürəm ki, bu da sizin üçün mühüm amildir. Bizim imkanlarımızdan istifadə etməyiniz Üçün siz gərək əmin olasınız ki, əgər kimsə buraya gəlmək istəyirsə, o, bunu cəsarətlə edə bilər. Siz gərək əmin olasınız ki, Azərbaycanda bütün bu sistem həqiqətən getdikcə sahmanlanıb təkmilləşdirilir.

Daha sonra vergilər barəsində. Əlbəttə, mən deyə bilmərəm ki, vergilər də bir əngəldir. Təbii ki, vergitutma sistemi səhmdarlar üçün, Azərbaycanda bizneslə məşğul olmaq və ya Azərbaycanın müvafiq firmaları ilə iş görmək istəyən adamlar üçün çox böyük əhəmiyyətə malikdir. Biz, əvvəla vergi qanunvericiliyini, vergi sistemini qaydaya salmaq üçün, ikincisi, səhmdarlara maksimum faydalı, güzəştli vergi şəraiti yaratmaq üçün hər şey edəcəyik.

Mən konkretləşdirmək istəmirəm, sizə təkcə onu demək istəyirəm ki, əgər bugünkü vergi sistemi kimin üçünsə əngəldirsə, o, əmin ola bilər ki, vergitutmaya dair, vergi sisteminə dair qanunvericiliyi təkmilləşdirmək üçün, bir daha təkrar edirəm, Azərbaycana sərmayələr qoyulmasını stimullaşdıra biləcək daha sərfəli, güzəştli vergi dərəcələri və ya vergi həcmləri yaratmaq üçün köklü tədbirlər görəcəyik.

Burada çox çıxışlar edildi. Daim burada olan nümayəndələrimizin dediklərinə görə, onların hamısı çox maraqlı, çox faydalı olmuşdur. Buna görə də mən Azərbaycanla iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsinə və Azərbaycanda biznesin inkişafına tərəfdar olanların hamısına təşəkkürümü bildirmək istəyirəm. Təbii ki, öz təşəkkürümü müxtəlif ölkələrdən bu konfransa gələnlərin hamısına yönəldirəm. [54-55] Burada çıxış etmiş Azərbaycan nümayəndələri isə konfransımıza rəhbərlik edən hörmətli dostumuzdan, zənnimcə, müvafiq təşəkkür aldılar. Mən bu fikirdəyəm ki, onlar Azərbaycanın bundan sonra da belə etibar, hörmət qazanması üçün bu işlə daha fəal məşğul olmalıdırlar.

Çıxış edənlərin, öz təkliflərini irəli sürənlərin hamısına təşəkkür edirəm. Bir daha deyirəm, bütün çıxışlar bizim üçün maraqlı və faydalı oldu. Lakin mənə məlumdur ki, neft konsorsiumunun əməliyyat komitəsinə rəhbərlik edən cənab Terri Adamsın ötən ilin sentyabrında imzalanmış müqavilə barədə çıxışı çox məzmunlu olmuşdur. Mənə məlum olduğuna görə, burada o, sizə həmin müqavilənin necə hazırlandığı və bu bir ildə işlərin necə getdiyi, müqavilənin işləməsi, həyata keçirilməsi üçün nə kimi işlər görmək mümkün olduğu barədə kifayət qədər inandırıcı şəkildə danışmışdır. Amma, bildiyiniz kimi, biznesdə hər bir işin öz əhəmiyyəti, öz yeri var. Təbiidir ki, dünya iqtisadiyyatında, dünya biznesində çoxlu əla, dünya iqtisadiyyatının inkişafı tarixində öz layiqli yerini tutmuş nümunələr çoxdur. Lakin dərhal "Əsrin müqaviləsi" adlandırılan belə iri neft müqaviləsinin imzalanması bizim üçün, Azərbaycan üçün, zənnimcə, Azərbaycanla bağlı olanlar üçün çox böyük tarixi əhəmiyyətə malikdir.

Lakin bununla yanaşı, bu müqavilənin proqramının əməli surətdə həyata keçirilməsinin daha böyük əhəmiyyəti var. Cənab Terri Adams da sizə Azərbaycanda mövcud ab-havadan, Azərbaycanda xarici şirkətlərin, onların nümayəndələrinin, ofislərinin işlədikləri şəraitdən, sazişin proqramının uğurla yerinə yetirilməsini təmin edən gözəl əməkdaşlıqdan, eyni zamanda neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi prosesində nəzərə çarpan potensial imkanlarımızdan kifayət qədər inandırıcı şəkildə danışmışdır.

Söhbət kadrlarımızın, alimlərimizin hazırlıq səviyyəsindən də gedir. Söhbət bu müqavilənin həyata keçirilməsinə cəlb edilmiş mütəxəssislərimizdən də gedir, söhbət Azərbaycanın yüksək intellektual potensialından gedir. Söhbət hər hansı avropalı üçün, iqtisadi cəhətdən inkişaf etmiş bir çox ölkələrdə biznes sahəsində böyük yol keçmiş olan hər hansı adam üçün Azərbaycanda mövcud mədəni ab-havadan gedir. Buna görə də neft müqaviləsinin imzalanması, onun əməli surətdə həyata keçirilməsi və cənab Terri Adamsın sizə verdiyi məlumat Azərbaycanda nə kimi işlər görülməsinin mümkünlüyünə, fik[55-56]rimcə, kifayət qədər sübutdur. Özü də təkcə energetika sahəsində deyil, təkcə neft və qaz hasilatında deyil, həm də digər bütün sahələrdə.

Mən belə başa düşdüm ki, burada cənab Terri Adamsa Azərbaycandan ilkin neftin ixracı üçün boru kəmərləri barədə suallar verilmişdir. İşin necə olduğu barədə birmənalı danışa bilərəm. Oktyabrın 9-da biz iki marşrut üzrə neft kəməri çəkilməsi haqqında qərar qəbul etdik. Neft kəmərlərindən biri Rusiya ərazisindən keçərək Novorossiyskə, digəri isə Gürcüstan ərazisindən keçərək, həmçinin Qara dəniz sahilində olan Supsa

limanına gedəcəkdir. Əmin ola bilərsiniz ki, bu proqram həyata keçiriləcəkdir. Rusiya ərazisi ilə şimal marşrutu üzrə boru kəmərinin çəkilməsi sahəsində artıq əməli işə başlamaq üçün müvafiq sənədlər imzalanması haqqında Moskvada Rusiya Federasiyasının Energetika Nazirliyi və Nazirlər Kabineti ilə iki dövrədə danışıqlar aparılmışdır və bizim konsorsiumun nümayəndə heyəti, Azərbaycan Dövlət Neft Şirkətinin nümayəndə heyəti yaxın günlərdə yenidən Moskvaya yola düşəcəkdir. Mənə deyildiyinə görə, bu sənədlərin imzalanması üçün artıq bütün layihələr hazırdır. Daha bundan sonra neft kəmərinin çəkilişi sahəsində əməli işə başlamaq olar.

İkinci marşrut Gürcüstandan keçəcəkdir. Burada da hazırlıq işləri aparılır, heç bir problem yoxdur. Odur ki, biz hər iki marşrut üzrə neft kəmərlərinin çəkilişi ilə eyni zamanda məşğul olmaq niyyətindəyik. Yəni ilkin neft çıxarılan vaxtadək şərait yaradılacaqdır ki, bu neft müqavilənin proqramına müvafiq surətdə ixrac edilsin. Qoy heç kəs bununla əlaqədar narahat olmasın.

Burada Avropa Yenidənqurma və İnkişaf Bankının vitse-prezidenti cənab Rom Friman çox parlaq çıxış etdi. Biz cənab Frimana dünya bank sistemində layiqli yer tutan bu məşhur, çox nüfuzlu bankın Azərbaycan Respublikası ilə birgə işi barədə verdiyi məlumata görə təşəkkür edirik. Ümidvarıq ki, bu da Avropa Yenidənqurma və İnkişaf Bankı kimi iri bankların Azərbaycanla əməkdaşlıq etdiyinə kifayət qədər inandırıcı sübutdur.

Mən belə düşünürəm ki, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycana göstərdiyi diqqəti doğrultmaq üçün, oraya təqdim olunmuş layihələrə baxmaq üçün biz özümüz də hər şeyi edəcəyik. Bu layihələrin siyahısı böyükdür. Bu layihə[56-57]lərin Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən kreditləşdirilməsi haqqında son danışıqların aparılması Üçün biz özümüz onları yaxın vaxtlarda, əgər belə demək mümkünsə, öz daxili ekspertizamızdan bir daha keçirəcəyik. Biz cənab Frimana belə xeyirxahlıqla, ehtiramla çıxışına görə çox sağ olun deyirik. Onun çıxışı bizə Azərbaycanın imkanlarını digər maliyyə dairələrinə nümayiş etdirməyə imkan verir.

Məncə, başqa suallar olmamışdır. Yoxsa olmuşdur? Mənə dedilər ki, daha bir məsələni əlavə olaraq aydınlaşdırmaq lazımdır. Bu, xarici səhmləri sığortalamaq məsələsidir. Bilirsiniz, ümumiyyətlə, sığorta işi bizim üçün də yeni bir işdir. Biz köhnə sosialist sistemində yaşayarkən orada dövlət sığortası var idi. Mən Azərbaycanda da, Sovet İttifaqında da bir çox rəhbər vəzifələrdə işləmişəm. Amma, sözün düzü, bir əməlli-başlı təsəvvür edə bilmədim ki, bu dövlət sığortası nəyi sığortalayır. Axı hər şey dövlətin sərəncamında idi. Deyəsən, hansısa bir təşkilat bu işlə bir növ məşğul olurdu.

Buna görə də bu iş bizim üçün iqtisadi həyatın yeni, amma mühüm cəhətidir. Elə biz hamımız da respublikamızda səhmlərin sığortalanmasının vacibliyini və ümumiyyətlə, hər hansı biznesin sığortalanmasının əhəmiyyətini başa düşürük. Mən sizə bildirmək istəyirəm ki, Azərbaycanda xarici səhmləri sığortalamaq üçün təminatlı şərait yaradılması sahəsində tədbirlər görürük. Əmin ola bilərsiniz ki, bizim tərəfimizdən qanunvericilik qaydasında, sərəncam qaydasında bütün tədbirlər həyata keçiriləcəkdir. Mən sizi əmin edirəm ki, biz bu məsələ ilə ayrıca məşğul olacağıq. Çünki bu məsələ burada bəzi konfrans iştirakçılarının çıxışlarında üzə çıxarıldı və xatırladıldı. Bu, bir tərəfdən. Digər tərəfdən isə, biz özümüz bazar münasibətlərinin həyata keçirilməsi prosesinə, xarici səhmlərin cəlb edilməsi prosesinə başlayaraq, artıq hiss edirik ki, sığorta məsələsi bizim zəif yerimizdir. Həqiqətən, çox etibarlı, möhkəm təminatlı sığorta xidməti, sığorta sistemi yaratmaq lazımdır. Xüsusən xarici səhmlərin sığortalanması sahəsində. Buna görə də qoy bu da heç kəsi narahat etməsin.

Beləliklə, mən aldığım məlumata görə, bəzi konfrans iştirakçılarını müəyyən dərəcədə narahat edən bir sıra məsələlərə toxunmağa çalışdım. Deyilənlərin hamısına yekun vuraraq bir daha qeyd etmək istəyirəm; əcnəbi sərmayədarlar üçün ölkədə siyasi, ictimai-siyasi sabitlik gərəkdir. Azərbaycanda sabitlik var. Ölkəyə, respublikaya təminatlı rəhbərlik gərəkdir [57-58] – Azərbaycanda bu da var. Parlament, qanunverici orqan gərəkdir. Elə parlament ki, o, iqtisadi islahatların uğurla həyata keçirilməsini və təbii olaraq, xarici səhmlərin cəlb olunmasını təmin edən yeni-yeni qanunlar yaratsın. Azərbaycanda belə parlament də var.

Biz seçkilər keçirdik, yeni parlamenti formalaşdırdıq. Dünən bəyan etdiyim kimi, bu parlament iqtisadi islahatlar aparılmasına, siyasi islahatlar keçirilməsinə, müxtəsəri, həyata keçirdiyimiz və gələcəkdə həyata keçirəcəyimiz bütün dəyişikliklərə yönəldilmiş prezident xəttini, dövlət xəttini böyük əksəriyyətlə dəstəkləyir, özü də tamamilə dəstəkləyir. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası var. Konstitusiyada mülkiyyət azadlığına, sahibkarlıq azadlığına, xüsusi mülkiyyətçi azadlığına, insan azadlığına, vətəndaş azadlığına təminat verən, insan hüquqlarını, insanın vətəndaş hüquqlarını təmin edən çox mühüm müddəalar nəzərdə tutulur. Əlbəttə, Azərbaycanda bütün dövlət-hakimiyyət təsisatlarının müvəffəqiyyətlə fəaliyyət göstərməsini təmin edən konstitusiya da var. Azərbaycanda etibarlı dövlət sistemi yaradılmışdır. Bu sistem ölkədə ictimai-siyasi vəziyyətə tam nəzarət edir və azad sahibkarlıq üçün, azad iqtisadi inkişaf üçün şərait yaradır. Bütün bu şəraitlər var, bütün bu təminatlar var. Nəhayət, Azərbaycan Respublikasının prezidenti bütün sərmayədarlar üçün təminatdır. Onun özü xüsusi olaraq buraya gəlmiş və bilavasitə bildirir ki, qoy heç kəs narahat olmasın və Azərbaycan ilə fəal əməkdaşlıq etsin.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu konfrans konkret əməli nəticələrə, bizim qarşılıqlı surətdə faydalı əməkdaşlığımıza gətirib çıxaracaqdır. Bütün konfrans iştirakçılarına uğurlar və tərəqqi

arzulamaq istəyirəm. Hörmətli dostlar, sizin hamınıza həyatınızda xoşbəxtlik və firavanlıq arzulayıram. Salamat qalın. [58-59]

## "AZƏRBAYCANDA İNVESTİSİYA İMKANLARI" BEYNƏLXALQ KONFRANSINDA İŞTİRAK EDƏN İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*London*

*30 noyabr 1995-ci il*

Mən çox məmnunam ki, siz burada olduğunuz vaxtdan səmərəli istifadə edirsiniz. Respublikanın mənimlə birlikdə buraya gəlmiş rəhbər vəzifəli şəxsləri işlərimiz haqqında yaxşı məlumata malikdirlər. Əgər onlar sizin suallarınıza cavab veriblərsə, deməli, mənim işimi yüngülləşdirmişlər. Əlbəttə, mən də buraya səfərimizin məqsədləri barədə və sizinlə görüşlərdən nəyi gözlədiyimiz barədə məlumat verəcəyəm.

Müstəqil bir dövlət kimi, Azərbaycan Respublikası dünya birliyində, dünya iqtisadiyyatında özünə layiq yer tutmaq istəyir. Şübhəsiz ki, biz dünyada artıq mövcud olan, iqtisadiyyatı inkişaf etmiş ölkələrdə yaranmış üsullardan, metodlardan, iqtisadiyyatın idarə olunması formalarından istifadə etmək, iqtisadiyyatımızı bu formalar, bu üsullar əsasında qurmaq istəyirik. Siz iqtisadiyyatı inkişaf etmiş ölkələrin nümayəndələrisiniz və hər birinizin rəhbərlik, yaxud təmsil etdiyiniz şirkət, firma iqtisadiyyat sahəsində böyük mərhələlərdən keçmiş və yüksək bir səviyyəyə qalxmışdır. Siz nə qədər yüksək səviyyəyə qalxmış olsanız da, daim fəaliyyətdəsiniz və onu genişləndirmək üçün, şübhəsiz, həmişə imkanlar axtarırsınız, iqtisadiyyatımızın miqyasını genişləndirmək üçün yeni regionlar axtarırsınız. Azərbaycan isə müstəqilliyini yenicə əldə etmiş gənc bir ölkədir və on illər ərzində mövcud olmuş sosialist iqtisadi sistemindən yeni iqtisadi sistemə keçmək mərhələsindədir. Buna görə də sizin Azərbaycana marağınızı daha da artırmaq üçün, daha da aydınlaşdırmaq üçün mən bir ölkə kimi Azərbaycanın bir neçə ümumi prinsipi barədə sizə öz fikrimi söyləmək istəyirəm.

Birincisi, Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini qoruyub saxlamağa qadirdir, müstəqil siyasət aparır və müstəqil dövlət olaraq öz iqtisadiyyatını inkişaf etdirmək, dünya[59-60]nın digər ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq istəyir. Azərbaycan keçmiş sovet, kommunist ideologiyasından tamamilə ayrılıbdır və bu ideologiyanın həm ictimai-siyasi sahədə, həm də iqtisadi sahədə Azərbaycana yenidən qayıtması daha mümkün deyildir. Azərbaycanın milli dövlət ideologiyası ölkəmizin müstəqilliyini təmin etməkdən və Azərbaycanda demokratik dövlət qurmaqdan ibarətdir. Dövlət quruculuğu sahəsində strateji yolumuz demokratik hüquqi dövlət qurmaqdır, demokratik cəmiyyət yaratmaqdır, insan hüquqlarını qorumaqdır, demokratiyanı qorumaqdır, siyasi plüralizmə geniş imkanlar verməkdir, insan azadlığını, vətəndaş azadlığını, insan hüquqlarının qorunmasını təmin etməkdir.

İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdir. Bu sahədə xeyli iş görülübdür. İqtisadi islahatların həyata keçirilməsi üçün bir çox danışıqlar qəbul olunubdur. Ən böyük qanun və proqramımız mülkiyyətin özəlləşdirilməsidir. Bizim özəlləşdirmə proqramımız artıq qəbul olunub, bu barədə parlament qanun qəbul edib. İndi həmin proqram həyata keçirilir. Biz özəlləşdirməni üç il müddətində başa çatdırmaq istəyirik. Ticarət, xidmət sahələrində, kiçik müəssisələrdə özəlləşdirmə həyata keçirilməkdədir. O ki, qaldı böyük müəssisələrə, onların özəlləşdirilməsi proqram əsasında aparılır. Bizim özəlləşdirmə proqramında xarici şirkətlərin, xarici ölkə vətəndaşlarının da bu özəlləşdirmə prosesində iştirak etmək imkanı var, bunun üçün güzəştli şərtlər nəzərdə tutulur.

Aqrar sektorda islahatlar artıq başlanıbdır. Yəni burada da mülkiyyət formasının dəyişdirilməsi və şəxsi mülkiyyət yaranması nəzərdə tutulub. Bunu da ardıcıl surətdə həyata keçirib sona çatdıracağıq. Biz cürbəcür formalardan istifadə edirik. Məsələn, özəlləşdirməklə yanaşı, bəzi böyük sənaye müəssisələrimizin xarici ölkə şirkətləri tərəfindən idarə olunmasına dair təklif də irəli sürmüşük. Mən sizə bu barədə də bəyanat verirəm və bildirirəm ki, əgər bizim təkliflərimiz ayrı-ayrı şirkətlər tərəfindən qəbul edilsə, onda biz həmin təklifləri həyata keçirəcəyik.

Bazar iqtisadiyyatı sahəsində inkişaf etmiş ölkələrin təcrübəsindən Azərbaycanın xüsusiyyətlərinə uyğun olaraq geniş is[60-61]tifadə etməyə çalışırıq. Bütün bu islahatların, köklü dəyişikliklərin həyata keçirilməsi üçün lazımi qanunlar qəbul olunub və əsası budur ki, bunların hamısı noyabrın 12-də ümumxalq səsverməsi, referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının ilk Konstitusiyasında öz əksini tapıbdır. Bu il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk parlamenti seçilib, həm də bu parlament demokratik prinsiplər əsasında seçilibdir. Parlament artıq öz işinə başlayıb. Mən sizə bildirmək istəyirəm ki, parlamentə seçilən deputatların tam əksəriyyəti Azərbaycan Respublikasının, dövlətinin və prezidentin həm iqtisadi sahədə, həm də dövlət quruculuğu sahəsində, həm də siyasi sahədə, o cümlədən xarici siyasət sahəsində bütün strateji xəttini müdafiə edir.

Dediyim kimi, demokratik iqtisadi islahatları həyata keçirmək üçün bizim bir çox qanunlarımız, normativ aktlar qəbul olunub və yeni qəbul edilmiş konstitusiyanın əsasında bundan sonra da bir çox qanunlar qəbul ediləcəkdir.

Xarici sərmayənin Azərbaycana gəlməsi üçün, ölkəmizdə müştərək işlər görülməsi üçün və Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına bağlanması üçün biz bütün tədbirləri görməyə hazırıq və bildirmək istəyirəm ki, bu sahədə bir çox güzəştli şərtlər də yaradacağıq. Əlbəttə, hər bir xarici sərmayədar sərmayə qoyduğu ölkənin imkanlarını bilməlidir. Demək istəyirəm ki, imkanlar böyükdür. Azərbaycanın zəngin təbii sərvətləri var, böyük sənaye potensialı var, güclü intellektual potensialı var, bir çox sahələrdə bacarıqlı mütəxəssislərimiz var. Bizdə lazımi qədər işçi qüvvəsi var.

Sərmayə qoymaq istəyən hər bir təşkilat, hər bir şirkət üçün, şübhəsiz ölkənin daxili ictimai-siyasi vəziyyəti də çox əhəmiyyətlidir. Bildirmək istəyirəm ki, Azərbaycanda daxili ictimai-siyasi vəziyyət tam sabitdir. Prezident başda olmaqla Azərbaycanın dövlət orqanları bütün sahələrə tam nəzarət edirlər. Azərbaycan mədəni cəhətdən inkişaf etmiş bir ölkədir. Siz, Azərbaycanda həm Avropanı görəcəksiniz, həm də Asiyanı, Avropa ilə Asiyanın ən gözəl inteqrasiyası, sintezi məhz Azərbaycandadır. Buna görə də mən sizi Azərbaycana dəvət edirəm və hər birinizə zəmanət verirəm ki, bizim əməkdaşlığımız səmərəli olacaqdır.

Diqqətinizə görə çox sağ olun.

**Sual: Bir ay bundan əvvəl Azərbaycanda olmuş Britaniya biznesmenlərindən öyrəndim ki, sizin ölkə**[61-62]**nizə sərmayə qoymaq üçün əlverişli şərait var. Bununla əlaqədar sizə iki sual vermək istəyirəm. Birincisi, Azərbaycandan neftin ixracı üçün boru kəmərlərinin haradan keçəcəyi barədə oktyabrın 9-da qəbul olunmuş qərar onu sübut edirmi ki, Rusiya Xəzər dənizinin Azərbaycana aid hissəsindəki neft ehtiyatlarının Azərbaycan və xarici şirkətlər tərəfindən müştərək işlənməsini qəbul edir və sizcə, gələcəkdə buradakı neft və qaz ehtiyatlarının istismarı zamanı Rusiya ilə hər hansı münaqişə yarana bilərmi? İkinci sualım da bununla bağlıdır. Rusiya Dağlıq Qarabağ münaqişəsinin tez bir zamanda aradan qaldırılmasını öz strateji siyasətində nəzərdə tuturmu və bunu istəyirmi?**

**Cavab**: Əvvəla, Xəzərin Azərbaycan sektorunda neft yataqlarının istismarı və ilkin neftin ixracı ilə əlaqədar neft kəmərlərinin marşrutları haqqında qərarlarımız var. Bir il bundan öncə, daha doğrusu, 1994-cü ilin sentyabrında böyük neft müqaviləsi imzalandı. Bu da Xəzərin Azərbaycan sektorundakı üç neft yatağından 30 il müddətində neft çıxarılması və ondan istifadə edilməsi haqqında müqavilədir. Müqavilənin imzalandığı vaxtdan bəri bu bir ildə çox iş görülüb. Müqaviləyə uyğun olaraq hazırlanmış proqram nəzərdə tutulmuş vaxtda yerinə yetirilir. Bunun nəticəsi olaraq bu ilin oktyabr ayında 1996-cı ildə çıxarılacaq ilkin neftin ixracı üçün neft kəmərlərinin çəkilməsi haqqında da qərar qəbul edilib. Onların biri Rusiya ərazisindən keçib Qara dəniz sahilinə gedəcək, digəri isə Gürcüstandan keçib həmçinin Qara dənizə çıxacaqdır. Konsorsium 1996-cı il üçün təxminən 600 milyon dollar məbləğində büdcə nəzərdə tutubdur. Deməli, müqavilə həyata keçirilir. Rusiya onun iştirakçısıdır. Müqavilənin layihəsində payların 10 faizi Rusiyanın "LUKoyl" şirkətinə məxsusdur. Dediyim kimi, ilkin neftin ixracı üçün neft kəmərinin biri də Rusiyadan keçəcəkdir. Odur ki, biz öz işimizi görür və Rusiya ilə əməkdaşlıq edirik. İndi siz fikirləşirsiniz ki, Rusiya buna gələcəkdə imkan verəcək, yoxsa verməyəcək. Bu sual bir az müəmmalıdır, yəni bir az aydın sual deyildir. Xəzərin ehtiyatlarından istifadə edilməsində Rusiya da, Azərbaycan da və başqa Xəzəryanı dövlətlər də eyni hüquqa malikdirlər. Biz isə belə hesab edirik ki, bütün münasibətlər beynəlxalq hüquq normaları çərçivəsində qurulmalıdır. Əlbəttə, beynəlxalq hü[62-63]quq normalarına Rusiya da riayət etməlidir. Buna görə də biz burada elə bir böyük problem görmürük.

Dağlıq Qarabağ haqqında verdiyiniz suala gəldikdə isə bu, bizim üçün ən böyük problemdir. Ermənistanla Azərbaycan arasında münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün indi mən burada olduğum günlərdə Almaniyanın Bonn şəhərində böyük bir toplantı keçirilir. Orada ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistanla Azərbaycan arasında danışıqlar aparılır. Danışıqlarda Minsk qrupunun həmsədrləri də iştirak edirlər. Sizə deyə bilərəm ki, dünən axşam da, bu gün gecə də danışıqlar davam etmişdir. Mən səhər tezdən danışıqların gedişi barədə telefonla məlumat aldım. Bu danışıqlarda Rusiya da iştirak edir. Çünki Rusiya Minsk qrupunun həmsədrlərindən biridir. Minsk qrupunun indi iki sədri var. Sədrlərdən biri Rusiyanın, digəri isə Finlandiyanın nümayəndələridir. Ona görə də Rusiya bu işin bilavasitə içərisindədir. Biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun. Amma bizim əsas şərtlərimiz budur ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı tamamilə təmin edilsin, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad edilsin, işğalçı silahlı qüvvələr Azərbaycan torpağından çıxsınlar. Bunlar ədalətli şərtlərdir. Biz bu şərtləri beynəlxalq hüquq normalarına əsasən irəli sürmüşük və Rusiya da çalışmalıdır ki, bu məsələ bizim şərtlərimiz əsasında sülh yolu ilə həll olunsun. Lakin bunun həll edilib-edilməyəcəyi məsələsi, ola bilsin, geciksin. Bunun isə Azərbaycana sərmayə qoyulmasına heç bir maneçiliyi ola bilməz. Odur ki, bunun üçün siz narahat olmayın.

**Sual: Cənab prezident, mən dünyanın ən böyük sığorta şirkətlərindən biri olan Amerika Beynəlxalq İnkişaf Şirkətini təmsil edirəm. Keçmiş sovet respublikalarından bir çoxu öz dövlətlərinin sərhədlərindən kənarda, yəni xaricdə sığorta şirkətləri yaradıblar. Bu şirkətlərin də məqsədi ondan ibarətdir ki, ölkəyə qoyulan xarici sərmayələri bir növ sığortalasınlar. Məsələn, Rusiya Baham adalarında belə bir şirkət**

**yaradıb. Özbəkistan belə bir şirkəti mənim şirkətimlə birlikdə Londonda yaradıb. Daha iki keçmiş sovet respublikası bu təcrübədən faydalanmaq niyyətindədir. Bilmək istərdik ki, indiyədək gördüyünüz tədbirlərə əlavə ola**[63-64]**raq Azərbaycan hökuməti də bu təcrübədən istifadə etməyi planlaşdırırmı?**

**Cavab**: Bilirsinizmi, biz iqtisadiyyatımızda dəyişikliklər aparmaq üçün bütün təcrübələrdən istifadə etməyə çalışırıq və çalışacağıq. Sizin verdiyiniz məlumat çox maraqlıdır. Zənnimcə, biz bu təcrübədən istifadə etməliyik.

Mən elə bu dəqiqə iqtisadi siyasət üzrə dövlət müşavirim Vahid Axundova göstəriş verirəm ki, sizin Özbəkistanla yaratdığınız əlaqələrlə maraqlansın. Əgər bu, doğrudan da faydalı təcrübədirsə, biz ondan mütləq istifadə edəcəyik.

**Sual: Azərbaycan hökuməti vergiləri azaltmaq və güzəştli vergilər tətbiq etməklə xarici sərmayədarları ruhlandırmaq və ölkəyə sərmayə cəlb etmək niyyətindədirmi?**

**Cavab**: Bəli, biz bu niyyətdəyik. Bu sahədə görmüş olduğumuz və görəcəyimiz işlərdə xarici sərmayədarlar üçün əlverişli şərait yaradılması mühüm yer tutur. Hazırda fiziki şəxslər üçün vergilərin yeni dərəcələri nəzərdən keçirilir. Bu məqsədlə biz ölkəmizdə işləyən bütün firma və şirkətlərin təklif və rəylərindən istifadə etmək niyyətindəyik.

**H. Əliyev:** Mən də öz adımdan və mənimlə birlikdə bu görüşə gələnlər adından sizə Azərbaycana göstərdiyiniz diqqətə görə təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu görüşümüz əməkdaşlıq sahəsində yeni işlərin bünövrəsini qoyacaqdır. Hamınıza təşəkkür edir və işlərinizdə uğurlar arzulayıram. [64-65]

## Bİ-Bİ-Sİ KORPORASİYASINDAKI GÖRÜŞDƏ Bİ-Bİ-Sİ-nin MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*London*

*30 noyabr 1995-ci il*

**Sual: Neft müqaviləsi imzalanıb, respublikada seçkilər keçirilib. Hər iki tədbirdən əvvəl Azərbaycan xalqına xoş vədlər edilib. Sizcə sadə camaat vəziyyətin müsbət istiqamətdə dəyişməsini nə zaman hiss edəcək?**

**Cavab:** Hiss edəcək. Vəziyyətin müsbət istiqamətdə dəyişməsi bir günlük, yaxud bir dəqiqəlik iş deyil.

**Sual: Nə qədər çəkəcək?**

**Cavab:** Nə qədər çəkəcəyini indi demək mümkün deyil. Amma vəziyyət günü-gündən müsbət istiqamətdə dəyişir. Bilirsiniz, insanları bir tərəfdən iqtisadi vəziyyət, onların maddi vəziyyəti maraqlandırır. Digər tərəfdən, insanları daxili sabitlik, rahatlıq, təhlükəsizlik də maraqlandırır. Ona görə də "dəyişiklik" deyəndə, sadəcə, insanların əmək haqqı çox olacaq, yağ, ət olacaq, malların qiyməti ucuz olacaq – tək bu deyil. İnsanları hər şey maraqlandırır. Azərbaycan vətəndaşları elə dözümlü insanlardır ki, onlar bəzən deyirlər ki, biz bu çətinliyə də dözərik, çadırda yaşayırıq, – buna da dözərik, ancaq müharibə olmasın. İşğal olunmuş torpaqlarımız azad edilsin, qaçqınlar öz yerlərinə qayıtsınlar, ölkənin daxilində cinayətkarlıq olmasın. Siz bilirsiniz ki, son illərdə Azərbaycanda nə qədər cinayətkar qruplar yaranmışdı, onlar nə qədər cinayət etmişdilər – həm dövlətə qarşı, həm də ayrı-ayrı vətəndaşlara qarşı. İndi son iki ildə bu cinayətkarlar aradan götürülür, ifşa olunur – yaxalanır, bu böyük cinayətlərin üstü açılır. Bununla da təkcə dövlətin təhlükəsizliyi təmin olunmur, şübhəsiz, bu da olur, – amma ikinci tərəfdən, vətəndaşların təhlükəsizliyi təmin olunur, cəmiyyətdə əmin-amanlıq, sakitlik, rahatlıq yaranır. Ona görə də bütün bu tədbirlərin nəticəsi hər gün meydana çıxacaqdır. Amma belə bir gün olmayacaq ki, bu gün yatdın, sabah durub gördün ki, qiy[65-66]mətlər də ucuzdur, ət də, yağ da çoxdur və hər yerdə əmin-amanlıqdır, cinayətkar da yoxdur, torpaqlarımız da azad olunub. Bu, bir gündə olunası iş deyil.

**Sual: Siz müharibə haqqında danışdınız. Sizin rəyinizə görə, Azərbaycanın yeni konstitusiyasında Qarabağ münaqişəsinin həll olunması üçün əsas yaradılıb. Siz bunu deyəndə nəyi nəzərdə tutursunuz?**

**Cavab:** Birincisi, orada Azərbaycanın ərazi bütövlüyü haqqında maddələr var. İkincisi, Azərbaycanın ərazisi bölünməzdir.

**Sual: Sizcə, münaqişənin həllində bu, bir kömək edəcəkmi?**

**Cavab:** Şübhəsiz. Yəni biz xalqın iradəsini bildiririk ki, Azərbaycanın ərazisi bölünməzdir və Azərbaycanın sərhədləri yalnız ümumi səsvermə yolu ilə dəyişdirilə bilər. Yəni heç bir kəs, vəzifədə olan şəxs, o cümlədən prezident də özbaşına, xalqın iradəsi olmadan Azərbaycanın sərhədlərini dəyişdirə bilməz, Azərbaycanın ərazisini dəyişdirə bilməz. Bu, xalqın iradəsinə bağlıdır. Bunlar hamısı çox böyük zəmanət verir.

**Sual: Bəs o biri tərəf?**

**Cavab:** Əlbəttə ki, o biri tərəf – işğalçı tərəf olan Ermənistan, Azərbaycanı işğal edənlər – onlar öz işğalçılıq niyyətlərini həyata keçirmək istəyirlər. Onların məqsədi Azərbaycanın işğal etdikləri bütün torpaqlarını əllərində saxlamaq deyil, onların məqsədi yalnız Qarabağı özlərinə bağlamaqdır.

**Sual: Demək, söhbət məsələni güc ilə həll etməkdən gedir, yoxsa siyasi yolla?**

**Cavab:** Yox, biz söhbəti məsələnin siyasi yolla, sülh yolu ilə həll edilməsi barədə aparırıq.

**Sual: Cənab prezident, seçkilər prosesi Qərb müşahidəçiləri tərəfindən tənqidə məruz qalmışdır. Siz də demişdiniz ki, seçkilər uğurla, demokratik yolla gedib. Siz bunu nə ilə əsaslandırırsınız? Ümumiyyətlə, xarici müşahidəçilərin rəyinə necə baxırsınız?**

**Cavab:** Bilirsiniz, bu, tamamilə təbii bir şeydir. Dünyada nə var ki, onu tənqid etmək olmasın? Elə bir şey varmı? Elə Bi-Bi-Si-ni də tənqid etmək olar. Elədirmi? Dünyada heç bir şey yoxdur ki, onu tənqid etmək olmasın. Dünyada heç bir hakimiyyət yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Heç bir tədbir yoxdur ki, onu tənqid etmək mümkün olmasın. Ona görə də seçkilərin aparılmasında buraxılan səhvlərin xari[66-67]ci müşahidəçilər tərəfindən göstərilməsi, ayrı-ayrı yerlərdə qanun pozuntularının göstərilməsi, yaxud da ki, tənqid o demək deyil ki, seçkilər normal keçməyib. Seçkilər normal keçib. Heç vaxt ola bilməzdi ki, bütün xarici müşahidəçilər gəlib desin ki, hamısına əla qiymət verirəm. Bu, qeyri-təbii bir şey ola bilərdi. Keçmiş Sovetlər İttifaqında belə bir vəziyyət var idi ki, deyirdilər ki, hər bir şey əladır. Ona görə də müşahidəçilərin tənqidlərini də təbii hesab edirəm, bəzi hallarda onların, bəlkə də qeyri-obyektiv fikirləri də var. Bunu da demək istəyirəm. Onların dediyi də Allahın hökmü, Quran ayəsi deyil. Hərə öz müşahidəsini özü bildiyi kimi edir, öz fikrini özü bildiyi kimi deyir. Biz onları da qəbul edirik – obyektiv olsa da, obyektiv olmasa da. Amma eyni zamanda hesab edirik ki, bizim seçkilər əsasən demokratik gedibdir və deputatlar əsasən demokratik şəraitdə seçiliblər.

**Sual: Çox sağ olun, hörmətli prezident, icazənizlə, mən bir neçə sualı rusca soruşum və cavabları da rus dilində verəsiniz. Cənab prezident, belə bir fikirlə razısınızmı ki, sizin regionda hadisələrin gedişinə Rusiyanın təsiri var? Sizcə, bu təsir nədən ibarət ola bilər?**

**Cavab:** Şübhəsiz ki, regionda hadisələrin gedişinə Rusiyanın təsiri var. Region deyərkən biz Qafqazı, o cümlədən Zaqafqaziyanı nəzərdə tuturuq, hər iki halda Rusiyanın təsiri var. Bu da təbiidir. Çünki, necə deyərlər, Yer kürəsinin bu hissəsi, – indi Zaqafqaziyada müstəqil dövlətlər var, – bir çox illər, onilliklər ərzində, hətta əsrlərlə Rusiyanın, keçmiş Sovetlər İttifaqının tərkibində olmuşdur. Ona görə Rusiyanın burada təsirinin olması, yenə deyirəm, təbiidir, qoy bundan heç kim təəccüblənməsin.

**Sual: Xarici ekspertlərin fikrincə, Azərbaycan İran arasındakı münasibətlərdə soyuqluq müşahidə olunur. Belə hesab edirlər ki, İran Zaqafqaziya regionunda Azərbaycanın Qərbin dayağına çevrilməsindən narahatdır. Siz bu cür mülahizələrlə razısınızmı?**

**Cavab:** Bilirsiniz, münasibətlərdə müəyyən bir sərinlik, narahatlıq var. Ancaq mənə belə gəlir ki, bu, Azərbaycan ilə İran arasında olan münasibətləri səciyyələndirmir. Azərbaycana münasibətdə İranın öz mülahizələri var, bu baxımdan bizim də öz mülahizələrimiz var. Məsələn, Qərbin neft şirkətlə[67-68]ri, xüsusən İranın özünün münasibətlərinin çox mürəkkəb olduğu Amerika Birləşmiş Ştatlarının neft şirkətləri ilə bizim müqavilə imzalamağımızdan İran narazıdır. Lakin biz də ondan narazıyıq ki, İran Ermənistana fəal kömək göstərir, onu strateji mallarla, məhsullarla təchiz edir və Ermənistan İranın bu köməyindən, dəstəyindən istifadə edərək bizimlə sülh danışıqlarında öz mövqeyini. daha da sərtləşdirir. Yəni bizim İrana qarşı narazılığımız, İranın da bizə qarşı narazılığı var. Ancaq mən belə hesab edirəm ki, bu, İran və Azərbaycan arasında qarşılıqlı münasibətlərin strateji istiqamətinin müəyyənləşdirilməsinə təsir göstərməməlidir. Biz İranla dostluq münasibətləri saxlamağa, bütün sahələrdə, xüsusən iqtisadiyyat, ticarət, elm, mədəniyyət, insani münasibətlər sahəsində əlaqələri möhkəmləndirməyə çalışırıq.

**Sual: Cənab prezident, Orta Asiya respublikaları və Qazaxıstan ilə Azərbaycan arasında mədəniyyət, din, etnik və tarixi baxımdan yaxınlıq olmasına baxmayaraq, ümumən götürdükdə bu ölkələr arasında pərakəndəlik müşahidə edilir. Azərbaycan da daxil olmaqla yaxın gələcəkdə bu ölkələr arasında hansısa bir siyasi qurumun yaradılmasını mümkün sayırsınızmı?**

**Cavab:** Bilirsiniz, şübhəsiz ki, yaxınlaşma olacağını mən görürəm, bu proses getməlidir. Bu ölkələr arasında müəyyən qədər sıx əlaqənin olmaması barədə fikrinizlə şərikəm. Görünür, bu keçid dövrünün prosesləri ilə bağlıdır. İndi hər bir ölkəni daha çox öz problemləri, daxili işləri, iqtisadi vəziyyəti narahat edir və hər bir ölkə öz problemlərinin həlli üçün daha əlverişli yollar axtarır. Bu, təbiidir. Lakin mən hesab edirəm ki, bunlar aradan qaldırılacaq. Tarixi əlaqələr, mədəni, dini yaxınlıq, dil yaxınlığı Azərbaycan da daxil olmaqla bu ölkələr arasında münasibətlərin daha fəal xarakter almasına kömək edəcəkdir. Hansısa bir regional qurum yaradılmasına gəldikdə isə, mən bunu zəruri, gərəkli saymıram.

**Sual: Nə üçün, axı bu, respublikaları siyasi cəhətdən yaxınlaşdıra bilər?**

**Cavab:** Bu, nəyə lazımdır? İndi dünyada o qədər qurumlar yaranmışdır ki, daha birisinə də ehtiyac görmürəm. Sadəcə olaraq mehriban münasibətlər saxlamaq, hansısa məsələləri razılaşdırmaq lazımdır. [68-69]

**Sual: Sizə elə gəlmirmi ki, belə bir qurumun yaradılması Orta Asiya və Qafqaz rayonunda strateji qüvvələri, strateji mənafeləri tarazlamağa kömək edərdi?**

**Cavab:** Bilirsiniz, dövlətlər arasında hər hansı belə regional qurumun yaradılması əks hərəkətlər doğurur. Mən hesab edirəm ki, belə bir qurumun yaradılmasına ehtiyac yoxdur.

**Müxbir: Müsahibəyə görə təşəkkür edirəm**. [69-70]

## BÖYÜK BRİTANİYANIN "EKONOMİST" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*

*1 dekabr 1995-ci il*

**Sual: Sizcə, neft ehtiyatlarını ixrac etməyə başladıqdan sonra Azərbaycan nə qədər zənginləşəcək? Deyirlər ki, Azərbaycan dönüb Küveyt olacaqdır.**

**Cavab**: Mən şübhə etmirəm ki, Azərbaycan öz neft yataqlarının hamısından səmərəli istifadə etsə və onların ixracını yaxşı təşkil edə bilsə zəngin olacaqdır. Küveyt Küveytdir, Azərbaycan isə Azərbaycandır. Nə üçün hamı özünü Küveytə bənzətməyə çalışmalıdır? Bəlkə gələcəkdə elə bir şərait yaranacaqdır ki, başqa ölkələr özlərini Azərbaycana bənzətməyə çalışacaqlar.

**Sual: Razılaşıram ki, Azərbaycan öz neft ehtiyatlarından səmərəli istifadə edərsə və onu ixrac edərsə, doğrudan da zəngin bir dövlətə çevrilər. Amma bəs bu, indiyədək niyə baş verməyib?**

**Cavab**: Bilirsiniz, Azərbaycan indiyə qədər də çox neft istehsal edibdir. Azərbaycan dünyada sənaye üsulu ilə neft çıxaran, istehsal edən ilk ölkədir. Siz dediniz ki, bu sahə ilə məşğul olursunuz. Güman edirəm, sizin üçün maraqlı olar ki, Azərbaycanda ilk neft fontanı 1848-ci ildə olmuşdur. O vaxt dünyanın heç bir yerində neft çıxmırdı. Amerika Birləşmiş Ştatlarının Pensilvaniya ştatında neft 1858-ci ildə fontan vurubdur. XIX əsrin ikinci yarısında bizdə neft istehsalı o vaxtın ölçülərinə görə o qədər böyük olubdur ki, dünyanın çox böyük şirkətləri Azərbaycana gəliblər, işləyiblər. Nobel qardaşları 1870-ci illərdə Azərbaycanda öz fəaliyyətlərinə başlayıblar. Onların o vaxt tikdikləri binalar, yaratdıqları bəzi obyektlər indiyədək durur.

XX əsrin əvvəlində Azərbaycan neft istehsalını daha da çoxaldıbdır. Ancaq Sovet hakimiyyəti qurulandan sonra və Azərbaycan Sovetlər İttifaqının tərkibinə keçəndən sonra şüb[70-71]həsiz ki, Azərbaycanın bütün neft sənayesi Sovetlər İttifaqının iqtisadiyyatına, onun sənayesinə xidmət edibdir. Bu fakt da sizin üçün yaqin maraqlı olar ki, İkinci dünya müharibəsində Sovetlər İttifaqı Almaniya ilə müharibə edəndə, faşist Almaniyası SSRİ-yə hücum edəndə və sonrakı dövrdə gedən müharibədə (bu müharibə isə motorlar – tanklar, təyyarələr müharibəsi idi) Sovetlər İttifaqının neftə və neft məhsullarına olan tələbatının 70-80 faizini Azərbaycan verirdi.

Çoxları belə fikirdədir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci dünya müharibəsində bəlkə də Sovetlər İttifaqı alman faşizminə qalib gələ bilməzdi. Dənizdən, suyun altından da neftin çıxarılması ilk dəfə Azərbaycanda olmuşdur. 1949-cu ildə Xəzər dənizində ilk böyük neft fontanı olmuşdur. O vaxt indi Böyük Britaniyanın ətrafında dənizdən neft çıxarılan buruqların heç biri yox idi. Norveçin "Statoyl" şirkəti də indi dənizdən bu qədər ki, neft çıxarır, bunlar da o vaxt yox idi. Ancaq iş burasındadır ki, Azərbaycan SSRİ-nin tərkibində olanda bu neft bütün Sovetlər İttifaqına məxsus idi. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Ona görə də respublikamızda istehsal olunan neft Sovetlər İttifaqının ehtiyaclarının ödənilməsinə sərf edilirdi.

İndi Azərbaycan müstəqil dövlətdir. Özü öz sərvətlərinin sahibidir. Azərbaycan yeni bir iqtisadi sistem əsasında özünün neft yataqlarında xarici neft şirkətləri ilə müştərək iş aparır, neft hasilatını artırmaq istəyir.

**Sual: Cənab prezident, Qərb neft şirkətlərinin Azərbaycanda neft istehsal etməsi üçün ekoloji baxımdan texniki problemlər, çətinliklər yoxdur. Lakin Qərb şirkətlərində bir narahatlıq var. Bu narahatlıq isə siyasi risklə bağlıdır. Siyasi risk deyən zaman mən bir sıra dövlətlərin regiona, sizin bölgənizə, Azərbaycan neftinə olan marağını nəzərdə tuturam. Siz Qərb neft şirkətlərinin bu narahatlığına necə cavab verərdiniz?**

**Cavab**: Bilirsiniz, başqa ölkədə sərmayə qoymaq istəyən hər bir şirkət müəyyən qədər riskə gedir. Ancaq bu riskin həcmi, onun böyüklüyü-kiçikliyi əsas əhəmiyyət kəsb edir. Bu siyasi riskdən heç kəs azad deyil. Bəzən bir təbii fəlakət də hər bir şeyi dağıda bilir. Doğrudur, bu, siyasi risk məsələsi ilə əlaqədar deyil. Amma hər yerdə iş görülərkən bunun özü də nəzərə alınmalıdır. O ki, qaldı xarici neft şirkətlərinin Azər[71-72]baycanda iş görməklə əlaqədar siyasi riskinə, bu, çox minimaldır.

Birincisi, siyasi risk hər bir ölkənin daxili ictimai-siyasi vəziyyəti ilə əlaqədardır. Mən bunu deyə bilərəm, Adam Smit İnstitutunun keçirdiyi konfransda da bəyan etdim ki, indi Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitdir. Bu, bizim noyabrın 12-də ilk dəfə qəbul etdiyimiz konstitusiya ilə qorunur, qanunlarla, hüquq normaları ilə, demokratiya prinsiplərinin həyata keçirilməsi ilə qorunur. Bu ictimai-siyasi sabitlik eyni zamanda hakimiyyətin gücü, səlahiyyətləri ilə qorunur. Konfransda çıxış edərkən mən bir prezident kimi hamıya zəmanət vermişəm ki, gəlib Azərbaycanda rahat iş görmək olar. Biz bunun üçün bütün şəraiti yaradırıq.

Şübhəsiz, narahat edən cəhət bir də ondan ibarətdir ki, Ermənistan ilə Azərbaycan arasında yeddi ildir hərbi münaqişə mövcuddur. Biz bu hərbi münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Güman edirəm artıq dünya ictimaiyyəti inanır ki, biz bu münaqişəni sülh yolu ilə həll edə bilərik. Çünki yeddi il davam edən bu müharibədə bir il yarım bundan öncə, 1994-cü ilin mayın 12-də atəşin dayandırılması haqqında, yəni müvəqqəti

sülh yaranması barədə saziş əldə etmişik. Bu, bilavasitə Azərbaycan ilə Ermənistan arasında bağlanmış sazişdir. Bu sazişin bağlanmasında heç bir vasitəçi qüvvənin iştirakı olmayıb. Artıq 19 aydır ki, atəş yoxdur, qan tökülmür, insanlar rahat yaşayırlar. Bu, əsas verir ki, biz bundan sonra da məsələnin sülh yolu ilə həll olunması üçün səylərimizi artıraq.

Beləliklə, bu amilə görə də siyasi risk tamamilə minimal səviyyədədir. Azərbaycanda dövlət respublikamızın bütün sahələrinə çox etibarlı nəzarət edir. Bu da Azərbaycana sərmayə qoymaq istəyən hər bir şirkət üçün, mənə elə gəlir ki, böyük zəmanətdir.

**Sual: Cənab prezident, xarici şirkətləri Azərbaycanda narahat edən məsələ heç də Azərbaycanda daxili sabitlik deyil. Onlar bu sabitliyin olduğuna əmindirlər. Xarici şirkətləri daha çox Azərbaycanın xarici ölkələrlə münasibətləri narahat edir. Başqa sözlə desək, bir çox Qərb şirkətləri bilmək istəyirlər ki, Azərbaycanın inkişafı yolunda Rusiyanın niyyətləri nədən ibarətdir, bu müqavilələrin həyata keçirilməsinə Rusiya imkan verəcəkdirmi? Bəziləri deyirlər ki,** [72-73] **Rusiya bu imkanın qarşısını almağa, ona mane olmağa çalışır. Neft müqavilələrinin həyata keçirilməsinə mane olmağa çalışır. Digərləri isə deyirlər ki, Rusiya bu müqavilələrin irəli getməsini istəyir və bu işdə Azərbaycanı ruhlandırır. Siz bunlara bir şərh verərdinizmi?**

**Cavab**: Bilirsiniz, bu fikirlər qarmaqarışıqdır. Bunların bəzisi əsaslı, bəzisi əsassızdır. Ancaq dəqiq vəziyyət bundan ibarətdir. Şübhəsiz ki, indi ölkələr arasında rəqabət var. İqtisadi cəhətdən böyük, güclü ölkələr istəyirlər ki, başqa ölkələri öz iqtisadi, bəzən isə siyasi təsir dairəsinə salsınlar. Bu, tək Rusiyaya aid deyil. Ancaq sizin sualınıza konkret cavab olaraq onu demək istəyirəm ki, birincisi, Rusiya bizim bu neft müqaviləsində iştirak edir. Yəni keçən ilin sentyabr ayında neft müqaviləsi imzalanarkən Rusiyanın energetika nazirinin müavini bu müqaviləyə imza atıbdır. Həmin o müqavilədə nəzərdə tutulan payın on faizi Rusiyanın "LUKoyl" şirkətinə məxsusdur.

Noyabrın 10-da biz Azərbaycanda yeni bir müqavilə imzaladıq, yeni bir konsorsium yaratdıq. Həmin konsorsiuma Rusiyanın "LUKoyl" şirkəti də daxil olub. Bu konsorsiuma həmçinin Amerikanın "Pennzoyl", İtaliyanın "Acip" şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti daxildirlər. Bu müqavilədə Rusiyanın payı daha da çoxdur. Müqavilənin imzalanmasında Rusiyanın yanacaq və energetika naziri Yuri Şafranik iştirak edib və bu müqaviləni imzalayıb.

Nəhayət, böyük neft müqaviləsi proqramını həyata keçirməkdən ötrü ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi haqqında bu ilin oktyabr ayında qərar qəbul etmişik. Bu iki neft kəmərindən biri şimalda, Rusiyanın ərazisindən keçib Qara dənizə gedəcək. İkinci kəmər isə qərb istiqamətində, Gürcüstanın ərazisindən keçərək o da Qara dənizə çıxacaqdır.

Şimaldan, Rusiyanın ərazisindən keçəcək neft kəmərinin tikilməsi haqqında yaxın günlərdə Moskvada lazımi sənədlər, müqavilələr imzalanacaqdır.

Beləliklə, siz görürsünüz ki, Rusiya artıq bizim müqavilələrin üzvüdür, onların iştirakçısıdır. Biz Rusiya ilə əməkdaşlıq edirik. Ona görə də güman etmirəm ki, Rusiya bu işlərin həyata keçməsinə maneçilik törətsin.

Qərb şirkətlərinin bundan narahat olmasına və Rusiyanı [73-74] təhlükə kimi qəbul etməsinə heç bir əsas yoxdur. Ona görə də burada siyasi risk heç yoxdur.

**Sual: Moskvada baş verənləri diqqətlə izləyənlər indi Rusiyanın siyasətində iki elementin mövcud olduğunu bariz şəkildə görə bilərlər. Bu iki meyldən biri "LUKoyl"u dəstəkləyən qrupdur. Həmin qrupda olanlar düşünürlər ki, Azərbaycanın bağladığı neft müqavilələrinin həyata keçirilməsində, inkişaf etdirilməsində Rusiya iştirak etməli və buna yardımçı olmalıdır. Çünki bu müqavilələrdə "LUKoyl" şirkətinin də payı vardır. Digər bir siyasi qrup isə Rusiyanın xarici siyasət aləminə məxsusdur. Bu qrupu təmsil edənlər əsasən millətçilik mövqeyindən çıxış edərək Azərbaycanın neft ehtiyatlarının birgə istismar olunmasını istəmirlər və bu işə mane olmaq istəyirlər. Sizcə, Rusiyanın regiona olan marağını birinci qrup, başqa sözlə desək, Rusiyanın enerji lobbisi müəyyənləşdirir, yoxsa ikinci qrup?**

**Cavab**: Birincisi, mənə elə gəlir ki, sizin təhliliniz ümumiyyətlə əsaslıdır. İkincisi, doğrudan da orada iki qrup, dəstə var. Mən bir daha demək istəyirəm ki, sizin təhliliniz və əldə etdiyiniz nəticələr əsaslıdır. Ancaq mən hesab edirəm ki, sağlam məntiq hər şeydən üstün olacaqdır. Rusiyanın iqtisadi mənfəətləri üstün gələcəkdir. Millətçi, imperiya əhval-ruhiyyəli qüvvələr güman edirəm ki, bizim bu işlərimizə mane ola bilməzlər. Doğrudur, onlar müəyyən bir zərər gətirə bilərlər. Ümumiyyətlə, bizim işlərimiz çətinliklərin aradan götürülməsi yolu ilə gedir. Bizim bu işlərimiz hamar yol ilə, yaxud tamamilə düz asfalt yolla getməyib. Eniş də, yoxuş da var, qarşımıza daş da, qaya da çıxır. Ancaq biz bunları yarıb keçirik. Güman edirəm ki, bu məsələdə olan maneələri də biz yarıb keçə biləcəyik.

**Müxbir**: **Cənab prezident, etiraz etməsəydiniz, ilkin neftin ixracı ilə bağlı daha konkret suallara keçərdim. Çünki bu məsələ neft sənayesi ilə məşğul olan hər bir şəxsdə böyük maraq doğurur**.

**Heydər Əliyev**: Buyurun, mən sizi dinləyirəm.

**Sual: İlkin neftin ixracı ilə əlaqədar iki kəmər barədə çoxlu söz-söhbətləri var. Bəziləri belə bir iddia irəli sürürlər ki, neft kəmərinin Gürcüstandan kəsi Gürcüstanın Rusiyadan müstəqilliyinə kömək edir,** [74-75] **yardımçı olur**. **Digər qüvvələr isə belə hesab edirlər ki, Gürcüstandan keçən kəməri də məhz**

**Rusiya nəzarətdə saxlayır. Siz bu fikirlərin hansına üstünlük verirsiniz?**

**Cavab**: Bilirsiniz, ümumiyyətlə, bu tədqiqatçılar, iqtisadçılar, jurnalistlər ayrı-ayrı mülahizələr ortaya atırlar və bu mülahizələr də sonra bəzən çox böyük vətəndaşlıq hüququ alır, bunun ətrafında cürbəcür söhbətlər, müzakirələr getməyə başlayır. Belə mülahizələr ətrafında fikir mübadiləsi aparmaq istəməzdim. Şübhəsiz ki, hər bir iqtisadi addımın nəyəsə xeyri var, bu nə iləsə əlaqədardır və hansı məsələlərləsə bağlıdır. Qısaca olaraq mən o cavabı verə bilərəm ki, iki neft kəmərinin eyni zamanda çəkilməsini biz düşünülmüş surətdə etmişik. Birincisi, bu, iqtisadi prinsiplərə, əsaslara uyğundur. İkincisi, bəzi siyasi məsələləri də həll edir.

**Sual: Sizcə, əsas neft kəməri haradan keçəcəkdir? Başqa sözlə desək, bir neçə ildən sonra qərar qəbul edilməli olan bu kəmərin haradan keçəcəyi barədə bir fikir varmı?**

**Cavab**: Bir neçə fikir var. Hətta beynəlxalq iqtisadi dairələr özlərinin bu barədə layihələrini də hazırlayıblar. Bu layihələrin həm üstünlüyü, həm də çatışmazlığı var. Biz bu məsələni ölçüb-biçəcəyik və bütün prinsipləri nəzərə alaraq qərar qəbul edəcəyik. Hələ vaxtımız var, düşünməliyik. Yaşayarıq, görərik.

**Sual**: **İlkin neftin ixracı ilə əlaqədar Türkiyənin irəli sürdüyü bir iddia var. Türkiyə bəyan edir ki, əgər Qara dənizdən çoxlu neft ixrac olunarsa, o zaman ekoloji problemlərlə əlaqədar Bosfor boğazında təhlükə yarana bilər. Bu fikirlərə siz necə baxırsınız?**

**Cavab**: Əgər Türkiyə bunu deyirsə, deməк Türkiyə doğru deyir. Bu boğazın hakimi onlardır. Mən onların fikri ilə razıyam.

**Sual: Əvvəllər biz deyirdik ki, Azərbaycanın zəngin potensialı, sərvətləri vardır. Sizcə, bu zəngin sərvətlərdən istifadə etməklə Azərbaycan nə vaxt zənginləşə bilər? Beş iləmi, on iləmi, on beş iləmi, yoxsa bu proses uzun çəkər?**

**Cavab**: Bilirsiniz, bir var istək, arzu, bir də var ki, imkanlar. Mən istəyirəm ki, gələn ildən Azərbaycan zəngin olsun. Ancaq bu məsələyə real yanaşsaq, bizə bir neçə il la[75-76]zımdır ki, bu iqtisadi islahatları, özəlləşdirməni həyata keçirək və xarici investisiyaların Azərbaycana gəlməsini gücləndirək. Bunlar hamısı Azərbaycanın iqtisadiyyatını qaldıracaq, bu da özü-özlüyündə insanların yaşayış tərzini yaxşılaşdıracaq, Azərbaycanı iqtisadi cəhətdən zənginləşdirəcəkdir.

Enerji sektorunda isə bizim bu müqavilənin konkret proqramı, yəni qrafiki var. Məsələn, ilkin neft 1996-cı ilin sonunda alınmalıdır. Ancaq ilkin neftin beş milyon ton həcminə çatması üçün iki il də lazım olacaqdır. Biz böyük nefti təxminən 2000-ci ildən sonra geniş miqyasda alacağıq. Böyük neftin ixracı üçün gərək böyük neft kəməri tikilsin. Bunların həyata keçirilməsi prosesində də Azərbaycanda iqtisadi vəziyyət tədricən yaxşılaşacaqdır. Ancaq real nəticə alınandan sonra, şübhəsiz ki, Azərbaycanın siz dediyiniz o zənginlik mərhələsi olacaqdır. Mən hesab edirəm ki, biz Azərbaycanın zənginliyini nəzərdə tutduğumuzdan da əvvəl görəcəyik.

**Müxbir**: Hörmətli prezident, vaxtınızı çox aldım. Təşəkkür edirəm. [76-77]

*Söhbəti Daniel Litvin aparmışdır.*

## AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏSİ

*London*

*1 dekabr 1995-ci il*

Bildiyiniz kimi, son günlər Almaniyanın paytaxtı Bonnda Ermənistanla Azərbaycan arasında Minsk qrupu çərçivəsində danışıqların yeni mərhələsi olmuş və dünən sona çatmışdır. Hər bir mərhələ, hər bir danışıq prosesi bizim üçün əhəmiyyətlidir. Hər dəfə görüşümüz çərçivəsində nümayəndə heyətimiz danışıqlara gələrkən biz öz mövqelərimizi müəyyənləşdiririk və çalışırıq ki, əməli mövqedən çıxış edək, müəyyən bir razılıq əldə oluna bilsin.

Demək olmaz ki, danışıqlar prosesi nəticəsizdir. Bəzən mən eşidirəm, adətən bu danışıqlar bitəndən sonra bizim müxbirlər, yaxud da ki, televiziyada, radioda belə bəyanatlar verirlər ki, danışıqlar bitdi, yenə də bir nəticə olmadı. Bu, əsassızdır, mən bunlarla razı deyiləm. Çünki danışıqların hər bir mərhələsində müəyyən irəliləyiş müşahidə olunur, nəsə əldə edilir, hansısa bir nailiyyətə gəlib çata bilirik. Şübhəsiz ki, bəzən bizim ictimaiyyət, o cümlədən mətbuatda, digər informasiya orqanlarında çalışan jurnalistlər də təbii ki, gözləyirlər və belə güman edirlər ki, əgər danışıqlar başlanıbsa, bu, istənilən nəticəni verəcəkdir.

Bu, bir tərəfdən qeyri-təbiidir. İkinci tərəfdən, Ermənistanla Azərbaycan arasında yeddi il müddətində gedən hərbi münaqişə nəticəsində vəziyyət o qədər mürəkkəbləşib, o qədər çətinləşibdir ki, onu bir danışıqla, iki danışıqla həll etmək mümkün deyildir. Məsələn, bildiyiniz kimi, mən özüm bu barədə nə qədər danışıqlar aparıram. Bütün dövlət başçıları ilə mənim görüşlərimdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları mütləq müzakirə edilir, biz öz mövqelərimizi bildiririk və hər bir ölkəni, hər bir dövlət başçısını bu məsələdə iştiraka, köməyə dəvət edirik və nəyə isə nail ola bilirik.

Bildiyiniz kimi, danışıqlar prosesində Minsk qrupunun nümayəndələri vaxtaşırı regiona gəlirlər. Azərbaycanda da, Er[77-78]mənistanda da olurlar. Onlar hər dəfə gələrkən mütləq bizim görüşlərimiz olur. Bəzən hətta bir dəfə yox, iki-üç dəfə görüşlər keçirir və məsələləri müzakirə edirik. Eyni zamanda, artıq mövcud olan təcrübəyə görə bizim nümayəndə heyətləri cürbəcür yerlərdə görüşlər keçirirlər. Məlumdur ki, belə görüşlər Finlandiyada da, Moskvada da, Vyanada da olmuşdur. Son dəfə Bonnda danışıqlar gedib və dünən başa çatıbdır. Yenə də deyirəm, biz bu danışıqlara çox məsuliyyətlə yanaşırıq və hər dəfə nümayəndə heyətimizi danışıqlara göndərərkən ona lazımi təlimatlar veririk. Şəxsən mən özüm hər dəfə bizim nümayəndə heyətini qəbul edirəm, təlimatlar veriləndən sonra bunların həyata keçirilməsi haqqında da öz tövsiyələrimi bildirirəm və beləliklə, bu danışıq prosesi gedir.

İl yarımdan çoxdur ki, biz atəşkəs rejimindəyik. Bu müddətdə şübhəsiz, daim çalışmışıq ki, tez nəticə əldə edək. Atəşkəs haqqında saziş əldə olunan kimi biz hesab edirdik ki, qısa bir müddətdə nəyəsə nail ola biləcəyik. Ancaq indi işlərin gedişi onu göstərir ki, qısa müddətdə istənilən nailiyyəti əldə etmək mümkün deyildir. Lakin danışıqlarda Böyük Sülh Sazişi layihəsinin ayrı-ayrı maddələri müzakirə olunur, bəzi maddələri haqqında razılığa gəlinir, razılıq əldə edilir və beləliklə də Böyük Sülh Sazişi, xırda-xırda olsa da, hazırlanır.

Bunları deməklə mən istəyirəm ki, bu işlərə maraq göstərən mətbuat, informasiya orqanları, jurnalistlərimiz məsələlərə məhz bu prizmadan baxsınlar. Buna reallıqdan yanaşmaq lazımdır. Heç də elə düşünmək lazım deyil ki, biz hər şeyi tezliklə əldə edə bilərik.

Bonnda neçə gün davam etmiş danışıqların xüsusi əhəmiyyəti var. Çünki bu danışıqlar ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin dekabrın 7-də Budapeştdə öz işinə başlayacaq görüşü ərəfəsində keçirilmişdir. Bildiyiniz kimi, keçən ilin dekabrında ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeştdə görüşü olmuşdur. Bu, ümumdünya siyasəti nöqteyi-nəzərindən çox mühüm görüş idi. Ancaq Azərbaycan üçün bu görüş daha çox əhəmiyyətli idi. Xatirinizdədir ki, biz o vaxt bu görüşə çox ciddi hazırlaşırdıq və ondan istədiyimiz nəticə əldə etmək niyyətindəyik. ATƏT-in ötən ilin dekabrında keçirilən Zirvə görüşü bizim üçün doğrudan da əhəmiyyətli bir qətnamənin qəbul olunması ilə nəticələndi. Yəni biz orada istədiyimizə nail olduq. İstədiyimiz də o idi ki, ATƏT Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması [78-79] məsələsinə daha fəal girişsin və ATƏT-in Minsk qrupu bu işlə daha da ciddi, ardıcıl surətdə məşğul olsun.

Xatırlayın, o vaxt, ATƏT-in Zirvə görüşünün hazırlanması ərəfəsində bəzi dövlətlərdən, məsələn, belə xəbərlər gəlirdi ki, ATƏT-də bu məsələnin müzakirəsinə ehtiyac yoxdur. Yaxud, Rusiyanın bəzi dairələri belə hesab edirdi ki, ümumiyyətlə, ATƏT-in sülhü mühafizə qüvvələri yaratmağa belə hüququ yoxdur; o sülhü mühafizə qüvvələri yarada bilməz; demək əgər ATƏT-in Minsk qrupu bir saziş əldə etsə də, onu həyata keçirmək üçün sülhü mühafizə qüvvələri ATƏT-ə daxil olan ölkələrdən yox, hansısa bir-iki-üç ölkədən olmalıdır. ATƏT-in Zirvə görüşü bütün bu məsələləri öz yerinə qoydu. Birincisi, bizim üçün çox vacib idi ki, ATƏT qətnamə qəbul etdi ki, Dağlıq Qarabağ ilə əlaqədar Ermənistanla Azərbaycan arasında gedən münaqişə sülh yolu ilə həll edilməlidir və bu, indən belə də ATƏT çərçivəsində, onun Minsk qrupu çərçivəsində olmalıdır.

Minsk qrupuna lazımi göstərişlər verildi və ATƏT-in sülhü mühafizə qüvvələrinin yaradılması haqqında qərar qəbul edildi. Bu, çox böyük hadisədir və bunu nəzərdən salmaq, yaddan çıxarmaq lazım deyildir. Orada həm də qərar qəbul olundu ki, Minsk qrupu bundan sonra iki həmsədrin rəhbərliyi altında fəaliyyət göstərsin. Rusiya həmsədrlik hüququ aldı. O biri həmsədrlik, əgər bundan öncə İsveç idisə – Yan Eliasson rəhbərlik edirdi, – indi Finlandiyaya keçdi – cənab Talvitiye rəhbərlik edir.

O vaxtdan bir il keçibdir və bizim üçün vacibdir ki, ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeşt görüşündə bu bir ildə görülmüş işə yekun vurularaq qəbul edilən sənəd bizdən ötrü əhəmiyyətli sənəd olsun. Ona görə də son günlər Bonnda Minsk qrupu çərçivəsində Ermənistan ilə Azərbaycan arasında aparılan danışıqlar bizim üçün çox əhəmiyyətli idi. Bu danışıqlar bir də ona görə əhəmiyyətli idi ki, orada Minsk qrupu üzvlərinin hamısı iştirak edirdi. Yəni, bəzən bu danışıqlar Ermənistan, Azərbaycan nümayəndə heyətlərinin və Minsk qrupu həmsədrlərinin, yaxud da ki, onların nümayəndələrinin iştirakı ilə keçirdi, amma bu dəfə danışıqlarda həm Minsk qrupunun həmsədrləri, həm də Minsk qrupuna daxil olan ölkələrin bu qrupdakı daimi nümayəndələri iştirak edirdilər. Bu görüşün bir cəhəti də ondan ibarətdir ki, biz nəzərdə tutmuşuq ki, orada mənim səlahiyyətli nümayəndəm, xüsusi nümayəndəm, müşavir Vəfa [79-80] Quluzadə və Ermənistan prezidentinin xüsusi nümayəndəsi Liparidyan birbaşa, vasitəçi olmadan danışıqlar aparacaqlar və gələcəkdə birbaşa əlaqələrin yaranması və danışıqların aparılması üçün müəyyən razılığa gələcəklər. Ona görə də indiki danışıqlar çox mühümdür.

Bir məsələni də qeyd etmək istəyirəm. Bilirsiniz ki, həm Rusiya, həm də Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması barədə daim təşəbbüslər göstərirlər. Məsələn, oktyabrın əvvəlində Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun xüsusi nümayəndəsi doktor Bjezinski Bakıya gəlmişdi. O, bu danışıqları müvəffəqiyyətlə irəliyə aparmaq üçün bir layihə də gətirmişdi. Biz bu layihəyə baxdıq. Orada bizim üçün, yəni məsələni ədalətlə həll etmək üçün dəyərli müddəalar vardı, ancaq bizim üçün məqbul olmayan müddəalar da vardı. Ona görə biz bu layihə ilə razı olmadıq.

Bilirsiniz ki, bundan sonra mənim Nyu-Yorka səfərim başladı. Bu səfər ərəfəsində Rusiya prezidenti cənab Boris Yeltsin mənə, yəni Azərbaycan prezidentinə, habelə Ermənistan prezidentinə bu barədə xüsusi bir məktub göndərmişdi. Həmin məktubda da hər iki tərəfə – həm Ermənistana, həm də Azərbaycana müraciət olunmuşdu ki, məsələlərin sülh yolu ilə həll edilməsi üçün görülən işlər daha da sürətləndirilsin ki, tezliklə nəticə əldə oluna bilsin.

Mən Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyinə həsr olunmuş mərasimlərdə iştirak edərkən əvvəlcədən nəzərdə tutulduğu kimi, ABŞ prezidenti cənab Bill Klinton ilə xüsusi görüşüm oldu və biz ətraflı danışıqlar apardıq. Biz bu danışıqlarda bir çox məsələləri müzakirə etdik, o cümlədən Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoyulması, sülh yaranması üçün Amerika Birləşmiş Ştatlarının təklifləri də oldu. Bu təkliflərlə əlaqədar mənə bir layihə də verdilər. Mən söz verdim ki, biz bu layihəni müzakirə edəcəyik. Sonra həmin layihə Ermənistan tərəfinə də verilmişdir.

Bundan bir az sonra bizim regiona səfir Ceyms Kollinzin rəhbərliyi altında Amerika Birləşmiş Ştatlarının çox böyük tərkibli nümayəndə heyəti gəldi. Onlar Azərbaycana gəlməzdən öncə Ermənistanda olmuşdular. Bu nümayəndə heyəti Ermənistanda olmuşdular. Bu nümayəndə heyəti Ermənistanda və Azərbaycanda olarkən Amerika Birləşmiş Ştatlarının irəli sürdüyü layihə müzakirə edilmişdi. Bizə məlum [80-81] oldu ki, Ermənistan Respublikasının rəhbərliyi həmin layihəni qəbul etməmişdir. Layihəyə dair bizim də tənqidi fikirlərimiz var idi. Ancaq biz yenə də əməli mövqe tutduq və hesab etdik ki, bu layihənin üzərində işləyib onu lazımi səviyyəyə qaldırmaq olar. Yəni, biz ondan imtina etmədik, onu rədd etmədik, əksinə, onun üzərində bərabər işləməyi təklif etdik. ABŞ nümayəndə heyəti bizim bu fikirlərimizi məmnuniyyətlə qəbul etdi və söz verdi ki, onlar da öz fəaliyyətlərini davam etdirəcəklər.

Nəhayət, Ermənistan ilə Azərbaycan arasında Bonn danışıqları ərəfəsində Amerika Birləşmiş Ştatları daha da təkmilləşdirilmiş bir layihə irəli sürmüşdü. Qeyri-rəsmi olaraq bizə demişdilər ki, onlar belə hesab edirlər: Əgər Ermənistan və Azərbaycan Budapeştdə, ATƏT üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşündə birgə bəyanat versələr, bu, məsələnin sülh yolu ilə həll edilməsi üçün çox yaxşı şərait yaradacaqdır. Onlar birgə bəyanatın layihəsini də bizə qeyri-rəsmi olaraq vermişdilər.

Biz o layihəyə baxdıq. Ermənistan tərəfi də ona baxmışdı. Öz nümayəndə heyətimizi Bonna göndərməzdən öncə biz ona bu barədə təlimatlar verdik. Nəhayət, buraya gəlməyimizdən bir gün öncə Amerika Birləşmiş Ştatlarının səfirinə mən şəxsən məlumat verdim ki, Ermənistan və Azərbaycanın adından veriləcək bəyanatın layihəsini, bizim üçün uyğun olmayan bəzi müddəalarına baxmayaraq, əsasən qəbul edirik. Daha dəqiq desək, mən bildirdim ki, burada bizim razı olmadığımız bəzi cəhətlər var, ancaq ümumi işin irəli getməsi naminə və sülh əldə olunması naminə narazı qaldığımız cəhətlərin üstündən hələlik keçirik ki, Bonnda və sonra Budapeştdə Ermənistan və Azərbaycanın birgə bəyanatını verə bilək. Biz bu fikirlərimizi çatdırdıq, nümayəndə heyətimiz belə təlimatla Bonna yola düşdü və ona əlavə göstərişlər də verdik.

Bonnda danışıqlar başlanarkən, təəssüflər olsun ki, Ermənistan nümayəndə heyəti həmin layihəni, yəni Ermənistan və Azərbaycanın birgə bəyanatı haqqında Amerika Birləşmiş Ştatları tərəfindən bizə verilmiş layihəni tamamilə rədd etmiş, onu müzakirə etmək istəməmişdir. Bizim nümayəndə heyəti bəyan etmişdir ki, bu

layihəni qəbul edirik və onu müzakirə etməyə hazırıq. Beləliklə, biz həqiqətən sülh yaratmaq mə[81-82] ramımızı və həqiqətən əməli mövqedə olduğumuzu bir daha bildirdik və nümayiş etdirdik.

Belə olan halda, Ermənistan və Azərbaycan respublikalarının nümayəndə heyətləri arasında danışıqlar Minsk qrupu həmsədrlərinin iştirakı ilə getmişdir və əsasən xarici işlər nazirlərinin Budapeşt görüşünə Minsk qrupunun hesabatının hazırlanması ilə əlaqədar olmuşdur. O layihədə də bizim üçün uyğun olmayan müddəalar olmuşdur. Ona görə bizim nümayəndə heyəti orada Azərbaycanın mövqelərini müdafiə etmək və bizim üçün münasib bir sənədin qəbul olunmasından ötrü çox ciddi fəaliyyət göstərmişdir. Mən Bakıda olanda da və Londona gəldikdən sonra buradan da bizim nümayəndə heyəti ilə daim əlaqədə idim. Nümayəndə heyətinə Tofiq Zülfüqarov rəhbərlik edir. Vəfa Quluzadə də mənim xüsusi tapşırığımla oraya getmişdi, bu məsələlərə ümumi rəhbərlik edirdi və Ermənistan prezidentinin nümayəndəsi Liparidyan ilə də görüşlər keçirmişdir.

Bir cəhəti də qeyd etmək istəyirəm. Bonnda həqiqətən bir nailiyyət əldə etmək üçün mən buraya gəlməzdən bir gün öncə Ermənistan prezidenti cənab Levon Ter-Petrosyana telefonla zəng etdim və ona bildirdim ki, Vəfa Quluzadəni xüsusi səlahiyyətlə Bonna göndərirəm. Rica etdim ki, o da özünün xüsusi nümayəndəsi Liparidyana belə səlahiyyətlər, təlimatlar versin ki, onlar orada xüsusi danışıqlar apara bilsinlər. O, mənim bu təklifimi məmnuniyyətlə qəbul etdi və bildirdi ki, o da belə hərəkət edəcəkdir. Doğrudan da, Bonnda Vəfa Quluzadə ilə Liparidyan arasında olan danışıqlar, – şübhəsiz, bu hələ ki, danışıq xarakteri daşıyır, burada konkret bir nəticədən söhbət gedə bilməz, – Vəfa Quluzadənin verdiyi məlumata görə, hesab edirəm ki, gələcəkdə bu prosesin davam etdirilməsi üçün yaxşı gedibdir.

Eyni zamanda qeyd edirəm ki, Bonnda Minsk qrupu həmsədrlərinin Budapeşt görüşü üçün hesabatının hazırlanmasında mübahisələr olmuşdur. Bu mübahisələrlə əlaqədar mən daim ora ilə telefon əlaqəsi saxlamışam. Nəhayət bu mübahisələr qurtarmışdır və dünən həmin sənəd əsasən razılaşdırılmışdır. Vəfa Quluzadə dünən axşam bu məlumatı mənə verdi. Hazırlanmış sənəd Minsk qrupu həmsədrlərinin bir illik fəaliyyətini əks etdirən sənəddir. Orada eyni zamanda göstərilir ki, bu bir il müddətində Böyük Siyasi Sazişin hazırlanması [82-83] üçün hansı maddələr üzrə və yaxud hansı konkret məsələlər üzrə razılıq əldə olunubdur. Hansı məsələlər haqqında isə gələcəkdə hələ iş görülməlidir. Bir də qeyd edirəm, orada srağagün də, dünən səhər də bizi narahat edən bəzi məqamlar var idi və ona görə də mən Vəfa Quluzadəyə və Tofiq Zülfüqarova lazımi təlimatlar verdim. Nəhayət, dünən axşam onların verdiyi məlumat və sənədin layihəsi ilə tanışlığımız onu göstərir ki, bu sənəd bizim üçün də əsasən uyğundur. Həmsədrlər belə bir sənədlə Budapeşt görüşünə çıxacaq və orada bəyanat verəcəklər.

Şübhəsiz ki, bu, yenə də deyirəm, bir il müddətində bizim nəzərdə tutduğumuz nəticələrin əldə olunması demək deyildir. Güman edirəm ki, Budapeşt görüşündən sonra həmsədrlərin hesabatı bəyan ediləcək, dərc olunacaq, siz onunla tanış ola biləcəksiniz. Ancaq hesab edirəm ki, həmin sənəd danışıqların gələcəkdə davam etməsi üçün əsas, yaxşı şərait yaradır. Məhz buna görə də mən deyirəm ki, xırda-xırda da olsa biz irəliləyirik və bunlar hamısı ümid verir ki, məsələlərin sülh yolu ilə həll edilməsinə nail ola biləcəyik.

Beləliklə, mən Bonnda gedən son danışıqların nəticəsini ümumən müsbət qiymətləndirirəm. O mənada ki, danışıqlar davam edəcəkdir, müəyyən bir irəliləyiş var və ümidvar olduğumu bildirmək istəyirəm ki, ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin Budapeşt görüşündən sonra danışıqlar prosesi daha da intensivləşəcəkdir. Həmsədrlər də Budapeşt görüşü üçün hazırladıqları birgə məruzədə göstərirlər ki, bundan sonra danışıqlar prosesi daha da intensivləşdiriləcək, sürətləndiriləcəkdir.

Dünən Bonnda Almaniyanın vitse-kansleri, xarici işlər naziri cənab Kinkel danışıqlarda iştirak edən Minsk qrupunun üzvləri ilə görüş keçirib, Bonnda aparılan danışıqlara yüksək qiymət verib və Minsk qrupunun üzvü kimi Almaniyanın da bundan sonra bu prosesdə fəal iştirak edəcəyi barədə bəyanat veribdir. O bildirib ki, danışıqlar prosesi həm sürətləndirilməli, həm də qısa bir müddətdə yekun nəticəyə gətirib çıxarmalıdır.

Güman edirəm ki, bu mərhələdə əldə olunan nailiyyət bizi hələlik qane etməlidir. Ancaq eyni zamanda biz işlərimizi bundan sonra da davam etdirəcəyik.

Həmsədrlərin məruzəsində bildirilir ki, atəşkəs rejiminə bundan sonra da riayət olunmalı, bütün məsələlər yalnız danı[83-84]şıqlar, sülh yolu ilə həll edilməli və atəşin yenidən başlanmasına imkan verilməməlidir. Biz öz tərəfimizdən daim buna riayət etmişik və bundan sonra da riayət edəcəyik.

Bu məsələ barədə bu qədər. Mən bu məlumatları şəxsən özüm sizə çatdıraram ki, birincisi, düzgün məlumat alasınız, ikincisi isə siz də biləsiniz və ictimaiyyətimiz də bilsin ki, bu danışıqlar nə qədər çətinliklə irəliləyir və bu çətinliklərə baxmayaraq, biz bunu aparır və bundan sonra da aparacağıq. Hesab edirəm ki, biz bu yolla bundan sonra da getməliyik.

**Sual: Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüşünüz zamanı hansı məsələlərə toxunulmuşdur?**

**Cavab**: Bu ilin oktyabrında Nyu-Yorkda Ermənistan prezidenti Levon Ter-Petrosyanla görüş zamanı hər ikimiz sülh prosesini davam etdirməyin zəruri olduğunu göstərmişik. Biz orada belə bir fikrə gəldik ki, nümayəndə heyətlərinin Minsk qrupu çərçivəsində danışıqları ilə yanaşı, xüsusi nümayəndələrimiz birbaşa danışıqlar aparsınlar. Bu proseslər bir-birinə mane olmur, bir-birinə zidd deyildir. Əksinə, indiyə qədər gedən prosesi daha da gücləndirə bilər.

**Sual: Azərbaycan və Ermənistan respublikalarının birgə bəyanatı barədə ABŞ-ın təklif etdiyi layihə ilə bağlı fikrinizi deyə bilərsinizmi?**

**Cavab**: Həmin layihədə göstərilir ki, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü tanıyırlar. Bu, bizim üçün çox əhəmiyyətli müddəadır. Baxmayaraq ki, dünyada dövlətlərarası bütün hüquq normaları hər bir dövlətin ərazi bütövlüyünün tanınmasını tamamilə nəzərdə tutur. Nəzərə alsaq ki, yeddi il davam edən münaqişədə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü heç vaxt, heç bir sənəddə tanımayıbdır. Amerika Birləşmiş Ştatlarının təklif etdiyi layihədə belə bir müddəanın olması çox gərəklidir, çox əhəmiyyətlidir. Amma Ermənistan bu layihəni qəbul etməmişdir. [84-85]

## RİTA-SÖTA-nın MÜXBİRİNƏ MÜSAHİBƏ

*London*

*1 dekabr 1995-ci il*

**Sual: Siz indiki səfərə necə qiymət verərdiniz?**

**Cavab:** Bilirsinizmi, indiki səfər ən əvvəl iqtisadi xarakter daşıyır və. Böyük Britaniyanın dövlət strukturları ilə deyil, Adam Smit İnstitutu və burada yerləşən beynəlxalq maliyyə, bank mərkəzləri ilə daha çox bağlıdır. Lakin Adam Smit İnstitutunun bu konfransına işgüzar dairələrin olduqca çox nümayəndələrinin toplandığını nəzərə alaraq, mən konfransın özündə işlə yanaşı, maliyyə, bank dairələrinin və strukturlarının böyük qrupları ilə, şirkətlərin nümayəndələri ilə görüşlər keçirdim. Buna görə də hesab edirəm ki, səfər ərəfəsində özüm üçün qarşıya qoyduğum məqsəd əldə olunmuşdur. Mənim daha bir sıra görüşlərim nəzərdə tutulur. Məsələn, bu gün Avropa Yenidənqurma İnkişaf Bankının vitse-prezidenti cənab Firman ilə görüşürəm. O, Fransadan gəlmişdir. Odur ki, mənim səfərim ölkəmizdə iqtisadi islahatların genişləndirilməsinin zəruriliyi ilə, iqtisadi münasibətlər yaradılması və özəl biznesin inkişaf etdirilməsi ilə bağlıdır.

Təbiidir ki, burada olduğuma görə, mənə Böyük Britaniya hökumətinin müvafiq orqanları maraq göstərmişlər. Mən nazir, ticarət-sənaye palatasının sədri cənab Lanq ilə görüşdüm, dünən baş nazirin müavini cənab Hezltaynla, xarici işlər naziri cənab Rifkindlə çox ətraflı söhbətlərimiz oldu. Bu görüşlər zamanı biz ikitərəfli münasibətlərlə, ən əvvəl iqtisadi əməkdaşlıq sahəsində münasibətlərlə, onların hərtərəfli inkişafı ilə bağlı məsələləri müzakirə etdik. Əlbəttə, bununla bərabər biz dünya siyasəti ilə bağlı məsələləri də, xüsusən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələləri də nəzərdən keçirdik, bu problemin dincliklə həlli yollarını müzakirə etdik.

Mən bu görüşlərdən razıyam, onların hamısı müsbət xarakter daşıyır, Azərbaycanın Böyük Britaniya ilə, beynəlxalq və işgüzar dairələrlə, maliyyə və bank dairələri ilə münasibətlərinin daha da genişləndirilməsinə kömək edir.

**Sual: Cənab prezident, bir çox maliyyə** [85-86] **təsisatları, beynəlxalq təşkilatlar deyirlər ki, Bakı islahatlar yolu ilə, iqtisadi dəyişikliklər yolu ilə inamla gedir. Sizin fikrinizi öyrənmək istərdik. Azərbaycanın yaxın vaxtlarda və ya gələcəkdə dünya iqtisadiyyatına qoşulmaq imkanları necədir?**

**Cavab:** Bilirsinizmi, gələcəkdə nə olacağı barədə proqnoz vermək və bəri başdan müəyyən fikir söyləmək çətindir.

Lakin götürdüyümüz xətt və yeritdiyimiz əzmkarlıq yaxın vaxtlarda konkret əməli nəticələrə nail olmağı nəzərdə tutur. Bu, bir də onunla bağlıdır ki, biz yeni konstitusiya qəbul etmişik və burada milli dövlət quruculuğu ilə insan hüquqları və ümumən demokratikləşdirmə ilə bağlı olduqca çox müddəalar var. Konstitusiya bütövlükdə və tamamilə Azərbaycanda demokratik hüquqi dövlət qurulmasına, onun həyatının bütün sahələrində, o cümlədən də iqtisadiyyat sahəsində demokratikləşdirməyə həsr olunmuşdur. Konstitusiyadakı müddəalar, maddələr Azərbaycanın dünya iqtisadiyyatına qovuşması, xüsusi sahibkarlığın inkişaf etdirilməsi üçün maksimum əlverişli şərait yaradır. Biz dövlət mülkiyyətini özəlləşdirmək proqramına başlamışıq. Bəzi sahələr artıq dövlətin tabeliyindən çıxarılmışdır. Bunlar ticarət, xidmət və bir sıra digər sahələrdir. Proqramı üç il ərzində həyata keçirmək nəzərdə tutulmuşdur. Biz aqrar sektorda islahatlar aparır, əcnəbi sərmayədarlar üçün əlverişli şərait yaratmışıq, xarici sərmayələrin idarə olunması üçün xüsusi milli agentlik təşkil etmişik, bəzi müəssisələrimizi xarici şirkətlərin idarəsinə vermək niyyətindəyik. Bütün bunlar birlikdə götürüldükdə məhz belə bir inam yaradır ki, biz yaxın vaxtlarda konkret nəticələr əldə edəcəyik.

Azərbaycanın neft yataqlarının birlikdə işlənməsi haqqında on bir iri transmilli şirkətlə bir il əvvəl imzalanmış böyük müqavilə və onun əməli surətdə həyata keçirilməsi də irəlilədiyimizə sübutdur. Noyabrın 10-da biz Rusiyanın "LUKoyl", İtaliyanın "ACİP", Amerikanın "Pennzoyl" şirkəti ilə daha bir müqavilə imzaladıq. Yeri gəlmişkən, deyim ki, Rusiyanın bu şirkəti böyük neft müqaviləsində də iştirak edir. Bizdə xarici şirkətlərlə yaradılmış mindən çox müştərək müəssisə var. Biz kiçik biznesi inkişaf etdiririk.

**Sual: Dağlıq Qarabağda münaqişə Azərbaycanın iqtisadi inkişafını ciddi şəkildə çətinləşdirir. Necə bi**[86-87]**lirsiniz, bu münaqişəni aradan qaldırmağın nə kimi üsulları var və bununla əlaqədar Rusiya nə edə bilər?**

**Cavab:** Ən əvvəl deyim ki, bu münaqişə yeddi ildir davam edir. Belə bir fakt mühüm nailiyyətdir ki, il yarımdır müharibə getmir, qan tökülmür. Biz atəşin müvəqqəti kəsilməsi, barışıq haqqında sazişə nail olmuşuq və bu rejimə əməl edirik. Ümumiyyətlə, bu bir il yanında çox iş görmüşük. Məsələn, ötən ilin dekabrında Budapeştdə ATƏT dövlətləri başçılarının görüşü Azərbaycan üçün mühüm mərhələyə çevrilmişdir. Bu, onunla bağlıdır ki, orada Azərbaycanın Dağlıq Qarabağ bölgəsi üstündə Ermənistanla Azərbaycan arasında münaqişəyə dair xüsusi qətnamələr qəbul edilmişdir. Dünən Bonnda ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Ermənistanın

və Azərbaycanın nümayəndə heyətləri arasında danışıqlar başa çatmışdır. Siz bilirsiniz ki, Minsk qrupu Rusiya və Finlandiyanın həmsədrliyi ilə fəaliyyət göstərir. Əlbəttə ki, biz bu növbəti danışıqlarda böyük tərəqqiyə nail olmaq ümidində idik. Amma Ermənistan tərəfinin o qədər də konstruktiv olmayan mövqeyi üzündən biz buna müvəffəq olmadıq. Lakin həmsədrlər – Rusiyadan cənab Lozinski və Finlandiyadan cənab Talvitiye tərəfindən hazırlanmış və ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin dekabrın 7-də Budapeştdə keçiriləcək görüşünə təqdim ediləcək məruzə məsələnin dinclikla nizama salınması sahəsində gələcək fəallığımız və birgə işimiz üçün zəmin yaradır. Mən bu məruzəni yaxşı sənəd hesab edirəm. Bir sözlə, biz münaqişənin dincliklə aradan qaldırılmasına tərəfdarıq, bu istiqamətdə konstruktiv mövqe tutmuşuq və fəal işləyirik.

Rusiyanın nə edəcəyi barədə sualınıza gəldikdə cavab verim ki, o, çox şey edə bilər. Əvvəla, Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. İkincisi açığını deyim, onun Ermənistana böyük təsiri var. Buna görə də Rusiya çox şey edə bilər. Ermənistanın konstruktiv mövqe tutması təqdirində münaqişənin dincliklə aradan qaldırılmasına nail ola bilər. Siz bilirsiniz ki, Ermənistanın silahlı qüvvələri bu münaqişə ərzində Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla qovulub didərgin salınmışdır. Onlar son dərəcə ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayırlar. Odur ki, məsələnin dincliklə nizama salınmasına nail olmaqda Ermənistandan çox şey asılıdır. Rusiyanın Ermənistana təsiri isə böyükdür. [87-88]

**Sual: Tez-tez bir çox ən iri neft şirkətləri əsrin müqaviləsindən danışır. Həmçinin deyirlər ki, Xəzərin Azərbaycan şelfindən neftin ixracı üçün boru kəməri çəkilməsi haqqında Rusiya ilə saziş imzalanması planlaşdırılır. Bununla əlaqədar olaraq Azərbaycanın Rusiya ilə iqtisadi əməkdaşlığının perspektivləri necədir?**

**Cavab:** Perspektivlər yaxşıdır, əvvəla, Azərbaycandan ilkin neftin ixracı üçün boru kəmərləri, – onlardan biri Rusiya ərazisindən keçəcək, – çəkilməsi haqqında oktyabrın 9-da bizim qərar qəbul etməyimiz artıq buna dəlalətdir ki, söhbət Rusiya ilə uzunmüddətli və kifayət qədər geniş əməkdaşlıqdan gedir. Yeri gəlmişkən, sənədlər yaxın vaxtlarda imzalanacaqdır və zənnimcə, biz neft kəmərinin çəkilişinə başlayacağıq. İkincisi, Rusiya müqavilədə iştirak edir. Neft müqaviləsində iştirak payının 10 faizi Rusiyanın "LUKoyl" şirkətinə məxsusdur. Bu şirkət noyabrın 10-da imzaladığımız müqavilədə sanballı paya malikdir. Həmin müqavilədə "Pennzoyl" və "ACİP" şirkətləri də iştirak edirlər. Odur ki, Rusiya ilə neft sənayesi sahəsində əməkdaşlıqdan danışmalı olsaq, deməliyəm ki, burada artıq kifayət qədər yaxşı baza, zəmin yaradılmışdır. Əlbəttə, bizim Rusiya ilə uzun müddət çox sıx əlaqələrimiz olmuşdur. Buna görə də biz bir çox digər istiqamətlərdə do əməkdaşlıq edə bilərik və edəcəyik. Mən yaxşı perspektivlər olduğunu görürəm. [88-89]

*Söhbəti Andrey Urban aparmışdır.*

## "MOND DİPLOMATİK" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*3 dekabr 1995-ci il*

**Sual: Müharibədə atəşkəs əldə edilməsinə baxmayaraq daimi sülh yaranmasına mane olan məsələlər, sizcə, nədən ibarətdir?**

**Cavab:** Siz deyirsiniz ki, atəşkəs var, ancaq nə üçün sülh yoxdur. Siz bu sualı Ermənistanın nümayəndələrinə vermisiniz, yoxsa yox? Onlar nə deyirlər?

**Müxbir:** Mən iki ay bundan əvvəl Levon Ter-Petrosyanla görüşmüşəm. Onun verdiyi cavab onu göstərdi ki, böyük dövlətlərin ümumi sülh layihəsi hələ hazır deyil.

**H. Əliyev:** Bu da ola bilər. Amma mənim cavabım bundan fərqli olacaq. Bizim məsələlərimizi böyük dövlətlər həll etməməlidir. Öz məsələlərimizi birinci növbədə biz özümüz həll etməliyik. Ermənistanla Azərbaycan arasında yeddi ildir ki, hərbi münaqişə gedir. Bir jurnalist, Fransanın vətəndaşı, kökünüzə görə erməni olduğunuz üçün siz özünüz fikirləşin. Bu münaqişə nəyə lazımdır? Azərbaycanın bir parçası olan Dağlıq Qarabağı Ermənistan silah gücü ilə özünə bağlamaq istəyir. Bu, dünyada bütün hüquq normalarına zidd olan bir hərəkətdir.

Siz bilirsiniz ki, bir ölkənin başqa bir ölkənin ərazisini zəbt etməsi üçün əsrlər boyu nə qədər müharibələr gedib. Ancaq bunlar heç vaxt yaxşı nəticə verməyib. Eləcə də Ermənistan ilə Azərbaycan arasında gedən müharibə. Bu müharibəni Azərbaycan başlamayıb. Qeyd etdiyim kimi, Dağlıq Qarabağı öz ərazisinə bağlamaq üçün bu müharibəni Ermənistan başlayıb. Yeddi ildə nə qədər qan tökülüb, nə qədər insanlar həlak olub. Ermənistanla Azərbaycan arasında olan o dostluq, iqtisadi, insani əlaqələr pozulub. Ermənistan ağır iqtisadi vəziyyətə düşüb. Azərbaycan da ağır iqtisadi vəziyyətə düşüb. Ermənistan da, Azərbaycan da blokada şəraitindədir.

Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edib. İşğal olunmuş ərazilərdən bir milyondan çox [89-90] Azərbaycan vətəndaşı Ermənistan işğalçılarının qəsbkarlıq hərəkətləri nəticəsində öz yerlərindən qovulubdur. Onlar üç ildir ki, Azərbaycanın başqa bölgələrində çadırlarda ağır vəziyyətdə yaşayırlar. Müharibədə 30 mindən çox azərbaycanlı həlak olub. Bır neçə min azərbaycanlı Ermənistanda əsirlikdədir. Şübhəsiz ki, Ermənistan tərəfindən də həlak olanlar az deyildir.

Qeyd etdiyim kimi, bu müharibə həm Ermənistana, həm də Azərbaycana çox böyük zərbələr vurub. Ancaq bunlara baxmayaraq biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz hesab edirik ki, müharibə yolunun gələcəyi yoxdur. Ermənistanda və Ermənistandan kənarda yaşayan, Ermənistana tərəfdar olan adamlardan heç kəs düşünməsin ki, silah işlətmək yolu ilə Azərbaycanın ərazisini qoparıb ələ keçirmək olar. Ona görə də biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Artıq il yarımdır, 18 aydan çoxdur ki, atəşkəs rejimi yaranıbdır. Biz hesab edirik ki, bu, müsbət haldır. Çünki müharibə yeddi il idi ki, ara vermədən gedirdi. Ancaq indi atəş yoxdur, qan tökülmür, insanlar qırılmır. Bu müharibəyə son qoyulmalıdır.

Siz sual verirsiniz ki, bu məsələ nə üçün həll olunmur. Mən sizə deyirəm ki, Ermənistanın bu məsələlərdə qeyri-konstruktiv mövqeyinə görə.

**Müxbir:** Üzr istəyirəm, Levon Ter-Petrosyan da eynilə bu ifadəni Azərbaycan barədə işlətdi.

**H. Əliyev:** Onun sübutu yoxdur. Bu sözü demək olar, ancaq onu sübut etmək lazımdır. Mənim sübutum ondan ibarətdir ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etmişdir. Əhalimizin bir milyondan çoxu qaçqın vəziyyətində çadırlarda yaşayır. Bunu ədalətli hesab etmək olarmı?

**Müxbir:** Yox.

**H. Əliyev:** Biz istəyirik ki, müharibə qurtarsın. Şərtimiz nədir? İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxsın. Azərbaycanlı vətəndaşlar öz yerlərinə qayıtsınlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Dağlıq Qarabağda yaşayan ermənilərin istəkləri odur ki, onlara status verilsin. Orada bəzi ağılsız adamlar belə hesab edirlər ki, Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verilə bilər. Bunu unutmaq lazımdır. Bu heç vaxt ola bilməz və heç bir beynəlxalq təşkilat, heç bir böyük dövlət Dağlıq Qarabağa müstəqillik statusu verilməsinə razı ola bilməz. [90-91]

Rusiya bir ildir ki, Çeçenistanda müharibə aparır. Çeçenlər istəyirlər ki, dövlət müstəqilliyi əldə etsinlər. Rusiya buna razı deyil və orada öz hakimiyyətini möhkəmləndirmək üçün müharibə aparır. Biz hesab edirik ki, Rusiyanın ərazisi toxunulmazdır. Onun ərazisinin heç bir hissəsini ayrı müstəqil dövlət etmək olmaz. Eləcə də Azərbaycanın ərazisi toxunulmazdır, heç kəs zorla Azərbaycanın ərazisinin bir hissəsini əlimizdən ola bilməz. Ermənistanın da ərazisi toxunulmazdır. Biz bu dəqiqə Ermənistanın ərazisinin hansısa bir hissəsini əlimizə keçirmək istəmirik. Amma tarixi araşdırsanız, o ərazilərin bir yox hissəsi vaxtilə Azərbaycanın olub. Artıq

sərhədlər yaranıb. Ermənistan da, Azərbaycan da müstəqil dövlətdir. Ermənistan da, Azərbaycan da Birləşmiş Millətlər Təşkilatının üzvüdür. Bizim sərhədlərimiz beynəlxalq hüquq normalarına görə BMT tərəfindən tanınıb, qəbul olunubdur. Bunları dəyişmək olmaz. Ona görə də mən deyirəm ki, Ermənistanın mövqeyi – qeyri-konstruktivdir.

Biz Dağlıq Qarabağa status, özü də əvvəlkindən daha yüksək status verməyə etiraz etmirik. Amma bu status yalnız müstəqil Azərbaycan Respublikasının tərkibində verilə bilər. Biz Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinə də tamamilə zəmanət veririk. Dağlıq Qarabağın Ermənistanla yolunun da təmin olunmasına zəmanət veririk. Dağlıq Qarabağın Ermənistana yolu Laçın rayonundan keçir. Biz hətta razı olmuşuq ki, o yol beynəlxalq qüvvələrin nəzarəti altında olsun. Ermənistanda və Dağlıq Qarabağda heç kəs narahat olmasın, bu yoldan rahat istifadə etmək olar. Bizim konstitusiyamızda qeyri-konstruktiv heç bir şey yoxdur. Amma Ermənistan bu məsələni güc işlətməklə, zorla həll etmək istəyir. Siz, düzdür, ermənisiniz, amma fransalısınız. Fransanın demokratiyası belə şeylərə yol verməz. Elədir, yoxsa yox?

**Müxbir:** İndi söylədikləriniz barədə sizə bir neçə sualım var.

**H. Əliyev:** Buyurun.

**Sual: Siz deyəndə ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, Dağlıq Qarabağı da bu 20 faizin içərisinə qatırsınız, yoxsa yox?**

**Cavab:** Bəli, oraya Dağlıq Qarabağı da qatıram. Amma mən sənə bir arayış verim. Azərbaycanın işğal olunmuş ərazisi 16 min kvadrat kilometrdir. Bunun 4 min kvadrat kilometri Dağlıq Qarabağdır. Deməli, Dağlıq Qara[91-92]bağın ətrafında 12 min kvadrat kilometr ərazi işğal olunub. Yəni üç Dağlıq Qarabağın ərazisinə bərabər ərazimiz də işğal edilib.

**Sual: Ermənilər bəyan edirlər ki, onlar işğal olunmuş bütün torpaqları geri qaytarmağa hazırdırlar. Şuşa və Laçını çıxmaq şərti ilə. Sizcə, bu təklif qəbul edilə bilərmi?**

**Cavab:** Qəbul edilə bilməz. Nə üçün, nəyə görə qəbul edilə bilməz? Birincisi, Laçın rayonu haqqında. Laçın Dağlıq Qarabağa daxil deyil. Ona görə də Laçın haqqında bu fikirlər hüquqdan tamamilə kənar fikirlərdir. İkincisi, Şuşa haqqında. Şuşa Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Yaxşı olardı ki, mən mövcud vəziyyəti xəritə üzərində sizə izah edim.

**Sual: Belə başa düşürəm ki, ermənilər Dağlıq Qarabağ da daxil olmaqla bütün torpaqlardan çıxıb getməlidirlər?**

**Cavab:** Yox. Biz razıyıq ki, ermənilər Dağlıq Qarabağda qalıb yaşasınlar. Amma Ermənistan silahlı qüvvələri Şuşadan, Laçından və işğal edilmiş digər rayonlarımızın hamısından çıxmalıdır. Xəritədə bu yolu görürsünüzmü? Biz razıyıq ki, bu yolu beynəlxalq qüvvələrin nəzarəti altına verək. Yəni Dağlıq Qarabağ bu yol vasitəsilə Ermənistanla normal əlaqə saxlaya bilər. Bir də ki, əgər o torpaqlar azad edilsə, Böyük Sülh Müqaviləsi əldə olunsa, bizim keçmiş əlaqələrimiz yenə də bərpa olunacaq. Dağlıq Qarabağa dəmir yolu var. Onlar bu dəmir yolu vasitəsilə də Ermənistanla əlaqə saxlaya bilərlər. Vaxtilə, 70-ci illərdə Azərbaycana rəhbərlik edəndə Xankəndinə dəmir yolunu mən çəkdirmişəm. Bu dəmir yolu vasitəsilə Dağlıq Qarabağ həm Azərbaycanla, həm Rusiya ilə, həm də Ermənistanla bağlanmışdı. İndi Dağlıq Qarabağ bunların hamısından məhrum olub. Belə vəziyyətdə nə qədər yaşamaq olar?

**Sual: Dağlıq Qarabağda ermənilər özlərini müstəqil dövlət elan ediblər. Siz Dağlıq Qarabağ respublikasının prezidenti Koçaryanla danışıqlar aparmağa hazırsınızmı?**

**Cavab:** Siz çox qəribə sual verirsiniz. Qeyri-qanuni bir qurumla mən necə danışıq apara bilərəm? Dağlıq Qarabağ [92-93] Azərbaycanın torpağıdır. Koçaryan da Azərbaycan vətəndaşıdır. Mən də Azərbaycanın prezidentiyəm. Mən Azərbaycanın prezidenti kimi Azərbaycanın hər bir vətəndaşı ilə görüşüb danışa bilərəm. Amma qeyri-qanuni özünü prezident elan edən adamla mən necə görüşüb danışa bilərəm?

**Sual: ATƏT bu münaqişədə Dağlıq Qarabağı tərəf kimi qəbul edib?**

**Cavab:** Xeyr. Dağlıq Qarabağ tərəf kimi tanınmayıb. Biz də onları tərəf kimi tanımırıq.

**Sual: Mən bildiyimə görə Ermənistan özü də Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayıb. Ona görə ermənilər Dağlıq Qarabağa status istəyəndə, müstəqil olmasa da müstəqilliyə yaxın bir status tələb edirlər.**

**Cavab:** Nə olsun ki, onlar tələb ediblər? Mən də çox şey istəyirəm. O demək deyil ki, bunların hamısı olmalıdır. Bəlkə sən də istəyirsən ki, Fransanın prezidenti olasan, amma bu mümkün deyil.

**Müxbir:** Fransanın prezidenti olmaq çox ağır bir vəzifədir, işdir. Mən ola bilmərəm.

**H. Əliyev:** Amma burada sənin kimi bəziləri prezident olmaq istəyirlər.

**Müxbir:** Bildiyimə görə, Azərbaycan Dağlıq Qarabağa mədəni hüquqları olan muxtariyyət vermək fikrindədir.

**H. Əliyev:** Yox, ondan yüksək muxtariyyət vermək fikrindəyik. Mən bunu Ter-Petrosyana demişəm və bir də deyirəm. Azərbaycanın tərkibində, dünya təcrübəsində mövcud olan yüksək statuslardan birini Dağlıq Qarabağa verməyə hazırıq.

**Sual: Bu o deməkdir ki, onların özlərinin ayrıca silahlı qüvvələri də olacaqdır?**

**Cavab:** Yox, ola bilməz. Münaqişə qurtarana qədər ola bilər.

**Sual: Bəs keçid dövründən sonra necə?**

**Cavab:** Keçid dövründən sonra onlar Azərbaycanın tərkibində olacaqlar. Silahlı qüvvələri neynirlər? Onların polisi olacaq. İctimai asayişi təmin etmək üçün müəyyən qüvvələr olacaq. Yenidən müharibə etmək istəyirlər? Silahlı qüvvələri nədən ötrü saxlamaq istəyirlər?

**Sual: Cənab prezident, Dağlıq Qarabağda yaşayan erməniləri Ermənistanda yaşayan ermənilərdən** [93-94] **ayrı xalq, ayrı adamlar kimi qəbul edirsiniz, yoxsa onları eyni ermənilər kimi qəbul edirsiniz?**

**Cavab:** Erməni elə hər yerdə ermənidir. Siz də ermənisiniz, burada, Fransada yaşayırsınız. Necə, bir neçə növ erməni var? Siz ermənisiniz, Fransanın vətəndaşısınız, Ermənistanda yaşayan ermənilər Ermənistanın vətəndaşlarıdır. Azərbaycanda yaşayan ermənilər Azərbaycanın vətəndaşlarıdır. Bakıda on beş min erməni yaşayır. Bu, bizim azərbaycanlıların arvadlarıdır. Bizim on beş min erməni gəlinimiz var. Bu on beş min kəbindən də gör nə qədər uşaqlar olub. Bilirsiniz də, bizdə ailədə çox uşaq olur. Orta hesabla hər ailədə dörd-beş uşaq olsa, demək, o ailələrdə 60 min – yarısı erməni, yarısı azərbaycanlı adamlar var. İndi bunlar özlərini azərbaycanlı yazdırırlar, çünki ataları azərbaycanlıdır. Amma istəsələr erməni də yazdıra bilərlər. O baxır ata güclüdür, yoxsa ana güclüdür.

**Sual: Hörmətli prezident, burada sizdən eşitdiklərimlə Ermənistanda söylənilənlər bir-biri ilə tamamilə ziddiyyət təşkil edir. Sizcə, bu ziddiyyətlərin olduğu bir dövrdə sülhə necə nail olmaq olacaq? Qarşıdan ATƏT-in Moskva görüşü gəlir. Bu görüş də əvvəlki görüşlərəmi bənzəyəcəkdir? Çünki hələ də görüşlər olur, amma heç bir nəticə əldə edilmir.**

**Cavab:** Bilirsiniz, nə qədər ziddiyyətlər olsa da, sülh əldə etmək lazımdır. Erməniləri başa salmaq lazımdır ki, onlar reallığı anlasınlar. Siz də – Fransada yaşayan ermənilər bu münaqişənin həqiqətən həll olunmasını istəyirsinizsə, bu reallıqdan çıxış etməlisiniz. Siz Moskvada olacaq danışıqlardan söhbət açdınız. Moskvada yox, iki gün bundan əvvəl danışıqlar Bonnda başa çatmışdır.

**Sual: Bu danışıqların bir nəticəsi olubmu?**

**Cavab:** Biz istəyən nəticə olmayıbdır. Ancaq belə bir qərar qəbul edilibdir ki, bu danışıqlar davam etdirilməlidir. Əgər Ermənistan tərəfi müharibəyə başlamasa, biz müharibə etmək istəmirik. Ancaq indiki belə vəziyyətdə də daim yaşamaq olmaz. "Nə müharibə, nə sülh" vəziyyəti şübhəsiz ki, bizi qane edə bilməz.

**Sual: Azərbaycanın Rusiya ilə münasibətləri barədə nə deyə bilərsiniz? Bəziləri deyirlər ki, Rusiya Ermənistana kömək edir, amma Azərbaycana kömək etmir. Rusiya Azərbaycanın əleyhinə olaraq Ermənistana kömək edir ki, Azərbaycan Rusiya ordularının,** [94-95] **qüvvələrinin Azərbaycanda yerləşdirilməsinə razı olsun. Bu doğrudurmu?**

**H. Əliyev:** Bunları kim deyir?

**Müxbir:** Şərhçilər.

**H. Əliyev:** Bunun bir hissəsi doğrudur. Rusiya Ermənistana kömək edir. Siz bilirsiniz, ki, Rusiyanın Ermənistanda çox böyük hərbi hissələri, bazaları var. Orada otuz min nəfərdən artıq ordusu var. Ermənistanın Türkiyə ilə, İran ilə sərhədlərini də Rusiyanın qoşunları qoruyur. Siz Ermənistanda olanda soruşmamısınızmı ki, bu, onların müstəqilliyinə nə qədər uyğundur?

**Müxbir:** Soruşmuşam. Deyiblər ki, bu ona görədir ki, bizi Türkiyədən qorusunlar. Siz bilirsiniz ki, bizim Türkiyə ilə problemimiz var.

**H. Əliyev:** Bu, doğru deyil, Türkiyənin Ermənistanda nə işi var! Türkiyə demokratik bir ölkədir, heç kəslə müharibə etmək istəmir.

**Sual: Azərbaycan keçmiş sovet respublikaları arasında yeganə respublikadır ki, orada Rusiyanın qoşunları yoxdur. Niyə? Siz bunu necə izah edərdiniz?**

**Cavab:** Siz istəyirsiniz ki, olsun? Biz müstəqil bir dövlətik.

**Müxbir:** Siz müstəqil dövlətsiniz, amma axı MDB-nin bir hissəsisiniz.

**H. Əliyev:** Biz MDB-nin üzvüyük. MDB-nin üzvü olsaq da hərənin öz müstəqil siyasəti var. MDB-nin üzvü olmaq o demək deyildir ki, gərək Rusiyanın qoşunları hər yerdə olsun. Ümidvaram ki, siz bunları yaxşı bilirsiniz. Demək, siz seçə bilərsiniz ki, hansı dövlət doğrudan da, həqiqətən də müstəqildir, hansı müstəqil deyil.

**Sual: Yəni siz Rusiya qoşunlarını heç vaxt, qətiyyətlə qəbul etməmək fikrindəsiniz?**

**Cavab:** Axı, bu sənin nəyinə lazımdır?

**Müxbir:** Çünki həmin o şərhçilər onu da bəyan edirlər ki, Azərbaycan Rusiya qoşunlarını qəbul etməyə razılıq verdiyi gün Rusiya artıq Ermənistana kömək etməyi dayandıracaqdır.

**H. Əliyev:** Sən buna zəmanət verirsən?

**Müxbir:** Mən sizin bu barədə mövqeyinizi bilmək istəyirəm. [95-96]

**H. Əliyev:** Sənin bu barədə bir zəmanətin olsa onda bu barədə danışa bilərik.

**Müxbir:** Başqa sözlə, belə çıxır ki, siz Rusiya qoşunlarının Azərbaycanda yerləşdirilməsinin tamamilə əleyhinə deyilsiniz, yalnız şərtiniz var. Əgər Rusiya Ermənistana kömək etməsə, bu, mümkün ola bilər.

**H. Əliyev:** Bunu siz deyirsiniz, mən demirəm.

**Sual: Rusiyanın öz hərbi bazalarını Azərbaycan da yerləşdirmək arzusunu bir kənara qoyaraq, Rusiya ilə Azərbaycan arasındakı münasibətlər barədə nə deyə bilərsiniz? Məsələn, iqtisadi münasibətlər.**

**Cavab:** Yaxşı münasibətlər var. Biz istəyirik ki, münasibətlərimiz daha da yaxşı olsun. Rusiya böyük dövlətdir. Tarixən bizim onlarla iqtisadi əlaqələrimiz çox sıx olub. İndi Rusiyada da demokratik proseslər gedir. Azərbaycanda da demokratik proseslər gedir. Ona görə də müstəqilliyimizə zərər dəymədən biz Rusiya ilə dostluq əlaqələrini bundan sonra da inkişaf etdirməyə çalışacağıq.

**Sual: Siz rus ordusunu istəmirsiniz, amma rus ordusundan başqa hər şey olar?**

**Cavab:** Sən bu sualdan niyə yapışmısan? Mən başa düşmürəm, ümumiyyətlə, Fransa demokratik bir ölkədir. Sən Fransanın vətəndaşısan. Amma elə ordudan danışırsan. Burada biz gərək mədəniyyətdən, – Pikassodan, Jan Jak Russodan, Fransanın başqa demokratik ənənələrindən danışaq. Amma siz mənimlə ancaq ordu haqqında danışırsınız.

**Sual: Yaxşı, gəlin onda bu məsələni bitirək. Azərbaycan ilə Ermənistan arasında hər hansı kompromis güzəşt ola bilərmi ki, bu münaqişə sülh yolu ilə başa çatsın?**

**Cavab:** Mütləq olar.

**Sual: Hansı güzəştlər ola bilər?**

**Cavab:** Ermənistan işğal etdiyi Azərbaycan ərazilərinin hamısından öz silahlı qüvvələrini çıxartmalıdır. Azərbaycan Dağlıq Qarabağa yüksək səviyyəli status verə bilər. İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxandan sonra bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerlərinə, evlərinə qayıtmalıdır. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Azərbaycanın pozulmuş sərhədləri bərpa olunmalı və sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir. O cümlədən [96-97] Laçın və Şuşa rayonlarından da Ermənistanın silahlı qüvvələri çıxmalıdır.

**Sual: Bunlar sülh sazişindən sonra olmalıdır?**

**Cavab:** Yox. Sülh sazişi elə bunun əsasında bağlanmalıdır. Dediyim kimi, Laçın rayonunun ərazisindən beynəlxalq qüvvələrin nəzarəti altında Ermənistana yol təmin edilməlidir. Hesab edirəm ki, biz bu şərtlər əsasında Ermənistanla Azərbaycan arasında münasibətləri bərpa edib, yaxşı iqtisadi əlaqələr qura bilərik. Dağlıq Qarabağda yaşayan erməni əhalisi də Azərbaycanın tərkibində çox firavan həyat tərzi qura bilər. Ermənistanla Azərbaycan arasında ticarət əlaqələri genişlənə bilər.

Dağlıq Qarabağın əhalisinin bütün kişiləri ordudadır. Bu orduda, silah altında nə qədər olmaq olar? Axı, bu insanlar rahat həyat keçirməlidirlər. Ona görə də bu münaqişə qurtarmalıdır. Dağlıq Qarabağın ərazisində böyük inkişaf meydana gələ bilər.

**Sual: Ermənistanda ermənilər bildirirlər ki, biz bu münaqişədə iştirak etmirik. Yalnız Dağlıq Qarabağın ordusu ilə Azərbaycan arasında müharibə gedir. Siz bu barədə nə deyə bilərsiniz?**

**H. Əliyev:** Siz buna inanırsınız?

**Müxbir:** Xeyr.

**H. Əliyev:** Onda niyə sual verirsiniz? Əgər müharibədə Ermənistan iştirak etməsəydi, Dağlıq Qarabağın ordusu heç bir şey edə bilməzdi və Azərbaycan öz ərazi bütövlüyünü təmin edərdi. Orada tək Ermənistan yox, başqa ölkələrin də silahlı qüvvələri iştirak edir. Siz bunu yaxşı bilirsiniz.

**Sual: Hansı xarici ölkənin silahlı qüvvələri?**

**Cavab:** Siz özünüz bunu yaxşı bilirsiniz.

**Müxbir:** Rusiya?

**H. Əliyev:** Mən dedim ki, siz özünüz bilirsiniz.

**Sual: Bir dövlətin torpaqları tutulanda və danışıqlar yolu ilə onu geri qaytarmaq mümkün olmayanda həmin dövlət müharibəyə başlayır. Siz yenidən müharibəyə başlamağa hazırsınızmı?**

**Cavab:** Mən sizə dedim ki, biz məsələni sülh yolu ilə həll etməyə çalışırıq və ümidvaram ki, məsələni sülh yolu ilə həll edəcəyik. Əgər sizin kimi adamlar da bu işə kömək etsələr. Fransada çoxlu erməni yaşayır. Siz onları başa salın ki, [97-98] müharibə ilə heç bir şey etmək olmaz. Hamınız çalışın Ermənistanda olan davakar qüvvələri başa salasınız ki, silah ilə heç bir şey əldə etmək olmaz.

**Müxbir:** Bunu başa düşüblər, ona görə də danışıqlar aparırlar.

**H. Əliyev:** Ona görə də danışıqlarda konstruktiv mövqe tutmaq lazımdır.

**Sual: Oktyabrın 23-də Levon Ter-Petrosyanla Nyu-Yorkda görüşmüsünüz. O sizə nə dedi?**

**Cavab:** O dedi ki, gərək biz çalışaq, məsələni sülh yolu ilə həll edək. O da mən dediyimi deyir. O, sizin kimi demir.

**Sual: Əgər danışıqlar yolu ilə bunu əldə etməsəniz, onda müharibə edəcəksinizmi?**

**H. Əliyev:** Siz provokasiyalı sual verirsiniz.

**Müxbir:** Jurnalistin vəzifəsidir ki, provokasiya xarakterli sual versin.

**H. Əliyev:** Amma jurnalist də bilməlidir ki, kiminlə söhbət edir.

**Müxbir:** Mən sizi yaxşı tanıyıram, tərcümeyi-halınıza da bələdəm. Bilirəm ki, bütün dünyada siz nüfuzlu bir siyasətçisiniz.

Bircə sualım qaldı, o da boru kəməri barədə.

**H. Əliyev:** Buyurun. Çoxdandır, sənin kimi bir erməni ilə görüşməmişdim. Ona görə də mən sənin bütün suallarına cavab verəcəyəm. Keçmişdə mənim ermənilərdən çox dostum olubdur. Amma bu münaqişəyə başlayandan sonra çoxdandır görüşməmişəm. Cənab Ter-Petrosyanla hərdənbir görüşürük.

Biz onunla bir-birimizi yaxşı başa düşürük. Ona görə də mən ümidvaram ki, biz bu məsələləri sülh yolu ilə həll edəcəyik.

Axırıncı sualınızı verin.

**Sual: Mümkündürmü ki, boru kəməri Ermənis[98-99]tandan keçsin? Çünki bu, iqtisadi cəhətdən ən sərfəli variantdır.**

**Cavab:** Hansı şərtlərə əsasən?

**Sual: Hansı şərtləri deyəndə nəyi nəzərdə tutursunuz?**

**Cavab:** Əgər biz müharibə ediriksə, necə ola bilər ki, boru kəməri oradan keçsin?

**Sual: Əgər sülh əldə etsəniz?**

**Cavab:** Əgər sülh əldə olunsa keçə bilər. Əgər siz Ermənistana kömək etmək istəyirsinizsə çalışın ki, sülh olsun. Ondan sonra neft kəməri də oradan keçə bilər.

*Söhbəti Jan Gera aparmışdır.*
"Azərbaycan"

*20 dekabr 1995-ci il* [99-100]

## İNGİLTƏRƏNİN "MİDDL İST MEQEZİN" JURNALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*4 dekabr 1995-ci il*

**Müxbir: İlk sualım belədir: siz bu yaxınlarda Nyu-Yorkda Ermənistan prezidenti ilə görüşmüşsünüz. Bilmək istərdim, bu görüşdə hansı nəticələr əldə edilib və Ermənistan ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşdırılması istiqamətində hansı əməli addımların atılması mümkündür?**

**H. Əliyev:** Oktyabrın 23-də mən Nyu-Yorkda Ermənistan prezidenti cənab Levon Ter-Petrosyanla görüşdüm. Biz məsələlərin sülh yolu ilə həll olunmasına dair fikir mübadiləsi apardıq. O da, mən də bəyan etdik ki, biz atəşkəs rejiminin bundan sonra da saxlanmasını təmin edəcəyik. Eyni zamanda ikimiz də bu fikirdə olduq ki, biz yollar axtarmalıyıq ki, saziş əldə edək, müharibəyə tamamilə son qoyaq və bölgədə sülhü təmin edək. Bunun üçün biz razılaşdıq ki, Minsk qrupu çərçivəsində danışıqlar davam etdirilməlidir və fikirləşməliyik ki, daha hansı konkret yollar tapa bilək ki, müharibəyə son qoyaq. Razılaşdıq ki, Minsk qrupu çərçivəsindəki danışıqlarla yanaşı, Ter-Petrosyan və mən öz xüsusi nümayəndələrimizi ayıraq və onlar da bilavasitə danışıqlar aparsınlar. Yəni görüşümüzün əsas nəticəsi, mənası sülh danışıqları aparmaqdan və qarşılıqlı razılaşma əldə etmək üçün yeni imkanlardan istifadə etməkdən ibarətdir.

**Müxbir: Sizin bölgədə neçə aydan sonra sülh əldə edilə bilər? Siz Azərbaycanda bizim öz gözümüzlə gördüyümüz qaçqınlara və köçkünlərə deyə biləcəksinizmi ki, tezliklə evinizə qayıtmaq mümkün olacaqdır?**

**H. Əliyev:** Bilirsiniz, bunu demək, yəni nə vaxt tam sülh əldə olunacağını demək çox çətindir. Belə sülhün olması üçün bir neçə şərt lazımdır. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş ərazilərindən tamamilə çıxmalıdır, sizin gördüyünüz qaçqınlar, çadırlarda ağır vəziyyətdə yaşayan [100-101] Azərbaycan vətəndaşları, yerlərindən, yurdlarından zorla çıxarılmış insanlar öz yerlərinə qayıtmalıdırlar. Dağlıq Qarabağda yaşayan ermənilərin də təhlükəsizliyi təmin edilməlidir. Böyük sülh bu prinsiplər əsasında olmalıdır. Biz çalışırıq ki, bu, tezliklə olsun.

Gecikmənin səbəbkarı biz deyilik. Siz bilirsiniz ki, gecikmənin səbəbkarı Ermənistandır. Çünki ermənilər Azərbaycanın torpaqlarını işğal ediblər. Onların işğalçılığı nəticəsində bizim vətəndaşlarımız zorla öz yerlərindən qovulublar. Ona görə də ermənilər geri çəkilməli, beynəlxalq hüquq normalarına riayət etməlidirlər. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Biz bu şərtlər daxilində bölgəmizdə sülh yaratmaq istəyirik. Əlbəttə, çadırlarda ağır şəraitdə yaşayan bir milyondan artıq Azərbaycan vətəndaşının vəziyyəti bizi üzür, çox narahat edir. Biz istəyirik ki, onlar tezliklə öz yerlərinə qayıtsınlar. Yenə deyirəm, bu məsələlərin hamısının vaxtında həll olunması Ermənistanın mövqeyindən asılıdır.

**Müxbir: İcazənizlə, sizə neftlə bağlı bir neçə sualla müraciət edim. Mən Bakıda "Qarabağ" neft yatağının birgə istismarı ilə əlaqədar müqavilənin imzalanması mərasimində iştirak edirdim və sizin oradakı çıxışınızı da diqqətlə dinlədim. Həmin müqavilə imzalandıqdan sonra bir neçə sualla bəzi adamlara müraciət etdim, lakin heç kim mənə dəqiq cavablar verə bilmədi. Bu cavabları sizdən ala bilərəmmi? Müqavilədə iştirak edən şirkətlər layihəyə xərc qoyurlar və çıxarılan neftdən də öz səhmlərinə müvafiq pay götürəcəklər. Əgər nəzərə alsaq ki, şirkətlər qoyduqları xərci neftlə götürəcəklər və pay kimi alacaqları nefti də bunun üzərinə əlavə etsək, onların bütünlükdə götürəcəkləri neftin həcmi nə qədər olacaqdır?**

**H. Əliyev:** Bunu hesablamaq lazım deyil. Çıxarılacaq neft təxminən 150 milyon tondur. Şübhəsiz ki, bunun bir hissəsi qoyulan xərclərə gedəcək, bir hissəsi də şirkətlərin və Azərbaycanın payına düşəcəkdir.

**Müxbir: 150 milyon ton neft çıxarılması nəzərdə tutulan axırıncı müqavilədən Azərbaycanın payına nə qədər neft düşəcəkdir?**

**H. Əliyev:** Azərbaycanın nə qədər neft əldə edəcəyini mən indi demək istəmirəm. Ancaq bundan hər kəs öz gəlirini götürəcəkdir, özü də yaxşı götürəcəkdir. Əgər [101-102] gəlirimiz olmasa, biz o müqaviləni nə üçün bağlayırıq? Yaxud da ki, o şirkətlər bundan mənfəət götürməsələr, nə üçün gəlib sərmayə qoysunlar?

**Müxbir: Cənab prezident, siz bu rəqəmləri niyə sirr olaraq saxlayırsınız?**

**H. Əliyev:** Bu, sirr deyil. Burada mənim müşavirim var, ona deyərəm, sizə məlumat verər. Mən hesab etmirəm ki, bu rəqəmləri prezident deməlidir.

**Müxbir: Ümumi siyasətə qayıtsaq, siz hansı siyasəti yeritmək istəyirsiniz? Elə etmək istəyirsiniz ki, neft şirkətləri hə qədər mümkündür və imkan daxilində tez bir zamanda, çox miqdarda neft çıxarsınlar, yoxsa neftin az-az, tədricən, uzun müddətə çıxarılmasının tərəfdarısınız?**

**H. Əliyev:** Bu, bizim istəyimizdən asılı deyildir. Bu prosesdə hər bir işin öz vaxtı var. Həmin vaxtı biz qısalda bilmərik və onu süni surətdə uzatmağa da ehtiyac yoxdur. Məsələn birinci müqavilə 30 il üçün nəzərdə tutulmuşdur. Bu 30 il müddətində hər bir mərhələnin öz vaxtı var. Ola bilər ki, işin gedişində imkanlar genişlənsin, o cür olmasın, bu cür olsun.

**Müxbir: Sizcə, ölkənin iqtisadiyyatına müsbət təsir göstərmək üçün əsas gəlirləri nə vaxtdan etibarən əldə edəcəksiniz?**

**H. Əliyev:** İlkin neft çıxarılandan sonra, 1997-ci ildə biz artıq gəlir əldə edəcəyik.

**Müxbir: Sizə belə bir sual verim: Sizcə, Azərbaycan nə vaxt Küveytə dönəcəkdir?**

**H. Əliyev:** Bilirsiniz, bu sualı mənə tez-tez verirlər. "Küveyt" ifadəsini qanun kimi götürmək istəmirəm. Küveyt ayrı ölkədir, Azərbaycan başqa ölkədir. Ancaq hesab edirəm ki, 2000-ci ildən sonra Azərbaycan xalqı lazımi qədər təmin olunacaqdır.

**Müxbir: Bir neçə kəlmə ilə izah edə bilərsinizmi Rusiya ilə sərhədlər nə üçün bağlanmışdır?**

**H. Əliyev:** Rusiya belə hesab edir ki, öz sərhədlərini Çeçenistandakı müharibə ilə əlaqədar bağlamışdı.

**Müxbir: Axı, orada müharibə başa çatıb, sərhədləri nə üçün açmayıblar.**

**H. Əliyev:** Orada müharibə hələ qurtarmayıbdır. [102-103]

**Müxbir: Siz sərhədlərin açılması üçün danışıqlar aparırsınızmı?**

**H Əliyev:** Aparırıq.

**Müxbir: Nəticəsi varmı?**

**H. Əliyev;** Söz verirlər, baxaq, görək. Bir az çətindir.

**Müxbir: İki il ərzində siz əsas neft ixracı üçün boru kəmərini çəkməlisiniz. Siz hansı marşruta üstünlük verirsiniz?**

**H. Əliyev:** Üstünlük yoxdur, iki marşrut müəyyən etmişik, ikisindən də eyni səviyyədə istifadə edəcəyik. Əsas neftə isə hələ vaxt var.

**Müxbir: Diplomatiya sahəsindəki istedadınız barədə mətbuatda çox oxumuşdum. Amma indi sizin mətbuatla işinizdən də çox gözəl diplomat olmağınızın şahidi oldum.**

**H. Əliyev:** Təşəkkür edirəm.

**Müxbir: Cənab prezident, Fransanın neft şirkətləri ilə Azərbaycan arasında əməkdaşlıq barədə nə deyə bilərsiniz? Burada fransızlar belə hesab edirlər ki, onlar da Azərbaycan neftindən istifadə olunmasında öz rolunu oynamalıdırlar. İndiki səfəriniz zamanı bu neft şirkətlərinin nümayəndələri ilə görüşünüz olubmu?**

**H. Əliyev:** Bilirsiniz mən istəyirəm ki, Fransa gəlib Azərbaycanla neft sahəsində əməkdaşlıq etsin. Fransanın "Elf agiten" şirkətinin prezidenti ilə mən bir neçə dəfə görüşmüşəm, bu gün axşam da onunla görüşəcəyəm. Bu gün Fransanın baş naziri cənab Alen Jüppe ilə danışanda da bu barədə öz fikirlərimi ona dedim. Hesab edirəm ki, "Elf agiten" şirkəti Azərbaycanda böyük bir neft yatağının – "Şahdəniz" yatağının işlənməsində konsorsiuma daxil olmaq istəyir.

**Müxbir: Cənab prezident, bilirəm ki, sizin iş cədvəliniz çox gərgindir. Müsahibəyə görə çox sağ olun.**

*Söhbəti Pol Mobek aparmışdır.* [103-104]

## "İNTERNEŞNL HERALD TRİBYUN" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*4 dekabr 1995-ci il*

**Sual: Səfərinizdən məqsəd nədir?**

**Cavab:** Mənim səfərimdən məqsəd sırf iqtisadi problemlərdir. Mən Adam Smit İnstitutunun dəvəti ilə Londonda oldum. Bu institut "Azərbaycanın sərmayə imkanları" mövzusunda Azərbaycana həsr olunmuş beynəlxalq konfrans təşkil etmişdi. İnstitut oraya dünyanın bir çox ölkələrindən işgüzar dairələrin, maliyyə mərkəzlərinin, müxtəlif şirkətlərinin, bank strukturlarının nümayəndələrini dəvət etmişdi. Bu konfransdan başlıca məqsəd Azərbaycanı təqdim etmək, sərmayələr üçün onun bugünkü imkanları barədə məlumat vermək və təbii olaraq, ölkəmizin böyük potensial imkanlarını nəzərə alaraq Azərbaycana sərmayə qoyulmasını stimullaşdırmaq idi. Məqsəd, şübhəsiz, həm də budur ki, Azərbaycan həyatın bütün sahələrini demokratikləşdirmək yolu ilə gedir, iqtisadiyyat sahəsində strateji xəttə malikdir, bazar islahatları aparır, dövlət mülkiyyətini özəlləşdirir və Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatı ilə birləşdirmək üçün müxtəlif tədbirlər görür. Mən buna çox böyük əhəmiyyət verərək, Londona məhz bu məqsədlə getmişdim. Burada, Parisdə isə Ümumdünya Bankı Azərbaycanla əməkdaşlıq problemlərinə dair işgüzar dairələrin, maliyyə mərkəzlərinin təxminən bu cür görüşünü keçirir, lakin burada diqqət ən çox özəl sektorun inkişafına yönəldilir. Görüşdə işgüzar dairələrin olduqca çox nümayəndələri iştirak edir, Azərbaycandan geniş tərkibli böyük nümayəndə heyəti gəlib. Mən buraya məhz ona görə gəlmişəm ki, bu görüşdə şəxsən iştirak edim və toplaşanlar qarşısında çıxış edim. Bu, səfərimdən əsas məqsəddir. Bundan əlavə, hökumət nümayəndələri və rəsmi şəxslər ilə görüşmək imkanı yaranır. Bu gün mən baş nazir cənab Alen Jüppe ilə görüşəcəyəm.

**Sual: Siz Londonda Adam Smit İnstitutundan hər hansı xüsusi vədlər aldınızmı?** [104-105]

**Cavab:** Bildiyiniz kimi, Adam Smit İnstitutunun özü heç nə vəd etmir. Şübhə yoxdur ki, Azərbaycan çox böyük maraq doğurmuşdur. Bu konfransın iştirakçıları dedilər ki, onlar çox belə konfranslar keçiriblər, amma bu məclisə həddindən çox adam gəlmişdir. Bu, indi Azərbaycanın necə bir ölkə olduğunu, bizdə sərmayələr üçün, səmərəli əməkdaşlıq Üçün nə kimi imkanlar olduğunu göstərmək baxımından kifayət qədər yaxşı fürsət idi. Lakin eyni zamanda bunu da nümayiş etdirmək üçün yaxşı imkan idi ki, Azərbaycan demokratikləşdirmə yolu ilə gedir, Azərbaycanda xarici sərmayələr üçün əlverişli şərait yaradılmışdır, sərmayədarlar üçün kifayət qədər yaxşı qanunvericilik bazası mövcuddur, yeni qanunlar qəbul olunmuşdur. Bu qanunlar istər xarici sərmayələr üçün, istərsə də Azərbaycanın və xarici şirkətlərin birgə fəaliyyəti üçün əlverişli şəraiti təmin edəcəkdir. Noyabrın 12-də biz Azərbaycanın yeni konstitusiyasını, yəni müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etdik. Konstitusiyada məhz iqtisadi əməkdaşlıq üçün və lazım olan çox mühüm müddəalar var. Bütün bunlar kifayət qədər ətraflı məlumat verməyə imkan yaratdı.

**Sual: Hazırda qonşularınız Rusiya və Ermənistan ilə münasibətləriniz necədir?**

**Cavab:** Demək olar ki, Rusiya ilə münasibətlərimiz normal mehriban qonşuluq və dostluq münasibətləridir. Biz Ermənistan ilə yeddi ildən çoxdur hərbi münaqişə şəraitindəyik. O, Azərbaycana təcavüz etmişdir. Bu təcavüz, bu müharibə nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal olunmuş, işğal edilmiş torpaqların bir milyon nəfərdən çox sakini öz yaşayış yerlərindən zorakılıqla qovulub didərgin salınmışdır. İndi onlar Azərbaycanın başqa bölgələrində, çox ağır şəraitdə, əksəriyyəti də çadır şəhərciklərində yaşayırlar. Bu təcavüz Azərbaycan Respublikasına olduqca böyük maddi və mənəvi ziyan vurmuşdur. Hərbi əməliyyatlar zamanı 30 mindən çox azərbaycanlı həlak olmuşdur, respublikamızın minlərlə sakini tutulub Ermənistanda əsir saxlanılır.

Doğrudur, indi il yarımdan çoxdur biz barışıq şəraitindəyik.

yarım bundan əvvəl biz Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik və bu rejimi yerinə yetiririk. Lakin bu, olsa-olsa fasilədir və Ermənistan-Azərbaycan münaqişəsi məsələsini sülh yolu ilə həll etmək üçün əsas etibarilə vasitə, imkandır. Məsələnin sülh yolu ilə həlli isə yalnız [105-106] bir şərtlə – Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisindən tamamilə çıxarılması, Azərbaycan vətəndaşlarının öz yaşayış yerlərinə qaytarılması, Azərbaycanın ərazi bütövlüyünün, Azərbaycan Respublikasının dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsi şərti ilə mümkündür. Biz hesab edirik ki, bu münaqişənin aradan qaldırılmasına məhz bu şərtlərlə, sülh yolu ilə nail olmaq mümkündür. Ermənistan ilə Azərbaycan arasında münasibətlər bax bu cürdür.

**Sual: Siz neft kəməri məsələsinin həllini ideal, yoxsa güzəştli qərar sayırsınız?**

**Cavab: Bu,** normal qərardır.

**Sual: Cənab prezident Klinton şəxsən sizdən xahiş etdimi ki, məhz bu cür qərar qəbul olunsun?**

**Cavab:** Bəli, belə bir xahiş olub.

**Sual: Mən bilirəm, Rusiya hökuməti məsələnin bu cür həllinə o qədər də müsbət yanaşmadı.**

**Cavab:** Xeyr, normal yanaşdı.

**Sual: Sizcə, yaxın gələcəkdə neft ixracının nəticələri necə olacaq? Ümumi milli məhsul necə olacaq? Bir sözlə, siz neftdən konkret olaraq nə qədər pul qazanacaqsınız?**

**Cavab:** Neft hələ yoxdur, siz isə pulu saymaq istəyirsiniz. Biz ilkin neftin hasilatını təmin etmək üçün hələlik tədbirlər görürük. Əgər proqram yerinə yetirilərsə, – bu 1996-cı ilin axırlarına yaxın mümkün olacaq, – neft hasilatı 1997-98-ci illərdə artırılacaqdır.

**Sual: Belə hesab edirlər ki, Azərbaycanın neft ehtiyatları, mineral ehtiyatları Küveytin ehtiyatları qədərdir. Yəni bu o deməkdirmi ki, sizdə həyat şəraiti və gəlir çox yaxşı olacaq?**

**Cavab:** Bəli, yaxşı olacaqdır.

**Sual: Siz real gəliri, nəhayət, təxminən nə vaxt götürməyə başlayacaqsınız?**

**Cavab:** Bizim proqramımız var. Təkrar edirəm, biz neft hasilatına artıq 1997-ci ildən başlayacağıq. Lakin onun həcmi tədricən artırılacaqdır. Mənə elə gəlir ki, bütün bunlardan ən yüksək səmərə təqribən 2003-cü ildə olacaqdır.

**Sual: Çeçenistandakı hadisələrlə əlaqədar, İran kimi bir ölkə ilə qonşu olmağınızla əlaqədar respublikanıza vəsait qoymaq istəyən sərmayədarlara nə kimi təminatlar verdiniz, nə kimi dəlillər gətirdiniz? Siz** [106-107] **buna necə nail oldunuz ki, sərmayədarlar sizə inandılar, hər halda buna razılaşdılar?**

**Cavab:** Bilirsinizmi, dünyada belə münaqişələr və mürəkkəb hadisələr müxtəlif bölgələrdə baş verir. Bax, siz Küveyti dediniz, yoxsa yadınızda deyil, Küveytdə necə bir müharibə getmişdir. Lakin sərmayədarlar bundan sonra da oraya vəsait qoymağı dayandırmadılar.

**Müxbir:** Cənab prezident, çox sağ olun. [107-108]

## "MOND" QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Paris*

*4 dekabr 1995-ci il*

**H. Əliyev:** Mənə dedilər ki, siz bu yaxınlarda Bakıda olubsunuz.

**M. Jeqo: Bəli, olmuşam. Seçkilər zamanı, konstitusiya qəbul edilən zaman olmuşam. Mən belə düşünürəm ki, bu, demokratikləşdirməyə, vəziyyəti sabitləşdirməyə doğru yolda sizin üçün böyük addımdır. Amma seçkilər zamanı biz bəzi mənfi halları da gördük.**

**H. Əliyev:** Yoxsa, burada mənfi hallar olmur?

**M. Jeqo: Əlbəttə, burada da olur.**

**H. Əliyev:** Mənə dedilər ki, siz bizim seçkiləri o qədər də obyektiv işıqlandırmadınız. Mənə belə çatdırdılar.

**M. Jeqo: Bəli, mən bu barədə kifayət qədər mənfi ruhda yazdım.**

**H. Əliyev:** Bəs hesab etdinizmi ki, siz obyektiv yazdınız? Sizə elə gəlmirmi ki, hansısa təsir altına düşmüşdünüz?

**M. Jeqo: Xeyr.**

**H. Əliyev:** Yoxsa, siz bizə qərəzkarlıqla yanaşırsınız?

**M. Jeqo: Xeyr.**

**H. Əliyev:** Mən isə belə düşünürəm ki, əgər siz seçkiləri tamamilə mənfi ruhda işıqlandırmırsınızsa, bu qeyri-obyektivlikdir. Siz ya Azərbaycana sadəcə olaraq qərəzkarlıqla yanaşırsınız, ya da sadəcə olaraq hansısa mənfi təsir altına düşmüşdünüz. Çünki seçkilər kimi böyük bir iş nöqsansız ola bilməz. Bu, təbiidir. Odur ki, jurnalist müsbət halları da, mənfi halları da görməlidir, nəyin çox olduğunu, nəyin isə az olduğunu götür-qoy etməlidir. Əgər adam diqqəti ancaq mənfi cəhətlər üzərində cəmləşdirirsə və müsbət halları görmək istəmirsə, onda, təbii olaraq, onun haqqında qeyri-obyektiv müəllif kimi bir təsəvvür yaranır. Bizim səfir Eleonora xanım Hüseynova mənə bildirəndə ki, siz mənimlə görüşmək istəyirsiniz və siz Bakıda olmusunuz və mənfi ruhlu material yazmısınız, mən dedim: nə olar, qoy gəlsin, məsələni [108-109] aydınlaşdırarıq. Səfir şübhə edirdi ki, mən sizinlə görüşməliyəmmi. Mən isə dedim ki, şəkk-şübhə lazım deyil. Müsbət ruhda yazan şəxslə görüşmək də olar, görüşməmək də. Amma bizim haqqımızda mənfi ruhda yazan şəxs qoy gəlsin və danışsın görək nə məsələdir.

**M. Jeqo: Mən bəzi müşahidəçilərlə görüşdüm. Dedilər ki, seçkilər prosesi ümumən normal keçdi. Nəticədə konstitusiya qəbul edildi, parlament seçildi. İndi parlament fəaliyyətə başlaya bilər. Bu, əlbəttə bütün ölkə üçün, Azərbaycan üçün müsbət haldır. Sabitləşmə çox mühüm məsələdir.**

**H. Əliyev:** Bax, indi təsəvvür edin: seçicilərin 86 faizi səsvermədə iştirak etdi. Onların 91,9 faizi, yəni 92 faizi konstitusiyaya səs verdi. Təqribən 8 faiz konstitusiyaya səs vermədi. İndi deyin görək, bu demokratiyadır ya yox? Əgər iqtidar nəyi isə sadəcə olaraq təşkil etmək istəsəydi, onda bunu 99 faizə də çatdırmaq olardı. Amma konstitusiyaya, əsas qanuna səs verənlər 91 faiz təşkil etdilər. Söhbət heç də tək bir adamdan getmir. Deməli, seçicilər konstitusiyanın layihəsinə öz münasibətini müəyyənləşdirmək imkanına malik idilər və onların 91,9 faizi konstitusiyanın lehinə, 8 faizi isə əleyhinə səs verdi. Deməli, belələri də var, eləələri də. Bu, artıq ona dəlalətdir ki, xalqın öz iradəsini demokratik surətdə, azad şəkildə ifadə etməsi üçün şərait var idi. Bir halda ki, noyabrın 12-də eyni zamanda həm referendum, həm seçkilər keçirilmişdir, onda bunu, təbii olaraq, seçkilər barəsində də söyləmək mümkündür.

Lakin siz bunu əsas tutmalısınız ki, Azərbaycanda ilk dəfə olaraq azad seçkilər keçirilirdi. Məhz ilk dəfə olaraq. Bizdə hələ heç vaxt azad seçkilər keçirilməmişdi. Bundan başqa, seçkilər ilk dəfə olaraq çoxpartiyalı əsasda keçirildi. Seçkilərdə səkkiz partiya iştirak etdi. Bizim partiya sistemi təcrübəmiz yoxdur. Bizdə ən yaşlı partiya üç yaşındadır. Bəs bu üç ildə partiya nə edə bilər? Lütfən deyin, bu müddət ərzində partiyalıq prinsiplərinə və digər prinsiplərə yiyələnmək olarmı? Bəzi partiyalar isə bir il, iki il bundan əvvəl yaradılıbdır.

Biz istəyirik ki, demokratiya olsun. Buna görə də xalq partiyalar yaradılması yolu ilə getdi. Bizdə Ədliyyə Nazirliyi vasitəsilə 30-dan çox partiya qeydə alınıb. Lakin onlardan yalnız 18-i bildirdi ki, seçkilərdə iştirak edəcəkdir. Yaxşı, nə deyirik qoy belə olsun. Amma bu partiyalardan ancaq 8-i, daha doğrusu, 12-si bu cür hüquq qazanmaq üçün lazımi miqdarda im[109-110]za toplaya bildi. Bir fikir verin, bəs nə üçün qalan 18 partiya buna müvəffəq olmadı? Ona görə ki, onlar 50 min imza toplaya bilmədilər. Bəzilərinin, yəni dörd partiyanın topladığı 50 min imzanın xeyli hissəsi, Mərkəzi seçki komissiyasının aşkara çıxardığı kimi, həqiqi deyildi. Onları seçkilərə buraxmadılar. Səkkiz partiyanı isə buraxdılar. Bax, məgər elə bu prosesin özü göstərmirmi ki, artıq demokratikləşdirmə prosesi gedir? Doğrudurmu?

Beləliklə, seçkilər keçirildi. Birinci turda 125 nəfərdən 96-sı seçildi. 25 adam partiya siyahısı üzrə keçdi. 100 nəfərdən 71 nəfər majoritar prinsip üzrə keçdi. Deməli, 29 nəfər üçün seçkilər baş tutmadı. Bu, məgər

demokratiya deyilmi? Demokratiyadır. Majoritar prinsip üzrə qalan 20 dairədə təkrar səsvermə oldu. Orada bir dairədə 5-6-7-8, yaxud 10-12 namizəd var idi. Onların hərəsindən 2 namizəd daha çox səs topladı. Onlar təkrar səsverməyə getdilər. Noyabrın 26-da 20 dairədə təkrar səsvermə keçirildi. Bu, məgər demokratiya deyilmi?

Noyabrın 26-da 20 dairədən 13-də deputatlar seçildi. 7 dairədə isə seçkilər yenə də baş tutmadı. Ya yetərsay olmadı, ya da müəyyən pozuntulara yol verildi. Mərkəzi seçki komissiyası həmin dairələrdə seçkiləri baş tutmamış hesab etdi. Deməli, bu da demokratiyadır. Beləliklə, 15 dairədə seçkilər fevralın 4-nə keçirildi. Nə vaxt Azərbaycanda belə şey olub? Heç vaxt. Haradasa kimsə nədənsə şikayətlənir. Bu, təbiidir. Bunsuz olmur. Fransada da hər şey ideal deyildir. Burada tətil edirlər. Siz üç gündür, hətta üç gündən artıqdır ki, metrodan istifadə edə bilmirsiniz. Halbuki ölkə zəngin ənənələrə, demokratiyaya, yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyata malikdir. Bəs bizdə necə? Biz müstəqilliyimizi cəmi dörd il bundan əvvəl əldə etmişik. Yeddi ildir müharibə gedir. Ərazimizin 20 faizi işğal olunub. İşğal edilmiş torpaqlardan bir milyon nəfərdən çox sakin didərgin salınıb və onlar çadırlarda yaşayırlar. Yəqin ki, siz bunları bilirsiniz? Çox mürəkkəb bir şəraitdə seçkilər keçirilməsi və konstitusiya qəbul edilməsi faktının özü artıq böyük bir nailiyyətdir. Buna görə də inamla deyirəm və yəqin siz də mənim səmimiliyimə şübhə etməzsiniz ki, bu, bizim tərəfimizdən göstərilmiş hünərdir. Biz bu işə girişdik. Gərək bütün bu şəraiti, bütün bu vəziyyəti nəzərə alasan. Hər hansı bir təsadüfi halı, faktı çıxarıb ortaya atmaq, şişirtmək və sonra da "Mond" qəzetində belə yazmaq olmaz ki, Azərbaycanda hər şey pis idi. [110-111]

**M. Jeqo: Mən artıq ətraflı izah etdim ki, siz nə kimi imkanlara maliksiniz.**

**H. Əliyev:** Bilmirəm. Buna görə də sizə əlavə izahat verirəm ki, siz gələn dəfə daha obyektiv yazasınız. Sizinlə də məhz buna görə görüşürəm.

**M. Jeqo: Çox sağ olun. Fransaya səfərinizdən məqsəd nədir?**

**H. Əliyev:** Mənim bu səfərim, xaricə səfərim ancaq iqtisadi məsələlərlə bağlıdır. Həm də bu, dövlətlər, rəhbərlər tərəfindən heç də hər hansı bir dəvətlə bağlı deyildir. Bu, beynəlxalq iqtisadi təsisatlarla, maliyyə mərkəzləri və bank strukturları ilə bağlıdır. Məsələn, Londonda məşhur Adam Smit İnstitutu Azərbaycana həsr edilmiş xüsusi konfransın hazırlanması ilə yarım ildən çox məşğul olmuşdur. Bu konfransdan məqsəd sərmayələr qoyulması üçün Azərbaycanın potensial imkanlarını göstərməkdir. Eyni zamanda bunu göstərməkdir ki, Azərbaycan iqtisadiyyatı hansı yolla gedir: bazar iqtisadiyyatı, bazar islahatları aparılması, özəlləşdirmə keçirilməsi, əcnəbi sərmayədarlar üçün maksimum əlverişli şərait yaradılması. Bütün bu məsələlər iki gün ərzində konfransda ətraflı işıqlandırıldı.

Konfransa dünyanın bir çox ölkələrindən işgüzar dairələrin, maliyyə mərkəzlərinin, bank strukturlarının üç yüzdən çox nümayəndəsi gəlmişdi. Sizə demək istəyirəm ki, mən bu səfərdən son dərəcə razıyam. Hər hansı bir ölkəyə səfər etdikdə bu ölkənin rəhbərləri ilə, müvafiq iqtisadi strukturlar ilə danışıqlar gedir. Londonda isə bütün dünyanın nümayəndələri toplaşmışdılar. Özü də çox görkəmli xadimlər toplaşmışdılar. Bu konfrans çərçivəsində də, ondan kənarda da ən iri banklarda, maliyyə mərkəzlərində, ən iri şirkətlərdə mənim çox görüşlərim oldu. Səfərimdən məqsəd də məhz bundan ibarət idi.

Bu, Ümumdünya Bankının sabah burada keçirəcəyi tədbirlərə təxminən bərabərdir. Lakin burada Azərbaycanda xüsusi sahibkarlığın, özəl biznesin inkişaf etdirilməsinə daha çox diqqət yetiriləcəkdir. Bizdən də işgüzar adamların bir qrupu gəlib, dünyanın müxtəlif ölkələrindən çoxlu biznesmen dəvət edilib. İndi hazırlıq görülür və sabah orada mənim çıxışım olacaqdır.

Səfərimdən əsas məqsəd budur. Burada görüşlərim oldu, yeni görüşlər də keçiriləcəkdir. Mən cənab Alen Jüppe ilə də görüşdüm. Bu, qabaqcadan nəzərdə tutulmuş görüş deyildi. [111-112] Prezident Jak Şirak cənabları burada yoxdur. O, xaricdədir. Mən isə sabah, konfransda çıxış etdikdən sonra Bakıya qayıdıram.

**M. Jeqo: Fransa Azərbaycanda neft layihələrində çox da fəal iştirak etmir.**

**H. Əliyev:** Amerika Birləşmiş Ştatları ilə, Böyük Britaniya ilə müqayisədə – bəli. Amma mən belə düşünürəm ki, Fransa bu işlərdə iştirak edəcəkdir. Mən "Elf akiten"in prezidenti ilə görüşəcəyəm. Yeri gəlmişkən, mən onunla əvvəllər də görüşmüşəm. O, Bakıda olub. Mən onunla Parisdə də görüşmüşəm. Belə düşünürəm ki, "Elf akiten" Azərbaycanda çox geniş miqyasda təmsil olunacaqdır.

**M. Jeqo: Başqa bir sual. Sizin Rusiya ilə münasibətləriniz?**

**H. Əliyev:** Yaxşıdır.

**M. Jeqo: Sizin İranla sərhədlərinizi Rusiyanın qoruyacağı barədə danışıqlar aparılırmı?**

**H. Əliyev:** Rusiya artıq Ermənistanda və Gürcüstanda sərhəd qoruyur. Zənnimcə, bu bəsdir. Yoxsa, istəyirsiniz ki, hər yerdə qorusun?

**M. Jeqo: Sadəcə olaraq soruşuram.**

**H. Əliyev:** Ortaya belə məsələlər çıxır. Amma indi bizdə problem yoxdur.

**M. Jeqo: Necə hesab edirsiniz, tezliklə Rusiyada seçkilər olacaq, bu, Rusiya ilə münasibətlərinizdə nəyisə dəyişdirə bilərmi?**

**H. Əliyev:** Mən belə düşünürəm ki, dəyişdirə bilməz. Rusiyada seçkilər Rusiyanın daxili işidir. Məncə, bu, Rusiyanın strateji xəttinə, bizim onunla qarşılıqlı münasibətlərimizə təsir göstərməyəcəkdir.

**M. Jeqo: İndi sizin İranla münasibətləriniz necədir? İran konsorsiuma qəbul edilmədikdən sonra**

**münasibətləriniz korlanmayıb ki?**

**H. Əliyev:** Bəli, münasibətlərimiz bir az sərinləşib. Lakin hesab edirəm ki, düzələcəkdir.

**M. Jeqo: Sizcə, onlar hər hansı neft müqaviləsində iştirak edə bilərlərmi?**

**H. Əliyev:** Şübhəsiz ki, iştirak edə bilərlər. Amma bizim digər müqavilələrdə.

**M. Jeqo: Bəs indi İranla sərhəd açıqdır, yoxsa bağlıdır?** [112-113]

**H. Əliyev:** Bəli, açıqdır. Orada problem yoxdur.

**M. Jeqo: Siz Azərbaycanın gələcəyini necə təsəvvür edirsiniz?**

**H Əliyev:** Azərbaycanın gələcəyi? Ən başlıcası budur ki, Azərbaycan bu hərbi münaqişədən xilas olsun, Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan sərhədlərinin toxunulmazlığı bərpa edilsin və konstitusiyamıza görə, müəyyənləşdirdiyimiz xəttə görə Azərbaycan demokratik ölkə olsun, Azərbaycanda möhkəm dövlət quruluşu, demokratik hüququ dövlət, Qərb demokratiyasından istifadə edərək demokratiyanın daha da genişləndirilməsinə yönəldilmiş sivilizasiyalı dövlət bərqərar edilsin.

Yaxşı, bəs indi siz bizim haqqımızda obyektivmi yazacaqsınız? Yoxsa, hər şeyi yenə də əksinə təsvir edəcəksiniz?

**M. Jeqo: Belə hesab edirəm ki, obyektiv yazacağam.**

*Müsahibəni xanım Mari Jeqo aparmışdır.* [113-114]

## "KREDİ KOMMERSİAL DE FRANS" BANKININ RƏHBƏRLƏRİ VƏ İŞGÜZAR DAİRƏLƏRİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Paris*

*4 dekabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən və həmkarlarım burada, Fransanın ən iri kommersiya banklarından birində sizinlə birlikdə olmağımıza şadıq. Onu nəzərdə tuturam ki, Londona səfərim kimi, Parisə də səfərim başlıca olaraq Azərbaycanla xarici ortaqlar arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məsələləri ilə bağlıdır. Ümumdünya Bankı burada sərmayədarlarla, işgüzar dairələrin, maliyyə mərkəzlərinin nümayəndələri ilə xüsusi görüş təşkil etmişdir. Bu görüş Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi problemlərinə həsr olunmuşdur. Sabah səhər əməli işə başlanacaqdır və mən orada çıxış edəcəyəm. Lakin siz Ümumdünya Bankını qabaqladınız və bu gün məni buraya dəvət etdiniz. Amma belə hesab edirəm ki, bunların biri digərinə zidd deyildir, banklarla – iri banklarla, orta banklarla, kommersiya bankları ilə nə qədər görüşlərimiz, əlaqələrimiz olarsa, respublikamızla xarici ortaqlar arasında iqtisadi və maliyyə əlaqələrinin lazımınca inkişafını təmin etmək üçün bir o qədər çox imkanımız olar.

Sizdə tam təsəvvür yaranması üçün Azərbaycan haqqında danışmalı olsam, buna lap çox vaxt gedər. Mən isə bu gün hələ görüşlər keçirməliyəm. Buna görə də qısa danışacağam, amma çalışacağam ki, ölkəmiz haqqında ümumi təsəvvürə malik olasınız.

Azərbaycan öz dövlət müstəqilliyini dörd il bundan əvvəl əldə etmiş olan bir respublikadır. Bundan əvvəl o, Sovet İttifaqının tərkibində olmuşdur və təbii olaraq, Azərbaycanın bütün iqtisadiyyatı sosializmin maliyyə-iqtisadi sistemi əsasında qurulmuşdu və mövcud idi. Azərbaycan istiqlaliyyət əldə etdikdən sonra ən əvvəl müstəqil, suveren inkişaf yoluna qətiyyətlə başladı, bütün həyat sahələrini, ictimai-dövlət quruluşunu, iqti[114-115]sadiyyatı, bir sözlə, bütün sahələri demokratikləşdirmək xətti götürdü. Bu, əvvəla, Azərbaycan iqtisadiyyatının inkişafını intensivləşdirmək, Azərbaycanın iqtisadi və maliyyə sisteminin dünya iqtisadiyyatı ilə, dünya maliyyə sistemi ilə inteqrasiyasını təmin etmək zəruriliyindən irəli gəlirdi. Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsinə yönəldilmiş iqtisadi islahatlar aparılır, dövlət mülkiyyətini özəlləşdirmək proqramı qəbul edilmişdir və bu proqram yerinə yetirilir. Xüsusi sahibkarlıq üçün şərait yaradılmış və daha əlverişli şərait yaradılacaqdır, özəl mülkiyyətin toxunulmazlığı təmin edilir, artıq bir çox özəl müəssisələr var, Azərbaycanda müxtəlif xarici şirkətlərin firmaları, xarici firma və şirkətlərlə yaradılmış mindən çox müştərək müəssisə fəaliyyət göstərir.

Bunların hamısı, nəticə etibarı ilə öz əksini noyabrın 12-də qəbul edilmiş Azərbaycan Konstitusiyasında tapmışdır. Bu, müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasıdır. Noyabrın 12-də biz Azərbaycan parlamentinə ilk seçkilər keçirdik. Seçkilər demokratik əsasda keçdi, parlament formalaşdırıldı. Parlament öz fəaliyyətinə başlamışdır. Konstitusiyamız gələcək həyat fəaliyyətimizin bütün qanunvericilik əsaslarını müəyyənləşdirir. Bütün bunlar Azərbaycanda xarici sərmayələr üçün əlverişli şərait yaradır.

Bu məsələ Londonda Adam Smit İnstitutunun təşkil etdiyi konfransda geniş müzakirə mövzusu oldu. Dediyim kimi, sabah bu məsələ Ümumdünya Bankı tərəfindən təşkil olunan görüşdə də müzakirə ediləcəkdir. Azərbaycana xarici sərmayələr qoyulmasını stimullaşdırmaq üçün, özəlləşdirmə proqramına uyğun olaraq xarici şirkətlərin Azərbaycanda mülkiyyət əldə etməsi üçün güzəştli şərtlər yaradılır. Bu şərtlər bizim qanunda nəzərdə tutulmuşdur. Biz bəzi iri müəssisələri xarici firmaların idarəsi altına vermək niyyətindəyik və bunu planlaşdırırıq. Azərbaycanın ən iri şəhərlərindən biri olan Sumqayıtda azad iqtisadi zona yaradılır. Bu proqram BMT-nin Sənayenin İnkişafı Təşkilatının proqramına müvafiq surətdə həyata keçirilir. Biz hesab edirik ki, əcnəbi sərmayədarlar, xarici şirkətlər üçün, Azərbaycanla iqtisadi əməkdaşlıq üçün yaxşı imkanlar açılır.

Siz bilirsiniz ki, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istifadə olunması haqqında bir il bundan əvvəl Azərbaycan Dövlət Neft Şirkəti ilə ən iri transmilli neft [115-116] şirkətlərinin konsorsiumu arasında mühüm müqavilə imzalanmışdır. Bu müqavilə də artıq həyata keçirilir. Xəzər dənizindəki digər iri neft yataqlarından istifadə edilməsi haqqında bu yaxınlarda, noyabrın 10-da daha bir müqavilə imzalanmışdır. Yaxın gələcəkdə neft yataqlarına dair bir daha bir neçə müqavilə imzalamaq nəzərdə tutulur.

Azərbaycanda iri sənaye potensialı, çoxsahəli kənd təsərrüfatı, əlverişli torpaq-iqlim şəraiti və zəngin təbii ehtiyatlar var. Bütün bunlar əməkdaşlıq üçün yaxşı zəmindir. Biz ümidvarıq ki, bugünkü görüş də əməkdaşlığımızı möhkəmlətmək yolunda yeni addım ola bilər.

## YEKUN SÖZÜ

Mən əvvəldə dedim və indi də təkrar etmək istəyirəm ki, bizim böyük potensial imkanlarımız var. Biz bir çox illər, onilliklər ərzində idarəçiliyin sosialist forması şəraitində yaşamışıq. Bütün mülkiyyət dövlətə məxsus idi. Təxminən 1985-ci ildən etibarən, artıq on il ərzində keçmiş Sovet İttifaqında baş verən proseslər hamıya anlatdı ki, sosialist idarəetmə sistemi yaramır. İqtisadiyyatın sosialist forması da sınağa tab gətirmədi. Ona görə də keçmiş Sovetlər İttifaqının bütün respublikalarında, indi müstəqil ölkələrdə bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparılır. Bu istiqamətdə kim isə çox iş görmüş, kim isə geri qalmışdır. Həm də bütün hallarda bu keçid dövrü keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələrin hamısında istehsalın səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur. Sosial şərait pisləşmiş, əmək haqqı azalmış, adamlar pis yaşamağa başlamışlar, maddi vəziyyət pisləşmişdir. Beynəlxalq ekspertlər və bizim mütəxəssislərimiz belə bir fikrə gəlirlər ki, iqtisadi böhrandan çıxmağın və iqtisadiyyatı yaxşılaşdırmağın, iqtisadiyyatın inkişaf sürətini və təbii ki, insanların rifahını təmin etməyin, sosial məsələlərin həllinin yolu məhz iqtisadi sistemin sərbəstləşdirilməsi, bazar islahatlarının həyata keçirilməsi ilə bağlıdır.

Bax elə bu da bizi sizin yanınıza, Banka, Beynəlxalq Valyuta Fonduna gətirmişdir. Əvvəllər Sovetlər İttifaqında bütün bu banklar məlum deyildi, onları heç kim tanımırdı. Lakin indi biz sizinlə iqtisadi əlaqələr yaratmaq istəyirik. Ümid edirik ki, bu əlaqələr tez bir zamanda istehsalın səviyyəsinin artmasına və şübhəsiz ki, bütün iqtisadiyyatın yaxşılaşmasına gətirib çıxarmalıdır. [116-117]

Ona görə də mən sizin hamınızı Azərbaycana dəvət edirəm. Baş nazirə tapşırıram ki, sizin burada verdiyiniz təklifləri nəzərdən keçirsin və əgər lazım gəlsə, ayrıca görüşlər keçirərik. Yəni mənim hələ üç görüşüm də olacaq, qalan bütün məsələləri baş nazirə tapşırıram ki, o, hər bir konkret halda sizin təkliflərinizi və bizim imkanlarımızı nəzərdən keçirsin. Bu, mənim ilk səfərimdir ki, Londonda da, Parisdə də xüsusi olaraq yalnız maliyyə məsələləri ilə və iqtisadi məsələlərlə məşğul oluram. Sizin hamınızı Azərbaycana dəvət edirəm. [117-118]

# ÜMUMDÜNYA BANKININ TƏŞKİL ETDİYİ "AZƏRBAYCAN ÜÇÜN İNVESTİSİYALAR" BEYNƏLXALQ KONFRANSININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*Paris*

*5 dekabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Ən əvvəl bundan çox məmnun qaldığımı bildirmək istəyirəm ki, mənə Parisdə Ümumdünya Bankının iqamətgahına gəlmək, sizin aranızda olmaq, sizinlə ünsiyyətdə olmaq və qarşınızda çıxış etmək imkanı verilmişdir. Mən bugünkü xüsusi görüşün, Ümumdünya Bankı çərçivəsində Azərbaycan Respublikasına həsr olunmuş konfransın açılışı münasibətilə sizin hamınızı səmimi salamlamaq istəyirəm. Ümumdünya Bankının Azərbaycan Respublikasına göstərdiyi çox böyük diqqətə görə, ölkəmizin qarşısında duran mürəkkəb, çətin iqtisadi, maliyyə problemlərinin və digər problemlərin həllində köməyinə görə ona təşəkkür etmək istəyirəm.

Bu gün Azərbaycan Respublikası razı qala bilər ki, onunla, yəni gənc müstəqil dövlətlə Ümumdünya Bankı adını daşıyan belə iri bank arasında kifayət qədər sıx qarşılıqlı münasibətlər yaranmışdır. Biz münasibətlərimizin, əlaqələrimizin və bilavasitə əməkdaşlığımızın qısa müddəti ərzində konkret əməli nəticələr olduğunu, bu əməkdaşlıqdan konkret fayda olduğunu hiss edirik.

Təbiidir ki, bütün bunlar bizim üçün yalnız başlanğıcdır. Lakin biz belə əlverişli başlanğıcdan razıyıq və Ümumdünya Bankı ilə əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə və dərinləşəcəyinə ümid bəsləyirik. Biz dünya maliyyə sisteminə, dünya inteqrasiyasına, dünya iqtisadiyyatına qoşulmağın ən mühüm vasitəsini, aparmağa başladığımız iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsi üçün vasitəni məhz Ümumdünya Bankı ilə əməkdaşlığı daha da genişləndirməkdə və dərinləşdirməkdə görürük. [118-119]

Mən bu təşəbbüsə görə, bugünkü görüşə, Azərbaycana həsr olunmuş konfransa görə Ümumdünya Bankına ürəkdən təşəkkür edirəm. Əmin etmək istəyirəm ki, biz Ümumdünya Bankı üçün də, bizimlə əməkdaşlıq etmək istəyənlər üçün də, Azərbaycana maraq göstərərək bu gün buraya toplaşanların hamısı üçün də layiqli tərəfdaş olacağıq. Mən hazırda Fransada, Parisdə yaranmış kifayət qədər mürəkkəb vəziyyətlə əlaqədar bir çox nəqliyyat çətinliklərini dəf edərək, Parisə və buraya, bu salona gələnlərin hamısına təşəkkür edirəm.

Görünür, sizi Azərbaycanda indiki vəziyyət maraqlandırır. Hörmətli sədr bu barədə artıq müəyyən məlumat verdi. Lakin mən belə düşünürəm ki, sizə istər məlum olan və istərsə də məlum olmayan məsələlər barəsində respublika prezidentinin özündən məlumat almaq maraqlı olacaqdır.

Mən buraya, bu görüşə gəlməyi lazım bildim, məhz ona görə ki, şəxsən özüm Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi problemlərinə böyük əhəmiyyət verirəm, Azərbaycanda sərmayələrin fəallaşdırılması problemlərinə, sərmayədarlarla birbaşa əlaqələr yaradılmasına böyük əhəmiyyət verirəm və təbii olaraq, Ümumdünya Bankı ilə sıx, bilavasitə əməkdaşlıq edilməsini çox istəyirəm.

Azərbaycan qədim mədəniyyətə, böyük tarixə malik bir respublikadır. Azərbaycan bəşəriyyətin inkişafının bir çox mərhələlərini yaşamış bir diyardır. Azərbaycan xalqı dünya sivilizasiyasına öz layiqli töhfəsini vermiş bir xalqdır. Azərbaycan öz dövlət müstəqilliyini cəmi dörd il bundan əvvəl əldə etmiş olan bir respublikadır. Bu gün o, dünya birliyinin tam hüquqlu üzvüdür, bütün beynəlxalq təşkilatlara daxildir. Birləşmiş Millətlər Təşkilatının üzvüdür və öz hüquqlarını dünyanın bütün ölkələri ilə öz qarşılıqlı münasibətlərini müstəqil surətdə, suveren surətdə həyata keçirir.

Azərbaycan Qafqazda, iki qitənin – Avropa ilə Asiyanın qovşağında yerləşir, ticarət üçün də əlverişli coğrafi, coğrafi-siyasi mövqedədir və təbii olaraq, onun coğrafi-siyasi mövqeyi bir çox ölkələri başqa mülahizələrə görə də cəlb edir. Azərbaycan olduqca zəngin təbii ehtiyatlara, yeraltı sərvətlərə, müxtəlif torpaq-iqlim şəraitinə malikdir. Onun yüksək sənaye potensialı, çoxsahəli kənd təsərrüfatı, zəngin intellektual imkanları var. Biz bir çox elmi-tədqiqat, layihə institutlarına, kifayət miqdarda yüksək ixtisaslı kadrlar, dərin bilikli alimlər, mütəxəssislər hazırlayan ali məktəblərə malikik. Təbiidir ki, [119-120] biz öz səviyyəsinə görə zamanın tələblərinə həmişə cavab verən mədəniyyətimizlə – istər keçmiş, istərsə də bugünkü mədəniyyətimizlə fəxr edirik.

Bildiyiniz kimi, uzun müddət Azərbaycan Rusiyanın tərkibində, 1920-ci ildən isə Sovet İttifaqının tərkibində olmuşdur və 15 müttəfiq respublikadan biri idi. O vaxtlar Azərbaycanın zəngin təbii sərvətlərindən bütün Sovet İttifaqının əsasən sənayedə inkişafı üçün istifadə edilirdi.

Sizə xatırladım ki, Rusiyada çıxarılmış neftin əksər hissəsi Azərbaycana məxsus idi. Sizə belə bir rəqəmi də xatırladım ki, dünyanın bütün iri ölkələri cəlb edilmiş olsa da, əslində faşist Almaniyası ilə Sovet İttifaqının neft və neft məhsullarının 70 faizindən çoxunu Azərbaycan verirdi. Çoxları belə hesab edir ki, əgər Azərbaycan nefti

olmasaydı və o ağır şəraitdə neft çıxarıb cəbhənin ehtiyacları üçün göndərməyə imkan olmasaydı, onda İkinci dünya müharibəsində faşizm üzərində qələbəni təmin etmək güman ki, mümkün olmazdı. Qələbənin 50 illiyini isə bütün bəşəriyyət, o cümlədən sizli-bizli hamımız qeyd etdik. Yadımdadır, bu şənliklər Parisdə də, Londonda da, Moskvada da keçirildi və bu şənliklərdə iştirak etmək şərəfi nəsib oldu.

Birləşmiş Millətlər Təşkilatının yaradılmasına da, əslinə qalsa, məhz bu qələbə gətirib çıxarmışdır. Bu yaxınlarda biz onun 50 illiyini qeyd etdik və mənə də müstəqil Azərbaycan Respublikasının prezidenti kimi Birləşmiş Millətlər Təşkilatının tribunasından çıxış etmək şərəfi nəsib oldu. Mən bilən, Ümumdünya Bankı da müəyyən dərəcədə Birləşmiş Millətlər Təşkilatının himayəsi altındadır.

Azərbaycan tarixi barədə qısaca olaraq bu qədər. Lakin ona qayıdım ki, biz Sovet İttifaqının tərkibində olarkən bütün zəngin təbii ehtiyatlarımızdan o vaxtlar böyük ölkə olmuş bu dövlətin rifahı naminə istifadə edilirdi. Təbii ki, bu, Azərbaycanın özünün də inkişaf etməsinə imkan verirdi. Biz şikayətlənə bilmərik. Bir daha deyirəm, məhz həmin dövrdə bizdə iri sənaye potensialı yaranmış, kənd təsərrüfatı geniş inkişaf etmiş, xalq savadlı, təhsilli olmuşdur. İndi bizim yüksək ixtisaslı kadrlarımız, mütəxəssislərimiz, alimlərimiz, zəngin mədəniyyətimiz var.

Amma buna baxmayaraq, o vaxtlar biz dövlət müstəqilliyinə malik deyildik. Bu isə bizə bütün öz imkanla[120-121]rımızdan bəhrələnməyə, nəyisə istədiyimiz kimi etməyə imkan vermirdi.

İndi, biz dövlət müstəqilliyi əldə etdiyimiz, öz taleyimizin sahibi olduğumuz bir dövrdə öz problemlərimizi özümüz həll edirik. Təbii ki, biz dünyanın bütün ölkələri ilə qarşılıqlı əlaqələr saxlayırıq, müxtəlif bölgələrdə baş verən müxtəlif prosesləri nəzərə alırıq. Lakin dövlət müstəqilliyinin əldə olunması ilə əlaqədar yaranmış çətinliklərə baxmayaraq, öz məsələlərimizi, öz problemlərimizi özümüzün həll etməyimizə imkan verən dövlət müstəqilliyi bizim üçün tarixi hadisə, böyük nailiyyətdir. Biz bunu qiymətləndiririk. Axı bu, müstəqil Azərbaycanın prezidenti kimi mənə burada olmağa və Parisdə Ümumdünya Bankı tərəfindən təşkil olunmuş konfransda çıxış etməyə imkan verir.

İqtisadi baxımdan keçmiş Sovet İttifaqının bütün ölkələri və Şərqi Avropa ölkələri kimi biz də indi keçid dövründəyik. Axı uzun müddət ərzində, on illər boyu biz sosialist iqtisadiyyatı, kommunist ideologiyası, kommunist rejimi çərçivəsində yaşamış və mövcud olmuşuq, dünya iqtisadiyyatından ayrı düşmüşük, başqa qanunlarla yaşayır və iqtisadiyyatı tamam başqa bir prinsiplər əsasında qururduq.

İndi biz bundan uzaqlaşmışıq, özü də birdəfəlik və həmişəlik, biz bir daha hər hansı ittifaqın – Sovet İttifaqının və ya digər bir ittifaqın tərkibində olmaq istəmirik. Biz öz dövlət müstəqilliyimizi çox yüksək qiymətləndirir və bunu dönməz hal sayırıq. Lakin bu keçid dövrü, təbii olaraq, böyük çətinliklərə bağlıdır. Çünki biz bir iqtisadi, sosial sistemdən digər iqtisadi, sosial sistemə keçirik.

Buna görə də biz gərək milli dövlət quruculuğu sahəsində də, ictimai-siyasi həyat sahəsində də, iqtisadiyyat sahəsində də öz strateji xəttimizi dəqiq və aydın müəyyənləşdirək. Bizim xəttimiz isə bundan ibarətdir ki, biz Azərbaycanda hüquqi demokratik dövlət qururuq, demokratik vətəndaş cəmiyyəti yaradırıq. Biz öz iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə aparır, iqtisadi bazar islahatlarını ardıcıl surətdə həyata keçiririk, yəni milli dövlət quruculuğunda da, ictimai həyatda da, iqtisadiyyatda da dünya iqtisadiyyatı ilə, dünya sistemi, dünya birliyi ilə qovuşuruq, onu nəzərdə tuturuq ki, digər dünyanın yaşadığı bütün həmin sistem sabah həm də bizim sistem olacaq, bizim də öz problemlərimiz olacaqdır. Bu sistem çox sınaqlardan keçmiş və öz yaşamaq qabiliyyətini doğrult[121-122]muşdur, müvəffəqiyyətlə fəaliyyət göstərir, insan üçün lazımi firavanlıq yaradır.

Təkrar edirəm, indi biz azad ölkəyik, demokratik ölkəyik, hüquqi dövlətik, bu yol ilə gedirik. Bu isə insan üçün bütün azadlıqların – siyasi, ictimai, iqtisadi azadlıqların yaradılmasını, özəl sahibkarlıq, şəxsi təşəbbüskarlıq üçün, başqa ölkələrlə, əlbəttə, müxtəlif şirkətlərlə azad iqtisadi əlaqələr yaradılmasını, xarici iqtisadi əlaqələrimizi və xarici ticarəti sərbəstləşdirməyi, iqtisadiyyat sahəsində, qiymətlər sahəsində sərbəstləşmənin həyata keçirilməsini qarşıya bir şərt kimi qoyur. Yəni biz qalan bütün dünyanın yaşadığı sistemə tədricən yaxınlaşırıq. Lakin biz keçid dövrü mərhələsindəyik. Bir sosial-iqtisadi sistemin dəyişdirib başqa sosial-iqtisadi sistemlə əvəz edilməsi, təbii olaraq, çətinliklərlə, nöqsanlarla, itkilərlə bağlıdır və çoxlu vaxt tələb edir.

Lakin bir şey aydındır. Mən də istəyirəm ki, siz bunu biləsiniz: biz açıq ölkəyik. Biz iqtisadi islahatlar aparılması yolu ilə gedirik. Biz azad sahibkarlıq üçün, respublikamızın hər bir vətəndaşının bütün öz imkanlarından istifadə etməsi, öz mülkiyyətinə malik olması və Azərbaycanın hüdudlarından kənarda olan firmalarla, şirkətlərlə, şəxslərlə öz iqtisadi əlaqələrini yaratmaq imkanı olması üçün hər cür şərait yaradırıq. Bütün bunlar bizi belə bir fikrə gətirir ki, biz güclü maliyyə yardımına malik olmalıyıq, biz xarici sərmayələrdən istifadə etməliyik.

Xoşbəxtlikdən, biz artıq bu cür maliyyə yardımı almağa başlamışıq. Ümumdünya Bankı ilə aramızda yaxşı münasibətlər yaranmışdı. Nəhayət, Ümumdünya Bankı hiss etmişdir ki, Azərbaycan elə bir ölkə, elə bir ortaqdır ki, onunla əməkdaşlıq etmək olar. Buna görə də bizə kreditlər ayırır, doğrudur, hələlik ehtiyatla olsa da, az-az olsa da hər halda ayırır. Belə düşünürük ki, bundan sonra da ayıracaqdır. Beləliklə, bunun sayəsində biz öz vəziyyətimizi müəyyən dərəcədə yüngülləşdiririk və ümidvaram ki, iqtisadi islahatlarımızı daha uğurla həyata keçirəcəyik.

Biz Beynəlxalq Valyuta Fondundan da yardım alırıq. İndi o, bizimlə fəal əməkdaşlıq edir. Biz bəzi ən iri transmilli şirkətlərlə, xüsusən neft sənayesi sahəsində ən böyük şirkətlərlə əlaqələrə malikik. Mən bu barədə bir qədər sonra danışacağam. Bizimlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında yaxşı əlaqələr yaranmışdır. Bir neçə gün bundan əvvəl mən [122-123] Londonda olarkən bu bankın rəhbərləri ilə görüşmək və onlarla bəzi məsələləri müzakirə etmək imkanı tapdım. Biz onlardan da kreditlər almağa başlamışıq.

Biz Asiya İnkişaf Bankı ilə maliyyə münasibətləri yaratmağa böyük maraq göstəririk. İslam Bankı ilə də münasibət yaratmışıq. Doğrudur, bu münasibətlər hələlik geniş inkişaf etməmişdir. Demək istəyirəm ki, biz dünyanın bütün maliyyə mərkəzləri, maliyyə strukturları, bankları ilə sıx münasibətlər yaratmağa çalışırıq. Əslinə qalsa, elə bugünkü görüş də, mənim burada olmağım da bu arzumuzu, bu niyyətimizi sizə çatdırmaqla və sizin hamınızı buna inandırmaqla bağlıdır ki, biz həqiqətən bu yoldayıq və etibarlı tərəfdaşlarıq. Yəni iqtisadi bazar islahatlarının həyata keçirilməsi yolu ilə müvəffəqiyyətlə irəliləmək üçün biz yardım almalıyıq, xarici sərmayələrə arxalanmalıyıq.

Məsələn, islahatlar baxımından biz konkret olaraq nə etmişik? Biz qanunlar qəbul etmişik və iqtisadiyyatın aqrar sektorunda islahatlar bu qanunlar əsasında aparılır. Biz mülkiyyətin özəlləşdirilməsi proqramını qəbul etmişik. Proqram qanuni qüvvəyə malikdir və əməli surətdə həyata keçirilir. Bizdə 40-dan çox qanun qəbul olunmuşdur, yəni kifayət qədər qanunverici zəmin yaradılmışdır ki, xarici sərmayələrdən ötrü şərait təmin edilsin, iqtisadi münasibətlərin inkişafına şərait yaradılsın. Bu məqsədlə 200-dən çox normativ akt qəbul edilmişdir. Azərbaycanda xarici firmalarla mindən çox müştərək müəssisə və ya xarici firma, 150-dən artıq xarici kommersiya firma və strukturu var. Bunların hamısı başlanğıcdır. Biz hesab etmirik ki, bu çoxdur. Lakin başlanğıc üçün, zənnimcə, kifayət qədər sanballı göstəricilərdir.

Biz aqrar sektorda islahatlar apararaq fermer təsərrüfatları yaradılmasına böyük əhəmiyyət veririk. Bizdə artıq iki min beş yüzdən çox fermer təsərrüfatı mövcuddur. Biz fermer təsərrüfatları təşkil edilməsi yolu ilə gedirik və təbii olaraq, aqrar sektorda islahatların geniş miqyasda həyata keçirilməsi kənd təsərrüfatında həmçinin geniş miqyasda xüsusi mülkiyyət yaradılmasına gətirib çıxaracaqdır.

Bunların hamısı edilmişdir. Lakin gələcək üçün daha böyük təminatlar yaradılmışdır. Onlar bu yaxınlarda qəbul olunmuş Azərbaycan Konstitusiyasında öz əksini tapmışdır. Mən dedim ki, biz dörd ildir müstəqillik şəraitində yaşayırıq. Bu illər mü[123-124]rəkkəb və çətin olmuşdur. Mən bu barədə və həmçinin səbəblər barəsində az-çox məlumat verəcəyəm.

Noyabrın 12-də biz Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etdik. Bu, Azərbaycanda dövlət quruculuğunu, hüquqi demokratik dövlət quruculuğunu davam etdirmək üçün hər cür şərait yaradan konstitusiyadır. Bu, elə bir konstitusiyadır ki, insana, vətəndaşa bütün azadlıqları verir, şəxsiyyət azadlığını təmin edir, nəhayət, siyasi plüralizm üçün şərait yaradır, həyatımızın bütün sahələrini – ictimai, siyasi və iqtisadi sahələrini demokratikləşdirir, xüsusi sahibkarlığın inkişafına dair, xüsusi mülkiyyətin inkişafına və möhkəmləndirilməsinə dair, onun toxunulmazlığının təmin olunmasına dair yeni qanunlar qəbul edilməsi üçün son dərəcə yaxşı zəmindir. Təkrar edirəm, bu konstitusiya ictimai-siyasi sahədə də, iqtisadi sahədə də geniş imkanlar açır.

Biz iri transmilli neft şirkətləri ilə yaxşı əlaqələr yaratmışıq. Siz yəqin bilirsiniz ki, Azərbaycanın neft yataqlarının birgə işlənməsi haqqında bir il əvvəl, ötən ilin sentyabrında Bakıda 11 ən iri neft şirkətindən ibarət konsorsiumla böyük müqavilə imzalanmışdır. Bu 11 şirkət dünyanın yeddi ölkəsinə mənsubdur. "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə artıq əməli surətdə həyata keçirilir. Ötən il çox iş görülmüşdür. Bu yaxınlarda konsorsiumun rəhbər beynəlxalq əməliyyat komitəsi müqavilənin gələn il üçün büdcəsini təsdiq etmişdir. Büdcə təxminən 600 milyon dollara bərabərdir. Nəzərə almaq lazımdır ki, 1995-ci ildə artıq təqribən 100 milyon dollar xərclənmişdir.

İlkin neftin ixracını təmin etmək üçün konsorsiumla iki neft kəməri çəkilməsi haqqında qərar qəbul etdik. Boru kəmərlərindən biri şimal marşrutu ilə Rusiyadan keçib Novorossiyskə, digəri isə qərb marşrutu ilə Gürcüstandan keçib Qara dəniz sahilindəki Supsa limanına gedəcəkdir. Böyük neft kəmərini layihələşdirmək sahəsində də iş görülür. Lap bu yaxınlarda noyabrın 10-da biz həmçinin böyük perspektivləri olan digər neft yatağının işlənməsi haqqında dörd iri şirkətin iştirak etdiyi konsorsiumla daha bir müqavilə imzaladıq. Bizdə başqa neft və qaz yataqları da var. Biz danışıqlar aparırıq və ola bilsin ki, gələcəkdə digər müqavilələr imzalanacaqdır. Bəs bu müqavilələr nə deməkdir? Bu o deməkdir ki, biz dünya üçün açığıq, əməkdaşlığa hazırıq. Biz dünyanın ən iri neft şirkətlərini ölkəmizə dəvət etmişik və onlarla uzunmüddətli əməkdaş[124-125]lıq haqqında müqavilə bağlamışıq. Müqavilə otuz il müddətinə imzalanmışdır.

Bu, həm də onu göstərir ki, artıq Azərbaycana etimad var, başa düşürsünüzmü, etimad var və Azərbaycanla əməkdaşlıq etmək olar. Zənnimcə, bu çox mühüm göstərici ona dəlalətdir ki, əcnəbi sərmayədarlar Azərbaycana fəal və cəsarətlə gələ bilərlər. Əlbəttə, hər hansı sərmayədarın bu və ya digər ölkəyə gələ bilməsi üçün müvafiq şərtlər var. Mən sizə cəsarətlə deyə bilərəm ki, bu cür şərtlər Azərbaycanda yaradılmışdır. Ən əvvəl, konstitusiya qəbul edilmişdir, qanunvericilik bazası var. İkincisi, noyabrın 12-də biz müstəqil Azərbaycan Respublikasının parlamentinə seçkilər keçirmişik. Seçkilər demokratik əsasda keçmiş, yeni parlament seçilmişdir və parlamentə seçilən deputatların mütləq əksəriyyəti dövlətin, yəni prezidentin iqtisadi bazar

islahatları aparılmasına, ölkənin demokratikləşdirilməsinə yönəldilmiş strateji xəttini dəstəkləyir.

Lakin bütün bunlardan başqa ictimai-siyasi sabitlik barədə daha konkret məlumat gərəkdir. Sizə deyə bilərəm ki, son illər Azərbaycan öz tarixinin çox mürəkkəb dövrlərini yaşamışdır. Siz bilirsiniz ki, yeddi ildən bir qədər əvvəl Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ilhaq etmək məqsədilə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlamışdır. Bu təcavüz müharibəyə, hərbi münaqişəyə gətirib çıxarmışdır. Bunların nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmiş, Azərbaycanın bir milyondan artıq sakini işğal olunmuş torpaqlardan zorakılıqla qovulub didərgin salınmışdır. Onlar Azərbaycanın digər bölgələrində, əksəriyyəti də çadırlarda ağır iqtisadi, sosial şəraitdə yaşayır.

Lakin bütün bunlara baxmayaraq, bütün bu çətinliklərə baxmayaraq, biz hərbi münaqişəni dincliklə aradan qaldırmaq mövqeyi tutmuşuq və beynəlxalq təşkilatlar, ATƏT və Minsk qrupu çərçivəsində böyük təşəbbüs göstərmişik. Bu problemin dincliklə həlli haqqında ATƏT-in tərkibində artıq çoxdan danışıqlar aparılır. Məhz bununla əlaqədar il yarım bundan əvvəl biz atəşin dayandırılması haqqında, sakitlik yaradılması haqqında Ermənistanla Azərbaycan arasında saziş bağlamağa müvəffəq olduq. İl yarımdır ki, müharibə getmir, atəş açılmır, güllə atılmır, adamlar həlak olmurlar. Biz atəşkəs, barışıq şəraitində yaşayırıq və əmin edirik ki, bu barışıq rejiminə tam sülhə nail olana qədər əməl edəcəyik. Biz tam sülh yaratmaq, onu təmin etmək üçün danışıqlar aparırıq. Yəni hazırda [125-126] bölgəmizdə hərbi əməliyyatlar keçirilmir. Elə bu Azərbaycanda sabitliyə dəlalət edən mühüm amildir.

Son illər Azərbaycanda mürəkkəb daxili siyasi proseslər getmişdir. Bu da xalqımızın müsibətidir. Bir tərəfdən, Azərbaycan hərbi təcavüzə məruz qalmış, digər tərəfdən isə respublikanın daxilində müxtəlif silahlı qruplaşmalar peyda olmuş, hakimiyyət uğrunda mübarizə, özü də silahlı mübarizə aparılmışdır. Bütün bunlar Azərbaycanda sabitliyi pozmuşdur.

Sizə deyə bilərəm ki, bunların hamısına da son qoyulmuşdur. Biz 1993-cü ildə başlanmaqda olan vətəndaş müharibəsinin qarşısını almağa müvəffəq olduq. Bundan sonra iki dəfə silahlı yolla dövlət çevrilişi cəhdi göstərildi. Təbii ki, onların qarşısı alındı. Azərbaycanda dövlətçilik möhkəmlənmişdir. Bütün bu cinayətkar qruplaşmalar zərərsizləşdirilmişdir. İndi respublikada vəziyyət sakit və əlverişlidir. Buna görə də sizi əmin edə bilərəm ki, mən, Azərbaycan prezidenti kimi, ictimai-siyasi vəziyyətə tamamilə nəzarət edirəm və uzun müddət üçün sabitliyə təminat verirəm. Yeri gəlmişkən, mən bu öhdəliyi öz üzərimə qəbul edilmiş konstitusiyada da götürmüşəm, məni prezident seçərkən xalq qarşısında and içərək əmin etmişəm ki, hər bir vətəndaş üçün sakit həyat şəraitinin təmin olunması üçün hər şey edəcəyəm.

Budur, ötən iki il yarım göstərir ki, mən öz öhdəliklərimi yerinə yetirirəm. Zənnimcə, pis də yerinə yetirmirəm. Azərbaycanda vəziyyət kökündən dəyişmişdir. Əgər sizlərdən kimsə iki, yaxud üç il bundan əvvəl Azərbaycanda olubsa və kimsə bu yaxınlarda gəlibsə o, belə fərqi görməli idi. Hər halda bizə təkrarən gələn qonaqlarımız bunu mənə deyirlər. Onlar mənə deyirlər: bilirsinizmi, iki il bundan əvvəl biz burada olmuşduq. İndi Bakıda, Azərbaycanda vəziyyət bambaşqadır. Adamlar azad-sərbəst yaşayır, qorxub çəkinmədən hərəkət edirlər. Əvvəlki vahimə və narahatlıqdan, keçmişdə mövcud olmuş cinayətkarlıq şəraitindən əsər-əlamət yoxdur.

Bu, bizim nailiyyətimizdir. Biz buna, əlbəttə, asanlıqla nail olmamışıq. Amma hər halda nail olmuşuq. Mən sizi əmin edirəm ki, biz bu vəziyyəti qoruyub saxlamağa, həm də təkcə qoruyub saxlamağa yox, möhkəmləndirməyə qadirik.

Bax buna görə də hesab edirəm ki, Azərbaycanda olmaq, müştərək iş görmək, Azərbaycana vəsait qoymaq və müvafiq fayda götürmək üçün hər cür lazımi şərait yaradılmışdır. Söz [126-127] verirəm ki, biz azad sahibkarlığa şərait yaratmaq üçün öz işimizin sürətini bundan sonra da artıracağıq.

Mən bilirəm ki, bugünkü görüş Azərbaycanda əsasən özəl sektorun inkişafına həsr olunmuşdur. Mən sizə ümumi xarakterli məlumat verdim. Çünki bu məlumat bütün hallarda hamı üçün gərəkdir. O ki qaldı Azərbaycanda özəl sektorun inkişafına, bu, fəaliyyətimizin birinci dərəcəli sahəsidir. Yəni əgər biz bazar islahatları keçirilməsi yolu ilə gediriksə, əgər biz mülkiyyətin özəlləşdirilməsi yolu ilə gediriksə, deməli, biz xüsusi sahibkarlığı, özəl sektoru fəal surətdə inkişaf etdiririk. Buna görə də əmin ola bilərsiniz ki, biz buna Azərbaycan iqtisadiyyatının gələcək fəal inkişafı, vətəndaşlarımızın rifahının yaxşılaşdırılması üçün bir təminat kimi baxırıq.

Doğrudur, dünən mən bir şirkətin nümayəndəsi ilə görüşdüm. O mənə dedi: siz elə düşünürsünüz ki, özəl sektorun, sahibkarlığın inkişaf etdirilməsi iqtisadiyyatın inkişafı üçün yeganə yoldur, iqtisadiyyatı dövlət sektorunda da inkişaf etdirmək olar. Mən bunu istisna etmirəm. Əlbəttə ki, olar. Mən bilirəm ki, Fransada da, bəzi ölkələrdə də dövlət sektoru sanballı yer tutur. Amma mən nə deyə bilərəm? Mən bütün ömrüm boyu dövlət mülkiyyəti sistemi çərçivəsində yaşamışam. Mən elə bir adamam ki, heç vaxt şəxsi mülkiyyətim olmayıb, Azərbaycan çərçivəsində də, hətta Sovet İttifaqı çərçivəsində də iri iqtisadi sistemə, dövlət sisteminə rəhbərlik etmişəm. Mən Sovet İttifaqının rəhbərlərindən biri olmuşam. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən məhz sırf iqtisadiyyatla məşğul olmuşam. Əgər Azərbaycanda mən respublikanın ümumi rəhbəri kimi həm siyasətlə, həm iqtisadiyyatla məşğul olurdumsa, Moskvada işləyərkən, özü də Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən, Siyasi Büronun üzvü olarkən mən əsasən iqtisadiyyatla məşğul olurdum.

Bir sözlə, mən dövlət sektoru ilə tanışam. Bununla bərabər, Sovet İttifaqının, onun tərkibində isə Azərbaycanın da necə bir vəziyyətə düşdüyünü bilirəm. Bəlkə də hər şey üçün dövlət sektoru təqsirkar deyildir. Onun da öz üstünlükləri olmuşdur. Dövlət sektorunda elə sahələr var idi ki, burada iqtisadiyyatı daha səmərəli şəkildə inkişaf etdirmək olardı. Hansısa bir mərhələdə Sovet İttifaqı həqiqətən müəyyən iqtisadi nailiyyətlər qazanmışdı. Biz bunların hamısını görmüşük. Buna görə də qəti niyyətimiz və qəti xəttimiz özəl sektoru inkişaf etdirməkdən, xüsusi sahibkarlığı inkişaf etdirməkdən, xüsusi [127-128] mülkiyyət üçün şərait yaratmaqdan ibarətdir. Bayaq dediyim kimi, konstitusiyamız xüsusi mülkiyyətin toxunulmazlığına təminat verir. Lakin məhz bu prinsiplər əsasında belə hesab edirik ki, biz Azərbaycana xarici sərmayələrin, özəl sektora və ümumiyyətlə bütün iqtisadiyyata sərmayələrin böyük axınını təmin edə bilərik, özü də bir çox istiqamətlərdə. Bayaq dediyim kimi, biz çox böyük sənaye potensialına malikik. Buyurub gəlin, bu potensial əcnəbi sərmayədarların ixtiyarındadır. Biz əməkdaşlıq etməyə hazırıq.

Mən bilirəm ki, bu gün burada toplaşan adamlar kənd təsərrüfatının özəl sektoruna sərmayə qoyulmasının mümkünlüyünü öyrənmək istəyirlər. Biz çoxsahəli kənd təsərrüfatına malikik. Ərazimiz böyük deyildir. Lakin Allah-taala bizə bərəkətli torpaqlar və əlverişli iqlim şəraiti bəxş etmişdir. Azərbaycan bir çox iqlim zonalarına malikdir. Bizdə aran zonası da var, tütün, meyvə, taxıl əkib-becəririk. Bir sözlə, bizdə kənd təsərrüfatı çoxsahəlidir. Dediyim kimi, biz fermer təsərrüfatlarını inkişaf etdiririk. Biz nümunəvi özəl fermalar yaratmaq üçün, şəxsi mülkiyyət prinsiplərinin tətbiqi yolu ilə kənd təsərrüfatı məhsulları istehsalında böyük nəticələrə necə nail olmağı göstərmək üçün Ümumdünya Bankının imkanlarından istifadə etmək niyyətindəyik. İndi bizdə xidmət sahəsinə və infrastruktura xaricdən sərmayələr qoyulması üçün geniş imkanlar açılır.

Mən artıq dedim ki, biz böyük müqavilələr bağlamışıq. Bizdə iri neft şirkətləri və bir çox digər xarici şirkətlər işləyirlər. Təbiidir ki, mehmanxana təsərrüfatına, servisin bütün sahələrinə sərmayə qoyulması səmərəlidir. Biz burada sizinlə fəal əməkdaşlıq edə bilərik.

Ölkəmiz turizm üçün, istirahət üçün çox yaxşı baza ola bilər. Sərmayələr burada da çox yaxşı nəticələr verə bilər. Bütün digər sahələrdə, məsələn, sənayedə bizim nəhəng maşınqayırma kompleksimiz, neft maşınqayırması kompleksimiz var. Sənayeni də modernləşdirmək və onu daha da inkişaf etdirmək lazımdır. Biz böyük neft kimyası sənayesi kompleksinə malikik. Bizim öz neftimiz, neft məhsullarımız və qazımız var. Bizdə elə müəssisələr var ki, onlar modernləşdirilsə dünya bazarında rəqabət qabiliyyətinə malik məhsul verə bilər. Bizdə [128-129] kənd təsərrüfatı məhsullarını, kənd təsərrüfatı xammalını emal edən çox böyük sənaye sahəsi, habelə geniş istehlak malları, digər mallar istehsalı ilə bağlı olan, kənd təsərrüfatı xammalı ilə bağlı olan emal sənayesi var. Burada da kiçik biznes, orta biznes, özəl sektor çox böyük nəticələr verə bilər. Mən sizə deyə bilərəm ki, keçid dövrünün nöqsanları ilə əlaqədar indi bizdə kənd təsərrüfatının potensialının maksimum üçdə bir hissəsindən istifadə edilir, qalan hissə istifadəsiz qalır. Məsələn, biz əgər 80-ci illərdə, 70-ci illərdə hətta sosialist sistemində, dövlət sektorunda ildə bir milyon ton pambıq istehsal etmək imkanına malik idiksə, indi, təəssüflər olsun, cəmi 300 min ton istehsal edirik. Əgər 70-ci illərdə biz dövlət mülkiyyəti sistemi şəraitində təxminən iki milyon ton üzüm istehsal edib sonra da şərabçılıq məhsulu, ərzaq malları üçün məhsul verirdiksə, indi ildə cəmi 200 min ton, yəni əvvəlki illərdəkinə nisbətən on dəfə az üzüm istehsal edirik. Deməli, hələ dövlət mülkiyyəti şəraitində, sosialist idarəetmə sistemi şəraitində bu cür imkan olmuşdur.

Bir təsəvvür edin, əgər indi biz xüsusi sahibkarlığı genişləndirsək və bu torpaqlardan daha səmərəli istifadə edə bilsək, onda 70-80-ci illərdə istehsal etdiyimizdən qat-qat çox məhsul istehsal edərik. Həm də bu məhsul daha yaxşı keyfiyyətli olar. Bax, belə iqtisadi səmərə əldə edilə bilər. Mən bilirəm ki, tütünlə də maraqlanırlar. İngiltərədə mənə bir firma müraciət etdi. Biz təxminən 60 min ton yaşıl tütün yarpağı istehsal edirdik. Bu, təqribən 80-ci illərdə dövlət mülkiyyəti şəraitində, kolxoz və sovxozlarda olmuşdur. Siz kənd təsərrüfatının bu cür formasını bilirsiniz. İndi isə cəmi 20 min ton, ondakından üç dəfə az tütün yarpağı istehsal edirik. Kənd təsərrüfatının digər sahələrində də vəziyyət belədir.

Bir sözlə, potensial imkanlar böyükdür. Biz gərək fəal əməkdaşlıq edək. Bizə sərmayə lazımdır. Söz veririk ki, bu sərmayələrdən əcnəbi sərmayədarlarla fəal əməkdaşlığımız şəraitində istifadə edilməsi üçün maksimum əlverişli şərait yaradacağıq. Artıq bu halda biz daha böyük səmərə əldə edə bilərik.

Onu da deyim ki, biz əcnəbi sərmayədarları cəlb etmək üçün bəzi iri müəssisələrin xarici şirkətlərin idarə olunmasına verilməsi haqqında qərar çıxarmışıq. Mən belə düşünürəm ki, bu da diqqəti cəlb edəcəkdir. Birləşmiş Millətlər Təşkilatının [129-130] sənaye inkişafı təşkilatı ilə birlikdə biz Azərbaycanın ən iri şəhərlərindən biri olan Sumqayıtda azad iqtisadi zona yaradırıq. Bu şəhərdə iri sənaye – neft kimyası istehsalatı, metallurgiya sənayesi, qazma boruları müəssisəsi və digər obyektlər cəmlənmişdir. Mən belə düşünürəm ki, bu da diqqəti cəlb edəcəkdir. Biz ölkəmizdə xarici investisiyaların idarə olunması üçün xüsusi struktur yaratmışıq. Bu yaxınlarda mən fərman vermişəm və Azərbaycana gətirilən xarici sərmayələrin əlaqələndirilməsi üçün Nazirlər Kabineti yanında bu cür idarə yaradılmışdır.

Daha mühüm bir şərt barəsində. Mən xarici ticarətimizin sərbəstləşdirilməsi, qiymət siyasətimizin sərbəstləşdirilməsi məsələlərinə toxundum. Biz bundan sonra da bu yolla gedəcəyik. Sizə deyə bilərəm ki, 1995-ci il ərzində gördüyümüz tədbirlər Azərbaycanda kifayət qədər əlverişli maliyyə şəraiti yaratmışdır. Məsələn, bir ildir ki, manatımızın mübadilə məzənnəsi sabit olaraq qalır. Biz bunu Ümumdünya Bankının və Beynəlxalq

Valyuta Fondunun məsləhəti ilə etmişik. Biz buna nail olmuşuq. Məsələn, biz inflyasiyanın səviyyəsini kəskin surətdə aşağı salmışıq. Əgər cari ilin əvvəllərində inflyasiyanın səviyyəsi 60 faizə çatırdısa, indi, son yarım ildə onun səviyyəsi iki faizdən artıq deyildir. Mən belə düşünürəm ki, bu, pis nəticə deyildir. Əgər biz il ərzində manatın mübadilə məzənnəsini sabit saxlayırdıqsa, əgər biz inflyasiyanı 60 faizdən 2 faizə endirmişiksə və bu xətti bundan sonra da davam etdirmək əzmindəyiksə, bu, onu göstərir ki, biz, necə deyərlər, yeni şəraitdə, yeni prinsiplərlə işləməyə və sizinlə əməkdaşlıq etməyə qadirik.

Mən bir daha təkrar edirəm, təbiidir ki, bütün bunlar üçün bizə maliyyə yardımı, xarici sərmayələr, Ümumdünya Bankının, Beynəlxalq Valyuta Fondunun yardımı gərəkdir.

Mənə dedilər ki, Asiya Bankı ilə münasibətlərimiz qaydaya düşməkdədir. Biz Asiya Bankına müraciət etmişik və onunla münasibətlər yaratmaq istəyirik. Mən istəyirəm ki, bütün ölkələrin, xüsusən Yaponiyanın sərmayədarları bizə maraq göstərsinlər. Nədənsə Yaponiya sərmayədarları bu yaxın vaxtlaradək Azərbaycana az diqqət yetirirdilər. Zənnimcə, əgər keçmiş Sovet İttifaqının ərazisini götürsək, onda görərik ki, Yaponiya sərmayədarları ən çox Mərkəzi və Orta Asiyanın hüdudları daxilində cəmləşmişlər. Mənə dedilər ki, burada Yaponiya şirkətlərinin nümayəndələri var. Mən onları da dəvət edirəm. [130-131] Lakin mən onlara şəxsən müraciət edirəm, çünki onlar Azərbaycanda olmamışlar. Ümumiyyətlə isə hamıya müraciət edirəm.

Müxtəsəri, Azərbaycanda biz iqtisadi islahatlar aparılması, maliyyə sistemi, bank sistemi sahəsində islahatlar keçirilməsi yolu ilə qətiyyətlə gedirik. Beynəlxalq Valyuta Fondundan və Ümumdünya Bankından aldığımız kreditlərdən bu maliyyə mərkəzlərinin tələblərinə tam müvafiq surətdə valyutamızı – manatın qorunub saxlanması üçün, struktur dəyişiklikləri üçün, bizim bank sisteminin yenidən qurulması üçün istifadə edəcəyik.

İndi bizim Azərbaycanda əlverişli ictimai-siyasi şərait və kifayət qədər möhkəm qanunvericilik bazası mövcuddur və xarici sərmayələr üçün bütün təminatlar var. Buna görə də mən sizin hamınızı əməkdaşlığa dəvət edirəm, sizin hamınızı Azərbaycana dəvət edirəm. Əmin ola bilərsiniz ki, bu əməkdaşlıq uğurlu olacaqdır.

Mən sizin hamınıza öz fəaliyyətinizdə nailiyyətlər arzulayıram, bu görüşün təşkilinə görə Ümumdünya Bankına öz minnətdarlığımı bildirirəm və sizin hər birinizlə Azərbaycanda görüşəcəyimə ümid bəsləyirəm. Mən bu problemlərə öz prezidentlik fəaliyyətimdə böyük əhəmiyyət verirəm və Azərbaycana konkret təkliflərlə gələcək hər bir sahibkarla, hər bir səhmdarla görüşməyə hazıram.

Diqqətinizə görə sağ olun. Sizə bir daha ən xoş, ən səmimi arzularımı bildirirəm. Sağ olun. [131-132]

## NAXÇIVANDA BAŞ VERMİŞ TƏYYARƏ QƏZASINDA HƏLAK OLAN HƏMVƏTƏNLƏRİMİZİN XATİRƏSİNİ YAD ETMƏK ÜÇÜN KEÇİRİLMİŞ MATƏM MƏRASİMİNDƏ ÇIXIŞ

*7 dekabr 1995-ci il*

*Təzəpir məscidi*

Hörmətli həmvətənlər, əziz qardaşlarım!

Vətəndaşlarımızın həlak olması ilə əlaqədar cümə axşamı günündə onların ruhunu yad etmək üçün biz buraya – müqəddəs evə, Təzəpir məscidinə, Allah evinə gəlmişik. Bildiyiniz kimi, dekabrın 5-də Naxçıvan Muxtar Respublikasından Bakıya uçan təyyarə Naxçıvan üzərində qəzaya uğramışdır. Bunun nəticəsində sərnişinlərin bir hissəsi, demək olar, əksəriyyəti həlak olmuşdur. Verilən məlumatlara görə 81 sərnişindən və ümumiyyətlə təyyarədə olan insanlardan 51-i həlak olubdur. Yaralananlar, xəsarət alanlar da var, onlar müalicə olunurlar.

Bilirsiniz ki, mən bu zaman xaricdə səfərdə idim və həmin gecə Fransadan, Parisdən Bakıya, Vətənimizə gəldim. Gələn kimi bu məlumatı aldım. Artıq bizim müvafiq orqanlar bu qəza, bu faciə ilə əlaqədar müəyyən işlər görməyə başlamışdılar və mən bu işlərlə şəxsən məşğul oldum. Bu qəzanın baş verməsinin səbəblərini araşdırmaq üçün, qəza nəticəsində yaranmış çətinlikləri aradan qaldırmaq, həlak olanların dəfnini təşkil etmək, onların ailələrinə yardım göstərmək üçün və başqa işlərin görülməsi üçün lazımi fərmanlar, sərəncamlar verdim, özüm də şəxsən bu işlərlə məşğul oldum.

Bu, bütün xalqımızın faciəsidir. İnsanların həyatdan getməsi, xüsusən belə qəza nəticəsində həyatdan getməsi həmişə çox böyük kədər doğurur, qəm-qüssə doğurur və matəm gətirir. Ona görə də biz hamımız bu hadisədən kədərlənmişik, matəm keçiririk. Çünki Azərbaycanın hər bir vətəndaşı dövlət üçün əzizdir və güman edirəm ki, başqa bir vətəndaşın həlak olması hər bir vətəndaş üçün faciədir.

Mən həlak olanların hamısının ailələrinə və Azərbaycan xalqına bu faciə ilə əlaqədar dərhal başsağlığı vermişəm. Hə[132-133]lak olanların ailələrinə həm maddi, həm mənəvi yardım göstərilməsi üçün lazımi tədbirlər görmüşəm. Bu gün isə, bu cümə axşamı biz dini adət-ənənəmizə görə buraya, Təzəpir məscidinə toplaşmışıq ki, bu faciədən bır daha kədərləndiyimizi bildirək, həlak olanların ruhuna dualar oxunsun və onlara Allahdan rəhmət diləyək.

Həyatımız son illər çətin mərhələlərdən keçir, ağır günlər keçiririk. Bildiyiniz kimi, yeddi ildən artıqdır ki, Azərbaycana qarşı Ermənistan tərəfindən təcavüz olunubdur. İtkilər vermişik, şəhidlər vermişik. Bu gün, cümə axşamı bütün şəhidlərin qəhrəmanlığını, cəsurluğunu yad edirik, onların xatirəsinə sadiqliyimizi bildiririk. Mən bütün şəhidlərə bir daha Allahdan rəhmət diləyirəm.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ərazimizin bir qismi işğal olunubdur. İşğal olunmuş torpaqlardan vətəndaşlarımız qaçqın düşüb, ağır vəziyyətdə yaşayırlar.

Naxçıvan Muxtar Respublikası isə, bilirsiniz ki, vaxtilə, tarixi keçmişdə buraxılmış səhvlərə görə Azərbaycanın əsas hissəsindən Ermənistanın ərazisi ilə ayrı düşübdür, demək olar, bir ada şəklindədir. Hər tərəfdən Ermənistanın ərazisi ilə əhatə olunubdur. Ona görə də Ermənistan ilə Azərbaycan arasında müharibə, hərbi münaqişə başlanandan bəri Naxçıvan Muxtar Respublikası blokada şəraitindədir. Yəni öz doğma Vətəninin başqa hissəsi ilə, onun paytaxtı Bakı ilə əlaqələri tamamilə kəsilib, yeganə əlaqə yolu hava yoludur, təyyarə ilədir. Dəmir yolu xətti kəsilib, avtomobil yolu kəsilib, başqa yollar da yoxdur. Naxçıvan Muxtar Respublikasının vətəndaşları ancaq hava yolu ilə, təyyarələr vasitəsilə Azərbaycanın paytaxtı Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə əlaqə saxlaya bilirlər. Bir də ki, şübhəsiz, qonşularımız İran və Türkiyənin ərazisindən yollar var, bunlardan da istifadə olunur. Ancaq Azərbaycanın öz ərazisindən Naxçıvan Muxtar Respublikasının dövlətimizin paytaxtı ilə bilavasitə əlaqəsinin kəsilməsinin muxtar respublikada yaşayan Azərbaycan vətəndaşları üçün nə qədər ağır və çətin şərait yaratdığını şübhəsiz ki, təsəvvür edə bilərsiniz.

Belə bir şəraitdə insanlar orada həm iqlimin sərt olması ilə əlaqədar, həm də ki, bu şəraitin çox ağır iqtisadi çətinliklər yaratması ilə əlaqədar olduqca ağır vəziyyətdə yaşayırlar, ağır həyat tərzi keçirirlər. Amma buna baxmayaraq, Naxçıvan Muxtar Respublikasının vətəndaşları heç vaxt iradələrini itirməyiblər, sınmayıblar, Azərbaycanın ərazisini mərdliklə, cəsur[133-134]luqla qoruyublar və qoruyurlar, öz torpaqlarının keşiyində durublar, Ermənistanla üzbəüz dayanaraq öz torpaqlarını son dəqiqəyə qədər qorumağa qabil və hazırdırlar. Bütün bu çətinliklərin, bütün bu ağırlıqların üzərinə bir dərd də gəldi ki, təyyarənin qəzaya uğraması nəticəsində Naxçıvan Muxtar Respublikası vətəndaşlarının böyük bir qrupu bir dəqiqə içərisində həlak oldu. Orada

Azərbaycanın başqa bölgələrindən olan bir neçə vətəndaşımız da var. Amma həlak olanların əksəriyyəti Naxçıvan Muxtar Respublikasının sakinləridir.

Bütün bunlar hamısı birlikdə bizim ümumi dərdimizə, ümumi kədərimizə, ümumi qəm-qüssəmizə çevrilibdir. Ona görə siz də buraya gəlmisiniz, ona görə mən də buraya gəlmişəm. Baş vermiş bu qəza ilə əlaqədar və vətəndaşlarımızın həlak olması ilə əlaqədar olaraq Azərbaycan xalqına bir daha dərin hüznlə başsağlığı verirəm. Həlak olanların ailə üzvlərinə, yaxınlarına, qohum-əqrəbalarına bir daha dərin hüznlə başsağlığı verirəm. Allah həlak olmuş soydaşlarımıza rəhmət eləsin, onların qəbirləri nurla dolsun. Allah onların ailə üzvlərinə, qohum-əqrəbalarına səbr versin. Allah xalqımıza səbr versin.

Xalqımız səbrli, dözümlü xalqdır. Son illər biz dəfələrlə faciələrlə rastlaşmışıq, torpaqlarımızı qoruyaraq şəhidlər vermişik. İşğal olunmuş torpaqlarımızdan qaçqın düşmüş vətəndaşlarımız həddindən artıq ağır şəraitdə yaşayırlar. Amma xalqımız buna dözür və biz dözəcəyik. Dözəcəyik ona görə ki, artıq bizim müstəqil Azərbaycan Respublikamız var, biz müstəqil dövlətik. Dözəcəyik ona görə ki, özümüz öz taleyimizin sahibiyik və öz adət-ənənələrimizi geri qaytarmışıq, ulu babalarımızın qoyduğu yolla gedirik. Dözəcəyik ona görə ki, bizim mənəvi mənbəyimiz olan İslam dinimiz Azərbaycanın hər yerində özünə layiq yerini tutubdur və güman edirəm ki, Allah bizə yardımçı olacaq, kömək edəcək və biz belə ağır şəraitdən çıxacağıq. Dözürük, dözəcəyik ona görə ki, bizdə inam var ki, zəbt olunmuş torpaqlardan işğalçı dəstələri çıxaracağıq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin edəcəyik, müstəqil dövlət kimi Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığını təmin edəcəyik və Azərbaycan xalqını xoşbəxt gələcəyə aparacağıq. Bax, buna görə də xalqımız dözür və buna görə mən bütün xalqımıza, bütün vətəndaşlarımıza təşəkkürümü bildirirəm. Sizi əmin etmək istəyirəm ki, xalqımızı bu vəziyyətdən çıxarmaq üçün, respublikamızı bu dərd-[134-135]bəladan xilas etmək üçün, inkişaf etdirmək üçün əlimdən gələni edirəm və bundan sonra da edəcəyəm.

Bizə təskinlik verən odur ki, dünya birliyində öz yerimizi tutmuşuq. Azərbaycan xalqının dünyada, hər yerdə özünəməxsus yeri var, adı var, bütün xalqlar içərisində biz də varıq. Birləşmiş Millətlər Təşkilatının üzvüyük, bütün beynəlxalq təşkilatların üzvüyük. Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu iqtisadi, siyasi əlaqələr yaradırıq. Artıq bizimlə, yəni Azərbaycan Respublikası ilə, müstəqil Azərbaycanla, Azərbaycan dövləti ilə hər bir dövlət hesablaşır, bizə hörmət edir, hörmət və ehtiramla qarşılıqlı əlaqələr yaradır. Bu, bizim böyük nailiyyətimizdir. Bu, xalqımızın tarixində çox yüksək və parlaq bir mərhələdir. Bu nailiyyətlərə görə biz özümüzə təskinlik veririk. Buna görə də biz dözməliyik ki, gələcəyimizi, gələcək nəsillərin daha da firavan həyatını təmin edə bilək.

Bilirsiniz ki, mən son günlər Böyük Britaniyada, Fransada olmuşam. Beynəlxalq iqtisadi təşkilatlar, maliyyə təşkilatları ilə, dövlət orqanları ilə danışıqlar aparıb yenə də Azərbaycanın mövqelərini möhkəmləndirmək, iqtisadi əlaqələrimizi genişləndirmək üçün lazımi tədbirlər gördüm, bunlar da öz nəticələrini verir və verəcəkdir.

Yaxın dostumuz, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl mənim dəvətimlə bu gün Azərbaycana rəsmi səfərə gəlir. Azərbaycan artıq müstəqil dövlətdir və böyük-böyük dövlətlərin başçıları, nümayəndə heyətləri onu ziyarət edirlər. Azərbaycanın nümayəndələri də dünyanın böyük dövlətlərinə səfərlər, ziyarətlər edirlər, görüşlər keçirir, müqavilələr imzalayırlar. Bunlar bizim həyatımızda olan yeniliklərdir və müstəqilliyimizin bizə bəxş etdiyi nemətlərdir. Biz bunlarla öyünə bilərik, fəxr edə bilərik, özümüzə təskinlik verə bilərik, bunlarla özümüzə təskinlik verməklə bu dərd, bəla, kədər şəraitinə dözə bilərik.

Mən bir daha sizə başsağlığı verirəm, Azərbaycan xalqına başsağlığı verirəm, həlak olanların ailələrinə başsağlığı verirəm və həlak olanların ailələrinə, qohum-əqrəbalarına Allahdan səbr diləyirəm. Allah həlak olanlara rəhmət eləsin, Allah Vətənimizin keşiyində, torpaqlarımızın müdafiəsində şəhid olanların hamısına rəhmət eləsin. [135-136]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*7 dekabr 1995-ci il*

Hörmətli prezident, əziz dostumuz, qardaşımız
Süleyman Dəmirəl!
Hörmətli qonaqlar!

Qədim Azərbaycan torpağına – öz məmləkətinizə xoş gəlmisiniz. Mən sizi Azərbaycan xalqı adından, bütün Azərbaycan vətəndaşlarının adından ürəkdən salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, sizin bu səfəriniz Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsinə çox böyük xidmət edəcəkdir. Mən əminəm ki, siz burada Azərbaycan xalqının Türkiyəyə, türk xalqına olan sevgisini, məhəbbətini bir daha hiss edəcəksiniz və sizinlə burada aparacağımız danışıqlar, görüşlərimiz, sizin Azərbaycan xalqı ilə görüşləriniz gələcək əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. Siz bizə xoş gəlmisiniz, biz sizi qucaqlayırıq və sizi əziz dost, qardaş kimi qəbul edirik. Sizə burada xoş günlər arzulayıram. [136-137]

## TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" Sarayı*

*7 dekabr 1995-ci il*

Hörmətli prezident, əziz dostumuz, qardaşımız
Süleyman Dəmirəl!
Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan dost Türkiyə Cümhuriyyətinin prezidenti, əziz qardaşımız Süleyman Dəmirəlin ölkəmizə rəsmi səfəri münasibətilə əlamətdar tarixi bir gün yaşayır.

Müstəqil Azərbaycan Respublikasının yarandığı gündən indiyə qədər keçən dörd il müddətində Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında olan dostluq, qardaşlıq əlaqələri gündən-günə inkişaf edir, güclənir və möhkəmlənir. Bu əlaqələr xalqlarımız, ölkələrimiz arasında olan tarixi köklər üzərində qurulmuşdur və keçmiş tariximizin davamıdır. Əsrlər boyu bizim xalqlarımız bir kökdən olaraq, bir kökə mənsub olaraq, bir dilə, bir dinə mənsub olaraq, bərabər yaşamışlar, sıx əlaqədə olmuşlar, bir-birinə kömək etmişlər, bir-birinə dayaq olmuşlar və öz tarixlərini yaratmışlar.

Xalqlarımızın adət-ənənələrinin bir-birinə bənzərliyi, eyniliyi, mədəniyyətimizin, elmimizin bir-birinə sıx bağlı olması bizi daim bərabər etmişdir. Azərbaycan xalqı öz tarixinin ən çətin dövrlərində Türkiyənin dəstəyini almış, türk xalqının köməyini hiss etmiş, türk xalqının Azərbaycan xalqı ilə həmrəyliyini daim duymuşdur. Bizim keçmişimiz, tarixi əlaqələrimiz çox zəngindir. Lakin yeni mərhələdə ölkələrimiz arasında olan əlaqələr tamamilə başqa xarakter daşıyır.

Dörd il bundan öncə Azərbaycan ilk dəfə müstəqilliyini əldə edərkən Türkiyə Cümhuriyyəti dünya ölkələri içərisində birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış və Azərbaycanın müstəqilliyini başqa ölkələrin tanıması üçün, beynəlxalq təşkilatların qəbul etməsi üçün lazımi səylər göstərmiş və bizə kömək etmişdir. Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayan zaman, hələ Azərbaycan [137-138] Sovetlər İttifaqının tərkibində olduğu dövrdə Türkiyə Azərbaycan xalqı ilə həmrəyliyini bildirmiş, öz etiraz səsini dünyaya qaldırmış, Azərbaycanı dəstəkləmiş və Azərbaycanın haqq-ədalət işinə həmişə tərəfdar çıxmışdır. Ölkəmiz müstəqil dövlət olandan sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında sıx əlaqələr yaranmışdır. Bu əlaqələr getdikcə inkişaf edir, yeni nailiyyətlər gətirir, hər iki ölkə üçün faydalıdır və ümumiyyətlə, gələcəkdə daha faydalı olacaqdır.

Qeyd etdiyim kimi, Azərbaycan Respublikası yeddi ildir ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan ərazisinin iyirmi faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan çox vətəndaşımız didərgin düşmüşdür, qaçqın vəziyyətində yaşayır. Onlar ağır həyat tərzi keçirirlər. Bu dövrdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı Azərbaycana həmişə dayaq olmuş, dəstək vermiş və beynəlxalq təşkilatlarda bizi müdafiə etmişdir. Biz bütün bu dostluq və qardaşlıq münasibətlərinə görə Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına və Türkiyə dövlətinə daim öz minnətdarlığımızı bildirmişik və bu gün də bildiririk.

Bütün bu əlaqələrin yaranmasında və inkişaf etməsində Türkiyə prezidenti, hörmətli cənab Süleyman Dəmirəlin xüsusi fəaliyyəti və xüsusi rolu var. Azərbaycan hələ Sovet İttifaqının tərkibində olarkən Süleyman Dəmirəl Azərbaycana nəinki maraq göstərmiş, diqqət yetirmiş, həm də 1967-ci ildə Türkiyənin baş naziri kimi Sovetlər İttifaqına ilk dəfə səfər edərkən Azərbaycana gəlmiş, ölkəmizlə tanış olmuş, xalqımıza öz ehtiramını bildirmişdir. Hörmətli Süleyman Dəmirəl ondan sonra da həmişə Azərbaycana diqqətli münasibət bəsləmiş, qayğı göstərmişdir. Qeyd etdiyim kimi, son illər, Azərbaycanın bu ağır dövründə o həmişə Azərbaycanla maraqlanmış və Azərbaycan onun üçün doğma olmuşdur. Azərbaycanın müstəqil dövlət kimi tanınmasında da baş nazir Süleyman Dəmirəlin xüsusi rolu, xüsusi fəaliyyəti olmuşdur. Bu müddətdə Azərbaycanda gedən proseslərin sağlam istiqamətdə həyata keçirilməsi üçün o, bir dost, bir qardaş kimi Azərbaycana həmişə öz münasibətini bildirmişdir.

Bu gün hörmətli dostumuz Süleyman Dəmirəl prezident kimi Azərbaycana bizim dəvətimizlə ilk dəfə rəsmi səfərə gəlmişdir. Əvvəlki səfərlərdən bu səfərin fərqi ondan ibarətdir ki, Azərbaycan artıq dörd ildir müstəqil bir dövlət kimi [138-139] yaşayır, Ermənistanla gedən müharibədə atəşkəs yaranmış və on doqquz aydır ki, biz atəşkəs rejimindəyik, insanlarımız müəyyən qədər rahat yaşayırlar. Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul edilmişdir. Bu konstitusiya ümumxalq səsverməsi, referendum yolu ilə qəbul olunmuşdur. Azərbaycanı demokratik, hüquqi dövlət quruculuğu yolu ilə aparan konstitusiya, Azərbaycanda demokratiyanı inkişaf etdirən konstitusiya, Azərbaycanı xoşbəxt gələcəyə doğru aparan bir konstitusiya qəbul edilmişdir.

Müstəqil Azərbaycanda ilk dəfə parlament seçkiləri keçirilmişdir. Həm də bu seçkilər demokratik prinsiplər əsasında keçirilmiş və demokratik parlament yaradılmışdır. O, artıq öz fəaliyyətinə başlamışdır.

Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitləşmişdir və ölkəmiz qarşısında duran iqtisadi məsələlərlə ciddi məşğul olmağa başlamışdır. Azərbaycan öz qarşısında duran digər məsələlərlə də məşğuldur. Məhz belə bir zamanda müstəqil Azərbaycan öz tarixində ilk demokratik konstitusiyasını qəbul etdikdən sonra, yeni parlament seçkiləri keçirildikdən sonra və parlament yaradıldıqdan sonra ölkəmizə ilk səfər edən dövlət başçısı əziz dostumuz, qardaşımız Süleyman Dəmirəldir. Bu, bizi çox sevindirir. Bizim sevincimizi Bakı sakinləri nümayiş etdirdilər. Küçələrdə onlar əziz qonağımızı qarşılayarkən öz qəlblərindəki xoş duyğuları bildirməyə çalışırdılar. Bizim hər birimiz sevincimizi ifadə etmək istəyirik və mən bütün Azərbaycan xalqının bu sevincini ifadə edərək, ürəkdən deyirəm: əziz dostumuz, qardaşımız, siz Azərbaycana, öz vətəninizə, öz məmləkətinizə xoş gəlmisiniz, səfa gətirmisiniz! Azərbaycanda xalq sözü var: qədəmləriniz xeyirli olsun, səfəriniz uğurlu olsun! Əminik ki, sizin bu səfərinizdən sonra Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasındakı əlaqələr daha sürətlə inkişaf edəcəkdir. Bu, bizim qəlbimizdə olan istəklərdir, arzumuzdur. Biz bu yolda çalışmışıq və bundan sonra da çalışacağıq.

Hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl ilə birlikdə onun xanımı hörmətli Nəzmiyyə xanım da ölkəmizə Gəlmişdir. Xatirimdədir, Nəzmiyyə xanım da ilk dəfə 27 il bundan öncə Bakıya, Azərbaycana gəlmişdi. Məhz o vaxt mən həm dostum Süleyman Dəmirəl ilə, həm də hörmətli bacım Nəzmiyyə xanımla tanış oldum. Zaman keçib, dünyada çox dəyişikliklər baş verib, ancaq Süleyman Dəmirəlin və Nəzmiyyə xanımın Azərbaycana olan münasibəti nəinki [139-140] dəyişməyib, hətta gündən-günə artıb, güclənib və Azərbaycan xalqının da Türkiyə xalqına, türk xalqına, Türkiyə Cümhuriyyətinə olan məhəbbəti, sevgisi daha da artıb, daha da güclənibdir. Nəzmiyyə xanım 27 il öncə gördüyü Bakını bu günlər bir də görür və güman edirəm ki, baş vermiş dəyişiklikləri də müşahidə edəcəkdir. Şübhəsiz ki, o, müsbət hallara sevinəcək və həyatımızda yaranmış çətinliklərə, bəzi dərdlərə bizimlə birlikdə kədərlənəcək, sıxılacaqdır. Bu da təbiidir, çünki, bir daha deyirəm, biz dostuq, qardaşıq və dost, qardaş da həmişə bir yerdə olmalıdır – həm şad gündə, həm də kədərli gündə.

Bu gün bizim üçün çox şad gündür, çünki ölkəmizə, şəhərimizə belə mötəbər qonaqlar gəliblər. Süleyman Dəmirəl ilə birlikdə buraya böyük nümayəndə heyəti, onu müşayiət edən iş adamları, mətbuat nümayəndələri gəlmişlər. Mən onları da salamlayıram, onlara da "xoş gəlmisiniz!" deyirəm və ümidvaram ki, onların hər biri Azərbaycana öz münasibətini əziz dostumuz və qardaşımız, Türkiyənin prezidenti, dünyanın ən böyük ictimai-siyasi xadimlərindən biri, dünya siyasətində böyük rol oynayan Süleyman Dəmirəl kimi bildirəcəkdir.

Əziz dostum, qardaşım Süleyman bəy, bu gün bu "Gülüstan" sarayındakı ziyafət sizin şərəfinizədir. Nəzmiyyə xanımın şərəfinədir və sizinlə birlikdə buraya təşrif gətirmiş qonaqların şərəfinədir.

Rica edirəm, badələrimizi qaldıraq Türkiyə Cümhuriyyətinin şərəfinə, Türkiyə xalqının şərəfinə, türk xalqının şərəfinə, türk xalqının gələcəyinin şərəfinə, Türkiyə-Azərbaycan dostluğunun şərəfinə, bizim gələcəyimizin şərəfinə! Sağ olun, əziz Süleyman bəy, Nəzmiyyə xanım, sizin şərəfinizə. Sağ olun. [140-141]

**TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ M. Ə. RƏSULZADƏ ADINA BDU-nun TƏLƏBƏ ŞƏHƏRCİYİNDƏ MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ QAÇQINLARIN GÖRÜŞÜNDƏ ÇIXIŞ**

*8 dekabr 1995-ci il*

Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz və qardaşımız hörmətli Süleyman Dəmirəl Azərbaycanda olduğu günlərdə qaçqın düşmüş vətəndaşlarımızın bir qrupu ilə görüşmək istədi. Onun arzusunu yerinə yetirərək sizin yanınıza gəlmişik. Biz bilirik ki, siz ağır şəraitdə yaşayırsınız. Ən üzücü hal odur ki, torpaqlarımız yağılar, qəsbkarlar tərəfindən işğal olunubdur. Siz babalarınızdan, ulu babalarınızdan qalmış torpaqlardan, qurub-yaratdığınız elinizdən-obanızdan didərgin düşmüsünüz. Azərbaycanın dərdləri çoxdur. Ancaq ən böyük dərdi ərazisinin bir qisminin Ermənistan tərəfindən işğal olunması və vətəndaşlarımızın bu torpaqlardan didərgin düşməsidir. Şübhəsiz ki, bu müharibədə şəhidlər vermişik. İgid oğlanlarımız həlak olublar. Onların ruhu şad olsun.

Qaçqın vətəndaşlarımızın necə ağır vəziyyətdə yaşamasını təkcə Azərbaycanda deyil, Türkiyədə də bilirlər. Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycanın böyük dostu hörmətli Süleyman Dəmirəl də bilir. Biz nəinki bilirik, həm də çalışırıq ki, bu vəziyyətdən siz də çıxasınız, bütün Azərbaycan xalqı da çıxsın. Bu vəziyyət ayrı-ayrı şəxslərin həyatında baş vermiş çətinlik deyil, bütün Azərbaycan xalqının həyatında baş vermiş faciədir. Ona görə də biz bütün tədbirləri görürük ki, bu bəladan xilas olaq, Azərbaycanın işğal edilmiş torpaqları azad olunsun və siz öz yurdunuza qayıdasınız.

On doqquz aydır atəşi dayandırmışıq, sülh danışıqları aparırıq. Çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bizim dostumuz Türkiyə, onun prezidenti hörmətli Süleyman Dəmirəl də, başqa dostlarımız da çalışırlar. Beynəlxalq təşkilatlarda da bizi başa düşürlər. Artıq dünya ictimaiyyəti bilir ki, Azərbaycana qarşı haqsızlıq olub, ədalətsizlik olubdur, bu ədalətsizliyə dözmək olmaz. XX əsrin sonunda insanların azadlığı[141-142]nın tələb olunduğu bir vaxtda onların azadlığını əlindən almaq, onlara bu qədər qəsd etmək olmaz. Bunu nə Allah qəbul edə bilər, nə də dünyada yaranmış sülh və əmin-amanlıq qanunları, normalan qəbul edər. Biz ümid edirik ki, bu məsələni sülh yolu ilə həll edib, işğal olunmuş torpaqları azad edib sizi öz yerlərinizə qaytaracağıq.

Biz torpağımızı heç vaxt əldən verməyəcəyik. Bunu bilin və arxayın olun. Azərbaycan torpaqlarının bir qarışının da başqa dövlətin əldə saxlamasına heç vaxt imkan verməyəcəyik. Biz sülhsevər xalqıq. Bütün bu zərbələrə, bizə vurulmuş ziyanlara baxmayaraq, məsələni sülh yolu ilə həll etmək istəyirik. Ancaq əgər bu yol mümkün olmasa, xalqımızın iradəsi də, gücü də var ki, nəyin bahasına olursa-olsun öz torpaqlarımızı azad edək. Yəni torpaqlarımız mütləq azad olunacaq, siz hökmən yurdlarınıza qayıdacaqsınız. Biz buna nail olacağıq, buna əmin ola bilərsiniz. Mən də, dostumuz Süleyman bəy do bu ümidlərlə yaşayırıq, siz də bu ümidlərlə yaşayın.

Xalqımız dözümlü xalqdır. Belə dəhşətlərə başqa xalq bəlkə də dözə bilməzdi. Biz ona görə dözürük ki, sülh istəyirik, sülh istəyirik və sülh istəyirik. Ancaq bizim dözümümüzün də həddi-hüdudu var və bu hədd də çatandan sonra biz nəyin bahasına olursa-olsun öz torpaqlarımızı geri qaytaracağıq. Buna arxayın ola bilərsiniz. Mən sizi əmin edirəm.

Ölkəmizin bu ağır dövründə daim Azərbaycana dayaq olduqlarına görə, kömək etdiklərinə görə, bu dərdi Azərbaycanla bir yerdə çəkdiklərinə görə Türkiyə Respublikasına, onun xalqına, dövlətinə, Türkiyənin prezidenti Süleyman Dəmirələ qaçqınlar adından, bütün Azərbaycan xalqı adından minnətdarlıq edir və əmin olduğumu bildirirəm ki, Türkiyə heç vaxt Azərbaycanı tək qoymayacaq, darda qoymayacaqdır və bir gün gələcək, biz yaxşı günləri Türkiyə ilə, türk xalqı ilə bir yerdə bayram edəcəyik. [142-143]

## TÜRKİYƏ PREZİDENTİ
## SÜLEYMAN DƏMİRƏL İLƏ
## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ
## ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ

*8 dekabr 1995-ci il*

Hörmətli Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostumuz,
qardaşımız Süleyman Dəmirəl və hörmətli qonaqlar,
hörmətli Milli Məclis!

Müstəqil Azərbaycan Respublikası demokratik prinsiplər əsasında seçilmiş ilk Milli Məclisi bir neçə gün bundan öncə öz işinə başlamışdır. Bu, müstəqil Azərbaycan Respublikasının həyatında yeni tarixi bir mərhələdir. Çox əlamətdar haldır ki, müstəqil Azərbaycan Respublikasının ilk parlamenti, ilk Milli Məclisi işə başlayan kimi Milli Məclisin üzvləri qarşısında, Milli Məclisin iclasında Azərbaycanın dostu və qardaşı olan Türkiyə Cümhuriyyətinin prezidenti, bizim əzizimiz Süleyman Dəmirəl nitq söylədi. Bu, bizim parlamentin fəaliyyətinin başlanğıcıdır. Parlament öz işinə başlayarkən xarici dövlət nümayəndələrindən ilk dəfə Türkiyə Cümhuriyyəti prezidentinin Milli Məclisin qarşısında nitq söyləməsi həm təbiidir, həm də çox sevindirici haldır.

Hörmətli prezident Süleyman Dəmirəl öz dərin məzmunlu, çox böyük mənalı, Azərbaycan Respublikasının bu günü və gələcəyi üçün çox gərəkli, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında dostluq əlaqələri üçün çox əhəmiyyətli olan nitqində gözəl fikirlər irəli sürdü. Hörmətli Süleyman Dəmirəlin bu nitqi bizim Milli Məclisin işə başladığı zaman respublikamız üçün, Milli Məclisimiz üçün güman edirəm ki, böyük bir köməkdir, böyük bir qayğıdır. Beləliklə, mən Milli Məclisin adından, öz adımdan hörmətli prezident Süleyman Dəmirələ Milli Məclisin qarşısında çıxış etdiyinə görə və çox məzmunlu nitq söylədiyinə görə, çox mühüm fikirlər irəli sürdüyünə görə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Müstəqil Azərbaycanın dörd yaşı var. Müstəqil Azərbaycanın demokratik prinsiplər əsasında seçilmiş parlamentinin isə bir neçə gün yaşı var. Biz təzə isə başlayırıq. Buna görə də bi[143-144]zim üçün Türkiyə Cümhuriyyəti kimi böyük bir ölkənin, dövlət quruculuğu sahəsində, demokratiya sahəsində, iqtisadiyyat sahəsində, cəmiyyətin bütün sahələrində böyük nailiyyətlər əldə etmiş xalqın liderinin, ölkənin prezidentinin bizim qarşımızda irəli sürdüyü fikirlər Azərbaycan Respublikasının gələcəyi üçün, Milli Məclisin gələcək fəaliyyəti üçün çox gərəklidir, çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz bu gün Türkiyə Cümhuriyyətinin tarixinə nəzər salarkən böyük Mustafa Kamal Atatürkün başçılığı ilə yaranmış cümhuriyyətin keçdiyi yola öz hörmətimizi bildiririk, şanlı və şərəfli yola öz hörmətimizi bildiririk. Türkiyə Cümhuriyyətinin əlli il müddətində demokratiyanın inkişafında, iqtisadiyyatın demokratiya prinsipləri əsasında inkişafında, insan hüquqlarının qorunması sahəsində göstərdiyi səylərə, əldə etdiyi nailiyyətlərə öz hörmət və ehtiramımızı bildiririk və bütün bunlara görə, Məclisimizin işə başladığı zaman hörmətli prezidentin söylədiyi nitq, bir daha qeyd edirəm, bizim üçün çox əhəmiyyətlidir.

Azərbaycanın müstəqillik tarixində ən böyük hadisə noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul etdiyi ilk demokratik konstitusiyasıdır, noyabrın 12-də demokratik prinsiplər əsasında seçdiyi ilk parlamentdir. Biz bu yolla az müddətdir ki, gedirik. Biz demokratiya yolu ilə gedirik. Həyatımızı demokratiya prinsipləri əsasında qururuq, ilk addımlar atırıq. Bu qısa müddətdə, yəni dörd il ərzində bu səviyyəyə çatmaq, konstitusiyanı qəbul etmək, demokratik prinsiplər əsasında parlament seçmək, şübhəsiz, bizim üçün çox böyük nailiyyətdir. Nəzərə alsaq ki, Azərbaycan bu addımları Ermənistan tərəfindən edilən təcavüz şəraitində, torpaqlarımızın 20 faizinin işğal altında olduğu şəraitdə, bir milyondan artıq vətəndaşımızın yer-yurdundan didərgin düşüb ağır bir şəraitdə yaşadığı dövrdə atmışdırsa, bu, böyük bir nailiyyətdir. Bizim üçün çox əhəmiyyətlidir ki, bizim bu nailiyyətlərimiz dünya ictimaiyyəti tərəfindən beynəlxalq aləmdə qiymətləndirilir.

Əvvəla, bir daha qeyd etmək istəyirəm ki, noyabrın 12-də konstitusiyanın qəbul olunması ilə əlaqədar referendumda və parlament seçkilərində beynəlxalq təşkilatların, xarici ölkələrin 200-dən artıq müşahidəçisi olmuşdur. Onların tam əksəriyyətinin fikri bundan ibarətdir ki, Azərbaycanda konstitusiyaya dair ümumxalq səsverməsi də, parlament seçkiləri də demokratiya şəraitində keçirilmiş və bu, demokra[144-145]tiya yolunda ilk addımdır. Bizim üçün çox əhəmiyyətlidir ki, demokratiya sahəsində böyük nailiyyətlər əldə etmiş Türkiyə Cümhuriyyətinin Böyük Millət Məclisinin seçkilər zamanı müşahidəçiləri Azərbaycanda referendumun və seçkilərin demokratik şəraitdə keçirildiyini təsdiq etmişlər. Bizim üçün ən çox əhəmiyyətli budur ki, Türkiyə Cümhuriyyətində əlli il müddətində demokratiya yolunda böyük fəaliyyət göstərmiş, böyük xidmətlər göstərmiş və demokratiyanın bütün çətinliklərindən keçmiş, demokratiyanın həm acı nəticələrini görmüş, həm də onun müsbət cəhətlərindən bəhrələnmiş, dünyanın böyük siyasi və dövlət xadimlərindən biri, hörmətli Süleyman Dəmirəl bu gün öz nitqində Azərbaycan Konstitusiyasının qəbul olunmasını və müstəqil Azərbaycanın ilk parlamentinin seçilməsini böyük tarixi bir hadisə kimi və bunların hamısını demokratik addımlar kimi

qiymətləndirdi. Bu, bizim üçün yüksək qiymətdir. Oha görə, hörmətli Süleyman Dəmirəl, biz sizə təşəkkür edirik, çünki bu bizi daha da ruhlandırır. Bizə daha da qüvvət verir, bu bizi daha da gücləndirir. Əmin ola bilərsiniz ki, demokratiya yolunda, azadlıq yolunda, müstəqillik yolunda atdığımız bu ilk addım davamlı olacaq, Azərbaycan Respublikası, Azərbaycan xalqı tutduğu müstəqillik, demokratiya yolu ilə inamla irəliyə gedəcəkdir.

Mən bu gün bir də bəyan edirəm ki, bizim ilk konstitusiyamız, yeni seçilmiş parlamentimiz Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanması üçün böyük bir zəmanətdir. Mən bir daha bəyan edirəm ki, biz dövlət müstəqilliyimizi göz bəbəyimiz kimi qoruyacağıq, onu möhkəmləndirəcəyik, onu əbədi edəcəyik.

Azərbaycan demokratiya yolunda ilk addımlarını atır. Qəbul olunmuş konstitusiyada Azərbaycanın demokratiya yolu ilə inkişaf etməsi üçün bütün müddəalar var. Konstitusiyanın üçdə bir hissəsi insan azadlığına, vətəndaş azadlığına, insan hüquqlarının qorunmasına həsr olunmuşdur. Konstitusiyaya görə Azərbaycanda dövlətin idarə edilməsi prinsipləri tam demokratik prinsiplər əsasında qurulub. Hakimiyyət bölgüsü, hakimiyyətin səlahiyyətlərinin bölgüsü tam demokratik prinsiplər əsasındadır. İcra hakimiyyəti, qanunvericilik hakimiyyəti, məhkəmə hakimiyyəti – bunlar bizim həyatımızda yeni amillərdir. Konstitusiyamız konstitusiya məhkəməsi təsis etməyi qərara alıbdır. Bu da demokratiya sahəsində böyük bir ad[145-146]dımdır. Bir sözlə, bizim konstitusiyamızda demokratiyanı inkişaf etdirmək üçün və Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq üçün, dünyəvi dövlət qurmaq üçün bütün əsaslar yaranıbdır. Biz bunları ona görə yaratmışıq ki, onları icra edək, həyata keçirək. Xalqımız əmin ola bilər, dünya ictimaiyyəti əmin ola bilər ki, biz bunları həyata keçirməyə qadirik və Azərbaycan daim demokratiya yolu ilə gedəcəkdir.

İqtisadiyyatımızda böhran vəziyyəti mövcuddur. Keçid dövrünün çətinlikləri hamıya məlumdur. Bu vəziyyətdən çıxmaq üçün biz iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə aparmaq istiqaməti götürmüşük. Bu, bizim konstitusiyada da, qanunlarımızda da, özəlləşdirmə proqramında da, ayrı-ayrı sektorlarda islahatların aparılmasında da, şəxsi mülkiyyətin yaranmasında və onun qorunmasında da, xarici investisiyaların Azərbaycana gətirilməsi üçün demokratik şəraitin yaranmasında da öz əksini tapıbdır. Bunlar yaranmış əsaslardır. Vəzifəmiz bunların hamısını həyata keçirməkdir. Biz bunların hamısını mütləq həyata keçirəcəyik. Bütün bu işləri görərkən, indiyə qədər olduğu kimi, bundan sonra da biz Azərbaycan üçün tarix boyu dost və qardaş olan Türkiyə ilə, türk xalqı ilə, Türkiyə Cümhuriyyəti ilə öz əlaqələrimizi inkişaf etdirəcəyik.
İndiyə qədər əldə edilən nailiyyətlər bizi sevindirir. Ancaq bunlar bizi qane edə bilməz. İmkanlarımız böyükdür. Türkiyə Cümhuriyyəti bizimlə əməkdaşlığı daha da genişləndirmək və inkişaf etdirmək Üçün yaxşı təkliflər irəli sürür. Hörmətli prezident Süleyman Dəmirəlin bugünkü nitqində verdiyi tövsiyələr, irəli sürdüyü təkliflər bizim əməkdaşlığımızın genişlənməsi və inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. Biz bunların hamısına görə öz minnətdarlığımızı bildiririk. Bunların hamısından istifadə edərək xalqımızı ağır vəziyyətdən çıxaracağıq, xalqımızı xoşbəxt gələcəyə aparacağıq və müstəqil Azərbaycanı daha da inkişaf etdirəcəyik.

Bizim həyatımızı mürəkkəbləşdirən, ağırlaşdıran ən böyük problem Ermənistan Respublikasının Azərbaycana etdiyi təcavüz və təcavüz nəticəsində Azərbaycana vurulan zərbələrdir. Bunlar məlumdur. Hörmətli prezident Süleyman Dəmirəlin bu barədə burada söylədiyi fikirlər bizim üçün çox əhəmiyyətli, maraqlı və gərəklidir. Biz müharibə etmək istəmirik. Bizə qarşı təcavüz ediblər. Biz heç kəsə təcavüz etməmişik. Bizim torpaqlarımız işğal olunubdur. Biz heç kəsin torpağım işğal etməmişik. Bir milyondan artıq vətəndaşımız [146-147] yer-yurdundan didərgin düşübdür, ağır vəziyyətdə yaşayır. Bunlar hamısı haqsızlıqdır, ədalətsizlikdir. Dünya ictimaiyyəti bu haqsızlığa dözməməlidir. Beynəlxalq təşkilatlar bu haqsızlığa dözməməlidirlər. Bütün bu zərbələrə baxmayaraq, bütün bu itkilərə baxmayaraq, biz yenə də sülh tərəfdarlıq, yenə də sülh istəyirik, məsələni yenə də sülh yolu ilə həll etmək istəyirik. Bu, Azərbaycan xalqının nə qədər sülhsevər olduğunu dünyaya bir daha nümayiş etdirir. Güman edirəm ki, beynəlxalq aləm, dünya ictimaiyyəti Azərbaycan xalqının bu yüksək mənəvi keyfiyyətini və xüsusiyyətini qiymətləndirməlidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Danışıqlar aparırıq. On doqquz ay bundan öncə atəşkəs haqqında saziş əldə olunub. Yeddi il gedən bu qanlı müharibə dayanıb, qan tökülmür, atəş yoxdur, insanlar qırılmır. Respublikamızda müəyyən rahatlıq əldə olunubdur. Biz bu sazişə ona görə getmişik ki, möhlət, fürsət əldə edərək sülh danışıqlarını daha da gücləndirək. Məsələləri sülh yolu ilə həll edək. Buna görə də biz sülh danışıqları aparırıq və bundan sonra da aparacağıq. Ona görə aparırıq ki, müharibəyə tamamilə son qoyaq. Ona görə aparırıq ki, Azərbaycanı bu bəlalardan xilas edək.

Bizim başqa məqsədimiz yoxdur. Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdən ibarətdir. Azərbaycanın beynəlxalq hüquq normaları ilə tanınmış sərhədlərinin toxunulmazlığını təmin etməkdən ibarətdir. Bizim istədiyimiz, mübarizəmiz didərgin düşmüş bir milyondan artıq vətəndaşımızı öz yer-yurduna qaytarmaqdan ibarətdir. Yəni bizim tələbimiz, istəyimiz ədalətli tələblərdir. Bizim haqqımız var və bu haqdan istifadə edərək tələblərimizi irəli sürürük. Biz bu danışıqları bundan sonra da aparacağıq. Ancaq eyni zamanda "nə müharibə, nə də sülh" vəziyyəti daha da uzana bilməz. Biz bunu bu gün bəyan edirik və bildiririk ki, biz bu danışıqlarda konstruktiv mövqe tutaraq, bəzi məsələlərdə güzəştə gedərək Böyük Sülh əldə etmək istəyirik. Biz Ermənistan ilə Azərbaycan arasında sülh əldə etmək istəyirik. Biz Qafqazda sülh yaranmasına çalışırıq. Biz bütün bu regionu sülh regionuna çevirmək istəyirik. Bizim başqa məqsədimiz yoxdur.

Bu mübarizələrimizdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı həmişə bizimlə olub, həmişə bizə dayaq olub, həmişə bizi müdafiə edib və bu gün Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəlin verdiyi bəyanatlar bir də onu [147-148] göstərir ki, Türkiyə həmişə bizim yanımızda olacaq, Türkiyə bizim bu məsələlərin həll edilməsində bundan sonra daha da fəal iştirak edəcək və biz beynəlxalq təşkilatlarla, sülhsevər qüvvələrlə birlikdə sülhə nail olacağıq.

Hörmətli prezident, hörmətli dostumuz və qardaşımız Süleyman Dəmirəl. Siz dediniz ki, Türkiyənin qəlbi Azərbaycanın qəlbi ilə döyünür. Bilirsiniz və yəqin bunu bu gün bir daha hiss edəcəksiniz və hiss edirsiniz ki, Azərbaycanın da qəlbi daim Türkiyənin qəlbi ilə döyünür. Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir. Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır. Bu hisslər heç vaxt sönməyəcəkdir. Bunu söndürmək də mümkün deyildir. Çünki bu, içdən gələn, qəlbdən gələn hisslərdir. Türkiyənin Azərbaycana, onun müstəqillik əldə etməsinə və müstəqillik yolunda ağır sınaqlardan çıxmasına etdiyi köməklərə görə mən Azərbaycan xalqı adından, Azərbaycan dövləti adından sizə, hörmətli prezident, Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına bir daha öz təşəkkürümü və minnətdarlığımı bildirmək istəyirəm.

Türkiyə Cümhuriyyəti indi yeni müstəqillik əldə etmiş bir çox ölkələr üçün, dövlətlər üçün örnəkdir. Belə dövlətlərdən biri də Azərbaycandır. Biz arzu edirik ki, Türkiyə Cümhuriyyəti özünün bu mövqelərini həmişə qoruyub saxlasın və həmişə bizim üçün təcrübə mənbəyi olsun. Bizim arzu və istəyimiz bundan ibarətdir ki, türk dünyası, türkdilli xalqlar, bir kökdən, bir mənşədən olan millətlər daha da yaxınlaşsın, daha da birləşsin, bir-birinə kömək etsin, bir-biri ilə daha da mehriban olsun, bir-birinə yardımçı olsunlar. Biz nə qədər çətin və ağır vəziyyətdə olsaq da Azərbaycanda bu hisslərlə yaşayırıq. Bu hisslərlə bütün qardaş ölkələrə öz münasibətimizi bildiririk. Bu hisslərlə də öz məhəbbət və sevgimizi Türkiyəyə, türk xalqına bildiririk.

Türkiyə Cümhuriyyətinin demokratiya sahəsində böyük nailiyyətləri var. Biz seçkiləri keçirdik. Türkiyə Cümhuriyyəti yeni seçkilər ərəfəsindədir. Yeni parlament seçkiləri keçiriləcəkdir. Bizdə çoxpartiyalı sistem təzə yaranıbdır və biz sevinir, iftixar hissi ilə deyirik ki, bizim birinci seçkilərimiz çoxpartiyalı sistem [148-149] əsasında keçirilib. Türkiyə əlli ildir ki, çoxpartiyalı sistem prinsipləri əsasında yaşayır, demokratiya əsasında yaşayır. Türkiyədə güclü, təcrübəli siyasi partiyalar mövcuddur. Demokratik təsisatlar bərqərar olubdur, xalq artıq bu demokratiyanı qavrayır, onu mənimsəyib, ona öyrənibdir, vətəndaş istədiyi partiyaya azad surətdə səs verir, istədiyi partiyanın arxasınca gedir, istədiyi partiyanı dəstəkləyir. Bütün bunlar çox sevindirici haldır. Yenə deyirəm, bu, bizim üçün təcrübə mənbəyidir, bizim üçün örnəkdir. Eyni zamanda biz bilirik ki, bu günlər Türkiyənin həyatında mürəkkəb proseslər gedir, partiyalar Böyük Millət Məclisinə seçkilərdə böyük rəqabət aparırlar, hərəsi özünəməxsus yer tutmaq istəyir, bundan sonra hökuməti təşkil etmək istəyir. Bunlar Türkiyə ictimaiyyəti üçün tamamilə adi bir haldır.

Şükürlər olsun ki, Türkiyə televiziyasının verilişlərinə Azərbaycanda baxılır. Bu gün biz müqavilə imzalayacağıq ki, TRT proqramı Azərbaycanın bütün bölgələrində göstərilsin. Buna görə də biz Türkiyədə gedən prosesləri görürük, müşahidə edirik və ürəkdən istəyirik ki, Türkiyə Cümhuriyyətində qarşıdakı seçkilər Türkiyə xalqına demokratiya sahəsində yeni nailiyyətlər gətirsin. Türkiyə xalqının bu günü və gələcəyi üçün yeni şəraitlər yaratsın və Türkiyə xalqı öz istədiyi kimi öz millət vəkillərini seçərək, Böyük Millət Məclisini yenidən formalaşdıra bilsin. Şübhəsiz ki, bunların hamısı olacaqdır. Türkiyə Böyük Millət Məclisinin 70 illik tarixi var. Biz həmişə Türkiyə Böyük Millət Məclisinə əzəmətli məclis, şöhrətli məclis kimi baxmışıq. Uzun illər ərzində ona uzaqdan baxaraq həsrət etmişik ki, onu görək, onunla tanış olaq. Şükürlər olsun ki, biz artıq Böyük Millət Məclisini də görmüşük. Onun işində də iştirak etmişik. Böyük Millət Məclisinin nümayəndələri bu gün bizim aramızdadırlar. Böyük Millət Məclisinə dəfələrlə millət vəkili seçilmiş, altı dəfə dövlət qurmuş, yeddinci dəfə hökumət qurmuş millət vəkili hörmətli Süleyman Dəmirəl bizim bu salondadır. Bizimlə birlikdədir. Bütün bu nailiyyətlər bizi sevindirir və eyni zamanda qəlbimiz, nəbzimiz, ürəyimiz Türkiyə ilə bərabər vurduğuna görə orada gedən prosesləri də biz Türkiyənin hər bir vətəndaşı kimi böyük maraqla və böyük hisslərlə izləyirik.

Şübhəsiz, biz deyə bilmərik ki, hansı partiyaya meyl göstərir, hansına göstərmirik, çünki onlar bizim partiyalarımız deyil, bu, xalqın öz işidir. Xalq hansı partiyanı daha çox dəs[149-150]təkləyəcək, hansı partiyaya daha çox səs verəcək – bu, Türkiyə xalqının işidir. Ancaq bizim arzumuz budur ki, seçkilər Türkiyə Cümhuriyyəti üçün, Türkiyə xalqı üçün yeni xoşbəxtliklər gətirsin. Bu arzularla, bu istəklərlə mən öz salamımı və Azərbaycan xalqının salam və istəklərini Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə çatdırıram.

Hörmətli prezident, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl, güman edirəm ki, Azərbaycanın Milli Məclisi, onun Üzvləri, bütün Azərbaycan vətəndaşları sizin bugünkü çox dərin məzmunlu nitqinizi məmnuniyyətlə qəbul edirlər, o nitqdə irəli sürülən fikirlərdən, təkliflərdən, şübhəsiz, istifadə edəcəyik, onlardan bəhrələnəcəyik və müstəqil Azərbaycan Respublikası demokratiya yolunda, dövlət quruculuğu yolunda, konstitusiyada nəzərdə tutulmuş prinsiplər əsasında irəli gedəcəkdir.

Mən sizi burada, Məclis qarşısında bu böyük nitqiniz münasibətilə bir daha təbrik edirəm, sizə Məclis adından təşəkkürümü bildirirəm. Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm, sizə Türkiyə Cümhuriyyətinin prezidenti kimi böyük məsuliyyətli vəzifənin uğurla həyata keçirilməsində müvəffəqiyyətlər arzu edirəm, cansağlığı və xoşbəxtlik arzu edirəm. [150-151]

## TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ FƏXRİ AKADEMİKİ ADINA LAYİQ GÖRÜLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ

*Respublika EA Rəyasət Heyətinin iclas salonu*

*8 dekabr 1995-ci il*

Türkiyə Respublikasının hörmətli prezidenti, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl!
Hörmətli Nəzmiyyə xanım!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanın böyük, ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasında Azərbaycanın elm adamları, ziyalıları bizim əziz qonağımız, dostumuz, qardaşımız, Türkiyənin prezidenti Süleyman Dəmirəlin görüşünə gəlmişlər. Bu gün Azərbaycanın Elmlər Akademiyası dünyanın böyük ictimai-siyasi, dövlət xadimlərindən biri olan, Türkiyə Cümhuriyyətinin tarixində böyük xidmətləri olan, böyük iz qoymuş, bu gün də Türkiyə Cümhuriyyətinin başında duran hörmətli Süleyman Dəmirələ Azərbaycan Elmlər Akademiyasının fəxri akademiki adı vermişdir.

Bu, əlamətdar bir hadisədir. Əziz qardaşım, dostum, bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət arzulayıram və əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ən yüksək elm mərkəzi olan Elmlər Akademiyasının fəxri üzvü kimi siz bütün başqa sahələrdə olduğu kimi, Azərbaycanın elminə də öz qayğınızı, diqqətinizi göstərəcəksiniz və Azərbaycan elmi ilə Türkiyə elmi arasında əlaqələrin gələcək inkişafına səylərinizi qoyacaqsınız. Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan elminin tarixi böyükdür. Əsrlərdən-əsrlərə Azərbaycanın elm adamları ixtiralar edib, dünya elminə böyük töhfələr veriblər və Azərbaycanın bilik, elm səviyyəsini qaldırıblar. XX əsrin əvvəlindən Azərbaycanda elmin inkişafı yeni [151-152] vüsət alıbdır. Azərbaycanda elmi müəssisələr yaranıb, 1919-cu ildə ilk universitet yaranıbdır. Bu universitet həm yüksək təhsil ocağı, həm də Azərbaycan elmini birləşdirən, onu inkişaf etdirən böyük bir müəssisə, böyük elm ocağı olubdur. Ondan sonrakı illərdə də Azərbaycan elmi çox inkişaf edibdir. Məhz bunların nəticəsində İkinci dünya müharibəsindən sonra, 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranıbdır.

Elmlər Akademiyası 50 ildir ki, fəaliyyət göstərir. Keçdiyi bu 50 illik yolda Elmlər Akademiyası Azərbaycan elmini inkişaf etdirib, xalqımızın elm, bilik səviyyəsini daha yüksəklərə qaldırıbdır. Azərbaycan elmini dünyada tanıdıbdır və dünya elminə, bəşər elminə öz böyük töhfələrini veribdir. Elmlər Akademiyasının yaranması Azərbaycan xalqının, Azərbaycan Respublikasının həyatında əvəzsiz, tarixi bir hadisə olubdur. Elmlər Akademiyasının 50 il müddətində keçdiyi yol, bir də qeyd edirəm, Azərbaycan xalqının həyatında çox görkəmli yer tutubdur.

Bu illər ərzində Azərbaycan Elmlər Akademiyasının üzvləri – həqiqi üzvləri, müxbir üzvləri olub. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, idarəsi altında toplaşmış elmi müəssisələr böyük ixtiralar ediblər, böyük tədqiqatlar aparıblar, böyük işlər görüblər, sanballı elmi kitablar, əsərlər yaradıblar, tam qətiyyətlə demək olar ki, dünya elminə böyük töhfələr veriblər. Bizi sevindirən hal ondan ibarətdir ki, Azərbaycan Elmlər Akademiyasının fəaliyyəti çoxsahəli olubdur. Dünya elminin demək olar, bütün sahələri Azərbaycan Elmlər Akademiyasının fəaliyyətində öz əksini tapıb və akademiyanın tədqiqat institutlarında, ayrı-ayrı laboratoriyalarında, ayrı-ayrı bölmələrində dünya elminin demək olar ki, bütün sahələri təmsil olunub və bu sahələrdə çox böyük işlər görülübdür.

Elmlər Akademiyasının ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, Azərbaycan xalqının tarixini araşdırmaqda böyük işlər görülüb və sanballı əsərlər yaradılıbdır. Türk dünyasının tarixini araşdırmaq, təhlil, tədqiq etmək sahəsində Azərbaycan alimləri, Elmlər Akademiyası əvəzsiz xidmətlər göstərmiş və çox böyük əsərlər yaradıblar.

Keçmiş Sovetlər İttifaqında türkologiya, türk dilləri ilə, türk dünyası ilə məşğul olan elmi idarələr çox az idi. Ancaq mən tam qətiyyətlə deyə bilərəm ki, onların əsas mərkəzi Azərbaycan olmuşdur. Azərbaycan. Elmlər Akademiyası olmuşdur. Azərbaycan keçmiş Sovetlər İttifaqında türk dünyasının tədqi[152-153]qində, təhlilində, onun tarixinin araşdırılmasında, türkdilli xalqların dillərinin inkişaf etməsində çox böyük xidmətlər göstərmişdir. Bu da onu göstərir ki, bizim alimlərimiz bütün sahələrdə çalışaraq, xalqımız üçün ən önəmli, ən

əsas, ən əhəmiyyətli olan sahəyə – tariximizə, tarixi köklərimizə, dilimizin, tariximizin inkişafına, xalqımızın əsrlər boyu qəhrəmanlıq səhifələrinə çox diqqət yetirmiş, onları araşdıraraq elmi surətdə sübut etmişlər və elmi əsərlərlə dünyaya yaymışlar, xalqımıza, türk dünyasına çatdırmışlar. Beləliklə də, türk xalqlarının, o cümlədən Azərbaycan xalqının nə qədər böyük, əzəmətli, möhtəşəm və şərəfli yol keçdiyini elmi əsərlərlə dünyaya bəyan etmişlər. Bu, Azərbaycan alimlərinin və xüsusən Elmlər Akademiyasının böyük xidmətlərindən biridir.

Azərbaycan Elmlər Akademiyası və alimlərimiz elmi tədqiqatlar apararkən daim Türkiyə ilə, Türkiyə Cümhuriyyətinin həyatı ilə maraqlanmışlar. O dövrlərdə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu zaman, Türkiyə ilə Azərbaycan arasında böyük sədlər mövcud olduğu zaman alimlərimiz bu sədləri özlərinin fədakarlığı, cəsurluğu, vətənpərvərliyi ilə yararaq, ayrı-ayrı cığırlar açaraq Türkiyəyə, Türkiyə Cümhuriyyətinə həmişə meyl göstərmişlər, əlaqə saxlamışlar, araşdırmalar aparmışlar və o dövrdə də böyük işlər görmüşlər.

Müstəqil Azərbaycan müstəqil həyatını yaşayan dövrdən respublikamızın elmi müəssisələri, Elmlər Akademiyası ilə Türkiyə Cümhuriyyətinin elm ocaqları, elm mərkəzləri, alimləri arasında çox sıx əlaqələr yaranmışdır. Alimlərimizin, elmi müəssisələrimizin, Akademiyanın rəhbərlərinin Türkiyəyə gediş-gəlişi və eyni zamanda Türkiyə Cümhuriyyətindən elm adamlarının Azərbaycana gəlişi indi adi hal olmuşdur. Bu, bizi çox sevindirir. Çünki əgər keçmiş zamanlarda alimlərimiz və bütün xalqımız buna daim can atmışsa, çalışmışsa və qarşıda olan sədləri aşıb keçərək öz əlaqələrini yaratmışsa, indi ölkəmiz müstəqil dövlətdir, sərhədlərimiz açıqdır və bizim üçün ən yaxın dost olan Türkiyə Cümhuriyyəti ilə əlaqələrimiz artıq çoxsahəlidir və genişdir. Ümidvaram ki, bu əlaqələr günü-gündən daha da genişlənəcək, möhkəmlənəcək və sarsılmaz, qırılmaz olacaqdır.

Bu baxımdan Elmlər Akademiyası tərəfindən Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli dostumuz, qardaşımız Süleyman Dəmirələ fəxri akademik adı verilməsi tamamilə əsaslıdır, məqsədəuyğundur. Bu gün mən səmimi qəlbdən [153-154] deyirəm ki, dostumuz, qardaşımız Süleyman Dəmirəl bu ada layiqdir və bu ada öz fəaliyyəti ilə layiq olubdur.

Hörmətli dostumuz Süleyman Dəmirəlin həyat yolu, onun yaradıcılığı, fəaliyyəti Azərbaycan xalqına yaxşı məlumdur. O, həm mühəndisdir, həm alimdir, həm də ixtiraçıdır. Ancaq onun elm sahəsində ən böyük xidmətləri siyasət sahəsindəki xidmətləridir. Şübhəsiz ki, bütün elmlər cəmiyyət üçün, xalq üçün, bəşər üçün əhəmiyyətlidir. Amma siyasət elmi, deyə bilərəm ki, ən çətin bır sahədir. Siyasət sahəsində həm fəaliyyət göstərmək, həm də bu sahədə elmi nailiyyətlər əldə etmək, siyasətin elmi əsaslarını mənimsəmək və siyasəti bu əsaslar üzərində aparmaq böyük məharət, böyük fitri istedad tələb edir. Bunların hamısı da bizim dostumuz, qardaşımız Süleyman Dəmirələ məxsusdur. 35 ildən artıqdır ki, dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətində, onun siyasi həyatında siyasi fəaliyyət göstərir, dövlətçilik fəaliyyətindədir. Bu dövrdə Türkiyə Cümhuriyyətinin, dövlətinin inkişaf etməsi, demokratiyanın inkişaf etməsi, xalqın səviyyəsinin qalxması və Türkiyə Cümhuriyyətinin dünyada bu qədər görkəmli yer tutması, şübhəsiz ki, hörmətli dostumuz Süleyman Dəmirəlin siyasi, dövlətçilik fəaliyyəti ilə bağlıdır və ona borcludur.

Ona görə də hörmətli Süleyman Dəmirəl siyasət sahəsində dünya miqyasında böyük alimdir, böyük ictimai-siyasi xadim, dövlət xadimidir. O, hörmət edib bu gün Azərbaycan Elmlər Akademiyasına gəlib və Azərbaycan alimləri, elm xadimləri, Elmlər Akademiyası ona böyük hörmət, ehtiram göstərərək akademiyanın fəxri akademiki seçibdir. Mən hesab edirəm ki, bu, tariximizdə parlaq səhifələrdən biridir. Əmin olduğumu bildirmək istəyirəm ki, bu hadisə xalqlarımız arasında, dövlətlərimiz, ölkələrimiz arasında olan əlaqələrin daha da inkişaf etməsinə xidmət edəcəkdir və Azərbaycan elmi ilə Türkiyə Cümhuriyyətinin elmini daha da sıx bağlayacaqdır.

Əziz dostum, qardaşım Süleyman Dəmirəl! Mən bir daha Sizi ürəkdən təbrik edirəm, Sizə cansağlığı, səadət arzu edirəm, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə yeni-yeni böyük nailiyyətlər arzulayıram. Təbrik edirəm Sizi. [154-155]

## TÜRKİYƏNİN VƏ AZƏRBAYCANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı*

*8 dekabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl ikinci gündür ki, Azərbaycandadır və proqrama görə Türkiyənin və Azərbaycanın iş adamları ilə görüş, nəzərdə tutulmuşdur. Hörmətli qonağımız – Türkiyə Respublikasının prezidenti ilə buraya qardaş ölkənin böyük bir qrup iş adamları gəlmişlər. Güman edirəm ki, onlar dünən də, bu gün də burada lazımi işlər görüblər və yəqin ki, Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin bundan sonra irəliyə necə aparılacağı barədə öz sözlərini, fikirlərini deyəcəklər, təkliflərini irəli sürəcəklər.

Biz hörmətli Süleyman Dəmirəllə dünən danışıq apararkən belə bir fikrə gəldik və xüsusən mən qeyd etdim ki, Türkiyə ilə Azərbaycan arasında indiyə qədərki iqtisadi əlaqələri şübhəsiz ki, qiymətləndirməliyik. Çünki keçmişdə heç bir şey olmayıbdır. Ancaq eyni zamanda bunları kafi hesab etmək olmaz, çünki tələbatımız – həm Azərbaycanın, həm də Türkiyə Respublikasında olan iş adamlarının, Türkiyə iqtisadiyyatının ehtiyacı indiyə qədər çatdığımız səviyyələrdən çox-çox artıqdır. Ona görə də biz daha geniş iş görməliyik.

Mən qeyd etmişəm və bu gün bir daha deyirəm: noyabrın 12-də qəbul etdiyimiz konstitusiya, indiyə qədər və bundan sonra qəbul edəcəyimiz qanunlar ölkəmizə xarici sərmayənin gəlməsinə, Azərbaycanda iş görülməsinə yaxşı imkanlar açacaqdır. Bilirsiniz ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz özəlləşdirmə proqramını qəbul etmişik və onu həyata keçirməyə başlamışıq. Aqrar sektorda, yəni kənd təsərrüfatında ciddi iqtisadi islahatlar aparırıq. Ona görə də respublikamıza xarici sərmayənin gəlməsi, müştərək işlərin görülməsi bizim üçün çox əhəmiyyətlidir. Şübhəsiz, bu baxımdan Türkiyə ilə olan əlaqələrimizi inkişaf etdirmək, qardaş öl[155-156]kənin iş adamlarının Azərbaycana gəlməsi bizim üçün çox əhəmiyyətlidir.

Doğrudur, şikayətlər də var ki, gəlib Azərbaycanda iş görmək üçün şərait bəzən o qədər də uyğun deyil, yaxud bəzi bürokratik əngəllər meydana çıxır. Hökumətin, dövlətin ayrı-ayrı orqanlarında bəzi şəxslər bu məsələləri anlamadıqlarına, yaxud işlərimizə qəsdən mane olmaq istədiklərinə görə belə əngəlləri süni surətdə yaradırlar. Ola bilər, bunlar var. Mən buna etiraz etmirəm, hesab edirəm ki, yəqin respublikamızda belə qüsurlar mövcuddur. Ancaq mən demişdim və bir də demək istəyirəm: Azərbaycanla Türkiyənin əlaqələri elədir ki, gərək Türkiyənin iş adamları bizim aramızda bəziləri tərəfindən yaradılan buzu yara-yara ölkəmizə gəlsinlər.

Məsələn, bilirəm ki, Türkiyənin iş adamları Rusiyada, başqa ölkələrdə həddindən artıq böyük miqyaslı işlər görürlər. Mən bir-iki ay bundan əvvəl Rumıniyada idim. Bu ölkənin prezidenti ilə söhbət aparırdım. Hörmətli prezident Süleyman Dəmirəl də orada idi. Biz Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etmək üçün orada idik. Mənə dedilər ki, burada Türkiyənin çoxlu iş adamları var. Bunlar hamısı çox gözəldir. Bunlar Türkiyə iqtisadiyyatının nə qədər inkişaf etdiyini və dünyanın nə qədər böyük ölkələrinə çıxdığını göstərir. Biz buna sevinirik. Ancaq bütün bunları həyata keçirməklə yanaşı, Azərbaycanı da unutmaq lazım deyildir. Nəinki unutmaq, Azərbaycanda şərtlər başqa yerlərdən çətin, ağır olsa da, bu şərtləri birlikdə aradan qaldırıb, ölkələrimiz arasındakı iqtisadi əlaqələri daha da möhkəmləndirməliyik. Bizim fikrimiz, istəyimiz, arzumuz budur. Yəni xarici iqtisadi əlaqələrdə istiqamətimizin əsas yolu budur. Ona görə də mən Azərbaycana gəlmiş iş adamlarını salamlayıram və buraya gəldiklərinə görə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüşdən sonra bizim iqtisadi əlaqələrimizdə yeni dəyişikliklər əmələ gələcək, yəni bir inkişaf mövcud olacaq. Mən bu arzuları bildirməklə, öz çıxışımı bitirirəm. [156-157]

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏLİN BİRGƏ BƏYANAT

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin dəvəti ilə Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl 1995-ci il dekabr ayının 7-dən 9-dək Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə görüşmüş və digər rəsmi şəxsləri qəbul etmişdir. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra demokratik prinsiplər əsasında seçilmiş Milli Məclisində çıxış etmişdir.

Ənənəvi dostluq, qardaşlıq, qarşılıqlı anlaşma və səmimiyyət şəraitində keçən görüşlərdə Azərbaycan və Türkiyə arasında ikitərəfli əlaqələrin inkişafı hərtərəfli müzakirə edilmiş, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər barədə geniş fikir mübadiləsi aparılmışdır.

Tərəflər, xüsusi olaraq qeyd etmişlər ki, beynəlxalq münasibətlərin dərin transformasiyaya məruz qaldığı bir dövrdə dünyada müsbət dəyişikliklərin, möhkəm sabitliyin mühüm təminatı kimi geniş və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti obyektiv olaraq artır. Onlar dünya işlərində BMT-nin rolunun güclənməsini, regional münaqişələrin aradan qaldırılmasında, qlobal problemlərin həlli yollarının axtarılmasında onun fəal iştirakının vacibliyini qeyd etmişlər. Tərəflərin fikrinə görə, BMT öz inkişafının yeni mərhələsində, nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq olaraq, beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlıq sisteminin möhkəmlənməsində aparıcı rol oynamalıdır və xüsusən Təhlükəsizlik Şurasının strukturu günümüzün tələblərinə cavab verməlidir.

Tərəflər, ATƏM yekun aktının və Paris partiyasının müddəalarına tərəfdar olduqlarını ifadə etmişlər. Onlar öz aralarında və Helsinki prosesinin iştirakçısı olan digər dövlətlərlə bu prosesin inkişafı üçün əməkdaşlıq etmək əzmində olduq[157-158]larını bildirmişlər. ATƏT-in müasir Avropada rolu bütün sahələrdə təhlükəsizlik və əməkdaşlığı möhkəmləndirməkdən ibarət olmalıdır ki, bu isə ATƏT mexanizmlərini daha da təkmilləşdirmək yolu ilə mümkündür.

Tərəflər, beynəlxalq və regional problemlərin həllinin suverenliyə, müstəqilliyə ehtiram, dövlətlərin ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına hörmət və daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanmasının gərəkliyini təsdiq etmişlər. Tərəflər, iki ölkə arasında dostluğu və hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, möhkəmləndirmək və dərinləşdirmək əzmində olduqlarını təsdiq etmişlər.

Tərəflər, Ermənistan Respublikasının Azərbaycana hərbi təcavüzünü qətiyyətlə pisləyərək, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərin pozulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsiplərini əsas tutaraq, Qarabağın Azərbaycan Respublikasının ayrılmaz hissəsi olmasını təsdiq etməklə, erməni qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən təcili və qeyd-şərtsiz çıxarılmasını, Qarabağ münaqişəsinə dair BMT-nin və ATƏT-in müvafiq qətnamələrinin icrasını, habelə qaçqınların öz doğma torpaqlarına qaytarılmasını nəzərdə tutan bir ümumi nəticəyə gəlmək tələbini bir daha təsdiq etmişlər.

Türkiyə tərəfi, silah gücü ilə işğal edilmiş torpaqların azad edilməsi istiqamətində faydalı addımlar atılmasının sülhə, sabitliyə və bölgədə əməkdaşlığa mühüm təsir göstərəcəyini bildirmiş və bu baxımdan Ermənistan Respublikasının regionda sülhün və təhlükəsizliyin bərqərar edilməsində xüsusi məsuliyyətini qeyd etmişdir.

Tərəflər, ayrıca olaraq, ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair sülh prosesi çərçivəsində Minsk qrupunun bütün üzvlərinin bu sülh prosesinin bütün mərhələlərində birgə iştirak etməsinin vacibliyini qeyd etmişlər.

Azərbaycan tərəfi, ATƏT-in Minsk sülh prosesində qəbul ediləcək qərarlarının həyata keçirilməsində Türkiyənin fəal rol oynamaq istəyini məmnuniyyətlə qəbul etmişdir.

Türkiyə tərəfi, Minsk qrupunun digər üzvləri ilə sıx təmaslarını daha da artıracağını bildirmişdir.

Tərəflər, Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi, qaçqın və köçkünlərin öz torpaqlarına qayıtmalarının təmin edilməsi, bölgədə ədalətli və möhkəm sülhün yaradılması üçün lazımi regional və beynəlxalq səylərin artırılma[158-159]sının vacibliyini qeyd etmişlər. Türkiyənin beynəlxalq səviyyələrdə Azərbaycana haqlı mübarizəsində lazımi dəstək verməkdə davam edəcəyi bir daha vurğulanmışdır.

Tərəflər, ayrıca olaraq, Azərbaycanla Ermənistan arasında olan hərbi münaqişədə 19 aydan bəri atəşkəs rejiminin davam etməsini məmnuniyyətlə qarşılamışlar və bölgədəki problemlərinin sülh yolu ilə sürətli həlli üçün beynəlxalq təşkilatlar tərəfindən göstərilən səylərin dəstəklənməsinin bölgədə əməkdaşlığın genişlənməsinə və sabitliyə xidmət edəcəyinə əmin olduqlarını bildirmişlər.

Türkiyə tərəfi, Azərbaycanda qısa bir zamanda iqtisadi, sosial və siyasi sahələrdəki irəliləyişləri, xüsusilə Azərbaycanda sərbəst bir şəraitdə, çoxpartiyalılıq əsasında keçirilmiş parlament seçkilərini və yeni konstitusiyanın qəbul edilməsini məmnuniyyətlə qeyd etdikdən sonra, Türkiyənin bu sahələrdə Azərbaycana indiyə qədər olduğu kimi, bundan sonra da hər cür yardımı və dəstəyi davam etdirəcəyini bildirmişdir.

Eyni zamanda Azərbaycan tərəfi, bu seçkilərin sərbəst bir şəraitdə keçirilməsini müşahidə etmək məqsədi ilə Türkiyədən göndərilmiş müşahidəçilər qrupunun fəal və obyektiv iştirakı üçün dərin minnətdarlığını bildirmişdir.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorunda, Azərbaycan ilə beynəlxalq neft konsorsiumu tərəfindən imzalanan neft müqaviləsinin həyata keçirilməsinin bölgədə iqtisadi və siyasi sabitliyin bərpası üçün müstəsna əhəmiyyətini xüsusi qeyd etmişlər və Azərbaycanın beynəlxalq iqtisadi sistem ilə bütünləşməsinə onun zəmin yaradacağı barədə fikir birliyini bir daha təsdiqləmişlər.

Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyənin Ceyhan terminalına yönəldilməsi barədə istəklərini təsdiq etmişlər.

Tərəflər, iki ölkə arasında siyasi, iqtisadi, sosial və mədəni əlaqələrin dönmədən inkişafını təmin edən müqavilə və sazişlərin həyata keçirilməsi mexanizmlərini inkişaf etdirmək və təkmilləşdirmək barədə tədbirlər görülməsinin əhəmiyyətini qeyd etmişlər.

Bu məqsədlə tərəflər, xüsusən iqtisadi əlaqələrin daha yüksək səviyyəyə qaldırılması üçün imkanlar olduğunu qeyd edə[159-160]rək müvafiq nazirlərin rəhbərliyi ilə Türkiyə-Azərbaycan birgə iqtisadi komissiyasının ən qısa bir vaxtda Bakıda toplanması və Türkiyə-Azərbaycan və Azərbaycan-Türkiyə işgüzar adamlar şuralarının daha da təsirli fəaliyyəti üçün lazımi şəraitin yaradılması haqqında razılaşmışlar.

Tərəflər, iki ölkə arasında ticarətin inkişafını təmin etmək və investisiyaları təşviq etmək məqsədi ilə lazımi tədbirlərin görülməsi və iki ölkənin firma və təşkilatları tərəfindən imzalanan müqavilə və protokolların işgüzar hala gətirilməsi haqqında eyni fikirlərə sahib olduqlarını məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı nəqliyyat və rabitə sahəsində mövcud çətinliklərin tez bir zamanda aradan qaldırılması üçün birgə tədbirlər görülməsinin lüzumunu qeyd edərək, Türkiyə və Azərbaycan arasında 1 noyabr 1992-ci il tarixində Ankarada imzalanmış beynəlxalq quru yol nəqliyyatı haqqındakı müqavilənin təsdiq sənədlərinin iki ölkə tərəfindən təkmilləşdirilməsini və bu səfər əsnasında həyata keçirilməsini məmnuniyyətlə qeyd etmişlər.

Tərəflər, iki ölkə arasındakı hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafı məqsədi ilə, Türkiyə və Azərbaycanın mülki aviasiya təşkilatlarının bu mövzuda imkanlarını qiymətləndirmək üçün qısa müddət ərzində bir görüş keçirmək arzusunda olduqlarını qeyd etmişlər.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı dəmir yolu nəqliyyatı sahəsində imkanları qeyd edərək, 1991-ci ilin mart ayında imzalanmış protokola əsasən Naxçıvan Muxtar Respublikasının Sədərək məntəqəsində Araz çayı üzərindən dəmir yolu körpüsünün tikilməsinin, qısa bir vaxtda Türkiyə ərazisindən dəmiryolu xəttinin çəkilməsinin və gələcəkdə Türkiyə Respublikasının dəmir yollarını istər Azərbaycan ərazisi ilə, istərsə də Orta Asiya respublikaları ilə birləşdirmək imkanlarının əhəmiyyətini vurğulamışlar. Bununla əlaqədar, Bakı sərnişin vaqonları deposunun modernizə edilməsi layihəsinin həyata keçirilməsinin vacibliyini də qeyd etmişlər.

Azərbaycan tərəfi Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olmasını nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası üçün Türkiyədən alınan elektrik enerjisinin gücünün və keyfiyyətinin artırılmasını istəmişdir.

Bununla əlaqədar, tərəflər, 14 iyul 1995-ci il tarixində Antalyada imzalanmış protokolu qeyd etmişlər və bu protokolda [160-161] göstərildiyi kimi Azərbaycan-Gürcüstan-Türkiyə enerji sistemlərinin bir-birinə bağlanması layihələrini hazırlamaq üçün tezliklə işçi qrupu yaradılmasının vacibliyini vurğulamışlar.

Tərəflər, ənənəvi dostluq və qardaşlıq münasibətlərini genişləndirmək əzmində olduqlarını bir daha təsdiq edərək, Türkiyə Radio-Televiziya Təşkilatının TRT-1 televiziya proqramının Azərbaycan Respublikasının bütün ərazisində yayılmasını təmin etmək məqsədi ilə iki ölkə arasında bu səfər zamanı imzalanan sazişin hər iki ölkə və bu ölkələrin xalqları arasındakı anlaşma və əlaqələrin möhkəmlənməsi yolunda daha faydalı olacağını qeyd etmişlər.

Tərəflər, iki ölkə arasında 28 fevral 1992-ci il tarixli viza haqqındakı sazişi əsas tutaraq 28 noyabr 1995-ci il tarixində məktublar mübadiləsi nəticəsində viza məsələlərinin asanlaşdırılmasını məmnuniyyətlə qeyd etmiş və bu razılaşmanın iki ölkə vətəndaşlarının gediş-gəlişinin asanlaşdırılacağına ümid etdiklərini bildirmişlər.

Azərbaycan tərəfi, Azərbaycan Respublikasının Ankaradakı səfirliyinə diplomatik şəhərcikdə müvafiq yer ayrılmasını razılıqla qeyd edərək, bunun müqabilində Türkiyə Respublikasının Bakıdakı səfirliyi üçün şəhərin münasib yerində yetərli sahə ayrılmasını qəbul etmişdir.

Tərəflər, Türkiyə ilə Azərbaycan arasındakı yaxşı münasibətlərin regionun digər ölkələri üçün nümunə olması arzularını təsdiq edərək, bu ölkələri hər sahədə əməkdaşlığı genişləndirməyə dəvət etmişlər.

Türkiyənin prezidenti Süleyman Dəmirəl Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi Türkiyəyə rəsmi səfərə əvvəlki dəvətini bir daha təsdiq etmişdir.

Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycana ziyarəti zamanı ona və Türkiyə heyətinə göstərilən mehribanlıq və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə və bütün Azərbaycan xalqına dərin təşəkkürünü bildirmişdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**SÜLEYMAN DƏMİRƏL**
**Türkiyə Respublikasının Prezidenti**

*8 dekabr 1995-ci il* [161-162]

**AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**

*8 dekabr 1995-ci il*

Hörmətli mətbuat nümayəndələri, jurnalistlər!
Hörmətli xanımlar və cənablar!

İki gündür ki, Türkiyə Respublikasının hörmətli prezidenti, əziz dostumuz və qardaşımız Süleyman Dəmirəl mənim dəvətimlə ölkəmizdə rəsmi səfərdədir. Hörmətli qonağımız Süleyman Dəmirəli hava limanında qarşılayandan indiyə qədər demək olar ki, gərgin iş gedibdir və bu qısa müddətdə biz çox nəticələr əldə edə bilmişik. Birincisi, əsas odur ki, müstəqil respublikamıza dostumuz, qardaşımız hörmətli Süleyman Dəmirəl Türkiyə Respublikasının prezidenti kimi ilk dəfə gəlibdir. İkincisi, Azərbaycan Respublikasının həyatında tarixi hadisələr baş veribdir: respublikamızın, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunubdur, ölkəmizin parlamentinə ilk demokratik seçkilər keçirilib və parlament öz fəaliyyətinə başlayıbdır. Bu hadisələrdən sonra müstəqil Azərbaycan Respublikasını ilk rəsmi ziyarət edən dövlət başçısı bizim hörmətli dostumuz, qonağımız prezident Süleyman Dəmirəldir.

Hörmətli Süleyman Dəmirəl ölkəmizə gəldiyi ilk dəqiqələrdən indiyədək respublikamızın bugünkü həyatı ilə tanış olur, çoxlu görüşlər keçiribdir, müstəqil Azərbaycanın ilk parlamentində, yəni müstəqil dövlətimizin ilk demokratik seçkilərindən sonra yaranmış parlamentində çox parlaq, məzmunlu çıxış edibdir. Başqa görüşlər də olubdur. Dünən bizim aramızda təkbətək çox ətraflı danışıqlar, söhbətlər olub. Bundan sonra nümayəndə heyətlərimizin iştirakı ilə danışıqlar, görüşlər keçirilib. Bütün bu danışıqların, görüşlərin hamısı dostluq, mehribanlıq, səmimilik şəraitində olub və bunların hamısı Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin sarsılmaz olduğunu bütün dünyaya nümayiş etdirir. Eyni zamanda əlaqələrimizin inkişaf etdirilməsi üçün böyük imkanların mövcud olduğunu göstərir. [162-163]

Hörmətli prezident Süleyman Dəmirəllə apardığımız danışıqlarda, söhbətlərdə məhz bu məsələlər diqqət mərkəzində olubdur. Hesab edirəm ki, bütün görüşlər, danışıqlar və hörmətli prezident Süleyman Dəmirəlin Azərbaycanın bir neçə sahələri ilə şəxsən tanış olması ölkəmizin bugünkü vəziyyəti haqqında Türkiyə ictimaiyyəti, dövləti üçün, xüsusən prezident Süleyman Dəmirəl üçün yeni bir mənzərə açır. Yəni ölkəmiz inkişafdadır, Azərbaycan müstəqilliyinin dördüncü ilini aşaraq irəliyə gedir.

Biz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq aləmdə gedən proseslər haqqında danışıqlar aparmışıq. Bütün bu danışıqlarımızın mərkəzində Ermənistanın Azərbaycana təcavüzünün qarşısının alınması və bu təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizindən çoxunun işğal olunması, işğal olunmuş torpaqlardan bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsi məsələlərinin müzakirəsi durmuşdur. Biz eyni fikirdəyik ki, bu problem – Azərbaycan üçün ən ağır, çətin problem, eyni zamanda qardaş Türkiyə Respublikasını da həddindən artıq narahat edən problem sülh yolu ilə həll olunmalıdır və biz sülh yoluna üstünlük veririk. Ona görə də on doqquz ay bundan öncə Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş əldə edilibdir. Biz atəşkəsə riayət edirik və bundan sonra da riayət edəcəyik. Ancaq bunlar yalnız danışıqları sürətləndirmək və sülh əldə etmək məqsədi daşıyır.

Böyük Sülh Sazişinin əldə olunması üçün şərtimiz də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarılmalı, ölkəmizin ərazi bütövlüyü təmin olunmalı, didərgin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerlərinə qayıtmalıdır. Şübhəsiz ki, Dağlıq Qarabağ problemini həll etmək üçün bununla yanaşı Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz hissəsi olaraq Dağlıq Qarabağa müəyyən status verilməsi məsələsinə də biz müsbət münasibət göstəririk. Bunlar da sülhün əldə olunması Üçün aparılan danışıqların əsas şərtləridir. Biz bu barədə fikir mübadiləsi apardıq. Bir daha eyni fikrə gəlmişik ki, məsələlər bu yolla, yaxın zamanda həll edilməlidir. Bu danışıqlar sürətlə getməlidir ki, tezliklə nəticə versin. Çünki Azərbaycan "Nə sülh, nə müharibə" vəziyyətində uzun müddət qala bilməz.

İqtisadi əlaqələrimizin inkişaf etdirilməsi barədə bu gün artıq söhbət aparıldı və hər iki tərəfin buna münasibəti bildi[163-164]rildi. Fikrimiz eynidir ki, iqtisadi əlaqələr genişləndirilməlidir. Bütün sahələrdə – təhsil, mədəniyyət, insani əlaqələr və bütün başqa sahələrdə münasibətlərimiz yaxşıdır, ancaq bundan da yaxşı olmalıdır. Biz xeyli nailiyyətlər əldə etmişik, ancaq irəliyə getməliyik, yeni nailiyyətlər qazanmalıyıq. Bütün bunlar danışıqlarımızın əsas mövzusu olmuşdur.

**Sual: Mənim sualım prezident Heydər Əliyevədir. Demokratiya yolunda ciddi addımlar atdınız, konstitusiyanı dəyişdirdiniz. Demokratiyanın inkişafı üçün bundan sonra hansı addımları atacaqsınız?**

**Heydər Əliyev:** Müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbul olunması konstitusiyanın dəyişdirilməsi demək deyil. Biz müstəqil Azərbaycanda ilk dəfə konstitusiya qəbul etmişik. Bu konstitusiyanın qəbul edilməsi Azərbaycanda bütün sahələrdə demokratiyanı bərqərar və inkişaf etdirmək üçün böyük bir əsas

yaratmışdır. Eyni zamanda parlament seçkilərinin demokratik prinsiplər əsasında keçirilməsi və yeni parlamentin – müstəqil dövlətimizin parlamentinin yaranması Azərbaycanda demokratiyanın inkişaf etməsi üçün böyük bir addımdır. Biz bunları ilk addım hesab edirik. Hesab edirik ki, qarşımızda hələ böyük yol var. Demokratiya elə bir şey deyildir ki, onu bir gündə, bir ildə və yaxud bir neçə ildə tətbiq edib hər yerdə bərqərar edəsən. Biz cəmi dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Dörd il müddətində Azərbaycanın həyatında gedən proseslər məlumdur. Ona görə də bu konstitusiyanın qəbul edilməsi, həm də demokratik parlamentin seçilməsi demokratiya yolunda ilk addımdır və görəcəyimiz işlər hələ çoxdur.

Konstitusiyanın üçdə bir hissəsi insan azadlığına, insan, vətəndaş hüquqlarına həsr olunubdur. Vətəndaşlara, insanlara azadlıq şəraiti yaratmaq konstitusiyanın tələblərini həyata keçirməkdən ibarətdir. Siyasi plüralizm var və onun üçün imkanlar yaradılmışdır. Söz, mətbuat azadlığı Azərbaycanda artıq hökm sürür, hesab edirik ki, bundan sonra da geniş yayılmalıdır. Bizdə artıq bir çox partiyalar mövcuddur. Səkkiz partiya seçkilərdə iştirak etdi. Bir neçə partiya parlamentdə yer qazandı. Bu prosesi biz davam etdirəcəyik. Yəni partiyaların inkişaf etdirilməsi, güclənməsi üçün şərait yaradılacaqdır. Bu da demokratiyanın inkişafı yolunda atacağımız addımdır.

Təkcə ictimai sahədə deyil, həm də iqtisadiyyatın demokratikləşdirilməsi bizim əsas vəzifəmizdir. Bazar iqtisadiyyatının [164-165] tətbiq olunması, özəlləşdirmənin, iqtisadi islahatların keçirilməsi, xarici ticarətin sərbəstləşdirilməsi, bank işində, valyuta sahəsində islahatların keçirilməsi – bunlar hamısı iqtisadiyyatda demokratiyanın tətbiq olunmasıdır. Bir sözlə, qarşımızda hələ görüləsi işlər çoxdur. Ancaq inana bilərsiniz ki, biz bu işləri ardıcıl olaraq görəcəyik və tutduğumuz yolla irəliyə gedəcəyik.

**Sual: İki dövlət arasında siyasi və iqtisadi əməkdaşlığı daha da möhkəmləndirmək üçün bu səfər zamanı hansı konkret tədbirlərin görülməsi razılaşdırılmışdır? İkinci sual. Türkiyə prezidenti cənab Süleyman Dəmirələdir. İndiyədək Türkiyə Rusiyaya iki milyard dollaradək, Türkmənistana təqribən 1,5 milyard dollar həcmində sərmayə qoymuşdur. Türkiyənin ən nüfuzlu şirkətləri Azərbaycandan daha çox keçmiş SSRİ-nin digər türk respublikalarına sərmayə qoymağı üstün tuturlar. Onlar Rusiyanı Azərbaycandan daha yaxın hesab edirlər, yoxsa Azərbaycandakı siyasi riskdən yan keçmək istəyirlər?**

**Heydər Əliyev:** Hörmətli prezident Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı biz, – mən burada məlumat verdim, – çox böyük nailiyyətlər əldə etmişik. Yəni ölkələrimiz arasında olan dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da inkişaf etdirilməsi üçün əsas yaratmışıq. Biz burada birgə bəyanat imzaladıq, o, mətbuatda dərc olunacaqdır. Bütün bu prinsiplər bəyanatda öz əksini tapıbdır. Ölkələrimiz arasında indiyə qədər bütün sahələrdə olan əlaqələr bundan sonra daha sürətlə inkişaf edəcəkdir, o cümlədən siyasi əlaqələr, dövlətlərarası əlaqələr də inkişaf edəcəkdir. Güman edirəm ki, bu, çox böyük bir mərhələdir və mən bunu yüksək qiymətləndirirəm.

**Süleyman Dəmirəl:** Dəfələrlə demişəm və yenə deyirəm, bunu təkrar etməkdən zövq alır, qürur duyuram: Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər, qardaşlıq, dostluq əlaqələri heç bir ölkə ilə müqayisə edilməyəcək qədər gözəldir. Ticarət, sərmayə məsələlərinin öz şərtləri var. Buraya Türkiyənin ən tanınmış dövlət qurumlarının başçıları da gəlmişlər. Biz Azərbaycanın yüksəlişini, zənginləşməsini çox istəyirik. Başqa ölkələrlə yaratdığımız münasibətlər bu istəyimizi azalda bilməz, əksinə, artırır. [165-166]

**Sual: Cənab Dəmirəl, Türkiyə Avropa Gömrük Birliyinə daxil ola biləcəkmi? İkinci sual cənab prezidentimizədir. Siz Frans Press agentliyinə müsahibə verərkən belə bir fikir söyləmisiniz ki, biz Dağlıq Qarabağa yüksək status verməyə razıyıq. Bu yüksək status hansı səbəblərlə bağlıdır?**

**Süleyman Dəmirəl:** Türkiyə Avropa Gömrük Birliyinə daxil olacaqdır. Avropa parlamentindəki siyasi partiyaların böyük bir qrupu Türkiyənin Gömrük Birliyinə daxil olmasına tərəfdardır. Hələlik bir çətinlik görünmür. Beş gündən sonra, dekabrın 13-də bu məsələ müsbət həll olunacaqdır. Türkiyənin Avropa Gömrük Birliyinə daxil olması onun müqavilə hüququdur. Çünki Türkiyənin 1963-cü ildə imzaladığı sazişə əsasən 1973-cü ilədək davam edən protokol bundan 22 il sonra Gömrük Birliyinə daxil olmağı lazım bilir. O vaxtdan bəri Türkiyə iqtisadiyyatının Avropa iqtisadiyyatı ilə rəqabət edib-edə bilməyəcəyi və iqtisadiyyatımızın Gömrük Birliyinə girməyə hazır olub-olmaması uzun müddət araşdırılmış və məlum olmuşdur ki, Türkiyə iqtisadiyyatının rəqabət gücü var və Türkiyə Avropa Gömrük Birliyinə daxil ola bilər. 1996-cı ilin əvvəlindən etibarən Türkiyə Gömrük Birliyinin Üzvü olacaqdır.

**Heydər Əliyev:** Dağlıq Qarabağa yüksək status verilməsi haqqında Frans Press agentliyinə verdiyim bəyanat ilk bəyanat deyildir. Mən bunu əvvəllər də bir neçə dəfə demişəm və bu gün də deyirəm ki, biz Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi kimi Dağlıq Qarabağa yüksək status verməyə hazırıq. Yüksək statusun nədən ibarət olması barədə, mənə belə gəlir ki, bu dediyim bəsdir. Yüksək status sözü artıq hər şeyi deyir.

**Sual: İlk sualım hörmətli Heydər Əliyevədir. Dağlıq Qarabağ ermənilərinə verəcəyiniz status nədən ibarət olacaq? İkinci sualım hörmətli Dəmirələdir. Azərbaycanda siyasi həbslərin təkrarlandığını söyləyirlər. Belə şəxslərin buraxılması haqqında hörmətli Əliyevlə müzakirə olacaqmı?**

**Süleyman Dəmirəl:** Təbii ki, Azərbaycandakı həbslər məsələsi onun daxili işidir. Biz iki qardaş ölkə olsaq da, iki ayrı dövlətik. Dövlətlərə aid məsələlərdə nəzakətin gözləndiyini bilməlisiniz. Bir adamı həbs et

demək mənim üçün mümkün olmadığı kimi, bir adamı azad et deməyim də [166-167] mümkün deyildir. Eyni şəkildə bu işlər hörmətli Heydər Əliyevin də əlində deyildir.

**Heydər Əliyev:** Mən bu suala cavab verdim. Yüksək status verməyə hazırıq, yəni Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibində, onun ayrılmaz hissəsi olaraq muxtariyyət statusu alacaq və bu da yüksək səviyyədə olacaqdır. Ancaq bunun təfsilatını indi demək mümkün deyildir. Əvvəl gərək biz bu barədə razılığa gələk, bundan sonra onun təfsilatı barədə danışıq aparaq, razılığa gələk.

**Sual: Hörmətli Süleyman bəy, qaçqınlarla görüş zamanı dediniz ki, məsələ bu qışadək həll edilməli idi, lakin edilmədi, inşallah, gələn qışadək qaçqınlar öz yerlərinə qayıdacaqlar. Belə bəyanat verməyə hansı əsaslarınız var və nəyə inanırsınız?**

**Süleyman Dəmirəl:** Mən hər şeydən əvvəl haqqa inanıram. Bir milyon insanın belə vəziyyətə düşməsi zülmdür və insanlığın qəlbini, ürəyini qanatmalıdır. Bir neçə il davam edən bu münaqişənin artıq qurtarması zamanı gəlmişdir. Bu, bitməlidir. Gələcək qışa qədər qalmamalıdır. Biz bunu dünyadan tələb edirik, hər kəs buna yardımçı olsun. [167-168]

## TÜRKİYƏ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ AZƏRBAYCAN İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ

*Respublika Sarayı*

*8 dekabr 1995-ci il*

Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli
Süleyman Dəmirəl!
Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Azərbaycan ictimaiyyətinin nümayəndələri bu gün buraya, Respublika sarayına əziz dostumuz, qardaşımız, əziz qonağımız – Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl ilə görüşməyə gəliblər. Sizi Ürəkdən salamlayıram, bütün işlərinizdə sizə uğurlar diləyirəm!

Əziz dostumuz, qardaşımız, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl iki gündür ki, Azərbaycanda rəsmi səfərdədir. Bu müddətdə çox iş görülübdür: çoxlu görüşlər keçirilib, danışıqlar aparılıb, sənədlər imzalanıb. Yaxşı nəticələr əldə olunubdur. Demək olar ki, bu günlər Türkiyə – Azərbaycan dostluğu və qardaşlığı yeni bir yüksək zirvəyə qalxıbdır. Bunun da böyük əsası, kökləri vardır. Bizim xalqlarımız eyni köklərə, eyni mənşəyə mənsub olan xalqlardır. Tarixi keçmişimiz bizi bir-birimizə sıx bağlayıb. Azadlıq, yaşamaq uğrunda əsrlər boyu apardığımız birgə mübarizəmiz bizi bir-birimizə bağlayıbdır. Biz eyni dilə, eyni dinə mənsubuq. Adətlərimiz, ənənələrimiz eynidir, yaxud bir-birinə bənzərdir. Ulu babalarımız daim dost, qardaş, bir-biri ilə sıx əlaqədə olub və bu dostluğu, qardaşlığı bizə vəsiyyət ediblər. Bu vəsiyyətə sadiq qalaraq biz bu gün Türkiyə ilə Azərbaycan arasında, xalqlarımız arasında olan dostluq və qardaşlıq əlaqələrini daha yüksək zirvələrə qaldırırıq. Bu, bizim ümumi nailiyyətimizdir, xoşbəxtliyimizdir.

Anadolu Türkiyəsinin böyük, möhtəşəm, çoxəsrlik tarixi var. XX əsrdə Türkiyədə gedən proseslər və onun müsbət nəticələri Türkiyə Cümhuriyyətinin yaranmasına gətirib çıxarıbdır. Böyük Mustafa Kamal Atatürkün öz xalqının, ölkə[168-169]sinin qarşısında xidmətləri nəticəsində, onun silahdaşlarının xidmətləri nəticəsində 70 il bundan öncə Anadolu Türkiyəsində Türkiyə Cümhuriyyəti yaranıbdır.

Türkiyə Cümhuriyyəti möhtəşəm tarixi bir yol keçibdir və bugünkü Türkiyəni yüksəklərə qaldırıbdır. Böyük Mustafa Kamal Atatürkün yolu ilə gedən, onun vəsiyyətlərinə sadiq olan silahdaşları və yetirmələri, ondan sonra gələn nəsillər Türkiyəni günbəgün, aybaay, ilbəil möhkəmləndiriblər, yüksəklərə qaldırıblar. Türkiyə bu gün dünya birliyində özünəməxsus yüksək yerini tutubdur və türk dünyasının, türk xalqının nəyə qadir olduğunu dünya birliyinə açıq-aşkar nümayiş etdirir. Bu nailiyyətlər bizi sevindirir və bizdə böyük iftixar hissi yaradır.

Türkiyə böyük bir dövlətdir, böyük iqtisadi potensiala malikdir. Öz torpaqlarını qoruyub saxlamağa qadirdir. Türkiyə dünya demokratiyasından bəhrələnərək 50 ildən artıq bir dövrdə demokratiya yolu ilə azadlıq yolu, sərbəstlik yolu ilə gedir, dünya demokratiyasında özünəməxsus görkəmli yer tutubdur.

Türkiyənin iqtisadiyyatında son illərdə, onilliklərdə baş vermiş böyük dəyişikliklər, sıçrayış, böyük inkişaf türk xalqının nəyə qadir olduğunu göstərir, eyni zamanda Türkiyəni idarə edən qüvvələrin nə qədər mütərəqqi, uzaqgörən olduğunu nümayiş etdirir. Biz daim Türkiyəyə böyük məhəbbət hissi ilə, sevgi hissi ilə baxmışıq. Türkiyənin əldə etdiyi nailiyyətlərə həmişə sevinmişik. Bir-birimizdən aralı düşdüyümüz vaxtlarda uzaqdan-uzağa hissiyyatımızı, sevgimizi, məhəbbətimizi bildirmişik, sevmişik. İndi isə artıq bu hissiyyatlarımızı bildirmək üçün gözəl imkanlar yaranıb.

Türkiyə tarixində böyük şəxsiyyətlər Türkiyənin inkişafını təmin ediblər. Türkiyə Cümhuriyyətinin tarixində, onun bugünkü nailiyyətlərinin əldə edilməsində, Türkiyədə demokratiyanın bərqərar olunmasında, türk xalqının bu gün rifah içində yaşamasında bizim dostumuz, qardaşımız, hörmətli prezident Süleyman Dəmirəlin xüsusi rolu, fəaliyyəti var. Süleyman Dəmirəl bütün dünyada məşhur bir şəxsiyyətdir. O, öz əmək, yaradıcılıq fəaliyyəti ilə, siyasi fəaliyyəti ilə Türkiyənin tarixində, bütün dünya siyasətinin tarixində görkəmli bir yer tutubdur.

35 ildən artıqdır ki, hörmətli dostumuz Süleyman Dəmirəl Türkiyə Cümhuriyyətinin siyasi proseslərinin fəal iştirakçısıdır və aparıcı şəxsiyyətlərindən biridir. Türkiyənin bugünkü duruma gəlib çatmasında, bugünkü nailiyyətlərinin əldə olunma[169-170]sında son onilliklərdə mərhum Turqut Özalın və bizim əziz dostumuz və qardaşımız, Türkiyə prezidenti Süleyman Dəmirəlin xüsusi rolu var. Hörmətli dostumuz Süleyman Dəmirəli Azərbaycanda yaxşı tanıyırlar. Dünyada da yaxşı tanıyırlar. Ancaq mən Azərbaycan haqqında demək istəyirəm.

Hörmətli Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş naziri seçiləndən sonra ilk xarici səfərlərindən birini Sovet İttifaqına etmişdir. Sovet İttifaqını ziyarət edərkən Azərbaycana gəlmişdir. Bu, 1967-ci ildə olmuşdur. Yəni ilk dəfə baş nazir olarkən o, Azərbaycana maraq göstərmiş, Azərbaycana gəlmək istəmiş və

gəlmişdir. Xatirımdədir, o günlər Azərbaycan vətəndaşları, xalqımız hörmətli Süleyman Dəmirəli öz doğma qardaşı kimi qarşılayırdı. Olduqca mehriban, hərarətli bir münasibət var idi. O vaxt bizim ilk tanışlığımız oldu. Mən hiss edirdim ki, hörmətli Süleyman Dəmirəl də Azərbaycana gəlməyindən nə qədər məmnundur və Azərbaycanı görmək onun üçün nə qədər əhəmiyyətlidir.

Sonrakı dövrdə Azərbaycan ilə hörmətli Süleyman Dəmirəl arasında olan münasibətlərdə böyük fasilə dövrü olubdur. Məlumdur ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində müttəfiq respublika idi. Azərbaycanın xarici ölkələrlə bilavasitə əlaqə saxlamağa imkanı yox idi. Türkiyənin baş naziri nə qədər istəsəydi də, Azərbaycanla əlaqə qurmağa ona da imkan verməzdilər. Nəhayət, bu imkan əldə edildi. 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinə nail oldu. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk xarici dövlət oldu. Bu da məhz hörmətli dostumuz Süleyman Dəmirəlin fəaliyyəti, onun Azərbaycana münasibəti nəticəsində olmuşdur. Bundan sonra əlaqələr çox yaxın olmuş, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında əlaqələr inkişaf etməyə başlamışdır. Hörmətli Süleyman Dəmirəl Azərbaycana daim diqqət yetirmiş, qayğı göstərmişdir.

1992-ci ildə hörmətli Süleyman Dəmirəl Azərbaycana ikinci dəfə gəlmişdir, bu vaxt artıq Azərbaycan müstəqil dövlət idi. Doğrudur, o vaxt Azərbaycan müstəqilliyinin ilk aylarını yaşayırdı. Azərbaycanda qarmaqarışıq bir vəziyyət var idi, daxili siyasi proseslər çox gərgin idi. Məhz belə bir vaxt, belə bir zamanda hörmətli Süleyman Dəmirəl ölkəmizə gəlməklə bir daha Azərbaycana öz hörmət və ehtiramını bildirmiş və bu da öz faydasını göstərmiş, öz nəticəsini vermişdir. [170-171]

Nəhayət, dünən biz Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli Süleyman Dəmirəli əziz bir qonaq kimi qəbul etmişik, bağrımıza basmışıq, qucaqlamışıq. İki gündür ki, bərabərik, bir yerdəyik. Güman edirəm ki, bu qısa bir zamanda hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən nümayəndə heyəti, onunla bərabər Azərbaycana gəlmiş Türkiyəli qardaşlarımız respublikamızın bu günü ilə tanış ola biliblər. Çox şey görüblər. Yəqin ki, gördükləri haqqında özləri deməlidirlər və nəticə çıxarmalıdırlar. Ancaq bir şeyi mən də qeyd etmək istəyirəm. Harda olmuşuqsa, hansı küçədən, meydandan keçmişiksə, havanın yağışlı olmasına baxmayaraq, insanlar, vətəndaşlar, bakılılar, Bakının sakinləri küçələrə, meydanlara çıxıblar – məhz hörmətli qonağımız, dostumuz Süleyman Dəmirəli görmək, onu salamlamaq, ona öz hörmət və ehtiramını yetirmək, ona əl etmək üçün, ona öz təbəssümlərini, sevinclərini bildirmək üçün. Mən bunların şahidiyəm. Bunlar təbiidir. Çünki bunlar hamısı xalqlarımız arasında olan, əsrlərdən-əsrlərə keçmiş dostluq, qardaşlıq əlaqələrinin ifadəsidir. Bunlar hamısı Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının Türkiyəyə, türk dünyasına və türk dünyasının böyük şəxsiyyəti, böyük lideri Süleyman Dəmirələ olan hörmət və ehtiramının ifadəsidir.

Respublikamız müstəqillik qazanandan sonra hörmətli Süleyman Dəmirəlin Azərbaycana göstərdiyi qayğı və diqqət haqqında, onun etdiyi yardımlar haqqında çox danışmaq olar. Bir sözlə, onu demək istəyirəm ki, o, həmişə Azərbaycan üçün doğma qardaş olubdur və öz qardaşlıq münasibətini daim ifadə edibdir, bildiribdir, göstəribdir, əməli surətdə sübut edibdir.

Hörmətli Süleyman Dəmirəlin Azərbaycanın ayrılmaz hissəsi olan, ağır bir şəraitdə yaşayan Naxçıvan Muxtar Respublikasına göstərdiyi qayğı və diqqət haqqında xüsusi olaraq danışmaq istəyirəm. Bunun çox böyük əhəmiyyəti var. Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə başlanandan Naxçıvan Muxtar Respublikası blokada şəraitinə düşmüşdür. Orada insanlar çox çətin bir vəziyyətdə yaşayırlar. Bakı ilə, Azərbaycanın başqa bölgələri ilə nəqliyyat əlaqələrinin, bütün kommunikasiya xətlərinin kəsilməsi Naxçıvan Muxtar Respublikasını, onun vətəndaşlarını çox ağır bir vəziyyətə salıbdır. Belə bir vaxtda, zamanda Türkiyə Cümhuriyyəti Azərbaycana, onun ayrılmaz hissəsi olan Naxçıvana öz kömək əlini uzatdı. [171-172] Məhz Türkiyə Cümhuriyyətinin səyi ilə Türkiyəni Azərbaycana bağlayan, Türkiyə ilə Naxçıvan arasında qısa bir müddətdə əzəmətli bir körpü tikildi. Bu körpü tikilərkən bütün Azərbaycan ona baxırdı. Xüsusən Naxçıvan Muxtar Respublikasının əhalisi ona həsrətlə, ümidlə baxırdı. Arazın o tayında da bizim qardaşlarımız, soydaşlarımız həsrətlə, ümidlə baxırdılar. Ona görə də o körpünün adı "Həsrət körpüsü", "Ümid körpüsü" oldu.

O körpü tikildi və hörmətli Süleyman Dəmirəllə danışıqlarımız nəticəsində məhz Azərbaycanın İstiqlal günü – 1992-ci ilin 28 May günündə hörmətli Süleyman Dəmirəl, onunla bərabər çoxsaylı nümayəndə heyəti, Türkiyənin nazirləri, millət vəkilləri, mətbuat nümayəndələri təyyarə ilə Naxçıvanın hava limanına endilər. Bu, Naxçıvan Muxtar Respublikasının tarixində ilk hadisə, haldır ki, ora başqa bir dövlətin başçısı bu qədər böyük tərkibli nümayəndə heyəti ilə gəlsin. Xatırlayıram, Naxçıvan Muxtar Respublikasının bütün əhalisi ayağa qalxmışdı. Hava meydanından körpüyə qədər, Arazın qırağına qədər – Türkiyəni Azərbaycana bağlayan körpüyə qədər 75 kilometrlik yolun o tərəfində də, bu tərəfində də insanlar çəpər qurmuşdular – insan çəpəri. Naxçıvan Muxtar Respublikasının bütün əhalisi o gün oraya toplaşmışdı.

Bu körpünü böyük təntənə ilə açdıq. O körpü uzun illər on illərlə Türkiyənin də, Azərbaycanın da arzusu olmuşdur. Nəhayət, bu arzu həyata keçirildi. İndi bu körpü vasitəsilə Azərbaycanla Türkiyə arasında, ərazilərimiz arasında əlaqələr yaranıbdır. İnsanlar bundan istifadə edir və çox böyük fayda götürürlər.

Naxçıvanı ağır şəraitdən çıxarmaq üçün qısa bir müddətdə Naxçıvan Muxtar Respublikasına Türkiyədən elektrik xətti çəkildi. Elektrik enerjisi yox idi. Xatirimdədir, qış günlərində türkiyəli qardaşlarımız həmin elektrik xəttini çəkərkən şaxta o qədər şiddətli idi ki, onların əlləri məftillərə yapışırdı. Ancaq onlar işləyirdilər,

çalışırdılar ki, üzərlərinə qoyulmuş bu vəzifəni layiqincə yerinə yetirsinlər. Bir bu deyil. 1992-ci ildə Naxçıvan Ermənistan tərəfindən hücuma məruz qaldı. O vaxt biz səsimizi bütün dünyaya qaldırdıq. Hörmətli Süleyman Dəmirəl oradan uca səsi ilə "Naxçıvandan əlinizi çəkin" dedi. Beynəlxalq aləm bu məsələyə qarışdı. Bundan sonra bizim sıx əlaqələrimiz oldu və Naxçıvana Türkiyədən hər cür yardımlar gəldi. [172-173]

Mən bunu xüsusi deyirəm, ona görə ki, bilirsiniz, Naxçıvan xüsusi statusa məxsusdur. Vaxtilə məhz Türkiyənin iştirakı ilə məşhur "Qars müqaviləsi" əsasında, məşhur "Moskva müqaviləsi" əsasında Naxçıvan Muxtar Respublikasına xüsusi status verilmişdir və bu statusa görə Naxçıvanın statusunda bir dəyişiklik Türkiyənin icazəsi olmadan ola bilməz. O vaxt, məhz Naxçıvan təhlükə altında olduğu zaman, Ermənistan Azərbaycana təcavüzünü şiddətli həyata keçirdiyi zaman, Naxçıvan da təhlükə altında olduğu zaman biz hörmətli Süleyman Dəmirəllə birlikdə Ankarada "Qars müqaviləsi"nin nə qədər böyük əhəmiyyətli olduğunu bütün dünyaya bəyan etdik. Hamıya xəbərdarlıq olundu ki, Naxçıvanı qoruyanlar var, Naxçıvandan əllərini çəkməlidirlər.

Bütün bunların hamısı tariximizin səhifələridir. Bütün bu proseslərdə Türkiyə Cümhuriyyətinin, xalqının və bizim əziz dostumuz, qardaşımız Süleyman Dəmirəlin xüsusi rolunu mən bu gün burada qeyd etməyi özümə borc bilirəm. Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrdə biz həmişə Türkiyənin dayağını, dəstəyini hiss etmişik. 1918-ci ildə Azərbaycanda ilk demokratik, müstəqil dövlət elan olunandan sonra, demokratik dövlət yaranandan sonra həmin ilk Azərbaycan Demokratik Respublikasına ən çox köməyi, dəstəyi Türkiyə vermişdir. Türkiyə o vaxt müstəqil Azərbaycan Respublikasını tanıdı, öz kömək əlini uzatdı.

1918-ci ilin iyun ayında Batumda hələ o vaxtkı Osmanlı imperatorluğu ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında böyük bir müqavilə imzalandı. Ondan sonra da, ilk Azərbaycan Demokratik Respublikası fəaliyyət göstərdiyi dövrdə Türkiyə daim Azərbaycana dayaq, kömək olmuş, yardım etmişdir. Bunu bizim xalqımız heç vaxt unutmayıb və unuda da bilməz. O ağır, çətin illərdə erməni silahlı qüvvələri Azərbaycanda – Bakıda, Azərbaycanın başqa bölgələrində, o cümlədən Qarabağ bölgəsində qırğınlar edirdilər. O vaxt türk qardaşlarımız yenə də bizim köməyimizə gəldilər. Türkiyə ordusunun Qafqaz korpusu gəlib həm Naxçıvanda, həm də Azərbaycanın başqa bölgələrində Azərbaycan xalqına öz torpağını, öz hüquqlarını, öz evini, obasını müdafiə etməkdə yardım göstərdi. Biz bunu heç vaxt unutmarıq. Naxçıvanda heç kəs Kazım Qarabəkir bəyi unutmur və unuda bilməz. O cümlədən Azərbaycanda da Ənvər Paşanı, Nuru Paşanı heç kəs heç vaxt unutmur və unuda bilməz. Onların simasında o [173-174] dövrdə, o çətin dövrdə Azərbaycana gəlib kömək edən türk qardaşlarımızı biz heç vaxt unutmamışıq və unuda bilmərik. İndi də bu dörd illik müstəqillik dövründə bizim bu dostluq, qardaşlıq əlaqələrimiz daha da inkişaf edib, yüksəklərə qalxıb. Artıq biz sərbəst münasibət yaratmaq imkanı əldə etmişik.

70 il ərzində bizim Türkiyə ilə əlaqələrimiz bağlı, qapalı olubdur. Biz böyük həsrətlə Türkiyəyə baxmışıq, Türkiyədə gedən prosesləri izləmişik. Çoxlarının qohum-əqrəbası orada olubdur. Orada yaşayanların qohum-əqrəbaları Azərbaycanda olubdur. Bir-birindən ayrı düşüblər. Bəziləri bəlkə də öz arzularını yerinə yetirmədən dünyasını dəyişib. Ancaq nəhayət, bütün bunlar aradan götürüldü. Sərhədlərimiz açılan kimi, Azərbaycan müstəqillik qazanan kimi xalqlarımız dərhal bir-birinə qovuşdu, bir-birinə bağlandı. 70 illik bu ayrılıq sanki heç olmamışdır. Bəzən düşünürsən ki, biz elə daim bir yerdə olmuşuq, bir yerdə yaşamışıq. Yəni daxili, mənəvi əlaqələrimiz, hissiyyatlarımız bir-biri ilə o qədər bağlıdır ki, 70 illik ayrılıq bizi heç də ayıra bilməyib və güman edirəm, bundan sonra heç vaxt ayıra bilməz. Çünki artıq Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlət kimi Azərbaycanın yeni konstitusiyası qəbul olunub. Azərbaycanda ilk demokratik parlament seçkiləri keçirilib, yeni parlament yaranıbdır. Yəni bu dörd il müddətində Azərbaycanda gedən ağır proseslər nəticəsində artıq dövlət-hakimiyyət orqanları formalaşıbdır, bərqərar olubdur, Azərbaycanı idarə etməyə və Azərbaycanın bütün ölkələrlə münasibətlərini yaratmağa qadirdir. Bu münasibətləri yaradarkən biz birinci növbədə Türkiyə ilə olan münasibətlərimizi daha da inkişaf etdirməyə çalışırıq və bundan sonra da inkişaf etdirəcəyik.

Bu gün hörmətli prezident Süleyman Dəmirəl ilə mən Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsinə həsr olunmuş birgə bəyanat imzaladıq. Bizim ölkələrimiz arasında indiyədək bir sıra sazişlər, müqavilələr, sənədlər imzalanıbdır. Biz onları həyata keçirməliyik. Ancaq bu gün birgə bəyanatı imzalayarkən bir daha təsdiq etdik ki, həm Türkiyə Cümhuriyyəti, həm də Azərbaycan Respublikası indiyə qədər imzaladıqları sazişlərə, müqavilələrə sadiqdirlər və bundan sonra da əlaqələrini inkişaf etdirməyə əzmlə çalışacaqlar.

Hörmətli Süleyman Dəmirəl! Siz Azərbaycanın bugünkü gününü gördünüz. Respublikamızın bugünkü günü Azərbay[174-175]canda demokratik hüquqi dövlət qurmaq yolu ilə getməsidir. Biz Azərbaycanı demokratiya yolu ilə aparmağa çalışırıq və bu sahədə ilk addımlarımızı atmışıq. İqtisadiyyat sahəsində bizim strateji xəttimiz Azərbaycanın iqtisadiyyatında ciddi dəyişikliklər etmək, Azərbaycanı dünya iqtisadiyyatına bağlamaq, bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdir.

Azərbaycanın böyük iqtisadi potensialı, böyük təbii sərvətləri var. Bunların hamısından səmərəli istifadə etmək üçün şübhəsiz ki, biz sınaqlardan çıxmış bazar iqtisadiyyatı yolu ilə getməliyik. Bunun üçün lazımi qanunlar, qərarlar qəbul etmişik və əməli fəaliyyətə başlamışıq. Biz Azərbaycanı bütün dünyaya açmışıq.

Qapılarımız dünyaya açıqdır. Azərbaycan azad, sərbəst ölkədir. Azərbaycan dünya birliyində öz yerini tutub, eyni zamanda dünya birliyinin fəal üzvü olmaq istəyir, dünya birliyində, dünya iqtisadi sistemində özünəməxsus yer tutmaq istəyir. Ona görə də biz qapılarımızı açmışıq ki, bizimlə əməkdaşlıq etmək istəyənlər ölkəmizə gəlsinlər. Zəngin təbii sərvətlərimizə, iqtisadi və intellektual potensialımıza görə Azərbaycana maraq artıbdır.

Məlumdur ki, bir il bundan öncə Azərbaycan Respublikasının Xəzər dənizi sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün böyük bir neft müqaviləsi bağlanıbdır. Bu, "Əsrin müqaviləsi" adlanıbdır. Bir ay bundan əvvəl – noyabrın 10-da yenə də Xəzər dənizinin Azərbaycan sektorunda böyük bir neft yatağının xarici neft şirkətləri ilə müştərək işlənməsi üçün yeni bir müqavilə imzalanıbdır. Qarşıda yeni layihələrimiz var, onları da həyata keçirəcəyik. "Əsrin müqaviləsi" proqramı üzrə ilkin neftin ixracı üçün biz çox əhəmiyyətli bir qərar qəbul etmişik. İki marşrut – həm şimala, həm qərbə doğru marşrut üzrə neft kəmərinin tikilməsi haqqında qərar qəbul etdik: Şimala Rusiyanın ərazisindən Novorossiysk limanına, qərbə Gürcüstanın ərazisindən Qara dənizdəki Supsa limanına. Bunlar da çox əhəmiyyətli addımlardır. Güman edirəm ki, bunlar öz nəticələrini verəcəkdir.

Türkiyə Cümhuriyyəti, onun şirkəti bizim böyük neft müqaviləsinin Üzvüdür. Orada Türkiyənin böyük payı var. Biz Türkiyə ilə bu sahədə əməkdaşlıq edirik və bundan sonra da edəcəyik. Güman edirəm ki, bu əməkdaşlıq iqtisadiyyatımızda qarşılıqlı surətdə faydalı olacaqdır.

İqtisadiyyatımızın digər sahələrinə də maraq göstərənlər və [175-176] onlarla tanış olmaq istəyənlər var. Biz hamını dəvət edirik. Bu gün Türkiyənin iş adamlarının böyük bir qrupu ilə aparılan söhbətlər, onların verdiyi məlumatlar onu göstərir ki, artıq Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr inkişaf edir, irəliyə gedir və bu əlaqələrin çox gözəl gələcəyi var. Bunların hamısı bizi sevindirən hallardır.

Bizi kədərləndirən, incidən, ağrıdan isə yeddi ildən artıq bir dövrdə Azərbaycana Ermənistan tərəfindən olan hərbi təcavüzdür, təcavüz nəticəsində Azərbaycan torpaqlarının işğal olunmasıdır. Torpaqlarımızın 20 faizindən çoxu işğal olunubdur. Bu torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşübdür, ağır, çıxılmaz vəziyyətdə yaşayırlar. Hörmətli qonağımız Süleyman Dəmirəllə birlikdə bu gün Bakıda qaçqınların yaşadığı bir məntəqəyə getdik. Qaçqınlarla görüşdük. Ağır, çətin vəziyyətdə yaşayırlar. Mən hətta avtomobildə gedərkən hörmətli Süleyman bəyə deyirdim ki, bilirsiniz, xalqımız indi ağır vəziyyətdədir. Biz bunları dərk edirik. İqtisadi vəziyyət çətindir. Respublikamızda sosial-iqtisadi böhran hökm sürür. Amma belə bir şəraitdə insanlarda nikbin bir əhval-ruhiyyə var. Bizim qonağımız – hörmətli Süleyman Dəmirəl və onu müşayiət edən şəxslər bu gün də, dünən də bu əhval-ruhiyyəni küçələrdə, meydanlarda, qaçqınlarla görüşlərdə gördülər.

Qaçqın olasan, evini, eşiyini, obanı, varını-yoxunu itirəsən, qohum-əqrəbanın bir hissəsini itirəsən, şəhidlər verəsən və bu cür nikbin vəziyyətdə yaşayasan – bu, məhz Azərbaycan xalqına xas olan bir xüsusiyyətdir. Məhz bizim xalqlarımıza xas olan bir xüsusiyyətdir. Amma eyni zamanda bunlar bizi məcbur edir, qarşımızda böyük vəzifə qoyur ki, biz bu vəziyyətdən çıxmalıyıq. Yəni işğal olunmuş torpaqlar azad olunmalıdır. Yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz yerinə qayıtmalıdırlar. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Müstəqil Azərbaycanın sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Bu, bizim qarşımızda duran ən böyük, ən məsuliyyətli, eyni zamanda ən çətin vəzifədir. Bu, bizim Üzərimizə düşən böyük bir məsuliyyətdir və biz bu məsuliyyətimizi hiss edirik.

Dəfələrlə demişəm, bu gün də qeyd edirəm ki, biz bu məsələləri sülh yolu ilə həll etmək istəyirik. Ona görə də 19 ay bundan əvvəl atəşkəs haqqında saziş imzalamışıq. Biz o sazişə riayət edirik, bundan sonra da riayət edəcəyik. [176-177]

Ancaq biz bu müddətdən istifadə edib məsələni həll etməliyik. Məsələ həll olunmalıdır. Məsələ sülh yolu ilə həll olunmalıdır. Biz buna nail olmalıyıq. Beynəlxalq təşkilatlar buna kömək etməlidir. Böyük dövlətlər buna kömək etməlidir. Türkiyə Cümhuriyyəti buna kömək etməlidir, dünya ictimaiyyəti buna kömək etməlidir. Çünki bizə, Azərbaycan xalqına qarşı ədalətsizlik, haqsızlıq olubdur. Azərbaycan xalqına qarşı edilən təcavüz ola bilər ki, tarixdə misli görünməmiş təcavüzdür, vəhşilik misli görünməmiş bir vəhşilikdir və buna dözmək olmaz. Biz buna dözürük. Amma dünya ictimaiyyəti dözməməlidir. Haqq, ədalət dözməməlidir. Ona görə də belə vəziyyət aradan götürülməlidir.

Biz dözümlüyük. Biz sülhsevərik. Biz müharibə istəmirik. Biz sülhsevər millətik, xalqıq. Ancaq bizim dözümümüzün də həddi-hüdudu var. Biz dözürük, dözəcəyik o vaxta qədər ki, məsələ sülh yolu ilə həll olunsun. Məsələ sülh yolu ilə həll olunmalıdır. Əgər həll olunmasa bu məsələni biz özümüz bildiyimiz kimi həll edəcəyik.

Bu ağır, çətin məsələnin, vəzifənin həll olunmasında biz Türkiyə Cümhuriyyətinin, onun rəhbərlərinin və şəxsən hörmətli dostumuz Süleyman Dəmirəlin yardımını, dəstəyini daim hiss edirik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu iki gün müddətində Azərbaycanla tanış olandan, qaçqınların o vəziyyətini görəndən, Azərbaycanın sülhsevər olduğuna bir daha inanandan sonra həm prezident Süleyman Dəmirəl, həm də Türkiyənin digər rəhbər şəxsləri və Türkiyə Cümhuriyyəti Azərbaycanın bu vəziyyətdən çıxması üçün daha təsirli addımlar atacaqlar. Biz bunu gözləyirik, buna ümid bəsləyirik.

Bu gün buraya toplaşanların hamısı böyük məhəbbət hissi ilə toplaşıblar. Çünki bu gün biz türk dünyasının bir hissəsi kimi burada bir-birimizlə görüşürük. Türk dünyası inkişafdadır. Türk dünyasının böyük

tarixi var. Bu tarix çox möhtəşəm, şanlı, çox ləyaqətli tarixdir və son illər dünyada gedən proseslərdə türk dünyası yenidən qalxmağa başlayıbdır. Türk xalqlarının əksəriyyəti müstəqillik əldə edib. Onlar öz müstəqil dövlətlərini qurublar. Özləri öz talelərinin sahibi olublar. Türkiyə Cümhuriyyəti müstəqilliyini əldə etmiş bütün bu türk-köklü, türkdilli dövlətlər, xalqlar üçün örnəkdir, təcrübə mənbəyidir. Biz bu örnəkdən, təcrübə mənbəyindən səmərəli istifadə etməyə çalışırıq. Eyni zamanda özümüzü türk dünyası[177-178]nın bir hissəsi kimi hiss edərək, türk dünyasının bundan sonra böyük gələcəyinə də ümidlər bəsləyirik. Ümid edirik ki, müstəqilliyini əldə etmiş hər bir xalq, millət daha çox inkişaf edəcək, bir-birinə qovuşacaq və bunlar hamısı tarixi keçmişimizi bir daha vərəqləyərək bizi daha da irəliyə aparacaqdır.

Bütün bunların önündə Türkiyə Cümhuriyyəti gedir. Çünki Türkiyə Cümhuriyyəti inkişaf yolunda artıq böyük bir məsafəni qət edibdir. 70 ildən çoxdur ki, cümhuriyyət yaşayır və əzəmətli bir dövlətə çevrilibdir. 50 ildən artıqdır ki, Türkiyədə demokratiya hökm sürür və dünya demokratiyasının bu gün də bir hissəsini təşkil edir. Ona görə bütün xalqlarımızın, müstəqillik əldə etmiş xalqların önündə Türkiyə Cümhuriyyəti gedir. Bu, təbiidir, biz bunu alqışlayırıq və istəyirik ki, gələcəkdə də belə olsun.

Hörmətli dostumuz, əziz qardaşımız Süleyman Dəmirəl, Azərbaycan xalqı adından bütün bunları sizə çatdıraraq bir daha sizə və sizin şəxsinizdə Türkiyə Cümhuriyyətinə, qardaş türk xalqına öz hörmət və ehtiramımızı bildiririk. Mən bütün Azərbaycan xalqı adından Türkiyə Cümhuriyyətinə, türk xalqına xoşbəxtlik, səadət arzu edirəm və Türkiyə Cümhuriyyətinin qarşısında duran bütün vəzifələrin uğurla həyata keçməsini arzu edirəm.

Əziz dostum, qardaşım, sizə cansağlığı, uzun ömür və bu yüksək vəzifənizdə yeni nailiyyətlər arzu edirəm. Sağ olun. [178-179]

## BAKIDA İLK BEYNƏLXALQ TELEFON STANSİYASININ VƏ YENİDƏN QURULMUŞ ŞƏHƏRLƏRARASI RABİTƏ STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*9 dekabr 1995-ci il*

Hörmətli prezident, əziz dostumuz, qardaşımız Süleyman Dəmirəl!

Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycanda yeni bir əlamətdar hadisənin şahidi və iştirakçısıyıq. Azərbaycan Respublikasının müstəqilliyini daha da möhkəmləndirmək, dünyaya çatdırmaq üçün rabitənin inkişafı yolunda yeni bir addım atılır. Rabitə vasitəsilə biz dünyaya öz ölkəmizdə, respublikamızda olan məlumatları çatdırırıq və rabitə vasitəsilə bütün dünya ölkələrindən, kürreyi-ərzin hər yerindən məlumatlar alırıq. Müasir dövrdə bunsuz yaşamaq mümkün deyildir. Ona görə də rabitə sahəsində görülən işlər həm iqtisadi xarakter daşıyır, həm də insanların işləməsi, çalışması üçün çox böyük şərtdir, eyni zamanda ictimai-siyasi xarakter daşıyır. Biz bunlara çox diqqət, fikir veririk.

Son vaxtlar bu sahədə bir sıra addımlar atılmışdır və bunlar hamısı Azərbaycanın rabitə potensialını inkişaf etdirir, Azərbaycanı bütün dünya ilə daha sıx bağlamağa, daha sürətlə əlaqələr yaranmasına kömək edir. Bu işlərin görülməsində Azərbaycan Respublikası Türkiyə ilə, onun şirkətləri – "Teletaş", "Netaş" və s. şirkətlərlə artıq bir neçə ildir ki, əməkdaşlıq edir. Doğrudur, bu sahədə dünyanın başqa ölkələrinin – Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının, Almaniyanın və s. şirkətləri ilə də əlaqələrimiz var. Ancaq rabitə sahəsində buraya cığırları, yolları məhz Türkiyə şirkətləri açıblar. Bu da təbiidir, çünki müstəqilliyimizi əldə edəndən sonra dünya ilə əlaqələrimizdə Türkiyə həmişə bizim yanımızda olub, bizimlə bərabər olubdur. Təbiidir ki, Azərbaycana bütün ölkələrdən tez Türkiyənin iş adamları, şirkətləri gəlib. Biz bunu məmnuniyyətlə qeyd edirik və bu günlərdə hörmətli prezident, [179-180] dostumuz Süleyman Dəmirəlin Azərbaycanda olduğu zaman bu məsələlər barəsində çox işlər görüldü, biz yeni mərhələyə çatdıq və gələcəkdə görüləsi işlərin proqramını müəyyənləşdirdik. Əminəm ki, bu proqram sürətlə həyata keçiriləcək və əlaqələrimiz genişlənəcəkdir.

Bu gün biz buraya həmin bu əməkdaşlığın, müştərək işin nəticəsi olan yeni rabitə qovşağının, rabitə stansiyasının açılması münasibətilə toplaşmışıq. Çox işlər görülübdür və bunun nəticəsində biz artıq bu yeni telefon stansiyasını açmağa gəlmişik. Çox əlamətdar, sevindirici haldır ki, bunu bizim rabitəçilər, şübhəsiz ki, Türkiyə ilə Azərbaycanın bərabər çalışan mütəxəssisləri məhz Türkiyənin prezidenti, hörmətli qonağımız Süleyman Dəmirəlin buraya gəlişi münasibətilə öz işlərini sürətləndirib bu vaxta çatdırıblar. Bu, çox rəmzi xarakter daşıyır. Yəni bizim şirkətlərimiz, ayrı-ayrı təşkilatlarımız əlaqə yaradıb iş görürlər və işlərini dövlət başçılarına nümayiş etdirmək istəyirlər. Biz, dövlət başçıları da bu işləri qiymətləndirərək, bu işlərə daha da sürət vermək üçün sizin dəvətinizi qəbul edib buraya gəlmişik və sizinlə birlikdə yeni böyük nailiyyəti məmnuniyyətlə qeyd edirik.

Mən Türkiyə şirkətlərinin Azərbaycanda indiyə qədər gördükləri işdən məmnun olduğumu bildirmək istəyirəm, bu işlərə görə onlara təşəkkür edirəm. Azərbaycanın bütün müəssisələrinin, iqtisadiyyatla məşğul olan nazirliklərin, o cümlədən Rabitə Nazirliyinin qarşısında duran vəzifəni bir də qeyd edirəm ki, biz təşəbbüskar olmalıyıq, çalışmalıyıq, bu əlaqələrin yaradılmasına bundan sonra daha da səy göstərməliyik. Müştərək işlərin görülməsi üçün daha yaxşı şərait yaratmalıyıq ki, əlaqələrimiz genişlənsin. Dünən imzaladığımız birgə bəyanatda Türkiyə ilə Azərbaycan arasında olan əlaqələrin bütün sahələrdə bundan sonra da inkişaf etməsi üçün öhdəliklər qəbul etmişik. Bunları yerinə yetirmək üçün təşkilatlarımız, şirkətlərimiz, müəssisələrimiz bundan sonra daha fəal işləməlidirlər.

Bugünkü hadisə münasibətilə sizi təbrik edirəm. Hörmətli dostumuz, qardaşımız, Türkiyənin prezidenti Süleyman Dəmirəlin bu mərasimdə iştirak etməsini çox yüksək qiymətləndirirəm, hamınıza bundan sonra da müştərək işləri davam etdirməyinizi arzu edirəm. Sizi bu hadisə münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun. [180-181]

## XALQ ARTİSTİ SƏYAVUŞ ASLANA

Hörmətli Səyavuş Aslan!

Sizi – Azərbaycanın görkəmli səhnə ustasını anadan olmağınızın 60 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz milli teatrımızın inkişafında xidmətləri ilə seçilən sənətkarlardansınız. Sizin fitri istedadınız, fədakarlığınız, məharətlə səhnədə və ekranda yaratdığınız parlaq obrazlar Azərbaycan teatrını zənginləşdirmişdir. Milli koloritli çoxsahəli yaradıcılığınız Cahangir Zeynalov, Mirzağa Əliyev, Bəşir Səfəroğlu, Lütfəli Abdullayev, Əlağa Ağayev sənətinin qüdrəti ilə yaranmış ənənələrin davam və inkişaf etdirilməsində mühüm rol oynamışdır.

Uzun illər tükənməz ilham və məhəbbətlə çalışdığınız sənət ocağında bu gün bədii rəhbər kimi fəaliyyət göstərməyiniz sizin sənətinizə verilən yüksək qiymətdir.

Hörmətli sənətkar! 60 illik yubiley gününüzdə sizə cansağlığı, xoşbəxtlik, sənət yollarında yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*11 dekabr 1995-ci il* [181-182]

**AZƏRBAYCAN KİNEMATOQRAFÇILARININ VIII QURULTAYINA**

Hörmətli qurultay nümayəndələri!

Azərbaycan kinematoqrafiyası tarixində əlamətdar gün – VIII qurultayın açılışı münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Dünya şöhrətli Azərbaycan kinosu bu gün ağır çağlarını yaşayır. Ermənistanın hərbi təcavüzünə məruz qalan ölkəmizin mədəniyyət və incəsənət işçiləri, eləcə də kinematoqrafçılarımız çətin iqtisadi şəraitdə yaşayıb-yaradırlar. Lakin taleyin bu sınaqlarına mətanətlə dözən sənət fədailəri var qüvvələrini əsirgəmir, yeni əsərlər yaradaraq mədəniyyətimizi inkişaf etdirirlər. Bu yaxınlarda kinematoqrafiyanın vətəni sayılan Fransanın Nant şəhərində Azərbaycan kinosuna retrospektiv baxışın keçirilməsi və bu beynəlxalq kinofestivalda əldə edilən nailiyyət bunu bir daha sübut edir.

Möhtərəm kinematoqrafçılar!

Əmin olmaq istəyirəm ki, sizin tükənməz ilhamınız və gərgin əməyiniz sayəsində Azərbaycan kinematoqrafiyasının sabahı daha işıqlı və parlaq olacaq, milli ənənələrimizdən bəhrələnən kino sənətimiz dünya mədəniyyətində özünə layiq yer tutacaqdır.

Bu yolda sizə yeni-yeni uğurlar arzulayıram

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 dekabr 1995-ci il* [182-183]

## AZƏRBAYCAN KİNEMATOQRAFÇILAR İTTİFAQININ YENİ SEÇİLMİŞ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*16 dekabr 1995-ci il*

Mən eşidəndə ki, siz mənimlə görüşmək istəyirsiniz, xahiş etdim ki, belə bir görüş təyin olunsun. Mən də görüşmək istəyirdim. Ancaq indi gəlmişəm, sizi dinləyirəm və fikirləşirəm, bir var ki, dərdi bilməyəsən, – onda adam rahat olur, amma bir də var ki, dərdi biləsən, ona çarə tapa bilməyəsən – bu, çox çətindir. Ona görə də sizi dinləyirəm, fikirləşirəm – bu görüşə gəlməli idim, yoxsa gəlməməli idim? Gəlməsəydim fikirləşərdim ki, dərdlərin çoxunu bilmirəm, ona görə də mən buna o qədər də cavabdeh deyiləm. Amma biləndən sonra həm özüm bu dərdi çəkirəm, həm də şübhəsiz, deyirsiniz ki, ümid bəsləyirsiniz, nəsə gözləyirsiniz – bunlar vəziyyətimi daha da çətinləşdirir.

Amma bunlara baxmayaraq, mən çox məmnunam ki, biz görüşmüşük və əgər hansı məsələləri isə həll edə bilməsək də, görüşüb bir-birimizi anlamağımızın, bizim bir adi sözümüz var – dərdləşməyin özü də insana təskinlik verir, təsəlli verir. Bir var ki, dərdin ola və onu heç kəsə deyə bilməyəsən – o, sənin içini yandıracaqdır. Amma dərdini kiməsə deyəndə yüngülləşirsən ki, dərdimi dedim, buna çarə qılınsa da, qılınmasa da dərdini demisən. Ona görə də hesab edirəm ki, görüşməyimiz çox yaxşıdır və mən sizin problemlərinizi daha da yaxından başa düşürəm.

Birinci, onu demək istəyirəm ki, bizim kinonun tarixi və əldə etdiyi nailiyyətlər milli sərvətimizdir, mədəni sərvətimizdir və bunu qorumalıyıq. Bilirəm ki, gələn il Azərbaycan kinosunun 80 illiyi, dünya kinosunun da 100 illiyi tamam olur. Ona görə də Azərbaycan kinosunun 80 illik yubileyini keçirmək üçün lazımi tədbirlər görəcəyik, yubileyi hazırlayıb keçirmək, təşkilati iş görmək üçün fərman da hazırlanıbdır, mən onu imzalayacağam. Güman edirəm ki, bu tədbirlər ətrafında biz ic[183-184]timaiyyətdə, respublikamızın vətəndaşlarında kinoya olan marağı, diqqəti daha da artıra biləcəyik və şübhəsiz ki, kinoya qayğını da artıra biləcəyik.

İkinci, Azərbaycan kinosunun 80 illik tarixi xalqımızın salnaməsidir. Çünki biz tariximizlə həmişə fəxr etmişik və eyni zamanda tariximizi qorumalıyıq. Əgər Azərbaycan xalqı Şərqdə yaşayan və keçmişdə bu sahədə Qərb ölkələrindən geridə qalmış bir xalq, millət 80 il bundan öncə kino sənətini bu müddətdə yaşadıb inkişaf etdiribsə, bu, xalqın mədəniyyətinin nə qədər zəngin olduğunu göstərir. Biz bununla fəxr etməliyik və buna əsasımız da var.

80 il müddətində Azərbaycan kinosu çox dəyərli əsərlər yaradıbdır və bunu heç vaxt unutmaq olmaz. Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir, mədəniyyətə qovuşubdur. Vaxtilə belə bir söz var idi, – bu gün bəlkə kimsə onun müəllifinə ayrı cür qiymət verir, bundan asılı deyildir, – incəsənətin bütün növlərindən bizim Üçün ən mühüm kinodur. Bu, doğrudan da çox dəyərli sözdür. Biz bunu öz həyatımızda görmüşük. Məsələn, bizim gənclik illərimizi götürək, – indi burada Tofiq Tağızadə kimi yaşlı nəslə mənsub olan adam var, mən də o cümlədən, ancaq gənclər də var, – o vaxtlar kinodan savayı bir şey yox idi, nə televiziya var idi, nə də radio o qədər təsir göstərirdi. Bizə ən çox təsir göstərən teatr idi, lakin bu da o qədər kütləvi deyildi. Əgər teatr Bakıda, başqa şəhərlərdə var idisə, teatra xüsusi getmək lazım idisə, kino belə idi ki, onu yayırdılar, aparıb kənddə də göstərirdilər.

Xatirimdədir, İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi vaxtı səyyar kino aparatları ilə kəndlərə gedib kino göstərirdilər, camaat da böyük həvəslə baxırdı. Mən özüm bunun şahidiyəm. Camaat çox ağır vəziyyətdə yaşayırdı, maddi cəhətdən indikindən də çox ağır vəziyyətdə idi, böyük bir müharibə gedirdi, insanlar qırılırdı. Eyni zamanda kino bir tərəfdən insanlarda vətənpərvərlik hissi yaradırdı, digər tərəfdən şübhəsiz ki, onların mədəniyyətdə formalaşmasına böyük təsir göstərirdi.

Ona görə də ümumiyyətlə, bəşəriyyət qarşısında kinonun xidməti böyükdür. Amma bizim xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir. Bu gün fürsətdən istifadə edib öz fikrimi demək istəyirəm ki, siz elə bir sahədə işləmisiniz və işləyirsiniz ki, doğrudan da xalqımıza böyük [184-185] xeyir gətirmisiniz. Həyatınız nə qədər çətin olsa da, – ümumiyyətlə hamımızın həyatı çətindir, – fəxr etmisiniz ki, belə bir sahənin fədakar adamlarısınız və bu ağır dövrdə də sənətinizdən uzaqlaşmamısınız, onu unutmamısınız və davam etdirirsiniz.

Azərbaycan kinosunun 80 ildə yaratdığı filmlərin hamısı dəyərlidir. Ola bilər, zaman dəyişib, bəziləri hesab edirlər ki, indi kino başqa cürdür, o vaxtkı kino ayrı cür idi. Bilirsiniz, əlbəttə ki, hər dövrün öz hökmü var. Hər dövrün hökmünə. görə də cəmiyyətin başqa cəhətləri formalaşır. Amma gəlin İkinci dünya müharibəsindən əvvəl yaranan filmləri götürək. Xalqımız onları nə qədər sevirdi! Mənim özüm gəncliyimdə

"Bakılılar", "Kəndlilər" filmlərinə nə qədər böyük həvəslə baxırdım. Yaxud, açıq danışaq, "Çapayev" filmi o vaxtlar bütün dünyanı gəzdi, bizim kimi gənclərə nə qədər böyük təsir buraxdı. Mən "Çapayev" filmini ona görə deyirəm ki, o, hər yerdə böyük rəğbətlə qəbul olunan film idi.

Azərbaycan kinematoqrafiyasının Böyük Vətən müharibəsindən əvvəl, müharibədən sonrakı illərdə, daha sonrakı dövrdə yaratdığı filmləri, məsələn, elə "Arşın mal alan" filmini götürək. Böyük Üzeyir Hacıbəyovun yaratdığı "Arşın mal alan" əsəri dahi bir əsərdir, mədəniyyətimizdə çox görkəmli yer tutmuş əsərdir. Ancaq o film çəkilməsə idi dünya "Arşın mal alan"ı da o qədər tanıya bilməzdi, Üzeyir Hacıbəyovu da, Rəşid Behbudovu da o qədər tanıya bilməzdi. Görürsünüz, bir film ilə nə qədər böyük məsələlər həll olundu. Ondan sonrakı dövrdə çəkilən, sizin özünüzün çəkdiyiniz filmləri götürək, çox gözəl filmlərdir. Məsələn, mən tariximizi əks etdirən filmlərə çox yüksək qiymət verirəm. Xatirimdədir, Mirzə Fətəli Axundov haqqında "Səbuhi" filmi çəkilmişdi. Ola bilər, bu gün bizim tənqidçilər desinlər ki, filmin burası belə, orası elədir. Amma o dövrə görə çox gözəl film yaranmışdı. Biz o filmə sevə-sevə baxırdıq, ondan özümüz üçün nəticələr çıxarırdıq.

Sonrakı dövrdə yaranmış və tariximizi əks etdirən filmlər, məsələn, "Nəsimi", yaxud da "Babək", "Dədə Qorqud", "Nizami" filmləri gözəl filmlərdir. Xatirinizdədir, burada iştirak edənlərin bəziləri ilə o vaxtlar mən dəfələrlə söhbət edirdim ki, tariximizin bir çox mərhələlərini kinoda əks etdirmək bu günümüz və gələcəyimiz üçün çox gərəkli bir işdir. Məsələn, mən dəfələrlə söhbət aparmışdım ki, İkinci dünya müharibəsi dövründə Azərbaycan neftçilərinin fəaliyyətini kinoda göstərək. [185-186] Təəssüflər olsun ki, biz bunu edə bilmədik. Amma güman edirəm ki, vaxt gələcək, bunu edəcəyik. Bu il faşizm üzərində qələbənin 50 illiyini bütün dünya qeyd etdi. Londonda da, Parisdə də, Moskvada da bütün dünya qeyd etdi. Bütün yubiley mərasimlərində – həm Londonda, həm Parisdə, həm də Moskvada keçirilən mərasimlərdə iştirak etmək mənə nəsib oldu. Qələbənin 50 illiyini qeyd etməyə dünyanın, demək olar, bütün ölkələrinin başçıları toplaşmışdı.

Mən o mərasimlərdə olarkən və oradakı nitqləri, çıxışları dinləyərkən daim düşünürdüm və bunu təkcə biz yox, çoxları da dəfələrlə qeyd ediblər ki, əgər Azərbaycanın nefti olmasaydı, bəlkə faşizm üzərində qələbə də mümkün olmazdı, bəlkə də faşizm gəlib bütün dünyanı məhv edəcəkdi. Bu qələbə Azərbaycanın böyük xidmətidir. Bilirsiniz, bu yaxınlarda mən Fransada idim, orada gərək ki, Ümumdünya Bankında söhbət edirdim, onda da dedim. Qələbənin 50 illiyi yubileyində bunu Moskvada, başqa yerlərdə də qeyd edirdilər. Amma belə deyildi ki, Azərbaycanın nefti öz-özünə çıxıb cəbhədə tankları da, təyyarələri də, avtomobilləri də doldurdu və gedib bunlarla da faşistləri məğlub etdilər. Yox, bizim insanlar, Azərbaycan xalqı gecə-gündüz çalışaraq nefti çıxarıb böyük çətinliklərlə cəbhəyə göndərirdi. Xatirinizdədir, o zaman Qafqazın şimalı artıq faşist ordusu tərəfindən zəbt olunmuşdu, dəmir yolu işləmirdi. Xəzər dənizi, yaxud Orta Asiya vasitəsilə nə qədər çətinliklə cəbhəyə neft göndərilirdi. Bunu Azərbaycan xalqı, Azərbaycan edibdir. Bu, bizim tarixi nailiyyətimizdir. Ona görə də mən çalışırdım ki, bunu kinoda əks etdirək, lakin edə bilmədik.

Bir bu deyil, tariximizin hələ çox səhifələri var ki, onları kinoya salmaq lazımdır. Məsələn, "Dədə Qorqud"un kinoya salınması tariximiz üçün nə qədər böyük hadisədir! Nə üçün? Çünki, gəlin açıq danışaq, elə özümüzün içərisində də çoxları "Dədə Qorqud"u yaxşı bilmirlər. "Dədə Qorqud"un, Azərbaycan xalqının kökünü çoxları yaxşı bilmirlər. O əsəri oxumaq, onun dili də çox adam üçün çətindir, – onu dərk etmək də çətindir. Amma kino elə bir vasitədir ki, gedib baxırsan, hər şey aydın olur.

Yaxud "Nəsimi" filmini götürün. Nəsimini çoxları tanıyırdı, şerlərini də bilirdilər. 600 illik yubileyini də keçirdik. Amma Nəsimini kinoda necə əks etdirdilərsə, insanların qəlbində, hafizəsində Nəsimi o cür qəbul olundu. Mən dəfələrlə demişəm, [186-187] Vaqif bizim böyük şəxsiyyətimizdir. Səməd Vurğun onun haqqında "Vaqif" dramını yaratdı və bu əsər milli teatrımızda tamaşaya qoyuldu. Böyük sənətkarlarımız Ələsgər Ələkbərovun, Sidqi Ruhullanın və başqalarının yaratdıqları gözəl obrazlardan sonra hamımız Vaqifi elə o cür təsəvvür edirik. Amma vaxtilə Vaqif zahirən necə olub, – bunu heç kəs bilmirdi. Çünki nə rəsmi, nə də portreti qalıbdır. Amma Səməd Vurğun əsər yaratdı, milli teatrımız, sənətkarlarımız tamaşa yaratdılar və bu, tarixdə qaldı. Ona görə də bizim tarixi mövzulara aid olan filmlər çox dəyərlidir. Ola bilər, bədii cəhətdən birinin bir, digərinin başqa çatışmazlığı var, bunlar o qədər əhəmiyyətli deyildir. Əhəmiyyətli cəhət ondan ibarətdir ki, biz tariximizi salnaməyə salmışıq, kino sənətinə salmışıq.

O cümlədən müasir həyatımızla əlaqədar mövzuları xatırlayaq. Məsələn, "Uzaq sahillərdə" filmi Azərbaycan xalqına nə qədər şöhrət gətirdi! Mən bunu bir dəfə demişəm, ancaq fürsətdən istifadə edib bir də demək istəyirəm ki, ümumiyyətlə, Mehdi Hüseynzadənin kəşf olunmasında mənim şəxsi xidmətim var. O vaxt mən DTK-da işləyirdim, 50-ci illərin əvvəlləri idi. Müharibə vaxtı kimin faşistlərə xidmət etməsi, kimin onlara satılması, kimin qəhrəman olması məsələləri ilə çox məşğul idik. Düzünü deyim, ümumiyyətlə o zaman bizim sistemin istiqaməti də bundan ibarət idi ki, düşmənlərimizə kimin kömək etdiyini axtarıb tapaq. Bu işlər gedirdi. Bunlarla məşğul olarkən təsadüfən Mehdi Hüseynzadə haqqında materiallara rast gəldim. Öncə onu belə təqdim etdilər ki, .başqaları kimi əsir düşübdür, faşistlərə xidmət edibdir. İlkin məlumatlardan Mehdi Hüseynzadə haqqında belə bir təsəvvür yarandı və bu cür materiallar da hazırlandı.

Ancaq xoşbəxtlik orasındadır ki, biz bunun dərinliyinə getdik. Ola bilər, bunu ilk dəfədir deyirəm, şəxsən mən özüm məsələnin dərinliyinə getdim. Baxdıq gördük ki, doğrudan da o, əsir düşübdür, faşistlərin

yanında xidmət edibdir. Ancaq bunun xidməti nədən ibarətdir? Bu materialları qaldırdıq. Xatirimdədir, təxminən 1956-57-ci illər idi, bunları qəbul etmək istəmirdilər. Yenə deyirəm, istiqamət ondan ibarət idi ki, düşmənləri tapaq – kim gedib legionda qulluq edib, kim faşistlərə qulluq edib. Orada kim qəhrəmanlıq göstərib – onları axtaran yox idi. Özü də düşmən arxasındakı qəhrəmanlar sonradan meydana çıxdı. Həmin o "Baharın on yeddi anı" və başqa filmlər nə vaxt çəkildi? Amma "Uzaq sahillərdə"ni biz [187-188] nə vaxt çəkdik? Görürsünüz, o vaxt biz bu materialları qaldırdıq, verdik. Olan olub, keçən keçib, bu materiallar meydana çıxanda bizim özümüzdə fikir doğdu ki, bu barədə bir oçerk yaradaq. Materialları iki-üç işçimizə verdik ki, onlar yazsınlar. Onlar bunu yazmağa başladılar, ancaq peşəkar deyildilər və bir şey alınmadı. Ona görə müraciət elədik Kommunist Partiyasının Mərkəzi Komitəsinə, Mehdi Hüseynzadə haqqında böyük bir material verdik. Müraciət etdik ki, bizə kömək etsinlər, bunu bir əsər kimi yaradaq.

Mehdi Hüseynzadənin Sovet İttifaqı Qəhrəmanı adı alması da uzun çəkdi. Bunu etmək istəmirdilər, Moskvada buna inanmırdılar. Biz bu barədə çox əziyyət çəkdik. O vaxt mən DTK-da işləyirdim. Bu materialı sonra komsomola təqdim etdik. Rəhmətlik İmran Qasımov və Həsən Seyidbəyli bu sahədə işləyən gənc adamlar idilər və materialı tez götürdülər. Biz də onlara kömək etdik, nə vardı – hamısını verdik. Onlar bunu yazdılar, sonra da film çəkildi. Tarixdən sizə bir balaca məlumat verdim.

Film çəkiləndən sonra böyük çətinliklə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. Bu ad veriləndən sonra da axırı mənə qismət oldu ki, Mehdi Hüseynzadənin xatirəsinə böyük abidə yaratdıq, xatirimdədir gərək ki, 1973-cü ildə onu təntənə ilə açdıq. Sonra da daim 9 May günlərində ziyarət etdiyimiz çox gözəl yerlərdən biri idi.

Bunlar hamısı – tariximiz, ədəbiyyatımız, kinomuz bir-biri ilə bağlıdır. Bunlar həyatımızın çox əhəmiyyətli cəhətləridir.

Bizim müasir dövrə aid filmlərin də çox böyük rolu oldu. Bilirsiniz, həm tariximizi, həm də müasir həyatımızı göstərmək lazımdır. Məsələn, "İstintaq" filmi xatirinizdədir. Sonralar bu mövzular açıldı, onlardan geniş danışıldı, bu mövzular əsasında ədəbi əsərlər yaratmağa başladılar. Amma biz 1969-cu ildən etibarən 70-ci illərdə korrupsiya ilə, rüşvətxorluqla, cürbəcür mənfi hallarla mübarizəni Azərbaycanda başladıq. Bu işlər Sovetlər İttifaqında ilk dəfə Azərbaycanda başlandı, biz bunun təşəbbüskarları olduq. O vaxtlar Sovetlər İttifaqında cəmiyyətimizin bu mənfi cəhəti ilə mübarizə məsələsini biz təşkil etdik və bunun da nəticəsi olaraq məsələn, "İstintaq" filmi yarandı. Filmin nə cür çətinliklərlə yarandığını bilirsiniz, ona mane olanlar vardı. Mən filmin yaranmasına nəinki kömək, həm də himayədarlıq etdim. Çünki o, 1969-cu ildən respublikanın rəhbəri kimi, siyasi xadim kimi apardığım siyasi [188-189] işin, xəttin kinoda əksi idi. Ona görə də filmin yaranmasına kömək etmək istəyirdim. Ancaq buna nə qədər mane olanlar vardı. Moskva da buraxmırdı. Çünki o vaxtlar Moskvada Daxili İşlər Nazirliyinin başında, – indi açıq danışmaq lazımdır, rüşvətxorlar, Şelokov və başqaları oturmuşdular. Onlar deyirdilər ki, "belə şey olmaz, siz bununla göstərirsiniz ki, bəli, bizim inzibati orqanlarda, hüquq-mühafizə orqanlarında rüşvətxorlar var. Bu, ola bilməz, doğru deyildir, belə filmi buraxmaq olmaz". Mən nə qədər mübarizə apardım.

Ancaq o film göstəriləndən sonra həm Moskvadan, həm də başqa respublikalardan mənə xeyli telefon zəngləri oldu ki, siz nə qədər cəsarətli adamlarsınız, nə qədər böyük işlər görürsünüz. O işləri biz başqa vasitələrlə göstərə bilmirdik. Bir film ilə o işləri bütün dünyaya yaydıq. Nə qədər cəsarətli adamsınız ki, siz öz içərinizdə olan mənfi halları, çürüklüyü və sairəni göstərirsiniz. Dedim ki, biz nəinki göstəririk, həm də bununla mübarizə aparırıq. Amma biz bu mübarizəni çoxdan aparırıq, film isə 1978-ci ildə çəkildi. Biz səkkiz il mübarizə aparandan sonra bu film ilə həmin mübarizəni daha da açıq gördülər.

Sizə açıq deyim, sonra yenidənqurma vaxtı Azərbaycana qarşı mənfi münasibət başlandı. Özbəkistanda da yalan-doğru bəzi şeylər meydana çıxardılar, Azərbaycana da başladılar müdaxilə etməyə. Mən o zaman Siyasi Büroda idim. Bir dəfə Siyasi Buronun iclasında Qorbaçova da dedim, Liqaçova da dedim, onlar bir az canfəşanlıq edirdilər, siz "İstintaq" filminə baxın. Moskvada işləyəndə kinematoqrafiya da Nazirlər Sovetində mənə tabe idi, ona rəhbərlik edirdim, Yermaşa göstəriş verdim ki, o filmin lentindən birini Qorbaçovun, birini də Liqaçovun bağına göndər. Çünki Siyasi Büro Üzvlərinə məxsus bağlarda kinozallar var idi, biz şəhərdə kinoya getmirdik, orada baxırdıq. Filmi göndərtdim, bir neçə gündən sonra soruşdum ki, baxdınızmı? Dedilər ki, hələ vaxt olmayıb. Dedim ki, xahiş edirəm baxasınız. Onların mühafizəçisinə göstəriş. verdim dedim ki, xatirinə sal. Xüsusən bazar günləri kinoya baxırdılar, o vaxtlar elə mən də hərdənbir bazar günü kinoya baxırdım. O filmi ikisinə də baxdırdım. Sonra dedim ki, birincisi, budur rüşvətxorluqla, korrupsiya ilə bizim mübarizəmiz, ikincisi də filmin səviyyəsi yüksəkdir. Bilirsiniz, o film ilə biz çox iş gördük.

Bir o film deyil, məsələn, xatirimdədir, "Bir cənub şəhərin[189-190]də" filmi çəkiləndə mən DTK-da işləyirdim. Bu filmin yaranması böyük hay-küy doğurmuşdu, deyirdilər ki, belə olmaz, bu bizi ləkələyir, korlayır. Rəhmətlik Cəfər Cəfərov da mənə zəng elədi ki, belə bir məsələ var, xahiş edirəm sən də baxasan, münasibət bildirəsən. Mənə də çox siqnallar, materiallar, şikayətlər gəldi ki, bu, xalqımızı ləkələyir. Xatirinizdədir, mən kinostudiyaya gəldim, filmə baxdım. O filmə də mane olurdular. Yenə də həmin Şelokovun onun qarşısını Moskvada nə üçün aldığını sizə deyim. Yadınızdadırmı, filmdə bir epizod var ki, milisionerə bir manat pul verirlər. Şelokov demişdi ki, nə təhər ola bilər, milisioner bir manat pul alır? Belə şey olmaz. Filmi

buraxmırdı. Biz filmi buraxdırdıq və hesab edirəm ki, o, bizim kinematoqrafiyanın həyatında çox böyük hadisə oldu. Sonra mən Moskvada dedim ki, Şelokovun dünyadan xəbəri yoxdur, nədir, – əgər milisdə rüşvət bir manatla qurtarsaydı, biz deyərdik ki, cənnətdə yaşayırıq.

Yəni. demək istəyirəm ki, bu filmlər çox böyük təsir bağışladı. İndi Şəfiqə xanım "Ad günü" filminin adını çəkdi, o film xatirinizdədir. O filmin yaranmasından mənim xəbərim yox idi. Bazar günü təsadüfən baxdım, gördüm ki, çox dəyərli filmdir. Amma mənə belə gəlir ki, bizim tamaşaçılar əvvəl onun mənasını o qədər də dərk edə bilməmişdilər. Xatirimdədir, bir dəfə partiya plenumunda dedim ki, o filmə baxın. Bundan sonra film dəbə düşdü. hamı ona baxmağa çalışdı. Yadımdadır Sovetlər İttifaqının İranda səfiri vardı, Vinoqradov, – o, İrandan Moskvaya gedəndə buraya gəlmişdi. Söhbət elədik, mən ona bu film haqqında danışdım. Sonra bizim qonaq evində filmi ona göstərdilər. İrana qayıdandan sonra Tehrandan xahiş etmişdi ki, filmi göndərin, burada göstərəcəyəm. Orada da göstərmişdi.

Həm tariximizə aid, həm də həyatımızın ayrı-ayrı mərhələlərini əks etdirən filmlər istər o dövr üçün, istərsə də gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edir. Bu filmlərin heç biri ölməyəcəkdir, mən sizi inandırıram, bunlar yaşayacaqdır. Həmin o "Ad günü" filmi iyirmi il bundan sonra da, otuz il sonra da yaşayacaqdır. O gün televiziya ilə bir verilişə baxırdım, deyəsən onun davamını göstərirsiniz. Artistləri tanıdım, Hacı İsmayılovu tanıdım. Amma heç dəyişməmişdir. Çox adam mənə deyir ki, dəyişməmişəm, mən baxdım, o da heç dəyişməmişdir. Çox yaxşı artistdir, yaxşı da rol oynayır.

O vaxt Anarın "Şəhərin yay günləri" pyesi də mənim çox [190-191] xoşuma gəlmişdi. Dedim ki, bir kino çəkilsin, amma o vaxt çəkmədiniz, məndən sonra çəkildi. Xatirinizdədir, pyesə baxandan sonra mən dedim ki, onu Rus Dram Teatrında tamaşaya qoysunlar, sonra da mütləq kino çəkilsin. Lakin mən filmə baxmamışam. Tofiq Tağızadə dedi ki, bir istirahət günü çay içə-içə onun çəkdiyi kinoya baxaq. Mən sizə deyim, 1993-cü ildə buraya gələndən indiyə qədər təəssüf ki, bir saat da istirahət üçün vaxt tapa bilmirəm. O vaxtlar mən burada işləyəndə, düzü, bazar günləri bəzən kinoya, xüsusən yeni filmlərə baxırdım. Moskvada da işləyəndə bazar günləri yeni filmlərə baxırdım. Amma indi vəziyyət o qədər çətin, o qədər ağırdır ki, bir gün, bir saat da istirahət yoxdur. Bu o demək deyil ki, mən sizin .filmə baxmayacağam. Sizin filminiz məni çox maraqlandırır. İndi mən həmin mövzuya – "Ölülər", Cəlil Məmmədquluzadə mövzusuna gəlirəm.

Birincisi, Cəlil Məmmədquluzadə dahi insandır. Biz onun 125 illik yubileyini keçirdik, xatirinizdədir, mən orada nitq də söylədim, o cümlədən "ölülər" əsəri haqqında da danışdım. Ancaq Cəlil Məmmədquluzadənin dahiliyi təkcə "Ölülər" əsəri ilə bitmir, onun bütün yaradıcılığındadır. Bilirsiniz, dünyada, bəşər tarixində yaradılan əsərlər adətən özündən əvvəlki əsərlərə bənzəyirlər. Məsələn, "Leyli və Məcnun" əfsanəsi əsasında nə qədər əsərlər yaranıbdır. Nizami də, Füzuli də, Əlişir Nəvai də, başqaları da yaradıblar. Xatirimdədir, bir erməni bəstəkarı balet də yazmışdı və Moskvada Böyük Teatrda tamaşaya qoyulmuşdu. "Leyli və Məcnun" əfsanəsi ilə bağlı mərhum Qara Qarayevin simfonik poeması da var.

Bəlkə də səhv edirəm, tarixdə olan müəyyən məsələləri bilmirəm, amma hesab edirəm ki, bəşər tarixində "Ölülər" kimi bir mövzuda əsər yaranmayıbdır. Bu, qeyri-adi mövzudur. Sevgi-məhəbbət, bəli, insanlar yaranandan var. Biri o birisini sevir, sevgilisinə qovuşa bilmir, biri özünü öldürür, biri "Qız qalası"ndan atır, Otello Dezdemonanı öldürür və sairə. Yaxud da ki, padşahlar haqqında, qəhrəmanlar haqqında əsərlər var, dastanlar var, amma bu cür psixoloji bir mövzu, bunun kəşf edilməsi doğrudan da Cəlil Məmmədquluzadənin nə qədər dahi adam olduğunu göstərir. Bu, əvəzsiz bir şeydir.

Mən "Ölülər" pyesinin tamaşasını ilk dəfə 13 yaşımda, Naxçıvan Dram Teatrında görmüşəm və o vaxtdan onun təsiri altındayam. Şeyx Nəsrullah, Kefli İsgəndər, Şeyx Əhməd obrazları və başqa obrazlar indi də gözümün qabağındadır. Həd[191-192]dindən artıq fəlsəfi bir əsərdir, insan fəlsəfəsinin ən yüksək zirvəsində olan əsərdir və hesab edirəm, bizim çatışmazlığımız, günahımız da bəlkə ondan ibarətdir ki, indiyə qədər bu əsəri təbliğ edə, dünyaya tanıtdıra bilməmişik. Düzdür, xatirimdədir, bu əsəri Tofiq Kazımov tamaşaya qoydu, onu da tənqid elədilər ki, əsəri bir az o tərəfə, bu tərəfə əyibdir. Sizin filminiz nə cürdür – bilmirəm, amma qulağıma çatır ki, guya Tofiq Tağızadə də əsəri bir balaca o tərəfə, bu tərəfə əyib, bunu da bilmirəm. Amma ona mütləq baxacağam. Çünki, hesab edirəm, bu bizim və bizdən sonra gələnlərin də borcudur ki, "Ölülər" əsərini dünyaya tanıdaq. Ona görə "Ölülər" əsərinə müraciətinizi çox yüksək qiymətləndirirəm, çalışacağam ki, o filmə baxım.

Görürsünüz, söhbətimiz çox alındı. O qədər mövzu var ki, bir-iki saat da danışa bilərik. Mən də bu söhbətlərdən çox məmnun oluram. Amma bilirəm ki, tarix də öz yerində, əsərlər də öz yerində, lakin sizi maraqlandıran əsas məsələ odur ki, bu gün kinematoqrafiya necə yaşamalıdır. Tarixlə sizin başınızı qatmaq olmaz. Siz də yəqin düşünürsünüz ki, Heydər Əliyev tarixdən danışır ki, fikrinizi yayındırsın.

Şübhəsiz ki, indi keçmişdəki imkanlarımız yoxdur, bunu bilmək lazımdır. O vaxt nə sizin probleminiz var idi, nə də bizim. Sizdən xahiş edirdik ki, yeni ssenarilər verin, yeni filmlər yaradın, amma heç vaxt problem yox idi ki, vəsait çatışmır. Yadımdadır, axır illər mən Azərbaycanda işləyəndə dedilər plyonka tapılmır. Köhnə plyonkaları yığıb Moskvaya göndərirdik, dəyişdirib qaytarırdılar. Sonra bəzən Şərqi Almaniyada istehsal edilən plyonkalar lazım olurdu, onu da tapırdıq. Yəni bunları edirdik, problem yox idi, meydana çıxan məsələləri həll edirdik. Amma indi böyük problemlər var. İqtisadi vəziyyətimizin ağır olması gətirib bu problemlərə

çıxarmışdır. Ona görə də mən sizə söz verim ki, qaldırdığınız məsələlərin hamısını həll edəcəyəm, – bunu deyə bilmərəm. Ancaq təkliflərinizi sonra mənə təqdim edərsiniz, bunların hamısına çox diqqətlə baxarıq və nə qədər mümkündürsə, çalışarıq o qədər kömək edək.

Kinonu, kinematoqrafiyanı, kino sənətimizi yaşatmaq lazımdır. Şübhəsiz ki, bizim kino sənətinin on illərlə yaranmış böyük bir kollektivinin dağılmasına imkan vermək olmaz. Bilirəm, burada çıxış edib dedilər ki, yaşamaq çətindir, bəziləri gedib özlərinə başqa iş axtarırlar. Bunları başa düşürəm və [192-193] heç kəsi qınamaq da mümkün deyildir. Çünki əgər hamını istənilən səviyyədə təmin etməyə imkanımız olsaydı, onda haqqımız olardı deyək ki, sən bu işə getmə, o işə get. Eyni zamanda gərək hər birimiz bu ağır dövrə dözək. İnanıram ki, bu ağır dövrün də ömrü uzun olmayacaqdır. Biz bu dövrü keçib gedəcəyik, mən gələcəyə çox nikbin baxıram. Müharibədən də çıxacağıq, görürsünüz ki, on doqquz aydır müharibə yoxdur, atəşi dayandırmışıq, .danışıqlar aparırıq. Düzdür, bu danışıqları aparmaq ağırdır. İstədiyimizə nail olmaq çətindir. Çünki torpaq əldən veriləndən sonra onu geriyə qaytarmaq çox çətindir. Əlbəttə, əgər o vaxtlar döyüşçülərimiz möhkəm dura bilsəydilər, dövlətimizin qüdrəti olsaydı, torpaqlarımızı əldən verməsəydik, indi nə danışıq ola bilərdi? Hərə öz torpağındadır. Heç bir danışıq ola bilməzdi. Torpaqlar əldən gedəndən, yəni işğal olunandan sonra isə işğalçıları oradan çıxarmaq çox çətindir, ağırdır. Amma bununla məşğuluq. İqtisadiyyatda dəyişikliklər də aparırıq və bütün imkanları axtarıb kinomuzu da saxlamağa çalışacağıq.

Hamınıza cansağlığı arzu edirəm. Bir də deyirəm, belə ağır vəziyyətdə qurultay keçirib, yeni bir tərkib seçib, yeni orqanları yaratmağın özü onu göstərir ki, siz kinonu yaşatmaq istəyirsiniz. Siz də çalışın yaşadın, biz də çalışacağıq yaşadaq. Hamınıza cansağlığı, uğurlar diləyirəm. Sağ olun. [193-194]

**AZƏRBAYCANIN XALQ ŞAİRİ**
**NƏBİ XƏZRİYƏ**

Hörmətli Nəbi Xəzri!

Sizi – müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri olan xalq şairimizi 70 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Sizin bəşəri duyğuları vəsf edən şer və poemalarınız, xalqımızın qəhrəmanlıq tarixini tərənnüm edən səhnə əsərləriniz insanlarda ruh yüksəkliyi və gələcəyə sarsılmaz inam doğurur. Tükənməz ilhamla yaratdığınız əsərlərdə həmişə mənəviyyat problemləri ön planda durmuş, yaşadığımız dövrün, zamanın nəbzi duyulmuşdur. İctimai xadim kimi fəaliyyətiniz də doğma Azərbaycanımızın azadlığı və müstəqilliyinə, xalqımızın zəngin mədəniyyətinin, sənət incilərinin bütün dünyada tanınıb şöhrət tapmasına xidmət etmişdir. İnanıram ki, müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə siz bundan sonra da oxucularınızı yeni sənət nümunələrinizlə sevindirəcəksiniz. Sizə bu yolda möhkəm cansağlığı və yaradıcılıq uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*19 dekabr 1995-ci il* [194-195]

## YAZIÇI YUSİF SƏMƏDOĞLUNA

Hörmətli Yusif Səmədoğlu!

Sizi – müasir Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan görkəmli yazıçımızı anadan olmağınızın 60 illiyi münasibətilə Ürəkdən təbrik edirəm.

Azərbaycan xalqının böyük sənətkarı ölməz Səməd Vurğunun övladı və ədəbi xələfi kimi siz bir tərəfdən klassik irsimizə istinad edən, digər tərəfdən müasir Avropa ədəbi ənənələrindən bəhrələnmiş yaradıcılığınızla milli ədəbiyyatımızda böyük iz buraxmış, oxucuların dərin hörmət və məhəbbətini qazanmısınız. Yüksək sənətkarlıq nümunəsi olan əsərlərinizi Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda belə tanıyır, böyük maraqla oxuyurlar.

Siz vətənimizin azadlığı və müstəqilliyi uğrunda göstərdiyiniz ictimai-siyasi fəaliyyətinizlə Azərbaycanda milli azadlıq hərəkatının inkişafında, demokratiyanın, insan hüquqlarının bərqərar olmasında mühüm rol oynamısınız.

İnanıram ki, fitri istedada, yüksək intellektə malik olan bir yazıçı və siyasətçi kimi müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə siz bundan sonra da öz çoxsahəli fəaliyyətinizi davam etdirəcəksiniz. Sizə bu yolda möhkəm cansağlığı və yaradıcılıq uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*19 dekabr 1995-ci il* [195-196]

## YAZIÇI YUSİF SƏMƏDOĞLUNUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*19 dekabr 1995-ci il*

Hörmətli Yusif, hörmətli xanımlar və cənablar!

Biz respublikamızın həyatında yeni bir əlamətdar hadisə münasibətilə bu axşam buraya toplaşmışıq. Yusif Səmədoğlunun 60 yaşı tamam olub və biz hamımız birlikdə bu dostluq axşamında, dostluq masası arxasında bunu qeyd etməyə gəlmişik. Bu, təbiidir. Çünki Yusif Səmədoğlu Azərbaycan ədəbiyyatında və mədəniyyətində özünə layiq görkəmli yer tutub, ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında böyük xidmətləri var və bunları qeyd etmək üçün, bunlara öz münasibətimizi bildirmək üçün biz Yusifin dəvətini qəbul edib buraya gəlmişik.

Yusif, mən səni bu yubiley münasibətilə ürəkdən təbrik edirəm. Rəsmi təbrik sözlərimi göndərdiyim məktubda ifadə etmişəm, – o burada bu gün oxundu, – və Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın yüksək mükafatı – "Şöhrət" ordeni ilə sənin təltif olunmağın haqqında fərman imzalamışam. Ancaq bunlarla bərabər, bəlkə də bunlara əlavə olaraq bir neçə kəlmə də demək istəyirəm.

Yusif Səmədoğlu bizim millətimizin xoşbəxt insanlarından biridir. Çünki o, böyük şair, böyük insan, böyük alim Səməd Vurğunun oğludur. Səməd Vurğunun övladı olmaq, onun tərbiyəsini almaq, onun ailəsində böyümək özü böyük bir nemətdir, böyük bir xoşbəxtlikdir. Bəlkə bu elə bəs olardı. Ancaq bununla yanaşı, bu kökün üstündə, bu ailə ab-havasının içində böyüyüb, ərsəyə gəlib atasının yolunu davam etdirmək və cəmiyyətdə özünəməxsus, məhz özünəməxsus yer tutmaq, – bu, böyük xoşbəxtlikdir, cəmiyyətimizin içində insan üçün, şübhəsiz ki, nemətdir.

Mərhum Səməd Vurğuna Azərbaycan xalqının hədsiz məhəbbəti, hörmət və ehtiramı məlumdur. XX əsrdə mədəniyyətimizdə, ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda Səməd [196-197] Vurğunun xidmətləri olduqca böyükdür və ona görə də xalq onu sağlığında da sevib, ona sitayiş edib. İndi artıq 40 ildir ki, o, dünyasını dəyişib, ancaq xalq nəinki onu unutmur, daim onun yaradıcılığından bəhrələnir, onun əsərlərini sevə-sevə oxuyur, onun əsərlərinin təsiri altında tərbiyələnir. Bu gün müstəqil Azərbaycanda milli azadlıq şəraitində, müstəqillik şəraitində Səməd Vurğunun əsərləri bizim hamımız üçün və xüsusən gələcək nəsil üçün, bu günün gənc nəsli üçün böyük bir sərvətdir. Ona görə də bu gün biz Yusifin yubileyini qeyd edərkən bütün Səməd Vurğun ailəsinin hamısına öz ehtiramımızı, öz hörmətimizi bildiririk.

Mən Yusifi doğmuş, dünyaya gətirmiş, bəsləmiş, böyütmüş, onu tərbiyə etmiş Xavər xanımı təbrik edirəm. Səməd Vurğunun bütün ailəsini təbrik edirəm. Şükürlər olsun ki, Səməd Vurğunun ailəsi artıq bir neçə nəsildən ibarətdir. Bu gün burada həm Yusif, həm onun balaları, həm onun nəvələri var, eləcə də Səməd Vurğunun o biri övladlarının. Bunlar hamısı Səməd Vurğunun ailəsinin böyük, geniş bir ailə kimi Azərbaycanda hörmət və ehtiram içində yaşamasını göstərir. Bu ailə mühitində, Səməd Vurğun ab-havasında yaşamış, böyümüş onun övladları Səməd Vurğuna layiqdirlər və bu gün Yusifin yubileyini qeyd edəndə güman edirəm, onun üçün ən yüksək qiymət odur ki, atasının adına layiqdir. Həm yaradıcılığı ilə, yaratdığı əsərlərlə, həm ictimai-siyasi fəaliyyəti ilə, həm də ziyalılığı ilə, davranışı ilə, insanlara münasibəti ilə atasının adına layiqdir. Güman edirəm, bu, ən yüksək qiymətdir. Bir də qeyd edirəm – atasının yolu ilə gedib, atasının ədəbi xələfi olaraq, onun işini davam etdirərək, özünü ədəbiyyata, mədəniyyətə həsr etmək böyük bir işdir, deyə bilərəm ki, böyük bir qəhrəmanlıqdır.

Yusifin yaratdığı əsərlər haqqında, onun milli ədəbiyyatımızın, mədəniyyətimizin inkişafında xidmətləri haqqında burada deyildi. Mən bunu bir daha xüsusi qeyd edirəm. Eyni zamanda Yusif atası kimi böyük ictimai-siyasi xadim olubdur. Səməd Vurğunu da biz təkcə şair kimi, alim kimi, yazıçı kimi yox, eyni zamanda böyük bir ictimai-siyasi xadim kimi həmişə xatırlayırıq və o, tariximizə belə daxil olubdur. Ən gənc yaşlarından Azərbaycanın o dövrdəki ictimai-siyasi həyatında çox böyük fəaliyyət göstərib. Keçmiş Sovetlər İttifaqı miqyasında və dünya miqyasında onun fəaliyyəti məlumdur. Xüsusən İkinci dünya müharibəsindən sonra sülh uğrunda mübarizə hə[197-198]rəkatında Səməd Vurğun beynəlxalq aləmdə çox böyük fəaliyyət göstərmişdir və bunlar hamısı eyni zamanda bizim xalqımızın adını, hörmətini daim ucaltmışdır.

Bir bu deyil, Səməd Vurğunun ictimai-siyasi fəaliyyəti çox-şaxəli olub, çoxtərəfli olubdur. Ancaq Yusif haqqında danışanda indi mən bunu qeyd edirəm, ona görə ki, Yusif də cəmiyyətimizə təkcə yazıçı kimi, mədəniyyət xadimi kimi yox, eyni zamanda görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. Azərbaycanın həyatı üçün və xüsusən son illərdə Azərbaycanda milli azadlıq hərəkatının inkişafı üçün, xalqımızda milli dirçəliş, milli oyanış hisslərinin yaranması və inkişafı üçün, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə üçün onun fəaliyyəti çox əhəmiyyətli, çox gərəkli olmuşdur. Əgər 80-ci illərin sonunda – 90-cı illərin əvvəllərində

Azərbaycanda coşub qalxmış xalq hərəkatından danışırıqsa, burada biz Yusif Səmədoğlunun fəaliyyətini xüsusi qeyd etməliyik. Bir hörmətli insan kimi, ziyalı kimi, o, həmin illərdə böyük rol oynadı və onun öz adı da, atasının adı da o vaxt bizim milli azadlıq hərəkatımıza çox böyük kömək etdi.

1990-cı ilin yanvar hadisələri xatirimdədir. O vaxt mən Azərbaycanda deyildim, Moskvada yaşayırdım. Bunu mən bir neçə dəfə demişəm. O vaxt Bakıya o böyük ordu hissələrinin, silahlı qoşun dəstələrinin daxil olmasından mən bir az gec, yəni yanvar ayının 20-də günün ikinci yarısında xəbər tutdum. Şübhəsiz ki, dərhal məlumat almağa çalışdım. O vaxt mən Azərbaycandan çox təcrid olunduğuma görə və Moskvada da çox məhdud şəraitdə yaşadığıma görə məlumat almaq çətin idi. Dərhal xarici radiostansiyaların verilişlərini dinləməyə çalışdım. Deməliyəm ki, mən ümumiyyətlə xarici radiostansiyaları o qədər də dinləyən adam deyildim, yəni buna heç vaxt sərf etməmişdim, ancaq ehtiyac məcbur etdi. O axşam yanvarın 20-də mən çox həyəcan içində idim. "Azadlıq" radiostansiyasının verilişlərini tutdum və o verilişlərdən Azərbaycanda olan vəziyyəti özüm üçün müəyyən qədər aydınlaşdırdım.

Xatirimdədir, Yusifin səsi ilə – yəni o, telefonla bəyanat vermişdi, – məlumat verdilər. O, Sovetlər İttifaqının böyük qoşun hissəsinin Bakıya girməsini "Azadlıq" radiostansiyasına telefonla nə qədər həyəcan hissi ilə bildirirdi. Qoşunların vəhşiliyindən, təcavüzkarlığından danışırdı. Mən bunları "Azadlıq" radiostansiyasından Yusifin səsi ilə özüm eşitdim. [198-199]

Güman edirəm ki, təkcə bu yox, – bu, sadəcə mənim şəxsən hiss etdiyim bir hadisədir, haldır, – ancaq Azərbaycanın o ağır dövründə, 20 yanvar faciəsi ərəfəsində və 20 yanvar faciəsi zamanı o aylarda, o illərdə Yusif Azərbaycanın milli mənliyini qorumaq sahəsində çox fədakar şəxslərdən biri idi və onun siyasi fəaliyyəti, ictimai fəaliyyəti çox olubdur.

Onun böyük siyasi fəaliyyəti də ancaq elə o illərdə, o dövrlərdə başladı və bu da məhz Azərbaycanda milli azadlıq hərəkatına təkan verməkdən, Azərbaycanı müstəqillik yolu ilə aparmağa səy göstərməkdən ibarət olmuşdur. Bunların hamısına görə də bir daha deyirəm, Yusif atasının adına layiqdir. Eyni zamanda onun özünün yüksək adı var. Bütün bunlara görə də bizim ictimaiyyətdə, xalq içində Yusif böyük hörmət qazanıbdır və şəxsən mənim də ona bir yazıçı kimi, ictimai-siyasi xadim kimi, insan kimi böyük hörmət-ehtiramım var. Səməd Vurğunun bütün ailəsinə mən həmişə böyük hörmət-ehtiramla münasibət göstərmişəm. Gənc vaxtlarımdan Səməd Vurğunun şerlərini, əsərlərini sevərək, onların təsiri altında həm təhsil almışam, həm formalaşmışam. Ona görə də onun ədəbi irsinə Azərbaycanda həmişə böyük hörmət edilməsi üçün və ondan istifadə olunması üçün bütün imkanlardan istifadə edib lazımi tədbirlərin görülməsinə çalışmışam.

Səməd Vurğunun 70 illik yubileyi də xatirimdədir. 80 illik yubileyində mən burada yox idim. Moskvada idim. Orada onu qeyd etdik. Hamısı xatirimdədir. Səməd Vurğunun ailəsi ilə mənim şəxsi görüşlərim də mənim üçün əziz xatirələrdir. Mənim şəxsən Səməd Vurğunun yaradıcılığına, onun irsinə, ailəsinə olan hörmətimə görə mən də bu ailə tərəfindən həmişə özümə hörmət hiss etmişəm.

Bir maraqlı epizodu da bu gün deməyi lazım bilirəm. 1990-cı ildə mən Moskvadan Azərbaycana gəldim. Burada yaşamaq mümkün olmadı, Naxçıvana getdim. O vaxt əgər bir tərəfdən məni təqib edirdilərsə, cəmiyyətdən təcrid edirdilərsə, mənə qarşı ədalətsizliklər edirdilərsə, ikinci tərəfdən də xalq tərəfindən, insanlar tərəfindən mən özümə daim hörmət və çox zaman məhəbbət hisslərini müşahidə edirdim. Naxçıvanda təcrid şəraitində yaşadığım zaman Azərbaycanın çox yerlərindən o blokadanı yararaq gəlib mənimlə görüşən adamları heç vaxt unutmamışam və unutmayacağam. Çünki bu, sadə bir şey deyildi. Adamlar çox gəlirdi. Gəlib sadəcə bir saat, iki saat [199-200] mənimlə görüşüb, söhbət edib, öz münasibətini bildirib geri dönürdülər – ya Bakıya, ya Gəncəyə, ya başqa şəhərlərə.

Bir gün mənim üçün tamamilə gözlənilməyən bir hadisə oldu. Qəflətən, gözlənilmədən qapı açıldı, Aybəniz xanım gəldi. Mən o vaxt Naxçıvanda həyətdə oturmuşdum. Görüşdük, söhbət etdik. Mən əvvəl bir şey anlamadım. Dedim bəlkə Aybəniz xanım kiminləsə işi, görüşü olduğu üçün Naxçıvana gəlib, yaxud da ki, başqa işi var. Fikirləşdim, bəlkə eşidib ki, mən də buradayam, gəlib ki, salam versin. Ancaq sonra məlum oldu ki, o, Bakıdan Naxçıvana təyyarə ilə qohumları ilə birlikdə bir məqsədlə gəlib: yalnız məni görüb, mənə salam vermək üçün. Bilirsiniz, yenə də deyirəm, o vaxt çox adamlar gəlirdi, ancaq belə bir görüş mənim üçün çox qiymətli oldu. Ona görə ki, o, Səməd Vurğun ailəsinin nümayəndəsidir. Bir də ona görə ki, Naxçıvan ağır şəraitdə idi, təyyarələrin gediş-gəlişi çox çətin idi. Görün, qadın gəlib yalnız ona görə ki, salam vermək istəyir. Bu məni həm çox həyəcanlandırdı, həm sevindirdi, həm də bir daha təsdiq etdi ki, yaxşı insanlar, saf ürəkli insanlar bizim cəmiyyətimizdə çoxluq təşkil edir.

Bu yaxın günlərdə mən bir nəfər mədəniyyət xadimi ilə söhbət edirdim. Keçmiş zamanları yadıma saldım. Dedim ki, axı, mən Moskvada işləyən vaxtlarda gəlirdiniz, görüşürdük, amma mən istefa verib gedəndən sonra sizi görmədim. Sonra mən Bakıya gəldim, Naxçıvanda oldum. O dedi ki, mən 88-ci ildən sonra Moskvaya gəlmədim. Dedim bəs, mən Naxçıvandaydım. O vaxtlar Aybəniz xanım da mənim yanıma gəldi. Dedi ki, bəli mənim səhvim olub. Dedim, bu, səhv deyil. Vacib deyil ki, mənim yanıma kimsə gəlsin, yaxud gəlməsin. Amma insanlar bir-birinə doğrudan da səmimi münasibət bəsləyirlərsə, bu münasibət daim olmalıdır. Əgər yaxşı şəraitdə münasibət varsa və ağır şəraitdə həmin münasibətlər qırılırsa bu, insanların yüksək keyfiyyətə malik olmadığım göstərir.

Mən bu faktı yüksək qiymətləndirdiyimə görə xatırlayıram. Ona görə xatırlayıram ki, bu, Səməd Vurğun ailəsidir. Həmin görüşdə mən Səməd Vurğunu bir daha yaxından hiss etdim. Bunların hamısı bizi bir-birimizə mehriban, sadiq olmağa dəvət edir.

Respublikamız, xalqımız ağır dövrünü yaşayır. Burada Elçin 70-ci illəri çox həyəcanla, onun sözü ilə desək, nostalgiya ilə xatırladı. Buna əsas var. Doğrudan da o illərdə 60-70-ci illərdə [200-201] ədəbiyyata, mədəniyyətə gəlmiş gözəl bir nəsil indi artıq ədəbiyyatımızın, mədəniyyətimizin aparıcı qüvvələridir: Yusif də, Anar da, Maqsud da, Elçin də, başqaları da. Ona görə də bir daha deyirəm, o illəri xatırlamağa və onun qiymətini unutmamağa əsas var. Ancaq nə qədər ağır olsa da bugünkü günümüz də bizim üçün çox qiymətlidir. Bu günlər indiyədək yaşadığımız dövrlərin bəlkə də hamısından qiymətlidir. Çünki biz indi milli azadlığa çıxmışıq, dövlət müstəqilliyini əldə etmişik, müstəqil dövlət kimi yaşayırıq. Yaşayışımız çətindir, ağırdır. Bilirəm ki, mədəniyyət xadimləri üçün də ağırdır, çətindir. Amma bunların hamısının müqabilində bizim böyük nailiyyətimiz var: Azərbaycanın dövlət müstəqilliyi. Bu, ən böyük nailiyyətdir.

Şəxsən mən istəyirəm ki, bu çətinliklərdən tez çıxaq və biz bunun üçün çalışırıq. Ancaq xatirinizə salın – böyük şairimiz Mirzə Ələkbər Sabir hansı vəziyyətdə yaşayırdı və hansı ağır ehtiyaclar içində dünyadan getdi. Yaxud böyük mütəfəkkir, yazıçı, alim Cəlil Məmmədquluzadə hansı şəraitdə yaşayırdı və həyatının son illərini hansı ehtiyaclar içərisində yaşadı, dünyadan getdi. Ancaq onların adı, yaradıcılığı, qoyduqları irs yaşayır və biz bunlarla fəxr edirik.

Bugünkü günümüz o günlərdən yaxşıdır, pis deyil. Mən bunu maddi, iqtisadi nöqteyi-nəzərdən deyirəm. Ancaq əlbəttə, istənilən kimi deyil. Xalqımızın əksəriyyəti ağır, çətin vəziyyətdə yaşayır. Ən böyük ağrımız, yaramız torpaqlarımızın bir hissəsinin işğal altında olması, bir milyondan artıq vətəndaşımızın qaçqın vəziyyətində yaşamasıdır. Ancaq bunların hamısına baxmayaraq, Azərbaycanın dövlət müstəqilliyi, ölkəmizin dünya birliyinə daxil olması, xalqımızın öz milli azadlığını əbədi olaraq əldə etməsi böyük nailiyyətdir. Bu nailiyyətlər bizdən əvvəl yaşamış nəsillərin, mütəfəkkir insanların da nailiyyətidir. Səməd Vurğun onların içərisində görkəmli yer tutur.

Bu günümüzü gələcəyə aparan ziyalılarımız, mədəniyyət, elm xadimlərimiz, xalqın qabaqcıl adamları – həm bugünkü, həm də gələcək nəsil olacaqdır. Bu adamların içərisində görkəmli yazıçılarımız, bəstəkarlarımız, alimlərimiz, rəssamlarımız, incəsənət xadimlərimiz daim qiymətli olacaq və biz əlimizdən gələni edəcəyik ki, onların yaratması, yaşaması üçün şərait yaradılsın.

Biz belə günləri yaşayırıq. Keçmişimizdə də çox əlamətdar illər, dövrlər, onilliklər var. Bu günümüz də çox xoşbəxt gün[201-202]dür. Gələcəyimiz bundan da xoşbəxt olacaqdır. Əminəm ki, ziyalılarımız gələcəyə gedəcəyimiz yolun ön sıralarında olacaqlar.

Yusif, mən səni bir daha təbrik edirəm. Sənə cansağlığı, səadət arzulayıram. Sənin həyat yoldaşın Nəmidə xanımı təbrik edirəm. Ailənizə cansağlığı, səadət arzulayıram. Burada sənin nəvəni gördüm. Bu gün bildim ki, sənin həm oğul, həm qız nəvən var və sən onları nə qədər sevirsən. Bu çox gözəl haldır. Bir söz məni bir az sarsıtdı: sən dedin ki, atan dünyadan nəvə görməmiş getdi. Sənin nəvələrin var. Allah eləsin nəticələrin də olsun, onların da davamı olsun. Səməd Vurğun nəsli yaşasın, böyüsün və xalqımıza yeni-yeni nemətlər gətirsin.

Mən Səməd Vurğun ailəsini təbrik edirəm. Sizin hamınıza – sənin qardaşına, bacına, anana, ailənin bütün üzvlərinə cansağlığı, xoşbəxtlik arzulayıram. Əminəm ki, sən və sənin qələm yoldaşların mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi daha da yüksəklərə qaldıracaqsınız. Bu yolda sənə uğurlar arzulayıram. [202-203]

**BAKIDA RƏSMİ SƏFƏRDƏ OLAN ALMANİYA FEDERATİV RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ KLAUS KİNKELİN ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ NİTQ**

*Prezident iqamətgahı*

*22 dekabr 1995-ci il*

Hörmətli cənab nazir!
Hörmətli qonaqlar, möhtərəm xanımlar və cənablar!

Sizi Azərbaycan torpağında səmimi salamlayır və dərindən məmnun olduğumu bildirirəm ki, nazir, vitse-kansler cənab Klaus Kinkel başda olmaqla Almaniya Federativ Respublikasının belə mötəbər və böyük nümayəndə heyəti müstəqil Azərbaycana gəlmişdir. Bu, Almaniya Federativ Respublikası xarici işlər nazirinin müstəqil Azərbaycan Respublikasına ilk səfəri və Almaniyadan Azərbaycana gələn ilk belə böyük nümayəndə heyətidir.

Bu səfər inandırıcı şəkildə göstərir ki, Almaniya-Azərbaycan dövlətlərarası münasibətləri inkişafdadır, Azərbaycanın və Almaniyanın münasibətlərimizin daha da inkişaf etdirilməsi prosesini sürətləndirməyə nail olmaq niyyəti əməli surətdə həyata keçirilir. Biz bunu alqışlayırıq. Hörmətli qonaqlar, sizi əmin etmək istəyirəm ki, Almaniya ilə Azərbaycan arasında bütün istiqamətlərdə münasibətlərin sürətlə inkişafını təmin etmək üçün var qüvvəmizlə səy göstərəcəyik.

Almaniya Avropanın ən böyük ölkəsidir və mədəniyyət, elm, incəsənət sahəsində zəngin ənənələrə, zəngin demokratik ənənələrə, geniş iqtisadi və intellektual potensiala malik ən böyük dünya ölkələrindən biridir. Alman xalqı bəşər tarixinə, bəşər sivilizasiyası tarixinə öz dahi nailiyyətləri ilə olduqca böyük töhfə vermişdir. Bu gün Almaniya Federativ Respublikası Yer kürəsində bütün proseslərdə mühüm rol oynayır və təbii olaraq, beynəlxalq məsələlərin həllində Almaniyanın mövqeyindən çox şey asılıdır.

Böyük faciə keçirmiş və təxminən əlli il ərzində parçalanmış olan Almaniya indi öz ərazi bütövlüyünü tamamilə bərpa etmişdir və alman xalqı qarşısında və Almaniya qarşısında du[203-204]ran vəzifələrin həyata keçirilməsi yolunda ciddi addımlar atır. Bu yaxınlarda biz alman xalqını Almaniyanın birləşməsinin beşinci ildönümü münasibətilə ürəkdən alqışlamaq və təbrik etmək imkanına malik olduq. Biz buna istər Avropada, istərsə də bütün dünyada sabitliyin çox mühüm amili kimi baxırıq. Dünyanın digər ölkələrinin xalqları kimi biz də dünya proseslərində, dünya iqtisadi inteqrasiyasında və müasir mərhələdə bəşəriyyəti narahat edən bir çox qlobal problemlərin həllində Almaniyanın yaxından iştirakına böyük ümidlə baxırıq.

Almaniya ilə Azərbaycan arasında, ölkələrimizin xalqları arasında səmimi münasibətlərin kifayət qədər sanballı tarixi var. XX əsrin hələ əvvəllərində Azərbaycan Almaniyaya böyük miqdarda neft və neft məhsulları göndərirdi və əldə olan statistik məlumata görə, o illərdə Almaniyanın neft məhsullarına və ağ neftə tələbatının 20 faizi Azərbaycandan göndərilən məhsullar hesabına ödənilirdi. Hələ əsrin əvvəllərində Almaniya şirkətləri Azərbaycanın təbii sərvətlərinə, burada birgə fəaliyyət göstərmək imkanlarına böyük maraqla yanaşırdılar və birgə fəaliyyət kifayət qədər uğurla həyata keçirilirdi.

Keçmişdə Azərbaycanda xeyli miqdarda alman əhalisi yaşayırdı. İndiyədək xalqımız Azərbaycandakı alman mədəniyyətinin və birgə yaşayışımızın birgə nişanələri olan nə varsa hamısını qayğı ilə qoruyur. Tarixə çevrilən əlli illik dövrün bütün çətinliklərinə baxmayaraq, hazırda Azərbaycanda alman millətindən olan 700-dək ailə yaşayır, bizim keçmiş əlaqələrimiz və xüsusən Almaniya ilə Azərbaycan arasında yaranmış olan xoş, dostcasına dövlətlərarası münasibətlər ölkələrimizin uğurlu əməkdaşlığı üçün və bütün istiqamətlərdə münasibətlərimizin inkişafı üçün yaxşı zəmindir.

Bildirirəm ki, biz bu əməkdaşlığı inkişaf etdirmək və möhkəmlətmək əzmindəyik və Almaniya tərəfindən Azərbaycan Respublikasına yetirilən diqqəti yüksək qiymətləndiririk. Almaniya Avropa İttifaqında, bütün beynəlxalq təşkilatlarda mühüm rol oynayır. Buna görə də indi mən minnətdarlıq hissi ilə demək istəyirəm ki, Azərbaycanla bağlı məsələlərə beynəlxalq təşkilatlarda baxılarkən, xüsusən Avropa İttifaqı tərəfindən Azərbaycana yardım göstərilməsinin mümkünlüyünə baxılarkən Almaniya müsbət mövqe tutur.

Almaniyanın töhfəsinin böyük olduğu Avropa İttifaqından Azərbaycanın aldığı yardıma görə, xüsusən bir milyon nəfər[204-205]dən çox qaçqının ərzağa olan tələbatının ödənilməsi üçün aldığı yardıma görə Almaniyaya və sizin hamınıza, əziz qonaqlarımız, ayrıca təşəkkür etmək istəyirəm. Almaniya ilə dostluq münasibətləri olan müstəqil Azərbaycan Respublikası bütün beynəlxalq təşkilatlarda Almaniyanın mövqelərini dəstəkləyir və onları ədalətli mövqelər hesab edir.

Hörmətli nazir, hörmətli qonaqlar! Biz Azərbaycanda dörd il bundan əvvəl dövlət müstəqilliyi əldə etdik və hüquqi demokratik, sivilizasiyalı dövlət qururuq, Azərbaycan üçün müstəqilliyin dörd illik yolu çox çətin və bir

çox mürəkkəb xarici və daxili siyasi proseslərlə əlaqədar gərgin olmuşdur. Lakin bizim üçün ən ağır problem Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı təcavüzdür. Bu hərbi təcavüz artıq yeddi ildir davam edir və onun nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı didərgin salınmışdır. Hazırda onlar ağır iqtisadi şəraitdə yaşayırlar.

Ötən illərdə vəziyyətimiz bir də bununla ağırlaşmışdır ki, Azərbaycanın özündə çox ciddi proseslər getmiş, dövlət çevrilişi cəhdləri olmuşdur, saysız-hesabsız silahlı qruplaşmaların və quldur dəstələrinin hərəkətləri ölkədə sabitliyi pozmuşdur. Bu isə 93-cü ildə respublikamızı vətəndaş müharibəsi təhlükəsi qarşısında qoymuşdur. Biz daxili problemləri həll etmişik və edirik. Biz Azərbaycanda siyasi sabitliyi təmin etmişik. Biz müxtəlif cinayətkar qrupların, silahlı quldur dəstələrinin fəaliyyəti ilə bağlı çətinlikləri aradan qaldırmışıq. Biz sabit vəziyyət yaranmasına nail olmuşuq. Bu isə bizə cari il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etməyə və demokratik Azərbaycan Respublikasının parlamentinə ilk seçkiləri, demokratik seçkiləri keçirməyə imkan vermişdir. Parlamentimiz artıq təşkil olunmuşdur və fəaliyyət göstərir.

Biz keçid dövrü ilə, bir sosial sistemdən digərinə keçidlə əlaqədar daxili çətinliklər keçiririk. Burada biz iqtisadiyyatı demokratikləşdirmək, bazar islahatları aparmaq üçün qəti mövqe tutmuşuq və bu yolla da gedirik. Lakin bu, təbii olaraq, iqtisadiyyatda böhran halları da yaradır. Biz bütün bu çətinlikləri dəf edirik, onlara baxmayaraq, Azərbaycanın müstəqilliyi və suverenliyi mövqelərində, respublikamızda bütün sahələrdə demokratiyanın inkişaf etdirilməsi, Azərbaycan iqtisadiyyatı[205-206]nın dünya iqtisadiyyatı ilə birləşdirilməsi mövqelərində möhkəm dururuq.

Qarşımızda Ermənistanın hərbi təcavüzündən xilas olmaq və Azərbaycanın ərazi bütövlüyünü, respublikamızın tam suverenliyini təmin etmək vəzifəsi durur. Biz həm də sülhsevər mövqe, konstruktiv mövqe tutmuşuq. Biz müharibə istəmirik, biz sülh istəyirik. Biz bütün qonşu dövlətlərlə, o cümlədən də Ermənistanla mehriban qonşuluq istəyirik. Biz Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli mövqelərində durmuşuq. Biz əməli addımlar atırıq, güzəştlərə gedirik. 1994-cü il mayın 12-də, 19 ay bundan əvvəl biz Ermənistanla barışıq haqqında, atəşkəs haqqında saziş imzalamışıq və artıq 19 aydır ki, atəşkəs rejiminə əməl edirik, müvəqqəti barışıq şəraitində yaşayırıq. Biz hərbi əməliyyatlara yenidən bağlanılmasını istəmirik, biz vəziyyətin dincliklə nizamlanmasını istəyirik və ATƏT-in Minsk qrupunun fəaliyyətinə, dünya birliyinin köməyinə və həyanlığına, dünyanın iri dövlətlərinin köməyinə və həyanlığına böyük ümidlər bəsləyirik.

Almaniya ATƏT-in Minsk qrupunda fəal iştirak edir və Almaniyanın Minsk qrupundakı nümayəndəsi, səfir cənab Lambax bizim problemlərimizlə yaxından məşğul olur. Lakin ümidvaram ki, Almaniyanın federal xarici işlər nazirinin özü Ermənistanda da olduqdan, Azərbaycanda da olduqdan və bölgəmizdə vəziyyəti öyrəndikdən sonra problemimizin dincliklə tənzimlənməsi, ədalətlə tənzimlənməsi üçün Almaniya tərəfindən səylər artacaqdır.

Mən biznesmenlərin, Almaniya Federativ Respublikası parlamenti üzvlərinin, dövlət orqanlarının digər nümayəndələrinin böyük bir qrupunun Azərbaycana gəlməsini alqışlayıram və buna Almaniya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi imkanlarına diqqət yetirilməsi kimi baxıram.

Azərbaycan böyük təbii ehtiyatlara, iri sənaye potensialına, iqtisadi potensiala, intellektual potensiala malikdir və ölkəmiz xarici firmalarla əməkdaşlıq üçün açıqdır, gələcəkdə birgə iqtisadi fəaliyyət üçün açıqdır. Mən Almaniyanın işgüzar dünyasının nümayəndələrini, Almaniyanın maliyyə mərkəzlərinin, bank mərkəzlərinin nümayəndələrini Azərbaycanla əməkdaşlığa dəvət edir və əmin edirəm ki, sərmayələr qoyulması [206-207] üçün, fəal əməkdaşlıq üçün hər cür əlverişli şərait yaradılacaqdır.

Biz alman xalqının uğurlarına, Almaniya Federativ Respublikasının uğurlarına sevinirik, bilirik ki, Almaniya elmi-texniki tərəqqinin, mədəniyyətin yüksək səviyyəsinə nail olmuşdur və təbii olaraq, iqtisadiyyatda yüksək inkişaf sürətinə malikdir. Ölkədə vətəndaşların firavan həyatı üçün çox əlverişli şərait yaradılmışdır. Ümid edirik, şəxsən mən ümid edirəm ki, Almaniya öz imkanlarından istifadə edərək, müstəqil inkişaf yoluna qədəm qoymuş və bununla da demokratiya yolu ilə, bazar islahatları yolu ilə gedən gənc dövlətlərə daha fəal kömək göstərəcəkdir. Biz fəal əməkdaşlığa ümid bəsləyirik. Biz Almaniya tərəfindən fəal köməyə və həyanlığa ümid bəsləyirik.

Almaniya Federativ Respublikasının şərəfinə, alman xalqının şərəfinə, Almaniyanın daha da tərəqqisi şərəfinə, Almaniyanın federal kansleri cənab Helmut Kolun şərəfinə, Almaniyanın prezidenti cənab Roman Hersoqun şərəfinə, Almaniyanın xarici işlər naziri, vitse-kansleri cənab Klaus Kinkelin şərəfinə, hörmətli qonaqlarımızın şərəfinə, hörmətli qonaqlarımız sizin sağlığınıza. [207-208]

## BAKI MƏİŞƏT KONDİSİONERLƏRİ ZAVODUNUN ƏMƏK KOLLEKTİVİNƏ

Əziz dostlar!

Bakı məişət kondisionerləri zavodunun tikilib istifadəyə verilməsinin 20 illiyi münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm.

Dünya miqyasında tanınan bu müəssisənin və onun əmək kollektivinin müstəqil Azərbaycanımızın sənayesinin inkişafında layiqli yeri vardır. Qısa vaxt ərzində – cəmi iki ilə tikilib istifadəyə verilən Bakı məişət kondisionerləri zavodu tezliklə keyfiyyətli məhsul istehsalına görə dünyanın ən qabaqcıl müəssisələrinin sırasına qoşuldu.

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra da siz respublikamızın sənaye potensialını inkişaf etdirmək üçün səylə işləyirsiniz. Kollektivdəki sağlam işgüzar mühit, yüksək peşəkarlıq, öz müəssisəsinə görə qürur hissi keçirmək, vətənpərvərlik və dostluq ənənələri bu gün də yaşayır, inkişaf edir.

Əmin olduğumu bildirmək istəyirəm ki, bundan sonra da Bakı məişət kondisionerləri zavodunun və onun əsasında yaradılmış "Bakı kondisioneri" Elm-İstehsalat Birliyinə daxil olan digər müəssisələrin kollektivləri keyfiyyətli məişət cihazlarının istehsalını genişləndirəcək. Azərbaycanda istehsal olunan maşınqayırma məhsullarının dünya bazarlarında layiqli yer tutmasında mühüm rol oynayacaq.

Yubileyiniz münasibətilə bir daha hamınıza səmimi arzularımı bildirir, sizə xoşbəxtlik, cansağlığı və suveren Azərbaycanın rifahı naminə şərəfli işinizdə uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 dekabr 1995-ci il* [208-209]

## BAKI MƏİŞƏT KONDİSİONERLƏRİ ZAVODUNUN 20 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MİTİNQDƏ ÇIXIŞ

*"Bakı Kondisioneri" Elm-istehsalat birliyi*

*25 dekabr 1995-ci il*

Əziz dostlar!
Hörmətli xanımlar, cənablar!

Bu gün Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın həyatında, onun tarixində əlamətdar bir gündür. Azərbaycanın iri sənaye müəssisələrindən biri olan Bakı məişət kondisionerləri zavodunun işə başlamasından 20 il keçir.

Ölkəmizin sənayesində, iqtisadiyyatında, həyatında özünəməxsus yer tutmuş Bakı kondisionerlər zavodu 20 ildir ki, Azərbaycanın şan-şöhrətini dünya ölkələrinə çatdırır və respublikamızın hörmətini daim qaldırır. Bu yubiley münasibətilə mən sizi ürəkdən təbrik edirəm, zavodun kollektivinə yeni uğurlar diləyirəm, hər birinizə səadət və cansağlığı arzulayıram.

20 il az vaxt deyil. Mən bu gün 20 il bundan əvvəl, dekabrın 25-də Bakı kondisionerlər zavodunun açılması münasibətilə zavodun önündəki meydanda keçirilən böyük izdihamlı mitinqi xatırlayıram. O, Azərbaycan xalqı üçün bayram günü idi. Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin nümayəndələri bu meydana toplaşmışdı, xarici ölkələrdən də qonaqlar gəlmişdi və biz hamımız birlikdə Azərbaycanın həyatında doğulmuş, işə başlayan yeni böyük sənaye müəssisəsinin açılışını təntənəli surətdə qeyd edirdik. Həmin o gün mən mitinq iştirakçılarının qarşısında çıxış edərkən zavodun yaranması tarixi haqqında bəzi fikirlərimi söylədim. Zavodun gələcəyi haqqında da öz arzu və istəklərimi bildirdim. Tam əmin olduğumu bildirdim ki, bu zavod, bu kollektiv Azərbaycan iqtisadiyyatının, sənayesinin aparıcı bir qüvvəsi olacaq, ölkəmizdə elmi-texniki tərəqqinin inkişafına yeni yollar açacaq və böyük təsir göstərəcəkdir. Bu gün, 20 ildən sonra mən böyük iftixar hissi ilə [209-210] deyirəm ki, bizim o ümidlərimiz, arzularımız çin oldu, yerinə yetdi. Doğrudan da bu böyük istehsal müəssisəsinin kollektivi 20 il müddətində hər il ardıcıl surətdə, dalbadal yeni-yeni nailiyyətlər əldə etdi və Azərbaycan iqtisadiyyatının inkişafına öz xidmətlərini göstərdi, Azərbaycan vətəndaşlarının böyük bir qisminin rifahının yüksəlməsinə çox xidmətlər etdi. Bunlar böyük nailiyyətdir.

Əgər biz 20 il bundan əvvəl bu nəhəng, müasir tipli, elmi-texniki tərəqqinin zirvəsində durmuş istehsal müəssisəsinin yaranmasına sevinirdiksə, bu gün bu müəssisənin, bu kollektivin, həmvətənlərimizin – mühəndislərin, texniklərin, mütəxəssislərin, fəhlələrin, zavodun bütün əməkçilərinin, onun ətrafında olan bütün təşkilatların hamısının 20 ildə əldə etdiyi nailiyyətlərlə fəxr edirik. Əziz dostlar, mən sizi bu nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

XX əsrin əvvəlindən Azərbaycan dünyada bir sənaye ölkəsi kimi tanınmışdır, keçmişdə Rusiyanın, sonralar isə Sovetlər İttifaqının böyük sənaye mərkəzlərindən biri idi. Azərbaycanda böyük sənaye müəssisələri yaranmışdır, inkişaf etmişdir, fəaliyyət göstərmişdir. Ancaq 60-70-ci illərdə Azərbaycanın müasir elmi-texniki nailiyyətlərə uyğun olan yeni istehsal müəssisələrinə ehtiyacı var idi. Elmi-texniki tərəqqi iqtisadiyyatı daim irəli aparan, inkişaf etdirən böyük bir qüvvə olmuşdur. O illərdə cəmiyyətimizdə, ölkəmizdə elmi-texniki tərəqqinin inkişaf etdirilməsi üçün çox tədbirlər görülürdü. Biz də Vətənimizin, Azərbaycanın dünya elmi-texniki səviyyəsindən geridə qalmamasına çalışırdıq, hətta elmi-texniki tərəqqinin önündə getməsini istəyirdik. Ona görə də çox tədbirlər görürdük. Bu tədbirlər sırasında Azərbaycanda maşınqayırma kompleksinin inkişaf etdirilməsi, genişləndirilməsi qarşımızda duran əsas vəzifələrdən biri idi.

Azərbaycan sənaye mərkəzi olaraq, eyni zamanda böyük maşınqayırma sənayesinin mərkəzlərindən biri idi. Ancaq 60-70-ci illərə qədər Azərbaycanda maşınqayırma birtərəfli inkişaf etmişdi. Neft istehsalı ilə məşğul olduğuna görə Azərbaycanda maşınqayırma kompleksi yalnız neft sənayesi ilə əlaqədar cihazlar, maşınlar istehsal edən zavodlardan, müəssisələrdən ibarət olmuşdur. Ancaq o dövrdə, o zaman biz yeni istehsal sahələrinin yaradılması ideyasını irəli sürdük və bu qəbildən olan elektrotexnika, radiotexnika, elektronika, mikroe[210-211]lektronika, cihazqayırma müəssisələri xüsusi əhəmiyyət kəsb etdi.

Azərbaycanda o illərdə bu sahələr çox az inkişaf etmişdi. Biz bu sahələri inkişaf etdirmək istəyirdik. 20 il keçəndən sonra indi biz özümüz üçün tam aydın dərk etdik və belə bir nəticəyə gəldik ki, elmi-texniki tərəqqi yalnız maşınqayırmanın bu sahələrinin inkişafı ilə bağlıdır və bunun nəticəsində inkişaf edə bilər. Ona görə də biz belə müəssisələr yaratmaq istəyirdik. Bu gün mən böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, məhz o illərdə – 70-80-ci illərdə Azərbaycanda maşınqayırmanın qabaqcıl, müasir sahələri inkişaf etdi. Biz yeni-yeni istehsal müəssisələri, zavodlar yaratdıq. Bunlar hamısı xalqımızın elmi-texniki səviyyəsini yüksəklərə qaldırdı. Yüksək səviyyəli mütəxəssislər-mühəndislər, texniklər, fəhlələr hazırlandı və bunların da hamısı indi

Azərbaycanın böyük sənaye, elmi-texniki potensialını təşkil edir.

Bakı kondisionerlər zavodu bu sahədə xüsusi yer tutur. Məhz bu zavodu yaradaraq biz Azərbaycanda çox böyük problemləri həll etdik: elmi-texniki tərəqqini inkişaf etdirməyə, müasir elmi-texniki səviyyədə mütəxəssislər, yeni kadrlar hazırlamağa, elmimizi, texnikamızı geniş inkişaf etdirməyə nail olduq. Tək bu zavodun mütəxəssisləri, rəhbərləri, mühəndisləri yox, bu zavodda böyümüş, ərsəyə gəlmiş, Azərbaycanın başqa istehsal müəssisələrində müvəffəqiyyətlə fəaliyyət göstərən mütəxəssislərimiz məhz bu işlərin nəticəsində meydana gəldilər. Ona görə də bu zavodun yaranması və 20 il müddətində fəaliyyət göstərməsi təkcə bir istehsal müəssisəsinin yaradılması və müəyyən bir məhsulun istehsal edilməsi demək deyil. Bu çox geniş əhəmiyyətli tarixi bir hadisədir. Biz bunun müsbət nəticələrini artıq görürük.

Bu gün mən bu zavodun yaranması tarixini da açmaq istəyirəm. Bunu bəziləri bilir, bəziləri isə bilmirlər. İndi belə bir böyük zavod var. Biz bununla fəxr edirik. Bu 20 il müddətində Azərbaycana ziyarətə gələn qonaqlar, dostlar bu zavodu görərkən, kollektiv ilə görüşərkən, danışarkən Azərbaycan xalqının nə qədər yüksək səviyyələrə qalxmasını müşahidə ediblər. Şübhəsiz ki, bu, xalqımızın ləyaqətini, səviyyəsini göstərib. Ancaq belə bir zavod yaratmaq o illər çox çətin bir hal idi.

Bilirsiniz, mən sizə çatdırmalıyam ki, 60-ci illərin sonunda, 70-ci illərin əvvəlində mən Azərbaycanda müasir tipli maşın[211-212]qayırma zavodlarının yaradılması haqqında məsələlər irəli sürərkən – bu məsələlər o vaxtlar Moskvada, Sovet İttifaqının rəhbərliyində həll olunurdu – Azərbaycana inam olmadığını müşahidə edirdim. Təkliflərimi qiymətləndirirdilər, mənə çox hörmətlə münasibət göstərirdilər. Ancaq mənə daim sübut etmək istəyirdilər ki, sizin respublikanın kadrları, mütəxəssisləri bu cür müəssisələrdən istifadə etməyə hazır deyillər, çünki keçən illərdə belə təşəbbüslər olub, ancaq belə zavodların tikilməsi, başa çatması çox gecikdirilib, yaxud da ki, çox səviyyəsiz olub. Ona görə də Sovetlər İttifaqının mərkəzi planlaşdırma orqanlarında, yüksək səviyyələrdə Azərbaycan haqqında, respublikamızın kadrları, elmi-texniki səviyyəsi barədə belə fikir var idi ki, biz geridə qalmış millətik, respublikayıq və belə müəssisələrin yaradılıb istifadə olunması səviyyəsinə gəlib çatmaq üçün bizə hələ çox vaxt lazımdır.

Mənim qarşımda çox ağır və çətin bir vəzifə dururdu. Mən bir tərəfdən sübut etməliydim ki, Azərbaycan xalqı yüksək səviyyəyə qalxmış bir xalqdır. Azərbaycanın kadrları, mütəxəssisləri, mühəndisləri müasir səviyyədədirlər və bizə inanmaq lazımdır. İkinci tərəfdən, mən bu bəyanatlarımı həyata keçirməli idim. Nəhayət, mənə və mənim sözlərimə olan inam Azərbaycanda bu tipli müəssisələrin yaranması üçün yol açdı. Biz bunu birinci növbədə Bakı kondisionerlər zavodunun tikilib başa çatdırılması ilə sübut etdik. Biz bu zavodu iki il müddətində yaratdıq və bütün dünyaya bəyan etdik. Mən 1975-ci ilin dekabrında Moskvaya, bütün dünyaya bəyan etdim ki, Azərbaycan xalqı nəyə qadirdir və necə böyük imkanları var.

Ancaq o günə qədər çətin bir yol keçildi. 1972-ci ildə mən hiss etdim ki, Sovetlər İttifaqında belə bir zavodun tikilməsi planlaşdırılır. O vaxt Sovetlər İttifaqının məişət kondisionerlərinə böyük tələbatı, ehtiyacı var idi. Deyə bilərəm ki, o vaxt təkcə Sovetlər İttifaqında yox, bütün Yaxın Şərqdə, yəni bizi əhatə edən başqa ölkələrin heç birində bu cür məhsul, cihaz istehsal edən zavod yox idi. Belə bir məlumatı alandan sonra mən bu zavodun Azərbaycanda tikilməsi haqqında təklif irəli sürdüm. Mənim təklifimə müxtəlif mərhələlərdə baxıldı, ancaq həmin o inamın olmadığına görə bütün mərhələlərdə mənə izah etdilər ki, siz bunun öhdəsindən gələ bilməzsiniz, bunu tikə bilməzsiniz. Əgər bu zavodu tiksəniz də, siz onu istismar edə, işlədə bilməzsiniz. Mən isə, əksinə, sübut edirdim [212-213] ki, bunlar yanlış fikirdir. Biz buna qadirik, biz bunu edə bilərik. Ancaq bunlar tək mənim sözlərim idi.

Əks qüvvələr çox idi. Bir tərəfdən inanmırdılar, ikinci tərəfdən də, mən sizə bu gün açıq deyirəm, o vaxt mərkəzdə olan bəzi dairələr belə nəhəng müəssisələrin Azərbaycanda yerləşməsini istəmirdilər. Çünki onlar bizim respublikamızı elə daim geridə qalmış respublika kimi saxlamaq istəyirdilər. Bax, bütün maneələri, çəpərləri yarıb keçmək lazım idi və mən mübarizə aparırdım. Bir il mübarizə apardım. Nəhayət – bu həqiqəti bu gün deməliyəm – yalnız o vaxt Sovetlər İttifaqının rəhbəri olan Leonid Brejnevlə mənim bir neçə dəfə bu barədə danışıqlarım nəticəsində belə bir zavodun Bakıda tikilməsi haqqında qərar qəbul edildi.

Ancaq bundan sonra da buna mane olmaq istədilər. Qərar qəbul olundu, bu zavodu layihələşdirmək lazım idi, amma layihələşdirmək istəmirdilər. Bu nazirlik o nazirliyin üstünə, o nazirlik bu nazirliyin üstünə atırdı. Bu zavodu tikmək üçün Sovetlər İttifaqında texnologiya yox idi, bunu xaricdən – yəni ya Amerikadan, ya Almaniyadan, ya İtaliyadan, ya da Yaponiyadan almaq lazım idi. İzah edirdilər ki, bu çox bahadır, çox valyuta tələb edir, bizim bu qədər valyutamız yoxdur, bunu almaq mümkün deyil. Mən bunların hamısını, bu etirazları ardıcıl surətdə dəf edə-edə nəhayət, bu zavodun tikilməsi haqqında müəyyən əlavə qərarların qəbul edilməsinə nail oldum. Ən nəhayət, zavodun tikilməsi üçün 25 milyon dollar valyuta ayrılması haqqında Moskvada qərar qəbul olundu. Sonra eşitdim ki, Sovetlər İttifaqının Elektrotexnika Sənayesi Nazirliyi, bizim hörmətli dostumuz Aleksey Antonov qərar çıxarıb ki, bu zavod Bakıda yox, Ukraynanın Zaporojye şəhərində tikilsin. Bunu biləndə dəhşətə gəldim. Mən xeyli vaxt idi mübarizə aparıram, bu zavodun tikilməsi haqqında qərarlar çıxarmışam. İndi isə bu zavodu Ukraynada tikmək istəyirlər. Mən onunla mübahisəyə girdim ki, siz bunu nə üçün edirsiniz? Yenə də həmin sözləri eşitdim: siz bunu bacarmazsınız. Elektrotexnika Sənayesi Nazirliyinin Azərbaycanda bir-iki zavodu var və onlar yaxşı işləmir. Ona görə də bu zavod da o günə düşəcəkdir.

Dedim ki, yox, düz demirsən. Sonra o dedi ki, Zaporojyedə buna bənzər bir zavodumuz var, bunu onun yanında tikəcəyik və onu istismar etmək daha asan olacaqdır. Dedim, doğru demirsən. Mübahisəmiz nəticə vermədi. Mən yenə də Nazirlər [213-214] Sovetinin sədri Kosiginin və Sovetlər İttifaqının rəhbəri Brejnevin yanına getməli oldum. Getdim, sübut etdim.

Bu zavodun Zaporojyedə tikilməsi haqqında artıq qərar qəbul edilmişdi. Brejnevin göstərişi ilə həmin qərar ləğv edildi və yeni qərar qəbul olundu ki, bu zavod yalnız Azərbaycanda, Bakıda tikilsin.

Siz bunları bilməlisiniz, bunlar tarixdir. O vaxt mərhum Brejnev məndən soruşdu: bilirsiniz vaxt keçib, ancaq lazımdır ki, bu zavodun tikintisi 1975-ci ildə başa çatdırılsın, siz bunu təmin edə biləcəksinizmi? Bu söhbət 1973-cü ildə gedirdi. Mən ona dedim ki, Sovetlər İttifaqının heç bir yerində bu zavodu 1975-ci ildə tikib təhvil verə bilməyəcəklər. Ancaq biz verəcəyik və mən buna söz verirəm.

Bundan sonra yenə də maneələr başlandı. Bu maneələr nədən ibarət idi? Bu avadanlığı almaq üçün xarici ölkələrin firmaları ilə danışıqlar aparılırdı. Bilirsiniz ki, buradakı avadanlığın hamısı xaricdən, Yaponiyadan alınıbdır. O vaxt Amerikanın, Almaniyanın, İtaliyanın, Yaponiyanın firmaları ilə danışıqlar gedirdi. Biri 150 milyon dollar, biri 140 milyon dollar, biri 130 milyon dollar istəmişdi. Amma qəbul edilən qərarda cəmi 25 milyon dollar vəsait ayrılmışdı. Mənə dedilər ki, bilirsiniz, 25 milyon dollar ayrılıb, amma bunu 120 milyon dollardan aşağı qiymətə almaq mümkün deyil. Ona görə də bu zavodu tikmək mümkün deyil.

Dedim ki, gedin, sübut edin, ölkənin rəhbərlərinə deyin ki, bu həcmdə valyuta çatmır, 120 milyon dollar lazımdır. Dedilər ki, biz bunu edə bilmərik. Çünki qəbul edilmiş qərarı dəyişdirmək olmaz. Bu vəzifə yenə də mənim üzərimə düşdü. Mən bunun üçün Moskvaya, mərhum Brejnevin yanına getdim. Ona dedim ki, sizin göstərişləriniz yerinə yetirilmir. Təəccüb etdi ki, nə üçün? Dedim, qərar çıxartdınız, göstəriş verdiniz, amma yerinə yetirmirlər. Səbəb də budur: 25 milyon dollar ayırmısınız, mənə deyirlər ki, 100 milyon dollar lazımdır. Məndə isə bir dollar da yoxdur, bunu siz verməlisiniz. Ona görə də qərarı dəyişməlisiniz. Dəhşətə gəldi. Dedi, bəs, belə də şey olarmı, biz bu məsələni həll etmişik. Onun göstərişi ilə bir günün içərisində, 1973-cü ildə bu avadanlığı Yaponiyanın "Toşiba" firmasından almaq üçün valyuta ayrıldı. Bundan sonra işlər hərəkətə gəldi. Mən isə bir daha söz verdim ki, iki il içərisində, 1975-ci ilin dekabr ayında bu zavod tikilib başa çatacaqdır.

Doğrusu, üzərimə böyük öhdəlik götürdüm. Belə bir zavodu [214-215] tarixdə heç bir ölkədə iki ilə tikməyiblər. Nəhayət, 1975-ci ildə, həmin bu gün – dekabrın 25-də biz bu zavodun açılışını bayram edərək "Toşiba" firmasının prezidenti, indi mərhum cənab Doko Tokiodan birbaşa Bakıya gəldi. O gəldi, mitinqdən sonra bu zavoda baxdı, təəccübləndi. Dedi ki, bizim firmanın 100 yaşı var. Dünyanın bir çox ölkələrində böyük-böyük zavodlar tikmişik. Ancaq heç bir ölkədə, hətta Yaponiyada da iki il müddətində belə bir zavod tikməmişik. O təəccübləndi. Mənə dedi ki, gəlin, sizinlə yeni bir zavod da tikək. Dedim ki, mən çox məmnun olaram. Ancaq mənim pulum yoxdur. Əgər Moskva pul versə, birini də tikə bilərik.

Beləliklə, mən bu öhdəliyi üzərimə götürdüm. Azərbaycanın inşaatçıları, mühəndisləri, fəhlələri bu öhdəliyi çox ləyaqətlə yerinə yetirdilər. Doğrudur, mən buna bilavasitə rəhbərlik edirdim. Hər dəfə tikintinin gedişinə baxırdım. Vaxtaşırı burada olurdum. Bu obyekt insanları çox səfərbər etmişdi. Bu zavodun tikilməsinə bütün başqa təşkilatlar cəlb olunmuşdu. Biz bunu iki ilə tikdik və istifadəyə verdik.

Nə qədər ki, bunun tikilməsinə inanmırdılar, zavod tikilib istifadəyə veriləndən sonra da o qədər inanmırdılar, ona görə də mən inanmayan hər bir adamı buraya dəvət edirdim ki, gəlin baxın, görün. Hər dəfə də gəlib, baxıb görəndən sonra heyran olurdular ki, nə cür ola bilər iki il müddətində belə bir zavod tikilsin. Ancaq iş təkcə tikməkdə deyil, bunu saxlamaq, işlətmək lazım idi. Bunun üçün biz kadrlar yetişdirdik. İki il müddətində bu zavodu tikərkən onun üçün eyni zamanda həm Yaponiyada, həm də keçmiş Sovet İttifaqının şəhərlərində yüksək səviyyəli mütəxəssislər hazırladıq. Zavod tikilib hazır olanda artıq hər bir sexin öz rəisi var idi, hər bir sexin mütəxəssisi var idi. Biz zavodu gəzdik, bütün sexlərdə olduq, hər bir sex rəisi ilə görüşdük, hər bir nöqtəyə baxdıq. Bu zavod Azərbaycanda bütün proseslərin avtomatlaşdırıldığı, mexanikləşdirildiyi ən yüksək səviyyəli müəssisədir. O vaxtadək Azərbaycanda belə müəssisə olmayıbdır, indi də onun avtomatlaşdırılmış, mexanikləşdirilmiş sistemlərinə bərabər sistemlər yoxdur. Biz bunların hamısına nail olduq.

O vaxt yaponlar bu avadanlığı buraya gətirəndə çox narahat idilər, deyirdilər, biz bu avadanlığı sizə veririk, amma yaxşı işlətməsəniz bunlar qısa müddətdə xarab ola bilər. İndi görün, iyirmi ildir işləyir, Azərbaycanın gözəl mütəxəssisləri, fəhlələri, mühəndis və texnikləri bu zavodu iyirmi ildir saxla[215-216]yırlar, heç nə sıradan çıxmayıb, əksinə, inkişaf etdirilir. Mən çox sevindim ki, sonrakı illərdə bu zavoddan doğma iki zavod yaranıbdır: məişət maşınları zavodu və "Bakmil" zavodu. Biz o zavodu yaradarkən "Elektroştamp" zavodunu da yaratdıq. Bunların hamısı indi böyük bir kompleksdir. Bu, Azərbaycanın böyük bir sərvətidir. Bu, Azərbaycanın həm milli maddi sərvətidir, həm də mənəvi sərvətidir. Buraya minlərlə adam – Azərbaycan vətəndaşları, gənclər gəliblər, işləyiblər, yüksəliblər, yaşayıblar və bu gün də yaşayırlar. Burada neçə-neçə insanlar gəlib təcrübə keçiblər, başqa istehsal sahələrinə gediblər. Bəziləri gedib xaricdə fəaliyyət göstərirlər. Ona görə də bu zavodun nə qədər böyük əhəmiyyəti olduğunu dərk etmək lazımdır, təsəvvür etmək lazımdır. Bu, adi bir şey deyildir. Bu, Azərbaycanın həyatında xüsusi yer tutan böyük tarixi bir hadisədir. Bu, sadəcə iqtisadi hadisə deyildir. Belə bir yeni kollektivin yaranması böyük siyasi hadisədir.

Bu yer mənim yadımdadır. Mən ilk dəfə buraya gələndə bu yerlər çöllük-biyabanlıq idi. Bu yerlərdə daha

nələr yox idi... Bura boş bir yer idi. Bu zavodda işləyənlər bilirlər ki, onun üstündə nə qədər cihazlar varsa, altında da bir o qədər cihazlar yerləşdirilib. Bunların hamısını mən inşaat vaxtı görmüşəm. Mən bunların hamısını etmişəm. Ona görə də bu, bizim üçün böyük sərvətdir.

Bu gün mən iki il müddətində yüksək sürətlə bu zavodu tikib istifadəyə verənlərin hamısına böyük hörmət və ehtiramımı bildirirəm. Fəhlə də, mühəndis də, texnik də, iş rəhbəri də, iqtisadçı da – hamısı sağ olsun. Mən 20 il bundan öncə bu zavod açılarkən mitinqdə dedim və 20 il keçəndən sonra bir daha deyirəm: sağ olsunlar ki, onların fədakar əməyi nəticəsində bu zavod iki il müddətində tikildi və istifadəyə verildi. Sağ olun.

Burada inşaatçılar çoxdur. Azərbaycanın bütün tikinti idarələri, nazirlikləri buraya cəlb olunmuşdular. Onların hamısının adını çəkmək mümkün deyildir. Ancaq bütün bu inşaat işləri mənim bilavasitə tapşırığımla Əliş Ləmbəranskiyə həvalə olunmuşdu. İşlərə o rəhbərlik edirdi. Mən çox şadam ki, Əliş Ləmbəranski buradadır. Mən o vaxt, 20 il bundan öncə ona öz təşəkkürümü bildirdim. Çox şadam ki, 20 il keçəndən sonra o da buradadır, bizimlə bərabərdir. Ona və onun rəhbərliyi altında burada işləmiş bütün inşaatçılara, quraşdırıcılara, mütəxəssislərə – hamısına təşəkkürümü bildirirəm. [216-217]

Amma 20 il bu zavodu yaşatmağın, işlətməyin, bu səviyyədə saxlamağın özü də böyük bir şücaətdir. Mən qeyd etdim, – məhz buna inanmırdılar. İnanmırdılar ki, biz bu zavodu yüksək səviyyədə tikə bilərik. Ən çox da ona inanmırdılar ki, biz bunu tiksək də, lazımi səviyyədə istismar edə bilmərik, ondan istifadə edə bilmərik. Lakin biz sübut etdik ki, onu da edə bilərik, bunu da edə bilərik.

İyirmi il müddətində burada çox adamlar işləyiblər, gəliblər, gediblər. Amma elələri var ki, zavod tikiləndən işə başlayandan bəri, iyirmi ildir buradadırlar. Bəziləri burada çıxış etdilər. Xüsusən, bizim hörmətli dostumuz, bu zavodun tikintisində iştirak edən başqa adamlar, zavodun veteranları, gənclər çıxış etdilər. Hamınız buradasınız. Çoxunuz iyirmi ildir işləyirsiniz. Ondan sonra gələnlər də var. Hamınıza təşəkkür edirəm.

O vaxt bu zavod tikilərkən mən Sənan Axundovu ona direktor təyin etdim. 81-ci ildə biz onu irəli çəkərək nazir vəzifəsinə qoyduq, onun yerinə isə elə bu zavod tikilməyə başlandığı vaxtdan baş mühəndis vəzifəsində işləyən Fuad Quliyevi təyin etdim. Fuad Quliyev, Sənan Axundov bu zavoda bu iyirmi il müddətində layiqli rəhbərlik ediblər. 81-ci ildən indiyədək bu zavodun yaşamasında, inkişaf etməsində Fuad Quliyevin xüsusi xidmətləri var və onu da qeyd edirəm. İyirmi il müddətində bu zavodu layiqincə işlədənlərin hamısına, sizin hamınıza təşəkkür edirəm.

Bilirsinizmi, mən həyatımda çox böyük işlər görmüşəm. Məni sevindirən o işlərin müsbət nəticələridir. Bilirsiniz ki, mənim həyatımın çox ağır və çətin dövrləri də olub. Hətta o illərdə mənə qarşı haqsızlıq, ədalətsizlik də olurdu. Azərbaycana nalayiq rəhbərlik edən bəzi adamlar az qalırdı bu zavodu dağıtsınlar, çünki bu zavodun tikilməsi Heydər Əliyevin təşəbbüsü ilə olub və onun adı ilə bağlıdır.

Təəssüf ki, bizim daxilimizdə belə düşmənlər də olub.

O vaxtlar mən uzaqlarda Azərbaycanın dərdini çəkirdim, o cümlədən daim bu kollektivin, bu zavodun da dərdini çəkirdim. Çünki bu kollektiv, bu zavod, bax bu müəssisənin hər bir divarı, hər bir guşəsi, hər bir cihazı, bu zavodun ətrafında o vaxtlar mənim təşəbbüsümlə əkilmiş qızılgüllər, ağaclar, bir sözlə, hər şey mənim üçün əzizdir. Ona görə də o çətin illərdə mən öz dərdimi unudub, xalqımın dərdini, respublikanın dərdini çəkirdim, sizin dərdinizi, bu kollektivin dərdini çəkir[217-218]dim. Allaha şükürlər olsun ki, o qara günlər keçib getdi, biz tarixin sınaqlarından çıxdıq. Mən iyirmi il bundan qabaq sizin qarşınızda idim, indi bu gün də sizin qarşınızda alnıaçıq, üzüağ durmuşam.

Mənim yaratdığım hər bir şey mənim üçün əzizdir: zavod da, fabrik də, elektrik stansiyası da, yol da, körpü də, ev də, bina da, saray da – hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır, insanlardır. Mən daim insanlara xidmət etmişəm. Bu gün də vətəndaşlarıma, xalqıma xidmət edirəm. O ağır günlərdə də xalqımdan, sıravi adamlardan, səmimi adamlardan həmişə dəstək almışam. Ona görə də mən xalqıma – Azərbaycan xalqına öz sədaqətimi bir daha bildirirəm və xalqımı yaşadan insanlara, xalqımı irəliyə aparan insanlara öz hörmət və təşəkkürümü bildirirəm.

Dünən bu zavodun 20 illik yubileyi münasibətilə mən zavoda xüsusi təbrik məktubu göndərmişəm. Bunu dünən televiziya ilə xalqa çatdırıblar, sabah da qəzetlərdə olacaqdır. Lakin öz imzamla bunun mətnini mən sizə təqdim edirəm. Bu təbrik məktubudur. Qoy sizdə qalsın. Görürəm, orada tarixi yaxşı əks etdirən eksponatlarınız var. Qoy onlardan biri də bu məktub olsun. Özüm isə sizin yanınıza gəlmişəm ki, bu bayramı sizinlə birlikdə qeyd edim. Böyük bayramdır. Sizi bir daha təbrik edirəm, sizə cansağlığı, səadət arzulayıram.

Zavodun qarşısında duran problemlər həll olunacaqdır. Əgər zavodu 20 il yaşatmışıqsa, bundan sonra onu nəinki yaşadacağıq, həm də inkişaf etdirəcəyik. Zavoddan əmələ gəlmiş yeni zavodlar da məni çox sevindirdi. Onların da inkişaf etdirilməsi üçün səy göstərəcəyik. Sizin hamınızı yaşatmaq üçün və irəliyə getmək üçün Azərbaycan dövləti, bir prezident kimi mən də səylərimi əsirgəməyəcəyəm. Biz bu çətin günlərimizi keçib gedəcəyik. Azərbaycanın işıqlı gələcəyi görünür, xoşbəxt gələcəyi görünür və əmin olun ki, biz gedib o gələcəyə çatacağıq.

Sizi bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Sağ olun. [218-219]

## RESPUBLİKA AİLƏ-SAĞLAMLIQ MƏRKƏZİNİN AÇILIŞINDA ÇIXIŞ

*29 dekabr 1995-ci il*

Hörmətli xanımlar, cənablar!
Hörmətli səhiyyə işçiləri!

Bu gün burada Azərbaycan Respublikasının yeni bir səhiyyə ocağının açılışı çox təqdirəlayiq bir haldır. Azərbaycanda səhiyyənin inkişaf etdirilməsi üçün əvvəllər çox işlər görmüşük. Yaradılan böyük səhiyyə mərkəzləri, xəstəxanalar, müalicə ocaqları, tibb mərkəzləri bu gün də xalqımıza xidmət edir. Bunlar xalqımıza, vətəndaşlarımıza tibbi xidmət göstərmək üçün əsas obyektlərdir.

Keçmiş zamanda səhiyyənin, onun maddi-texniki bazasının inkişafı, səhiyyə ocaqlarının ilbəil müasir avadanlıqla təchiz olunması, bu sahədə çalışanların maddi ehtiyaclarının ödənilməsi üçün imkanlar çox idi. Doğrudur, biz o dövrdə də əldə etdiyimiz nailiyyətlərdən tam razı deyildik. Hesab edirdik ki, bu səviyyə günün tələblərinə və dünya standartlarına tam cavab vermir. Nəinki Azərbaycanda, bütün Sovetlər İttifaqında mövcud olan vəziyyət belə idi.

Mən Moskvada Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini olarkən Sovetlər İttifaqı miqyasında bilavasitə səhiyyəyə rəhbərlik edirdim. Ona görə də nəinki Azərbaycanın, o cümlədən bütün Sovetlər İttifaqının səhiyyəsi ilə həm məşğul olurdum, həm də bu sahənin problemlərini çox yaxından bilirdim.

O illər – 1983-85-ci illər, 1990-cı illərə qədər – o vaxt ölkəmizdə, o cümlədən Azərbaycanda səhiyyə indiki dövrə nisbətən nə qədər yüksək səviyyədə olsa da, bu səviyyə də əhalinin tibb yardımı ilə təmin olunması üçün yetərli deyildi. Ona görə də biz bu sahəni daim inkişaf etdirməyə çalışırdıq və çoxlu tədbirlər görülürdü. O illərdə səhiyyə bir sosial sahə kimi dövlətin əsas diqqət yetirdiyi sahə idi. Bu sahəyə xeyli vəsait ayrılırdı və biz çalışırdıq ki, xaricdən daha çox avadanlıq alıb gətirək və səhiyyəni inkişaf etdirək. Bu sözlər Azərbaycana da aiddir və respublikamız da bu tədbirlərin nəticəsindən bəhrələnirdi. İndi Azərbaycanda olan bu maddi-texniki imkanlar, bu [219-220] potensial, o cümlədən kadrlar, elmi potensial və sair – hamısı o illərdə görülmüş işlərin əsasında yaranmışdır. Təəssüflər olsun ki, ondan sonrakı dövrdə respublikamızda baş vermiş dəyişikliklər, mövcud sosial-iqtisadi böhran nəticəsində səhiyyəyə keçmişdə olduğu kimi vəsait ayırmaq, səhiyyənin tələblərini istənilən qədər yerinə yetirmək mümkün olmur. Bu, həqiqətdir, siz bunu bilirsiniz, hamımız da bilirik. Biz bunu etiraf etməliyik.

Ancaq buna baxmayaraq, Azərbaycanda səhiyyə işçilərinin fəaliyyəti nəticəsində əlimizdə olan maddi-texniki bazadan, yaranmış kadr ehtiyatından istifadə edərək vətəndaşlara, respublikanın əhalisinə tibbi yardım göstərilir. Doğrudur, günün tələblərinə, müasir tələblərə görə, şübhəsiz ki, bu işin nəticələrindən biz razı ola bilmərik. Ancaq qeyd etməliyik ki, imkanlarımız nəyə şərait yaradırsa onun çərçivəsində fəaliyyəti genişləndirmək lazımdır.

Bu gün burada ailə sağlamlıq mərkəzinin yaranması, qeyd etdiyim kimi, təqdirəlayiq haldır. Çünki indi bizim maddi və maliyyə imkanlarımız çox məhduddur. Belə bir şəraitdə hər bir sahədə, o cümlədən səhiyyə sahəsində təşəbbüskarlıq çox böyük əhəmiyyət kəsb edir. Mövcud imkanlardan daha səmərəli istifadə etmək çox əhəmiyyətlidir. Bu tibb mərkəzinin açılması məhz onu göstərir ki, Səhiyyə Nazirliyi təşəbbüskar işləyir və səhiyyə işçiləri öz üzərlərinə düşən vəzifələri yerinə yetirə bilirlər. Şübhəsiz ki, bu, mühüm addımdır, hətta indiki vəziyyətimizdə də belə addımları çox atmaq olar. Ona görə də mən bu hadisə, yəni Azərbaycanda yeni səhiyyə mərkəzinin yaradılması və istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Eyni zamanda ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşəbbüs, təcrübə geniş yayılacaq və səhiyyə naziri Əli İnsanovun burada qeyd etdiyi kimi, siz bir çox başqa imkanlardan da istifadə edib, belə yeni tibb müəssisələri yaradacaqsınız.

Bu tibb müəssisəsinin, səhiyyə ocağının respublikamız üçün çox əhəmiyyətli olduğu məlumdur. Bu gün burada verilən məlumatlar bu haqda tam təsəvvür yaradır. Ailənin inkişafı, sağlamlığı üçün yeni tədbirlər görülməlidir.

Azərbaycanda belə bir ailə-sağlamlıq mərkəzinin yaradılması zərurətdən doğan çox əhəmiyyətli bir haldır.

Mən arzu edərdim ki, bu böyük binadan, bu yaraşıqlı və yaxşı təmir olunmuş binadan, buradakı avadanlıqdan bacarıq[220-221]la və məqsədyönlü istifadə edilsin, səmərəli istifadə edilsin. Bu gün gördüyünüzdən günbəgün daha da yaxşı olsun, gözəl olsun. Arzu edərdim ki, bu mərkəz həqiqətən Azərbaycanda ailənin sağlamlığına xidmət etsin və biz bu xidmətin nəticələrini görək. Bu problemlər bizim sosial problemlərimizdir. Yəni ailənin sağlamlığı problemi ümumiyyətlə, cəmiyyət üçün, insan cəmiyyəti üçün, o cümlədən Azərbaycan üçün çox mühüm problemdir. Müasir dövrün insanların sağlamlığı üçün yaratdığı bəzi zərərli meyllərin qarşısının alınmasından ötrü və bizim respublikada həm bugünkü nəslin, həm də gələcək nəslin sağlam, yüksək fiziki və zehni qabiliyyətə malik insanlar kimi yetişməsindən ötrü belə bir mərkəz çox lazımdır.

Mən hesab edirəm ki, bu, indi dünyada gedən proseslərə də uyğundur. 1994-cü ildə Qahirədə Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi altında beynəlxalq konfrans keçirildi. Konfrans əhalinin inkişafı məsələlərinə həsr olunmuşdu. Bu, mötəbər konfrans idi. Məclisdə Azərbaycan nümayəndə heyəti, o cümlədən mən də iştirak edirdim. Müzakirələr çox maraqlı oldu. Dünyanın bütün ölkələrindən həm dövlət və hökumət başçıları, həm də bu sahədə mütəxəssislər orada çox maraqlı fikirlər irəli sürdülər. Bu konfrans dünyada əhalinin inkişafına aid çox maraqlı qərarlar qəbul etdi.

Bu ilin martında Danimarkanın paytaxtı Kopenhagendə yenə də Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə və rəhbərliyi altında insan inkişafı mövzusunda çox maraqlı bir konfrans keçirildi. Orada da dövlət və hökumət başçıları iştirak edirdilər. Konfransa bütün ölkələrdən mötəbər nümayəndə heyətləri gəlmişdi. Orada biz də, o cümlədən mən də iştirak edirdim. Bu konfranslarda və insanların sağlamlığına dair digər çoxsaylı simpozium və konfranslarda müasir dövrdə insanların sağlamlığı və onların sağlamlığının qorunması tədbirləri ilə bağlı həm elmi, həm də praktiki təkliflər irəli sürüldü.

Buna görə də Azərbaycan öz işlərini dünya elminin və xüsusən səhiyyəsinin, insan problemləri ilə məşğul olan mərkəzlərin irəli sürdüyü fikirlərə və tələblərə müvafiq surətdə qurmalıdır. Burada da Azərbaycanda tibb sahəsində çalışan alimlərin, səhiyyə işçilərinin, Səhiyyə Nazirliyinin üzərinə çox böyük məsuliyyət düşür. Güman edirəm ki, ailə sağlamlığı mərkəzinin yaranması da, açılışı da bu çağırışlara məhz bir cavab kimi qiymətləndirilməlidir. Yaxşı təşəbbüsdür, yaxşı başlanğıcdır. Ancaq bu, yalnız bir təşəbbüs kimi, başlanğıc kimi [221-222] qalmamalıdır, böyük bir işin başlanğıcı olmalıdır və öz davamını tapmalıdır. Əminəm ki, siz və bu sahədə çalışan məsul şəxslər öz məsuliyyətini dərk edirlər və bu işlərlə ciddi məşğul olacaqlar.

Dünyanın bütün insanlarının sağlamlığı üçün xas olan amillər var. Eyni zamanda dünyanın hər bir regionunun iqlim şəraitindən asılı olaraq, yaxud da bəzi genetik xüsusiyyətlərdən asılı olaraq özünəməxsus problemlər var. Ona görə də Azərbaycanın səhiyyə işçiləri, tibb alimləri gərək həm qlobal problemləri yaxşı bilsinlər, həm də bu problemlərlə əlaqədar ölkəmizdə tədqiqat işləri, profilaktiki işlər, müalicə işləri aparsınlar. Bununla yanaşı Azərbaycanın özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq, insanların sağlamlığı ilə bağlı problemləri də araşdırsınlar. Belə problemlər var.

Bunlardan biri – bizim xalqımızın, millətimizin sağlamlığı üçün, həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların bir-biri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir. Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu adət-ənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət qohumların evlənməsi, ailə qurmasıdır. Siz, tibb işçiləri və alimləri bunun həm ailələr üçün, həm də ümumiyyətlə millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu bilirsiniz. Amma nədənsə bu sahədə ciddi tədbirlər görülmür. Belə bir adət-ənənənin nə qədər zərərli olduğu insanlara çatdırılmır, izah edilmir, bu sahədə lazımi profilaktiki işlər, yəni izahat işləri aparılmır. Məhz bunların nəticəsində, – yəqin ki, siz bu sahədə tədqiqatlar aparmısınız, bilirsiniz, – çox adamlar anadangəlmə şikəst olur, yaxud əqli cəhətdən inkişaf etmir. Belələri yaşasalar da, fiziki cəhətdən çatışmazlıq onları həmişə incidir.

Siz bunları bilirsiniz. Bizim bəzi alimlərimiz vaxtilə bu problemlə məşğul olurdular. Bilmirəm, indi məşğul olurlar, ya yox. Deyirsiniz ki, məşğul olurlar, amma az məşğul olurlar. Bəli, məşğul olurdular. Bu gün isə sizə hətta bunu deməliyəm ki, 70-ci illərdə həmin problem bizi çox narahat etdiyinə görə mən onunla ciddi məşğul oldum. Bundan sonra öyrəndim ki, bu, bizim millətimizin gələcəyi üçün, onun sağlamlığı üçün zə[222-223]rərlidir. Mən hətta bu barədə bir qərar qəbul etmək istəyirdim ki, qohumların bir-biri ilə evlənməsi qadağan olunsun. Biz bu məsələni müzakirə etdik. O vaxt bizim bəzi rəhbər şəxslər etiraz etdilər ki, bunu millətimiz başa düşməz, çünki bizdə bu ənənələr əsrlər boyu yaşayır və insanlar buna öyrəniblər.

Təəssüflər olsun ki, o vaxt mən bu tədbirləri həyata keçirə bilmədim. Amma bunun üçün əsaslar var idi. Mən bir neçə alimimizlə söhbət etmişdim, onların elmi əsərləri ilə tanış olmuşdum. Xatirimdədir, o vaxt uşaqların əsəb xəstəliyi ilə əlaqədar bir mərkəz açılmışdı. Mən mərkəzin açılışına getmişdim. Orada o xəstə uşaqları gördüm, professor Qədirova ilə və bir neçə digər alim ilə söhbət etdim. Bir daha hiss etdim ki, bu, bizim üçün doğrudan da böyük bir sosial problemdir. Onlar mənə dedilər ki, bu uşaqların əksəriyyəti ona görə belə fiziki və əqli vəziyyətdədir ki, onlar bir-birinə qohum olan ata-ananın uşaqlarıdır.

O vaxtlar başqa sahələrdə də tədqiqatlar aparılırdı. Xatirimdədir, mən rəhmətlik akademik Topçubaşovu dəvət edib onunla danışdım. O da bu barədə öz fikirlərini söylədi. O mənada ki, biz xalqımızı doğrudan da belə bir adət-ənənələrdən xilas etməliyik. Mən bir çox alimlərlə görüşüb danışdım.

Bu problem məni bir vətəndaş kimi, o zaman da respublikanın rəhbəri kimi, xalqına ürəyi yanan adam kimi çox narahat edirdi. Mənim mərhum həyat yoldaşım Zərifə xanım, bildiyiniz kimi, göz xəstəlikləri ilə məşğul olurdu, o sahədə elmi tədqiqatlar aparırdı. Zərifə xanım da elmi tədqiqatının bir hissəsini bu problemə həsr etdi. Onun da tədqiqatlarının nəticəsi belə oldu ki, hətta bir çox göz xəstəlikləri yalnız o adamlarda müşahidə olunur ki, onlar bir-birinə qohum olan adamların uşaqlarıdır. Ona görə də mən çox narahat idim və bu məsələni qaldırdım. Ancaq bunu axıra çatdıra bilmədim.

Bu gün burada ailə sağlamlığından söhbət getdi və otaqları, cihaz və aparatları mənə göstərdilər, onlardan hansı ilə hansı xəstəlikləri müayinə edəcəkləri, insanda nə kimi xəstəliklər olduğunu aydınlaşdıracaqları barədə, bu xəstəlikləri necə müalicə edəcəkləri barədə danışdılar. Həmin problem bu gün burada bir daha yadıma düşdü və ona səhiyyə naziri Əli İnsanov da toxundu. Odur ki, mən onun üzərində ətraflı dayanmağa məcburam.

Bir də görürsən, əmioğlu ilə əmiqızı evlənirlər. Xatirimdədir, 70-ci illərdə biz bu məsələni müzakirə edərkən bizim rəh[223-224]bər şəxslərdən bir nəfər buna etiraz edərək dedi ki, guya haradasa dinimizdə yazılıbdır ki, əmioğlu ilə əmiqızının kəbini bir yerdə kəsilibdir, bu kəbini Allah kəsibdir.

Xalq arasında belə sözlər ola bilər. Axı, bizim cəmiyyətimiz əsrlər boyu inkişaf edibdir, elə XX əsrin səhiyyəsi də XIX əsrdə, yaxud da XVIII əsrdə olmayıbdır, orta əsrlərdə isə heç olmayıbdır. Şübhəsiz ki, tibb sahəsində bizim görkəmli alimlərimiz olubdur. Amma ümumi səhiyyə olmayıbdır. Ona görə də vaxtilə kim isə bunu bəlkə də deyib və insanlar da buna inanıb ki, əmioğlu ilə əmiqızının kəbini bir yerdə kəsilib. Amma indi biz hər şeyə azərbaycanlı mövqeyindən yanaşmalıyıq. Ona görə də mən hesab edirəm ki, bu, bizim respublikamıza, bizim millətimizə xas olan bir problemdir. Bu problemlə məşğul olmaq lazımdır. Bir daha elmi tədqiqatlar aparmaq gərəkdir, özü də geniş miqyasda. Bax, bu ailə-sağlamlıq mərkəzində bu məsələyə ciddi fikir vermək lazımdır.

Güman edirəm ki, biz bu məsələnin prinsip etibarilə köklü surətdə həll edilməsinə tədricən gəlib çatmalıyıq. Bu, millətimizin gələcəyi üçün çox mühüm problemdir. Bəzi kabinetlərdə mənə izahat verdilər ki, genlərin hansı genlərdən olduğunu aydınlaşdırırlar. Əlbəttə, bunların hamısı lazımdır. Amma məlum həqiqətdir ki, qohumlar bir-biri ilə evlənə bilməz. Bunun heç vaxt müsbət nəticəsini tapa bilməzsiniz. Heç vaxt. Bəlkə də bu, bəzi hallarda mənfi nəticə vermir, amma əksər hallarda mənfi nəticə verir.

Mənim xatirimdədir, o vaxtlar bizimlə bərabər rəhbər vəzifədə işləyən bir-iki adamın da atası və anası əmioğlu-əmiqızı olublar. Bu, mən həmin məsələ ilə məşğul olduqdan sonra üzə çıxdı. Onlar tez-tez xəstələnirdi və elə xəstəlikləri də var idi ki, onlar bunlardan heç xilas ola da bilməzdilər. Sonra onlardan biri mənə dedi ki, görünür, xəstəliyimin səbəbi elə budur – atamla anam əmiuşağıdırlar. Bu, həqiqətdir. Bir bu deyil, respublikamıza, regionumuza xas olan başqa amillər də var ki, bunlar millətimizin daha da sağlam olmasına mane olur. Bunları araşdırmaq, meydana çıxarmaq və həmin hallarla mübarizə aparmaq lazımdır. Güman edirəm ki, təkcə bu mərkəzin köməyi ilə yox, o, sadəcə olaraq praktiki xarakter daşıyır, burada bizim tibb sahəsində işləyən bir sıra alimlərimizin iştirak etdiyini gördüyüm üçün fürsətdən istifadə edərək bu çox mühüm elmi, sosial problemi ortaya atıram.

Məlumat verildi ki, mərkəz təsərrüfat hesabı üsulu ilə işlə[224-225]yəcəkdir. Bu, çox yaxşıdır, çünki, sizə açıq deyim, vəsait çatışmadığından səhiyyənin tələblərini ödəyə bilmirik. Səhiyyədə təsərrüfat hesabı üsulu inkişaf etməlidir. Bu o demək deyil ki, pulsuz tibb xidməti ləğv olunacaqdır, yox. Ən inkişaf etmiş, ödənişli, pullu səhiyyə xidmətinin geniş yer tutduğu ölkələrdə də əhalinin imkansız hissəsinə pulsuz tibbi xidmət var. Bu sahəni saxlamaq, yaşatmaq, bütün imkanlarımızdan istifadə edib işlətmək lazımdır. Amma eyni zamanda təsərrüfat hesablı səhiyyə idarələrinin işləməsi məsələsi ilə ciddi məşğul olmaq lazımdır. Ona görə də bu mərkəzin təsərrüfat hesabı üsulu ilə işləyəcəyi barədə verilən məlumatı məmnuniyyətlə qəbul edir və güman edirəm, çalışacaqsınız ki, bu, öz nəticəsini versin, həm iqtisadi nöqteyi-nəzərdən, həm də, şübhəsiz, mərkəzin əsas məqsədini – insanların, ailənin sağlamlığının qorunması məqsədini yerinə yetirmək nöqteyi-nəzərindən öz nəticəsini versin.

Ümumiyyətlə, səhiyyə sahəsində ciddi islahatlar keçirilməlidir. Bilirsiniz ki, biz keçid dövrünü yaşayırıq, həm ictimai-siyasi, həm də iqtisadi sahədə islahatlar keçiririk. Əsas yolumuz da bu islahatlar vasitəsilə quruluşumuzu daha da təkmilləşdirməkdən ibarətdir. Ona görə də səhiyyə sahəsində də ciddi islahatlar aparılmalıdır. Bu baxımdan bəzi xarici ölkələrin nüfuzlu, tanınmış səhiyyə, tibb mərkəzləri ilə müştərək iş görmək, həm onların təcrübəsindən, həm də avadanlığından, vəsaitlərindən istifadə edərək Azərbaycanda ayrı-ayrı tibb müəssisələrini inkişaf etdirmək yolu, hesab edirəm ki, indiki tələblərə uyğun yoldur. Güman edirəm, siz bu yolla gedəcəksiniz və bu barədə lazımi tədbirlər görəcəksiniz.

Şübhəsiz ki, bütün bu islahatları keçirmək üçün gərək bir şey nəzərdən qaçırılmasın: səhiyyə cəmiyyətimizin müqəddəs sahələrindən biridir. Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır. Onların hər biri çalışmalıdır ki, bu şərəfli adı daim yüksəklərə qaldırsın. Həkim adı, şəfqət bacısı adı şərəfli addır. Bu adı, onun mənəvi məzmununu qoruyub saxlamaq lazımdır. Bu barədə keçmiş illərdə də bizim söhbətlərimiz olubdur. Çünki bu şərəfli adı ləkələyənlər keçmişdə də olub, bu gün daha da çoxdur. Belə bir müqəddəs sahədə çirkin işlər görənlər, təəssüf ki, bu gün də çoxdur. Bu, bizi narahat edir, cəmiyyətimizi, [225-226] insanları, dövləti narahat edir. Belə mənfi halları aradan qaldırmaq, bunlarla mübarizə aparmaq lazımdır. Səhiyyə işçiləri daim nəzərə almalıdırlar ki, xalq həmişə səhiyyəni müqəddəs bir sahə kimi qiymətləndirir. İnsanın sağlamlığını qorumaq, yaxud xəstəni xəstəlikdən xilas etmək, insanı fiziki əzablardan xilas etmək böyük xeyirxah işdir, böyük mənəvi işdir. Ona görə gərək səhiyyə işçiləri də buna uyğun olaraq öz şərəfli adlarını saxlasınlar, öz hörmətlərini saxlasınlar. Arzu edirəm ki, bu prinsiplər heç

vaxt unudulmasın. İndi səhiyyədə islahatlar aparanda da, səhiyyəni təsərrüfat hesabına keçirəndə də, səhiyyədə iqtisadi məsələləri həll edəndə də gərək səhiyyənin ən yüksək vəzifəsini heç vaxt unutmasınlar.

Təsadüfi deyil ki, dünyada heç bir sahənin işçiləri üçün səhiyyə işçilərinin Hippokrat andı kimi andı yoxdur. Heç bir sahədə and yoxdur. Orduya gedən sədaqətlə xidmət etmək üçün and içir, başqa hərbi işdə xidmət edən and içir. Başqa sahələrdə isə heç kəs and içmir. Amma Hippokratın qədim dövrdən bizə qalan andı məhz səhiyyə işçiləri üçündür, həkimlik peşəsini seçənlər üçündür. Bu andı, ənənəni heç vaxt unutmaq lazım deyildir. Xüsusən indiki dövrdə bu prinsiplərin daha çox əhəmiyyəti var. Fürsətdən istifadə edib bunu da sizə çatdırmaq istəyirəm.

Bugünkü hadisə münasibətilə sizi bir daha təbrik edirəm. Səhiyyə işçilərinə daim hörmət və ehtiram göstərdiyimi bildirirəm. Dövlət tərəfindən, şəxsən mənim tərəfimdən bütün imkanlardan istifadə edilərək səhiyyəyə bundan sonra da diqqət, qayğı göstəriləcəkdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu qayğıya, diqqətə görə də səhiyyə işçiləri öz üzərilərinə düşən vəzifələri şərəflə yerinə yetirəcəklər.

Hamınızı, sizin simanızda bütün səhiyyə işçilərini Üzümüzə gələn Yeni il münasibətilə təbrik edirəm, sizə səadət, cansağlığı və bütün işlərinizdə uğurlar diləyirəm. Sağ olun! [226-227]

## 9 YAŞLI RƏSSAM ƏLİ CƏFƏRİN SƏRGİSİNİN AÇILIŞINDA ÇIXIŞ

*Səttar Bəhlulzadə adına Sərgi Salonu*

*30 dekabr 1995-ci il*

Azərbaycanın rəssamlıq məktəbi çox zəngindir. Azərbaycan rəssamları keçmiş əsrlərdə də, yaşadığımız, başa çatmaqda olan iyirminci əsrdə də dünya incəsənətinə, mədəniyyətinə böyük töhfələr veriblər. Biz bununla daim fəxr etmişik və fəxr edirik.

Azərbaycanda rəssamlıq məktəbi xüsusən iyirminci əsrin əvvəllərindən başlayaraq Əzim Əzimzadə və başqa böyük rəssamlarımızın açdığı yolla gedən sənətkarlar tərəfindən yaranıbdır. Biz keçmişdə Sovetlər İttifaqının tərkibində olanda da dünyanın başqa ölkələri ilə müqayisə edərkən həmişə Azərbaycan rəssamlarının əsərlərinin nə qədər yüksək səviyyədə olduğunu görürdük və bu da mədəniyyətimizi dünyaya nümayiş etdirirdi. Azərbaycan rəssamlarının yaratdıqları əsərlər həm respublikamızın çox guşələrini, muzeylərini bəzəyir, həm də dünyanın bir çox muzeylərində özlərinə layiq yer tutubdur. Azərbaycan rəssamlıq məktəbi yaşayır, inkişaf edir və yaşlı nəslə mənsub rəssamlardan Mikayıl Abdullayevin, – o, indi bizim yanımızdadır, – Tahir Salahovun və başqalarının yaratdıqları əsərlər mədəniyyətimizi dünyaya tanıdıbdır və bu gün də tanıdır.

Bu, Azərbaycan xalqına xas olan xüsusiyyətdir. Əgər 500 il bundan öncə Sultan Məhəmməd kimi böyük rəssamımız özünün miniatür əsərləri ilə dünyada məşhurlaşıbsa, özünəməxsus yer tutubsa, indi, XX əsrdə belə böyük rəssamlıq məktəbimizin mövcud olması tamamilə təbiidir, xalqımızın fitri istedadından doğan xüsusiyyətdir. Bu gün rəssamlıq yolunda yeni addımlar atan gənclərimiz də az deyildir. Biz bundan öncəki illərdə də gənc rəssamların əsərlərini görmüşdük və onlar bizi sevindirmişdilər. Ancaq bugünkü sərgi bizi daha çox sevindirir. Çünki doqquz yaşlı bir uşağın bu qədər rəsm əsərləri yaratması və artıq özünün fərdi sərgisini açması həyatımızda, mədəniyyətimizdə böyük hadisədir. Güman edirəm ki, bu, bizim [227-228] rəssamlıq sənətimizdə, rəssamlıq məktəbimizdə yeni bir cığırın açılması deməkdir.

Şübhəsiz ki, Əlinin fitri istedadı və rəssamlığa olan böyük həvəsi bu əsərlərin, rəsm nümunələrinin yaranmasına səbəb olubdur. Ancaq təkcə istedad məsələsi deyil, fitri istedaddan əlavə, görünür ki, onun özündə nə qədər həvəs, əzmkarlıq və öz istedadını inkişaf etdirmək gücü var. Bu güc onun daxilindədir, istedadını hərəkətə gətirir və uşaq olmasına baxmayaraq, elə rəsm nümunələri yaratmasına imkan verir.

Mən onu təbrik edirəm. Bütün rəssamlarımızı təbrik edirəm ki, bizim rəssamlıq məktəbinin inkişafı nəinki qırılmayıb, davam edir və bu məktəbə yeni gələnlər yaşlı rəssamlarımızın dabanlarını bastalayırlar. Onlar gərək fikirləşsinlər ki, əgər öz yerlərində bir balaca da saysalar, nəinki dabanlarını bastalayacaqlar, ola bilər, arxada qalsınlar. Bu, sevindirici haldır. Ümumiyyətlə, həyatda, xüsusən incəsənətdə belədir: incəsənətdə həmişə rəqabət var, incəsənət xadimlərinin bir-birinə qısqanclığı var. Əgər bunlar olmasa incəsənət inkişaf etməz. Çünki biri o birisinin sənətini görəndə çalışır ki, ondan da yaxşısını yaratsın.

Doğrudur, bəzən bu, paxıllıq kimi hissləri də meydana çıxarır, qısqanclıq doğurur. Amma bunlar hamısı keçicidir, ayrı-ayrı adamlar arasında olan münasibətlərdir. Ancaq ümumi işimizin mənasına baxanda, bunlar hamısı yeni əsərlərin yaranmasına gətirib çıxarır. Ona görə də doqquz yaşlı uşağın bu cür sərgisini görəndə gərək bizim təcrübəli rəssamlarımız düşünsünlər ki, onlar bir müddətdən sonra yeni sərgi təqdim etsinlər və biz də deyək ki, bəli, təcrübəli rəssamlar da çalışırlar, yeni gələn nəsillər də rəssamlıq sənətini inkişaf etdirirlər.

Mən bütün rəssamları, Azərbaycan rəssamlıq məktəbini bu yeni, çox qeyri-adi hadisə münasibətilə təbrik edirəm və rəssamlarımıza yeni uğurlar arzulayıram. Əlini, – sənət dünyasına yeni gəlmiş, ancaq artıq özünü çox gözəl təqdim edən rəssamı təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, onun gələcək rəssamlıq həyatı parlaq olacaq və Azərbaycanda böyük bir rəssam yetişəcəkdir. Əlinin valideynlərini təbrik edirəm ki, onlar Azərbaycan cəmiyyətinə gələcəkdə böyük rəssam olacaq belə bir uşaq bəxş ediblər. Çox sağ olsunlar. Arzu edirəm ki, onlar Əlinin həm rəssamlığına, həm də təhsilinə [228-229] bundan sonra da çox diqqət yetirsinlər ki, onun artıq bu gün mövcud olan istedadı, bacarığı, yaratdığı işlər gələcəkdə inkişaf etsin. Bu istedad sönməsin.

Bilirsiniz, tarix belə hadisələrin də şahididir ki, bəzən parlaq istedadlar sonra müəyyən səbəblərdən sönürlər. Bu istedadı sönməyə qoymaq olmaz. Çünki onun daxilində çox böyük potensial var – rəssamlıq potensialı, incəsənət potensialı var. Bunun inkişaf etdirilməsi, potensialın daha da açılması üçün şərait yaratmaq, kömək etmək lazımdır. Güman edirəm ki, Mədəniyyət Nazirliyi, Rəssamlar İttifaqı və başqa müvafiq təşkilatlar Əlinin, bu rəssam uşağın gələcək inkişafı üçün lazımi şərait yaradacaqlar. Bu, hadisə münasibətilə sizi bir də təbrik edirəm. Əli, səni təbrik edirəm!

Üzümüzə gələn Yeni il münasibətilə Azərbaycan rəssamlarını, bütün mədəniyyət, incəsənət xadimlərini Ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət arzulayıram. Sizdən yeni-yeni əsərlər, sənət nümunələri

gözləyirik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, 1996-cı ildə xalqımızı yeni əsərlərlə sevindirəcəksiniz. Təbrik edirəm, Yeni iliniz mübarək olsun! [229-230]

## 1995-ci İLDƏ BEYNƏLXALQ YARIŞLARDA YÜKSƏK NAİLİYYƏTLƏR ƏLDƏ ETMİŞ AZƏRBAYCAN İDMANÇILARI VƏ MƏŞQÇİLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*30 dekabr 1995-ci il*

Hörmətli idmançılar! Bugünkü görüş sizin üçün nə qədər əhəmiyyətlidirsə, bizim üçün – mənim üçün, mənim həmkarlarım üçün də bir o qədər əhəmiyyətlidir. Çünki siz idman sahəsində, beynəlxalq yarışlarda yüksək adlar qazanaraq, çempionluq zirvəsinə qalxaraq, qızıl medallar və başqa mükafatlar alaraq müstəqil Azərbaycanın adını ucaldırsınız.

Müstəqil Azərbaycan Respublikasının dördüncü ili tamam oldu. Biz müstəqilliyimizin beşinci ilini yaşayırıq. Ötən illərdə bizim itkilərimiz çox olub. Ancaq nailiyyətlərimiz də az deyildir. Bu nailiyyətlər içərisində idman sahəsində, beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyildir, həm də müstəqil Azərbaycan Respublikasını dünyada tanıtmaqdan ibarətdir.

Biz müstəqil dövlət kimi gəncik. Müstəqilliyimizi də, dünya birliyində, beynəlxalq aləmdə tutduğumuz yeri də möhkəmləndirməyə çalışırıq və Azərbaycanı dünyada hamıya tanıtmaq istəyirik. Ancaq aydındır ki, bu, bir günlük, yaxud bir illik iş deyil, uzun sürən bir işdir. Yəni müstəqil Azərbaycanı müstəqil bir dövlət kimi dünyada tanıtmaq üçün biz hələ bundan sonra da çox işlər görməliyik. Dünyada tanınmaq beynəlxalq təşkilatlar tərəfindən müstəqil Azərbaycan dövlətinin tanınması haqqında qəbul olunan qərarlardır. Bununla yanaşı, bu həm də dünya dövlətləri ilə Azərbaycan Respublikası arasında yaranan ikitərəfli, bərabərhüquqlu əlaqələrdir. Şübhəsiz ki, bunlar dövlətçilik nöqteyi-nəzərindən əsas amillərdir. Amma bununla yanaşı, gərək təkcə beynəlxalq təşkilatlarda yox, ayrı-ayrı dövlətlərlə əlaqələrdə yox, həm də hər bir ölkədə, hər bir təşkilatda və dünyanın hər yerində bizim xalqımızı, bizim millətimizi, bizim dövlətimizi tanısınlar. Buna görə də hələ çox iş görməliyik və xalqımızı, millətimizi, dövlətimizi tanıtmaq üçün [230-231] mühüm vasitələrdən biri də idmandır, idman yarışlarıdır və şübhəsiz ki, idman yarışlarında yüksək adlar əldə etməkdir.

Sevindirici haldır ki, bizim dövlət tərəfindən aparılan siyasi tədbirlərlə yanaşı, bir çox başqa sahələrdə də respublikamızı, xalqımızı dünyada tanıtmaq üçün gərəkli işlər görülür və onlar öz nəticələrini verir. Bu baxımdan idmançıların gördükləri iş yüksək qiymətə layiqdir. Sizin qazandığınız hər bir çempion adı Azərbaycanı dərhal geniş tanıdır. Layiq olduğunuz hər bir qızıl, yaxud gümüş medal və ya başqa bir yüksək ad Azərbaycanı tanıdır. Yarışlar müxtəlif yerlərdə – bir dəfə bir ölkədə, bir dəfə başqa ölkədə keçirilir. Siz də bu yarışlarda mütəmadi iştirak edərək və xüsusən yüksək adlar qazanaraq Azərbaycanın adını ucaldırsınız.

Azərbaycanın bayrağı dünyada rəsmən, demək olar, iki dəfə qaldırılır. Bu, bir dəfə Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələndə olur. Şübhəsiz ki, beynəlxalq təşkilatların, Birləşmiş Millətlər Təşkilatının qarşısında başqa ölkələrlə yanaşı, Azərbaycanın da bayrağı daim dalğalanır. Əlbəttə, başqa ölkələrdə bizim səfirliklər Azərbaycanın bayrağını daim saxlayırlar. Lakin bayrağın qaldırılması məsələsində, qeyd etdiyim kimi, Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də ki, idmançılarımız beynəlxalq yarışlarda çempion adı qazanarkən Azərbaycanın himni səslənir, Azərbaycanın dövlət bayrağı qaldırılır.

Ona görə də mən qeyd edirəm ki, sizin nailiyyətləriniz eyni zamanda böyük siyasi xarakter daşıyır, dövlətçiliyimizin nailiyyətləri kimi qiymətləndirilməlidir. Biz bunu məhz belə də qiymətləndiririk. Bütün bunlara görə, respublikamızı, xalqımızı, Azərbaycanı dünyada, beynəlxalq yarışlarda layiqincə təmsil etdiyinizə görə, yüksək adlar qazandığınıza görə, Azərbaycanın şan-şöhrətini ucaltdığınıza görə mən sizi təbrik edirəm və sizə bu nailiyyətlərinizə görə təşəkkürümü bildirirəm. Çox sağ olun!

Sizin bu nailiyyətləriniz bir də ona görə qiymətlidir ki, respublikamızın həyatında çətinliklər çoxdur, problemlər çoxdur. Problemlərdən biri də budur ki, biz idmana istədiyimiz qədər diqqət yetirə bilmirik, vəsait ayıra bilmirik, idmanın inkişafı üçün lazımınca şərait yarada bilmirik. Belə bir şəraitdə bu cür yüksək nailiyyətlər qazanmağınız sizin yüksək vətənpərvərliyinizi sübut edir. Məsələn, Timoxin dedi ki, onun məşq etmək üçün, hazırlaşmaq üçün bazası yoxdur. Amma bazası olmadığı [231-232] halda dəfələrlə dünya çempionu adı qazanmışdır. Təkcə o deyildir. Mən bilirəm ki, bizim digər çempionların da layiqli bazaları yoxdur. Amma buna baxmayaraq, lazımi maddi imkanlarınız olmadığı halda siz bu adları almısınız. Bu, çox qiymətlidir və onu sübut edir ki, bizim xalqımız müstəqil olanda, sərbəst olanda, özü öz taleyinin sahibi olanda lap çətin bir dövrdə də biz yüksək nailiyyətlər əldə edə bilirik.

Sizin bu nailiyyətləriniz bir də onu göstərir ki, Azərbaycanın idman sahəsində böyük potensialı var. Keçmiş illərdə Azərbaycan idmançıları adətən dünya idman yarışlarında Sovet İttifaqının komandaları tərkibində çıxış edirdilər. O vaxtlar biz çox təəssüflənirdik və çox heyfsilənirdik ki, bizim idmançılar, yəni

azərbaycanlı idmançılar beynəlxalq yarışlarda lazımi qədər yüksək ad ala bilmirlər. O vaxtlar hətta ümumittifaq yarışlarında da bizim idmançılar çox zaman başqa respublikaların idmançılarından geri qalırdılar. Sözün düzü, bu, bizi çox narahat edirdi. Mən keçmişdə uzun müddət, bir çox; illər respublikaya rəhbərlik etdiyimə görə bu problemi həmişə hiss edirdim, görürdüm və çox narahat olurdum ki, niyə bizim idmançılar yüksək adlar ala bilmirlər? Bizə cürbəcür izahatlar verirdilər. Bəzi adamlar hətta belə hesab edirdilər ki, guya Azərbaycan xalqının, Azərbaycan millətinin idman ənənəsi yüksək olmadığına görə, böyük olmadığına görə və onun böyük tarixi olmadığına görə bizim azərbaycanlılar bu yüksək adları ala bilmirlər. Bəzən belə deyirdilər ki, məsələn, güləşdə bizim azərbaycanlılar müəyyən bir çempion adı ala bilirlər, amma başqa idman növlərində ala bilmirlər.

Düzü o illər mən bu fikirlərlə daxilən razı olmurdum və açıq da deyirdim ki, bunlar doğru fikirlər deyildir. Bizim xalqımız, millətimiz fiziki cəhətdən, genetik cəhətdən çox sağlam xalqdır, çox sağlam millətdir. Buna görə də ola bilməz ki, bizim idmançılarımız yüksək nailiyyətlər qazana bilməsinlər. Amma indi bır baxın və özünüz deyin: keçmiş illərdə nə vaxt Azərbaycan idmançılarının beynəlxalq yarışlarda bu qədər yüksək nailiyyətləri olubdur? Heç vaxt olmayıb. Bunlar həmin azərbaycanlılardır, həmin torpaqdır, həmin havadır, həmini sudur, həmin köklərdən gələn insanlardır. Əksinə, indi, bayaq mən qeyd etdim, – maddi vəziyyətimiz, maliyyə vəziyyətimiz təxminən beş-altı il əvvəlki dövrə nisbətən daha da çətindir, ağırdır. Amma görürsünüz, respublikamızın, xalqımızın nümayəndələri nə qədər yüksək adlara nail olublar. Azər[232-233]baycanda bir belə ki, biz yaşayırıq, Azərbaycan idmançılarının bu qədər yüksək adlara nail olduqlarını görməmişdik. Düz deyirəm, yoxsa səhv edirəm? Bəli, biz belə şeyi heç təsəvvür edə bilməzdik.

Deməli, bu nəyi göstərir? Bu, müstəqilliyimizin, dövlət müstəqilliyinin nəticələridir. Deməli, biz müstəqil olanda, özümüz öz taleyimizin sahibi olanda, öz xalqımızı özümüz təmsil edəndə, başqa xalqlarla birlikdə, bir dəstə ilə getməyəndə bizim idmançılar özlərini həqiqətən göstərə bilirlər. Əvvəla, onlar öz qabiliyyətlərini göstərmək imkanı əldə edirlər. İkincisi isə, onlarda olan qürur hissi, vətənpərvərlik hissi o qədər yüksəlib ki, onlar bütün daxili imkanlarından istifadə edib yüksək nailiyyətlər qazanırlar. Deməli, bu, bizim müstəqilliyimizin, dövlət müstəqilliyinin bəhrəsidir, onun nəticəsidir.

1995-ci ildə, bizim üçün ağır və çətin ildə qazanılan belə bir nəticə məni həddindən artıq sevindirir və ümidlər yaradır ki, respublikamızın gəncləri, idmançıları bir neçə ildən sonra dünya idman yarışlarında daha yüksək nailiyyətlər əldə edəcəklər. Əvvəla, bu nailiyyətlər bizim idmançıları, gəncləri həm sevindirəcək, həm də həvəsləndirəcəkdir. İkincisi, güman edirəm ki, ilbəil iqtisadi və maddi vəziyyətimiz yaxşılaşacaq, biz idmançılar üçün lazımi şərait yaradılmasını təmin edə biləcəyik və bunlar da bizim idmançıların yüksək adlar almasına imkan verəcəkdir. Çox gözəl nailiyyətlərdir, çox böyük ümidlər verən nailiyyətlərdir! Əminəm ki, bu ümidlərin hamısı öz nəticəsini verəcək, onlar doğruldulacaqdır.

Ümumiyyətlə, idman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm bir sahədir, sosial sahədir. Dünən mən səhiyyə işçiləri ilə görüşdüm. Respublikamızın vətəndaşlarının, xalqımızın sağlamlığının problemləri barədə, xalqımızın gələcək nəsillərinin fiziki və əqli cəhətdən daha da sağlam olması tədbirləri haqqında söhbət apardıq. Bununla əlaqədar tibb sahəsində, səhiyyə sahəsində görüləsi işlər çoxdur. Ancaq mən belə hesab edirəm ki, millətin, xalqın sağlamlığını, kütləvi sağlamlığı təmin etmək üçün idman, bədən tərbiyəsi əvəzsiz bir vasitədir.

Bizim ulu babalarımız da sağlam olublar, qəhrəmanlıq nümunələri göstəriblər, döyüşlərdən qalib çıxıblar, Vətənimizi, xalqımızı öz gücü ilə , qüvvəti ilə, qəhrəmanlığı ilə qoruya biliblər. Məhz ona görə ki, onlar özlərini fiziki nöqteyi-nəzərdən daim hazırlayıblar və öz fiziki inkişafına çox fikir veriblər. Bu, [233-234] keçmişdə bizim adət-ənənələrimizdə də öz əksini tapıbdır. Ancaq indi – dünyada idman, bədən tərbiyəsi müasir səviyyədə inkişaf etdiyi bir dövrdə Azərbaycanda da idmanın, bədən tərbiyəsinin kütləvi surətdə inkişaf etməsinə ciddi fikir verməliyik. Bu, bizim vəzifəmizdir, borcumuzdur. Bu, xalqımızın gələcəyidir, onun gələcək nəsillərinin daha da sağlam olmasının əsasıdır. Biz bu gün yaşayarkən, müstəqil dövlətimizi qurarkən gələcək nəsillərimiz barədə düşünməliyik. Həm də düşünməliyik ki, bizdən sonra gələn nəsillər, bizim dövrümüzdəki gənc nəsil daha da sağlam olsun, fiziki cəhətdən daha da möhkəm olsun, əqli cəhətdən daha da sağlam olsunlar. Biz buna nail olmaq üçün idmana, bədən tərbiyəsinə çox ciddi fikir verməliyik. Hesab edirəm ki, biz bu sahədə bir çox işlər görməliyik, bir çox tədbirlər həyata keçirməliyik.

Təəssüf ki, idman üçün, kütləvi bədən tərbiyəsi üçün keçmişdə yaradılmış böyük maddi-texniki bazanın əksəriyyəti dağıdılıbdır. İndi təsəvvür edin, bir görün, bizim xalqımıza ayrı-ayrı adamlar, cinayətkarlar nə qədər xəyanət ediblər. Bakıda vaxtilə respublika stadionu tikilib, ondan uzun illər istifadə olunub və o, xalqımıza xidmət edib. Amma iki il içərisində bəzi quldurların, oğruların, şərəfsiz adamların cinayətkar hərəkəti nəticəsində və Azərbaycanda rəhbər vəzifəli şəxslərin məsuliyyətsizliyi, bəlkə də xalqa qarşı xəyanətkar mövqe tutduğuna görə bu stadion indi bərbad vəziyyətdədir. Biz orada futbol yarışları keçirə bilmirik.

Bilirsinizmi, tikmək, qurmaq çətindir. Amma dağıtmaq üçün elə böyük şücaət lazım deyildir. Fürsət düşən kimi dərhal dağıdırlar. Mənim xatirimdədir; həmin o stadionun tikilməsinə hələ Böyük Vətən müharibəsindən əvvəl başlanmışdı. 1941-ci ildə Vətən müharibəsi başladı və şübhəsiz ki, bütün tikililər, o cümlədən bizim stadionun tikintisi də dayandırıldı. Müharibə qurtarandan sonra o stadionun tikintisinə yenidən başlandı. Bunların hamısı mənim yadımdadır. 1952-ci ildə stadionun təntənəli açılışı oldu. Mən həmin təntənəli

mərasimdə iştirak edən şəxslərdən biriyəm. Bəlkə də burada ikinci belə bir şəxs yoxdur, bəlkə də var. Amma ola bilər olmasın. O vaxtlar oraya uşaq yaşlarında gedənlər olub. Amma mən uşaq deyildim, cavan idim.

Biz o gün nə qədər böyük iftixar hissi ilə sevinirdik ki, nəhayət, bizim Bakıda da belə gözəl, nəhəng, o vaxt üçün çox əzəmətli idman stadionu yaradılıb. Elə sonrakı illərdə də bu [234-235] qurğudan həmişə səmərəli istifadə olunub, orada nə qədər futbol yarışları keçirilib. Futbol oyunu keçiriləndə o stadion tamaşaçılarla ağzınadək dolu olurdu. Stadion 40 min yerlik olsa da, futbol görüşləri zamanı oraya 60 mindən çox adam yığışırdı. Mən bunların hamısının iştirakçısıyam. Vaxtilə futbol pərəstişkarları kimi gedib çətinliklə bilet taparaq o stadionda ayrı-ayrı cərgələrdə oturmuşam da, komandamızın təəssübünü də çəkmişəm. O yarışlarda sonrakı dövrlərdə də olmuşam, orada mitinqlər də keçirilib, o mitinqlərdə də iştirak etmişəm.

Demək istəyirəm ki, bu stadion xalqımıza təxminən 40 il xidmət edibdir. Amma indi o, bir neçə quldurun əlinə keçibdir. Respublikamızın keçmiş başçıları da, nadan başçıları da düşünməyiblər.

Axı o stadion onların gözləri qarşısında dağıdılırdı, niyə çalışmırdılar ki, dağıdılmasın? Stadionu dağıdıblar, indi biz onun bərpası üçün nə qədər əziyyət çəkirik. Heç bilirsinizmi, nə qədər əziyyət çəkirik! Ola bilərmi ki, bu böyüklükdə şəhərdə, iki milyondan artıq əhalisi olan şəhərdə biz mərkəzi stadionda futbol yarışı keçirə bilməyək? Buna nə cür izahat vermək olar? Bu stadionu dağıdan adamlar kimə xidmət edirdilər – Azərbaycan xalqınamı, Bakı şəhərinəmi, Azərbaycan Respublikasınamı? O adamlar dar ağacından asılmalıdırlar! O adamlara qarşı heç vaxt güzəşt ola bilməz! Onlar cavab verməlidirlər. Hesab edirəm ki, onlar məsuliyyətə cəlb olunmalıdırlar.

Bu gün mən Respublika Prokurorluğuna, Nazirlər Kabinetinə, hüquq-mühafizə orqanlarına tapşırıram: 10-15 gün müddətində araşdırma aparıb, yanvarın 15-dək mənə məlumat verməlisiniz ki, nə vaxt, nə cür, nə üçün, kimin günahı üzündən, kimin qərarı ilə, kimin sərəncamı ilə bu stadionu o günə salıblar. Yuxarıdan aşağıyadək bütün adamlar cəzalandırılmalıdır. Əgər biz onları cəzalandırmasaq, onlar sabah başqa obyektləri də dağıdacaqlar. Onlar tək stadionu deyil, çox şeyləri də dağıdıblar. Amma bu gün biz idmandan danışdığımıza və idmançılarla görüşdüyümə görə mən bu məsələni belə, çox narahatlıq hissi ilə qeyd edirəm.

Bir də deyirəm, qurmaq çətindir. O stadionu tikib qurtarmaq üçün neçə illər lazım oldu. O stadionu tikib yaradan insanlar bunun üçün nə qədər böyük xidmət göstərdilər. O stadion neçə illər ərzində insanlara xidmət edibdir. Amma onu qısa bir müddətdə vurub dağıtdılar. İndi o adamlar hələ [235-236] də bizim aramızda gəzirlər, orada-burada özlərini qəhrəman kimi göstərirlər, yaxud da özlərini hörmətli adamlar kimi aparırlar. Onlara nifrət edilməlidir.

Bir sözlə, biz idmana, kütləvi bədən tərbiyəsinə ciddi fikir verməliyik. Burada gənclər və idman naziri Əbülfəz Qarayevin çıxışında qaldırılan məsələlərə Nazirlər Kabineti baxmalı və qısa müddətdə lazımi tədbirlər görməli, bu barədə mənə məlumat verməlidir. Xahiş edirəm, baxın, nə mümkündürsə, gəlin edək, nə də bu gün mümkün deyildirsə, planlaşdıraq, görək nə vaxt edəcəyik. Yeni il başlayır və biz ölçüb-biçməliyik. Mən demirəm ki, hər şeyi bir gündə, bir ayda etmək olar. Ancaq biz işimizi elə qurmalıyıq ki, idman inkişaf etsin, kütləvi bədən tərbiyəsinin, idmanın inkişafı üçün lazımi maddi-texniki bazanı yaratmalı və genişləndirməliyik.

Şübhəsiz ki, idmanın inkişafı üçün indi müxtəlif təşkilatlar, kommersiya strukturları da öz xeyirxah münasibətini bildirməlidir. Güman edirəm ki, bildirəcəklər, çünki bu, ayrı-ayrı adamların şəxsi işi deyil, xalqımızın, Azərbaycanın ümumi işidir, milli işidir.

Növbəti olimpiya oyunları Atlantada keçiriləcəkdir. Azərbaycan Respublikasının idmançıları olimpiya oyunlarında ilk dəfə müstəqil komanda kimi iştirak edəcəklər. Bu, böyük hadisədir. Biz buna çox fikir verməliyik. Xatirimdədir, keçmişdə olimpiya oyunlarında Sovet İttifaqının komandasına Azərbaycandan 3-4 nəfər daxil edildikdə biz buna sevinirdik və yığma komandada olan bizim idmançıların nailiyyəti də gözə çarpırdı, ya da çarpmırdı. Olimpiya oyunlarını siz də görmüsünüz, mən də görmüşəm. Olimpiya komandalarının adətən paradı olur, hər komanda dəstə ilə gəlib öz ölkəsinin bayrağı ilə tribunaların qarşısından keçir. Güman edirəm ki, Azərbaycan komandası layiqli bir komanda kimi Atlanta şəhərində olimpiya stadionunun tribunaları önündən Azərbaycanın bayrağı ilə böyük iftixar hissi ilə keçəcəkdir. Ona görə də çox hazırlaşmaq lazımdır, çox işlər görmək lazımdır.

Olimpiya oyunlarında Azərbaycan komandasının layiqincə iştirak etməsi üçün bütün tədbirlər görülməlidir və mən bu məsələni, bu vəzifəni də Nazirlər Kabinetinə tapşırıram. Baş nazirin özü şəxsən bu işlərə baxmalı, lazımi tədbirlər görməli və həyata keçirilən tədbirlər barədə mənə məlumat verməlidir. Bizim hamımız çalışmalıyıq, çünki bir də deyirəm, bu, bizim ümummilli işimizdir, müstəqil Azərbaycanın böyük vəzifə[236-237]sidir. Buna görə də çalışmalıyıq ki, Atlanta oyunlarında Azərbaycanın milli olimpiya komandası layiqli təmsil olunsun, layiqli iştirak etsin və bizə yeni-yeni çempion adları, yüksək adlar gətirsin. Ümidvaram ki, biz buna nail olacağıq, çünki 1995-ci ildə əldə edilmiş nailiyyətlər və bu gün burada verilən məlumatlar böyük ümidlər yaradır. Biz Atlanta olimpiya oyunlarına bu ümidlərlə də hazırlaşacağıq.

1995-ci ildə yüksək nailiyyətlər əldə etmiş idmançılarımıza bu uğurlar münasibətilə mən hədiyyələr vermişəm. Bu hədiyyələrin həcmi böyük olduğuna görə onların hamısını buraya gətirmək mümkün deyildir. Ancaq onların hamısı bu binadadır və mən Əbülfəz Qarayevə tapşırıram ki, mənim bu hədiyyələrimi bizim idmançılara çatdırsın. Bir hədiyyə Bakı şəhər icra hakimiyyəti tərəfindən hazırlanıbdır. Namiq Abdullayev,

buraya gəl görüm, o birilərinin hədiyyələri həcmcə böyükdür, səninki isə kiçikdir. Amma məzmunca onlardan kiçik deyildir. Təbrik edirəm. Sizin hamınızı və sizin simanızda bütün idmançıları, idman həvəskarlarını, bədən tərbiyəsi ilə mütəmadi məşğul olan vətəndaşlarımızın hamısını üzümüzə gələn Yeni il münasibətilə ürəkdən təbrik edirəm, sizin hamınıza cansağlığı, səadət, işlərinizdə, xüsusən idmanın inkişafında yeni-yeni nailiyyətlər, uğurlar arzulayıram və hamınıza arzu edirəm ki, bundan sonra da sağlam olasınız, bundan sonra da möhkəm olasınız. Sağ olun. [237-138]

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Hörmətli soydaşlarımız! Əziz azərbaycanlılar!

Dekabrın 31-i – Dünya azərbaycanlılarının həmrəylik günü münasibətilə hamınızı ürəkdən salamlayır, sizə ən xoş arzularımı yetirirəm.

Artıq beşinci ildir ki, Azərbaycan xalqı on illərlə həsrətini çəkdiyi, uğrunda ardıcıl mübarizə apardığı tarixi haqqına – milli müstəqilliyinə qovuşmuşdur. Müstəqilliyə aparan yol hamar olmamış, xalqımız tarixin müxtəlif keşməkeşli mərhələlərindən keçərək bir çox ağır sınaqlarla qarşılaşmışdır. Lakin Azərbaycan azadlıq, suverenlik uğrunda mübarizə əzmini həmişə qoruyub saxlamış, bu yolda böyük məhrumiyyətlərə düçar olsa da, qurbanlar versə də mətin iradəsi sarsılmamışdır.

Öz taleyinin sahibi olmuş xalqımız hüquqi, demokratik dövlət quruculuğu yolundadır və əmin ola bilərsiniz ki, heç bir qüvvə onu bu yoldan döndərə bilməyəcəkdir. Azərbaycan Respublikası dünya birliyinin tam və bərabərhüquqlu üzvü kimi müstəqil daxili və xarici siyasət yeridir.

Bu gün Azərbaycanın müstəqilliyə qovuşmasında yaxın-uzaq xaricdə yaşayan soydaşlarımızın da diqqətəlayiq xidmətləri vardır. Harada yaşamasından asılı olmayaraq, öz ənənələrinə sadiq qalan, milli-mənəvi köklərinə bağlı olan vətənpərvər soydaşlarımız tarixi Vətənə – Azərbaycana müqəddəs övladlıq borcunu ləyaqətlə yerinə yetirir, Azərbaycan həqiqətinin, xalqımızın haqq səsinin dünyaya obyektiv çatdırılmasında ardıcıl fəaliyyət göstərir, dərdimizə, sevincimizə şərik olurlar. Məhz bu mənəvi birlik və milli həmrəylik dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və bu yolda yeni uğurlar qazanılmasına xidmət edir.

Bu əlamətdar gündə sizi bir daha əmin etmək istəyirəm ki, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızın mənəvi Vətəni olan Azərbaycanın qapıları öz övladlarının üzünə həmişə açıqdır. [238-239]

Əziz soydaşlarımız!

Hamınızı Dünya azərbaycanlılarının həmrəylik günündə bağrıma basır, hər birinizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayır, Vətənimizin çiçəklənməsi naminə sizi əməl və amal birliyinə dəvət edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*30 dekabr 1995-ci il* [239-140]

## YENİ İL MÜNASİBƏTİLƏ BAKI ŞƏHƏRİNDƏKİ UŞAQ EVLƏRİNDƏ VƏ İNTERNAT MƏKTƏBLƏRDƏ TƏRBİYƏ ALAN UŞAQLARLA GÖRÜŞDƏ ÇIXIŞ

*Şəhriyar adına Mədəniyyət Mərkəzi*

*31 dekabr 1995-ci il*

Əziz balalar! Sizin hamınızı üzümüzə gələn Yeni il, 1996-cı il münasibətilə təbrik edir, sizə cansağlığı arzulayıram. Bu gün sizi belə gözəl əhval-ruhiyyədə görəndə, gözəl özfəaliyyət yaradıcılığımızı görəndə, əl işlərinizi, çəkdiyiniz şəkilləri görəndə, düzəltdiyiniz oyuncaqları görəndə həddindən artıq sevindim. Bizim balalarımız istedadlıdırlar, çox böyük həvəslə yaşayırlar. Bu, bizim fəxrimizdir. Sizi bu gün belə mühitdə, bu gözəl şəraitdə görəndə, bir el sözü var, – ürəyim dağa dönür. Məni nə qədər sevindirdiniz. Bu günlərdə bəlkə də məni ən çox. sevindirən hal sizinlə görüşməyimdir.

Ümumiyyətlə, uşaqları görəndə hər bir yaşlı insan, yaxud ata-ana, valideyn sevinir. Çünki uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir. Uşaqlar həyatımızı şənləndirən, bəzəyən, gözəlləşdirən doğma övladlarımızdır. Hər bir insan üçün dünyada uşaqlardan istəkli heç bir şey ola bilməz. Mən də həyatımda daim uşaqları sevmişəm, öz balalarımı da sevirəm. Amma sizin hamınız mənim balamsınız. Sizi öz balam kimi sevirəm və sizi öz balam hesab edirəm.

Siz burada dəfələrlə mənə müraciət edərək "Heydər baba" dediniz. Mən bununla fəxr edirəm. Mənim, deməli, Azərbaycan dövlətinin bu qədər gözəl övladları var və onlar üç yaşında, dörd, beş, altı yaşında belə istedada malikdirlər. O şerləri ki, siz deyirsiniz, gənclərin də çoxu deyə bilməz. Siz ki, belə gözəl rəqs edirsiniz, bunu çoxları edə bilməz. O mahnıları ki, siz oxuyursunuz, onları çoxları oxuya bilməz. Bu, sizin nə qədər istedadlı olduğunuzu göstərir və hər birinizin uşaq vaxtından özünüzü ifadə etmək iradənizi göstərir. Siz özünüzü ifadə edirsiniz, bu, çox sevindirici haldır. Mən bununla fəxr edirəm, sevinirəm və hamınızı bağrıma basıram, öpürəm. Hər biriniz mənim üçün əzizsiniz, doğmasınız. Bu uşaqlıq dövrünüzdə hər birinizə şən, sağlam, firavan həyat arzulayıram. Ça[240-241]lışacağam əlimdən gələni edim ki, sizin həyatınız daim şən, xoşbəxt, firavan olsun.

Mən bu gün sizin tərbiyəçilərinizi, müəllimlərinizi, sizinlə məşğul olan, tərbiyə ocaqlarında fəaliyyət göstərən vətəndaşlarımızı təbrik edirəm. Görürəm ki, buradakı tərbiyəçilərin əksəriyyəti qadınlardır – cavan, gənc qadınlardır. Qadın uşağın dilini yaxşı bilir, bizdən də yaxşı bilir. Ona görə sizin müəllimlərinizi, tərbiyəçilərinizi, sizin tərbiyənizlə, təhsilinizlə, öz-fəaliyyət yaradıcılığınızı meydana çıxarmaqla məşğul olanların hamısını Yeni il münasibətilə təbrik edir və bu xeyirxah işlərinə görə, uşaqlara ürəkdən, candan qayğı göstərdiklərinə görə, uşaqların daxilindəki istedadı üzə çıxarmaq üçün göstərdikləri səylərə görə onlara təşəkkür edirəm. Çox sağ olun!

Bu gün sizə baxaraq on, on beş, iyirmi il sonrakı Azərbaycanı görürəm. Bizim nə qədər gözəl gələcəyimiz var, Azərbaycanın necə parlaq gələcəyi var, bizi nə qədər gözəl günlər gözləyir! Çünki Azərbaycanın gələcəyini təşkil edən sizin kimi istedadlı balalarımız var. Bu istedadlı balalar Azərbaycanın parlaq gələcəyini təmin edəcəklər. Sizi bir daha təbrik edirəm. Balalarım! Sizi də, müəllimlərinizi, tərbiyəçilərinizi, valideynlərinizi, qohum-əqrəbanızı da təbrik edirəm. Bu işlərə rəhbərlik edən müvafiq təşkilatların başçılarını da təbrik edirəm. Bilirəm ki, Bakı şəhər icra hakimiyyəti bu işdə xüsusi təşəbbüs göstərib, onları da təbrik edirəm. Bu işə qatılmış adamları və balalarımızın bu gün şən əhval-ruhiyyə ilə Yeni ili qarşılamalarını təşkil edənlərin hamısını təbrik edir, öz təşəkkürümü bildirirəm. Sağ olun, sizin hər birinizi öpürəm, bağrıma basıram, Yeni il münasibətilə hamınıza xoş arzularımı bildirirəm.

Mən sizə Yeni il hədiyyələri gətirmişəm. Bunları indi sizə paylayacaqlar. Sağ olun. [241-142]

## AZƏRBAYCAN XALQINA YENİ İL TƏBRİKİ

*31 dekabr 1995-ci il*

Hörmətli həmvətənlər!
Əziz bacılar, qardaşlar, Azərbaycan Respublikasının vətəndaşları!

Sizi qarşıdan gələn 1996-cı – Yeni il münasibətilə təbrik edirəm, sizə cansağlığı, səadət, işlərinizdə uğurlar diləyirəm.

Biz 1995-ci ilin son dəqiqələrini yaşayırıq. 1995-ci il Azərbaycan Respublikasının, xalqımızın həyatında böyük nailiyyətlər ili, əlamətdar hadisələr ili kimi tariximizə artıq daxil olubdur. 1995-ci ilin ən böyük nailiyyəti ondan ibarətdir ki, Azərbaycan xalqı öz dövlət müstəqilliyini daha da möhkəmləndirdi, Azərbaycan Respublikası müstəqil dövlət kimi yeni bir ili başa vurdu.

1995-ci ildə biz uzun illər arzusunda olduğumuz müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etdik. Bu, tarixi hadisədir. Azərbaycan dövlət müstəqilliyinin dördüncü ilini müstəqil dövlətin konstitusiyası ilə başa vurdu. Biz ilk dəfə müstəqil Azərbaycanın demokratik parlamentini seçdik və parlament artıq formalaşıb fəaliyyət göstərir. Azərbaycanın ilk demokratik konstitusiyasının qəbul olunması, ölkəmizin ilk demokratik parlamentinin seçilməsi Azərbaycanda demokratiyanın inkişafında böyük bir mərhələdir və müstəqil Azərbaycanın gələcəyi üçün yaxşı əsaslar yaradır. Müstəqil Azərbaycan bir daha dünyaya nümayiş etdirdi ki, xalqımız tutduğu yol ilə əzmlə gedir. Azərbaycanda demokratik hüquqi dövlət qurulur, demokratik vətəndaş cəmiyyəti yaranır, demokratiyanın bütün tələbləri respublikamızda bərqərar olub və bunların gələcəkdə də inkişaf etməsi, insanların sərbəst, azad yaşaması üçün, onların haqlarının qorunması üçün və hər bir vətəndaşın öz istəyini, arzusunu sərbəst yerinə yetirməsi üçün lazımi şərait yaranıbdır.

Azərbaycanın konstitusiyasının qəbul olunması və ilk demokratik parlamentin seçilməsi respublikamızın həyatında dörd il gedən çətin, ağır ictimai-siyasi proseslərin sona çatdığını göstərir. Bu proseslər Azərbaycanda müstəqil dövlətin yaşaması üçün çox çətinliklər yaratmışdı. Ona görə də bunların [242-243] hamısının nizama salınması və nəhayət, konstitusiyanın qəbul olunması Azərbaycanda dövlət müstəqilliyinin daimi, əbədi olmasını bir daha dünyaya sübut etdi. Biz 1995-ci ili sona çatdıraraq böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, Azərbaycanın dövlət müstəqilliyi qorundu, saxlanıldı və onun əbədi olması üçün, Azərbaycan xalqının əbədi olaraq milli azadlıq şəraitində yaşaması üçün yaxşı şərait əldə edilib.

1995-ci ilin mühüm cəhəti bir də ondan ibarətdir ki, bu ildə xalqımız atəşkəs rejimində, sülh və əmin-amanlıq şəraitində yaşayıbdır. Ermənistanla Azərbaycan arasında yeddi ildən artıq gedən müharibədə, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində baş vermiş münaqişədə 1994-cü ildə əldə edilmiş atəşkəs sazişi bütün 1995-ci ildə qorunub saxlanıbdır. Bütün ilin sakit keçməsi, yəni cəbhədə atəşin olmaması, qan tökülməməsi, insanlarımızın sülh şəraitində yaşaması son illərin böyük nailiyyətlərindən biridir.

1995-ci ildə respublikamızı atəşkəs rejimində yaşadaraq biz müharibəyə son qoymaq, böyük sülh əldə etmək üçün, işğal olunmuş torpaqlarımızdan işğalçı silahlı dəstələrin çıxarılması, respublikamızın ərazi bütövlüyünün təmin olunması üçün ardıcıl fəaliyyət göstərmişik. Bu gün demək olar ki, biz müəyyən nailiyyətlər əldə etmişik. Bir il müddətində atəşkəs rejiminin saxlanması onu göstərir ki, biz artıq həm dünya ictimaiyyətini, həm də Azərbaycana təcavüz edən Ermənistanın dairələrini sülhün zəruri olması üçün lazımi qərarlar qəbul edilməsi fikrinə gətirib çıxara bilmişik. Bununla yanaşı, bir il müddətində ardıcıl surətdə cürbəcür səviyyələrdə, çərçivələrdə aparılan danışıqlar bizim sülhə doğru hərəkətimizi sürətləndirib və Ermənistan-Azərbaycan münaqişəsinin aradan götürülməsi, Dağlıq Qarabağ probleminin həll olunması üçün gərəkli şərait yaranıbdır.

Ümidvaram ki, 1995-ci ildəki nailiyyətlər 1996-cı ildə Böyük Sülh Sazişinin əldə olunması, böyük sülhün yaranması üçün yaxşı əsas yaradır və bunlardan səmərəli istifadə edərək biz 1996-cı ildə respublikamızı hərbi təcavüzdən xilas edə bilərik, işğal olunmuş torpaqlarımızdan işğalçı qüvvələri çıxara bilərik, respublikamızın ərazi bütövlüyünü təmin edib, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarını öz elinə-obasına qaytara bilərik. Bu barədə həm beynəlxalq təşkilatlar səviyyəsində – BMT-nin qurumlarında, ATƏT-in Minsk qrupu çərçivəsində, başqa beynəlxalq təşkilatlarda apardığımız işlər, [243-244] həm də dünyanın böyük dövlətlərinin başçıları, nümayəndələri ilə aparılan danışıqlar və bizim göstərdiyimiz cəhdlər həmin bu nəticələrə gətirib çıxarıbdır.

1995-ci ildə bu sahədə görülmüş işlər barədə danışmaq çox vaxt aparar. Ancaq onu qeyd etmək istəyirəm ki, beynəlxalq təşkilatlarda aparılan danışıqlarla yanaşı, Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması üçün son illərdə təşəbbüs göstərmiş Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton ilə, Rusiyanın prezidenti cənab Boris Yeltsin ilə, Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl ilə və başqa böyük ölkələrin başçıları ilə mənim şəxsən apardığım danışıqlar və əldə olunan anlaşmalar, razılıqlar onu göstərir ki, bütün dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən dünyanın aparıcı dövlətləri, bizim bölgədə sülhün yaranmasını arzu edirlər, bunun yaranması üçün fəaliyyət, səylər göstərirlər və ümidvaram ki, bundan sonra da

göstərəcəklər.

Bizim 1995-ci ildə əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, son illərdə respublikamızı ağır vəziyyətə salan, daxilimizdə mövcud olmuş qarmaqarışıqlığa, ayrı-ayrı qrupların hakimiyyət, vəzifə uğrunda mübarizəsi, ayrı-ayrı silahlı dəstələrin Azərbaycanı içəridən dağıtması hallarına artıq son qoyulmuşdur. Mən bu gün, Yeni il ərəfəsində, bir daha qeyd etmək istəyirəm ki, xalqımızın, respublikamızın son illərdə bu ağır vəziyyətə düşməsinin əsas səbəbi Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bərabər, respublikamızın daxilində ayrı-ayrı qrupların, dəstələrin, qüvvələrin vəzifə mübarizəsi, şəxsi ambisiyaları, şəxsi məqsədlərinə nail olmaq üçün qeyri-qanuni hərəkətləridir. Onların qeyri-qanuni hərəkətləri xalqımızı belə bir ağır vəziyyətə salmışdır.

Əziz həmvətənlər, siz bunların şahidisiniz. 1993-cü ildə Azərbaycan Respublikasının vətəndaş müharibəsi həddinə gəlib çıxması, 1994-cü ildə Azərbaycanda müxtəlif dəstələrin, qrupların, o cümlədən, təəssüf ki, ayrı-ayrı siyasi partiyalara, təşkilatlara mənsub olan qrupların ilboyu respublikamızda sabitliyi pozmaq, dövlət quruculuğunu dağıtmaq meylləri – bunlar hamısı dediklərimə əyani sübutdur.

Biz bunların qarşısını aldıq. Ancaq buna baxmayaraq 1995-ci ildə yenə də bu cəhdlər davam etdi. Bu cəhdlər davam etdikcə insanlarımız qorxu altında yaşayıb sabitlik olmadığına görə gələcəyə ümidsiz olmuşdu və respublikamızda ağır bir [244-245] vəziyyət yaranmışdı. 1995-ci ilin əvvəlindən bu cinayətkar qruplar yenə də öz cinayətkar əməllərini həyata keçirməyə cəhdlər göstərdilər. Mart ayında yenidən Azərbaycanda dövlət çevrilişi etmək cəhdləri oldu, onların qarşısı alındı. Ancaq bunlar da dərs olmadı. Azərbaycanın daxilində olan düşmən qüvvələr və ölkəmizin müstəqilliyini pozmaq üçün, respublikamızın inkişafına mane olmaq üçün təxribat xarakterli tədbirlərə əl atan xarici qüvvələr yenə də öz cəhdlərindən əl çəkmədilər. Məlum mart hadisələrindən sonra 1995-ci ildə Azərbaycanda müxtəlif terror aktlarının həyata keçirilməsi cəhdləri, körpü partlatmaq, başqa təxribat halları və yenidən bir dəstənin terror vasitəsilə Azərbaycanda dövlət çevrilişi etmək cəhdləri də mövcud oldu. Bunların da qarşısı alındı. Bütün bu cinayətlərin qarşısı alınarkən, onlar təhqiq olunarkən, araşdırılarkən respublikamızda yeni-yeni cinayətkar qruplar, silahlı dəstələr aşkar oldu. Onlar da zərərsizləşdirildilər, aradan götürüldülər. Onlara qarşı lazımi qanuni tədbirlər görüldü.

Bütün bunların nəticəsində həm respublikamızın ictimaiyyəti, həm də dünya ictimaiyyəti gördü ki, Azərbaycan dövləti öz dövlətçiliyini qorumağa qadirdir və Azərbaycan Respublikasında insanların normal yaşaması üçün şərait yaratmaq mümkündür. Məhz görülən tədbirlərin nəticəsində respublikamızda siyasi-ictimai sabitlik, əmin-amanlıq əldə olunubdur. Respublikamızda dövlət quruculuğu prosesini, ölkəmizin iqtisadiyyatında islahatları aparmaq üçün artıq lazımi şərait yaranıbdır.

Beləliklə, 1995-ci ilin əlamətdar cəhəti bir də ondan ibarətdir ki, son illərdə ölkəmizin xaricindən və daxilindən respublikamızı dağıtmaq, parçalamaq, qarışıqlıq yaratmaq, insanları təhlükə altında yaşatmaq cəhdləri ilə fəaliyyət göstərən qruplar artıq zərərsizləşdiriliblər, aradan götürülüblər, onların haqqında qanun çərçivəsində tədbirlər görülür. Onların xaricdə yaşayan havadarları da və bu gün hələ respublikanın daxilində gizli olaraq yenə də bəzi ümidlərlə yaşayan qüvvələr də artıq dərk etməlidirlər ki, bunların heç biri nəticə verməyəcəkdir. Ölkəmizdə stabil vəziyyət yaranıbdır, yenə də qeyd edirəm, Azərbaycanın dövləti özünü qorumağa qadirdir, vətəndaşlarımız rahat yaşaya bilərlər, öz arzu və istəklərini yerinə yetirə bilərlər.

1995-ci ildə Azərbaycan Respublikası beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirmək üçün çox tədbirlər gördü və [245-246] bunlar çox yaxşı nəticələr verdi. Beynəlxalq təşkilatların toplantılarında respublikamızın iştirakı və Azərbaycanın mövqelərinin bəyan edilməsi, dünyanın bir çox dövlətləri ilə qarşılıqlı əlaqələrin yaranması və davam etdirilməsi, ayrı-ayrı ölkələrə respublika başçısının səfərləri və dünyanın bir çox ölkələrinin başçılarının, nümayəndə heyətlərinin Azərbaycana səfərləri, əldə olunan sazişlər və bunların nəticəsində respublikamızın dünyanın bir çox ölkələri ilə yaranmış ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələri Azərbaycan Respublikasının, müstəqil dövlətimizin dünya miqyasında mövqelərini möhkəmləndirdi, Azərbaycanı müstəqil dövlət kimi dünya ictimaiyyətinə daha da yaxından tanıtdırdı.

Bu baxımdan mən beynəlxalq aləmdə ən mühüm hadisələri qeyd etmək istəyirəm. İkinci dünya müharibəsində alman faşizmi üzərində çalınmış qələbənin 50 illik yubileyini bütün dünya, o cümlədən Azərbaycan Respublikası, qeyd etdi. Dünya miqyasında keçirilən tədbirlərdə Azərbaycan Respublikasının yüksək səviyyəli nümayəndə heyəti Londonda, Parisdə, Moskvada iştirak etdi və ölkəmizi təmsil etdi.

İkinci dünya müharibəsindən sonra dünyada sülhü, əmin-amanlığı təmin etmək üçün yaranmış Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyi də beynəlxalq aləmdə 1995-ci ildə baş vermiş ən mühüm hadisələrdən biridir. Azərbaycan Respublikası bərabərhüquqlu bir dövlət kimi BMT-nin 50 illik yubileyində iştirak edərək ölkəmizi layiqli təmsil etdi. Həmin tədbirlərdə dünyanın bir çox ölkələrinin başçıları ilə keçirilən görüşlər, aparılan danışıqlar Azərbaycan Respublikasının dünya miqyasında mövqelərini bir daha möhkəmləndirdi.

1995-ci ildə biz respublikamızda iqtisadiyyatı inkişaf etdirmək, iqtisadi islahatları aparmaq üçün ölkəmizdə demokratikləşməni bütün sahələrdə həyata keçirmək üçün bir çox tədbirlər gördük. O cümlədən respublikamızın bazar iqtisadiyyatı yolu ilə inkişaf etməsi sahəsində bir çox tədbirlər həyata keçirdik. Məhz bu tədbirlərin nəticəsində, respublikamızda demokratiyanın mövcud olub inkişaf etməsini, ölkəmizdə bazar iqtisadiyyatı yolunda islahatların keçirilməsini nəzərə alaraq, dünyanın iqtisadi və maliyyə mərkəzləri Azərbaycana müsbət

münasibətlərini daha da artırdılar. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və dünyanın başqa iqtisadi, maliyyə mərkəzləri Azərbaycanla [246-247] əlaqələrini daha da gücləndirdilər və respublikamıza yardımı artırdılar.

Bu müddətdə bizim apardığımız danışıqlar, keçirdiyimiz görüşlər nəticəsində Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi, ölkəmizin iqtisadiyyatının inkişaf etdirilməsi üçün xeyli müddətə kreditlər ayrılmış və biz artıq onlardan istifadə edirik. Avropa İttifaqı Azərbaycana yardım göstərərək ölkəmizi ərzaq malları ilə təmin etmək üçün bizə xeyli kömək etmiş və bu kömək davam edir. Avropa İttifaqı ilə olan əlaqələrimiz Azərbaycanın bu İttifaqa daxil olması üçün yeni bir addım kimi qiymətləndirilməlidir.

Biz Azərbaycanı dünya iqtisadiyyatına açmışıq və ölkəmizi dünya iqtisadiyyatı ilə bağlamaq istəyirik, dünya iqtisadiyyatı ilə inteqrasiya prosesini aparırıq. Buna görə də 1995-ci ildə dünyanın mühüm iqtisadi mərkəzlərində bizim görüşlərimiz, danışıqlarımız və Azərbaycanın imkanlarının dünya iqtisadi mərkəzlərinə geniş surətdə bildirilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Londonda Adam Smit İnstitutunun Azərbaycana həsr olunmuş iqtisadi konfransı, Parisdə Ümumdünya Bankının Azərbaycana investisiya qoyulması ilə əlaqədar keçirdiyi böyük bir konfrans və bu kimi başqa tədbirlər ölkəmizin iqtisadi inkişafı üçün çox böyük tədbirlərdir. Güman edirəm ki, biz bunlardan səmərəli istifadə edəcəyik.

Bildiyiniz kimi, 1994-cü ilin sonunda respublikamız öz təbii sərvətlərindən səmərəli istifadə etmək üçün dünyanın nüfuzlu neft şirkətləri ilə böyük neft müqaviləsi imzaladı. Bu müqavilə dünyada çox böyük əks-səda doğurdu, müxtəlif fikirlər meydana çıxardı. Bir tərəfdən, Azərbaycanın böyük imkanları olduğunu nümayiş etdirdi, dünyanın böyük şirkətlərinin nəzər-diqqətini respublikamıza cəlb etdi. İkinci tərəfdən, ayrı-ayrı ölkələrdə, dairələrdə bizə qarşı təzyiqləri artırdı və mənfi münasibətləri meydana çıxardı. Amma bunlara baxmayaraq, biz tutduğumuz yol ilə getdik. 1995-ci ildə "Əsrin müqaviləsi" adlanan müqavilənin həyata keçirilməsi üçün çox gərəkli işlər görüldü və onlar da öz nəticəsini verdi. Bunların əməli nəticələrindən biri 1995-ci ilin oktyabrında imzalanmış böyük bir qərardır: Azərbaycanda müqavilə əsasında hasil ediləcək ilkin neftin nəqli üçün iki neft kəmərinin tikilməsi haqqında qəbul olunmuş qərar – bir neft kəmərinin Rusiyadan, ikinci neft kəmərinin Gürcüstandan keçib Qara dənizə çıxması haqqında olan qərardır. Bu qərar dünyada çox böyük maraq doğurdu, [247-248] dünya dövlətlərinin nəzər-diqqətini bizə cəlb etdi və ümumiyyətlə, çox yüksək qiymətləndirildi.

Azərbaycanın neft yataqlarından istifadə etmək üçün 1995-ci ilin noyabrında yeni bir müqavilə, "Qarabağ" neft yatağından istifadə olunması barədə müqavilə imzalandı və bu müqavilənin də həyata keçirilməsi üçün lazımi tədbirlər görüldü.

Beləliklə, iqtisadiyyatımızın imkanlarından istifadə etmək üçün dünya miqyasında gördüyümüz işlərə mane olmaq istəyən qüvvələr öz istəklərinə nail ola bilmədilər. Biz isə tutduğumuz yol ilə əzmlə gedirik və ümidvaram ki, 1996-cı ildə bu tədbirlər davam edəcək və Azərbaycanın iqtisadiyyatı üçün çox yeni nəticələr verəcəkdir.

1995-ci ildə respublikamızın iqtisadiyyatını inkişaf etdirmək, xalqın rifah halını yaxşılaşdırmaq üçün bir çox addımlar atdıq, bir çox qanunlar, proqramlar qəbul etdik. O cümlədən aqrar sektorda iqtisadi islahatların keçirilməsi üçün qanunlar qəbul olunub və onlar artıq əməli surətdə həyata keçirilir. Özəlləşdirmə proqramı qəbul olunub və qanun səviyyəsinə qaldırılıb. Özəlləşdirmə proqramı 1996-cı ildə geniş miqyasda həyata keçiriləcəkdir. Başqa tədbirlər də görülür və görülməkdədir. Bunlar hamısı bir tərəfdən Azərbaycanın daxili imkanlarından, böyük iqtisadi potensialından istifadə etmək üçün çox yaxşı şərait yaradır, ikinci tərəfdən Azərbaycanın dünya iqtisadiyyatına bağlanması, dünyanın inkişaf etmiş dövlətlərindən ölkəmizə sərmayələr gəlməsi üçün çox yaxşı şərait yaradılıb. Biz bu istiqamətdə bundan sonra da irəliyə gedəcəyik və ümidvaram ki, 1996-cı il bu tədbirlərin nəticələri ili olacaqdır.

1995-ci ildə görülən işlər çoxdur. Məhz buna görə də mən qeyd etdim ki, o, bizim tariximizə böyük nailiyyətlər və əlamətdar hadisələr ili kimi daxil olacaqdır. Bunların əsasında biz 1996-cı ilə böyük ümidlərlə baxırıq. Ümid edirəm ki, 1996-cı ildə bizim ən böyük, ən ağır problemimiz – xalqımızın Ermənistanın hərbi təcavüzündən xilas olması, müharibəyə son qoyulması, işğal olunmuş torpaqlarımızın azad edilməsi, yerindən, yurdundan didərgin düşmüş bir milyondan çox vətəndaşımızın öz elinə-obasına qayıtması problemi həll olunacaqdır.

Biz əvvəlki illərdə olduğu kimi, 1996-cı ildə də bu problemi sülh yolu ilə həll etməyə çalışacağıq. Bu sahədə indiyə qədər apardığımız tədbirləri davam etdirəcəyik. Hesab edirik ki, bunun üçün yaxşı zəmin yaranıbdır və biz burada istədiyimiz nailiyyətləri əldə edə biləcəyik. Xalqımız əmin ola bilər ki, [248-249] respublikanın prezidenti kimi mənim üçün bu, əsas vəzifədir. Bu, mənim həyatımın mənasıdır. Bu vəzifəni və öz Vətənimin, xalqımın qarşısında olan borcumu mən sona qədər həyata keçirmək üçün çalışacağam.

İqtisadi vəziyyətimiz ağırdır. Biz keçid dövründə yaşayırıq. Bunlar hamısı iqtisadiyyatda, xalqın rifah halında böyük çətinliklər yaradıbdır. Bunlar təkcə bizim respublikaya aid olan məsələlər deyil, bir iqtisadi sistemdən başqa bir iqtisadi sistemə keçən digər respublikaların həyatında da mövcud olan proseslərdir. Ancaq onu da demək istəyirəm ki, biz bu proseslərin öhdəsindən gələcəyik. Əminəm ki, 1996-cı ildə nəzərdə tutulmuş tədbirlər iqtisadiyyatda tədricən yüksəlişə nail olmaq üçün əsas yaradacaqdır və xalqın rifah halının

yaxşılaşdırılması üçün yeni şərait əldə olunacaqdır. Mən buna əminəm, buna inanıram və bu inamla da 1996-cı ildə biz öz işimizə başlayacağıq.

Respublikamız son illər ağır vəziyyətdə, müharibə şəraitindədir, bir milyondan çox vətəndaşımız qaçqındır, onlar ağır şəraitdə yaşayırlar. Bizi daim düşündürən, narahat edən onların vəziyyəti və öz yerlərinə, yurdlarına qayıtmasıdır. Qeyd etdiyim kimi, fəaliyyətimizin əsas istiqaməti bundan ibarətdir və əmin ola bilərsiniz ki, 1996-cı ildə bu sahədə səylərimiz daha da artacaqdır.

Beləliklə, biz 1996-cı ilə böyük ümidlərlə, arzularla gedirik və istərdim ki, Azərbaycanın hər bir vətəndaşı nikbin əhval-ruhiyyə ilə yaşasın. Nikbinlik üçün əsas var. Çünki, bir də deyirəm, biz müstəqilliyimizi möhkəmləndirmişik, ölkəmizin daxilində ictimai-siyasi sabitliyi əldə etmişik, buna nail olmuşuq. Xalqımızı bir çox cinayətkar qruplardan, dəstələrdən, hadisələrdən xilas etmişik. Əmin-amanlıq şəraiti yaratmışıq, insanların sakit yaşaması üçün imkanlar yaratmışıq və bundan sonra da yaradacağıq. Ona görə də nikbinlik üçün əsas var.

Şübhəsiz ki, 1995-ci ildə əldə olunmuş nailiyyətlər bizi qane etməməlidir və şəxsən məni qane etmir. Mən o nailiyyətlər haqqında deyərkən xalqımızda, millətimizdə gələcəyə inam yaratmaq istəyirəm. İnam yaratmaq üçün də əsasımız var. Bir də qeyd edirəm, əgər biz 1993-cü ildə vətəndaş müharibəsindən xilas olduqsa, 1994-cu ildə respublikamızı bir neçə dəfə dövlət çevrilişi cəhdlərindən xilas etdiksə, 1995-ci ildə bir neçə dövlət çevrilişinin qarşısını aldıqsa və cinayətkar qrupları aradan götürdüksə, respublikamızı bu cinayətkar qruplardan [249-250] müəyyən qədər təmizlədiksə, xalqımızda ümumi həmrəylik, milli həmrəylik hissləri yarada bildiksə, gələcəyə böyük ümidlər bəsləməyə bizim haqqımız, əsasımız var.

Məni sevindirən hal odur ki, artıq insanlar rahat yaşayırlar, bir-biri ilə mehribandırlar. Keçmiş illərdə olan o ədavət, qorxu, düşmənçilik hissiyyatları aradan götürülübdür. Əgər biz bunların hamısına nail olmamışıqsa da, ancaq çox irəliyə getmişik, çox şeylərə nail olmuşuq. Ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul olunması və demokratik prinsiplər əsasında Azərbaycan Respublikasının ilk parlamentinin seçilməsi respublikamızın həyatında, xalqımızda milli həmrəyliyin, vətəndaş həmrəyliyinin, milli birliyin artıq mövcud olduğunu göstərir.

Ancaq eyni zamanda, bunlar bizdə sayıqsızlıq hissləri yaratmamalıdır. Hələ bizim respublikamız çox təhlükələrdən xilas olmayıb. Azərbaycan Respublikasının dünya miqyasında müstəqil siyasət aparması çox dairələri narahat edir. Bizim müstəqilliyimizi əlimizdən almaq, yaxud onu məhdudlaşdırmaq üçün hələ də cəhdlər göstərilir. Bu, təkcə ayrı-ayrı dövlətlərdə olan müxtəlif dairələrin məramları, niyyətləri deyil, təəssüf olsun ki, həm respublikamızın daxilində, həm də ölkəmizin hüdudlarından kənarda yaşayan, xalqımıza mənsub olan ayrı-ayrı qrupların da niyyətləri və məramlarıdır. Ona görə də dövlət müstəqilliyimizi qorumaq bizim əsas vəzifəmizdir və bu gün sizi əmin edirəm ki, mən bir prezident kimi bunun keşiyində daim duracağam və bunu özüm üçün müqəddəs vəzifə hesab edirəm.

Respublikamızda qarışıqlıq yaratmaq, Ermənistanın təcavüzünü yenidən gücləndirmək və respublikamıza bəzi şərtləri qəbul etdirmək üçün təzyiq göstərmək istəyən qüvvələr də var. Bunları da unutmaq lazım deyil. Ona görə də biz birliyimizi daha da möhkəmləndirməliyik. Bizim əsas məqsədimiz, amalımız haqqında daim düşünməliyik və onu heç vaxt unutmamalıyıq. Ona görə də sayıqsızlığa yol vermək olmaz.

Biz nailiyyətlərimizi əlimizdə saxlamalıyıq. Amma eyni zamanda bilməliyik ki, hələ bizim qarşımızda duran vəzifələr də çoxdur və gələcəkdə gedəcəyimiz yol da hələ ağırdır, çətindir. Ona görə biz bir tərəfdən rahat, sakit olmalıyıq. Hər bir təxribatın, respublikamıza [250-251] qarşı hər bir mənfi münasibətin qarşısını almağa hazır olmalıyıq. Bunları hər bir vətəndaş bilməlidir.

Vətəndaşlarımız bundan sonra da vətənpərvərlik hissi ilə, vətəni, milli azadlığımızı, milli varlığımızı qorumaq hissi ilə yaşamalıdırlar. Bu hisslər hər bir vətəndaşın, hər bir azərbaycanlı insanın həyatının mənası olmalıdır. Məhz bu yolla biz xalqımızı daha da sıx birləşdirə bilərik və qarşımızda duran vəzifələri həyata keçirə bilərik.

Mən bu gün, Yeni il axşamı bildirmək istəyirəm ki, respublikamızın ağır sosial-iqtisadi vəziyyəti ilə əlaqədar əhalimizin bir hissəsi çətin, ağır maddi şəraitdə yaşayır. Biz bunu bilirik. Bu, şəxsən məni rahat qoymur, məni incidir. Ancaq xalqımız əmin olmalıdır ki, bütün bu çətinlikləri aradan götürmək, əhalimizin bütün təbəqələrinin rifahını yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik və mən bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Əmin ola bilərsiniz ki, bunlara nail olmaq üçün bizim imkanlarımız var və 1996-cı ildə bu imkanları hərəkətə gətirmək üçün biz lazımi tədbirlər görəcəyik.

Bir sözlə, 1995-ci ili biz məmnuniyyət hissi ilə yola salırıq, 1996-cı ili nikbinliklə qarşılayırıq. Yeni il münasibəti ilə sizin hamınıza nikbinlik arzulayıram, xoş niyyətlər arzulayıram, xoş əhval-ruhiyyə arzulayıram.

Mən Yeni il münasibətilə salamlarımı və təbriklərimi Azərbaycan Respublikasının müstəqilliyinin, torpaqlarımızın keşiyində duran, cəbhə bölgəsində olan Azərbaycan Milli Ordusunun əsgərlərinə, zabitlərinə, Milli Orduda xidmət edən övladlarımıza çatdırıram. Əziz döyüşçülərimiz, əsgərlərimiz, mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, müstəqil Azərbaycanın hüdudlarının, torpaqlarının keşiyində siz bundan sonra da cəsarətlə duracaqsınız.

Son illərdə respublikamızın müstəqilliyinin qorunmasında, torpaqlarımızın müdafiəsində, milli azadlıq uğrunda Azərbaycan xalqı şəhidlər verib. Son vaxtlarda dövlət çevrilişinə cəhd göstərən qüvvələrin qarşısını

alarkən xalqımızın igid övladları şəhid olmuşlar. Mən bu Yeni il axşamı bütün şəhidləri böyük minnətdarlıq hissi ilə xatırlayıram. Allah onlara rəhmət eləsin. Onların ruhu şad olsun. Bir də bəyan edirəm ki, şəhidlərin qəhrəmanlığı bizim qəlbimizdə, gələcək nəsillərin qəlbində əbədi yaşayacaqdır. Şəhid ailələrini Yeni il münasibəti ilə ürəkdən təbrik edirəm! Əziz həmvətənlərim! Sizin dərdiniz, [251-252] qəminiz bütün xalqımızın, mənim dərdimdir, qəmimdir. Biz sizinlə daim bir yerdəyik. Sizi təbrik edirəm, eyni zamanda sizə təşəkkür edirəm ki, sizin ailələrinizdə Azərbaycanın mənliyini qoruyaraq, özünü şəhid verən qəhrəman övladlar olublar. Siz bununla fəxr edə bilərsiniz.

Yeni il təbrikimi, salamlarımı qaçqın, köçkün vəziyyətində olan vətəndaşlarımıza çatdırıram. Onların bir çoxu çadırlarda yaşayır. Bəlkə də onlarda televizor yoxdur. Radio vasitəsilə, başqa vasitə ilə bəlkə mənim səsimi eşidəcəklər, mənim bu sözlərim onlara çatacaqdır. Sizin ağır vəziyyətdə yaşamağınız bizi daim rahatsız edir, incidir. Ancaq sizin dözümlülüyünüz bizdə böyük iftixar, qürur hissi doğurur.

Siz öz dözümlülüyünüzlə xalqımıza xas olan dözümlülüyü bir daha dünyaya nümayiş etdirirsiniz. Əmin ola bilərsiniz ki, siz öz evinizə, obanıza qayıdacaqsınız, öz doğma torpağınıza, öz əcdadlarınızın yaşadığı, sizin özünüzün yaşadığınız yurdlara qayıdacaqsınız. Buna əmin ola bilərsiniz. Dözmüsünüz, dözümlülüyə görə sizə təşəkkür edirəm. Sizi təbrik edirəm. Nikbin olun. Bu Yeni ili nikbinliklə qarşılayın və əmin olun ki, 1996-cı il sizə də, bizə də – hamımıza böyük nailiyyətlər gətirəcəkdir.

Mən Yeni il təbrikimi, salamımı Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün azərbaycanlılara çatdırıram. Bu gün, dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəylik günüdür, çox əlamətdar gündür. Artıq dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Onlar günü-gündən bir azərbaycanlı kimi müstəqil Azərbaycan Respublikasına öz hörmətini, məhəbbətini, sevgisini bildirirlər. Bu, müstəqil Azərbaycan üçün əlamətdar bir haldır. Ümidvaram ki, bu proses günü-gündən inkişaf edəcək və dünyanın bir çox ölkələrinə səpələnmiş azərbaycanlılar azərbaycanlı kimi özlərini daha da cəsarətlə dərk edəcəklər, bir-biri ilə həmrəy olacaqlar, bir-birinə əl tutacaqlar, bir-birinə yardım edəcəklər, bir-birinə dayaq olacaqlar. Hamısı birlikdə müstəqil Azərbaycan Respublikası ilə həmrəy olacaqdır. Biz də – müstəqil Azərbaycanda yaşayan azərbaycanlılar bütün dünya azərbaycanlıları ilə daim həmrəyik, daim onların qayğıları ilə yaşayırıq, onlar haqqında düşünürük, onlara öz hörmət və ehtiramımızı bildiririk. Mən sizi, əziz azərbaycanlılar, dünyanın hansı qitəsində, hansı ölkəsində olmağınızdan asılı olmayaraq, səmi[252-253]mi qəlbdən salamlayıram, sizi Yeni il münasibəti ilə təbrik edirəm!

Bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını bir daha ürəkdən təbrik edirəm! Hər bir vətəndaşımıza cansağlığı, səadət arzulayıram, işlərinizdə uğurlar arzulayıram. Əminəm ki, müstəqil Azərbaycan Respublikası, Azərbaycan dövləti, demokratik Azərbaycan 1996-cı ildə yeni bir tarixi addım atacaqdır.

Yeni iliniz mübarək olsun, əziz bacılar, qardaşlar, əziz həmvətənlər! [253-254]

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Sizi – respublikanın bütün pravoslav xristianlarını Milad bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan tarixən ayrı-ayrı dinlərin qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamasına nümunə olan bir ölkə kimi tanınmışdır. Hazırda demokratiya və tərəqqi yolu ilə irəliləyən respublikamızda bütün konfessiyaların inkişafı Üçün bərabər imkanlar yaradılmış, vətəndaş həmrəyliyi daha da möhkəmlənmişdir. Dini etiqadından, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşları hüquqi, demokratik cəmiyyət quruculuğunda və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində yaxından iştirak edirlər. Bu Ümummilli işdə Azərbaycanın pravoslav xristianları da öz səylərini əsirgəmirlər.

Əziz qardaş və bacılar, bayram günündə sizə möhkəm cansağlığı arzulayır, hər birinizə xoşbəxtlik və doğma Azərbaycanımızın çiçəklənməsi naminə uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 yanvar 1996-cı il* [254-255]

## AZƏRBAYCAN RESPUBLİKASININ İLK KONSTİTUSİYASINA UYĞUN OLARAQ İCRA VƏ İDARƏETMƏ İŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İLƏ BAĞLI RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN İLK İCLASINDA GİRİŞ SÖZÜ

*8 yanvar 1996-cı il*

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq prezidentin sədrliyi altında respublika Nazirlər Kabinetinin ilk iclası keçirilir. İclasda əsas məsələ müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ilə əlaqədar olaraq Nazirlər Kabinetinin işinin təşkil olunması və idarəetmə işinin təkmilləşdirilməsidir. Bu, birinci, əsas məsələdir. Eyni zamanda nəzərdə tutulur ki, özəlləşdirmə sahəsində aparılan işlər və onun bugünkü vəziyyəti haqqında məlumat dinlənilsin.

Müzakirəyə başlamazdan əvvəl qeyd etmək istəyirəm ki, Azərbaycanda mövcud Nazirlər Kabineti, onun strukturu və təkcə Nazirlər Kabinetinin yox, onunla bərabər idarəetmə orqanlarının strukturu, say tərkibi demək olar ki, 1990-cı ildən yaranmış Nazirlər Kabinetinin strukturu və say tərkibi kimi indiyədək davam edir.

Son illərdə respublikanın müstəqilliyi ilə və həyata keçirilən bir sıra tədbirlərlə əlaqədar olaraq təəssüf ki, Nazirlər Kabinetinin strukturunda, idarəetmə və mərkəzi icra orqanlarının strukturunda demək olar ki, heç bir dəyişiklik olmayıbdır. Ələlxüsus biz son vaxtlar bazar iqtisadiyyatı prinsiplərini artıq əməli surətdə həyata keçirdiyimiz zamanda da təəssüf ki, nazirliklər, komitələr, şirkətlər, ümumiyyətlə mərkəzi icra orqanları, idarəetmə orqanları elə köhnə qaydada, köhnə strukturla, say tərkibi ilə işləyirlər. Şübhəsiz ki, bütün bunlar kafi hesab edilə bilməz. Xüsusən son vaxtlarda bir neçə dəfə verilmiş göstərişlərin həyata keçirilməməsi də şəxsən məni çox narahat edir.

Noyabrın 12-də biz yeni konstitusiya, yəni müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etdik. Konstitusiyada həm Nazirlər Kabinetinin statusu, onun vəzifələri, səlahiyyətləri, həm də mərkəzi idarəetmə orqanlarının vəzifə[255-256]ləri, səlahiyyətləri konkret göstərilibdir. Mən bu gün təəssüflü qeyd etmək istəyirəm ki, konstitusiya qəbul olunandan sonra Nazirlər Kabineti və nazirliklər, komitələr tərəfindən konstitusiyanın həyata keçirilməsi üçün konkret təkliflər irəli sürülməyib, gözəçarpacaq bir iş görülməyibdir. Hər halda şəxsən məndə belə bir təsəvvür yaranır ki, bizim Nazirlər Kabinetin də, nazirliklərdə, komitələrdə köhnə struktura, qanun qaydaya, adət-ənənələrə o qədər öyrəniblər ki, hesab edirlər, yəqin, konstitusiya formal bir şey kimi qəbul olunub, amma biz elə necə yaşayırdıq, o cür də yaşayacağıq; necə işləyirdik, o cür də işləyəcəyik; hansı formada, hansı struktur var, o cür də olacaq. Bu, şəxsən məni çox narahat edir. Çünki bütün işlər tək elə yuxarıdan göstərişlə yox, hər bir vəzifəli şəxsin, hər bir orqanın fəaliyyəti və təşəbbüskarlığı ilə həyata keçirilməlidir Yuxarıdan göstərişə gələndə isə yuxarıdan konstitusiyadan artıq göstəriş ola bilməz.

Konstitusiya qəbul olunubdur. Konstitusiyanın layihəsi üzərində biz bir neçə ay çox intensiv işləmişik. Onun layihəsi ümumxalq müzakirəsinə verilibdir. Ümumxalq müzakirəsindən sonra müəyyən düzəlişlər, dəyişikliklər, əlavələr edilibdir və nəhayət, 1995-ci il noyabrın 12-də referendum vasitəsilə konstitusiya qəbul olunubdur.

Hər bir dövlət orqanının vəzifəsi konstitusiyadan irəli gələn vəzifələri yerinə yetirməkdən ibarətdir. Hər bir dövlət orqanı, hakimiyyət orqanı konstitusiyada özünəməxsus müddəalar görməlidir, – çünki bunlar orada var, – dərhal oturub düşünməlidir və tədbir görməlidir: bu konstitusiyanın filan maddəsinə, fəslinə, müddəasına uyğun olaraq mən nə iş görməliyəm, nə etməliyəm. Ancaq təəssüf ki, mən bizim mərkəzi icra orqanlarından – nazirliklərdən, Nazirlər Kabinetindən bu barədə heç bir təşəbbüs hiss etmirəm. Yenə də deyirəm, məndə belə bir təsəvvür yaranır: çoxları belə hesab edir ki, konstitusiya elə konstitusiya üçün yazılıbdır, biz keçmişdə necə yaşamışıq, necə işləmişik – o cür də yaşayıb, işləməliyik.

Bax, bunların hamısına görə də mən bu gün Nazirlər Kabinetinin iclasını konstitusiyaya uyğun olaraq öz sədrliyim altında keçirməyi zəruri hesab etmişəm. Şübhəsiz ki, gərək Nazirlər Kabineti belə bir iclası konstitusiya qəbul olunandan dərhal sonra keçirəydi, lazımi tədbirlər görəydi və prezidentə bu [256-257] barədə məlumatlar verəydi. Bunlar olmayıbdır. Vaxtı itirmişik. Ancaq bundan sonra vaxt itirmək olmaz.

Ona görə də müzakirəyə verilən birinci məsələ bundan ibarətdir. Bu barədə biz iqtisadiyyat naziri Sadıqovun və maliyyə naziri Yusifovun məruzələrini dinləməliyik. Digər məsələ barədə Tofiq Əzizovun məlumatını dinləməliyik.

Biz keçid dövründə yaşayırıq. Artıq dörd ildir ki, müstəqil dövlətik. Beşinci ildir ki, müstəqillik şəraitində yaşayırıq. Mən bunu dəfələrlə demişəm: biz danışanda, müzakirə aparanda şübhəsiz ki, Azərbaycan dilindən savayı rus dilindən də istifadə etmək olar. Ancaq bunun da bir müddəti olmalıdır. Ona görə də mən indi də və bundan sonra da etiraz etməyəcəyəm ki, bizim ana dilimizi bilməyən adamlar hələ ki, məruzələrini rus dilində

etsinlər. Ancaq xəbərdarlıq edirəm, – artıq vaxt, illər keçir, dili öyrənmək lazımdır. Bir adam gedib bir xarici ölkədə üç il, dörd il oxuyub başqa bir dil öyrənib gəlir. Ölkəmizdə, içərimizdə yaşayan, burada doğulmuş, yaşamış adamlar da dilimizi bilməlidirlər. İndi mən heç kimi günahlandırmıram. Keçmişdə ümumi işimiz belə olubdur ki, vəzifəli şəxslərin çoxu rus dilində təhsil alıb, işlərini rus dilində aparıblar. Mən bunların heç birisini günah hesab etmirəm. Keçid dövründə də insanlar müəyyən qədər bu keçid prosesində yaşayırlar, bu da təbiidir, ancaq nə qədər, neçə il lazımdır ki, vəzifəli şəxslərimiz dövlət dilimizi öyrənsinlər və biz müzakirələri də bu dildə aparaq?

Birini rus dilində dinləyib ona Azərbaycan dilində cavab vermək və yaxud onunla müzakirə aparmaq mənim üçün çətin deyil. Amma bu hər adam üçün də asan deyil. Yenə də deyirəm, əgər keçmişdə bəziləri buna ehtiyac duymayıblarsa, amma indi bu ehtiyac var axı! Oturun, müəllim tutun, bu dili öyrənin. Axı nə qədər olar, məgər elə dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz? Axı belə şey olmaz. Mən yenə də deyirəm, keçmişdə, Xalq Cəbhəsinin vaxtında bəzi insanları günahlandırırdılar ki, nə bilim, rus dilində danışmaq olmaz, düş aşağıya – mən bu şeylərin əleyhinəyəm.

Mən buraya gələndən – iki il yarımdır ki, bir yerdə işləyirik hesab edirəm, – insanlara sərbəstlik vermək lazımdır. Mən də bu şəraiti yaradıram ki, kim öz fikrini hansı dildə izah edə bilirsə, etsin. Ancaq heç kəs bunu daimi bir proses kimi qəbul etməsin. Bu keçid dövrümüzün müəyyən bir elementidir. An[257-258]caq keçid dövrünü əgər iqtisadiyyatda qısaltmaq istəyiriksə, dili mənimsəməkdə daha da qısaltmaq lazımdır.

Ona görə də, mən indiyədək bunu deməmişəm, ancaq bu gün mütləq deməliyəm: dövlət dilini yaxşı bilməyən adamlar məşğul olsunlar, müəllim tutsunlar, kitab oxusunlar, başqa yollarla dövlət dilini öyrənsinlər. Mən demirəm bu gün, sabah, bir aya, iki aya, amma qısa bir müddətdə bizim hamımız bütün müzakirələri dövlət dilində aparmalıyıq.

Məsələn, ordumuzda da vəziyyət belədir. Çünki keçmişdə Sovet Ordusunda olan terminlərin və s. əksəriyyəti dilimizə o qədər də çevrilməyib. Amma mən müdafiə nazirinə də göstəriş vermişəm ki, artıq vaxt keçib, təhsili də, ordunun idarəsini də, başqa şeyləri də tədricən dövlət dilimizə, Azərbaycan dilinə çevirmək lazımdır.

Ona görə də mən bunu bir Səməd Sadıqov üçün demirəm, bütün başqaları üçün də deyirəm və xahiş edirəm, bunu nəzərə alasınız. İndi sən rus dilində danışa bilərsən, buyur...

## YEKUN SÖZÜ

Bu məsələ çox böyük məsələdir. Bu barədə şübhəsiz ki, buraya dəvət olunanların əksəriyyəti fikir söyləyə bilər, təklif verə bilər. Ola bilər ki, bəziləri, hətta, düşünürəm, əksəriyyəti müdafiə etməyə çalışacaq ki, bu və ya digər nazirlik, komitə, şirkət, konsern lazımdır, bundan sonra onun işçilərinin sayını artırmaq lazımdır. Ola bilər, əksinə, bəziləri bu məsələyə iqtisadi nöqteyi-nəzərdən düzgün yanaşsınlar. Ancaq bu barədə müzakirə geniş ola bilər. Hesab edirəm ki, belə bir müzakirəyə indi ehtiyac yoxdur. Çünki indi biz hər bir naziri, komitə sədrini, şirkət, konsern rəhbərini dinləsək, onlar öz problemləri haqqında danışacaqlar. Bu problemlərin bəziləri məlumdur. Mən hesab edirəm ki, bu gün buna ehtiyac yoxdur. Bugünkü iclasımızın məqsədi bu barədə geniş fikir mübadiləsi aparmaqdan ibarət deyil. Çünki bu məsələ ümumiyyətlə aydındır. Ona görə də belə hesab edirəm ki, bir neçə fikirlə bu məsələnin müzakirəsini yekunlaşdıra bilərik.

Nə üçün mən hesab edirəm ki, müzakirəyə ehtiyac yoxdur? Çünki indi bizim əlimizdə heç bir layihə yoxdur. Bugünkü iclasın əvvəlində qeyd etdim ki, təkliflərin irəli sürülməsi, layihələrin hazırlanması barədə göstərişlər verilmişdi. Lakin belə bir [258-259] layihə yoxdur. Amma eyni zamanda vəzifə aydındır. Mən bir do qeyd etmək istəyirəm ki, əsas vəzifə Azərbaycan Respublikasının ilk konstitusiyasına uyğun olaraq ölkəmizdə mərkəzi icra orqanlarının işinin təşkil olunmasıdır. Yəni bu gün söhbət sadəcə 3-4 ay bundan əvvəlki çərçivədə getmir. Çünki o vaxt bizim yeni konstitusiyamız yox idi. Biz Sovetlər İttifaqından qalmış konstitusiya ilə yaşayırdıq. O vaxt biz sadəcə olaraq, ümumiyyətlə idarəetməni təkmilləşdirmək məsələlərini irəli sürürdük.

İndi bizim konstitusiyamız var – müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası. Bu konstitusiyada, xüsusən 114-cü maddədən başlayaraq Nazirlər Kabinetinin statusu, qnun vəzifələri, səlahiyyətləri müvafiq maddələrdə göstərilib. İndi, bir də deyirəm, məqsəd konstitusiyanın həyata keçirilməsi, onun əsasında konkret tədbirlər görməkdir. Ona görə də indi müzakirə etmək Üçün gərək konstitusiyadan irəli gələn təkliflər hazırlansın, verilsin, ondan sonra müzakirə olunsun. Buna görə də mən hesab edirəm ki, müzakirəyə ehtiyac yoxdur.

Biz iqtisadiyyat naziri Səməd Sadıqovun, maliyyə naziri Fikrət Yusifovun məruzələrini dinlədik. Onların məruzələrində mərkəzi idarəetmə, icra orqanlarında olan nöqsanlardan danışıldı və bu cür idarəetmə sisteminin artıq bizim bugünkü tələblərə uyğun olmadığı qeyd edildi. Onların da məruzələri, deyə bilmərəm ki, bu məsələyə geniş təhlil verdi. Ancaq məsələ aydındır.

Nə etmək lazımdır? Birinci növbədə Nazirlər Kabinetinin özünün işinin təşkil olunması həyata keçirilməlidir. Nazirlər Kabineti nədən ibarətdir? Son dəfə, səhv etmirəmsə, 1993-cü ilin iyun ayının sonunda Nazirlər Kabinetinin tərkibi Milli Məclisdə qərarla qəbul olundu. Ondan sonra Nazirlər Kabinetinin tərkibi

haqqında heç bir sənəd yoxdur və heç bir tədbir də görülmür. O, keçmişdə qaldı. Çünki o zaman Nazirlər Kabinetinin tərkibi o dövrdə mövcud olan konstitusiyaya uyğun olaraq müəyyən edilmişdi. İndi, bir daha qeyd edirəm ki, müstəqil dövlət kimi bizim ilk konstitusiyamızda Nazirlər Kabinetinin funksiyası, səlahiyyətləri, vəzifələri çox aydın göstərilmişdir. Ona görə də birinci növbədə gərək Nazirlər Kabineti özü Nazirlər Kabinetinin tərkibi haqqında təklif hazırlasın və prezidentin təsdiqinə versin.

Nazirlər Kabinetinin mərkəzi aparatının strukturu haqqında da təkliflər hazırlanmalıdır. Şübhəsiz ki, bu işlər konstitu[259-260]siyamıza, eyni zamanda iqtisadiyyatda strateji xəttimizə uyğun olmalıdır. Strateji xəttimiz məlumdur, iqtisadi islahatların keçirilməsindən, bazar iqtisadiyyatının bütün sahələrdə tətbiq olunmasından ibarətdir. Ona görə də Nazirlər Kabinetinin tərkibi buna uyğun olmalıdır. Bunlar da konstitusiyamızda öz əksini tapıbdır, – mən sadəcə olaraq bunu dəqiqləşdirirəm, buna uyğun olmalıdır.

Ancaq bir şeyi nəzərə almalıyıq. Hesab edirəm ki, bu, mütləq lazımdır. Biz bazar iqtisadiyyatına keçid mərhələsindəyik. Tam bazar iqtisadiyyatı Azərbaycanda bərqərar olduğu zaman, iqtisadi islahatlar həyata keçirildikdən sonra, alınan nəticələrlə əlaqədar, şübhəsiz ki, həm Nazirlər Kabinetinin, həm də bütün mərkəzi idarəetmə, icra orqanlarının funksiyaları, vəzifələri daha da təkmilləşəcək və o, tələblərə tam uyğun olmalıdır. Ancaq indi biz keçid dövründəyik. Keçid dövründə həm bu dövrün xüsusiyyətləri, həm də strateji xəttimizin tələbləri nəzərə alınmalıdır. Deməli, bu təkliflər həmin iki prinsip əsasında yaranmalıdır. Güman edirəm, bu prinsiplər əsasında Nazirlər Kabinetinin tərkibi hazırlanmalıdır və prezidentin təsdiqinə verilməlidir. Ancaq Nazirlər Kabinetinin tərkibini son olaraq müəyyən etmək üçün gərək bizim bütün sosial-iqtisadi sahələrin idarəetmə, rəhbər icra orqanlarının həm strukturları, həm onların say tərkibi, həm də səlahiyyətləri, vəzifələri müəyyən olunsun.

Burada mən respublikamızın bir neçə nazirliklərini və orqanlarını kənara çıxarıram. Bu, güc nazirliklərimiz, hüquq mühafizə orqanlarımız, Xarici İşlər Nazirliyidir. Bunlar Nazirlər Kabinetinin tərkibinə daxil deyil. Onlar ali icra orqanı olan prezidentin birbaşa tabeliyindədir. Eyni zamanda bu orqanların da həm strukturları təkmilləşdirilməlidir, həm vəzifələri dəqiqləşdirilməlidir, həm də səlahiyyətləri tam dəqiqləşdirilməlidir. Ona görə də bu orqanlar müstəqil olaraq Nazirlər Kabinetindən ayrı bu vəzifələri özləri yerinə yetirib öz təkliflərini birbaşa prezidentə təqdim etməlidirlər. Ancaq bütün başqa mərkəzi icra, idarəetmə orqanları Nazirlər Kabinetinin tərkibindədirlər. Ona görə də həmin orqanların hamısının birincisi, taleyi müəyyən edilməlidir. Hansı orqanın bundan sonra hansı sayda, tərkibdə fəaliyyət göstərməsi və onların strukturu müəyyən edilməlidir.

Bu iş həm Nazirlər Kabinetinin rəhbərliyi tərəfindən, həm [260-261] də həmin nazirliklərin, komitələrin, şirkətlərin, konsernlərin rəhbərliyi tərəfindən görülməlidir. Şübhəsiz ki, bunların hamısına Nazirlər Kabineti, xüsusən baş nazir bilavasitə rəhbərlik etməlidir. Burada bir neçə fakt göstərildi. Bundan çox da göstərmək olar. Məsələn, burada deyildi ki, respublikada inşaatla ondan artıq nazirlik, komitə məşğul olur. Bundan əlavə bir çox orqanlar öz tərkiblərində inşaat müəssisələri yaradıblar. Şübhəsiz ki, hər bir inşaat nazirliyi, komitəsi, şirkəti öz-özünü saxlamağa çalışacaq. Çalışacaq sübut eləsin ki, o lazımdır, o müstəqil olmalıdır, müstəqil fəaliyyət göstərməlidir. Ona görə də onların özü bu məsələni təkbaşına həll edə bilməzlər. Ancaq Nazirlər Kabineti, yəni onun rəhbərliyi bu məsələyə baxmalıdır. Məsələn, inşaat kompleksinə baxmalıdır və müəyyən etməlidir ki, inşaat sahəsində hansı nazirlik, ya komitə, yaxud şirkət və başqa orqan fəaliyyət göstərməlidir. O nədən ibarət olmalıdır. Nazirlər Kabineti bu məsələni həmin orqanların başçıları ilə birlikdə həll etməlidir. Məsələn, Nazirlər Kabinetində inşaat işləri ilə konkret olaraq Abid Şərifov məşğul olur. Bu məsələləri o, həmin nazirliklərlə, komitələrlə, şirkətlərlə bir yerdə həll edib öz təkliflərini verməlidir.

Yaxud Səməd Sadıqov burada dedi ki, bizim sənaye sahəsində çoxlu cürbəcür birliklərimiz, konsernlərimiz var. Keçmişdə sənayemizin əksər hissəsi Ümumittifaq tabeli sənaye olub. Ona görə də Azərbaycanda müvafiq nazirliyimiz olmayıb. Hətta yadımdadır, vaxtilə bizim neftayırma və neft kimyası sənayesi nazirliyimiz var idi. O vaxt Moskvadan dəfələrlə məsələ qoymuşdular ki, Azərbaycanda belə bir nazirliyin olmasına ehtiyac yoxdur. Çünki başqa respublikalarda belə nazirlik yoxdur. Bunu da ləğv etmək, o zavodları İttifaqın ayrı-ayrı nazirliklərində olan birliklərə bağlamaq lazımdır.

Bizim maşınqayırma, elektrotexnika sahələri üzrə zavodlarımız o vaxt da var idi, indi də var. Amma, məsələn, Neft-Kimya Maşınqayırma Sənayesi Nazirliyi Moskvada olduğuna görə onun burada "Azneftkimyamaş" adlı birliyi vardı. Həmin zavodların hamısı bu birliyə daxil idi. O deyəsən, indi də var, mövcuddur. Elektrotexnika sahəsində bizim bir çox zavodlarımız var idi. Əvvəldən də var idi, sonralar, xüsusən 70-ci illərdə biz elektrotexnika sahəsində bir neçə zavod yaratdıq. Xatirəmdədir, o vaxtlar mən bir neçə dəfə təşəbbüs etmişdim ki, bu zavodları birləşdirək, elektrotexnika birliyi yaradaq və onun Azərbaycanda ümumi bir rəhbərliyi olsun. Ancaq Elekt[261-262]rotexnika Sənayesi Nazirliyi buna razı olmurdu. Çünki elektrotexnikaya mənsub olan bir zavod orada bir idarəyə, o birisi isə başqa bir idarəyə daxil idi. Onlar sahələrarası rəhbərliyi pozmamaq Üçün buna razılıq vermirdilər və biz də bununla razılaşmalı olurduq.

Yaxud xatirəmdədir, 70-ci illərdə biz Elektrotexnika, Radio-texnika Nazirliyi ilə əlaqədar bir çox işlər gördük, burada zavodlar, müəssisələr yaratdıq. Biz onların da birliyini yarada bilmirdik. Çünki onlarda da hər

zavod Moskvada olan nazirliyin bir idarəsinə bağlı idi. O idarələr arasında o qədər də yaxın əlaqələr olmadığına görə onlar buna imkan vermirdilər.

Bu, keçmişdə olan vəziyyət idi. Amma təəssüf ki, bu vəziyyət indi də – Sovet İttifaqı dağılıb, biz dörd ildən artıqdır ki, müstəqil dövlət kimi yaşayırıq – bu struktur indiyədək də davam edir. O vaxtdan yaranmış bəzi birliklər elə yenə də birlikdir. İndi onlara şirkət, yaxud da konsern deyirlər, cürbəcür adlar qoyublar. Amma bir çox zavodlar da elə təkbaşınadır. Məsələn, Bakı kondisionerlər zavodu bir zavod kimi təkbaşınadır. Heç bir birliyə daxil deyil. Doğrudur, sonralar orada iki-üç zavod bir birlik əmələ gətirdi, onların özlərinin birliyi var. Amma eyni zamanda elektrotexnika ilə əlaqədar onun yanında başqa zavodlar da var, onlar da müstəqildirlər.

Ona görə də sənaye sahəsində, xüsusən ağır sənaye, maşınqayırma sənayesi sahəsində bizdə indiki struktur Sovet İttifaqı vaxtından qalan strukturdur. Amma elə hamısı elədir. Mən bunu iclasın əvvəlində dedim, bir də təkrar edirəm. Gərək Nazirlər Kabinetinin rəhbərliyi müəyyən etsin: onların bu müəssisələri idarə etməsi üçün hansı idarəetmə orqanı yaranmalıdır, yaxud yaranmalı deyil. Eyni zamanda, yeni bir şey yaratsaq, burada dedilər, bizdə respublika tərkibində 90-a qədər nazirlik, komitə, şirkət var. Onlardan 64-ü büdcədən maliyyələşdirilir. Onların bu qədər saxlanılmasına ehtiyac varmı, yoxsa yoxdur? Şübhəsiz ki, yoxdur.

Bir də qeyd edirəm, ancaq bu təkmilləşdirmə işi bir şeyi nəzərə almalıdır ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik, keçmiş sistemi saxlaya bilmərik. Yəni bu təkmilləşdirməni keçmiş sistemin əsasında apara bilmərik. Biz islahatlara, bazar iqtisadiyyatına uyğun struktur yaratmalıyıq. Ona görə də mən hesab edirəm ki, biz bu gün qərar qəbul etməliyik. Qərarımız da ondan ibarət olmalıdır ki, hər bir nazirlik, komitə, şirkət müzakirə olunan bu məsələlərlə əlaqədar öz təkliflərini bir [262-263] həftə müddətində Nazirlər Kabinetinə verməlidir. Nazirlər Kabineti, onun rəhbərliyi Nazirlər Kabinetinə daxil olan orqanlarla birlikdə bu gündən başlayaraq bu işlə ciddi məşğul olmalıdır. Bir həftə gözləməməlidir ki, hansı məsələləri bilavasitə özü həll edəcək, bu işləri indi aparmalıdır. Bir həftə ərzində alınan təkliflər nəticəsində Nazirlər Kabinetinin tərkibinin təşkil olunması haqqında təklif verməlidir – yanvar ayının 25-nə qədər. Eyni zamanda bizim bütün sosial-iqtisadi, təkrar edirəm, sosial-iqtisadi sahənin müasir tələblərə, konstitusiyanın tələblərinə uyğun idarə edilməsinin təkmilləşdirilməsi haqqında təklif verməlidirlər. Bu təkliflər ayın 25-nə qədər tam hazır olmalı, prezidentə təqdim edilməlidir və mən əvvəlcədən deyirəm, bu təklifləri alıb onlarla tanış olandan sonra bir neçə günün içərisində biz bir də belə geniş iclasa toplaşacağıq və orada bu məsələ geniş müzakirə oluna bilər. Artıq orada hər kəs nə ilə razıdır, nə ilə razı deyilsə – onu deyə bilər, yaxud da ki, o layihələrdə nəzərdə tutulmamış təklifləri irəli sürə bilər və biz beləliklə, son qərarımızı qəbul edə bilərik.

Ona görə də mən yenə deyirəm, bu gün geniş müzakirəyə ehtiyac yoxdur. Eyni zamanda, bu təkliflərin hazırlanma prosesində nazirliklər, – bu bütün nazirliklərə aiddir, – komitələr, konsernlər – hansılar ki, hesab edirlər ki, onlar yaşamalıdır və bundan sonra da həmin idarəetmənin bir subyekti kimi fəaliyyət göstərməlidir – onlar öz nazirliyinin, yaxud da ki, komitəsinin əsasnaməsini hazırlayıb verməlidirlər. Bu əsasnamələrdə həmin nazirliyin vəzifələri, səlahiyyəti, struktur və onun fəaliyyətinə aid olan bütün başqa əsas prinsiplər əks olunmalıdır. Bu əsasnamələr prezident tərəfindən təsdiq olunmalıdır və onun əsasında iş təşkil edilməlidir. Buna görə də mən bu gün tapşırıram ki, eyni zamanda bu vəzifənin də həyata keçirilməsi ilə paralel məşğul olasınız.

İdarəetmənin təkmilləşdirilməsi prosesində, struktur dəyişiklikləri prosesində şübhəsiz ki, bir çox ixtisarlar olacaqdır. Bununla əlaqədar olaraq mən hamını xəbərdar edirəm ki, heç kəs belə tədbirlərin həyata keçirilməsi ilə bağlı, öz sərəncamlarında olan əmlakın, binaların, maddi vəsaitlərin dağıdılmasına yol verməsin. Bunları qorumaq hər bir şəxsin borcudur. Bu xəbərdarlığı xüsusən ona görə edirəm ki, son illərdə respublikamızda, təəssüf ki, belə dağıdıcı proses gedibdir. Ayrı-ayrı nazirliklərin, idarələrin, komitələrin rəhbərləri, onların sərənca[263-264]mında olan məsələn, binanın, əmlakın bir hissəsini hansı şərtlərləsə kiməsə veriblər, başqa maddi vəsaitlərin bəzi hissəsini dağıdıblar. Bunlar da iqtisadiyyatımıza, respublikanın iqtisadi potensialına çox ağır zərbələr vurubdur.

Əgər bir kəs nazirdirsə, rəhbərlik etdiyi nazirlik onun şəxsi mülkiyyəti deyildir. Əgər bir kəs böyük müəssisənin rəhbəridirsə, o müəssisə onun şəxsi mülkiyyəti deyildir. Onun ixtiyarı yoxdur ki, müəssisənin bir hissəsini özbaşına götürüb hansısa bir kommersiya strukturuna və ya başqa birisinə versin. Biz indi özəlləşdirməyə gedirik. O müəssisələr ki, səhmdar cəmiyyəti tərəfindən idarə ediləcək, orada da heç kimin ixtiyarı olmayacaq ki, hətta özəlləşdiriləndən sonra da bu müəssisələrdən özbaşına istifadə etsin. Təəssüf ki, hələlik belə hallara çox rast gəlirik.

Keçmişdə respublikamızda ittifaq tabeliyində olan çoxlu layihə, elmi-tədqiqat institutları, ayrı-ayrı təşkilatlar olubdur. İndi onlar öz funksiyalarını itiriblər, binalarının bir hissəsində başlarını girləyirlər, bir hissəsini də götürüb ona-buna verirlər. Nə ixtiyarları var, kimin ixtiyarı var? Yoxdur! Ona görə belə olubdur ki, respublikanın rəhbərliyi tərəfindən bu işə nəzarət edilməyib, özbaşınalıq olubdur, kim nə istəsə edibdir. Buna yol vermək olmaz və buraxılan bütün səhvlər düzəldilməli və bundan sonra qarşısı çox qətiyyətlə alınmalıdır.

Bizdə Əmlak Komitəsi var, o nəyin sahibidir – təkcə fabriklərin, zavodların? Bəs Əmlak Komitəsi bunların sahibi deyilmi? Bunlar Əmlak Komitəsində uçotda var? Bəs nə cür olub ki, ayrı-ayrı nazirliklər, yaxud nazirlər, komitə sədrləri, institut direktorları, müəssisə rəhbərləri dövlət əmlakını özbaşına dağıdıblar? Biz bir ildir çalışırıq ki, dövlət əmlakının özəlləşdirilməsi haqqında proqram hazırlayaq və onu həyata keçirək. Ancaq eyni

zamanda son bir neçə ildə dövlət əmlakının bir hissəsi artıq dağıdılıbdır. Bunları bərpa etməliyik, hamısının qarşısı alınmalıdır. Mən bunu qətiyyətlə deyirəm və biz bu tədbirləri həyata keçirəcəyik. Bunu indi xüsusən ona görə deyirəm ki, təkmilləşdirmə prosesi gedəcək. Bu, müəyyən ixtisarlara gətirib çıxaracaqdır və bu prosesdə də belə hallara yol verilməsin.

Beləliklə, mən bu məsələnin müzakirəsini yekunlaşdırıram. Qarşımızda çox ciddi məsələ durur. 1996-cı ildə sürətlə iqtisadi islahatlar aparmalıyıq, iqtisadiyyatın idarə olunmasını təkmilləşdirməliyik, konstitusiyadan irəli gələn bütün vəzifələri [264-265] həyata keçirməliyik. Ona görə də bu işlərlə artıq ciddi məşğul olmalıyıq.

Nazirlər Kabinetinin indiyə qədərki işini mən kafi, qənaətbəxş hesab edə bilmərəm. Bu gün bunu sizə açıq deyirəm. Doğrudur, 1994-1995-ci illərdə Nazirlər Kabineti də bir neçə ağır proseslərdən keçibdir, yəni obyektiv səbəbləri var. Ancaq bununla yanaşı olaraq xeyli müddətdir ki, Nazirlər Kabineti sağlam bir tərkibdədir, lakin bu məsələlərin həll olunması üçün lazımi tədbirlər görmür. Nazirlər Kabinetinin işində çox süründürməçilik var. Mənə şikayətlər gəlir ki, məsələlərin çoxu uzun müddət həll olunmur. Nazirlər Kabinetinə gələn məktublar, kağızlar, təkliflər günlərlə, bəzən aylarla orada yatıb qalır. Bu isə ümumi işimizi nəinki irəli aparmır, əksinə, ləngidir, tormozlayır.

Ona görə də, təkmilləşdirmə prosesi öz yerində, Nazirlər Kabineti öz işini tamamilə kökündən dəyişdirməlidir. Bu cür işləməklə razı ola bilmərəm, – mən bunu hamınıza açıq deyirəm, – qətiyyən razı ola bilmərəm. Nazirlər Kabinetinin işi çox operativ olmalıdır, bu, operativ orqandır və bizim bütün məsələlərimizin, xüsusən iqtisadi məsələlərimizin, istehsalla əlaqədar olan məsələlərin həllindəki operativlikdən, çeviklikdən hər şey asılıdır. Amma belə operativlik, çeviklik yoxdur. Mən sizi bu barədə xəbərdar edirəm.

Keçən ilin mayında mən yeni baş naziri təqdim edərkən Nazirlər Kabineti qarşısında çıxış etdim. O vaxt mən Nazirlər Kabinetinin işinə aid ciddi iradlarımı bildirdim. Tapşırıqlar verdim ki, hər bir müəssisə, birlik, hər bir nazirlik mövcud şəraitdə öz işini daha da yaxşı aparmaq üçün Nazirlər Kabinetinə təkliflərini versin. Nazirlər Kabineti isə bu təkliflərə baxsın və lazımi tədbirlər görsün. Mən bu gün çox böyük təəssüf hissi ilə demək istəyirəm ki, tapşırıq elə oradaca qalıb, lazımi səviyyədə həyata keçirilməyib və bu, şübhəsiz, qənaətbəxş hesab edilə bilməz. Ona görə mən narazılığımı bildirirəm və sizə xəbərdarlıq edirəm. Belə işləmək olmaz.

Nazirlər Kabinetinin aparatı da çox ləng işləyir. Orada həddindən artıq bürokratizm mövcuddur. Xatirəmdədir, keçmiş illərdə, 70-ci illərdə də mən Nazirlər Kabinetinin aparatında olan bürokratizmi duyurdum, hiss edirdim, müşahidə edirdim. Onların aparatda olan işlərini o vaxt da bir neçə dəfə tənqid etmişdim. Ancaq sizə düzünü deyim, o vaxtla indini müqayisə etsək, o vaxt toya getməli idi. İndi bürokratizm o qədər artıb[265-266]dır ki, bunu təsəvvür etmək düzgün deyildir. Əgər o vaxt bürokratizmin bir qismi bəlkə də mövcud sistemlə əlaqədar idisə, – yəni o sistem elə idi ki, bəzən lazımsız məlumatlar, kağızlar tələb olunurdu, lüzumsuz müşavirələr, müzakirələr keçirmək lazım gəlirdi. Çox vaxt Nazirlər Kabineti Rəyasət Heyətinin, yaxud kabinetin iclasını keçirirdi, sonra onun qərarını yazmağa bir ay vaxt sərf edirdi, bir ay sonra da qərar yerlərə göndərilirdi və heç əhəmiyyəti də olmurdu. Bunlar hamısı keçmişdə gördüyümüz şeylərdir. Yenə deyirəm, bəlkə də o vaxt bunların bəziləri ümumiyyətlə həmin sistemin, bürokratik sistemin özünün günahlarından meydana gələn hallar idi, amma indi biz o bürokratik sistemdən axı, guya xilas olmuşuq.

Deyirsiniz ki, sovet sosialist sistemi bürokratik sistemdir, işlərin getməsinə mane olurdu. Sovet sistemi, sosialist sistemi ləğv olundu. İndi bu bürokratiyanı yaratmağa hansı şərait var, nə səbəb var? Amma bürokratiya var, özü də təkcə Nazirlər Kabinetinin aparatında deyil, bütün nazirliklərdədir, idarələrdədir, bütün komitələrdədir. Bu bürokratiya bir tərəfdən, sadəcə olaraq dövlət hakimiyyəti orqanlarında işləyən adamların səhlənkarlığının, yaxud işə pis münasibətinin nəticəsidirsə, ikinci tərəfdən, bütün mərtəbələrdə bəzi məsələlərin həllinə əngəl yaradıb bundan şəxsi mənfəət götürməklə bağlıdır. Bu, əngəllər çox vaxt süni surətdə yaradılır. Çoxları şikayətlənirlər ki, məsələ həll etmək mümkün deyil, işi uzadırlar. Ya nə isə umurlar, onu vermək lazımdır, yaxud da sadəcə olaraq işə baxmaq istəmirlər. O da, xəyanətdir, bu da xəyanətdir. Bunlara son qoymaq lazımdır.

Mən qeyd edirəm, Nazirlər Kabinetinin aparatından başlamış ta aşağıya qədər, yerli icra orqanlarına qədər bütün mərtəbələrdə, səviyyələrdə belə vəziyyət mövcuddur. Bu, müstəqil Azərbaycanın adını ləkələyir, vətəndaşlarda narazılıq törədir, hakimiyyətə qarşı mənfi münasibət yaradır; amma en dəhşətlisi odur ki, işimizin irəli getməsinə maneçilik törədir. Bunlar aradan qaldırılmalıdır.

Dövlət hakimiyyəti orqanlarında bütün sahələrdə vəzifədən sui-istifadə, rüşvətxorluq halları, – mən bunları qeyd etdim, – bütün orqanlarda var. Maliyyə naziri burada dedi ki, hüquq-mühafizə orqanları yoxlama aparırlar, bunlar iqtisadiyyatımıza zərər vurur, onlar bunu etməməlidirlər, bu yoxlamaların bəziləri də rüşvətxorluq məqsədi ilə aparılır. Doğrudur, mən bu fikirlə razıyam. Amma eyni zamanda bizim maliyyə orqanları [266-267] da bu qüsurlardan, nöqsanlardan azad deyildir. Vergi orqanları, gömrük orqanları da bu qüsurlardan azad deyildir. Əgər biz polis orqanlarının günahlarından danışırıqsa, bu, həqiqətdir, prokurorluq orqanlarının günahlarından danışırıqsa, bu, həqiqətdir. Amma biz o biri orqanlarda olan günahlardan da danışmalıyıq. Bu, hamısında var. Mən bu gün bunu tam açıqlığı ilə deyirəm və tələb edirəm ki, belə hallara son qoyulsun.

Güman edirəm ki, idarəetmənin təkmilləşdirilməsi həm bu bürokratizmin, süründürməçiliyin, işlərin normal getməsinə mane olan amillərin aradan götürülməsinə şərait yaradacaq, eyni zamanda vəzifədən sui-istifadə etmək, rüşvətxorluq hallarından xilas olmağa şərait yaradacaqdır. Ancaq təkcə bunlara ümid bəsləmək olmaz. Hər bir vəzifəli şəxs bilməlidir ki, biz xalqımızı, millətimizi, ölkəmizi, vətənimizi bu mənfi hallardan xilas etməliyik və iqtisadiyyatın irəli getməsi üçün idarəetmə orqanlarının işini təkmilləşdirməli, gücləndirməliyik.

Bir neçə sahələr var, onların işinə xüsusi baxılmalıdır. Mən bunu Nazirlər Kabinetinə bir neçə dəfə tapşırmışam, ancaq səmərəli nəticə əldə olunmayıb. Məsələn, bizim Azərenerji, yəni elektrik enerjisi kompleksində vəziyyət çox ağırdır. Elektrik stansiyaları işləyir, ancaq onların fəaliyyəti gündən-günə aşağı düşür. Əgər təsirli tədbirlər görməsək elektrik enerjisi ilə təchizatımız get-gedə çox ağırlaşacaqdır. Mən bu barədə Nazirlər Kabinetinə bir neçə dəfə göstəriş vermişəm. Hesab edirəm ki, struktur məsələlərini həll edən kimi bizim elektrik enerjisi kompleksinin işi xüsusi müzakirə olunmalıdır, oradakı vəziyyət təhlil edilməli və bütün bu məsələlər çox ciddi araşdırılıb lazımi tədbirlər görülməlidir.

Neft-qaz kompleksini götürək, bizim neft şirkəti iri şirkətdir, böyük imkanları var, ancaq deyə bilmərəm ki, günümüzün tələblərinə uyğun işləyir. Mən heç bilmirəm onlar nə iş görürlər. Vaxtilə biz Azərbaycanda hər gün məlumat alırdıq ki, nə qədər neft çıxarıldı, qaz çıxarıldı, niyə dünənkindən, keçən həftəkindən az çıxarılıbdır, səbəbi nədir, nə etmək lazımdır. Amma indi gəlin açıq danışaq, Nazirlər Kabineti bu işlə məşğuldurmu? Yox! Nazirlər Kabinetində neft və kimya şöbəsi var, onun on nəfər ştatı var. Nə iş görür bu on nəfər adam, nə işlə məşğuldur? Yoxlayırmı ki, hansı buruq nə üçün dünən, yaxud keçən ay az neft verib, harada qaz az çıxarılıb? Yoxlayırmı, nəzarət edirmi, yaxud bir təsir göstərirmi? Bu şirkəti buraxmışıq özbaşına. Mən Natiq Əliyevə bir neçə dəfə [267-268] demişəm və bu gün də deyirəm, neft müqaviləsi bağlanıb, başqa işlər görülüb, bunlar hamısı çox gözəldir, gələcəyimiz üçün lazımi işlərdir və bu sahədə şirkətin işini yüksək qiymətləndirirəm. Amma bu, təkcə şirkətin işi deyil, bununla biz hamımız məşğul oluruq. Bəs cari məsələlər? Oradan xəbər gəlir ki, neftçilərin məvacibini vermirlər, buradan xəbər gəlir ki, neftçilərin məvacibini vermirlər, neft şirkəti haraya isə sponsorluq edir, kömək edir. Əgər sən öz işçilərinə məvacib verə bilmirsənsə sponsorluq etməyə nə haqqın var?

Mən qəzetlərin birində oxudum ki, çıxarılan neftin uçotu aparılmadığına görə bir milyon ton neft zavodlara uçotsuz gedir və orada kimsə onu mənimsəyir. Yenə də deyirəm, mən bunu dünən qəzetdə oxumuşam. Bunun nə qədər həqiqət olduğunu deyə bilmərəm. Ancaq belə bir siqnal gələn kimi mən çox narahat oldum və göstəriş vermişəm ki, bunu yoxlasınlar. Amma eyni zamanda, bizim Nazirlər Kabineti bir baxırmı ki, neft nə qədər çıxdı, zavoda nə qədər gəldi və zavoddan nə qədər çıxdı? Buna bir nəzarət edən varmı, yoxsa yox? Görürəm ki, yoxdur. Nazirlər Kabinetindən buna nəzarət edən yoxdur.

Əvvəllər bir neçə dəfə gəldilər, məsələ qaldırdılar ki, biz Türkmənistandan qaz almalıyıq. Keçən illərdə almışıq, əgər indi qaz almasaq Azərbaycan batacaq, nə bilim, burada sosial partlayış olacaq və sair. Mən məsələni araşdırdım. Gördüm ki, burada bu məsələ ancaq ayrı-ayrı adamların mənafeyi üçün qaldırılır. Dedim ki, lap donsaq da bu il Türkmənistandan qaz almayacağıq. Yaşayırıq. Bilmirəm, Türkmənistandan qaz alanda bizim qaz təchizatımız bundan yaxşı idi, yaxud pis idi, deyə bilmərəm. Yaşayırıq. Hər halda biz ildə 6 milyard kub-metr qaz çıxarırıq. İldə 6 milyard kubmetr qaz çıxaran bir ölkə gedib başqa yerdən qaz alsın? Mən dünən idi, srağagün idi – Gürcüstandan gələn nümayəndələrlə görüşürdüm. Onların xarici işlər naziri və orada parlamentə deputat seçilən azərbaycanlılar mənimlə görüşə gəlmişdilər. Onlarla söhbət edirdim. Gürcüstanda qaz yoxdur. Türkmənistandan az miqdarda qaz alırlar, o da bir neçə müəssisəni təchiz etmək üçün. Yaşayırlar. Ağır yaşayırlar, ancaq yaşayırlar.

İndi biz 6 milyard kubmetr qaz çıxardığımız halda, gəlin gedək Türkmənistandan da qaz gətirək. Bizim televiziya da bilmirəm niyə bu mənasız işlərlə məşğuldur. İki gündən bir məlumat verir: Türkmənistana 80 milyon dollar borcumuz [268-269] var, onun filan qədəri verildi, filan qədəri verilmədi. Mən bilmirəm, bura televiziyanın nə dəxli var? Televiziyanın işi-gücü yoxdur? Həftədə bir dəfə məlumat verir. Mən Babəkə demişəm ki, ümumiyyətlə, bu məlumatlara nəzarət etsin. Bəzən yalan məlumatları götürüb verirlər. O gün televiziya ilə eşidirəm ki, yanvar ayının 24-də müstəqil dövlətlər başçılarının iclası olacaqdır. Gəlmişəm, telefon edirəm ki, bu müstəqil dövlətlər başçılarının iclası axı, ayın 19-dadır, bəlkə bir dəyişiklik var, mən bilmirəm, bir deyin görək. Ora-bura, bir yarım saat vaxt itirmişəm, yoxlayıram, heç bir dəyişiklik yoxdur. Yaxşı, televiziya bu məlumatı haradan götürüb verib? Hansısa bir məlumat agentliyi verib, bu da götürüb verir. Siz bilməlisiniz ki, dövlət işləri ilə əlaqədar olan xəbərlər dəqiq məlumatlar olmalıdır. Əgər siz müstəqil dövlətlər başçılarının görüşü haqqında məlumat vermək istəyirsinizsə, gərək onu bizdən, Prezident Aparatından soruşasınız. Çünki bu, dövlət başçısının görüşüdür. Burada sizə deyərlər və əgər lazımdırsa siz bunu verərsiniz. Ona görə də mən televiziya şirkətinin sədri Babəkə bu barədə bir neçə dəfə çox ciddi iradlarımı bildirmişəm. Fürsətdən istifadə edib, bu gün yenə də demək istəyirəm.

Amma yenə də qayıdıram həmin qaz məsələsinə. İndi bunu ona görə dedim ki, məsələn, son bır ayda mən televiziyadan üç dəfə eşitmişəm ki, Türkmənistana filan qədər borcumuz var, filan qədər verilib, filan qədəri də qalıb. Bunun əhəmiyyəti nədir, bilmirəm. Aydındır ki, borcumuz var, veririk və verəcəyik. İndi bizim bu qədər

borcumuz olduğu halda ayrı-ayrı adamlar gəlib təklif edirlər ki, gəlin yenə də gedək Türkmənistandan qaz alaq. Amma onun pulunu sonra nə ilə verəcəyik, bilmirəm.

Mən həmin Gürcüstandan məlumatlar alıram. Belə məlumatlar vaxtilə də gəlirdi ki, buradan benzin guya Gürcüstana keçir. Mənə dəqiq sənədlər gətiriblər – oradan birbaşa Ermənistana keçirirlər. Bunu bizim adamlar edibdir. Mənə bu barədə artıq məlumat veriblər. Həmin bu qazın, benzinin satılması barədə təsdiq olunan məlumatlar var, bunları yoxlayacaqlar.

Biz nə qədər qaz, neft çıxarırıq, hara gedir, nə edirik, bunlar bizim öz sərvətimizdir, – məlumatsızıq. Buna görə, hesab edirəm ki, bu yaxın vaxtlarda biz Dövlət Neft Şirkətinin məruzəsini dinləməliyik, ətraflı müzakirə etməliyik. Bir tərəf[269-270]dən onların problemlərini həll etməliyik, – çünki o problemlər həll olunmalıdır ki, Dövlət Neft Şirkətində neft və qaz istehsalı azalmasın, artsın. Eyni zamanda bax, bu nöqsanlar niyə mövcuddur – bu barədə də biz öz münasibətimizi bildirməliyik.

Başqa bir neçə komplekslər də var. Məsələn, maşınqayırma kompleksi. Bizim bir çox istehsal fondlarımız, zavodlarımız var, orada çoxlu adamlar işləyirlər. Nə etmək lazımdır? Mən keçən dəfə də, yəni 1994-cü ilin may ayında da dedim ki, gəlin fikirləşək görək, axı nə edək? İndi artıq keçmiş vaxt deyil ki, biz Dövlət Plan Komitəsindən filan-filan şeyləri alaq. Hər bir zavod özü fikirləşməlidir – nə etməli, hansı yolla getməlidir ki, bir şey istehsal etsin. Nə istehsal etməlidir? Əgər istehsal etdiyi mal bu gün bazarda qəbul olunmursa, demək, başqa şey istehsal etməlidir. Bu barədə təşəbbüskarlıq çox azdır.

Bir sözlə, idarəetməni təkmilləşdirməklə əlaqədar bir neçə xüsusi komplekslərin işini biz yaxın vaxtlarda, güman edirəm, fevralın birinci yarısında müzakirə etməliyik və lazımi tədbirlər görməliyik. Bir sözlə, iqtisadiyyatla ciddi məşğul olmalıyıq. İndi biz özəlləşdirmə haqqında məruzəni dinləyəcəyik. Şübhəsiz ki, strateji yolumuz məlumdur. Ancaq strateji yolumuzu həyata keçirənə qədər mövcud imkanlardan hər gün, hər ay səmərəli istifadə etməliyik.

Burada qərar layihəsi var, ancaq təəssüf ki, bu qərar layihəsi mən dediyim fikirlərin hamısını əhatə etməyib. Ona görə mən Fuad Quliyevə, Vahid Axundova tapşırıram ki, bu müzakirə və mənim bu fikirlərimlə əlaqədar bu qərar layihəsini sabahadək hazırlasınlar və sabah mən bunu imzalayım, hər yerə göndərək. Əsas işin təşkil olunması məsələsidir. Mən vaxtları, müddətləri dedim. Bu müddətlər dəyişilməzdir.

* * *

Qeyd etmək olar ki, Dövlət Əmlak Komitəsi müəyyən iş görüb və bu barədə Tofiq Əzizovun məruzəsini nəzərə almaq lazımdır. Ancaq eyni zamanda mən bu fikri xüsusi vurğulamaq istəyirəm ki, özəlləşdirmə bizim hər birimizin vəzifəsidir. Burada iki prinsip var: birincisi, dövlət əmlakının özəlləşdirilməsində ədaləti qorumaq lazımdır. İndiyədək dövlətin əmlakı dağılıb, bundan sonra buna yol verilməməlidir. Ona görə [270-271] də özəlləşdirmənin həyata keçirilməsində hər bir vəzifəli şəxs öz səlahiyyətinə aid olan vəzifələrin yerinə yetirilməsində dövlət mənafeyini qorumalıdır və gözləməlidir. Eyni zamanda biz özəlləşdirməni tezliklə, sürətlə aparmalıyıq. 1996-cı il iqtisadiyyatımızda özəlləşdirmənin geniş və sürətlə həyata keçirilməsi ili olmalıdır. Hesab edirəm, indiyədək bunun üçün görülən işlər bu proqramı 1996-cı ildə geniş surətdə və çox yüksək sürətlə həyata keçirməyə imkan verir. Ancaq lazımdır ki, hər kəs öz sahəsində bu işlə ciddi məşğul olsun.

Tofiq Əzizovun burada bir neçə fakt haqqında dediyi sözlər, yəni indiyədək dövlət əmlakının dağıdılması, ayrı-ayrı adamlar tərəfindən ucuz qiymətə satılması, – bu, dağıdılmaq deməkdir, – mənim bayaq dediyim fikirləri faktlarla bir daha təsdiq edir. Bunların haqqında ölçü götürülməlidir. Yəni, əgər belə qanunsuz hallara yol verilibsə – və verilibdir – bunların qarşısı alınmalıdır. Müvafiq qanun çərçivəsində bunlar bərpa olunmalıdır və şübhəsiz ki, bizim özəlləşdirmə proqramı ilə onlar özəlləşdirilməlidir. Biz imkan verə bilmərik ki, kimsə, haradasa vaxtilə nəyisə dağıdıbsa, həmin dağıtma da təsdiq olunsun. Biz onu təsdiq edə bilmərik. Tofiq Əzizov deyir ki, bu adamların bəziləri yoxdur. Onlar indi Azərbaycandadırlar. Əgər vəzifələrində yoxdurlarsa da, Azərbaycandadırlar. Lap Azərbaycanda deyilsə, Azərbaycandan kənardadırlarsa da, onlar haqqında qanun çərçivəsində lazımi tədbirlər görmək olar.

Yəni bir sözlə, özəlləşdirmə qanun çərçivəsində, dövlət əmlakının, dövlətin varidatının qorunması yolu ilə getməlidir. Eyni zamanda insanlara şərait yaratmaq lazımdır ki, onlar özəlləşdirmədən səmərəli istifadə. edib, təşəbbüskarlığı artıra bilsinlər, istehsal artırıla bilsin. Ümumiyyətlə, bunlar hamısı, nəzərdə tutulduğu kimi, xalqın rifahının yaxşılaşdırılmasını təmin etməlidir və güman edirəm ki, təmin edəcəkdir.

Özəlləşdirmə ilə əlaqədar konkret təkliflərə, məsələlərə bu günlərdə baxılmalıdır və sonra biz ona bir yerdə baxmalıyıq. Sənədlər hamısı lazımi səviyyədə təsdiq olunmalıdır. Özəlləşdirmənin geniş miqyasda aparılması üçün yollar açılmalıdır. [271-272]

**FRANSA TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ**

*Paris*

*11 yanvar 1996-cı il*

**Müxbir: Cənab prezident, Sizinlə görüşməyimizi, Sizdən müsahibə almağımızı özümüzə şərəf hesab edirik, bizim üçün vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Mənim adım Aluni de Polinidir. Mən bir neçə həftə bundan əvvəl Azərbaycanda olmuşam və Azərbaycana həsr edilən 300 dəqiqəlik film çəkmişəm. Sizdən indi alacağımız müsahibə "Evro-Nuys" kanalı ilə ingilis, fransız, alman və ispan dillərində efirə gedəcəkdir. Bu müsahibə dünyanın 80 ölkəsinə yayılacaqdır.**

**Cənab prezident, Siz Bakıdan Parisə qədər uzaq bir məsafəni qət edərək mərhum prezident Fransua Mitteranın dəfn mərasimində iştirak etmək üçün gəlmisiniz. Cənab Mitteranla Sizin əvvəllər dostluq əlaqələriniz olmuşdumu?**

**Cavab:** Bəli, olub. Mən cənab Mitteranı çox illərdir tanıyıram. Vaxtilə mən Moskvada işləyərkən, Sovetlər İttifaqının rəhbərlərindən biri – Siyasi Büronun üzvü, eyni zamanda, Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini olduğum zaman cənab Mitteran Moskvaya səfərlər edərkən onunla görüşlərim olub, danışıqlarda iştirak etmişəm və onunla şəxsi tanışlığım olubdur. Sonra mən Azərbaycanda prezident seçkilərindən iki ay sonra, yəni 1993-cü ilin dekabrında cənab Mitteran məni Fransaya rəsmi səfərə dəvət etmişdi. Bu rəsmi səfər zamanı mən cənab Mitteranın Fransada qonağı olmuşam və o vaxt biz çox əhəmiyyətli danışıqlar aparmışıq, bir neçə sənədlər imzalamışıq. Müstəqil Azərbaycan Respublikası ilə Fransa arasında ilk yüksək səviyyəli əlaqələri biz mərhum cənab Mitteran ilə 1993-cü ilin dekabrında yaratmışıq. Sonra cənab Mitteran ilə mən beynəlxalq toplantılarda da görüşmüşəm. Keçən ilin may ayında mən burada faşizm üzərində qələbənin 50 illik yubiley mərasimlərində iştirak edərkən cənab Mitteranla da görüşlərim, söhbətlərim olubdur. Bunlara [272-273] görə və cənab Mitteranın dünya siyasətində çox görkəmli xidmətləri olduğuna görə mən onun dəfn mərasiminə gəlmişəm.

**Sual: İkinci sualım siyasi xarakterli olacaqdır. Cənab prezident Əliyev, Siz ölkənizdə yeni demokratiya yaratmısınız, onun əsasını qoymusunuz. Siz kommunistlərin Rusiyada yenidən hakimiyyətə qayıtmasından qorxmursunuzmu?**

**Cavab:** Bilirsiniz, biz doğrudan da Azərbaycanda demokratik prinsiplər əsasında dövlət qurmuşuq. Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik. Demokratik prinsiplər əsasında yeni parlament seçmişik. Azərbaycan parlamentində, Azərbaycanın hakimiyyət orqanlarında kommunistlər yoxdur. Rusiyada kommunistlərin parlamentdə çox yer götürmələri, şübhəsiz ki, Rusiyada vəziyyətin müəyyən qədər dəyişməsinə gətirib çıxara bilər. Amma mən bunun böyük təhlükəsini görmürəm. Birincisi, parlamentdə çox yer götürmək hələ hakimiyyəti əldə etmək demək deyil. İkincisi, güman edirəm ki, o parlamentə seçilmiş kommunistlər də keçmiş kommunistlər kimi olmayacaqlar. Onlar demokratiya yolu ilə getməyə məcbur olacaqlar.

**Sual: Cənab prezident, bayaq qeyd etdiyim kimi, bir ay bundan əvvəl mən Azərbaycanda olmuşam. Azərbaycanda çoxsaylı görüşlərim olub – adi insanlarla küçələrdə görüşmüşəm, biznesmenlərlə, yaşlı adamlarla, gənclərlə görüşlərim olub. Mən ölkənizdə olarkən Azərbaycanın zəngin mədəniyyətinin şahidi olmuşam. Təəssüf ki, dünyanın bu bölgəsində Azərbaycan mədəniyyətinin zənginliyindən bizdə tam təfərrüatı ilə xəbərdar deyillər, Azərbaycana yalnız market, bazar kimi baxırlar. Azərbaycanın neft və qaz ilə zəngin bir dövlət olduğunu bilirlər. Sualım belədir: Siz nefti və qazı Avropaya satmaqdan başqa, Azərbaycan mədəniyyətini Avropaya ixrac etmək, çatdırmaq istiqamətində nələr etmək istəyirsiniz?**

**Cavab:** Biz bunu mütləq edəcəyik. Məsələ burasındadır ki, Azərbaycan keçmişdə müstəqil dövlət olmayıb. O, Sovetlər İttifaqının tərkibində olub. Ona görə də Azərbaycanın özünəməxsus zəngin mədəniyyəti Avropada, Qərbdə o qədər yaxşı tanınmayıbdır. Biz cəmi dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu müddətdə Azərbaycanın tanınması üçün artıq çox işlər görülübdür. Mən çalışacağam ki, Azərbaycanda [273-274] gördüyünüz zəngin, özünəməxsus milli mədəniyyəti Avropaya daha da geniş yayım. Biz baş qərargahı burada, Parisdə yerləşən YUNESKO-dan da istifadə edirik.

**Sual: Cənab prezident, son dəfə olduğum dövrdə məni həddindən çox təəccüb bürüdü, yaxşı mənada çox heyrətləndim. Küçələrdə gənclərdən, qocalardan, hərbçilərdən müsahibələr aldım, çoxsaylı adamlarla görüşdüm. Ömrümdə birinci dəfə idi ki, yüz nəfərdən eyni zamanda müsahibə aldım və hamı sizə olan sevgisindən, məhəbbətindən danışdı. Bir nəfər tapmadım ki, prezidenti sevmədiyini, onun məşhur olmadığını söyləsin. Bu hal ilə ömrümdə birinci dəfə qarşılaşdığım üçün sizə belə bir sualla müraciət edirəm: Siz özünüz məşhurluğunuzu, populyarlığınızı nə ilə izah edirsiniz?**

**Cavab:** Yəqin ki, həyatımda gördüyüm işlərlə. Mən öz xalqıma, millətimə, dövlətə həmişə sədaqətlə xidmət

etmişəm. Bilirsiniz ki, mən keçmişdə də uzun müddət, çox illər Azərbaycanda rəhbər olmuşam. Bundan sonra mən Sovetlər İttifaqının rəhbərlərindən biri olmuşam. Ancaq sonra bir neçə il mən cəmiyyətdən təcrid olunmuşam. Hətta mənə qarşı repressiyalar da etmişdilər. Mən üç il Naxçıvanda, doğulduğum yerdə, blokada şəraitində olan xırda bir şəhərdə yaşamışam. Ancaq 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başlayarkən xalq məni yenidən Azərbaycana tələb etdi.

Keçmiş illərdə də, indi də mən xalqa sədaqətlə xidmət edirəm. Mən məmnunam ki, xalq bunu qiymətləndirir. Bu barədə xüsusən Sizin bu fikriniz mənim üçün çox maraqlıdır. Çünki Siz tamamilə kənar, neytral bir müşahidəçisiniz. Sizə bu sözləri deyən adamlar yəqin ki, yalan danışmayıblar. Çünki sizin Azərbaycan dövləti ilə heç bir əlaqəniz yoxdur. Neytral, xarici bir vətəndaşa hər kəs öz ürəyini açıb, istədiyini deyib. Buna görə sizin bu məlumatınız öz orqanlarımın mənə verdikləri məlumatlardan qiymətlidir.

**Sual: Cənab prezident, məhz Sizə görə mən başda prezident Heydər Əliyev olmaqla Azərbaycan haqqında xüsusi bir film çəkmək istəyirəm. Əlavə iki sualım var. Bu suallarım Ermənistan ilə münaqişə, qaçqınlar problemi ilə əlaqədardır. Siz Dağlıq Qarabağla bağlı Ermənistanla Azərbaycan arasında olan** [274-275] **münaqişənin həll edilməsi yollarını nədə görürsünüz və Ermənistanın təzyiqləri barədə nələr demək istərdiniz?**

**Cavab:** Bilirsiniz, mən bu münaqişənin başa çatmasını onun sülh yolu ilə həll olunmasında görürəm. Yeddi il davam etmiş müharibə nə Ermənistana, nə Azərbaycana heç bir müsbət nəticə gətirməyib. Doğrudur, Azərbaycan çox böyük zərbələr alıb. Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşüb. Bütün bunlara baxmayaraq mən hesab edirəm ki, bu münaqişə sülh yolu ilə həll olunmalıdır. Bu münaqişəni sülh yolu ilə həll etmək üçün bizim şərtlərimiz çox sadədir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bütün ərazimizin hamısı azad edilməlidir.

Yurdlarından qaçqın düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə qayıtmalıdır. Bir müstəqil dövlət kimi Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır, Azərbaycan Respublikasının, dövlətinin tərkibində Dağlıq Qarabağ yeni status almalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərin də təhlükəsizliyi təmin edilməlidir. Bax, biz bu prinsiplər əsasında danışıqlar aparırıq. Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz sülhə, böyük sülhə nail olacağıq. Ermənistanla Azərbaycan əsrlər boyu qonşu xalqlar kimi yaşayıblar. Mən arzu edirəm ki, bizim dövlətlərimiz arasında yenidən sülh, əmin-amanlıq yaransın. Mən bu gün Ermənistan prezidenti cənab Ter-Petrosyanla burada bu barədə qısa bir danışıq aparmışam.

**Sual: Cənab prezident, Sizin ölkəniz Qara qızıl ilə, neft və qaz ehtiyatları ilə çox zəngin bir ölkədir. Siz Azərbaycanın bu sərvətlərindən gələcəkdə necə istifadə etməyi planlaşdırırsınız və bu sərvətlərin gələcəyini necə görürsünüz?**

**Cavab:** Biz çalışacağıq ki, bu sərvətlərdən çox səmərəli istifadə edək. Çünki yeraltı sərvətlər, təbii sərvətlər tükənməz deyildir. Onlar da tükənir. Mənim məqsədim budur ki, bu sərvətlərdən elə istifadə edək ki, onlar həm bu günümüz, həm də Azərbaycanın gələcək nəsilləri üçün yararlı olsun. Bunun üçün biz Qərbin bir neçə böyük neft şirkətləri ilə əməkdaşlıq edirik. O cümlədən Fransanın "Elf agenten" şirkəti ilə də bu sahədə əməkdaşlıq etmək üçün danışıqlar aparırıq. Güman edirəm ki, ona elə bir əsas yaradacağıq ki, bizim bu sərvətləri [275-276]miz gələcəkdə çox illər Azərbaycan xalqının rifahına xidmət edəcəkdir.

**Sual: Cənab prezident, bildiyiniz kimi, Sizinlə indi çəkdiyimiz bu müsahibəyə 80 milyon avropalı baxacaqdır. Artıq yeni ilin ilk günlərini yaşayırıq. Gənc və müstəqil Azərbaycan dövlətinin təmsilçisi, Azərbaycan dövlətinin prezidenti kimi Siz bu yeni ilin ilk günlərində avropalılara nə demək istərdiniz? Öz dövlətiniz ilə Avropa arasında münasibətləri, o cümlədən Fransa ilə Azərbaycan arasında olan münasibətləri necə görürsünüz və bunların inkişaf etdirilməsi barədə nələri söyləmək istərdiniz?**

**Cavab:** Avropa dünyanın ən inkişaf etmiş bir hissəsidir. Dünyanın başqa regionlarının inkişaf etməsinə də əsrlər boyu Avropanın böyük tarixi təsiri olmuşdur. Mən Avropaya daim böyük hörmət və ehtiram bəsləmişəm. Fransanın böyük tarixi, zəngin mədəniyyəti və müasir nailiyyətləri bizi həmişə heyran edir. Mən bu gün Fransanın prezidenti cənab Jak Şirakla, xarici işlər naziri ilə görüşərkən onları Azərbaycana dəvət etmişəm. Baş nazir cənab Alen Jüppe mənim dəvətimi çoxdan alıbdır. Yeni ilin ilk günlərində mən bütün avropalılara, bütün fransızlara səadət, xoşbəxtlik, sülh və əmin-amanlıq arzu edirəm. Ümidvaram ki, bu il də, gələn illərdə də Avropa bəşəriyyətin tərəqqisinin ön sıralarında gedəcəkdir.

**Müxbir: Çox sağ olun, cənab prezident.** [276-277]

## MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*17 yanvar 1996-cı il*

Biz 1993-cü ildə Müstəqil Dövlətlər Birliyinə daxil olandan heç bir şey itirməmişik, əksinə, udmuşuq. Keçmişdə Sovetlər İttifaqına mənsub olan və indiyə qədər sıx iqtisadi əlaqələr saxladığımız indiki müstəqil dövlətlərlə əməkdaşlığımızı şübhəsiz ki, ikitərəfli əlaqələrlə bərabər – Müstəqil Dövlətlər Birliyi vasitəsilə daha da inkişaf etdirmişik. Biz bu birlikdə olduğumuz zaman onun Azərbaycan üçün, ümumiyyətlə, bizim birliyimiz üçün mənfəətli olan qərarlarından bəhrələnirik, istifadə edirik. Eyni zamanda Müstəqil Dövlətlər Birliyinin fəaliyyətinə Azərbaycan Respublikası öz təsirini göstərir. Ona görə də Müstəqil Dövlətlər Birliyində olduğumuz dövr, hesab edirəm ki, bizim üçün çox əhəmiyyətlidir, çox yaxşı nəticəlidir. İclasın gündəliyində bir çox məsələlər var, biz müzakirə edəcəyik, onların hansına nə münasibət göstərəcəyimiz barədə indidən heç bir şey deyə bilmərik. Moskvada Rusiya Federasiyasının prezidenti Boris Yeltsinlə, baş nazir Viktor Çernomırdinlə və digər rəsmi şəxslərlə ikitərəfli görüşlər keçirilməsi nəzərdə tutulur.

**Sual**: – **İmzalanacaq dövlətlərarası sənədlər Azərbaycan-Rusiya münasibətlərinə necə təsir göstərəcəkdir?**

**Cavab**: – Bir sıra çox mühüm sənədlər imzalanacaq və şübhəsiz ki, bunlar bizim münasibətlərimizin gələcəkdə daha intensiv inkişafını müəyyənləşdirəcəkdir. Məsələn, Şimal marşrutu üzrə neft kəmərinin çəkilməsi haqqında yanvarın 18-də mühüm sənəd imzalanacaqdır. Bu, Rusiya ilə Azərbaycanın əməkdaşlığında irəliyə doğru addım olacaq və bir çox [277-278] iqtisadi problemlərimizin həllinə kömək göstərəcəkdir, axı biz Rusiya ilə sıx bağlıyıq.

**Sual**: – **Çeçenistandakı hadisələrlə əlaqədar bu neft kəmərinin taleyi narahatlıq doğurmurmu?**

**Cavab**: – Biz onsuz da narahat zəmanədə yaşayırıq və əgər maneələrdən qorxsaq, onda ümumiyyətlə iş görmək lazım deyildir. Əlbəttə, Çeçenistanda baş verən hadisələr bizi narahat edir, lakin biz öz işimizi görməliyik. [278-279]

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASiYASI HÖKUMƏTLƏRi ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞIN ƏSAS PRİNSİPLƏRİ VƏ İSTİQAMƏTLƏRİ HAQQINDA SAZİŞLƏR İMZALANDIQDAN SONRA RUSİYANIN BAŞ NAZİRİ V. S. ÇERNOMIRDİNLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Moskva, Ağ Ev*

*18 yanvar 1996-cı il*

**Sual: Viktor Stepanoviç, Azərbaycan neftinin Rusiya ərazisi vasitəsilə ilə nəql edilməsi haqqında saziş bu gün imzalanmış sənədlər arasında yəqin ki, ən mühüm sənəddir. Sizin nöqteyi-nəzərinizcə və Heydər Əliyevin nöqteyi-nəzərincə, bu, həyata keçirilməyə başlandıqda konkret surətdə nə verəcəkdir? Bu, həmin layihənin ətrafında getmiş mübahisələrə və şayiələrə son qoyacaqmı?**

**Viktor Çernomırdin.** Bu problemə onun istər ruhuna, istərsə də işlərə görə ən yaxın olan bir adam kimi demək istərdim ki, bunun ətrafında çoxlu söz-söhbət olmuşdur – cənub variantı, şimal variantı. Əgər mahiyyət, məzmun etibarı ilə götürsək, onda görərik ki, uzun illər ərzində işləmiş olan sxem bərpa edilir. Burada mütəxəssislər və ekspertlər var, bu sazişin hazırlanmasında iştirak etmiş olan mütəxəssislərin, neftçilərin hamısı buradadır. Saziş imzalandığı andan işləməyə başlayacaqdır və deyə bilərik ki, onun elə bu gün həm Azərbaycan üçün, həm də Rusiya üçün faydası olacaqdır. Biz hesab edirik ki, bu yol etibarlı, çoxillik təcrübə ilə sınaqdan çıxarılmış yoldur və işləyəcəkdir. Həm də onu genişləndirməyə və inkişaf etdirməyə imkan var. Zənnimcə, belə də olacaqdır. Odur ki, bütün mübahisələr əvvəl-axır bununla qurtarmalıdır. Əslinə qalsa, heç bir mübahisə olmayıbdır. O ki qaldı başqa variantların olmasına, burada pis nə var ki? Vaxt gələcək, hər şey ondan asılı olacaqdır ki, biz nə qədər neft çıxaracağıq, yəni Rusiyada nə qədər, Azərbaycanda nə qədər neft istehsal [279-280] olunacaqdır. Mən əminəm: iqtisadi qanunlar işləməlidir, ən əvvəl iqtisadi səmərə diqqət mərkəzində durmalıdır, burada hansı yolla getmək lazım olduğunu həmişə iqtisadi səmərə göstərəcəkdir. Bu, istər Rusiyanın mənafeyi üçün, istərsə də Azərbaycanın mənafeyi üçün gərəkdir. Bu sənədin iki dövlətin ilk növbədə və əsasən neft sahələrinin inkişafına aid olması əlbəttə çox vacibdir. Bu, ən əvvəl və ən çox, hər şeydən tez fayda verən istiqamətdir. Mən belə düşünürəm ki, bu, indi iqtisadiyyatımız üçün, adamlarımız üçün olduqca lazımdır. Buna biz də olduqca böyük əhəmiyyət veririk. Odur ki, söz-söhbətlərə son qoyulmalıdır və işləməyə başlamalıyıq.

**Heydər Əliyev**: Mən hörmətli Viktor Stepanoviç Çernomırdinin dediklərinin hamısı ilə tamamilə razıyam. Zənnimcə, bu sazişin imzalanması Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün daha bir addımdır. Azərbaycanda biz bu əməkdaşlığa son dərəcə böyük əhəmiyyət veririk və hər şey edirik ki, bu əməkdaşlıq möhkəmlənsin və genişlənsin. Viktor Stepanoviç haqlıdır ki, bu, bizim öz xeyrimizədir – Rusiyanın və Azərbaycanın mənafeyi xeyrinədir, neft sənayesi kimi sahənin inkişaf etməsinin xeyrinədir. Bu sənədin imzalanması hər cür söz-söhbətlərə həqiqətən son qoyacaqdır. Yeri gəlmişkən, bu söz-söhbətlər mətbuat orqanlarında tamamilə əsassız surətdə müxtəlif cür yozulur və s. İndi isə hər şey aydın və məlumdur. Rusiya ilə Azərbaycan arasında saziş imzalanmışdır.

**Sual: Bu saziş Xəzərin statusu ilə bağlı fikir ayrılıqlarına son qoyacaqmı?**

**Viktor Çernomırdin**: Bu, ayrıca məsələdir. Son vaxtlar nədənsə onu bu məsələ ilə bağlamağa başlamışlar. Əgər bunu bizim Xarici İşlər Nazirliyi edirsə, onda bu suala ona verilməlidir. Mənim belə problemlərim yoxdur. Bütövlükdə Xəzərlə bağlı problem var. İndi biz Heydər Əliyevlə danışdıq, Xəzərdən söhbət getdi, Xəzərdə suyun səviyyəsi qalxır. İndi hamı bundan ziyan çəkir. Bu problemi təklikdə həll etmək çətin ki, mümkün olsun. Belə məsələlər çoxdur: Xəzərin səviyyəsinin qalxması məsələləri, ekologiya, balıq yetişdirilməsi məsələləri, gəmiçilikdə nəqliyyat məsələləri. Əgər dənizin təkindən danışmalı olsaq, onda bu, ayrıca məsələdir. Burada üzərində işlənməli məsələlər var. Zənnimcə, biz işləyəcəyik və artıq işləməyə başlamışıq. Biz indi bunun üzərində bəlkə də daha intensiv işləməliyik. Bu, Xəzəryanı dövlətlərin işidir. Bu, [280-281] bizim, yəni Xəzərin ətrafında yaşayanların daxili işidir. Bu, bizim daxili sututarımızdır. Buna görə də bütün problemləri saf-çürük etməyə imkan tapacağıq və artıq bu işlə məşğul oluruq.

**Sual: Neft-kimya sahəsinin mühüm problemlərinin araşdırılmasında Azərbaycanın həm keçmişdəki, həm də indiki xidmətlərini nəzərə alaraq, iqtisadi əməkdaşlığın Azərbaycan üçün nə kimi əhəmiyyəti ola bilər? Sovet İttifaqında "İkinci Bakı", "Üçüncü Bakı" olmuşdur.**

**Viktor Cernomırdin**: Cari yüzillikdə hər şey, ehtiyatlarla, xüsusən də neft ehtiyatları, neft hasilatı, neft emalı ilə bağlı hər şey Bakıdan başlanmışdır. Bu sahədə dünyada nə olmuşdursa, hamısı Bakıdan başlanmışdır.

Buraya mənim bir çox həmkarlarım gəlmişdir, əgər aramızda ali məktəbləri Azərbaycanda bitirməyənlər varsa, hər halda onların hər biri Azərbaycanın neft mədənlərində işləmişdir. Buna görə də Bakı biz mütəxəssislər, neftçilər, qaz işçiləri üçün universitetdir. Bu gün dünyada neft və qaz sənayesi sahəsində toplanmış nə varsa, onların çoxu məhz Bakıda başlanmışdır. Elə indi Azərbaycanda da, Rusiyada da və başqa ölkələrdə də işləyən neftçi kadrlar məhz Bakıdan çıxmışlar. Bundan sonra "İkinci Bakı" meydana gəlmişdir. Qərbi Sibirdə biz Azərbaycanda, Bakı mədənlərində görülmüş işlərdən və toplanmış təcrübədən çox istifadə etmişik.

Buna görə də bizim üçün, mütəxəssislərimiz üçün işdə əngəllər, maneələr yoxdur. Deyə bilərəm ki, Qərbi Sibirdə çoxlu bakılı işləyir. Elə bizim Ələkbərov ("LUKoyl" neft şirkətinin prezidenti Vahid Ələkbərov nəzərdə tutulur) müəyyən dərəcədə Azərbaycana məxsusdur. Onun ən çox kimə məxsus olduğuna hələ baxmaq lazımdır.

**Heydər Əliyev**: Məncə, onun ən çox kimə – Rusiyaya, yaxud Azərbaycana məxsus olmasının əhəmiyyəti yoxdur.

**Sual: Heydər Əliyeviç, istərdik ki, siz bəzi agentliklərin belə bir xəbərini şərh edəsiniz ki, guya Azərbaycan Çeçenistana kömək göstərir.**

**Heydər Əliyev**: Mən fürsətdən istifadə edərək, guya Azərbaycanın çeçen separatçılara onların döyüş əməliyyatlarında kömək göstərdiyi barədə hər cür uydurmaları qəti şəkildə təkzib etmək istəyirəm. Bu, yalan və böhtandır. Yeri gəlmişkən, bu barədə mən bu gün Viktor Stepanoviç ilə görüşümüzdə dedim. Bütün bu yazıları müxtəlif qruplar, o cümlə[281-282]dən də Azərbaycandan olan qrup təşkil edirlər. Bunlar Azərbaycandan qaçmış cinayətkarlardır və onlar məhkəmə qarşısında cavab verməlidirlər. Bunlar Azərbaycanın keçmiş prezidenti Mütəllibov, keçmiş baş nazir Hüseynov, keçmiş müdafiə naziri Qazıyev və onların, təəssüflər olsun, burada, Moskvada gizlənən qrupudur. Hansısa strukturlar onlara kömək göstərirlər və onlar da hər cür məqalələr təşkil edirlər. Söz düşmüşkən, bu yaxınlarda "Obşaya qazeta"da bir məqalə dərc olunmuşdu. Məqalədə hər şey əvvəldən axıradək böhtan və yalandır. Bu məqalə gerçəkliyə uyğun deyildir. Biz hələ iyirmi gün bundan əvvəl bilirdik ki, burada, Moskvada gizlənmiş və burada qanunsuz yaşayan bir qrup azərbaycanlı şəxs bu cür məqaləni xüsusi olaraq təşkil etmişdir. Budur, bir neçə gün bundan əvvəl həmin məqalə dərc olunmuşdur.

**Sual: Siz özünüz bu məlumatı yoxladınızmı?**

**Heydər Əliyev**: Nəyini yoxlayasan, bir halda ki, belə şey yoxdur. Bu, birincisi, ikincisi isə, Azərbaycan ilə Rusiya arasında sərhəd Sərhəd Qoşunları tərəfindən möhkəm qorunur, məhz möhkəm qorunur. Biz bundan zərər çəkirik. Biz Viktor Stepanoviçdən xahiş etdik, o, bizə çox lazım olan bəzi yüklərin sərhəddən keçirilməsinə icazə verdi. Çünki sərhədimiz bağlıdır. Azərbaycan ilə Rusiya arasında sərhəd Dağıstanda tamamilə bağlanıb. Belə isə Azərbaycan hansısa separatçılığa necə kömək göstərə bilər? Ümumiyyətlə, biz separatçılığın əleyhinəyik. Yeddi ildir ki, Azərbaycanın özü separatçılıqdan ziyan çəkir. Biz separatçılığın əleyhinəyik, ekstremizmin, terrorizmin əleyhinəyik. Bir daha təkrar edirəm, biz özümüz də bundan ziyan çəkirik. Buna görə də mən belə uydurmaları qəti şəkildə rədd edirəm.

Şübhəsiz ki, bizdə cinayətkarlar var. Son iki ildə Azərbaycanda iki dəfə silahlı yolla dövlət çevrilişi etməyə cəhd göstərilmişdir. Bizdə, Azərbaycanda da belə cinayətkarlar var və onlar Çeçenistana da, Rusiyanın digər bölgələrinə də keçə bilərlər. Yeri gəlmişkən, Azərbaycanda dövlət çevrilişi etməyə cəhd göstərmiş cinayətkarlardan bəziləri Rusiyanın hüquq-mühafizə orqanlarının köməyi ilə Moskvada, Volqoqradda, Ryazanda həbs olunmuşlar. Cinayət törədən bu cinayətkarlar Rusiyada gizlənmişlər. Kim təminat verə bilər ki, belə cinayətkarlar gedib Çeçenistana çıxmayacaqlar. Lakin bir dövlət kimi, bir respublika kimi Azərbaycanın bununla heç bir əlaqəsi yoxdur və mən bunu qəti şəkildə bir daha təkrar edirəm. [282-283]

## RUSİYA PREZİDENTİ APARATI İNFORMASİYA İDARƏSİ RƏİSİNİN MÜAVİNİ MARINA NEKRASOVAYA MÜSAHİBƏ

*Moskva*

*18 yanvar 1996-cı il*

**Sual: Heydər Əliyeviç, ekspertlər yazırlar ki, hazırda Azərbaycan MDB ölkələri arasında əmin-amanlığın mövcud olduğu respublikalardan biridir. Bununla əlaqədar belə bir sual vermək istərdim: Parlaq gələcəyi olan, irəliləyən respublikanı Müstəqil Dövlətlər Birliyinə gətirib çıxaran nədir? Sizdən ötrü MDB nə deməkdir? Nəyə görə bu birlikdə iştirak etməyi qərara aldınız?**

**Cavab**: Əvvəla, Azərbaycanı daha çox əmin-amanlığa malik respublikalardan biri adlandırmaq olmaz. Çünki Azərbaycan yeddi ildir Ermənistan tərəfindən təcavüzə məruz qalır. Bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, işğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız zorla qovulmuşdur və qaçqın kimi ağır şəraitdə, çoxları çadırlarda yaşayırlar.

Məhz bu, Azərbaycanın həyatını olduqca çətinləşdirən faktdır. Doğrudur, Ermənistanla gedən bu müharibədə il yarımdan artıqdır ki, atəşkəsə nail ola bilmişik. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalanmışdır. Yəni biz 20 aydır ki, barışıq, atəşkəs şəraitində yaşayırıq. Əgər bu baxımdan yanaşsaq, deyə bilərik ki, bəli, əmin-amanlıqdır. Keçmişlə müqayisədə daha çox əmin-amanlıqdır. Bununla belə, müharibə və digər amillər bizim bütün həyatımızı çətinləşdirir. Məsələn, respublikamızın şimal hissəsində gediş-gəlişin məhdudlaşdırılmasını götürək. Bizim Rusiya ilə sərhədimiz – həm dəmir yolu, həm də avtomobil yolu bağlıdır. Bu, işlərimizə mənfi təsir göstərir. Eyni zamanda nəzərə alsaq ki, biz daxildə bir çox siyasi prosesləri aradan qaldıra, ictimai-siyasi sabitlik yaratmağa nail ola bilmişik, sizin dediyinizlə razıyam, indi respublikada vəziyyət daha yaxşıdır. Əvvəlki illərdə belə deyildi. [283-284]

Axı, xarici amillərlə yanaşı, əvvəllər Azərbaycanda daxili siyasi vəziyyət də çox ağır idi. Bu mənada biz xeyli uğurlara nail olmuşuq və respublikada həqiqətən əmin-amanlıq yaranmışdır.

Sualınıza cavab verirəm ki, Azərbaycanı MDB-yə daxil olmağa gətirib çıxaran nədir. Bəli, Azərbaycan MDB-yə daxil deyildi, siz bunu bilirsiniz. 1993-cü ildə, vətəndaş müharibəsi vəziyyətində olanda da Azərbaycan MDB-yə daxil deyildi. Mən bir neçə ay respublikada ictimai rəyi, xalqı inandırmalı oldum ki, Azərbaycanın MDB-yə daxil olması zəruridir.

Müstəqil Dövlətlər Birliyinə daxil olmağımızın səbəbi nədir? Bizim ölkələrimiz, indi birliyə daxil olan müstəqil dövlətlər bir çox onilliklər ərzində bir dövlətin tərkibində olmuşuq, elə ondan əvvəl də bir dövlətin tərkibində idik, ona görə də bütün bu illərdə, xüsusən Sovetlər İttifaqının mövcud olduğu illərdə bizi çox şey möhkəm bağlayırdı. Sovetlər İttifaqı çərçivəsində məhsuldar qüvvələrin yerləşməsi, yaxud bunların harada yerləşdirilməsinin müəyyən edilməsi respublikaların iqtisadiyyatının, sənayesinin bir-biri ilə sıx bağlanmasına səbəb olmuşdu. Bir də ki, axı, biz insanıq. Əvvəllər sərhədlər yox idi, insanlar bütün Sovetlər İttifaqını sərbəst gəzib dolaşırdılar, kim isə haradasa məskən salırdı, kim isə Azərbaycandan kənarda yaşamağa başlamışdı. Rusiyada, Moskvada belə azərbaycanlıların sayı çoxdur. Ona görə də bütün bu əlaqələri qırmaq, sərt dövlət sərhədləri ilə məhdudlaşdırmaq olmaz. Keçid dövrü ilə, bir sosial-iqtisadi sistemdən digərinə keçilməsi ilə əlaqədar iqtisadiyyatda, sosial-siyasi həyatda yaranmış çətinliklərin aradan qaldırılmasına olan ehtiyac bizim bir birlik daxilində olmağımızın zəruriliyini şərtləndirir.

Ona görə də biz Müstəqil Dövlətlər Birliyinə daxil olmuşuq və hesab edirəm ki, düz iş görmüşük. Ötən iki il ərzində biz heç nə itirməmişik, əksinə qazanmışıq.

**Sual: Heydər Əliyeviç, yüksək səviyyədə görüşdən əvvəl siz Rusiya prezidenti Boris Nikolayeviç Yeltsinlə, baş nazirlə görüşdünüz. Bu görüşlərin nəticələri necədir?**

**Cavab**: Mən bu görüşlərdən razıyam. Hesab edirəm ki, onlar çox səmərəli oldu. Nəticə də yaxşıdır. Prezident Boris Nikolayeviç Yeltsinlə biz bir neçə mühüm məsələni, ən əvvəl Dağlıq Qarabağla bağlı Ermənistan-Azərbaycan münaqişəsi[284-285]nin qəti olaraq aradan qaldırılması məsələsini müzakirə etdik. Biz həmin məsələ barəsində fikir mübadiləsi apardıq, məsələnin tənzimlənməsinin bəzi mümkün variantlarını nəzərdən keçirdik. Boris Nikolayeviç indi bu problemlə fəal məşğul olmağı qərara almışdır. Mən bunu düz hesab edirəm. Biz bəzi tədbirlər barədə də razılığa gəldik. Bu tədbirlər həmin münaqişənin aradan qaldırılmasına nail olmaq üçün, hərbi əməliyyatların tez bir vaxtda tamamilə dayandırılması üçün görülməlidir. Mən bundan çox razıyam.

Biz bu məsələni Rusiya Federasiyası hökumətinin baş naziri Viktor Çernomırdin ilə də müzakirə etdik. Boris Nikolayeviçlə Rusiya və Azərbaycan arasında ikitərəfli münasibətlərin bəzi məsələlərini də müzakirə etdik. Zənnimcə, biz bu problemlərin müzakirəsini qarşılıqlı anlaşma və razılıq şəraitində başa çatdıra bildik.

Viktor Stepanoviç Çernomırdin ilə biz ikitərəfli münasibətlərimizi, iqtisadi əməkdaşlığı, bir neçə belə mühüm məsələni müzakirə etdik. Mühüm məsələlərdən biri Azərbaycan neftinin Rusiya ərazisi ilə Qara dəniz sahilinə ixracı üçün neft kəməri çəkilməsi məsələsidir. Bu məsələ bir neçə ay ərzində işlənib hazırlanmışdır. Biz qəti qərara gəldik və saziş imzaladıq. Yeri gəlmişkən, bu, çox mühüm sazişdir. Boris Nikolayeviç də sazişi imzaladığımızı razılıq hissi ilə qarşıladı. Bundan əlavə, bizim baş nazir Fuad Quliyev və Viktor Stepanoviçin müavini Aleksey Bolşakov 2000-ci ilədək uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında saziş imzaladılar. Biz 1996-cı ildə ticarətə dair sənəd imzaladıq. Zənnimcə, çox iş gördük. Mən bu nəticələrdən razıyam.

**Sual: Mən bu sualı verməyə bilmərəm. Çünki o, indi rusiyalıları çox narahat edir. Bir də ona görə ki, siz silahlı münaqişələrin aradan qaldırılması sahəsində nadir təcrübəyə maliksiniz. Hər halda hakimiyyətiniz dövründə siz ona nail oldunuz ki, respublika artıq neçə vaxtdır sülh şəraitində yaşayır. Məhz bu, mənə əsas verir ki, sizə belə bir sual verim.**

**Çeçenistanda münaqişə ilə əlaqədar necə bir vəziyyət yarandığını bilirsiniz. Sizcə, onun həlli yolları necədir? Öz təcrübənizə əsasən nə deyərdiniz?**

**Cavab**: Çeçenistanda baş verən hadisələr Rusiyanı narahat edir, məncə, dünya ictimaiyyətini narahat edir, Azərbaycanı da narahat edir. Biz ondan ziyan çəkirik, ona görə ki, bu [285-286] hadisələrlə əlaqədar Rusiya ilə Azərbaycan arasında sərhəd tamamilə bağlanıb, bu sərhəd Rusiya Federasiyasının Dağıstan Respublikasından keçir. Əlbəttə, buna görə biz istəyirik ki, Qafqazda, Şimali Qafqazda və Azərbaycanın bilavasitə yaxınlığında yerləşən bu bölgədə sülh olsun. Odur ki, biz bu münaqişənin aradan qaldırılmasını istəyirik. Amma mən bu məsələnin indi necə həll edilməli olduğunu söyləmək fikrində deyiləm. Bu, belə şəraitdə qeyri-mümkündür. Lakin düşünürəm ki, Rusiya rəhbərliyi tədbirlər, özü də kifayət qədər səmərəli tədbirlər görür. Mən əminəm ki, Rusiya rəhbərliyi bu problemi həll edəcəkdir.

**Sual: Heydər Əliyeviç, axırıncı sual. Bizim proqramımızda siz özünüz özünüzdən nə soruşardınız və özünüzə necə cavab verərdiniz?**

**Cavab:** Mən sizinlə birinci dəfədir görüşürəm. Görünür, bu, çox yaxşı proqramdır. "Moskva – Kreml" proqramının Rusiya üçün də, Rusiya ilə, Azərbaycan ilə yaxşı, mehriban, yaxın, qarşılıqlı münasibətləri olan ölkələr üçün də əhəmiyyəti var. Mən sizin proqramınıza uğurlar, uzun ömür arzulayıram, qoy sizin proqram həmişə var olsun. Belə düşünürəm ki, o, yaşayacaq və öz verilişləri ilə Rusiya Federasiyasının möhkəmlənməsinə, Rusiya və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr arasında, o cümlədən də Azərbaycanla münasibətlərin möhkəmlənməsinə kömək edəcəkdir. Sağ olun. [286-287]

## MOSKVADAN VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL "VNUKOVO-2" AEROPORTUNDA JURNALİSTLƏRƏ BƏYANAT

*20 yanvar 1996-cı il*

Azərbaycan nümayəndə heyəti Moskvaya səfərindən çox razıdır. Ən əvvəl ona görə ki, müstəqil dövlətlərin başçılarının çox yaxşı görüşü oldu. Görüşdə biz olduqca mühüm məsələləri müzakirə etdik, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsini MDB Dövlət Başçıları Şurasının 1996-cı il üçün sədri seçdik.

Dövlət başçılarının işində hökm sürmüş mühit – həm MDB başçıları görüşən vaxtda da, həm nümayəndə heyətlərinin ümumi iclası keçirilən vaxtda da çox yaxşı, xeyirxah, mehriban bir mühit idi.

Bütün bunlar onu göstərir ki, birlik inkişaf edir, möhkəmlənir və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin daha geniş inteqrasiyasının təmin olunması üçün çox mühüm bir təşkilata çevrilir.

Mən dövlət başçılarının işinin yekunlarını prinsipcə müsbət qiymətləndirir və buradan yaxşı əhval ilə gedirəm.

Bizim ikitərəfli görüşlərimiz oldu. Mən ən əvvəl Boris Nikolayeviç Yeltsin ilə görüşdüm. Mən bu görüşdən, söhbətdən çox razıyam. Onun gedişində biz bir sıra məsələləri müzakirə etdik. Əlbəttə, müzakirəmizin mövzusu Dağlıq Qarabağla əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması ilə bağlı idi.

Boris Nikolayeviç indi bu məsələ ilə daha fəal məşğul olmaq, daha böyük səy göstərmək istədiyini bildirdi. Təbiidir ki, atəşin müvəqqəti olaraq dayandırılmasının böyük sülhə çevrilməsi üçün istər Ermənistan, istərsə də Azərbaycan tərəfindən səylər göstərilməlidir. Əlbəttə, burada Rusiya da öz mühüm rolunu oynaya bilər. Mən bu fikirdəyəm ki, Boris Nikolayeviç bu məsələ ilə ciddi məşğul olmaq niyyətindədir. Mən bunu hiss etdim.

Bu görüşlərin – həm Rusiya prezidenti ilə, həm də xarici işlər naziri Yevgeni Maksimoviç Primakov ilə görüşlərin nəticə[287-288]sində MDB dövlətlərinin başçılarına müraciət qəbul edildi. Ən əvvəl Azərbaycan və Ermənistan prezidentlərinə, bütün dövlət başçılarına ünvanlanmış bu müraciətdə tərəflər atəşkəs rejimini möhkəmlətməyə, Böyük Sülh Sazişi imzalanan vaxtadək həmin rejimin pozulmasına yol verməməyə, bu sazişin tezliklə imzalanması üçün səy göstərməyə çağırılır. Müraciətin mətni dərk ediləcəkdir. Özünüz görəcəksiniz, orada çox yaxşı fikirlər var.

Boris Nikolayeviçlə biz bütün sahələrdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha da genişləndirilməsi ilə bağlı digər mühüm məsələləri də müzakirə etdik. Söhbətimizin gedişində toxunulmuş bütün məsələlər barəsində aramızda yekdillik və qarşılıqlı anlaşma oldu. Bütün bunlar inam yaradır ki, biz fəal əməkdaşlıq edəcəyik. İndiki mərhələdə bizim üçün əsas isə 2000-ci ilədək Rusiya ilə Azərbaycan arasında uzunmüddətli əməkdaşlıq haqqında sazişdir. Onu Rusiya hökuməti sədrinin müavini Aleksey Alekseyeviç Bolşakov və bizim baş nazir Fuad Quliyev imzaladılar.

Biz 1996-cı ildə ticarət-iqtisadi əməkdaşlıq haqqında saziş imzaladıq. Bununla əlaqədar mən Rusiya Federasiyası hökumətinin baş naziri Viktor Stepanoviç Çernomırdin ilə görüşə və danışıqlara çox böyük əhəmiyyət verirəm.

Biz onunla Azərbaycan və Rusiya arasında əməkdaşlığın daha da genişləndirilməsi problemləri ilə bağlı məsələlərin, demək olar, hamısını müzakirə etdik və Ermənistan ilə Azərbaycan arasında münaqişəyə, digər məsələlərə də toxunduq. Viktor Stepanoviç Çernomırdin ilə danışıqlarımızda Azərbaycandan neftin Rusiya ərazisi ilə nəql edilməsi məsələləri mühüm yer tutdu. Mən hesab edirəm ki, biz Rusiya ərazisi ilə Qara dəniz sahilinə gedəcək neft kəmərinin çəkilməsinə dair çox mühüm sənəd imzaladıq. Bu sənəd son vaxtlar Rusiyada da, Azərbaycanda da, başqa ölkələrdə də çox böyük maraq doğurmuşdur. Zənnimcə, onun imzalanması hər cür şayiələrə, söz-söhbətlərə və uydurmalara son qoyur, ən başlıcası isə, apardığımız böyük işə yekun vurur. Bu mühüm sənədi V. S. Çernomırdinlə mən imzaladıq. [288-289]

Digər görüşlər də oldu. Mən yalnız əsas görüşlərdən danışdım. Buna görə də Moskvadan xoş duyğularla və yaxşı əhval ilə gedirəm. Burada bizə, dövlət başçılarına həmişəki kimi, yenə də böyük qonaqpərvərlik göstərildi. Biz hamımız özümüzü çox səmimi şəraitdə, dostluq şəraitində hiss edirik. Əslinə qalsa, həmişə belə olmuşdur və indi də belədir. Bu, çox böyük minnətdarlıq hissi doğurur.

Nəqliyyat kommunikasiyalarının açılması perspektivləri məsələsi də müzakirə edildi. [289-290]

## QANLI YANVAR FACİƏSİ ŞƏHİDLƏRİNİN XATİRƏ GECƏSİNDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*20 yanvar 1996-cı il*

Hörmətli həmvətənlər, bacılar, qardaşlar!

Bu gün Azərbaycan xalqının, respublikamızın matəm günü, hüzn günüdür, qanlı Yanvar faciəsinin altıncı ildönümüdür. Bu gün Azərbaycanın bütün vətəndaşları o faciəli gecəni, xalqımızın başına gəlmiş bəlaları, milli azadlıq, müstəqillik uğrunda qəhrəmanlıq nümunələrini yad edirlər. O gecə Azərbaycan xalqına, respublikasına qarşı hərbi təcavüz edildi. Özünün ərazi bütövlüyü uğrunda çalışan, vuruşan, döyüşən, milli azadlığı uğrunda mübarizə aparan xalqımıza qarşı böyük hərbi təcavüz oldu.

Azərbaycan xalqının çoxəsrlik tarixində onun başına çox bəlalar gəlib, xalqımız faciələrlə rastlaşıb. Ancaq deyə bilərəm ki, bu qədər dəhşətli faciə görünməmişdi. Xalqımızın milli mənliyinə, mənəviyyatımıza, milli azadlığımıza təcavüz edilibdir. O gecə Azərbaycanın günahsız övladları həlak oldular, müstəqilliyimiz yolunda, milli azadlıq yolunda şəhid oldular. Çoxları yaralandı, xəsarət aldı. O hərbi təcavüz nəticəsində bəziləri indiyə qədər də əlildirlər. Şəhidlərin ailələrindən qəm-qüssə, kədər çəkilməyibdir. Yaralılar o yaranı hər gün duyaraq həmin o faciəli gecəni unuda bilmirlər. Ümumən xalqımız isə özünün milli mənliyinə, milli azadlıq ruhuna edilən bu təcavüzü heç vaxt unutmayacaqdır.

Bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtdı, əzdi. Ancaq onun mənliyini tapdalaya bilmədi. Bizim qürurumuzu sındıra bilmədi. İtkilər verdik, ona görə də bu gün matəm günü keçiririk. Ancaq eyni zamanda o gün və ondan sonrakı günlər Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə yeni böyük bir səhifə yazdı.

Biz o günü matəm günü kimi, qəm-qüssə, kədər ilə xatırlayırıq. Ancaq eyni zamanda biz bu hadisələri böyük qürur hissi, iftixar hissi ilə xatırlayırıq. Çünki Azərbaycan xalqı bir daha dünyaya nümayiş etdirdi ki, o yenilməzdir, qəhrəmandır, ona nə qədər güclü təcavüz, təzyiq olsa da, onun iradəsini sındır[290-291]maq mümkün deyil. Sovetlər İttifaqının hərbi maşınının, hərbi texnikasının misli görünməmiş, həddindən artıq gücü dinc əhaliyə, dinc xalqımıza qarşı yönəldildi. Sovetlər İttifaqının ordusu böyük. dəstələrlə Azərbaycanın paytaxtı Bakıya daxil oldu və SSRİ-nin rəhbərliyi belə bir cinayət etdi. Bu, bütün bəşər qarşısında, tarix qarşısında olan cinayətdir, Azərbaycan xalqına qarşı edilmiş cinayətdir. Bunun günahkarları daim məhkum olunacaqdır. Bunun günahkarları Sovetlər İttifaqının rəhbərliyi – Qorbaçov və o vaxt Sovetlər İttifaqına onunla bərabər rəhbərlik edənlər Azərbaycan xalqına qarşı bu cinayəti etdilər. Biz bu cinayəti heç vaxt unutmayacağıq, yəni bu cinayət həmişə bizi sayıq olmağa dəvət edəcəkdir. Amma eyni zamanda bu cinayət o vaxtkı mərkəzdən bizə qarşı olan cinayət idisə, o həm də Azərbaycan xalqına qarşı özünün içindəki xainlər tərəfindən edilən cinayət idi. Xaricdən olan cinayət, təcavüz dəhşətlidir. Ancaq bu, xaricdən bizə yönəldilmiş cinayətdir, eyni zamanda bu cinayəti törədənlər içimizdən, daxilimizdən, özümüzdən özümüzə xəyanət etmiş, qat-qat çox cinayət etmiş insanlardır, qruplardır, dəstələrdir.

Ötən altı il onu göstərir ki, heç bir cinayət Azərbaycan xalqını milli azadlıq uğrunda mübarizədən çəkindirə bilmədi. Azərbaycan xalqı buna nail oldu. Azərbaycanın dövlət müstəqilliyi əldə olundu. Artıq dörd ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və özü öz taleyinin sahibi olaraq öz həyatını qurur. Ona görə də kədərimiz, qəmimiz nə qədər çox olsa da, eyni zamanda fəxr etməliyik ki, xalqımız istədiyinə nail olubdur. Azərbaycanın milli azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş, həlak olmuş övladlarımızı biz heç vaxt unutmayacağıq. Onların xatirəsi qəlbimizdə əzizdir və əbədi yaşayacaqdır. Biz onların qəhrəmanlığı, şəhidliyi ilə fəxr edirik. Bu, bizim millətimizin iftixarıdır.

Bu gün şəhidləri yad edərək bir daha bəyan edirik ki, xalqımız yenilməzdir və heç vaxt başını aşağı salmayacaqdır. Biz əldə etdiyimiz milli azadlığımızı qoruyacağıq, saxlayacağıq və onu əbədi edəcəyik. Dövlət müstəqilliyimizi qoruyub inkişaf etdirəcəyik və o, əbədi olacaqdır. Şəhidlərin xatirəsi qəlbimizdə əbədi yaşayacaq, milli azadlığımız əbədidir, dövlət müstəqilliyimiz əbədidir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz, heç bir qüvvə bu iradəmizi sındıra bilməz. Ona görə də bu gün matəm günü olsa da, eyni zamanda bu gün bizim döv[291-292]lət müstəqilliyimizin, xalqımızın qəhrəmanlığının xatirə günüdür.

O faciəli Yanvar gecəsindən altı il keçmişdir. Təəssüf ki, içimizdən xalqımıza xəyanət edənlər bu faciənin üstünü örtüb-basdırmağa, öz xəyanətlərini gizlətməyə çalışdılar və xalqımıza qarşı cinayət edənlərə bəraət qazandırmağa çalışdılar. Ancaq xalqımız buna dözmədi. Eyni zamanda xalqımızın ixtiyarı elə əllərdə idi ki, artıq xalq əzilirdi. Təsadüfi deyil ki, o hadisələrdən sonra bu faciənin başvermə səbəbləri dərhal araşdırılmadı, cinayətkarlar, xainlər meydana çıxarılmadı. Hətta Azərbaycan, onun paytaxtı aylarla, illərlə fövqəladə vəziyyət şəraitində yaşamağa məcbur oldu. Nə üçün? Belə sual veriləndə o vaxt bəzi rəhbər şəxslər cavab verirdilər ki, əgər fövqəladə vəziyyəti götürsək, vətəndaş müharibəsi olacaq. Anlaşılmaz bir fikirdir. Nə üçün? Hansı

vətəndaş müharibəsi? Dinc xalqımıza hərbi təcavüz edilibdir. Xalqımızı əziblər. Xalqımız şəhidlər veribdir. O vaxt hansı vətəndaş müharibəsindən söz gedə bilərdi? Onlar bunu özlərini qoruyub saxlamaq üçün edirdilər.

Yanvar hadisəsini törədənlər xalqımıza xəyanət ediblər. Ancaq ondan sonrakı illərdə bu hadisənin üstünü örtüb-basdıranlar ikiqat xəyanət ediblər. Bildiyiniz kimi, 1994-cü ilin yanvarında bunların hamısına son qoyuldu, mənim təşəbbüsümlə, təklifimlə respublikamızın Milli Məclisi bu məsələni müzakirə etdi. Bu gün mən təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, o vaxt Məclisin bəzi üzvləri, hətta çoxları bu məsələnin müzakirəsindən kənarlaşmaq istəyirdilər, bunu müzakirə etmək istəmirdilər. Bəziləri belə gülünc fitrlər irəli sürürdülər ki, bu məsələni ancaq əlli ildən sonra araşdırmaq olar. Təəccüblü orası idi ki, həm o zaman xəyanət edənlər, həm də vaxtilə xəyanətkarların əleyhinə olanlar eyni mövqedən çıxış etməyə başladılar. Bilmirəm nə üçün, bəlkə onların da günahı olubdur? Bilmirəm. Amma xalqımızın günahı olmayıbdır. Xalqımızı heç kəs günahlandıra bilməz. Bu gün mən bir də deyirəm, heç kəs deyə bilməz ki, xalqımız o gün nə üçün küçələrdə idi, onlar küçələrdə olmasaydı, o tanklar boş küçələrə gələcəkdi, xalqımız şəhid verməyəcəkdi, yaxud ayrı-ayrı insanlar həlak, şəhid olmayacaqdı. Məgər məsələ bundadırmı? Şəhid olmuş övladımızın həyatı, şübhəsiz, bizim üçün əzizdir. Ancaq xalqımıza qarşı olan bu təcavüzün qarşısını almamaq ondan da böyük cinayətdir. Ona görə də heç kəs xalqımızı günahlandıra [292-293] bilməz ki, nə üçün onlar tankların qarşısına çıxdılar. Heç kəs günahlandıra bilməz.

Biz isə o tankları Azərbaycana, onun paytaxtına sürdürənləri günahlandırırıq, onları məhkum edirik. Onların respublikamıza gəlməsinə şərait yaradanları – Azərbaycanın o vaxtkı rəhbərlərini məhkum edirik, o xainləri məhkum edirik. Bəli, Sovet İttifaqının Moskvada, mərkəzdə oturan rəhbərləri ilə Azərbaycanın rəhbərlərinin sövdələşməsi nəticəsində xalqımıza qarşı belə bir xəyanət, belə bir cinayət baş verdi. Xalqımızın heç bir günahı yoxdur. Şəhid olanlar milli azadlıq, istiqlal, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olublar.

1994-cü ilin yanvar ayında biz həmin hadisələrə, nəhayət, siyasi qiymət verdik, Milli Məclis qərar qəbul etdi. Ancaq təəssüf ki, onların çoxu indiyədək cəzasız qalıbdır. Onlar öz cəzalarını hüquqi nöqteyi-nəzərdən almayıblar. Ancaq alacaqlar. Bizim üçün isə əsas cəhət bu məsələyə siyasi qiymət verilməsi və günahkarların aşkara çıxarılması, eyni zamanda 20 Yanvar günündə xalqımızın qəhrəmanlığının bir daha dünyaya nümayiş etdirilməsi idi.

O dövrdə xalqımız ağır bir şərait içində idi. Respublikamıza Ermənistan tərəfindən təcavüz edilmiş, Azərbaycanın ərazi bütövlüyü pozulmuş, ərazimizin bir qismi Azərbaycanın idarəsindən çıxmışdı. Belə bir vaxtda, belə bir zamanda xalqımızın hamısının yeganə amalı ölkəmizin ərazi bütövlüyünü qoruyub saxlamaqdan, Ermənistanın işğalına qarşı müqavimət göstərməkdən və onun qarşısını almaqdan ibarət idi. Məhz bizi əzmək, sıxmaq üçün yenidən bir təcavüz edildi. Bunların hamısı da ondan sonrakı illərdə Azərbaycanın daxili həyatında çox ağır, çətin, əzab-əziyyətli ictimai-siyasi proseslərə gətirib çıxardı. Daxildə sabitlik pozuldu. Respublikamızı idarə edə bilmədilər. Bunların hamısının nəticəsində Azərbaycanın başına yeni bəlalar gəldi. Dövlət çevrilişləri, hakimiyyət, vəzifə mübarizəsi xalqımızın daha ağır vəziyyətə gəlib düşməsinə səbəb oldu. Nəhayət, 1993-cü ildə Azərbaycanda yenidən vətəndaş müharibəsi baş verdi. Bütün bunların nəticəsində respublikamızın ərazisinin böyük bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bir milyondan artıq vətəndaşımız işğal olunmuş torpaqlardan zorla çıxarılaraq, çadırlarda ağır vəziyyətdə yaşayır. Bütün bu problemləri indi biz həll etməliyik. Bunlar bəzim üzərimizə düşür. Bizə belə bir miras qalıbdır və bunlarla məşğuluq. [293-294]

Bildiyiniz kimi, Ermənistanla Azərbaycan arasındakı münaqişədə artıq iyirmi aydır ki, atəşkəs əldə olunubdur və bu atəşkəs rejiminə riayət edilir. Biz bunu müsbət hal hesab edirik. Çünki o vaxta qədər gedən döyüşlər, hərbi əməliyyatlar istənilən nəticəni verməmişdir.

Məsələnin sülh yolu ilə həll olunması həm Azərbaycanda, həm regionda, həm də dünya miqyasında ən müvafiq yol hesab edilir. Ona görə də atəşkəsin əldə olunması və uzun müddət davam etməsi bu məsələnin sülh yolu ilə həll edilməsi üçün şərait yaradır. Bildiyiniz kimi, biz də bu barədə çox işlər görürük. Bu gün, bu matəm gecəsi vaxt alıb həmin məsələlər barədə geniş danışmağa ehtiyac duymuram. Ancaq onu demək istəyirəm ki, 20 Yanvarda şəhid olanların ruhu və Azərbaycanın ərazi bütövlüyünü qoruyaraq, Ermənistan işğalçılarının qarşısını alaraq şəhid olanların ruhu bütün bu məsələlərin tezliklə həll olunmasını bizdən tələb edir. Biz bu məsuliyyətimizi dərk edirik.

İnanın, bilin, biz bu məsələnin həll olunmasını fəaliyyətimizin əsası hesab edirik. Ona görə də çox danışıqlar gedir. Dünyanın böyük ölkələrinin dövlət başçıları ilə mənim çoxsaylı görüşlərim, danışıqlarım olubdur. Bu məsələ beynəlxalq təşkilatlarda müzakirə edilibdir. Bildiyiniz kimi, bu məsələ ATƏT-in Minsk qrupunda daim müzakirə olunur. Hər bir görüşdə, hər bir danışıqda, müzakirədə biz məsələnin sülh yolu ilə həll olunmasına və eyni zamanda öz şərtlərimizin həyata keçirilməsinə çalışırıq.

Bizim şərtlərimiz aydındır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələri çıxarılmalıdır. Yerlərindən didərgin düşmüş vətəndaşlarımız öz yurdlarına qaytarılmalıdır. Bu prinsiplər əsasında Dağlıq Qarabağa müəyyən statusun verilməsinə biz razıyıq. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunmasına biz təminat veririk. Danışıqlar bu prinsiplər əsasında gedir. Biz başqa prinsipləri qəbul edə

bilmərik. Biz məsələnin bu prinsiplər əsasında həll olunmasına çalışırıq. Məhz bu məsələlərin həll olunması üçün də bütün başqa dövlətlərin başçıları ilə aparılan danışıqlarla yanaşı, eyni zamanda bu məsələlərdə böyük imkanlara malik olan Rusiyanın başçıları ilə də son vaxtlar biz çox danışıqlar aparmışıq, görüşlər keçirmişik. [294-295]

Bu günlər mən Moskvada olarkən, MDB ölkələri dövlət başçılarının növbəti görüşündə iştirak edərkən bu məsələnin həll edilməsinə çox vaxt ayırdım. Deməк olar ki, Moskvada olduğum vaxt buna həsr olundu. Mətbuatdan sizə məlumdur ki, mən Rusiyanın prezidenti cənab Boris Yeltsinlə görüşüb bu barədə ətraflı söhbətlər aparmışam. Rusiyanın baş naziri cənab Viktor Çernomırdinlə görüşüb danışıqlar aparmışam. Rusiyanın başqa rəhbər vəzifəli şəxsləri ilə ətraflı danışıqlar aparmışam. Bu danışıqlar dediyim həmin prinsiplər əsasında olubdur. Hesab edirəm ki, Rusiya ATƏT-in, BMT-nin, Minsk qrupunun üzvü kimi bu məsələlərin həll olunmasında mühüm rol oynaya bilər. Ona görə də mən bu danışıqları lüzumlu və əhəmiyyətli hesab edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu barədə ədalətli mövqeyimiz və sülhsevər siyasətimiz dünya birliyi tərəfindən günü-gündən daha da çox dərk ediləcək və dünya birliyinin Üzvləri, o cümlədən böyük dövlətlər bu məsələlərin həll olunmasında daha çox səy göstərəcəklər. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim üçün əsas olan məsələni – ərazi bütövlüyümüzün təmin olunmasını sülh yolu ilə həll edə biləcəyik. Şübhəsiz ki, biz bütün başqa vasitələrdən də istifadə edirik. Heç bir vasitə kənarda deyil. Bütün fəaliyyətimiz, işimiz yalnız və yalnız, xalqımız üçün əsas olan bu məsələnin həll edilməsinə yönəldilibdir.

Şübhəsiz ki, mən Moskvada olarkən Rusiya ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün də lazımi danışıqlar apardım. Müəyyən sazişlər imzalandı. Hesab edirəm ki, bunlar da lazımdır. Rusiya bizim Şimal qonşumuzdur, dünyanın böyük dövlətlərindən biridir və Rusiya ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsi bizim üçün çox zəruridir, lazımdır. Ona görə də biz bu məsələlərlə ciddi məşğul oluruq və bundan sonra da məşğul olacağıq.

Biz sülhsevər xalqıq. Biz bütün qonşularımızla bərabər hüquqlu sülh münasibətləri, dostluq, əməkdaşlıq münasibətləri yaratmaq istəyirik. Bu baxımdan biz bütün imkanlardan istifadə edirik və bu imkanlardan bundan sonra da istifadə edəcəyik. Yenə də deyirəm, bütün bu addımları atmağa bizi məcbur edən amillərdən biri də 20 Yanvarda şəhid olmuş qəhrəman övladlarımızın ruhudur, onların şəhidliyidir. Təkrar edirəm, onlar xalqımızın milli azadlığı yolunda şəhid olublar. Biz onların ruhuna həmişə sadiq olacağıq, Azərbaycanın milli azadlığını, dövlət müstəqilliyini daim qoruyub saxlayacağıq. [295-296]

Xalqımız bu günlər 20 Yanvar hadisələrini xatırlayır. Son iki ildir ki, respublikamızda 20 Yanvar hadisələrinin tarixi əhəmiyyəti, o faciənin həm kədərli cəhəti, həm də Azərbaycan xalqının qəhrəmanlıq nümunələri geniş təbliğ olunur. Bu il də bu tədbirlərin həyata keçirilməsi üçün mən xüsusi sərəncam vermişdim. Böyük Dövlət komissiyası yaratdıq. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, onlar xeyli iş görüblər. Bu gün səhərdən Şəhidlər xiyabanına Azərbaycanın on minlərlə, yüz minlərlə vətəndaşı gəlib, ziyarət edib. Bir bu gün deyil. Yanvarın əvvəlindən respublikamızın hər yerində 20 Yanvar hadisələri ilə əlaqədar kütləvi tədbirlər keçirilir. Xalqımız o faciəli günləri yad edir, şəhidlərin ruhuna dualar oxunur və xalqımız öz qəhrəmanlığını, şücaətini bir daha nümayiş etdirir.

Mən Moskvadan bu gün gec qayıtdım. Orada işlərimi qurtaran kimi qayıtdım. Hava artıq qaralmışdı, Şəhidlər xiyabanına gəldim. Məzarların üzərində nə qədər güllər, nə qədər qərənfillər... Bəzən düşünürsən ki, Azərbaycanda bu qədər gül-çiçək varmı? Xalqımız şəhidləri nə qədər böyük hörmət və ehtiramla yad edir. Eyni zamanda, xainləri lənətləyir, cinayətkarları məhkum edir. Bu günlər Yanvar hadisələri münasibətilə keçirilən tədbirlər və bütün xalq tərəfindən Şəhidlər xiyabanını bugünkü ziyarət bir tərəfdən şəhidlərin ruhuna, qəhrəmanlığına olan hörmət və ehtiramdır, ikinci tərəfdən cinayətkarlara, xainlərə lənətdir, cinayətkarların məhkum olunması zərurətinin bir daha bəyan edilməsidir.

Mən şəhidlərin ailələrinə Allahdan səbir diləyirəm. Allah bütün şəhidlərə rəhmət etsin. Yanvar faciəsi şəhidlərinə, Azərbaycanın torpaqlarının müdafiəsində, respublikamızın ərazi bütövlüyünün keşiyində şəhid olanların hamısına Allah rəhmət etsin. Bütün şəhidlərin ailələrinə, qohum-əqrəbalarına Allahdan səbir diləyirəm. Xalqımıza Allahdan səbir diləyirəm. Ona görə səbir diləyirəm ki, xalqımızın bütün bu çətin mərhələlərdən keçib gedəcəyinə inanıram. Xalqımız öz müstəqilliyini qoruyub saxlayacaqdır. Buna əmin ola bilərsiniz. Müstəqil Azərbaycan günü-gündən inkişaf edəcək, ancaq bu günlər heç vaxt unudulmayacaqdır. Heç vaxt unudulmayacaqdır. Gələcək nəsillər bu günləri daim yad edəcəklər. Mən buna əminəm.

Bizim borcumuz şəhidlərin ruhuna sadiq olmaqdır. Bizim borcumuz əcdadlarımızın vəsiyyətinə sadiq olmaqdır – milli azadlığımızı qorumaq, dövlət müstəqilliyimizi qoruyub saxlamaqdır. Borcumuz bütün şəhidlərin ailələrinə qayğı göstər[296-297]məkdir, yaralılara qayğılan artırmaqdır. Şübhəsiz ki, görülən işlər görüləcək işlərin bir hissəsidir. Mən bu gün bir daha bütün dövlət orqanlarına, təşkilatlara, xeyirxah insanlara müraciət edirəm. Şəhidlərin ailələrinə qayğı, diqqət, 20 Yanvar hadisələrində xəsarət alanlara, müharibə əlillərinə qayğı, diqqət bizim borcumuzdur və borcumuzu yerinə yetirməliyik. Hər bir kəs bu borcunu yerinə yetirməyə çalışmalıdır və heç vaxt bunu unutmamalıdır.

Bu gün bu matəm axşamı biz qəm-qüssə içindəyik, amma bir də qeyd edirəm, həm də iftixar hissi, qürur hissi keçiririk. O günlərdən altı il keçir. Respublikamız, xalqımız altı il müddətində böyük sınaqlardan keçdi,

məharətlə keçdi. İtkilərimiz də, çətinliklərimiz də, ağır günlərimiz də oldu. Ancaq xalqımızın birliyini təmin edə bildik. Xalqımızın əsas hissəsini bir yerə yığa bildik. Artıq respublikamızda sabitlik yaranıbdır. Görüləsi işlər çoxdur. İqtisadiyyatda çətinlik var. Xalqımızın rifah halında çox ağır problemlər var. Bunların hamısı qarşımızda duran vəzifələrdir. Biz bunları dərk edirik, bunlarla məşğul oluruq və bundan sonra da məşğul olacağıq. Ancaq bunlar hamısı keçib gedəsidir. Qalan isə xalqımızın qəhrəmanlığı, mərdliyi, igidliyidir, iradəsidir, yenilməzliyidir. Xalqımız heç vaxt sınmayacaqdır. Əmin olun ki, respublikanın prezidenti kimi, bu gün bir daha bəyan edirəm, xalqımızın milli azadlığını qoruyub saxlamaq, dövlət müstəqilliyini qorumaq və inkişaf etdirmək mənim müqəddəs vəzifəmdir. Hesab edirəm ki, hər bir namuslu vətəndaşın müqəddəs vəzifəsidir. Gəlin bu müqəddəs vəzifələrimizi şərəflə yerinə yetirək. Şəhidlərə Allahdan bir daha rəhmət diləyirəm. [297-298]

**RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ SƏDRİ GENNADİ NİKOLAYEVİÇ SELEZNYOV CƏNABLARINA**

Hörmətli Gennadi Nikolayeviç!

Rusiya Federasiyası Dövlət Dumasının sədri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm. Sizə bu məsul vəzifədə Rusiya Federasiyasının möhkəmlənməsi və çiçəklənməsi naminə uğurlar arzulayıram.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında çoxəsrlik əlaqələr, dostluq və əməkdaşlıq münasibətləri hər iki xalqın rifahı, regionda sülh və sabitlik naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*23 yanvar 1996-cı il* [298-299]

**RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ SƏDRİ YEQOR SEMYONOVİÇ STROYEV CƏNABLARINA**

Hörmətli Yeqor Semyonoviç!

Sizi Rusiya Federasiyası Federasiya Şurasının sədri vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm. Sizə bu məsul vəzifədə Rusiya Federasiyasının möhkəmlənməsi və tərəqqisi naminə uğurlu fəaliyyət arzulayıram.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında çoxəsrlik əlaqələr, dostluq və əməkdaşlıq münasibətləri hər iki xalqın rifahı naminə, regionda sülh və sabitlik naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 yanvar 1996-cı il* [299-300]

**FƏLƏSTİN MUXTARİYYƏTİNİN BAŞÇISI
YASİR ƏRƏFAT CƏNABLARINA**

Hörmətli cənab Yasir Ərəfat!

Sizi Fələstin Muxtariyyətinin başçısı seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Yenilməz Fələstin xalqının öz azadlığı və müstəqilliyi uğrunda uzun illərdən bəri apardığı mübarizədə Sizin danılmaz xidmətləriniz demokratik seçkilərdə bu qələbənizi təmin etmişdir.

Sizə bu məsul vəzifədə müvəffəqiyyətlər, dost Fələstin xalqına rifah və tərəqqi arzulayıram.

Səmimiyyətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 yanvar 1996-cı il* [300-301]

**ƏMƏKDAR ELM XADİMİ**
**SARA XANIM AŞURBƏYLİYƏ**

Hörmətli Sara xanım!

Sizi – Azərbaycanın görkəmli tarixçi alimini, anadan olmağınızın 90 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Xalqımız sizi bütün həyatını Azərbaycanda tarix elminin inkişafına həsr etmiş fədakar alim kimi tanıyır. Uzun illər apardığınız gərgin elmi axtarışların məhsulu olan, Azərbaycanın orta əsrlər tarixinə həsr olunmuş sanballı əsərləriniz sizə şöhrət gətirmişdir. Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir.

Əminəm ki, siz özündə milli və ümumbəşəri dəyərləri cəmləşdirən əsl Azərbaycan ziyalısı kimi nadir istedad və qabiliyyətiniz, fədakarlıq və təvazökarlığınızla yeni nəsillərə həmişə örnək olacaqsınız.

Əziz Sara xanım!

Sizə möhkəm cansağlığı, uzun ömür, yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*26 yanvar 1996-cı il* [301-302]

**TÜRKİYƏ RESPUBLİKASI BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ, ZATİ-ALİLƏRİ MUSTAFA KALEMLİ CƏNABLARINA**

Zati-aliləri!

Sizi Türkiyə Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Mən iki qardaş ölkə arasında mövcud olan siyasi, iqtisadi və humanitar əlaqələrin daha geniş inkişafına böyük əhəmiyyət verirəm. Əminəm ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında qardaşlıq və əməkdaşlıq əlaqələri daha da genişlənib xalqlarımızın rifahı naminə inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib Sizə bir daha öz dərin hörmət və ehtiramımı bildirirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*30 yanvar 1996-cı il* [302-303]

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏRİNİN BİRİNCİ FORUMUNDA NİTQ

*Respublika Sarayı*

*2 fevral 1996-cı il*

Əziz gənclər, Azərbaycanın övladları, əziz balalar!

Sizi, müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunu, bütün Azərbaycan gənclərini səmimi qəlbdən salamlayıram, sizə təhsilinizdə, bütün işlərinizdə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumu öz işini başa çatdırır və hesab edirəm ki, müvəffəqiyyətlə başa çatdırır. Bu gün səhərdən indiyə qədər bu salonda biz gəncləri dinləyirik. Bu sarayda bütün söz gənclərə verilibdir. Mən indi, forumun işi sona çatarkən öz təəssüratlarımı sizə çatdırmaq istəyirəm. Həddindən artıq sevindiricidir ki, gənclər sərbəst, azad, müstəqil şəkildə öz fikirlərini ifadə edirlər, öz sözlərini deyirlər, öz problemlərindən danışırlar, xahişlərini edirlər, dərdlərini çatdırırlar.

Bildiyiniz kimi, keçmiş illərdə də Azərbaycanda gənclərin qurultayları, yığıncaqları olubdur, görüşləri, festivalları olubdur. Mən özüm də vaxtilə gənc olmuşam və belə görüşlərdə, toplantılarda iştirak etmişəm. Keçmişdə gənclərin fəaliyyətini və gənclik təşkilatlarının fəaliyyətini layiqincə qiymətləndirərək, mən qeyd etmək istəyirəm ki, bu gün bu sarayda tamamilə başqa bir ab-hava duyulur: sərbəstlik, azadlıq ab-havası. Gənclər, yenə də deyirəm, öz ürək sözlərini sərbəst, istədiyi kimi deyirlər. O formalizm, ştamp, standart artıq aradan götürülməkdədir.

Bu, çox sevindiricidir. Sevindirici cəhət ondan ibarətdir ki, gənclər respublikamızın həyatının bu çətin dövründə, ağır dövründə həyata, gələcəyə çox nikbinliklə baxırlar, yaşamaq, yaratmaq əzmindədirlər, böyük problemlər haqqında düşünürlər, böyük problemlər irəliyə sürürlər.

Onların bir qisminin həllinin indi mümkün olmaması aydındır, ancaq iş burasında deyil, iş orasındadır ki, gənclər düşünürlər, gənclər fikirləşirlər, gələcək haqqında düşünürlər, [303-304] təkliflər irəli sürürlər. Deməli, həqiqətən müstəqil Azərbaycanın gələcəyini düşünürlər. Burada olan bu mehriban münasibət və ruh yüksəkliyi bizi də sevindirir.

Həyatımız çətindir, ağırdır. Ancaq bu salonda olan əhval-ruhiyyə, ruh yüksəkliyi bizim gənclərimizin əhval-ruhiyyəsini əks etdirir. Bəli, bizim gənclərimizin təmtəraqlı söz deməyə haqları var və təmtəraqlı sözlər də deyilməlidir, çünki biz nə qədər inildəyəcəyik, nə qədər sızıldayacağıq, nə qədər bədbin-bədbin sözlərlə gənclərimizin beyninin zəhərlənməsinə yol verəcəyik? Bu salonda duyulan yüksək əhval-ruhiyyə sevindiricidir və mən forumun işinin müvəffəqiyyətlə başa çatması münasibətilə sizi ürəkdən təbrik edirəm.

Çıxışlarda gənclərin fəaliyyəti üçün, təhsili üçün, istəklərinin və arzularının yerinə yetirilməsi üçün bir çox təkliflər irəli sürüldü. Bu forumun çağırılması haqqında mənə müraciət olarkən mən bunu belə qəbul etdim, belə anladım ki, biz buraya respublikamızın indiki mərhələsində gənclərin vəzifələrini müəyyən etmək üçün, eyni zamanda Azərbaycan gəncliyinə qayğının, diqqətin artırılması sahəsində lazımi tədbirləri müəyyən etmək üçün toplaşmışıq. Mən belə düşünürəm.

Gənclər burada öz çıxışlarında, şübhəsiz ki, əsasən onların fəaliyyəti üçün, yaşayışı üçün, gələcəyi üçün vacib olan problemlərin həll olunması barədə təkliflərini irəliyə sürdülər. Bu, təbiidir və çıxışların əksəriyyətindən belə hiss olundu ki, gənclərə kömək etmək üçün Azərbaycanın hakimiyyət orqanları, dövlət orqanları və bütün başqa təşkilatları bunları həll etməlidir. Bu çıxışlar, bu təkliflər əsaslıdır. Doğrudur, Masallı rayonundan olan, burada çıxış edən bir fermer, – yalnız o, çıxışları tənqid etdi ki, biz özümüz iş görməliyik və özümüz dövlətə, hökumətə kömək etməliyik. Ancaq qalan çıxışlar məhz qayğının artırılması ilə əlaqədardır və gənclərin problemlərinin dövlət orqanları tərəfindən, hakimiyyət orqanları tərəfindən və müvafiq təşkilatlar tərəfindən həll olunması ilə əlaqədardır. Mən deyə bilərəm ki, irəliyə sürülən təkliflər, qaldırılan məsələlər, problemlər həqiqətə uyğundur və bunların heç birisində qeyri-təbiilik yoxdur. Eyni zamanda söhbət ondan getməlidir ki, bunların hamısının dərhal, yaxud indiki mərhələdə həyata keçirilməsi nə qədər realdır, nə qədər mümkündür.

Buna baxmayaraq, hesab edirəm ki, bizim vəzifəmiz, dövlət orqanlarının vəzifəsi, hakimiyyət orqanlarının vəzifəsi gənclə[304-305]rə diqqəti artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra daha da yaxından məşğul olmaq və irəliyə sürülən təkliflərin həyata keçirilməsi üçün çalışmaq, lazımi tədbirlər görməkdən ibarətdir.

Bu forum haqqında biz məsləhətləşərkən mən belə qərar qəbul etdim ki, gənclərlə yanaşı, foruma respublikanın hakimiyyət orqanlarının nümayəndələri – nazirlər, yerli icra orqanlarının başçıları və hakimiyyət orqanlarının başqa nümayəndələri də dəvət olunsun. Onlar buradadırlar. Bütün günü biz bir yerdəyik. Onların hamısı buraya ona görə dəvət olunub ki, gənclərin problemlərini bilavasitə eşidib, dinləyib, hiss edib hərə öz

imkanı daxilində bunların həll olunması üçün tədbirlər görsün. Bunu mən respublikanın hakimiyyət orqanlarının qarşısında konkret bir vəzifə kimi qoyuram. Nazirlər Kabineti, bütün nazirliklər, komitələr və digər hakimiyyət orqanları, yerli icra orqanları bu forumdan irəliyə gələn məsələlərin həll olunması ilə dərhal məşğul olmalıdırlar.

İndi biz keçmiş illərdən fərqli olaraq başqa bir şəraitdə yaşayırıq. İndi hər bir rəhbər vəzifəli şəxsin təşəbbüskarlığından, mövcud ehtiyat və imkanlardan istifadə etmək bacarığından çox şey asılıdır. Ona görə də mən bu vəzifəni konkret olaraq hakimiyyət orqanına rəhbərlik edən hər bir şəxsin qarşısında qoyuram, onlardan tələb edirəm ki, bu vəzifənin yerinə yetirilməsi ilə ciddi məşğul olsunlar. Eyni zamanda hesab edirəm ki, Gənclər və İdman Nazirliyi bütün çıxışlarda irəliyə sürülmüş təkliflərin, xahişlərin hamısını nəzərdən keçirməli, təhlil etməli, ümumiləşdirməli və bu forumun yekunlarından irəliyə gələn tədbirlərin həyata keçirilməsi üçün təklifləri təqdim etməlidir. Mən bu təkliflərə diqqətlə baxmağa söz verirəm və sizi əmin etmək istəyirəm ki, o təkliflərin həyata keçirilməsi üçün imkanlarımız çərçivəsində, imkanlarımız daxilində bütün səylər göstəriləcəkdir.

Burada bir neçə ayrı-ayrı təkliflər oldu, onlar haqqında dərhal da fikir söyləmək olar. Məsələn, bu təkliflərdən bəziləri ondan ibarətdir ki, keçmiş illərdə respublikamızda, Vətənimizdə, ölkəmizdə gənclər təşkilatına məxsus olan əmlak indi gənclərin ixtiyarına verilməlidir. Çünki həm gənclər təşkilatlarının əmlakının dağıdılması haqqında, həm də bizim idman, bədən tərbiyəsi təşkilatlarının əmlakının dağıdılması haqqında burada çox sözlər danışıldı, bunlar həqiqətdir. Dağı[305-306]dıblar, ancaq eyni zamanda hələ bəzi hissəsi də qalıbdır. Müstəqil Azərbaycan Respublikası keçmiş illərdə Azərbaycan Respublikasının ərazisində olan bütün mülkiyyətin, bütün əmlakın varisidir. Ona görə də gənclərə məxsus olan bütün əmlak, hesab edirəm ki, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə verilməlidir.

Vaxtilə bizim böyük komsomol təşkilatımız olubdur. Keçmişə münasibət haqqında mən bir neçə kəlmə sonra deyəcəyəm, ancaq indi komsomolla əlaqədar onu qeyd etmək istəyirəm ki, 1920-ci ildən 1990-cı ilə qədər Azərbaycanda fəaliyyət göstərən komsomol, demək olar ki, bu salonda oturanların, səhv etmirəmsə, 90 faizinin təhsil almasında, tərbiyə almasında, formalaşmasında xidmətlər göstəribdir, o xidmətləri inkar etmək olmaz və unutmaq da olmaz. Ona görə də biz komsomolun keçmişdəki fəaliyyətini qiymətləndirməliyik. Şübhəsiz, keçmişdə olan bütün başqa ideoloji təşkilatlar kimi, bu gün komsomol da bərpa oluna bilməz. Ancaq komsomol, gənclər təşkilatlarının hamısı dövlətin himayəsində, dövlətin idarəsində, dövlətin vəsaiti ilə yaşayan təşkilatlar olubdur. Ona görə də hamısı dövlətə məxsus olubdur, dövlətin olubdur. O vaxt deyirdik ki, bu, eyni zamanda xalqındır, bu gün də müstəqil Azərbaycanın Gənclər və İdman Nazirliyinə çatmalıdır. Burada bir "Gənclik" mərkəzi var idi, deyəsən Zuğulbada idi, bəli, Zuğulbadakı həmin o "Gənclik" mərkəzinin təməlinin qoyulması günündən ta onun son səviyyəyə çatdırılmasına qədər mən şəxsən orada, dəniz kənarında o mərkəzin yaranmasında iştirak etmişəm, ona rəhbərlik etmişəm. O mərkəz Azərbaycanın vəsaiti ilə yaranıbdır və mən çox böyük təəssüf hissi ilə bu gün eşitdim ki, o, indi kimlərəsə, başqalarına məxsusdur. Ola bilməz, o, Azərbaycana məxsusdur və Azərbaycan Gənclər və İdman Nazirliyinə məxsusdur.

Bu barədə heç söhbət aparmağa da ehtiyac yoxdur. Mən Nazirlər Kabinetinə göstəriş verirəm ki, bir neçə günün içərisində bu məsələyə baxıb, qərar qəbul etsin, lazımi sənədlər qəbul olunsun və o mərkəz Gənclər və İdman Nazirliyinin sərəncamına verilsin. Eləcə də bu qəbildən olan, bütün obyektlərin, əmlakın hamısı verilməlidir. Gənclər və İdman Nazirliyinə. Başqa məsələlərin həll olunması ilə əlaqədar mən fikrimi söylədim. Gənclər və İdman Nazirliyi təkliflərini verməlidir, biz onlara baxacağıq və lazımi tədbirlər görəcəyik.

Bir sözlə, əziz balalar, gənclər, hamımız çalışacağıq, güman [306-307] edirəm, mənimlə bərabər bütün hakimiyyət orqanlarının nümayəndələri də çalışacaqlar ki, sizin problemlərin həll olunmasını ardıcıl surətdə təmin edək. Çalışacağıq və əlimizdən gələni edəcəyik. O şeyi ki, bu gün edə bilməyəcəyik, onu sabah edəcəyik, sabah edə bilmədiyimizi bir neçə vaxtdan sonra edəcəyik, amma əmin olun ki, gənclərə qayğı, diqqət bundan sonra günbəgün, aybaay, ilbəil artacaq. Çünki siz həqiqətən Azərbaycanın gələcəyisiniz. Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir. Buna əmin ola bilərsiniz.

Ancaq sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, cürbəcür maneələrlə bağlı olan yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir. Bu, sizin vəzifələrinizdir və güman edirəm ki, hər bir Azərbaycan gənci cəmiyyətdə, Vətəndə, ölkədə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır.

Vəzifələr çoxdur, bu barədə saatlarla danışmaq olar, ancaq əgər ümumi şəkildə desək, gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır.

Biz dörd il bundan öncə Azərbaycan Respublikasının dövlət müstəqilliyinə nail olmuşuq. Bəzilərinə elə gəlir ki, dörd il çox böyük bir müddətdir. Ancaq keçid dövründə, bir iqtisadi-siyasi sistemdən başqa bir iqtisadi-siyasi sistemə keçid dövründə dörd il o qədər də böyük bir dövr deyildir.

Azərbaycanın müstəqilliyini inkişaf etdirmək üçün, qorumaq üçün, möhkəmləndirmək üçün və onu əbədi etmək üçün vaxt lazımdır. Ancaq eyni zamanda hər gün çalışmaq lazımdır, hər gün fəaliyyət göstərmək lazımdır. Buna görə də sizin əsas vəzifəniz bundan ibarət olmalıdır.

Bunun üçün sizin qarşınızda Azərbaycanın Əsas Qanunu [307-308] var, Konstitusiyası var. İndi bütün gənclərin fəaliyyəti artıq keçmiş ideoloji tələblərdən, ideoloji prinsiplərdən, ideoloji buxovlardan azaddır. Hamımız üçün bir məqsəd var, müstəqil Azərbaycan Respublikası və onun Əsas Qanunu – Konstitusiyası var. Hesab edirəm ki, keçən il bizim ən böyük nailiyyətimiz müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmək oldu. Konstitusiya referendum vasitəsilə, ümumxalq səsverməsi vasitəsilə qəbul olundu. Hesab edirəm ki, bu, uzunömürlü Konstitusiya olacaqdır və Azərbaycanın dövlət müstəqilliyini təmin etmək üçün, Azərbaycan xalqının gələcək rifahını təmin etmək üçün çox gözəl yollar açır və açacaqdır.

Konstitusiyada hər bir vətəndaşın hüquqları, azadlıqları öz əksini tapıbdır, eyni zamanda hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Konstitusiyanın maddələrinin üçdə bir hissəsi respublika vətəndaşlarının, o cümlədən gənclərin hüquq və azadlıqlarına həsr olunub. Əmin ola bilərsiniz: biz çalışacağıq ki, vətəndaşların Konstitusiyadan irəli gələn hüquq və azadlıqları daim təmin olunsun, qorunsun və Konstitusiyanın bütün maddələri ardıcıl surətdə həyata keçirilsin, tətbiq olunsun.

Vəzifələr isə, şübhəsiz ki, hər bir vətəndaşın özünün üzərinə düşən borcdur, məsuliyyətdir. Amma eyni zamanda bu, dövlət tərəfindən görülən tədbirlər nəticəsində, ayrı-ayrı təşkilatlar tərəfindən, siyasi partiyalar tərəfindən, gənclər təşkilatları tərəfindən görülən tədbirlər nəticəsində reallaşdırılan, həyata keçirilən vəzifələrdir. ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifələrin həyata keçirilməsini özünüz üçün həyat məqsədi kimi qəbul edəcəksiniz və bunları həyata keçirməyə çalışacaqsınız.

Mən təəssüf edirəm ki, bu gün burada gənclərin çıxışlarında Azərbaycanın ilk Konstitusiyası haqqında sözlər az deyildi. O mənada ki, yəni ona az istinad olundu, o Konstitusiyanın hər bir vətəndaşın, hər bir gəncin üzərinə qoyduğu vəzifələrin dərk olunması burada az səsləndi. Bu, təkcə gənclərə aid deyil, ümumiyyətlə bizim cəmiyyətimizə aid olan bir haldır. Çünki bunu etiraf etmək lazımdır, biz hələ qanunçuluq, konstitusiyaçılıq ənənəsi yarada bilməmişik. Biz hələ ki, qanunun, Konstitusiyanın daim təbliğ olunmasına nail ola bilməmişik, qanunların hər bir vətəndaş tərəfindən dərk olunmasına nail ola bilməmişik.

Bunları etiraf etmək lazımdır, ancaq bunları böyük bir [308-309] xəta da hesab etmək olmaz. Çünki indiyə qədər Azərbaycanda hüquqi dövlət olmayıbdır, qanunların işlənib-işlənilməməsi vətəndaşlar üçün o qədər də əhəmiyyətli olmayıbdır və keçmişdə qəbul olunmuş konstitusiyalar, şübhəsiz ki, bizim dövlət orqanlarının, cəmiyyətin fəaliyyətini tənzimləmişdir, ancaq Əsas Qanun adı daşısa da Əsas Qanun olmamışdır. Əsas Qanun hakim Kommunist Partiyasının ideologiyası, onun ideoloji prinsipləri, onun irəliyə çəkdiyi vəzifələr olmuşdur. Ona görə də ümumiyyətlə cəmiyyətimizdə hələ ki, Konstitusiya yeganə bir Əsas Qanun kimi dərk olunmayıbdır və hər bir vətəndaşın onun maddələrini öyrənmək, ona mənfəət verən maddələri dərk etmək, ondan istifadə etmək, hüquqlarını dərk etmək və həmişə hüquqlarının qorunmasını gözləmək, buna çalışmaq hissiyyatı hələ bizdə yaranmayıbdır.

Güman edirəm ki, bu da bizim qarşımızda duran vəzifədir, gənclər təşkilatlarının qarşısında duran vəzifədir və bu vəzifəni yerinə yetirmək lazımdır. Konstitusiyanı öyrənmək lazımdır, Konstitusiyanı dərk etmək lazımdır. Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə aid olan, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir, bizim gənc vətəndaş bilməlidir və ona riayət etməlidir. Güman edirəm ki, bu vəzifələri siz özünüzün ümdə vəzifələriniz kimi qəbul etməlisiniz. Bir sözlə, əsas vəzifəmiz Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdır.

Mən sizə deyə bilərəm ki, Azərbaycan xalqının çoxəsrlik tarixində nailiyyətləri də olubdur, ağır dövrləri də olubdur, qələbələri də olubdur, məğlubiyyətləri də olubdur. Ancaq bizim xalqımızın tarixində, ölkəmizin tarixində dövlət müstəqilliyini əldə etmək kimi bir nailiyyət olmayıbdır. İndiyə qədər hər bir azərbaycanlı üçün bu qədər böyük xoşbəxtlik – dövlət müstəqilliyi kimi böyük bir xoşbəxtlik olmayıbdır. Bunu dərk etmək lazımdır və bunu qorumaq lazımdır, bunu saxlamaq lazımdır. Bu gün mən sizi, bütün Azərbaycan gənclərini, Azərbaycanın gələcəyini əmin etmək istəyirəm ki, biz, o cümlədən bir Prezident kimi mən Azərbaycanın dövlət müstəqilliyini, Azərbaycan xalqının milli azadlığını daim qoruyacağıq və onu əbədi edəcəyik.

Heç bir qüvvə bizi bu müstəqillik yolundan çəkindirə bilməz, heç bir qüvvə Azərbaycanın dövlət müstəqilliyini əlindən ala bilməz. Biz bundan sonra daim azad, müstəqil Azərbaycanda yaşayacağıq. Buna əmin ola bilərsiniz. [309-310]

Bu, dövlətin borcudur, bu, hər bir vətəndaşın borcudur. Bunun üçün çox iş görmək lazımdır.

Müstəqilliyi təmin etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır. Biz bunu aparırıq.

Müstəqilliyi qoruyub saxlamaq üçün ölkəmizdə, respublikamızda vətəndaş həmrəyliyi, vətəndaş birliyi yaratmaq lazımdır, ictimai-siyasi sabitlik yaratmaq lazımdır, qanunların aliliyini təmin etmək lazımdır, sabitliyi təmin etmək lazımdır. Biz bunu edirik və edəcəyik.

Müstəqilliyi yaşatmaq, qorumaq üçün, Konstitusiyamızda əks olunduğu kimi, Azərbaycanda dövlət quruculuğu ilə ciddi məşğul olmaq lazımdır. Biz Konstitusiyamızda yazmışıq və bu, heç vaxt pozula bilməz. Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Dövlət quruculuğu prosesi gedir və gedəcək və mən tam əminəm ki, biz Azərbaycanda hüquqi, demokratik dövləti tamamilə qurub, onu dünya demokratiyası səviyyəsinə çatdıra biləcəyik.

Müstəqilliyimizi təmin etmək üçün, bir də qeyd edirəm, Azərbaycanda qanunların aliliyini təmin etmək lazımdır, insanların hüquqlarını, azadlıqlarını qorumaq lazımdır, hər bir vətəndaşa sərbəstlik vermək lazımdır. Biz bunu təmin etmişik və edəcəyik.

Müstəqilliyimizi qoruyub saxlamaq üçün Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, qoruyub saxlamaq lazımdır. Biz bu yolda da çalışırıq. Bildiyiniz kimi, Azərbaycan müstəqilliyini ağır və çətin bir dövrdə alıbdır. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz nəticəsində Azərbaycanda ictimai-siyasi vəziyyət gərginləşib. Bu təcavüz nəticəsində Azərbaycanın torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Azərbaycanın sərhədləri pozulubdur. Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Müharibə gedibdir, cürbəcür səbəblərdən Azərbaycanın torpaqları işğal olunubdur.

İndi onların təhlilini verməyə ehtiyac yoxdur. Ancaq biz müharibəni dayandırmışıq və məsələlərin sülh yolu ilə həll olunması ilə məşğuluq. İyirmi aydır ki, atəşkəs rejimində yaşayırıq. Ayrı-ayrı müxalif qüvvələr bu vəziyyəti tənqid edirlər, yaxud da ki, buna qara yaxmaq istəyirlər. Bu, onların öz işləridir. Amma məlumdur ki, respublikanın ictimaiyyəti, vətəndaşlarının tam əksəriyyəti bizim bu tədbirlərimizi, bu siyasətimizi bəyənir, dəstəkləyir və Azərbaycanın müharibədən bu yolla [310-311] çıxmasına tərəfdar çıxır və bu siyasəti davam etdirməyi tövsiyə edir. Biz bu yolla gedirik və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu siyasətin nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə nail olacağıq.

Bu sahədə son iki ildə görülən işlər sizə məlumdur. Dünyanın bütün beynəlxalq təşkilatları bizim problemlərlə məşğuldur, bütün bu beynəlxalq təşkilatlarda həmin problemləri müzakirə mövzusuna, müzakirə obyektinə biz çevirmişik və onların imkanlarından istifadə etməyə çalışırıq. Həm Qərbdə, həm Şərqdə dünyanın böyük dövlətləri, yəni dünya siyasətinə təsir göstərə bilən dövlətlər, onların başçıları bizim bu problemlərlə yaxından tanışdırlar, bunu bilirlər və bizim bu problemlərin həll olunması üçün səylər göstərirlər, bu məsələlərin məhz sülh yolu ilə həll olunması üçün tövsiyələr verirlər və öz köməklərini təklif edir, xidmət göstərirlər. Birləşmiş Millətlər Təşkilatında, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, İslam Konfransı Təşkilatında, EKO Təşkilatında, bütün başqa beynəlxalq təşkilatlarda bu məsələlər dəfələrlə müzakirə olunub. Dediyim kimi, dünyanın ən böyük dövlətləri – Amerika Birləşmiş Ştatları, .Rusiya, Fransa, İngiltərə, bizim qonşularımız olan Türkiyə, İran, Avropa dövlətləri bu problemlərin həlli üçün bizimlə müzakirələr aparırlar və problemin sülh yolu ilə həll olunması üçün bizə kömək göstərirlər. Biz bu imkanlardan istifadə etmişik, edirik və bundan sonra da edəcəyik.

Ancaq eyni zamanda biz heç vaxt xalqımızı pasifistliyə dəvət etməmişik və etmirik. Biz sülhsevər xalqıq, problemləri sülh yolu ilə həll etmək istəyirik. Ancaq eyni zamanda əgər bu yollar bizim respublikamızın ərazi bütövlüyünü təmin etməsə, işğal olunmuş torpaqlarımız azad olunmasa, respublikamızın dövlət sərhədləri bərpa olunmasa, biz sərəncamımızda olan bütün imkanlardan istifadə edəcəyik və etməyə qadirik ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü tamamilə təmin olunsun. Buna arxayın ola bilərsiniz.

Azərbaycan gəncləri bunu özləri üçün bir vəzifə kimi qəbul etməlidirlər. Yenə də deyirəm, qarşımızda vəzifələr çoxdur. Respublikamız sosial-iqtisadi böhran içindədir, böhrandan çıxmalıyıq. Tədbirlər görülür və görüləcəkdir. Əhalinin çox hissəsi ağır maddi vəziyyətdə yaşayır. Güman edirəm ki, iqtisadiyyatda nəzərdə tutulmuş dəyişikliklər, həyata keçiriləcək proqramlar bu problemlərin həll olunması üçün şərait yarada[311-312]caqdır. Bir çox başqa problemlər var, onlar da həll olunmalıdır. Ancaq ən əsas problem ondan ibarətdir ki, işğal olunmuş torpaqlar azad olunsun, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun və yerindən-yurdundan didərgin düşmüş bir milyondan artıq vətəndaşımız öz yerinə-yurduna qayıtsın. Buna nail olmaq üçün biz bütün əzab-əziyyətlərə, bütün çətinliklərə, bütün məhrumiyyətlərə dözməliyik. Başqa yolumuz yoxdur. Bunu etməliyik və bunu da edəcəyik. Güman edirəm ki, buna da biz nail olacağıq.

Dövlət quruculuğunda Azərbaycanın müdafiə imkanlarının yaranmasının mühüm rolu vardır. Müstəqil Azərbaycanın müstəqil bir dövlət kimi bütün dövlət atributları olmalıdır. Onlar yaranır və yaranma prosesi gedir. Təəssüf ki, müstəqillik əldə olunandan sonra bu proseslərin müvəffəqiyyətlə aparılması üçün zaman itirilmişdir, vaxt itirilmişdir, böyük fürsətlər əldən verilmişdir. Ancaq biz son zamanlar bu işlərlə ciddi məşğuluq. Bunlardan biri, dediyim kimi, Azərbaycanın müdafiə imkanlarının yaranması, Azərbaycanın müstəqilliyini təmin edən ordusunun yaranmasıdır. Ordu quruculuğunda böyük səhvlər buraxılıbdır, böyük günahlar edilibdir, hətta xəyanətlərə də yol verilibdir. Məhz bu xəyanətlərin nəticəsində, gedən müharibədən ayrı-ayrı adamların öz mənafeyi üçün istifadə etməsi nəticəsində vaxtında bizim nizami ordumuz yaranmayıbdır. Ordunun yaranması tarixi dörd ildir, ancaq həqiqi ordu, – mən bu gün sizə tam qətiyyətlə demək istəyirəm, – 1993-cü ilin noyabr ayından sonra yaranmağa başlayıb. O vaxta qədər vaxt itirilibdir və keçmiş sovetlər ordusundan Azərbaycanın payına düşmüş böyük hərbi potensial, silahlar, sursatlar, hərbi texnika, böyük hərbi bazalar, – Azərbaycanın ərazisində bunlar çox olubdur, – dağıdılıb, mənimsənilib. Bunlar hamısı

Azərbaycan ordusunun yaranmasına zərbələr vurubdur və Azərbaycan xalqını böyük xəyanətlərə gətirib çıxarıbdır. Açıq demək lazımdır, əgər 1991-ci ilin sonunda Azərbaycan müstəqillik aldığı zaman keçmiş sovet ordusunun Azərbaycan ərazisində olan potensialı, Azərbaycana çatmış potensialı qorunub saxlanılsaydı, ondan səmərəli istifadə olunsaydı nə bu cür məğlubiyyətlər ola bilərdi, nə də bizim müdafiə potensialımız indi belə vəziyyətdə ola bilərdi.

Çox şey dağıdılıbdır, həddindən artıq. Bunu adi vətəndaşlar bilmir, bunlar gizlədilibdir. Mən isə bilirəm ki, Azərbaycanın [312-313] ərazisində keçmiş sovet ordusunun nə qədər nəhəng qurğuları var idi, nə qədər böyük texnikası var idi, nə qədər böyük sursat anbarları var idi, nə qədər binaları, hərbi bazaları var idi.

Bunlar hamısı Azərbaycana qalmalı idi, bunlar hamısı Azərbaycanın sərəncamına keçməli idi. Bir çoxu keçib, haqq naminə demək lazımdır ki, sovet ordusu onu təhvil verib, ancaq o dövrdə bunlar ayrı-ayrı şəxslər tərəfindən dağıdılıb, mənimsənilib, satılıb, oğurlanıb. Ona görə də Azərbaycanda ordu quruculuğu iki tərəfdən şikəst olubdur: bir tərəfdən onun sərəncamında olan o böyük hərbi, texniki, silah potensialı, baza potensialı dağıdılıbdır, ikinci tərəfdən də hərbi quruculuqla məşğul olmaq əvəzinə cürbəcür, ayrı-ayrı batalyonlar yaradaraq o dövrdə hərə öz məqsədləri üçün istifadə edibdir.

1993-cü ilin noyabr ayından biz hərbi quruculuğa başlamışıq və hərbi quruculuq, ordu yaranması prosesi gedir. Mən bu gün sizə çatdırmaq istəyirəm ki, bu proses normal şəraitdə gedir, biz buna nəzarət edirik və müstəqil Azərbaycanın özünə layiq, onun müdafiəsini təmin edən ordusu yaranır və yaranacaqdır.

Bu sahədə üzərimizə düşən vəzifələri biz həyata keçiririk və keçirəcəyik. Ancaq gənclərin də üzərinə düşən vəzifələr çox böyükdür. Məlumdur ki, ordu gənclərdən ibarətdir. İndi bizim ordunun 90 faizini gənclər təşkil edir. Gənclər təşkilatının, gənclərin ən əsas vəzifəsi hər bir gənci, hər bir Azərbaycan övladını orduya xidmətə hazırlamaqdan ibarət olmalıdır. Təəssüf ki, bu iş bizdə hələ istənilən səviyyədə deyil. Bunu etiraf etmək lazımdır. Keçmiş zamanlar da, Azərbaycan Respublikası Sovetlər İttifaqı tərkibində olaraq sovet ordusunun formalaşmasında daim iştirak edibdir. Xatirəmdədir, o illərdə Azərbaycandan hər il 18 yaşına çatmış təxminən 60 min gənc oğlan hərbi mükəlləfiyyətə çağırılırdı və sovet ordusuna xidmətə göndərilirdi. Hər il! Amma bunlara baxmayaraq və bizim o vaxtkı bütün ənənələrimizə baxmayaraq bizdə hərbi qulluğa münasibət istənilən səviyyədə olmamışdır, – o vaxt da, indi də. Hesab edirəm ki, indiki dövrümüzdə bütün gənclər təşkilatlarımızın əsas vəzifəsi gəncləri hərbi qulluğa hazırlamaqdan ibarətdir.

Bu gün burada Masallıdan çıxış edən fermer dedi ki, əsgər haqqında heç bir kəlmə deyilməyibdir, gördüm ki, zaldan çox alqışlar gəldi. Çünki bilirəm, burada bizim ordu hissələrindən, bir çox nümayəndələr iştirak edir , bir neçə yüz nümayəndə [313-314] ordu hissələrindən , bütün bölgələrdən, o cümlədən cəbhə bölgələrindən gəliblər və forumda iştirak edirlər. Ona görə də onlar Masallı rayonu gənclərinin nümayəndəsinin çıxışmı çox böyük alqışlarla qarşıladılar. Mən də elə bu forumun əvvəlindən gözləyirdim ki, nə vaxt bizim bir əsgər çıxış edəcəkdir, nə vaxt bir hərbi məsələ haqqında danışılacaqdır, nə vaxt ordu haqqında danışılacaqdır.

Səbirsizliklə gözləyirdim ki, bəs niyə bu gecikir, nə üçün bunu gecikdirirlər? Bəzən az qala istəyirdim xəbər göndərim ki, bəs bizim ordunun nümayəndələrinə söz verin. Nəhayət, ordumuzun nümayəndəsi Abdulla Qurbani çıxış etdi, çox hərarətli çıxış etdi və forum iştirakçıları da onu çox böyük sevgi, məhəbbətlə qarşıladılar.

Ancaq bunlar hamısı azdır. Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim bütün həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik. Ona görə də mən bunu gənclər təşkilatlarının əsas vəzifəsi hesab edirəm. Hər bir Azərbaycan gəncinə isə gənclik vaxtına çatana qədər özünü orduda xidmət etmək üçün hazırlamağı tövsiyə edirəm.

Biz indi ildə təxminən 35-40 min gənci orduya səfərbər edirik. Bu, bizim gənclərin ümumi sayının çox hissəsini təşkil edir. Bundan artıq buna ehtiyac yoxdur. Ancaq gərək hər bir gənc orduya səfərbər olmağa hazır olsun və orduda xidmət etməyi özünə şərəf kimi qəbul etsin. Əksinə, orduda xidmət etməmiş gənc gərək düşünsün ki, cəmiyyətdə o hansı borcunu yerinə yetirməlidir. Dünyanın bir çox ölkələrində, o cümlədən bizə qonşu və bizə dost olan Türkiyədə hər bir gəncin orduda xidmət etməsi onun şərəfli borcudur və o gənclər çalışırlar o borcu layiqli yerinə yetirsinlər.

Bizim güclü ordumuz olmalıdır. Ona görə yox ki, biz yenidən hərbi əməliyyatlara başlamaq istəyirik. Yox, sadəcə olaraq müstəqil Azərbaycan Respublikasının özünəməxsus güclü ordusu olmalıdır. Bizim keçmişdə də orduda xidmət etmək sahəsində böyük: ənənələrimiz olub. Keçmiş dövrləri götürsək, bizim xalq qəhrəmanlarının adları burada çəkildi. Məsələn, XIX, XX əsrləri götürsək, Azərbaycan çar Rusiyasının tərkibində olarkən xalqımızın çox dəyərli şəxsiyyətləri orduda yüksək rütbələrdə xidmət etmişlər, general rütbələri almışlar. Biz, məsələn, general Mehmandarovla, general Əliağa Şıxlinski ilə, [314-315] yaxud Talışxanovlar, Bakıxanovlar, Ağalarovlar, Naxçıvanskilər nəslindən olan generallarla fəxr eləyirik. Bizim vaxtilə belə sərkərdələrimiz olubdur, generallarımız olubdur. Onlar bizim tariximizə yazılıbdır. Biz onları böyük hörmət və ehtiram hissi ilə xatırlayırıq.

İkinci dünya müharibəsində də bizim qəhrəmanlarımız olubdur. Azərbaycandan İkinci dünya müharibəsinə 600 min nəfər səfərbər olunubdur. Onlardan 300 mini geriyə qayıtmayıbdır, həlak olubdur.

Sovet İttifaqı Qəhrəmanlarımız olubdur, o cümlədən Mehdi Hüseynzadə, Qafur Məmmədov, İsrafil Məmmədov kimi Sovet İttifaqı Qəhrəmanları tarixə düşmüşdür. Bu gün bizim sıralarımızda, bizimlə bərabər yaşayan. Ziya Bünyadov, Məlik Məhərrəmov, Abbas Quliyev Sovet İttifaqı Qəhrəmanlarıdır.

İkinci dünya müharibəsində bizim Həzi Aslanov, Akim Abbasov, Mahmud Əbilov və başqaları kimi böyük generallarımız, sərkərdələrimiz olubdur. Bunlar hamısı olubdur. Bunlar bizim tariximizdir. Düzdür, onlar bizim müstəqil Azərbaycanın olmayıbdır, amma Azərbaycanın mənsub olduğu dövlətə xidmət ediblər. Yəni Azərbaycanın nə qədər yüksək səviyyəli zabit, general hazırlamaq imkanını nümayiş etdiriblər.

İndi biz müstəqil dövlətik. Bu son illər gedən müharibədə bizim şübhəsiz ki, çox böyük qəhrəmanlarımız olubdur – şəhid olublar, Milli qəhrəman adı alıblar. Milli qəhrəmanların birinin atası burada çox gözəl çıxış etdi. İndi yaşayan Milli qəhrəmanlarımız var, onlarla da biz fəxr edirik. İndi bizim ordumuzda generallarımız var. Onlar hələ özlərini göstərməlidirlər – döyüşlərdə göstərməlidirlər, ordunun quruculuğunda göstərməlidirlər. Onlar göstərməlidirlər ki, keçmiş zamanlarda sınaqlardan çıxmış generallar səviyyəsində ordumuza xidmət edirlər. Bunların hamısını mən bu gün sizə belə geniş çatdıraraq qeyd etmək istəyirəm ki, bizim indi qüdrətli ordu yaratmağa imkanımız vardır.

Burada çıxış eləyənlərdən biri söylədi ki, vaxtilə Azərbaycanda ordu zabitləri hazırlamaq üçün tədbirlər görülübdür. Bəli, 1970-ci ildə mən Azərbaycanın gələcəyini düşünərək Bakıda xüsusi bir hərbi məktəbin yaranmasına nail oldum. O məktəbə Cəmşid Naxçıvanskinin – bizim qəhrəman generallardan birinin adı verildi. Artıq 25 ildir ki, bu məktəb fəaliyyət göstərir. [315-316]

Mən indi düşünürəm, – əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuzdakı o zabitlərin çoxu yəqin olmayacaqdı. Çünki bu zabitlərimizin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra biz ildə təxminən 800-900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəblərinə göndərirdik. O cümlədən Bakıda yerləşən iki ali hərbi məktəbdə, – onlar indi bizim ixtiyarımızdadır, – zabitlər hazırlayırdıq. İndi ordumuzda olan zabitlərin tam əksəriyyəti həmin dövrdə hazırlanan zabitlərdir, onlar xidmət edirlər. Bu işləri biz vaxtında görmüşük. O dövrdə bizim imkanlarımız məhdud idi, amma bunları etmişik. Amma bu gün isə hər şey bizim əlimizdədir və çalışmalıyıq ki, bu imkanlarımızdan istifadə edib güclü ordu yaradaq.

Ona görə də mən Azərbaycan ordusunun bu forumda iştirak edən nümayəndələrini xüsusi salamlayıram. İndi Azərbaycanın torpaqlarının keşiyində duran əsgərlərimizə, zabitlərimizə bu salondan hərarətli salamlarımı göndərirəm və bizim əsgərlərimizə, zabitlərimizə, Milli Ordumuza Azərbaycanın müstəqilliyinin qorunmasında, Azərbaycanın torpaqlarının müdafiəsində uğurlar arzulayıram.

Bizim gənclərimizin vəzifəsi təhsil almaq və müasir tələblərə uyğun olan səviyyəyə çatmaqdır. Təhsil haqqında burada çox tənqidi sözlər deyildi. Azərbaycan Respublikasının güclü təhsil sistemi yaranıbdır – həm orta təhsil sistemi, həm ali təhsil sistemi.

1919-cu ildə ilk Bakı Dövlət Universiteti yaranandan indiyə qədər Azərbaycanda yüksək təhsil sistemi, ümumtəhsil sistemi yaranması üçün çox işlər görülübdür. Ancaq indi bizim təhsilimiz bütün həyatımızın başqa sahələri kimi böhran dövrü keçirir. Məktəblərimizin vəziyyətindən, digər təhsil ocaqlarının vəziyyətindən danışıldı. Məlumdur ki, bir neçə il bundan əvvəlki vəziyyət indi yoxdur. Yəni orta məktəblərdə, ali məktəblərdə təhsili təmin etmək üçün, dərsliklər hazırlamaq üçün və təhsili yüksək səviyyədə aparmaq üçün istənilən şərait yoxdur. Bu, məlumdur. Ancaq eyni zamanda bizim böyük müəllim potensialımız var, böyük alimlər potensialımız var, böyük elmi potensialımız var. Biz çalışmalıyıq ki, bu ağır dövrdə bütün bu imkanlarımızı gənclərin təhsillənməsinə, tərbiyələnməsinə həsr eləyək. Nöqsanlar, qüsurlar, naqis cəhətlər, mənfi cəhətlər məlumdur. Bunların aradan götürülməsi üçün çalışmaq lazımdır. Hərə öz imkanlarından istifadə etməlidir. Hərə çalış[316-317]malıdır ki, bu mənfi cəhətlər tezliklə aradan götürülsün. Mən bu barədə ümumi bir resept vermək istəmirəm, çünki vəziyyət nə qədər gərgin, ağırdır ki, ümumi bir resept vermək çətindir.

Amma hər bir vətəndaş çalışmalıdır ki, bizim gənc nəslimiz yaxşı tərbiyə alsın, yaxşı təhsil alsın, müasir tələblərə uyğun səviyyəyə çatsın.

İndi təhsil sistemində cürbəcür islahatlar aparılır, dəyişikliklər keçirilir. Bunlar təbiidir. Özəl təhsil sistemləri yaranır, bunlar da təbiidir. Ancaq mən bu gün xəbərdarlıq edirəm – bu özəl təhsil sistemləri, təhsil ocaqları bizim ümumi təhsil səviyyəsini aşağıya salmamalıdır. Təəssüf ki, bəzi adamlar indi belə bir ağır şəraitdən istifadə edərək cürbəcür yollarla ancaq öz şəxsi məqsədlərinə nail olmağa, şəxsi mənafe götürməyə çalışırlar. Bəziləri guya özəl məktəblər, özəl ali məktəblər yaradaraq yaxşı təhsil vermək istəyirlər. Burada çox diqqətli olmaq lazımdır. Bizim xüsusi komissiyamız var. O, çox ciddi məşğul olmalıdır. Və o yerdə ki, – özəl təhsil təşkilatları doğrudan da günün tələblərinə uyğun ola bilər, – onlar fəaliyyət göstərə bilərlər. Ancaq o yerdə ki, günün tələblərinə uyğun deyillər, onların fəaliyyətinə imkan vermək olmaz.

Eyni zamanda bizim mövcud universitetlərimiz, ali təhsil ocaqlarımız öz işini davam etdirməlidir, öz fəaliyyətini aparmalıdır və biz gənclərimizi təhsilləndirməliyik. Gənclərimiz təhsil almalıdır. Çünki ali təhsil olmasa gənclərimizin istənilən gələcəyi də olmayacaqdır. İndi təhsil almaq üçün tələbələr xarici ölkələrə də gedirlər. Ya özləri öz imkanlarından istifadə edib gedirlər, bəzi xeyriyyəçi təşkilatlar da onlara kömək edirlər. Bunlar hamısı, şübhəsiz ki, bizim təhsilimizin yüksəlməsinə kömək edəcəkdir, səbəb olacaqdır. Keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələrdə də indi təhsil almaq imkanından imtina etmək lazım deyil. Xüsusən Rusiyanın

ali təhsil ocaqlarında. Burada 70-ci, 80-ci illərdə hər il 800-900 nəfər gəncin Azərbaycandan kənarda olan təhsil ocaqlarına göndərilməsi yada salındı. Doğrudan da, hər il burada, bu salonda biz həmin gəncləri Moskvaya, Leninqrada, Kiyevə, başqa-başqa şəhərlərə yola salırdıq, onlara xeyir-dua verirdik, onları yüksək təhsil almaq üçün, yaxud bizim respublikamızda mövcud olmayan ixtisasları mənimsəmək üçün həmin təhsil mərkəzlərinə göndərirdik. Bunlar öz bəhrəsini verir. Burada deyildi ki, indi həmin təhsil ocaqlarında təhsil almış, mütəxəssis kimi fəaliyyət göstərən şəxslərin cəmiyyəti yaranıb. Mən bu cəmiyyəti sa[317-318]lamlayıram, ona çox böyük ehtiramımı bildirirəm və çalışacağam ki, bu cəmiyyətin üzvləri ilə görüşüm. Çünki vaxtilə belə kadrların hazırlanması üçün mən xeyli səylər göstərmişəm.

Gənclərimizin qarşısında duran əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Bilirsiniz, indi maddi çətinlik, maddi ehtiyaclar, şübhəsiz ki, cəmiyyətdə cürbəcür mənfi halların meydana gəlməsinə gətirib çıxarır. Ancaq gənclərimiz də bilməlidir, vətəndaşlarımız da bilməlidir ki, bu dövrün müvəqqəti çətinliklərinə dözmək lazımdır, mənəvi tərbiyəni daim aparmaq lazımdır və gənclərimizi yüksək mənəviyyat ruhunda tərbiyələndirmək lazımdır. Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz. Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır. Ona görə də bu gün mənəvi tərbiyə bəlkə də keçmiş illərdən daha çox lazımdır.

Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik.

Ona görə də gənclərə mən nə demək istəyirəm? Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc həyatda özünə yer tapa bilməyəcəkdir və şübhəsiz ki, bizim ictimai-siyasi prosesdə, müstəqil Azərbaycanın inkişafında lazımi qədər iştirak edə bilməyəcəkdir. [318-319]

Bizim xalqımızın böyük, möhtəşəm tarixi var. Biz öz tariximizlə fəxr edə bilərik. Bizim xalqımızın böyük dövlətçilik tarixi olubdur. Ən qədim dövrlərdən Azərbaycan torpağında əzəmətli dövlətlər olmuşdur. Orta əsrlərdə Azərbaycan dövlətçiliyi tariximizə gözəl nümunələr vermişdir. Şirvanşahlar dövləti, Atabəylər dövləti, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti, Səfəvilər dövləti – bunlar hamısı Azərbaycan xalqının dövlətçiliyinin tarixidir. Ondan sonra Azərbaycanda olan xanlıqlar da dövlətçilik xarakteri daşımışdır. Və nəhayət, XX əsrin əvvəlində, 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Ondan sonrakı dövr, 1920-ci ildən 1991-ci ilə qədər olan dövr Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil dövlət olmamışdır, ancaq Azərbaycan xalqı böyük bir inkişaf dövrü keçirmişdir.

Nəhayət, 1991-ci ilin sonunda Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir.

Beləliklə, Azərbaycan torpağında ən qədim zamanlardan indiyə qədər müstəqil dövlətlər olmuşdur. Biz bununla fəxr edirik və fəxr edə bilərik. Azərbaycanlılıq hissiyyatını gənclərdə yaratmaq lazımdır. Azərbaycanı sevmək azərbaycanlılıq hissiyyatını özündə cəm etmək deməkdir. İndi müstəqil Azərbaycan Respublikası məlum olan Azərbaycanın hüdudları çərçivəsindədir. Keçmiş dövrlərdə, keçmiş əsrlərdə Azərbaycan dövlətləri daha da geniş ərazidə olmuşlar. İndi bizim Azərbaycandan savayı, dünyanın çox ölkələrində azərbaycanlılar yaşayır. Amerika qitəsində də, Avropa qitəsində də, Asiya qitəsində də azərbaycanlılar yaşayır. Onlar da azərbaycanlıdırlar, onlarda da azərbaycanlılıq hissləri yaşamalıdır, onlar da özlərini azərbaycanh kimi hiss etməlidirlər, onlar da Azərbaycanla bağlı olmalıdırlar.

Bu gün burada bəlkə də imkan yoxdur, amma güman edirəm ki, müstəqil Azərbaycan dövləti yaşadıqca, inkişaf etdikcə, böyüdükcə, bütün dünyada yaşayan azərbaycanlılar bizim müstəqil Azərbaycanla əlaqəsini daha da artıracaq, inkişaf etdirəcək və hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq özünü azərbaycanlı kimi dərk edəcəkdir.

Məni bu gün bu forumda sevindirən cəhətlərdən biri də o oldu ki, çıxış edən bütün gənclər çox sərbəst, səlis, Azərbaycan dilində danışırdılar. Bilirsiniz, bir neçə il bundan öncə bunu görmək mümkün deyildi. Keçmiş illərin müəyyən xüsusiyyətlərinə görə Azərbaycan dili Azərbaycanda lazımi qədər inkişaf [319-320] edə bilməmişdi. Doğrudur, biz buna çox çalışmışıq, 60-cı, 70-ci, 80-ci illərdə bu barədə çox səylər göstərilmişdir. Ancaq Azərbaycan dili hakim dil ola. bilməmişdi. Biz Sovetlər İttifaqının tərkibində idik. Sovetlər İttifaqının ümumi dili – rus dili hakim dil idi və o vaxt gənclərin, onların valideynlərinin çoxu öz övladlarını rusdilli məktəblərə qoyurdu. Bu da təbii idi, çünki geniş təhsil almaq üçün, Azərbaycandan kənara çıxmaq üçün o dildə təhsil almaq lazım idi və bunu da qınamaq olmaz. Ancaq bunlar hamısı bizim Azərbaycan dilinin tam inkişaf

etməsinə müəyyən qədər maneçilik edirdi. Bir də, açıq demək lazımdır, biz müstəqil dövlət deyildik, ümumi bir dövlətin tərkibində idik, ümumi bir dövlətin dili ilə çoxları danışırdı. Ona görə də bəzi adamlarda təəssüf ki, öz dilinə düzgün münasibət çatmırdı. Mənim xatirimdədir, keçmiş komsomol qurultaylarında gənclərin çoxu Azərbaycan dilində danışmırdı. Azərbaycan dilində danışmaq istəyən də səlis, cazibədar danışmırdı. Amma bu gün burada çıxış edənlər məni nə qədər heyran etdilər, bizim dilimizin zənginliyini, bu gün Azərbaycanda hakim dil olmasını nümayiş etdirdilər.

Bilirsiniz, hər bir azərbaycanlı gənc çalışmalıdır ki, dünyanın çox dillərini – rus dilini də, ingilis dilini də, fransız dilini də, ərəb, fars dillərini də mənimsəsin, öyrənsin. Bu, lazımdır, çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bu gün və gələcəkdə insanlardan bir çox dili bilməsini tələb edir. Mən gənclərimizə bu tövsiyəni verirəm. Amma bunlarla yanaşı, bunlardan əvvəl öz ana dilimizi, Azərbaycan dilini mənimsəmək lazımdır, bu dildə yaxşı danışmaq lazımdır, bu dili ana dili kimi daim duymaq lazımdır, bu dili sevmək lazımdır.

Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Xatirimdədir, 70-ci illərdə mən bir neçə dəfə çox narahatçılıqla göstərişlər verdim ki, rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatına çox yer verilsin. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır. [320-321]

Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

Ümidvaram ki, – bu gün məndə bu ümidlər daha da çoxaldı, – bizim gənclərimiz bundan sonra tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır.

Dil barəsində danışarkən, mədəniyyət, milli ənənələr haqqında danışarkən eyni zamanda mən onu qeyd etmək istəyirəm ki, Azərbaycanda bütün vətəndaşlar eyni hüquqa malikdir və bütün dillərdən sərbəst istifadə olunur, olunmalıdır və gələcəkdə də istifadə olunacaqdır. Azərbaycan Azərbaycanda yaşayan bütün millətlərin doğma Vətənidir. Azərbaycan vətəndaşları, Azərbaycan xalqı deyəndə biz Azərbaycanda yaşayan bütün millətlərin birliyini dərk edirik. Mən böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycanda millətlər arasında olan əlaqələr mehriban dostluq əlaqələridir, bir-birinə hörmət, ehtiram əlaqələridir və biz bu əlaqələri inkişaf etdirəcəyik, bu əlaqələri yaşadacağıq, qoruyub saxlayacağıq. Ona görə də Azərbaycanın xüsusiyyətini – çoxmillətli ölkə kimi xüsusiyyətini, çoxdilli ölkə kimi xüsusiyyətini qoruyub saxlamaq bizim borcumuzdur, gənclərimizin vəzifəsidir.

Milli vətənpərvərlik haqqında danışarkən bir daha keçmiş tariximizin qiymətləndirilməsi zərurətini mən qeyd etmək istəyirəm. Tariximizin hər mərhələsi bizim üçün qiymətlidir: ən qədim dövr də, orta əsrlər də, sonrakı dövr də. XX əsr sona çatır, XX əsr başlanğıc dövründən indiyə qədər bizim gözümüzün qarşısındadır. Bu XX əsrdə Azərbaycan xalqı bir sıçrayış dövrü keçib. Ən böyük nailiyyətlərimizdən biri odur ki, XX əsrdə ilk dəfə Azərbaycanda demokratik respublika yarandı. Əgər o, süqut edibsə də, Azərbaycan xalqı öz inkişafında davam edib. Azərbaycanın 70 il Sovetlər İttifaqı tərkibində olan dövrü onun böyük inkişaf dövrüdür, bu dövrə qara yaxmaq olmaz, bu dövrü qiymətləndirmək lazımdır. Bu dövrdə Azərbaycan xalqının elmi, təhsili, mədəniyyəti sürətlə inkişaf edibdir. Bugünkü bizim müstəqil Azərbaycanın təməli, özəyi, əsası həmin dövrdə yaranmış iqtisadiyyat, o dövrdə yaranmış elmi potensial, o dövrdə yaranmış mədəni potensialdır, o dövrdə yaranmış təhsil potensialıdır. Bunu biz qiymətləndirməliyik. Bü[321-322]tün bu tariximizi, keçmiş tariximizi biz qiymətləndirərək, şübhəsiz ki, gənclərdə vətənpərvərlik hissini daha da artıra bilərik.

Bizim bu son keçmişimizdən qalan ağır, çətin bir məsələ, problem 70 il dinimizdən məhrum olmağımızdır. Əgər o 70 ildə bizim böyük nailiyyətlərimiz olubsa, onu mən qeyd etdim, eyni zamanda məhrumiyyətlərimiz də olubdur. Məhrumiyyətlərimizdən biri odur ki, biz dinimizdən məhrum olmuşduq. Ancaq dini heç kəs unutmayıbdır, dini xalq öz qəlbində, ürəyində saxlayıbdır. Müstəqillik, azadlıq əldə olunan .kimi bizim dinimiz də sürətlə inkişaf edir. Bu, müsbət haldır. İslam dini bizim müqəddəs dinimizdir, "Qurani-Kərim" müqəddəs kitabımızdır. İslam dininin, "Quran"ın Azərbaycan xalqına bəxş etdiyi mənəvi dəyərlər bizim üçün əzizdir və xalqımızın, gənclərimizin bu gün də, gələcəkdə də tərbiyəsi üçün çox əhəmiyyətlidir. Ona görə də din azadlığı bizim üçün böyük nailiyyətdir.

İslam dininin bəşəriyyətə bəxş etdiyi bütün nemətlərdən hər bir azərbaycanlı səmərəli istifadə etməlidir və xüsusən cəmiyyətdə davranışında islam dininin tələblərinə uyğun olaraq özünü göstərməlidir. Eyni zamanda bizim Konstitusiyamıza görə ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbiidir, bütün dünyəvi ölkələrdə bu, belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin islam dinini mənimsəməsi üçün, hesab edirəm ki, lazımi tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsini aşılamaq istəyirlər və bunlar da bizim gənclərin tərbiyəsinə zərər vurur. Ona görə də islam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu

barədə Təhsil Nazirliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımi tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək islam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin zədələnməsinə gətirib çıxarsınlar. Biz buna yol verə bilmərik. Ona görə də bu barədə lazımi tədbirlər görülməlidir.

Burada gənclər arasında cinayətkarlıq haqqında, mənfi hal[322-323]lar haqqında da danışıldı. Bu, həqiqətdir. Biz bu həqiqəti etiraf etməliyik, dərk etməliyik və bununla mübarizə aparmalıyıq. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın gənclərinin tam əksəriyyəti sağlam mənəviyyatlı, sağlam düşüncəli, sağlam əxlaqlı gənclərdir. Bu çətin dövrdə də Azərbaycan gənclərinin tam əksəriyyəti mənəvi dəyərlərə sadiq qalır. Ancaq təəssüf ki, yolundan çıxanlar da az deyil. Ona görə də gənclər təşkilatlarının vəzifəsi bu mənfi halların aradan qaldırılması ilə məşğul olmaqdan, mənfi hallarla mübarizə aparmaqdan, gənclərin mənəvi tərbiyəsində belə halların aradan qaldırılmasına xüsusi diqqət verməkdən ibarətdir.

Beləliklə, əziz gənclər, mən bizim gənclərin qarşısında duran yalnız bir neçə vəzifə haqqında danışdım. Bu vəzifələrin hamısı Konstitusiyadan irəli gələn vəzifələrdir. Əminəm ki, siz Azərbaycan Konstitusiyasını dərindən öyrənəcəksiniz, mənimsəyəcəksiniz və öz təhsilinizi, həyatınızı, həyat fəaliyyətinizi Konstitusiyanın tələblərinə uyğun quracaqsınız. Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqmı, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Onların nümayəndələri bu salondadır. Onların nümayəndələri bugünkü uşaqlardır, yetişən gənclərdir. Ona görə də biz – yaşlı nəslin nümayəndələri arxayınıq ki, siz, əziz gənclər, müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm!

Sizə, əziz balalar, bütün Azərbaycan gənclərinə öz sevgimi, məhəbbətimi bildirirəm. Əmin ola bilərsiniz ki, mən bütün dövlət orqanlarının gənclərə qayğısının artırılmasını təmin edəcəyəm. Sizə gələcək həyatınızda yeni uğurlar arzulayıram. Azərbaycanın gənclərinə xoşbəxt gələcək arzulayıram.

Yaşasın Azərbaycanın gəncləri!

Yaşasın yenilməz, bölünməz müstəqil Azərbaycan Respublikası! Sağ olun. [323-324]

## İRAN İSLAM İNQİLABININ İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı*

*3 fevral 1996-cı il*

Hörmətli səfir, hörmətli xanımlar və cənablar!

İran İslam İnqilabının 17-ci ildönümü münasibətilə hamınızı ürəkdən təbrik edirəm. İran xalqına, orada olan bacı-qardaşlarımıza xoşbəxtlik və səadət arzulayır və bütün işlərində uğurlar diləyirəm.

İran İslam İnqilabı İran ölkəsinin həyatında böyük dəyişikliklər meydana gətiribdir. 17 ildir ki, İran xalqı İslam İnqilabı bayrağı altında yaşayır, yaradır və öz ölkəsini xoşbəxt gələcəyə aparır. Biz İran İslam İnqilabının həm baş verməsini, həm də onun sonrakı nəticələrini həmişə dəstəkləmişik, buna hörmət və ehtiramımızı bildirmişik və bu gün. də bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, İran İslam İnqilabının İran xalqına bəxş etdiyi nemətlər bundan sonra da xalqı, milləti daha firavan həyata gətirib çıxaracaqdır.

İran dünyanın, xüsusən Şərqin ən böyük, əzəmətli və qədim .dövlətlərindən biridir. İranın çox zəngin, qədim tarixi var və İran xalqı öz tarixi ənənələri ilə, dünya mədəniyyətinə, elminə verdiyi dəyərli töhfələrlə daim fəxr edir və bu gün də fəxr edə bilər.

İran ilə Azərbaycan arasında olan əlaqələrin tarixi böyükdür. Bu, çoxəsrlik tarixdir. Xalqlarımız əsrlər boyu yan-yana, bir yerdə yaşamış, bir kökdən olaraq, eyni ənənələrə malik olaraq bir-birinə həmişə dayaq durmuşlar. Azərbaycan xalqı milli azadlığını əldə edəndən sonra, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra İran ilə Azərbaycan arasındakı əlaqələr dövlət səviyyəsinə qalxıb və qarşılıqlı surətdə faydalı dövlətlərarası əlaqələrə çevrilibdir. Biz bu əlaqələri çox əhəmiyyətli hesab edirik və Azərbaycanın müstəqil dövlət olduğu dörd il ərzində İran ilə Azərbaycan arasında yaranmış və daim inkişafda olan əlaqələri yüksək qiymətləndiririk.

Dediyim kimi, xalqlarımızın dostluğu və qardaşlığının tarixi qədim dövrlərdən gəlir. Milli ənənələrin eyni, oxşar olması, bir dinə mənsub olmağımız və başqa tarixi köklərimiz bizi hə[324-325]mişə birləşdiribdir. İndi müstəqil Azərbaycanın İran İslam Respublikası ilə çox böyük sərhədi var. Biz qonşuyuq, həm də bir-birinə çox böyük hüsn-rəğbət bəsləyən qonşuyuq. Biz İran İslam Respublikasına, İran xalqına həmişə böyük hörmət və ehtiramla yanaşmışıq və yanaşırıq. Eləcə də İran xalqı, İran dövləti tərəfindən Azərbaycana olan böyük hörmət və ehtiramı hiss edirik.

Eyni zamanda qeyd etmək istəyirəm ki, bu dostluğu, qardaşlığı inkişaf etdirmək, möhkəmləndirmək üçün çox böyük ehtiyat mənbələrimiz var və bunlardan istifadə edərək əməkdaşlığımızı genişləndirəcəyik, dostluğumuzu daha da möhkəmləndirəcəyik və bunların hamısını sarsılmaz edəcəyik. Biz Azərbaycanda İranla münasibətlərimizi məhz belə görürük.

Bu münasibətlər İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış .yüksək səviyyəli bir çox sənədlərdə öz əksini tapıbdır. İran İslam Respublikasının prezidenti hörmətli cənab Haşimi Rəfsəncaninin Azərbaycana rəsmi səfəri zamanı və mənim İran İslam Respublikasına səfərim vaxtı biz çox sənədlər imzalamışıq, dostluq və əməkdaşlıq müqaviləsi bağlamışıq. Biz bu sənədlərə, müqavilələrə sadiqik, bundan sonra da sadiq olacağıq, dostluğu, qardaşlığı, əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəyik.

Bizi İranla bağlı hər şey maraqlandırır – onun həm qədim mədəniyyəti, tarixi abidələri, böyük ədəbi, mədəni irsi və bizim bir-birinə bənzəyən, yaxud eyni olan adət və ənənələrimiz maraqlandırır. Bundan əlavə, İranda azərbaycanlılar da yaşayır. Onlar İranın vətəndaşlarıdır, onun xalqının bir hissəsidir, eyni zamanda azərbaycanlı kimi bizim soydaşlarımızdır, biz də onların soydaşlarıyıq. Bunlar hamısı ölkələrimizin bir-birinə daim dost, qardaş olmasının əsasını yaradıbdır və bizim də borcumuz bunları inkişaf etdirməkdən ibarətdir.

Həzrəti Ayətüllah Xomeyninin rəhbərliyi altında baş vermiş İran İslam İnqilabı, qeyd etdiyim kimi, İran xalqı Üçün. yeni böyük səmərələr gətirib, nəticələr veribdir. Bu gün də İran İslam Respublikasının sükanı çox etibarlı əllərdədir. Həzrəti Ayətüllah Xomeyninin işinin davamçısı Həzrəti Ayətüllah Xamneyi cənabları, İran İslam Respublikasının prezidenti hörmətli Haşimi Rəfsəncani cənabları və başqa dostlarımız İran [325-326] İslam Respublikasına çox məharətlə rəhbərlik edirlər və İran ilə Azərbaycan arasında olan dostluq əlaqələrinə çox böyük diqqət göstərir, bu əlaqələrin möhkəmlənməsinə çalışırlar. Biz bunların hamısını çox yüksək qiymətləndiririk. Öz tərəfimizdən, Azərbaycan tərəfdən bildirmək istəyirəm ki, biz həmişə hesab edirik ki, bizim hörmət və ehtiramımız İranın Azərbaycana olan hörmət və ehtiramından üstündür. Biz belə hesab edirik. Amma siz nə cür hesab edirsiniz, – bu, öz işinizdir. Biz isə belə hesab edirik. Əminəm ki, bu dostluq, qardaşlıq əlaqələri gündən-günə möhkəmlənəcək, inkişaf edəcəkdir və biz bunun üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Bu gün əlamətdar bir gündür və xüsusən biz Ramazan ayı içərisindəyik. Güman edirəm ki, buraya toplaşanlar arasında oruc tutanların hamısı iftarını açıbdır. İran İslam Respublikasının bayramı münasibətilə burada ikinci dəfə iftar aça bilərlər ki, sabah sübhdən orucunu daha da yaxşı tuta bilsinlər. Mən sizin hamınızı eyni zamanda Ramazan ayı münasibətilə təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Ramazan

ayını ləyaqətlə başa çatdıracaqsınız. Hər birinizin orucunun qəbul olunmasını Allahdan diləyirəm. Sizi bir daha ürəkdən təbrik edirəm, böyük Allahdan İran İslam Respublikasına, onun xalqına yeni-yeni uğurlar arzulayıram. Bayramınız mübarək olsun! Sağ olun. [326-327]

**RUSİYA FEDERAL SƏRHƏD XİDMƏTİNİN DİREKTORU A. İ. NİKOLAYEVLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT ÜÇÜN BƏYANAT**

*14 fevral 1996-cı il*

Bu gün biz Rusiya ilə Azərbaycan arasında sərhəd qoşunları xətti üzrə əməkdaşlığın çox mühüm məsələlərini müzakirə etdik və belə hesab edirəm ki, bu əməkdaşlığın inkişafına dair bəzi yeni addımlar barədə razılığa gəldik. Şəxsən mən söhbətimizdən və müzakirə olunan məsələlərə dair fikir mübadiləsindən məmnunam. Rusiya Federasiyası ilə Azərbaycan arasında əməkdaşlığın gələcək inkişafı haqqında saziş paraflandı. Şübhəsiz ki, sonra bu sənəd iki ölkənin rəhbərləri səviyyəsində imzalanacaqdır. Lakin ən başlıcası budur ki, çox açıq, səmimi fikir mübadiləsi oldu. Bütün bunlar onu göstərir ki, iki ölkə arasında əməkdaşlığın gələcək inkişafı üçün yaxşı perspektivlər var. Təbii ki, müstəqil dövlətlər kimi həm Rusiyanın, həm də Azərbaycanın bütün mənafeləri gözlənilmək şərtilə.

Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə Azərbaycan arasında dostluq və sıx əməkdaşlıq münasibətləri mövcuddur. Müxtəlif səbəblər üzündən son illər bu sahədə hər şey istənilən səviyyədə olmamışdır. Şübhəsiz, müəyyən obyektiv səbəblər olub və bunları aradan qaldırmalı idik və qaldırırıq. Başlıcası isə budur ki, ölkələrimiz arasında səmimi dostluq münasibətləri, qarşılıqlı anlaşma və bütün istiqamətlərdə, o cümlədən sərhəd xidməti sahəsində fəal əməkdaşlıq etmək istəyi var.

Sərhəd xidməti, sərhəd haqqında danışarkən şübhəsiz, qarşıya elə məsələlər çıxır ki, bunlara cavab vermək lazımdır. Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə həm quru, həm də dəniz sərhədi olan Azərbaycan müstəqil dövlət kimi maraqlıdır ki, sərhəd etibarlı qorunsun. Lakin bununla yanaşı, əməkdaşlığımızın gələcək inkişafına, əlaqələrimizin bundan sonra da genişlənməsinə xidmət etsin və fəal əlaqələrə heç bir halda mane olmasın, əksinə bu əlaqələri, geniş mal mübadiləsinin, nəqliyyatın və bütün digər kommunikasiyaların [327-328] geniş fəaliyyətini təmin etsin. Hesab edirəm ki, bu baxımdan vəzifələrimizi eyni dərəcədə başa düşür və bunları necə yerinə yetirmək barədə eyni cür düşünürük. Bununla yanaşı, biz bunu necə etmək lazım gəldiyini də başa düşür və bilirik. Müəyyən məsafə var və biz onu qət etməliyik.

Ancaq belə əməkdaşlığın etibarlı olması və daim həm Rusiyanın, həm də Azərbaycanın mənafeyini təmin etməsi üçün çox dəqiq, konkret mövqelər gərəkdir. Bununla əlaqədar demək istəyirəm ki, Rusiya ilə sərhədimiz olduğuna, onunla dostluq münasibətləri saxladığımıza görə biz Azərbaycanda öz ərazimizdən Rusiya ərazisi, ümumən Rusiya barədə hər hansı düşmənçilik hərəkətlərinə heç vaxt yol verməyəcəyik. Son illər müxtəlif proseslərin və s. ayrı-ayrı terrorçu qrupların, cinayətkar ünsürlərin və sairənin müxtəlif hərəkətlərinin həm Rusiyada, həm də Azərbaycanda vəziyyəti mürəkkəbləşdirdiyini nəzərə alsaq, bunun prinsipial əhəmiyyəti var.

Biz Rusiya ilə Azərbaycan arasında sərhədin qorunmasını öz tərəfimizdən təmin etmək üçün bütün tədbirləri görəcəyik ki, Rusiya ərazisinə hər hansı şəxslərin, yaxud qrupların, hətta üçüncü ölkələrdən olan şəxslərin keçməsinə yol verməyək ki, onlar vəziyyəti mürəkkəbləşdirə və ya hansısa qanuna zidd əməllər, yaxud cinayətkar hərəkətlər törədə bilsinlər. Hesab edirəm ki, həm o, həm də bu tərəfdən qorunan sərhədin belə halların vaxtında qarşısını almaq vasitəsi ola bilməsi üçün Rusiya tərəfi də eyni cür hərəkət edəcəkdir. Bir daha təkrar edirəm, bu, çox mühüm məsələdir və bu gün, bu görüşdən, bu imkandan istifadə edərək bəyan etməyi zəruri sayıram ki, Azərbaycan ərazisindən Rusiyanın, Rusiya dövlətinin, onun vətəndaşlarının mənafelərinə qarşı yönəldilmiş hər hansı hərəkətə yol verməmək üçün biz hər şeyi edəcəyik.

Sərhəd xidməti sahəsində Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın böyük perspektivi var. Bilirsiniz ki, MDB çərçivəsində birliyin xarici sərhədlərinin qorunması haqqında müqavilə mövcuddur. Azərbaycan bu sənədə hələ qoşulmamışdır. Lakin hesab edirəm ki, biz Azərbaycan üçün məqbul şərtlərlə bu sazişə yaxınlaşmaq və gələcəkdə onun iştirakçısı olmaq üçün tədbirlər görməliyik. Şübhəsiz ki, MDB-yə daxil olan hər bir ölkənin öz xüsusiyyəti var və bunu əsas tutaraq bu və ya digər qərarları qəbul edir. Zənnimcə, MDB-nin müsbət xüsusiyyəti ondadır ki, sazişlər və ya sənədlər son dərəcə demokratik şəraitdə qəbul olunur. MDB-yə daxil olan [328-329] ölkə hansısa sazişə qoşula bilər, bunu etməyə də bilər. Bunun həmin ölkə üçün heç bir mənfi nəticəsi yoxdur. Bununla yanaşı, birliyimizin inkişaf prosesi göstərir ki, bu və ya digər ölkənin daxili problemləri ilə, yaxud MDB çərçivəsindəki qarşılıqlı münasibətlərlə bağlı olan müxtəlif manеələr tədricən aradan qaldırılır. Biz hesab edirik ki, bu çox müsbət haldır və həmin prosesin inkişafına kömək edəcəyik. Hesab edirəm ki, məhz bu prosesin inkişafı baxımından biz MDB-nin xarici sərhədləri haqqında sazişə Azərbaycanın qoşulmasının mümkünlüyü məsələsinə yaxınlaşacağıq.

Ümumən demək istəyirəm ki, danışıqlarımız, söhbətlərimiz dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət şəraitində, həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə hörmət bəslənilməsi şəraitində keçdi.

Məmnunam ki, general Andrey İvanoviç Nikolayev başda olmaqla böyük bir nümayəndə heyəti Azərbaycandadır. Bu məsələləri müzakirə etməyə və qərarlar qəbul etməyə imkanımız var. [329-330]

## HƏŞTƏRXAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*15 fevral 1996-cı il*

**Sual: Heydər Əliyeviç, Sizin kimi siyasətçinin fəaliyyətinin məqsədi Vətənin rifahına və öz xalqının tərəqqisinə nail olmaqdır. Siz Azərbaycan Respublikasındakı indiki iqtisadi şəraiti və həmvətənlərinizin vəziyyətini necə qiymətləndirirsiniz?**

**Cavab:** Azərbaycanda iqtisadi şərait mürəkkəbdir, zənnimcə, keçmişdə Sovetlər İttifaqına daxil olan bütün respublikalarda, regionlarda da belədir. Lakin bu, təbiidir, çünki Azərbaycan cəmi dörd il bundan öncə dövlət müstəqilliyi əldə edibdir. Bir çox illər, onilliklər ərzində bir dövlətin – Sovetlər İttifaqının tərkibində olan ölkə, şübhəsiz, dövlət müstəqilliyi qazandıqdan sonra bütün işi yenidən qurmalıdır. Digər tərəfdən, indi Azərbaycan bir ictimai-siyasi sistemdən başqasına keçid dövrünü yaşayır.

Azərbaycanda vəziyyəti mürəkkəbləşdirən bir də odur ki, ölkəmiz yeddi ildən artıqdır ki, Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Bu illər ərzində çoxlu qurbanlar vermişik, qanlı müharibə getmişdir. 1994-cü ildə biz atəşkəsə nail ola bildik və 20 aydır ki, barışıq vəziyyətində yaşayırıq. Lakin müharibə qurtarmayıbdır. Azərbaycan ərazisinin təqribən 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunubdur. Azərbaycanın bir milyondan artıq vətəndaşı işğal edilmiş ərazilərdən zorla çıxarılıbdır və indi çox ağır şəraitdə, əksəriyyəti çadırlarda, çadır şəhərciklərində yaşayır.

Bütün bunlar Azərbaycanın sosial-iqtisadi vəziyyətini mürəkkəbləşdirir. Ümumən isə bu, təkrar edirəm, digər respublikalar üçün də səciyyəvidir. Keçmiş Sovetlər İttifaqının bütün regionları ilə bizim fəal iqtisadi inteqrasiyamız var idi. İndi bu əlaqələr əsasən qırılıbdır və buna görə də iri sənaye müəssisələri tam gücü ilə işləmir, bəziləri isə hətta dayanmışdır. Bu, işsizlik doğurur, istehsalın azalmasına səbəb olur. Bunların hamısı birlikdə Azərbaycanda sosial-iqtisadi həyatı mürəkkəbləşdirir, bu vəziyyət təxminən iqtisadi və sosial böhran kimi səciyyələnir. [330-331]

Lakin biz bu vəziyyətdən çıxırıq. Onun qarşısını almaq üçün tədbirlər görür və belə hesab edirik ki, bundan ötrü ən etibarlı imkan fəal iqtisadi islahatlar aparmaq, bazar iqtisadiyyatına keçmək, mülkiyyəti özəlləşdirməkdir. Biz belə hesab edirik ki, bu, iqtisadiyyatın yeni yüksəlişinə təkan verəcəkdir. Azərbaycan böyük iqtisadi potensiala malikdir, onun zəngin təbii ehtiyatları var. Lakin bütün bunları hərəkətə gətirmək, bunlardan istifadə etmək üçün yeni formalar, yeni üsullar gərəkdir.

**Sual: Ən yaxın perspektiv üçün Azərbaycan Respublikasının siyasətdə və iqtisadiyyatda üstün yer verdiyi məsələlər hansılardır, bu mənafelərin həyata keçirilməsində Rusiya nə kimi rol oynaya bilər, Sizin üstün saydığınız məsələlərdə o, nə kimi yer tutur?**

**Cavab:** Yalnız siyasi məsələlərə üstünlük veririk. Bu, Azərbaycanın dövlət müstəqilliyi, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu, demokratiyanın, həm siyasət, həm ictimai həyat, həm də iqtisadiyyat sahəsində demokratiyanın geniş inkişaf etdirilməsidir. Siyasətdə üstünlük verdiyimiz bunlardır. Eyni zamanda bütün qonşu dövlətlərlə mehriban münasibətlərin yaradılması və inkişafı, dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı münasibətlər yaradılması da bu üstünlüklər sırasına daxildir. İqtisadi sahədə üstünlük verilən məsələlərə gəldikdə isə, artıq qeyd etdiyim kimi, bu, iqtisadi islahatların, dövlət mülkiyyətinin özəlləşdirilməsinin fəal surətdə həyata keçirilməsi, bazar iqtisadiyyatının inkişaf etdirilməsidir.

Rusiyanın rolu çox böyükdür. Çünki Rusiya böyük ölkə, bizim Şimal qonşumuzdur. Azərbaycan Rusiya ilə bir çox onilliklər və hətta yüzilliklər ərzində bağlı olubdur. Keçmişdə iqtisadiyyatımız onilliklər boyu Rusiyanın iqtisadiyyatı, istehsal gücləri ilə sıx inteqrasiyada qurulub və yaradılıbdır. Ona görə də, şübhəsiz ki, Rusiya ilə yeni zəmində iqtisadi əlaqələrin yaradılması, inkişaf etdirilməsi ümumən Azərbaycan iqtisadiyyatının inkişafı üçün çox mühüm vasitə olacaqdır.

Bundan əlavə, Azərbaycanda çoxlu ruslar yaşadığı kimi, Rusiyada da çoxlu azərbaycanlı yaşayır. Mədəni əlaqələrin, insani əlaqələrin də çox böyük əhəmiyyəti var. Ona görə də biz dünya ölkələri ilə qarşılıqlı münasibətlərimizdə Rusiya ilə əlaqələrimizə üstün əhəmiyyət veririk.

**Sual: Həştərxan vilayətinin qubernatoru Anatoli** [331-332] **Qujvin ilə indiki görüş qonşu ərazilərin, regionların əməkdaşlığına (Həştərxan vilayəti və Azərbaycan Respublikası belə regionlardır) sadiq olduğunuzu təsdiq etdi. Sizin proqnozunuz necədir: bəyannamədən, niyyət protokollarından, rəsmi məlumatlardan – yəni kağız üzərində yazılanlardan, yaxın illərdə olduğu kimi, konkret işlərə – nəqliyyat əlaqələrinin bərpasına, gəmiqayırma müəssisələrində birgə sifarişlərin yerləşdirilməsinə, Xəzər dənizinin bioloji ehtiyatlarından birgə istifadə olunmasına tezmi keçiləcəkdir?**

**Cavab:** Bilirsiniz, başlıcası budur ki, artıq ilk addımlar atılmışdır. Axı, dediniz ki, keçmişdə bizim sıx əlaqələrimiz, o cümlədən Azərbaycan ilə Həştərxan vilayəti arasında belə əlaqələrimiz olmuşdur. Biz fəal əməkdaşlıq edir, bir-birimizə kömək göstərirdik və bu, həm Azərbaycana, həm də Həştərxan vilayətinə fayda gətirirdi. Bu əlaqələr xeyli dərəcədə qırılıbdır və rəsmi zəmindəki əlaqələri nəzərə almasaq, əslində, dörd-beş

ildir ki, ümumiyyətlə yoxdur. İndi, Həştərxan vilayətinin qubernatoru Anatoli Petroviç Qujvin Azərbaycana gəldikdə, belə xeyirxah, yaxşı təşəbbüs göstərdikdə, burada görüşlərimiz, söhbətlərimiz, danışıqlarımız oldu, müvafiq sənədlər, rəsmi məlumat, digər sazişlər hazırlandı və bunlar imzalanacaq. Bunun özü əməkdaşlığın bərpası, bəlkə də bərpa etmək deyil, bu əməkdaşlığı keçmişdəkindən daha səmərəli etmək yolunda atılan addımdır. Çünki Həştərxan vilayəti Rusiya Federasiyasının subyekti, qonşu ölkələrlə, dövlətlərlə iqtisadi əlaqələr saxlamağa imkanı və hüquqları olan vilayətdir.

Azərbaycan müstəqil dövlətdir, Rusiya ilə sıx iqtisadi münasibətlər saxlayarkən və bunları inkişaf etdirərkən biz federasiyanın subyektləri ilə, o cümlədən bizimlə qonşu olan Həştərxan vilayəti kimi regionlarla Azərbaycanın bilavasitə səmərəli əlaqələr saxlamasını da zəruri sayırıq. Ona görə də, mənə belə gəlir ki, bu faktın özü əməkdaşlığımızın baş tutacağına ümid və hətta inam yaradır. Ümidvaram ki, əməkdaşlığımız baş tutacaq, çünki biz bunu istəyirik. Həştərxan vilayətinin rəhbərləri də bunu istəyirlər. Deməli, biz bu əməkdaşlığı təmin edə biləcəyik.

**Sual: Sizcə, Həştərxana səfəriniz tezmi olacaqdır?** [332-333]

**Cavab:** Mən bunu çox istəyirəm. Bu gün Anatoli Petroviçə dedim, ilk imkan düşən kimi bu səfəri etməyə çalışacağam.

**Sual: Dövlət siyasətinin incə məsələsi olan milli münasibətlər barədə: bu gün Azərbaycanda müxtəlif millətlərin, xalqların qarşılıqlı əlaqələrində hansısa problemlər varmı?**

**Cavab:** Bilirsiniz, biz bu yaxınlarda Azərbaycanın konstitusiyasını qəbul etdik. Bu müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasıdır, onu ötən il noyabrın 12-də ümumxalq səsverməsi, referendum yolu ilə qəbul etmişik. Konstitusiyamızda yazılmışdır: Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Azərbaycan – milliyyətindən, irqindən, dilindən, dinindən, heç bir şeydən asılı olmayaraq bu torpaqda yaşayan bütün şəxslərin vətənidir. – Bu, sadəcə bəyannamə deyildir, bütün Azərbaycan xalqının səs verdiyi qanundur.

Siz yəqin bilirsiniz, Azərbaycanın zəngin beynəlmiləlçilik ənənələri var. Burada həmişə bir çox millətlərin nümayəndələri yaşamışdır və bu gün də yaşayırlar. Biz bunu Azərbaycanın sərvəti sayırıq, bunu qiymətləndiririk və qoruyub saxlamaq istəyirik. İndi, yeni şəraitdə, Azərbaycanın müstəqil dövlət olduğu bir vaxtda biz buna böyük əhəmiyyət veririk. Hazırda ölkəmizdə millətlərarası münasibətlərdə hansısa ciddi problem yoxdur, baxmayaraq ki, yaxın keçmişdə olmuşdur. Xüsusən son iki il ərzində bu çətinlikləri aradan qaldıra bilməyimizi nailiyyətimiz hesab edirəm. Onu da çox böyük nailiyyət sayıram ki, hazırda Azərbaycanda bütün millətlərin nümayəndələri, o cümlədən rusdilli şəxslər, rus millətinə, rus xalqına mənsub olan şəxslər dostluq və həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşayırlar.

**Sual: İcazə versəydiniz, müsahibəmizin sonunda sizə şəxsi xarakterli iki sualla müraciət edərdim. Mən bilirəm ki, Siz burada Sergey Yeseninin yubileyi ilə əlaqədar geniş miqyaslı təntənələrin keçirilməsinin təşkilatçılarından, təşəbbüsçülərindən biri olmusunuz. Bu rus şairi Sizdən ötrü kimdir?**

**Cavab:** Bilirsiniz ki, vaxtilə, 70-ci illərdə mən respublikanın rəhbəri işləyərkən Yeseninin xatirəsini bərpa etmək üçün hər şey etmişəm. Yesenin iyirminci illərin əvvəllərində burada yaşamış, özünün məşhur şerlərini (müxbir: "Şaqane, [333-334] mənim Şaqanem..."), bəli, "İran dəftərləri"ni və s. yazmışdır. Fikir verin, bu, 20-ci illərin əvvəlində olmuşdur. 70-ci illərin əvvəlində isə biz onun yaşadığı yeri tapdıq. Yeseninin xatirə muzeyini yaratdıq. Xatirimdədir, 1972-ci il idi, burada Azərbaycanda Rusiyanın böyük yazıçılarının, mədəniyyət xadimlərinin iştirakı ilə Rusiya mədəniyyəti ongünlüyü keçirilirdi, o zaman həmin muzeyi açdıq. Mən təntənədə iştirak edirdim, orada şairin barelyefini qoyduq. Müstəsna istedadını və şübhəsiz ki, rus ədəbiyyatının, rus poeziyasının inkişafına verdiyi çox böyük töhfəni nəzərə alsaq, Yesenin təkcə Rusiyaya, rus xalqına deyil, bütün dünya sivilizasiyasına, o cümlədən də Azərbaycana məxsusdur. Ona görə də mən Yesenini çox sevirəm, Azərbaycanda onu yüksək qiymətləndirirlər və bu yaxınlarda biz Yeseninin anadan olmasının 100 illiyini təntənəli şəkildə qeyd etmişik.

**Sual: Şərq uzunömürlü insanları ilə məşhurdur, qəlbən və cismən cavan qalmalarının səbəbini onlardan soruşanda belə deyirlər: zəhmət və əxlaqlı davranış nəticəsində. Heydər Əliyeviç, bəs siyasətdə uzun ömürlülüyün sirri varmı?**

**Cavab:** Bilirsiniz, yəqin, elə həmin səbəblərdir, görünür, zəhmət və sizin dediyiniz kimi, əxlaqlı davranış da siyasətdə uzunömürlülüyü təmin edir.

**Müxbir: Proqramımızda iştirak etdiyinizə, suallarımıza cavab verdiyinizə görə təşəkkür edir və arzu edirəm ki, öz vətəninizin – Azərbaycan Respublikasının, bütün Azərbaycan xalqının rifahı naminə hələ uzun illər səmərəli fəaliyyət göstərəsiniz.**

**Heydər Əliyev:** Sağ olun.

Bu imkandan istifadə edərək sizin televiziya vasitəsilə Həştərxan vilayətinin bütün sakinlərinə ən qızğın salamımı və xoş arzularımı çatdırmaq, bu torpağa, bu vilayətə, həmin torpaqda yaşayan adamlara dərin hörmət və ehtiramımı bildirmək istəyirəm. Azərbaycanı Həştərxan ilə, – o cümlədən tarixi baxımdan, – çox şey birləşdirir. Həştərxanı və Həştərxan vilayətini Azərbaycanda yaxşı tanıyırlar. Mənə o da məlumdur və bu gün bir daha dəqiqləşdirdim ki, orada, sizin vilayətdə çoxlu azərbaycanlı yaşayır. Ona görə də mən Həştərxan

vilayətinin bütün sakinlərinə, o cümlədən də, azərbaycanlılara salamımı göndərir, Azərbaycan xalqının görkəmli oğlu Nəriman Nərimanovun xatirəsinə əvvəllər də, [334-335] indi də dərin ehtiramla yanaşdıqlarına görə həştərxanlılara təşəkkür edirəm. Sizin vilayətdə onun adını daşıyan şəhər, rayon var. Mən bunu çox yüksək qiymətləndirir və bütün bunlara görə həştərxanlılara təşəkkürümü bildirirəm.

**Müxbir: Siz də sağ olun, Həştərxan torpağında görüşənədək, indi həm siyasi, həm də iqtisadi səbəblərə görə Sizin gəlişinizi çox gözləməli olmayacağıq.**

**Heydər Əliyev:** Doğrudur, sizinlə razıyam. Sağ olun. [335-336]

## AZƏRBAYCANDA ÇIXARILACAQ İLKİN NEFTİN RUSİYA FEDERASİYASININ ƏRAZİSİ VASİTƏSİLƏ NƏQLİNƏ DAİR SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*16 fevral 1996-cı il*

Hörmətli xanımlar və cənablar, möhtərəm qonaqlar!

1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda olan neft yataqlarından müştərək istifadə edilməsi üçün dünyanın böyük neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında məlum müqavilə imzalanıbdır. Bu müqavilə imzalandığı andan artıq həyata keçirilir. O vaxtdan indiyə qədər onun əməli surətdə həyata keçirilməsi üçün çox işlər görülübdür. Bilirsiniz ki, müqavilələrin həyata keçirilməsi üçün konsorsiumun rəhbər əməliyyat komitəsi yaradılıbdır. Bu rəhbər əməliyyat komitəsi müqavilənin həyata keçirilməsi üçün müvafiq proqram tərtib edibdir. Həmin proqrama görə müqavilənin həyata keçirilməsi nəticəsində "Çıraq" neft yatağının birinci platformasından ilkin neft 1996-cı ilin sonunda hasil edilməlidir. Müqavilədə nəzərdə tutulur ki, ilkin neftin ixracı üçün xüsusi neft kəməri çəkilməlidir və ilkin neft hasil edilən kimi onun ixracı təmin olunmalıdır.

Bu proqramı həyata keçirərkən konsorsiumun rəhbər əməliyyat komitəsi bir çox tədbirlər görübdür və həmin tədbirlərin nəticəsində, o cümlədən Azərbaycan Respublikası rəhbərliyinin bu sahədə irəli sürdüyü təkliflərlə əlaqədar ilkin neftin ixracı üçün iki neft kəmərinin tikilməsi haqqında qərar qəbul edilibdir. 1995-ci il oktyabrın 9-da qəbul olunan qərara əsasən neft kəmərlərinin biri Rusiya ərazisindən Novorossiysk limanına, ikincisi isə Gürcüstan ərazisi ilə Qara dənizdəki Supsa limanına çəkilməlidir.

İlkin neftin ixracı üçün neft kəmərinin çəkilməsi barəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında danışıqlar, məsləhətləşmələr aparılmışdır və şübhəsiz ki, bu danışıqlarda konsorsiumun rəhbər əməliyyat komitəsi də iştirak [336-337] etmişdir. Danışıqlar nəticəsində yanvarın 18-də Moskvada Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında müvafiq saziş imzalanmışdır. Bu saziş Rusiya Federasiyasının baş naziri hörmətli cənab Viktor Çernomırdin tərəfindən imzalanmışdır və Azərbaycan tərəfindən onu mən imzalamışam. İmzalanmış sazişə görə hər iki tərəf – Rusiya Federasiyasının hökuməti və Azərbaycan hökuməti müvafiq qərarlar qəbul etməlidir və bu qərarlar bizim tərəfimizdən qəbul olunubdur. Mən, Azərbaycanın prezidenti müvafiq fərman imzalamışam və Rusiya hökuməti də bu sazişin həyata keçirilməsi üçün müvafiq qərar qəbul etmişdir, bundan sonra sazişin həyata keçirilməsi və saziş əsasında müqavilənin imzalanması üçün şərait yaradılıbdır.

Azərbaycan neftinin Rusiya ərazisi ilə Qara dənizin Novorossiysk limanına ixrac edilməsi üçün çəkiləcək neft kəmərinin tikilməsi barədə sazişin imzalanması ilə əlaqədar olaraq bu gün biz bu mərasimə toplaşmışıq. Bu münasibətlə Rusiya Federasiyası hökumətinin səlahiyyəti ilə bu sazişi imzalamaq üçün Rusiyanın "Transneft" şirkətinin prezidenti Valeri Dmitriyeviç Çernyayev, bizim konsorsiumun üzvü və Rusiya ilə Azərbaycan arasında neft kəmərinin tikilməsi üçün çox fəaliyyət göstərən Rusiya Federasiyasının "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov Bakıya gəlmişdir. Bu gün bu mərasimə konsorsiumun rəhbər əməliyyat komitəsinə başçılıq edən cənab Terri Adams dəvət olunubdur, konsorsiumun bütün nümayəndələri və Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətlərinin nümayəndələri də buraya dəvət ediliblər.

Bu gün burada bu sazişin imzalanması böyük və əlamətdar hadisədir. Bu, 1994-cü ilin sentyabr ayında imzalanmış neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi üçün atılan böyük addımdır. Biz buna çox yüksək qiymət veririk və ona görə də bu sazişin imzalanmasını belə mərasimdə aparırıq. [337-338]

## ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz müsəlman bacı və qardaşlarım!

Sizi islamın ən böyük bayramlarından biri olan Orucluq bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi mübarək Ramazan ayı günlərindən respublikamızın müsəlmanları Allaha iman, Vətənə və xalqa sədaqətlərini bir daha nümayiş etdirmişlər. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi, demokratik cəmiyyət quruculuğu işində onların əzmkarlığı daha da artmışdır. Ramazan ayının sınağından ləyaqətlə çıxmış hər bir müsəlmanın indi bayram etməyə, öz müqəddəs borcunu yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır.

Xalqımız öz tarixinin ən şərəfli, həm də mürəkkəb dövrlərindən birini yaşayır. Müstəqil Azərbaycanımızın çiçəklənməsi, respublikanın suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, öz torpaqlarından didərgin düşmüş bacı və qardaşlarımızın ev-eşiklərinə qaytarılması xalqın ən böyük arzularıdır. Mən əminəm ki, bu mübarək Ramazan günlərindəki ibadətlərdə edilmiş dua və niyyətlərin böyük əksəriyyəti də bu arzularla bağlı olmuşdur. Böyük Allahın köməyi və xalqın iradəsi ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram.

Bu əziz Orucluq bayramında doğma Azərbaycanımızın çiçəklənməsi naminə xalqıma möhkəm iradə və sıx həmrəylik, hər birinizə cansağlığı, xoş əhval-ruhiyyə və uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*17 fevral 1996-cı il* [338-339]

## AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ DÖVLƏT TELEVİZİYA VƏ RADİO VERİLİŞLƏRİ ŞİRKƏTİNİN VƏ RABİTƏ İŞÇİLƏRİNİN BİR QRUP NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*17 fevral 1996-cı il*

Bu günlər Azərbaycanın milli televiziyasının 40 illik yubileyini qeyd edirik. Mənə belə müraciət oldu ki, televiziyada uzun müddət çalışan, işləyən, əməkdaşlıq edən televiziya işçiləri ilə görüş keçirək. Mən bu təklifi məmnuniyyətlə qəbul etdim, çünki televiziyada, ümumiyyətlə, bizim mətbuat, informasiya orqanlarında işləyənlərə mən həmişə hörmət etmişəm, onların işini daim qiymətləndirmişəm və qiymətləndirirəm. Ona görə də belə bir görüş şəxsən mənim də ürəyimdən olubdur.

Bu gün bizim ən böyük sarayımızda yubiley mərasimi keçiriləcəkdir, yəqin ki, televiziya barədə sözlər orada deyiləcəkdir. Ancaq sizinlə xüsusi görüşdən istifadə edərək hamınızı təbrik edirəm, Azərbaycan milli televiziyasının 40 illik yubileyi münasibətilə sizə və televiziya sahəsində çalışan bütün şəxslərə uğurlar arzulayıram.

Azərbaycan televiziyasının 40 illik həyatı çox zəngindir, məzmunludur, mənalıdır, hətta deyə bilərəm ki, parlaqdır. Özünü bu peşəyə, bu işə həsr edən hər bir kəs, güman edirəm ki, fəxr edə bilər, xüsusən siz fəxr edə bilərsiniz. Mənə dedilər ki, buraya dəvət olunanların ən az stajı 35 ildir. 35 il mütəmadi olaraq televiziyada işləmisinizsə və indiyə qədər işləyirsinizsə, demək, bu sənəti, peşəni həmişəlik seçmisiniz, ona bağlısınız, onu sevirsiniz və bu işə xidməti özünüz üçün hər şeydən üstün tutursunuz. Bu, hər bir insan üçün çox mühüm bir keyfiyyətdir, xüsusən belə ağır, çətin sahədə işləmək, həyatını, fəaliyyətini buna həsr etmək şərəfli işdir. Sizi xüsusi təbrik edirəm.

Mənə verilən məlumata görə televiziya sahəsində 2500-dək adam çalışır. Ancaq siz həm uzun müddət çalışdığınıza görə, [339-340] həm də ki, mühüm sahələrə rəhbərlik etdiyinizə görə bu işin əsas hissəsini öz üzərinizə götürmüşsünüz. Təbrik edirəm, sizə cansağlığı arzulayıram. Ümidvaram ki, hələ bundan sonra da çalışacaqsınız. 35-40 il belə böyük vaxt deyil, qarşıda hələ çox böyük vəzifələr var.

Azərbaycan televiziyasının keçmişi də çox yüksək qiymətə layiqdir, ancaq gələcəkdə qarşıda duran vəzifələr bundan da əhəmiyyətlidir, vacibdir və bundan da şərəfli olacaqdır. Ona görə də ümidvaram ki, siz bundan sonra da çalışacaqsınız.

Əgər 35-40 il bu sənətdən, bu peşədən ayrılmamışsınızsa, bundan sonra da sizi ayırmaq mümkün olmayacaqdır. Siz bu işin həm müsbət cəhətlərindən istifadə etmisiniz, həm də ki, onun əzab-əziyyətinə dözmüsünüz. Güman edirəm, bundan sonra da, ola bilər, əzab-əziyyəti olsun, – dözməlisiniz, dözəcəksiniz, mən deməsəm də dözəcəksiniz, amma mən bunu sadəcə tövsiyə edirəm.

Güman edirəm, müstəqil dövlətimiz nə qədər çox inkişaf edəcəksə, televiziyamız, bütün informasiya orqanlarımız da daha yüksək səviyyələrə qalxacaq və siz öz sənətinizdən, əldə etdiyiniz nailiyyətlərinizdən, zəngin təcrübənizdən daha geniş istifadə etmək üçün imkanlar tapacaqsınız. Ona görə də arzu edirəm ki, bundan sonra daha fədakarlıqla çalışasınız və Azərbaycan televiziyasını daha da yüksəldəsiniz.

Şübhəsiz ki, televiziyanın işində qüsurlar da az deyil, çatışmazlıqlar, nöqsanlar da var. Ola bilər, başqa sahələrə nisbətən ictimaiyyət bu nöqsanları daha da tez görür, hiss edir, çünki sizin işiniz göz qabağındadır. Hər bir televiziya tamaşaçısı verilişlərə baxarkən öz anlayışına görə nöqsanları da, müsbət cəhətləri, nailiyyətləri də görür. Adətən, nailiyyətlərə o qədər fikir vermirlər, ancaq nöqsanları dərhal tuturlar, qeyd edirlər və bəzən şişirtməyə çalışırlar. Belə hal da var. Nöqsanlar məlumdur, özünüz də bilirsiniz. Arzu edərdim ki, bu nöqsanları aradan qaldırasınız və çalışasınız ki, bundan sonra işləriniz daha da müvəffəqiyyətli olsun və televiziya verilişləri Azərbaycan əhalisi üçün daha xoş, daha ürəyəyatan olsun. Güman edirəm ki, bunun üçün imkanlarınız var və bunlardan istifadə edəcəksiniz.

Mən geniş danışmaq istəmirəm, çünki bu gün bir daha danışmağım lazım olacaqdır. Mənə nə sözünüz, nə arzunuz var, – buyurun, deyə bilərsiniz. [340-341]

* * *

Çıxışlarda televiziyanın əməkdaşlarına fəxri adlar verilməsi məsələsinə toxunulması ilə əlaqədar demək istəyirəm ki, son illərdə mədəniyyət, elm xadimlərindən də çoxlu müraciətlər olur ki, indi bu adlar nə üçün

verilmir. Bəzilərinin fikrincə, bunlar keçmiş sovet quruluşuna xas olan adlardır və indi lazım deyildir. Amma çoxları bunu həyatımızın zərurətindən doğan ənənə sayır və hesab edirlər ki, bunu davam etdirmək lazımdır. Bu işləri tam həll etmək üçün komissiya yaratdıq və tapşırdım ki, bu işə baxsınlar. Komissiyanın rəhbəri Elçin Əfəndiyev bu günlərdə mənə məlumat verdi ki, uzun müzakirələrdən sonra komissiya öz fikrini bildiribdir və hesab edir ki, bu işi davam etdirmək lazımdır. Mən də bu fikirdəyəm. Biz ənənəni davam etdirəcəyik. Əgər Azərbaycan televiziyasının 40 illik fəaliyyəti tariximizin bir hissəsidirsə, mədəniyyətimizin, elmimizin, texnikamızın, iqtisadiyyatımızın böyük bir nailiyyətidirsə, deməli, bizim milli sərvətimizdir, həyatımızın bir hissəsidir. Bunun hansı quruluşda olub-olmamasından asılı olmayaraq milli sərvətimiz olan televiziyanın fəaliyyətini irəliyə aparan adamların aldıqları fəxri adlar, mükafatlar o vaxt olduğu kimi, indi də qiymətlidir... Tariximizin hər səhifəsi, hər günü, hər ayı, ili bizim üçün əzizdir. Tariximizi, keçmişimizi qiymətləndirməliyik. Qədim keçmişimizi də, 20-ci əsrin əvvəlindən indiyə qədər olan keçmişimizi, o cümlədən 1920-ci ildən sonrakı keçmişimizi də qiymətləndirməliyik. Heç bir şeyi qaralamaq olmaz.

Bir daha xüsusi olaraq vurğulamaq istəyirəm ki, fəxri ad alanlar çox mötəbər adamlardır, bu adları fəxrlə daşıyırlar və daşımalıdırlar. Bundan sonra da layiqli adamlar belə fəxri adlar almağa nail ola biləcəklər.

Burada dil haqqında məsələ qaldırılmasından məmnun qaldım. Əlbəttə, Azərbaycan dilinin inkişafı, hər bir azərbaycanlının, vətəndaşın Azərbaycan dilini yaxşı bilməsi və öz fikirlərini səlis ifadə etməsi çox böyük məsələdir. Təəssüf ki, uzun müddət buna fikir verilməmişdir.

Azərbaycanın yeni konstitusiyasının hazırlanması zamanı dillə bağlı mübahisələri tam demokratik şəkildə həll etməyə çalışdım. Geniş və sərbəst müzakirələrin nəticəsində konstitusiyamızda yazdıq ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Bunu anlamayan adamlar böyük səhv edirlər, bundan şəxsi, siyasi, çirkin məqsədləri üçün istifadə et[341-342]məyə çalışanlar xalqımıza, tariximizə, milliliyimizə xəyanət edirlər. Bəzi qəzetlərdə həmin məsələ indi də hallandırılır, bu dilimizə, mənəviyyatımıza hörmətsizlikdir. Ölkəmiz Azərbaycandır, dünyada on milyonlarla azərbaycanlı yaşayır. Azərbaycan dili dünya azərbaycanlılarını birləşdirmək Üçün əsas vasitələrdən biridir.

Televiziya verilişlərinin aparıcıları, diktorlar çox səlis danışmalıdırlar. Dilimiz gözəldir, amma bu dildə danışanda sözləri, ifadələri elə tələffüz etməliyik ki, danışığımız cazibədar olsun. Ədəbi dili təbliğ etmək, hamıya öyrətmək televiziyanın vəzifələrindən biridir.

Bakıda tikilən yeni televiziya qülləsi ilə bağlı deyilən fikirlərlə əlaqədar bildirmək istəyirəm ki, əgər vaxtilə bu işə ciddi yanaşsaydılar, qülləni çoxdan tikib istifadəyə vermək olardı. Lakin bir çox başqa obyektlər kimi, bunun da inşasını başlı-başına buraxmışdılar. Amma mənə verilən məlumata görə, qüllənin tikintisi bu il başa çatdırılacaq və bu, Azərbaycan televiziyasının imkanlarını çox genişləndirəcəkdir.

Ölkəmizin qarşılaşdığı iqtisadi çətinliklər var, indi hamı üçün çətindir, lakin Ermənistanın hərbi təcavüzü nəticəsində doğma yurdlarından qaçqın düşən adamların vəziyyəti daha pisdir. Onların bir qismi çadırlarda yaşayır və yəqin ki, televizorları da yoxdur. Bu adamların televiziya və radionu dinləyə bilmələri üçün imkanlardan maksimum istifadə etməyə çalışmaq lazımdır.

...Blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası əhalisinin də vəziyyəti ağırdır. Bir neçə il əvvəl mən Naxçıvanda yaşayarkən orada Azərbaycan televiziyası verilişlərinin qəbul edilib-edilməməsi heç kimi maraqlandırmırdı. Bu barədə olan müraciətlərə də məhəl qoymurdular. İndi vəziyyət dəyişmişdir, Bakıdan oraya Azərbaycan televiziyasının verilişləri yazılmış videokasetlər çatdırılır. Türkiyənin süni peyki vasitəsilə milli televiziyamızın verilişlərinin Naxçıvanda qəbul edilməsi ilə bağlı məsələnin həllini sürətləndirmək lazımdır. [342-343]

## AZƏRBAYCAN MİLLİ TELEVİZİYASININ 40 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*17 fevral 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Sizi – Azərbaycan Respublikası televiziyasının əməkdaşlarım, xalqımızı, respublikamızın bütün vətəndaşlarım milli televiziyanın 40-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

40 il bundan əvvəl, 1956-cı il fevralın 14-də Azərbaycanda ilk televiziya verilişləri başlandı. Bu əlamətdar hadisə Azərbaycanın tarixində çox görkəmli yer tutur. 40 il bundan əvvəl Azərbaycan xalqının televiziya verilişlərindən istifadə etmək imkanı qazanması xalqımızın, respublikamızın həm iqtisadi, həm texniki, həm də mədəni, elmi nailiyyətlərinin nəticəsində mümkün olmuşdur. Azərbaycan milli televiziyası 40 il ərzində böyük yaradıcılıq yolu keçmiş və xalqımızın, respublikamızın həyatında əvəzsiz rol oynamışdır. Televiziya Azərbaycanda fəaliyyətə başlayan gündən tədricən genişlənmiş, bunun bir neçə mərhələsi olmuşdur. Nəhayət, 70-ci illərdə milli televiziya Azərbaycanın bütün ərazisini əhatə etmiş, və respublikamızın bütün vətəndaşlarının istifadəsinə verilmişdir. Bu, çox gərgin işin nəticəsi, dövlətin Azərbaycan xalqına, vətəndaşlarımıza göstərdiyi qayğının təzahürü olmuşdur. Bunlar hamısı respublikamızın həyatım canlandırmış, yeni-yeni kütləvi informasiya formalarının inkişaf etməsinə əsas yaratmışdır.

Televiziya bütün informasiya orqanlarından ən kütləvisidir. İndi heç kəs öz həyatım televiziyasız təsəvvür edə bilməz. Yəqin ki, televiziyasız yaşamaq da mümkün olmaz. Ötən 40 ildə xalqımızın iqtisadiyyatının, mədəniyyətinin, elminin inkişafında televiziya görkəmli rol oynamışdır, respublikamızın ictimai-siyasi həyatında televiziyanın fəaliyyəti əvəzsiz olmuşdur. Televiziya bir tərəfdən əhalini məlumatlandırmış və məlumatlandırır, dünyada baş verən hadisələri xalqa çatdırır, digər tərəfdən respublikamızda elm, mədəniyyət, iqtisadiyyat, təhsil [343-344] və bütün başqa sahələrdə olan nailiyyətləri nümayiş etdirir, təbliğ edir, vətəndaşlarımıza çatdırır.

Televiziya xalq ilə, vətəndaşlarımızla kütləvi informasiya orqanları arasında əlaqə yaradır, eyni zamanda xalqın, vətəndaşların bir-biri ilə əlaqələrini daha da artırır. Teatrı biz vaxtilə çox yüksək qiymətləndirirdik və bu gün də yüksək qiymətləndiririk. Çünki insanların estetik tərbiyəsində, onların mədəni səviyyəsinin artmasında, insanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır. Sonra teatrla bərabər kino bu rolu oynamağa başladı. Dünyada televiziya meydana gələndən sonra televiziya bu iki çox mühüm sahənin fəaliyyətini, ola bilər, bir qədər məhdudlaşdırsa da, eyni zamanda onların əldə etdiyi nailiyyətləri geniş kütlələrə çatdırmaq üçün ən gözəl, ən gərəkli bir vasitə oldu.

Televiziya böyük bir aləmdir. Yenə də deyirəm, indi heç birimiz özümüzü televiziyasız təsəvvür edə bilmərik. Ancaq televiziyanın hər bir yerdə, o cümlədən Azərbaycanda da bu günə çatması çox böyük və gərgin işin nəticəsində olmuşdur. Televiziyanın bugünkü səviyyəsi 40 il müddətində televiziya sahəsində çalışanların, eyni zamanda televiziya vasitəsilə, televiziyadan istifadə edərək öz nailiyyətlərini, xalqımızın nailiyyətlərini kütlələrə, vətəndaşlara çatdıran, ölkəmizin ayrı-ayrı sahələrində çalışan insanların fəaliyyətinin nəticəsi olmuşdur.

Beləliklə, televiziya hamıya mənsubdur. Bu gün televiziyanın 40 illik yubileyini qeyd edərkən düşünməliyik ki, biz bütün xalqımızın 40 illik böyük nailiyyətlərini qeyd edirik. Hər bir vətəndaşın həyatında baş vermiş nailiyyətlərin, dəyişikliklərin bayrammı qeyd edirik. Televiziya belə bir vasitədir.

Eyni zamanda, televiziyada bilavasitə çalışan insanlar da var. Televiziyanın əməkdaşlarının bir hissəsi onun maddi-texniki təminatı ilə məşğul olan mütəxəssislər – mühəndislər, texniklər və başqa sahədə fəaliyyət göstərən insanlardır. Bu texnikasız, bu cihazlar olmadan və onları idarə edə bilən mütəxəssislər olmadan televiziya fəaliyyət göstərə bilməz. Əməkdaşların digər hissəsi isə televiziya verilişlərini hazırlayıb insanlara, ictimaiyyətə çatdıranlardır.

Onlar da, bunlar da 40 il müddətində çox iş görüblər. Bu gün onların peşəsinin əhəmiyyətindən danışmalı olsaq, demək lazımdır ki, bu peşə xalqımız, millətimiz, insanlar üçün çox gərəkli peşədir və özünü bu peşəyə, sənətə həsr edən insanlar sözün həqiqi mənasında yüksək qiymətə layiqdirlər. Ona görə [344-345] də mən bu bayram, yubiley günü 40 il müddətində Azərbaycan televiziyasını yaradan, quran, yaşadan, inkişaf etdirən, televiziyanın bütün sahələrində fəaliyyət göstərmiş və bu gün fəaliyyət göstərən vətəndaşlarımıza, dostlarımıza təşəkkürümü bildirmək istəyirəm.

Eyni zamanda, əgər Azərbaycanın həyatının bütün sahələrində çalışan tanınmış adamlar, mütəxəssislər televiziya verilişlərinin hazırlanmasına cəlb olunmasaydı, televiziya istənilən səviyyədə fəaliyyət göstərə bilməzdi. Bu 40 il müddətində Azərbaycanın həyatının demək olar, bütün sahələrində çalışan insanlar öz

sözlərini, öz fikirlərini xalqımıza çatdırmışlar, öz nailiyyətlərini nümayiş etdirmişlər, öz sənətlərini həm nümayiş, həm də təbliğ etmişlər. Azərbaycanın hər bir guşəsində, hər bir sahəsində meydana gələn yeni hadisələr televiziya vasitəsilə bütün Azərbaycan vətəndaşlarına çatdırılıbdır və çatdırılır.

Bu, böyük nailiyyətdir və bu gün biz bunların hamısını nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Azərbaycanın milli televiziyası xalqımızın milli sərvətidir və Azərbaycan televiziyasının 40 illik həyat yolu Azərbaycan xalqının tarixinin böyük bir hissəsidir, ayrılmaz bir hissəsidir.

Qeyd etdim ki, bu 40 il müddətində Azərbaycan televiziyası vasitəsilə Azərbaycanın bütün sahələrində çalışan insanlar öz fəaliyyətini bütün vətəndaşlara çatdırmağa imkan tapıblar. Alimlərimiz, mütəxəssislərimiz, iqtisadiyyatın bütün sahələrində çalışan mühəndislər, texniklər, əmək adamları, mədəniyyət xadimləri, elm xadimləri, gənclər, uşaqlar, yaşlı adamlar, orduda xidmət edənlər, başqa sahələrdə Azərbaycanın keşiyində duranlar – hamısı televiziya vasitəsilə öz nailiyyətlərini, öz fəaliyyətlərini xalqımıza çatdıra biliblər. Beləliklə, bir daha deyirəm, televiziya hər bir kəsin nailiyyətidir. Xalqımızın, millətimizin ümumi nailiyyətlərini həm bütün xalqa, həm də bütün dünyaya nümayiş etdiribdir.

İnsanların mənəvi tərbiyəsində, mənəvi inkişafında televiziyanın rolu çox böyükdür. Televiziya respublikanın həyatında gedən prosesləri əks etdirərək xalqımızda, vətəndaşlarda ictimai-siyasi fəallığı artırıbdır. Televiziya xalqımızın gözəl ənənələrini, milli ənənələrini, mənəvi ənənələrini təbliğ edərək insanlarımızı mənəvi cəhətdən daha da yüksəltməyə kömək edibdir. Televiziyamız tariximizin səhifələrini əyani surətdə təbliğ edərək hər bir vətəndaşın öz keçmişini, tarixini, milləti[345-346]nin aqibətini daha yaxından bilməsinə kömək edibdir. Televiziya çox işlər görübdür, bu gün də çox işlər görür. Bu barədə çox danışmaq olar. Ancaq bir-iki sahəni xüsusi qeyd etmək istəyirəm.

Televiziya respublikamızın son illərdə düşdüyü ağır vəziyyətdə xalqı məlumatlandırmaqda, xalqa düzgün məlumat verməkdə və gedən ictimai-siyasi prosesləri xalqa çatdırmaqda, xalqı daha da fəallaşdırmaqda respublikamıza çox xidmət edibdir. Yeddi ildən artıqdır ki, Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüz nəticəsində müharibə şəraitinə düşübdür. Xalqımızın qəhrəman övladları torpaqlarımızın keşiyində durub, torpaqlarımızı qoruyarkən şəhid olublar, qəhrəmanlıq nümunələri göstəriblər. Qanlı döyüşlər gedibdir. Qələbələr də olubdur, məğlubiyyətlər də. Bizim övladlarımızın qəhrəmanlıq nümunələri də olubdur, ayrı-ayrı şəxslərin xəyanətləri də olubdur, ayrı-ayrı şəxslərin öz vətəndaşlıq borclarını yerinə yetirə bilməməsi halları da olubdur. Hamısı olubdur. Bizim televiziyamız bunları xalqa, millətə, ictimaiyyətə çatdıraraq xalqımızın daha da səfərbər olmasına xidmət edibdir və xüsusilə Azərbaycan torpaqlarının keşiyində duran, onların qorunması uğrunda döyüşən, çalışan, vuruşan insanların həyatının döyüş səhnələrinin televiziya ilə təbliğ edilməsi və əhaliyə çatdırılması bizim həyatımızda onların böyük xidmətidir.

Ermənistanın Azərbaycana etdiyi təcavüz, ədalətsizlik nəticəsində Azərbaycanda xalqın, xüsusən gənclərimizin bu ədalətsizliyə qarşı etiraz nümayişlərinə və Azərbaycanın müstəqilliyi uğrunda mitinqlərə çıxması məhz televiziya vasitəsilə xalqımıza çatdırılıb və bu, xalqımızda milli oyanış, milli dirçəliş ruhunu inkişaf etdirib, milli həmrəylik əhval-ruhiyyəsi yaradıbdır. Bu da televiziyanın çox böyük xidmətlərindən biridir.

Televiziya Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, inkişaf etməsi üçün xidmətlər göstərir və onun bu sahədə böyük imkanları var. Biz televiziyanın 40 illik yubileyini qeyd edirik. Dörd il bundan öncə Azərbaycan xalqı, Azərbaycan Respublikası dövlət müstəqilliyini, milli azadlığını əldə edibdir və qarşımızda çox böyük vəzifələr durur. Bu dörd il müddətində televiziyanın böyük xidmətləri olubdur. Bu xidmətləri mən bu gün xüsusi qeyd edirəm. Bu dörd ildən öncə də Azərbaycanın müstəqillik əldə etməsi sahəsində Azərbaycan xalqının göstərdiyi fəaliyyətin nümayiş etdirilməsində, təbliğ edilməsin[346-347]də televiziyanın böyük xidmətləri olubdur. Məhz buna görə də o illərdə nəinki Azərbaycan xalqı böyük təcavüzə məruz qalıbdır, hətta televiziyaya da təcavüz edilibdir.

1990-cı ildə 20 Yanvar faciəsi Azərbaycan xalqı üçün böyük bir bəla olmuşdur, eyni zamanda Azərbaycan xalqının qəhrəmanlığını, cəsurluğunu nümayiş etdirmişdir. Bu barədə danışılıbdır. O vaxt Sovetlər İttifaqının rəhbərliyi tərəfindən Azərbaycana hərbi təcavüz olmuşdur. Sovetlər İttifaqı rəhbərliyinin və Azərbaycan rəhbərliyinin xalqa qarşı ədalətsiz hərəkətlərinə etiraz edən yüz minlərlə insan etiraz hisslərini bildirmək üçün meydanlara, küçələrə çıxmış, öz haqlarını, öz hüquqlarını tələb etməyə çalışmışdır. O vaxt xalqın bu səsini, xalqın bu hərəkatını boğmaq üçün çox dəhşətli üsullara əl atılmışdır. Azərbaycana hərbi təcavüz edilmişdir və bu təcavüz əməliyyatları içərisində Azərbaycan televiziyasının enerji blokunun partladılması, həmin o ağır günlərdə, mübarizə günlərində Azərbaycan xalqının iradəsini sındırmaq üçün, onu məlumatsız qoymaq üçün belə bir cinayətin törədilməsi də Azərbaycan televiziyasının tarixində özünəməxsus yer tutur.

Mən bu hadisəni məhz ona görə xatırlayıram aydın olsun ki, televiziyanın nə qədər böyük imkanları var. Televiziya nə qədər lazımlı bir vasitədir. O vaxt Azərbaycana böyük qoşun hissələri yeridilərkən, yenə də deyirəm, xalqın iradəsini sındırmaq üçün, xalqa ağır bir zərbə vurmaq üçün o cinayətkar qüvvələr – tək Moskvadakı yox, həm də Azərbaycanın özündə, Azərbaycanın daxilində, Azərbaycan rəhbərliyində olan cinayətkar qüvvələr Azərbaycan televiziyasının enerji blokunu partlatdılar və Azərbaycanda televiziya verilişləri bir neçə gün olmadı.

O günlər qara günlər idi. O günlər Azərbaycan xalqı dərd içində idi. Yanvar gecəsinin qanı içində idi. Ancaq o günlər Azərbaycan televiziyasının işləməməsi də xalqımız üçün böyük bir çətinlik yaratdı və əlavə bir dərd oldu. Azərbaycan televiziyasının tarixində belə səhifələr də var.

Eyni zamanda Azərbaycan televiziyasının xidmətlərindən danışarkən onun Azərbaycanın dövlətçiliyini, müstəqilliyini qorumaq üçün nə qədər böyük bir vasitə olduğunu siz yaxşı xatırlayırsınız. 1994-cü ilin oktyabr ayının əvvəlində Azərbaycanda cinayətkar qruplar, dəstələr tərəfindən, şübhəsiz, xaricdən istiqamətləndirilən bu dəstələr tərəfindən Azərbaycanda dövlət çevrilişinə cəhd göstərildi. Bu dövlət çevrilişinə ha[347-348]zırlıq artıq müəyyən bir müddət idi ki, gedirdi. Biz buna nəzarət edirdik. Yəni biz bunu müşahidə edirdik və bu çevriliş cəhdinin nə vaxtsa başlanacağını nəzərə alırdıq. Xatirimdədir, o vaxt bir çox adamlar narahatlıq hissi keçirərək gəlib mənə cürbəcür məsləhətlər verirdilər ki, əgər çevriliş cəhdləri başlansa nə etmək, nə kimi tədbirlər görmək lazımdır, hansı silahlan işə salmaq, hansı silahlardan istifadə etmək lazımdır.

Lakin mən həmin o oktyabr gecəsi dövlət çevrilişi cəhdi başlanan zaman məhz bizim milli televiziyadan istifadə etdim. Bu, nə qədər güclü bir silah imiş! Bu, bütün silahlardan da güclü bir silah imiş!

Gecə vaxtı mən televiziya vasitəsilə xalqa müraciət etdim, xalqı Azərbaycan dövlətçiliyinin qorunmasına dəvət etdim. Məhz televiziya vasitəsilə biz buna nail ola bildik. Mən buna nail ola bildim. Qısa bir müddətdə – yarım saatdan, bir saatdan sonra prezident sarayı önündəki meydana yüz minlərlə adam toplaşdı. Bakının ən ucqar yerlərindən insanlar nəqliyyat vasitələri olmadığı halda, hətta piyada, yüyürə-yüyürə həmin meydana gəldilər, Azərbaycanın dövlətçiliyinin keşiyində durdular. Bu, televiziya vasitəsilə mümkün oldu. Bundan sonra həmin meydandan televiziya vasitəsilə birbaşa veriliş başlandı və o, meydana toplaşan, Azərbaycan dövlətçiliyini qorumağa gələn insanlar televiziya vasitəsilə öz etiraz səslərini ucaltdılar, öz hiddətlərini bildirdilər, öz fikirlərini söylədilər və beləliklə də, bütün Azərbaycan Respublikasının vətəndaşları ayağa qalxdılar, biz o həlledici gecədə böyük dövlət çevrilişinin qarşısını ala bildik.

Onun sabahısı günü Azadlıq meydanına bir milyondan artıq Azərbaycan vətəndaşı toplaşdı. Yenə də Azərbaycan televiziyası vasitəsilə həmin mitinqlər, verilişlər nəinki Azərbaycanın bütün guşələrinə, həm də bütün dünyaya çatdırıldı. Həmin gecə prezident sarayının önündəki mitinqdən televiziya verilişləri, sabahısı günü Azadlıq meydanındakı mitinqdən aparılan televiziya verilişləri bütün dünyanın ən mötəbər televiziya stansiyaları vasitəsilə verildi. O televiziya kadrlarını bütün dünya seyr etdi, o kadrlar bütün dünyanı gəzdi. Bu da bir tərəfdən, televiziyanın nə qədər böyük imkanlara malik olduğunu göstərir, digər tərəfdən isə, televiziyanın Azərbaycan dövlətçiliyinin qorunmasında böyük xidmətlərini nümayiş etdirir. Mən həm televiziya əməkdaşlarına, həm də bütün Azərbaycan xalqına təşəkkür edirəm [348-349] ki, Azərbaycanın dövlətçiliyi həmin o günlərdə qorunub saxlanıldı və bu gün biz respublikamızda tam ictimai-siyasi sabitliyə nail olmuşuq.

Televiziyanın xidmətləri böyükdür. Ancaq şübhəsiz ki, həm 40 il ərzində, həm də bu günlərdə onun fəaliyyətində çatışmazlıqlar da, nöqsanlar da var. Bunlar da təbiidir. Güman edirəm ki, bu gün biz televiziyamızın 40 illik yubileyini belə təntənəli şəraitdə qeyd edərkən televiziya sahəsində çalışan vətəndaşlarımız dərk edəcəklər ki, bu, onların üzərinə daha çox məsuliyyət qoyur və onları işdə olan nöqsanların, çatışmazlıqların, səhvlərin aradan qaldırılmasına dəvət edir.

Lakin bunu da qeyd etmək lazımdır ki, televiziya hər bir vətəndaşın gözünün qabağındadır. Ona görə də televiziyanın fəaliyyətindəki nöqsanlar dərhal gözə çarpır, bəzən də televiziyanın verilişlərinə hərə öz fikri, öz ağlı, öz dünyagörüşü ilə qiymət verir. Buna görə də hesab edirəm ki, televiziyanın verilişlərinə heç vaxt birmənalı qiymət vermək mümkün deyil. Çünki hərə bu verilişləri bəlkə də öz istədiyi kimi görmək istəyir. Odur ki, televiziyanın verilişlərinə aid cürbəcür iradlar, cürbəcür tənqidlər ola bilər və bunlar da təbiidir. Televiziya işçiləri gərək öz işlərini elə qursunlar ki, belə tənqidlər az olsun və onların işində nailiyyətlər daha çox olsun.

40 il müddətində televiziya sahəsində bizim böyük təcrübəmiz var. Televiziya sahəsində çalışan insanlar yüksək səviyyəyə gəlib çatıblar. Professional imkanlara malik olan televiziya əməkdaşlarımız var. Ancaq bunlar da son hədd deyildir. Dünya televiziyasının böyük nailiyyətlərini Azərbaycan televiziyası hələ tamamilə mənimsəyə bilməyib, tətbiq edə bilməyibdir. Bu, indi Azərbaycan televiziyasının qarşısında duran vəzifələrdir. Bunları həyata keçirmək üçün televiziyanın maddi-texniki bazasını daha da gücləndirmək lazımdır. Bizim iqtisadi vəziyyətimiz nə qədər çətin olsa da, biz bu sahəyə vəsait əsirgəməyib son zamanlar televiziyanın maddi-texniki bazasını inkişaf etdirmək üçün lazımi tədbirlər görmüşük.

1982-83-cü illərdən inşasına başlanmış böyük televiziya qülləsi tikilib qurtarmaqdadır. Mən bu gün xatırlatmaq istəyirəm ki, hələ 70-ci illərdə biz televiziyanın maddi-texniki bazasını genişləndirmək üçün Bakıda yüksək bir televiziya qülləsi tikilməsi haqqında qərar qəbul etdik. O vaxt bir neçə layihəyə baxıldı və indi tikilməkdə olan həmin qüllənin layihəsi təsdiq [349-350] olundu, tikinti işlərinə başlandı. O vaxt bizim nəzərdə tutduğumuz proqrama görə o televiziya qülləsi 2-3 il müddətində tikilib başa çatdırılmalı idi. Onun tikintisinin əsasını qoyanlardan biri və təşəbbüsçüsü mən olmuşam. Ancaq təəssüf ki, on ildən çox bir vaxtda o televiziya qülləsi tikilib qurtarmayıbdır. Biz indi inşaat işlərini sürətləndirmişik və inşaatçılar söz verirlər ki, bu il televiziya qülləsi istifadəyə veriləcəkdir. Bu da Azərbaycan televiziyası verilişlərinin daha geniş yayılması üçün və daha da keyfiyyətli olması üçün çox yaxşı şərait yaradacaqdır.

Biz başqa tədbirlər də görürük və görəcəyik də. Ancaq bunlarla yanaşı, Azərbaycan televiziyası əməkdaşlarının öz professional səviyyələrini yüksəltmək, həmçinin dünya təcrübəsindən səmərəli istifadə etmək, nailiyyətləri daha da artırmaq vəzifələri, şübhəsiz, qarşıda duran əsas vəzifələrdir. Vəzifələr böyükdür. Görüləsi işlərin həcmi də böyükdür və çoxşaxəli işlər görmək lazımdır. Lakin televiziyamızın qarşısında duran vəzifələrin bir-ikisi haqqında danışmaq istəyirəm.

Qeyd etdiyim kimi, televiziya insanların mənəvi tərbiyəsini yüksəltmək üçün çox gözəl bir vasitədir. Televiziya bu işi davam etdirməlidir. Bizim insanlarımızda milli vətənpərvərlik ruhu, milli qürur hissi daha da inkişaf etməlidir və televiziya bu sahəyə bundan sonra daha ciddi fikir verməlidir. Azərbaycan Respublikasının müstəqilliyinin qorunub-saxlanması üçün lazım olan tədbirlərin görülməsinə və bu sahədə görülən işlərin təbliğinə Azərbaycan milli televiziyası çox geniş yer ayırmalıdır. Bu sahədə atılan hər bir addım bizim dövlət müstəqilliyimizi möhkəmləndirəcək və inkişaf etdirəcəkdir. Televiziyanın bu sahədə böyük imkanları var və ümidvar olduğumu bildirmək istəyirəm ki, televiziya bu imkanlardan istifadə edəcəkdir.

Biz müstəqil respublikamızda, müstəqil ölkəmizdə öz elmimizi, mədəniyyətimizi, tarixi nailiyyətimizi, tarixi keçmişləri daha geniş təbliğ etməliyik. İnsanlar, xüsusən gənc nəsil bunları yaxşı bilməlidir. Bunu da televiziya vasitəsilə çox məharətlə həyata keçirmək mümkündür.

Televiziya işçilərinə qarşı çox böyük tələblər də var. Onlar gərək ekranda hər bir vətəndaş üçün nümunə olsunlar – həm özlərinin danışığı ilə, həm görünüşü ilə, həm ekranda özlərini aparması ilə, ümumiyyətlə hər bir cəhətdən nümunə olsunlar. Bilirsinizmi, insanlar televizora baxarkən özləri üçün çox şey [350-351] götürür, mənimsəyirlər. Amma bəzi şeylərdən də dərhal imtina edirlər. Əgər o verilişlər insanların əhval-ruhiyyəsinə uyğun deyildirsə, yaxud o verilişləri aparan adamlar onların əhval-ruhiyyəsinə uyğun hərəkət etmirlərsə, televiziya işçiləri bunu da bilməli və dərk etməlidirlər.

Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün ən əsas vasitələrdən biri ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir. Bu barədə biz dəfələrlə danışmışıq. Müstəqil Azərbaycan Respublikasının keçən il noyabrın 12-də qəbul olunmuş ilk konstitusiyası Azərbaycan dilini Azərbaycanın dövlət dili elan etmişdir. Azərbaycan dilinin təbliği sahəsində televiziya çox iş görə bilər. Tamaşaçılar qarşısında çıxış edən televiziya işçiləri Azərbaycan dilində nə qədər səlis, gözəl, şirin, mədəni danışsalar, o qədər də hər bir Azərbaycan vətəndaşı öz dilini sevəcək, həmin televiziya verilişlərindən özləri üçün nümunələr götürəcək və öz dilini inkişaf etdirəcəkdir. Bu, televiziya işçiləri qarşısında duran çox böyük vəzifədir və mən bunu xüsusi qeyd edirəm.

Elm, mədəniyyət xadimlərimiz televiziya vasitəsilə çıxış edərkən, söhbətlər, mübahisələr apararkən Azərbaycan dilində nə qədər səlis danışsalar, o qədər də çox seviləcəklər və xalqımızın ana dilini, dövlət dilini mənimsəməsi, öyrənməsi üçün o qədər də kömək edəcəklər. Güman edirəm, televiziyamız bundan sonra da bu sahəyə fikir verəcəkdir.

40 il az müddət deyil, böyük bir dövrdür. 40 il müddətində Azərbaycan televiziyası böyük nailiyyətlər əldə edibdir. Ancaq Azərbaycan televiziyasının böyük gələcəyi irəlidədir. Müstəqil Azərbaycan Respublikası möhkəmləndikcə, ölkəmizin iqtisadiyyatı inkişaf etdikcə, Azərbaycan xalqının, vətəndaşlarının rifahı yüksəldikcə milli televiziyanın imkanları da artacaq, daha çox inkişaf edəcəkdir. Ancaq Azərbaycan televiziyası bu prosesin önündə getməlidir, bu prosesləri aparmaq üçün çox gərəkli, dəyərli vasitə olmalıdır və ümidvaram ki, belə olacaqdır.

Bu gün biz Azərbaycan televiziyasının 40 il ərzində qazandığı nailiyyətlərlə fəxr edirik. Bu nailiyyətlər münasibətilə sizi bir daha təbrik edirəm. Eyni zamanda Azərbaycan televiziyasının, Azərbaycan xalqının gələcəyinə böyük ümidlərlə, böyük nikbinliklə baxırıq. Gələcəyimiz gözəl olacaq, Azərbaycan televiziyası yaşayacaq və inkişaf edəcəkdir. Televiziyaya gələn yeni nəsillər Azərbaycan milli televiziyasını daha da yüksəklə[351-352]rə qaldıracaq və bunlar hamısı Azərbaycan Respublikasının dövlət müstəqilliyini inkişaf etdirəcək, xalqımızın mənəviyyatını, elmini, mədəniyyətini, bütün nailiyyətlərini dünyaya nümayiş etdirəcəkdir.

Bu salona çox adam toplaşıbdır. Bəlkə də Azərbaycanın bütün təbəqələrini bu qədər rəngarəng şəkildə təmsil edən adamların buraya toplaşdığı hallar çox az olur. Çünki hamı televiziyaya maraq göstərir. Bu salonda olanların əksəriyyəti televiziya vasitəsilə öz fəaliyyətlərini nümayiş etdirirlər, bu gün də öz bayramlarına gəliblər. Ona görə də bu, bizim ümumi milli bayramımızdır, Ümumi milli şadlığımızdır. Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, televiziya işçilərinə, bu sahədə çalışan bütün əməkdaşlara cansağlığı, gələcək işlərində uğurlar arzulayır və hamımız üçün gələcəkdə yeni gözəl televiziya verilişlərinin hazırlanmasını arzu edirəm. Sağ olun. [352-353]

## KALMIKİYA PREZİDENTİ KİRSAN İLYUMJİNOVUN BAKI SƏFƏRİ ZAMANI AZƏRBAYCAN İLƏ KALMIKİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ İMZALANDIQDAN SONRA KALMIKİYA TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*20 fevral 1996-cı il*

**Sual**: **Siz Azərbaycan ilə birbaşa əlaqələr yaradılması barədə Rusiya Federasiyası subyektlərinin təşəbbüsünə necə baxırsınız?**

**Cavab:** Bütövlükdə Rusiya Federasiyası ilə əlaqələrin genişləndirilməsi sahəsində atdığımız və təbii olaraq, müvafiq sənədlərdə əksini tapan addımlarla yanaşı, biz Rusiya Federasiyasının subyektləri ilə birbaşa münasibətlər yaradılmasını da məqsədəuyğun sayırıq. Yeri gəlmişkən, bu, əsasən federasiya subyektlərinin öz təşəbbüsü ilə edilir. Bunun üçün onlar müvafiq hüquqlara və statusa malikdirlər. Biz bu cür təşəbbüsü dəstəkləyir və bəyənirik, əlaqələr yaradırıq. Bu gün Kalmıkiya ilə Azərbaycan arasında saziş imzalandı. Düşünürəm ki, bundan sonra da belə olacaqdır.

**Sual: Cənab Əliyev, yəqin ki, bu cür müqavilələr bütün Şimali Qafqazda, ümumiyyətlə Qafqazda dostluğun, mehriban qonşuluğun möhkəmlənməsinə kömək edir. Üstəlik, Qafqazda vəziyyət çox mürəkkəbdir. Necə bilirsiniz, bu cür əlaqələr xalqlar arasında iqtisadi vasitələri, mehriban qonşuluğu və dostluğu nə dərəcədə real surətdə möhkəmləndirir?**

**Cavab:** Şübhə yoxdur ki, belə müqavilələr bu əlaqələri möhkəmləndirir. Lakin iqtisadi əməkdaşlıq dostluq, səmimi münasibətlər üçün yaxşı zəmindir, xüsusən də indi, ölkələrimiz çox mürəkkəb keçid dövrünü yaşadığı, bir çox sahələrdə isə böhran halları olduğu dövrdə. Buna görə də əminəm ki, Azərbaycan ilə Rusiya Federasiyasının subyektləri arasında sazişlər imzalanması ölkələrimizin xalqları arasında dostluğu möhkəmlətmək, bütövlükdə Rusiya Federasiyası ilə Azərbaycan arasın[353-354]da dostluğu və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı vasitədir.

**Sual: Siz millətlərarası münasibətlər baxımından Qafqazda gələcəyi necə təsəvvür edirsiniz?**

**Cavab:** Gələcək dinc, firavan olmalıdır. Biz hamımız sülh istəyirik. Heç kəs münaqişə, qan tökülməsini, müharibə istəmir. Əgər indi qarşıdurma vəziyyəti yaradan toqquşmalara, hərbi əməliyyatlara gətirib çıxaran müəyyən qüvvələr varsa, zənnimcə, bu qüvvələr yox olacaqdır, hər halda bəşəriyyət sülh və əmin-amanlıq şəraitində yaşamalıdır. Ümidvaram ki, Qafqazda da sülh və əmin-amanlıq olacaqdır.

Bu fürsətdən istifadə edərək, xahiş edirəm, Kalmıkiyanın bütün sakinlərinə, onun bütün vətəndaşlarına milli bayram yeni il münasibətilə ən xoş və səmimi təbriklərimi yetirəsiniz. [354-355]

## XOCALI SOYQIRIMININ DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR MÜRACİƏT

Əziz həmvətənlərim!

Müstəqillik və azadlıq uğrunda mübarizə tariximizə əbədi həkk olunmuş dəhşətli gündən – Xocalı soyqırımından dörd il keçir. O zamankı iqtidarın günahı ucbatından taleyin ümidinə buraxılmış Xocalının yüzlərlə dinc, köməksiz sakini – qocalar, qadınlar, körpələr erməni təcavüzü nəticəsində qəddarcasına qətlə yetirildilər. Xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasəti insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacaqdır. Əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdi.

Xocalı faciəsi xalqımızı sarsıtsa da, onun dözümünü, iradəsini qıra bilmədi. Bu müsibət müqəddəs Vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü, sərhədlərimizin toxunulmazlığı uğrunda mübarizədə bizi daha da mətinləşdirdi və birləşdirdi. Bu gün şəhidlərimizin müqəddəs ruhu işğal olunmuş torpaqlarımızın azad edilməsi və qaçqın soydaşlarımızın öz yurdlarına qaytarılması uğrunda mübarizədə hər birimizi daha böyük əzmkarlıq göstərməyə səsləyir.

Xalqımızın milli hüzn günündə Xocalı müsibətinin günahsız qurbanlarının ruhu qarşısında ehtiramla baş əyirəm. Azərbaycanın azadlığı və işıqlı gələcəyi naminə əbədiyyətə qovuşmuş insanlar heç vaxt unudulmayacaqlar.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 fevral 1996-cı* [355-356]

## XOCALI SOYQIRIMININ DÖRDÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR XOCALI SAKİNLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*24 fevral 1996-cı il*

Biz bu günlər Xocalı faciəsinin dördüncü ildönümünü qeyd edirik. Bu, xalqımızın, millətimizin tarixində qara bir səhifədir, xalqımızın faciəsidir. Eyni zamanda bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların xatirəsi heç vaxt unudulmayacaqdır. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır.

Torpaqlarımızın müdafiəsi uğrunda gedən müharibədə artıq səkkiz il tamam olubdur ki, Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanıbdır. Səkkiz il ərzində bu təcavüz davam edib və xalqımız öz torpaqlarını, Vətənini müdafiə etmək üçün vuruşub, çalışıb, mübarizə aparıbdır və bu gün də torpaqlarının keşiyindədir.

Azərbaycan xalqı bu müddətdə çox şəhidlər, qurbanlar veribdir. Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olublar. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətlisinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş bir təzahürüdür. Bütün bunlara görə də biz Xocalı faciəsinin ildönümünü hər il qeyd edirik. Bildiyiniz kimi, 1994-cü ilin fev[356-357]ralında Xocalı faciəsinin Xocalı soyqırımı günü kimi qeyd olunması barəsində xüsusi qərar qəbul olunmuşdur.

Mən söhbətə başlamamışdan əvvəl rica edirəm Xocalı torpağını qoruyarkən, müdafiə edərkən şəhid olmuş bizim Azərbaycan övladlarının xatirəsini, torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq özlərini qurban vermiş bütün şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah rəhmət eləsin.

Bu gün hər bir Xocalı sakini ilə görüşmək bizim üçün çox əziz olardı. Lakin bilirsiniz ki, bu, mümkün deyil. Xocalıdan didərgin düşmüş soydaşlarımız Azərbaycanın bir çox yerlərində məskunlaşıblar. Mən isə Xocalının bir qrup nümayəndəsi ilə burada görüşərək hesab edirəm ki, bütün xocalılarla görüşürəm.

Mən bu görüşdən məmnun olduğumu bildirmək istəyirəm. Siz dörd ilidir ki, özünüzün, qohum-əqrəbanızın, öz yerinizin sakinlərinin başına gəlmiş bəlalara, faciələrə, itkilərə görə dərd-kədər içindəsiniz. Eyni zamanda bu faciə bütün Azərbaycan xalqını kədərləndirir. Biz hamımız kədər hissi keçiririk həm Xocalıda həlak olanlar üçün, onların xatirələrinə görə, həm də bütün Azərbaycanın verdiyi şəhidlərə görə. Bugünkü görüşümüzdə o günləri müəyyən qədər xatırlamaq, həyatdan gedənlərə rəhmət diləmək, yaşayanlara isə kömək etmək, onların yaşayışının daha da yaxşılaşması üçün lazımi tədbirlər görmək bizim borcumuzdur. Güman edirəm ki, bu gün bizim buradakı görüşümüzün də, söhbətimizin də məqsədi bundan ibarətdir. Mən sizi dinləmək istəyirəm, sizin sözlərinizi eşitmək istəyirəm.

### YEKUN SÖZÜ

Bugünkü görüşümüz və uzun sürən söhbətimiz çox əhəmiyyətlidir, çox mənalıdır. Eyni zamanda böyük hissiyyatlar doğurur, birinci növbədə kədər hissi doğurur.

Xalqımız çoxəsrlik tarixində qəhrəmanlıq nümunələri, cəsurluq nümunələri göstəribdir, öz azadlığı uğrunda, səadəti, xoşbəxtliyi uğrunda mübarizə aparıbdır. Ancaq zaman-zaman, tarixin cürbəcür mərhələlərində məğlubiyyətlərə də uğrayıbdır, bəlalara da düşübdür, faciəli dövrlər də keçiribdir.

XX əsri götürsək, əsrin əvvəlindən sonuna qədər erməni millətçiləri, erməni quldurları, cinayətkarları tərəfindən Azərbaycan xalqına qarşı edilən cinayətlər misilsizdir. Hücumlar [357-358] olub, təcavüzlər olub, qırğınlar olubdur – əsrin əvvəlində də, 1918 – 20-ci illərdə də. Sonra, 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü, azərbaycanlıların Ermənistan ərazisindən zorla çıxarılması və bizim itkilərimiz, soydaşlarımızın həlak edilməsi, Qarabağ ətrafında müharibənin başlandığı zamandan indiyə qədər bizim verdiyimiz qurbanlar, şəhidlər hamısı ermənilərin, Ermənistanın Azərbaycana qarşı düşmən mövqeyinin davam etdiyini sübut edir, göstərir. Bunların nəticəsində, bir tərəfdən də keçmiş illərdə buraxılan böyük səhvlər, cinayətlər, xəyanətlər nəticəsində ərazimizin təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur və ümumən bir milyondan artıq soydaşımız, vətəndaşımız yerindən, yurdundan olub, qaçqın vəziyyətində yaşayır.

Bütün bu ağır, çətin proseslərin içərisində Xocalı faciəsi xüsusi yer tutur. Xocalı soyqırımı Ermənistan, ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırımıdır. Bu, bizim tariximizdə belə də həkk olmalıdır. Bu soyqırımının nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdən kənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, bütün xalqlara anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Və zaman keçdikcə, əksinə, bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz Vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir. Burada qeyd edildi, – nə qədər körpələr, qadınlar, qocalar, köməksiz adamlar, günahsız adamlar həmin o gün, o gecə vəhşicəsinə öldürülüblər. Amma eyni zamanda o gün, o gecə bizim nə qədər cəsur, qəhrəman övladlarımız o böyük qüvvəyə – dişinə qədər silahlanmış erməni silahlı dəstələrinə və keçmiş Sovet İttifaqının çox böyük silaha və təcrübəyə malik olan böyük bir alayına, onun hücumlarına sinə gərə bilmişlər, vuruşmuşlar, döyüşmüşlər. Döyüşə-döyüşə həlak olmuşlar, qəhrəmanlıq nümunələri göstərmişlər və Milli Qəhrəman adı almağa layiq görülmüşlər.

Ona görə də bu hadisənin iki tərəfi də bu gün bizim üçün əhəmiyyətlidir və iki tərəfi də təbliğ olunmalıdır, iki tərəfi də geniş kütlələrə çatdırılmalıdır. Biz bundan sonra bunu etməliyik, bu, bizim vəzifəmizdir. [358-359]

Bugünkü müzakirədən, bugünkü görüşdən, söhbətdən mənim çıxardığım bir nəticə də ondan ibarətdir ki, erməni işğalçılarının, vəhşilərinin törətdiyi Xocalı soyqırımını, 366-cı alayın, Sovetlər Ordusu alayının Azərbaycan xalqına qarşı etdiyi soyqırımını biz gərək dünya ictimaiyyətinə daha da kəskin, daha da geniş, çatdıraq.

Mən tövsiyə edərdim ki, xocalıların adından, bəlkə də Azərbaycan ziyalılarının adından, ayrı-ayrı təşkilatların adından dünya ictimaiyyətinə Xocalı soyqırımının 4-cü ildönümü ilə bağlı müraciətlər göndərilsin. Birləşmiş Millətlər Təşkilatına göndərilsin, dünyada insan hüquqlarını qoruma komitəsi var, oraya göndərilsin, başqa beynəlxalq təşkilatlara göndərilsin. Bu, lazımdır.

Bilirsiniz, tək onunla kifayətlənmək olmaz ki, Xocalı soyqırımı haqqında bir kitab da yazıldı, bir film də çəkildi. O vaxtlar, təzə-təzə, hələ o yaralar soyumamış bu barədə məlumat çatdırıldı. Yox, daim etmək lazımdır. Daim! Hər il, hər gün! Beş il də bundan sonra, on il də bundan sonra! Bunu unutmaq olmaz! Bunu unutmaq olmaz! Bu, gərək dünya ictimaiyyətinə çatdırılsın və bildirilsin, hər yerdə bilinsin ki, erməni işğalçıları nə qədər qəddar, nə qədər vəhşidirlər və Azərbaycan xalqına qarşı dünya, bəşər qanunlarına zidd olaraq nə qədər böyük vəhşilik, cinayətlər ediblər.

Biz bunu mütləq etməliyik. Mən indi bu barədə ümumi fikrimi deyirəm, ancaq güman edirəm ki, bizim müvafiq işçilərimizlə birlikdə oturarsınız, bu barədə düşünərsiniz və burada yeni güclü bir hərəkət etmək lazımdır, kampaniya aparmaq lazımdır. Ancaq bu, tək kampaniya şəkli almamalıdır, mütəmadi olmalıdır, davamlı olmalıdır, ardıcıl olmalıdır. Biz dünyaya gərək sübut edək ki, Azərbaycan xalqına qarşı, dinc, günahsız, heç bir köməyi olmayan xocalılara qarşı nə qədər vəhşiliklər olubdur. Bunu etmək mütləq lazımdır.

Burada xocalılardan indiyə qədər itkin düşmüş və tapılmamış adamlar haqqında danışıldı. Mən bir də göstəriş verirəm bizim aparatın işçilərinə, milli təhlükəsizlik naziri Namiq Abbasova ki, bu işlərlə məşğul olsun və bütün müvafiq təşkilatlarla məsləhətləşsin. Yəqin ki, bu barədə, Ramiz Mehdiyev, siz yığışmalısınız, bir müzakirə keçirməlisiniz və müəyyən etməlisiniz ki, hansı kanallarla, hansı yollarla nə etmək lazımdır ki, o itkin düşmüş, yaxud əsirlikdə qalan, aqibəti indiyə qədər məlum olmayan xocalıları arayıb tapaq. Ola [359-360] bilər ki, onların bəziləri indi sağ deyillər, bunu da yəqin, bir həqiqət kimi qəbul etmək lazımdır, ancaq yəqin ki, sağ olanlar da var. İndiyə qədər yaşayanlar da var, – onlar tapılmalıdır. Hansılar ki, sağ deyil, hansıları ki, öldürüblər, yaxud hansılar ki, həlak olublar, – onların da haqqında hər halda hər şey dəqiq müəyyən olunmalıdır. Bu işlə də ciddi məşğul olmaq lazımdır.

Xocalılara bundan sonra daha çox qayğı göstərilməlidir. Burada çıxış edənlərin hamısı bizim dövlət orqanlarından çox razı olduqlarım bildirdi. Mən bundan məmnunam. Ancaq eyni zamanda güman edirəm ki, bu çıxışlarda deyilən sözlərdə müəyyən qədər həqiqət var. Ümumiyyətlə, Azərbaycan xalqına xas olan bir keyfiyyət var – biz çox şükürlü millətik, bizə bir balaca da kömək edəndə onu böyük bir kömək kimi qəbul edirik. Bu, ümumiyyətlə, bizim Azərbaycan xalqının milli xüsusiyyətidir. Xüsusən indi sizin kimi adamlar evindən-eşiyindən, yerindən-yurdundan olmuş, varını-yoxunu, qohum-əqrəbasını itirmiş adamlar xırda bir qayğıya da minnətdardırlar. Ancaq mən hesab edirəm ki, daha çox qayğı göstərilməlidir. Şübhəsiz ki, bütün qaçqınlara, bütün şəhid ailələrinə, müharibədə şikəst olmuş bütün adamlara, müharibə əlillərinə, hamıya qayğı göstərilməlidir. Ancaq xocalıların başına gələn bəla heç kəsin başına gəlməyibdir. Bu xüsusiyyət də nəzərə alınmalıdır.

İndi burada çıxış edənlər də dedilər, çıxış etməyənlərin də arasında eləsi var ki, – bilirəm, mənə bu gün məlumat veriblər, – ailəsindən beş-altı adam itiribdir, gözünün qabağında itiribdir. Bilirsiniz, itki itkidir, hər birimiz zaman keçdikcə itkiyə müəyyən qədər öyrənirik. Amma biri var, sən görürsən ki, gözünün qabağında ən istəkli adamın – atan, qardaşın, ya oğlun, ya bacın həlak oldu və sən ona bir yardım edə bilmədin, vəfat etdi. Bu, adamın qəlbində daha çox iz buraxır, adamın qəlbini daim sıxır.

Ona görə bu psixoloji cəhətləri də nəzərə almaq lazımdır və xocalıların başına bu bəlaların həddindən artıq vəhşicəsinə hərəkətlər nəticəsində gəldiyini, bunların vəhşilik şəraitində törədildiyini nəzərə alaraq bu gün xocalılara bütün sahələrdə: həm maddi yardım, həm tibbi yardım, həm də sadəcə insani münasibət göstərilməlidir. Mən bunu bizim bütün dövlət hakimiyyət orqanlarına, ictimai təşkilatlara tapşırıram, tövsiyə edirəm və güman edirəm ki, bundan sonra da bu, olacaqdır. [360-361]

Bunlarla yanaşı, bizim bugünkü görüşümüzdən mən belə bir nəticəyə gəlirəm ki, əgər Xocalı faciəsi bir tərəfdən erməni işğalçılarının vəhşiliyinin nəticəsi olubsa, ikinci tərəfdən də bizim dövlət orqanlarının, o vaxt respublikaya rəhbərlik edən səlahiyyətli şəxslərin cinayətkarlığı, etdiyi cinayətlər nəticəsində və hətta deyə bilərəm, xəyanətləri nəticəsində olubdur. Ona görə də biz bu soyqırımını pisləmək, ermənilərin bu vəhşiliyini dünyada göstərmək, yaymaq, onları bir vəhşi kimi ifşa etməklə yanaşı, eyni zamanda özümüzün Özümüzə etdiyimiz cinayəti, xəyanəti də aşkar etməliyik. Bu cinayətlər də, bu xəyanətlər də göz qabağındadır.

Bu gün burada danışanların hamısı, xüsusən Xocalının icra hakimiyyəti başçısı çox ətraflı məlumat verdi. Bunlar bu cinayətləri, bizim öz tərəfimizdən, yəni Azərbaycanın ayrı-ayrı dövlət nümayəndələri tərəfindən, xüsusən də dövlət başçısı tərəfindən olan cinayətləri və xəyanətkarlığı bir daha sözsüz sübut edir. Ancaq bu dörd il müddətində mən hesab edirəm ki, bir günah da, bir böyük qüsur da var. O da ondan ibarətdir ki, bu xəyanətin, bu cinayətin üstünü örtüb-basdırmağa çalışıblar. Mən belə bir qənaətə gəlirəm ki, buna bir çox tərəflərin marağı olubdur. Burada deyildi və mən bu fikirlərlə razıyam ki, məsələn, bu Xocalı faciəsi təkcə o vaxt hakimiyyətdə olanların cinayəti və xəyanətkarlığı nəticəsində deyil, eyni zamanda o vaxt hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin öz xalqına etdiyi xəyanətin və cinayətin nəticəsində olubdur. Ona görə də bu məsələnin, bu cinayətin, bu xəyanətkarlığın tamamilə açılmasında, aşkar olmasında nə o tərəfin, nə bu tərəfin marağı olmayıbdır. Bunu artıq tam qətiyyətlə demək olar.

Mənim xatirəmdədir, o vaxt Naxçıvanda yaşayırdım. Xocalının icra hakimiyyəti başçısı Məmmədov mənim yadıma saldı ki, o, doğrudan da Naxçıvana gəlmişdi. Sentyabrın axırında siz ora gəlmişdiniz də?

**Elman Məmmədov:** Sentyabrın 30-da.

**Heydər Əliyev:** Sentyabrın 30-da, hə, mən bir aydan da az idi ki, xalqın tələbi ilə Naxçıvanda Ali Məclisin sədri vəzifəsini öz üzərimə götürmüşdüm. Çox ağır, qarışıq bir vəziyyət idi. Bilirsiniz ki, o vaxt Sovet hakimiyyəti dağılmışdı, demək olar ki, dağılmaq üzrə idi. Burada hələ dağılmamışdı, amma Naxçıvanda dağılmışdı, xalq Kommunist Partiyasının Vilayət Komitəsini dağıtmışdı, bağlamışdı və mən sentyabrın [361-362] əvvəlində – ayın 1-i, ya 2-si idi, – Naxçıvana gələndə, artıq Naxçıvan qaynayırdı və xalq meydanlarda hakimiyyətə qarşı öz nifrətini bildirirdi, Naxçıvan ağır vəziyyətdə olduğuna görə qanun-qayda yaradılmasını tələb edirdi. O tələblərin nəticəsində də mən sentyabrın birinci günlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsini öz üzərimə götürməli oldum. O vaxt biz çox gərgin işləyirdik və özümüzün də Naxçıvanda çoxlu problemlərimiz var idi. Ancaq eyni zamanda, o zaman Qarabağın vəziyyəti də məni narahat edirdi. Xatirənizdədir, o vaxt, 1991-ci ilin fevral ayının əvvəllərində Azərbaycan Respublikası Ali Sovetinin ilk sessiyası başlandı. Mən də Naxçıvandan Ali Sovetə deputat seçilmişdim. Həmin sessiyada mən çıxış etdim və dedim ki, Qarabağ əlimizdən gedibdir. Gəlin yığışaq, danışaq, oturaq məsləhətləşək, – nə etmək lazımdır ki, Qarabağı əlimizdə saxlayaq və əldən getmiş Qarabağı qaytaraq. O vaxt mənim əleyhimə cürbəcür böhtançı çıxışlar başlandı, – bunlar xatirinizdədir? – mənim sözümü kəsdilər, yerdən cürbəcür ədəbsiz hərəkətlər etdilər, hətta belə nitqlər də oldu ki, "Siz burada yalan danışırsınız, Azərbaycan rəhbərliyinin əleyhinə iş aparırsınız, siz düz demirsiniz. Azərbaycan rəhbərini yıxmaq istəyirsiniz, Qarabağ heç vaxt indiki kimi bizim olmayıbdır".

Bu sözlər xatirinizdədir? Bu, 1991-ci ilin əvvəli idi. Sonra mən çıxdım getdim. 1991-ci ilin həmin sentyabrında Naxçıvanda olarkən mən yenə də Qarabağ haqqında düşünürdüm. Qarabağ məni narahat edirdi. O vaxt Qarabağdan ara-sıra adamlar gəlirdilər mənim yanıma, bəzən görürdün, naməlum adamlar mənə Şuşadan, yaxud da ayrı-ayrı rayonlardan, Laçından telefonla zəng edirdilər, imdad istəyirdilər, kömək istəyirdilər və o vaxt nə mümkün idi – mən öz tərəfimdən edirdim.

O vaxt Məmmədov da gəlmişdi ora. Bəli, mən bunu böyük bir hadisə kimi qəbul etdim və Ali Məclisin sessiyasında elan etdim ki, Qarabağda bu dəqiqə mühasirədə olan Xocalının başçısı gəlibdir bizim Naxçıvana. Sessiyada onu təqdim etdim, ona söz verdim, çıxış. etdi. Biz xocalılarla öz həmrəyliyimizi bildirdik, öz fikirlərimizi bildirdik. Bundan sonra təkbətək ayrıca söhbət etdik və mən məsləhətlərimi də verdim.

Yəni demək istəyirəm ki, Dağlıq Qarabağ məsələsi, Ermənistanın Azərbaycana təcavüzü məsələsi xalqı həmişə narahat edibdir, xalqı incidibdir. Xalq çalışıb ki, hərə çalışıb ki, bu işə [362-363] öz paymı versin, öz xidmətini göstərsin. Ancaq təəssüflər olsun ki, o səlahiyyətli adamlar nəinki öz vəzifələrini yerinə yetirməyiblər, hətta xəyanət ediblər.

O vaxt Xocalı faciəsinin araşdırılması üzrə komissiya yaradılmışdı. Mən də Naxçıvanda çox maraq göstərirdim ki, bu komissiya nə nəticə çıxaracaqdır. Sonra bu komissiyanın işinin nəticəsini televiziyada verdilər. Mən buna qulaq asdım, xüsusən Əli Ömərovun, – o, komissiyanın katibi idi, məruzəsinə qulaq asdım. Doğrudur, o məruzə məni tam qane etmədi, ancaq eyni zamanda bu gün həqiqət naminə demək lazımdır ki, məruzədə çox ədalətli, çox kəskin, prinsipial fikirlər də vardı. Təəssüflər olsun ki, onun müzakirəsi buna gətirib çıxardı ki, burada hanı günahkar var, həm də yoxdur. Siz bilirsiniz ki, bunun da nəticəsində Mütəllibov may

ayının 14-də yenidən prezident vəzifəsinə qayıtdı. Onun gəlməsi Xocalı ilə əlaqədarmış. Belə çıxdı ki, o, günahkar deyil, komissiya belə müəyyən edibdir. Komissiyanın sədri Ramiz Fətəliyev idi. O vaxt sessiyada ondan soruşdular – xatirəmdədir, televiziya ilə göstərirdilər, – bir neçə dəfə soruşdular. Təəssüflər olsun ki, dedi yox, Mütəllibovun burada heç bir günahı yoxdur, ona görə də sessiya qərar çıxartdı ki, Mütəllibov prezident vəzifəsinə qayıtmalıdır.

Mən bununla onu demək istəyirəm ki, o zaman görülən işi layiqincə qiymətləndirərək, eyni zamanda bu gün etiraf etmək lazımdır ki, o komissiya o vaxt nə qədər istəsəydi də, məsələni obyektiv araşdıra bilməzdi. Çünki günahkar adamların əksəriyyəti o vaxt vəzifə sahibi idi. Onlar yüksək vəzifələrdə idilər. Ona görə də o komissiyanın çıxardığı nəticələr tam həqiqət deyildi. Sonra respublikada hakimiyyət dəyişildi, yəni rəhbər vəzifədə olan prezident dəyişildi, yeni prezident seçildi. Gözləmək olardı ki, yeni prezident seçiləndən sonra onlar bu işi qaldıracaqlar, çünki onlar məhz bu Xocalı hadisəsindən istifadə edərək hakimiyyətə gələ bildilər. Ancaq bu məsələnin üstü ondan sonra da örtüldü və istintaq da elə getdi ki, guya ki, burada heç bir günahkar yoxdur.

Eldar Həsənov o cinayət işindən istintaqın izi ilə bəzi məlumatlar verdi. Ancaq hesab edirəm ki, indi vaxt keçib, bu istintaqa, bu araşdırmaya təsir edən adamlar indi arada yoxdurlar. Onlar heç bir təsir edə bilməzlər. Bu məsələlər yenidən araşdırılmalıdır, – mən belə hesab edirəm, – tamamilə yenidən araşdırılmalıdır və yenidən istintaq aparılmalıdır. [363-364]

Mən bir də qayıdıram dediyim fikrə – Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı gələcək nəsillərimizin xatirindən yüz il bundan sonra da çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir. Əgər bu beledirsə və güman edirəm ki, siz bununla razısınız, demək, bu vəhşilər də məhkum olunmalıdır. Burada Eldar Həsənov dedi ki, bu vəhşilikləri edən erməni silahlı qüvvələrinin bəziləri məlumdur. Əgər onlar bu gün də cəzasını almayıblarsa, gələcəkdə öz cəzalarım alacaqlar. Beynəlxalq məhkəmə onların cəzasını verəcəkdir. Həmin 366-cı alay gələcəkdə cəzasını alacaqdır və beynəlxalq məhkəmə onların da cəzasını verəcəkdir. Dünya həmişə belə qalmayacaqdır. Belə olan halda, demək, bizim içimizdən cinayət edənlər, xəyanət edənlər də araşdırılmalıdır və meydana çıxarılmalıdır.

Bilirsiniz, bir adam gedib iki nəfəri öldürəndə, onu həbs edirlər, məhkəmə gedir, ona ya güllələnmə cəzası, ya da ən azı, on il azadlıqdan məhrumetmə cəzası verilir. Çünki iki adam öldürülübdür, yaxud bir adam öldürülübdür. Amma burada görürsünüz nə qədər adam, özü də vəhşicəsinə öldürülübdür, günahsız adamlar öldürülübdür.

Mən bu məsələyə də aydınlıq gətirməliyəm. Bir var ki, müharibədir, erməni silahlı qüvvələri Azərbaycana qarşı işğalçılıq müharibəsi aparıblar, döyüşlər gedibdir, o tərəf də vuruşub, bu tərəf də vuruşub, o tərəfdən də həlak olan var, bu tərəfdən də həlak olan var. Bu, müharibənin təbii nəticəsidir. Amma bir də var ki, gələsən, böyük bir yaşayış məntəqəsini mühasirəyə alasan, uzun müddət mühasirədə saxlayasan, onu xaricdən tam təcrid edəsən və nəhayət, beş-altı dəfə artıq qüvvə ilə, silahlı hücum edib dinc əhalini qırasan. Bunlar tamamilə bir-birindən fərqli hallardır.

Həmin Xocalını uzun müddət, burada Məmmədov dedi, mühasirədə saxlayan erməni silahlı qüvvələri olublar. Bəs onu mühasirədən azad etməyənlər kimlərdir? Niyə onlar dözüblər ki, bizim böyük bir yaşayış məntəqəsində xeyli adam uzun müddət mühasirədə qalıblar? Niyə? Nə üçün? Hansı tədbirləri görüblər və niyə görməyiblər?

İcra hakimiyyəti başçısı deyir ki, üç gün gəlib, burada çalışıb, prezident, eyni zamanda Silahlı Qüvvələrin ali baş komandanı onu qəbul etməyib – bunun işi var, başqa işi var. Bundan da vacib iş ola bilərmi? Mən hesab edirəm ki, o günlər Azərbaycanın hər bir rəhbəri üçün bundan vacib, [364-365] bundan zəruri iş ola bilməzdi. Adicə maraq lazım idi ki, əgər icra hakimiyyəti başçısı gəlibsə, gəlsin desin görək nə var? Əgər onu qəbul etmək istəmirsə, onunla görüşmürsə, icra hakimiyyəti başçısı üç gün bu barədə ona-buna müraciət edir, buna nail ola bilmirsə, geriyə qayıdırsa, demək, bu, sadəcə olaraq vəziyyəti bilir və vəziyyəti bilərək ölçü götürməmək üçün onu qəbul etmir. Məntiqi nəticə bundan ibarətdir. Ona görə də hesab edirəm ki, bu məsələlər araşdırılmalıdır və ütün bu məsələlərə qayıtmalıyıq.

Bilirsiniz ki, Xocalı soyqırımı 1992-ci il fevralın 26-da olubdur. 1993-cü il fevral ayının 26-da bu soyqırımın birinci ildönümü idi, o yaranın hələ tamamilə qanlı vaxtı idi. Nə üçün bəs Xocalı soyqırımı günü elan olunmadı? Niyə! Bunun böyük tarixi əhəmiyyəti var, böyük siyasi əhəmiyyəti, böyük mənəvi əhəmiyyəti var. 1994-cü ildə 26 fevral ərəfəsində mən təklif verdim bizim Milli Məclisə. Milli Məclis qərar qəbul etdi və Xocalı soyqırımı, Xocalı faciəsi günü elan olundu. Bu gün bizim tariximizdə, bizim təqvimimizdə matəm günüdür, hüzn günüdür, faciə günüdür. Bunu biz qanunla qəbul etdik. Bunu bir ildən sonra etməyənlər də yəqin ki, həmin bu cinayətin iştirakçıları olublar ki, bunu etməyiblər. Buna sadəcə etinasızlıq kimi, yaxud diqqətsizlik kimi yanaşmaq olmaz. Əgər diqqətsizlik də varsa, bu qədər diqqətsizlik olarmı? Öz millətinin aqibətinə, millətinin taleyinə bu qədər də laqeydlik, biganəlik ola bilərmi? O adamlar indi orda-burda danışırlar, qəzetdə cürbəcür şeylər yazırlar, cürbəcür böhtanlarla məşğuldurlar. Bəzisi qaçıb Moskvada gizlənib, bəzisi, nə bilim, dağlarda gizlənib, bəzisi burada müxalifətdədir. Bu gün onların heç birisinin mənəvi haqqı yoxdur danışmağa.

Onların başdan-ayağa hamısı Azərbaycan xalqının qarşısında etdikləri cinayətə görə cavabdehdirlər, cavab verməlidirlər. Bu gün də cavab verməsələr, sabah verəcəklər.

1990-cı ildə Azərbaycan xalqının başına yanvar faciəsini gətirdilər. Yanvar faciəsində tökülən qanların üstündə vəzifələrə gəldilər. Sonrakı illərdə yanvar faciəsinin üstünü örtüb-basdırmaqla məşğul oldular. Bəli, yanvar faciəsinin üstünün də açılması haqqında təşəbbüsü Milli Məclisə 1994-cü il yanvarın əvvəlində mən – Azərbaycan prezidenti verdim. Bilirsiniz ki, 1994-cü ildə bu məsələ Milli Məclisin iclasında bir aydan çox müzakirə olundu. Amma 1990-cı ilin yanvarından 1994-cü ilin yanvarına qədər bu məsələnin üstü [365-366] örtülüb-basdırılmışdır, günahkarların adı yazılmamışdır, bir qərar qəbul edilməmişdir. Biz qərar qəbul etdik. Həmin dəst-xətdir – yanvar faciəsindən istifadə edərək vəzifələr tutdular, tökülmüş qanların üstünü örtdülər-basdırdılar. Ancaq tarix bunu açdı. Xocalı hadisəsindən, faciəsindən də istifadə edib hakimiyyətə gəldilər, faciənin üstünü örtüb-basdırmaq istədilər. İndi bu gün yenə də tarix bunu açır, açacaqdır tarix! Tarix açacaqdır, geci-tezi var. Gec olanda insanlarımız daha çox intizar içində olur, əziyyət içində olur. Amma bunu vaxtında edəndə hər bir insan da, xalq da mənəvi rahatlıq alır. Mənim fikrim belədir.

Bütün bunlarla yanaşı, mən bu gün bu görüşə gələrkən əsas fikrim, məqsədim, yəni ürəyimdə, qəlbimdə olan sözlər xocalıların dərdinə şərik olmaq idi. O dərd bizim millətimizin dərdidir, o kədər bizim millətimizin kədəridir, bu faciə bizim xalqımızın faciəsidir, bu matəm bizim xalqımızın matəmidir.

Mən bir daha xocalıların qəhrəmanlıq, rəşadət nümunələri qarşısında baş əyirəm, bütün xocalılara öz hörmət və ehtiramımı bildirirəm və bir daha bəyan edirəm ki, şəhidlərin qəhrəmanlığı heç vaxt unudulmayacaqdır, onların xalq, dövlət qarşısındakı xidmətləri bizim qəlbimizdə həmişə, daim yaşayacaqdır.

Mən bu gün bura çox ziddiyyətli fikirlərlə gəlmişəm, amma hamısının üstündə duran fikir bu qəm, kədər fikridir. Ona görə də, bəlkə məlumatım yoxdur, mən belə başa düşdüm ki, Xocalıda vuruşub qəhrəmanlıq göstərənlərdən bəziləri Milli Qəhrəman adı alıblar. Neçə nəfər Milli Qəhrəman adı alıb?

**Elman Məmmədov:** Üç nəfər.

**Heydər Əliyev:** Üç nəfər, başqa orden və medallarla təltif edilənlər olubdurmu?

**Elman Məmmədov:** Bir nəfər təltif olunubdur – həmin batalyonun həkimi Nağıyev Məmməd bu hadisədən sonra "Azərbaycan bayrağı" ordeni ilə təltif edilib, qalanları olmayıb. Amma təqdim olunmuş sənədlər var.

**Heydər Əliyev:** Mən hesab edirəm ki, biz orada fərqlənən adamları qiymətləndirməliyik və onları təltif etməliyik. Ona görə də mən sizə, icra hakimiyyəti başçısına, bizim aparata, Ramiz Mehdiyevə tapşırıram, oturun baxın, siz hamınız da buradasınız. Şübhəsiz ki, hamını təltif etmək mümkün deyil. Özünüz kimi hesab edirsiniz ki, bizim dövlət mükafatları ilə, ordenləri ilə təltif etmək lazımdır – təklif verin. Mən bunu etmək qərarını qəbul etmişəm, gözləyirəm ki, nə [366-367] vaxt sizin təklifləriniz gələcəkdir. Siz hamınız məsləhətləşərsiniz. Bu, elə şeydir ki, gərək oturub məsləhətləşəsiniz. Məsələn, bizim komandirlər, bu döyüşdə, başqa yerdə fərqlənənlər barədə təqdimat verirlər. Deyək ki, bu, döyüşdə fərqlənibdir, ona görə təltif edirik. İndi bu hadisənin üstündən dörd il keçibdir. Ancaq siz hamınız bu hadisənin iştirakçısısınız, özünüz bilirsiniz kimlər təltif oluna bilər. Mən hesab edirəm ki, bir qrup adam təltif olunmalıdır. Mən sizdən bu barədə təkliflər gözləyirəm. Siz nəsə demək istəyirsiniz? Buyurun.

**Səttar Ağayev (Xocalı sakini, iki şəhid atası):** Mənim iki oğlum şəhid olub, o meyitlərin heç birini də tapıb gətirə bilməmişəm. Məndən müsahibə götürüblər, geniş danışmışam, ancaq çox az yazıblar. Milli Orduda olan oğlum dörd dəfə mühasirədə yaralanıb, Ağdam hərbi xəstəxanasına gətirilib, oğlumun heç yerdə, heç bır qəzetdə adı çəkilməyibdir. Xahiş edirəm, jurnalistlər mənimlə ətraflı söhbət etsin, onlara nə cür lazımdırsa, dərdimi deyim.

**Heydər Əliyev:** Yaxşı, mən hesab edirəm ki, birincisi, bugünkü görüşümüz televiziya ilə veriləcək, ikincisi də bu görüşü, bu çıxışların hamısını başdan-ayağa qəzetdə dərc edin və təkcə ayın 25-26-sı deyil, bundan sonra da ümumiyyətlə, Xocalı soyqırımı, Xocalı faciəsi ilə əlaqədar mətbuatda, televiziyada ardıcıl verilişlər verin. Qoy insanlar gəlsinlər, öz təəssüratlarını danışsınlar. Məsələn, bu kişi deyir ki, iki oğlu həlak olubdur. Qoy gəlsin danışsın, bunun dərdini eşitsinlər, bunun özü də müəyyən mənəvi təskinlik alacaqdır. İndi belələri çoxdur, hamı ola bilər. Ona görə də mən ümumi göstəriş verirəm və bu, olacaqdır, mətbuatda da ardıcıl getməlidir, bizim televiziya və radioda da verilməlidir. Bir də deyirəm, ağsaqqallar, vəzifəli adamlar, hamınız birlikdə oturun məsləhətləşin bu işi. Son gündə o prosesdə olan adamları, fərqlənən adamları, layiqli adamları təqdim edin, mən prezident kimi orden və medallarla təltif etməyə hazıram. Əgər o vaxt çox böyük qəhrəmanlıq göstəriblər, lakin onların xidməti unudulubsa, Milli Qəhrəman adı verməyə də hazıram, bunları etməyə hazıram. Yəni, "hazıram" deyəndə, bu, mənim borcumdur. Çünki o qəhrəmanlar özləri buna layiqdirlər. Mən bunu da təklif edirəm.

Siz nə istəyirsiniz? Buyurun.

**Lətif Məmmədov (Əlif Hacıyevin atası):** [367-368]

Yoldaş prezident, mənim iki oğlum həlak olubdur. Biri Milli Qəhrəman Əlif Hacıyev mənim oğlumdur, bir oğlumu da öz gözümün qabağından ermənilər Xocalıda nə günə qoyub, mən bunun şahidiyəm. Özüm də orada əsir düşmüşəm, 64 gün qalmışam, Şuşanın ən uca kəndi Böyük Tağlarda. Elman müəllim özü bilir, 1992-ci il aprel ayının 24-də məni əsirlikdən dəyişiblər, gəlmişəm. Mənim Milli Qəhrəman olan oğlumun məzarı

buradadır. Şəhidlər xiyabanındadır, amma o biri oğlumu elə orada öz gözümün qabağında nə günə saldılar... Harada qaldı, nə oldu – heç bir məlumat yoxdur. Mənim vəziyyətim budur.

**Heydər Əliyev:** Adınız nədir?

**Lətif Məmmədov:** Məmmədov Lətif Süleyman oğlu.

**Heydər Əliyev:** Lətif müəllim, mən sizin dərdinizə tam şərikəm. Qəhrəman oğullar yetişdirdiyinizə görə sizə təşəkkür edirəm. Sizin oğlanlarınızın qəhrəmanlığı bizim xalqımızın şan-şöhrətidir. Dərdiniz böyükdür, amma eyni zamanda siz fəxr edə bilərsiniz ki, belə övladlar yetişdirmisiniz. Sizin böyük mənəvi haqqınız var. İndi sizin dediyiniz sözlə əlaqədar nə etmək, nə tədbir görmək lazımdırsa görək.

Bir daha bu hüzn günü ilə bağlı, Xocalı faciəsi ilə əlaqədar mən bütün həlak olanlara Allahdan rəhmət diləyirəm. Bütün xocalılara Allahdan səbir diləyirəm. Şikəst olanlara, əlil olanlara Allahdan daha çox cansağlığı diləyirəm. Əmin ola bilərsiniz ki, bundan sonra da xocalılara qayğının artması üçün öz tərəfimdən əlimdən gələni edəcəyəm.

Burada çıxışlarda mənə aid, hesab edirəm ki, ürəkdən gələn sözlər deyildi. Onlara görə təşəkkür edirəm. Eyni zamanda sizin bu sözlərinizi dinləyərək dərk edirəm ki, hər bir belə söz mənim üzərimə böyük məsuliyyət qoyur. Şübhəsiz ki, mən Azərbaycan Respublikasının prezidenti vəzifəsini öz Üzərimə götürərək məsuliyyətimi hiss edirəm, daim hiss edirəm. O gün, o dəqiqə yoxdur ki, mən xalqımın qarşısında, millətimin qarşısında, Vətən qarşısında öz məsuliyyətim haqqında düşünməyim. Amma hər dəfə belə görüşlər zamanı, xüsusən sizin kimi adamların böyük ümidlərlə mənə müraciət etdiyi halda mən öz məsuliyyətimi daha da kəskin hiss edirəm və dərk edirəm.

Əmin ola bilərsiniz ki, bütün varlığımı, təcrübəmi, biliyimi, həyatımı Azərbaycan xalqının belə ağır vəziyyətdən çıxmasına [368-369] həsr edirəm, bundan sonra da həsr edəcəyəm, Azərbaycan xalqının xoşbəxt gələcəyə çıxmasına həsr edəcəyəm. Ümidvaram ki, biz qarşımızda qoyduğumuz məqsədlərə nail olacağıq. Mən nəinki bu ümidlərlə yaşayıram, bu ümidlərin çin olması üçün, bu ümidlərin həyata keçməsi üçün gecə-gündüz fəaliyyət göstəririrəm.

Sağ olun, bu görüş nə qədər kədərli olsa da, eyni zamanda o qədər də mənalıdır, o qədər də böyük iftixar hissi doğurur. Bu görüşə görə sizə təşəkkür edirəm. Sağ olun. [369-370]

## BİRİNCİ RESPUBLİKA SƏRGİ-YARMARKASININ AÇILIŞINDA ÇIXIŞ

*Səttar Bəhlulzadə Adına Sərgi Salonu*

*27 fevral 1996-cı il*

Bu sərginin açılması münasibətilə mən öncə sərginin iştirakçılarını təbrik etmək istəyirəm. Burada həqiqətən çox böyük sərgi nümayiş etdirilir. Onun əhəmiyyəti də bundadır ki, buradakı əl işləri, əsərlər ayrı-ayrı insanların fəaliyyəti nəticəsində meydana gəlmişdir. Mən sərgiyə sidq-ürəkdən baxarkən hiss etdim ki, burada öz işlərini təqdim edən adamlar heç də peşəkar deyillər, hərəsi sadəcə olaraq özünə xas olan bir sənəti seçib, bundan istifadə edərək çox dəyərli, hesab edirəm ki, çox gözəl, yaxşı işlər yaradıblar.

Bu, çox sevindirici haldır. Bu, xalqımızın, millətimizin daxilində olan böyük imkanları, xalqımızın istedadlı olmasını nümayiş etdirir. Xalqımızda böyük istedadlar var. Bu istedadlar bəzən çox yüksək səviyyəyə qalxıb peşəkar sənət əsərləri yaradırlar. Amma bəzən də bu istedadlar özlərini ifadə etmək üçün lazımi qədər imkan olmadığına görə qapalı qalırlar. Belə sərgilər, belə imkanlar həmin istedadların daha da inkişaf etməsinə kömək edir. Bu, çox xeyirxah, çox əhəmiyyətli işdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bu təşəbbüsünü bəyənir və yüksək qiymətləndirirəm. Hesab edirəm ki, belə təşəbbüsləri davam etdirmək lazımdır. Bir də deyirəm, xalqımızın içərisində çox böyük istedadlar var və onların özlərini ifadə edə bilmələri üçün imkan yaratmaq lazımdır. Belə sərgilər bu cür imkanları yaradır, insanları həvəsləndirir, istedadların geniş büruzə verilməsi üçün şərait yaradır.

Mən bu sərgidə nümayiş etdirilən işlərin hamısını yüksək qiymətləndirirəm. Hərə öz istedadını imkanları dairəsində ifadə edibdir. Hər bir iş dəyərlidir – kiçiyi də, böyüyü də. Ola bilər, kiminsə, biri xoşuna gəlsin, kiminsə başqası xoşuna gəlsin, amma mənim xoşuma hamısı gəlir, hamısı məni sevindirir. Bir də deyirəm, insanların belə imkan əldə etməsi çox əhəmiyyətlidir. [370-371]

Doğrudan da, bizim adamlar bəzən işsiz qalarkən belə işlərlə məşğul olanda həm özləri boş qalmayacaqlar, gördükləri işlərin nəticəsi onlara mənəvi qida verəcək. Eyni zamanda bu işləri nümayiş etdirib, sonra isə sataraq özləri üçün qazanc əldə edə biləcəklər. Burada nümayiş etdirilən işlərin tam əksəriyyəti lap mötəbər ticarət mərkəzlərində satıla bilər, onların həvəskarları, alıcıları da ola bilər. Ona görə də bunlar hamısı birlikdə, kompleks şəkildə böyük bir iş nümayiş etdirir.

Təbrik edirəm. Burada işlərini nümayiş etdirən vətəndaşlarımıza bundan sonra da öz istedadlarını ifadə etmək üçün uğurlar arzulayıram. Nazirliyə tövsiyə edirəm ki, bu işlə daha geniş məşğul olsunlar və insanları buna cəlb etsinlər. Bunlar hamısı birbaşa bizim mədəniyyətimizlə, incəsənətimizlə bağlıdır. Mədəniyyətimizin, incəsənətimizin, mənəviyyatımızın bir hissəsidir. Bunu yüksək qiymətləndirmək lazımdır. Bu fikirlərlə, bu işlərə olan hörmətlə də mən bu gün sərgiyə gəlmişəm və bu hisslərlə də hamınızı təbrik edirəm. [371-372]

## BAKIDA RUSİYA FEDERASİYASI SƏFİRLİYİNİN TİKİLMƏKDƏ OLAN KOMPLEKSİNİN BÜNÖVRƏSİNƏ İLK DAŞ QOYULMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*27 fevral 1996-cı il*

Hörmətli səfir, möhtərəm xanımlar və cənablar!

Mən bugünkü hadisəyə böyük əhəmiyyət verirəm. Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi üçün kompleksin bünövrəsi qoyulur. Bu, hər şeydən əvvəl, Azərbaycan Respublikasının dövlət suverenliyim və müstəqilliyini aydın və dəqiq bir şəkildə nümayiş etdirir. Azərbaycan Respublikası xarici dövlətlərin səfirlərini qəbul edir, onların səfirliklərinin fəaliyyəti üçün şərait yaradır və bununla da bütün ölkələrlə öz qarşılıqlı münasibətlərini bərabərlik əsasında, suverenlik, dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında qurur. Azərbaycanda Rusiya səfirliyinin olması bunun konkret təsdiqidir.

Azərbaycan dövlət müstəqilliyi, suverenlik əldə etdiyi vaxtdan bəri respublikada səfirliklər, o cümlədən də Rusiya Federasiyasının səfirliyi yaradılmağa başlanmışdır. Rusiya səfirliyi fəaliyyət göstərir, Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin təşəkkül tapmasında və inkişafında yaxından iştirak edir və zənnimcə, həm Rusiya üçün, həm də Azərbaycan üçün bu nəcib və çox gərəkli işə layiqli töhfə verir. Lakın səfirliyin daha yaxşı, daha səmərəli işləməsi üçün, böyük Rusiya dövlətini ictimaiyyətə, bütün dünyaya nümayiş etdirməsi üçün, onun fəaliyyəti üçün müvafiq, bu dövlətin səviyyəsinə cavab verən şəraiti olmalıdır. Əslinə baxsan, bu gün həmin şəraiti yaratmaq üçün mühüm addım atılır.

Biz Bakının gözəl və mərkəzi yerlərindən birində, bakılıların çox sevdikləri bir yerdəyik. Bundan sonra burada Rusiya Federasiyası səfirliyinin kompleksi yerləşəcəkdir. Bu yeri onun nümayəndələrinin özləri seçmişlər. Biz də buranın səfirlik üçün ayrılmasına məmnuniyyətlə razılıq vermişdik. Kompleksin yaradılması sahəsində qarşıda çox Döyük iş durur. Mən qarşıdakı tikintinin prospektinə, planına ötəri nəzər saldım. Tikinti yaxşı təsir bağışlayır. Düşünürəm ki, gələcək kompleks [372-373] Rusiya Federasiyasını burada, Bakıda, Azərbaycanın paytaxtında layiqincə nümayiş etdirəcək, təmsil etdirəcəkdir.

İstərdik ki, ictimaiyyətin nümayəndələrinin, Rusiya səfirliyi əməkdaşlarının və bu kompleksin tikintisini, özlərinin dedikləri kimi, 18 aya başa çatdırmağa söz verən Türkiyə firması nümayəndələrinin iştirakı ilə başlanan iş müəyyən edilmiş müddətdə, yaxşı və keyfiyyətlə yerinə yetirilsin.

Bayaq dedim ki, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi müvəffəqiyyətlə, səmərəli suratdə işləyir, Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə fəal kömək edir. Güman etmək olar ki, kompleks tikilib istismara verildikdən sonra səfirlik coşqun fəaliyyət üçün daha böyük imkanlar qazanacaqdır. Bunda həm Rusiya Federasiyası maraqlıdır, həm də Azərbaycan maraqlıdır. Rusiya dünyanın ən iri dövlətidir, böyük ölkədir. O, Azərbaycanın yaxın qonşusu və bizə dost ölkədir. Azərbaycan ilə Rusiya arasında, rus və Azərbaycan xalqları arasında sıx dostluq münasibətləri mövcud olmuş və mövcuddur. On illər və əsrlər boyu bu münasibətlər Azərbaycan xalqına və təbii olaraq, Rusiya xalqlarına fayda gətirmişdir. İndi bu münasibətlər prinsipcə yeni əsasda qurulur. Müstəqil Rusiya dövləti, müstəqil Azərbaycan Respublikası öz münasibətlərini əvvəlki dövrdə toplanmış nə varsa onların əsasında, xoş, qiymətli, yaxşı, müsbət hallar əsasında qururlar. Buna görə də biz Rusiya ilə Azərbaycan arasında bütün istiqamətlərdə münasibətlərin möhkəmlənməsi və inkişafı üçün hər şey edirik və edəcəyik.

Dövlətlərarası münasibətlərimizin bugünkü səviyyəsi dostluq, tam qarşılıqlı anlaşma, qarşılıqlı, mehriban əməkdaşlıq xarakteri daşıyır. Lakin mən hesab edirəm ki, biz malik olduğumuz nə varsa hamısını zənginləşdirmək, genişləndirmək və inkişaf etdirmək üçün səy göstərməliyik. Mən yanvarda Moskvada olarkən Rusiya prezidenti hörmətli Boris Nikolayeviç Yeltsin ilə çox ətraflı söhbət etdim. Biz Rusiya ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərin daha da genişləndirilməsi məsələlərini müzakirə etdik və münasibətlərimizin daha da genişləndirilməsi ilə bağlı prinsipial məsələlərdə ümumi rəyi və tam yekdilliyi qeyd etdik. Rusiyanın baş naziri Viktor Stepanoviç Çernomırdin, xarici işlər naziri Yevgeni Maksimoviç Primakov, Rusiya Federasiyasının digər rəhbərləri ilə görüşlərim, söhbətlərim çox faydalı və səmərəli [373-374] oldu. Hesab edirəm ki, indiki mərhələdə bu görüşlər, söhbətlər ikitərəfli münasibətlərimizin daha da inkişaf etməsi və dərinləşməsi üçün yaxşı zəmin idi. Biz bunların hamısını yüksək qiymətləndiririk. Şəxsən mən Moskvada keçirdiyim söhbətlərdən, görüşlərdən çox məmnunam. Odur ki, əsas məsələlər barəsində əldə olunmuş razılaşmanın əməli təcəssümünü tapması üçün öz tərəfimdən hər şey edirəm və edəcəyəm.

Bununla əlaqədar Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin, Azərbaycanın Rusiyadakı səfirliyinin fəal işi çox böyük əhəmiyyətə malikdir. Biz Rusiyanın Azərbaycandakı səfirliyinin öz vəzifəsini müvəffəqiyyətlə yerinə yetirməsi üçün hər cür şərait yaratmışıq və bunu gələcəkdə də edəcəyik. Bu gün Rusiya Federasiyasının Azərbaycandakı səfirliyi üçün iri bir kompleksin bünövrəsini qoymaq üçün buraya

yığışmağımız bunun sübutudur. Əminəm ki, gələcək nəsillər bu gün baş verənlərin hamısını minnətdarlıqla qiymətləndirəcəklər. Bu gün nəinki kompleksin bünövrəsini, həm də Rusiyanın Azərbaycandakı səfirliyinin fəaliyyəti üçün, Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsi üçün daha əlverişli şəraitin bünövrəsini qoyur.

Sizi bu hadisə münasibətilə təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu kompleksin tikintisinə girişən Türkiyə firması öz öhdəliklərini layiqincə yerinə yetirəcək və 18 aydan, – bu isə o qədər də çox müddət deyil, – sonra biz tikilmiş kompleksin açılış mərasimində iştirak edə biləcəyik.

Bir daha təbrik edirəm. Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinə öz fəaliyyətində uğurlar arzulayıram. Rus xalqına səadət və tərəqqi arzulayıram. Rusiya Federasiyasına ən yaxşı arzularımı bildirirəm. İndi Rusiya qarşısında demokratik, hüquqi dövlət quruculuğu, demokratik cəmiyyət yaradılması, iqtisadi islahatlar aparılması, ölkənin böhran vəziyyətindən çıxarılması sahəsində olduqca böyük vəzifələr durur. Mən inanıram ki, rus xalqının, Rusiya xalqlarının, Rusiya dövləti rəhbərliyinin iradəsi bu yolda müvəffəqiyyətin rəhni və zəminidir. Bir daha təbrik edir, səadət və firavanlıq arzulayıram! [374-375]

## "AZƏRSUTİKİNTİ" DÖVLƏT KONSERNİNİN KOLLEKTİVİNƏ

Hörmətli melioratorlar!

Sizi, Azərbaycan Respublikası melioratorlarının çoxminli kollektivini 50 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanda suvarma əkinçiliyi mədəniyyətinin yüksəldilməsində sizin kollektivin böyük əməyi vardır. Bunun sayəsindədir ki, respublikamızda istehsal edilən kənd təsərrüfatı məhsulu həcminin 90 faizdən çoxu suvarılan torpaqların payına düşür.

1970-80-ci illərdə irriqasiya və meliorasiya obyektlərinin böyük vüsət almış tikintisində göstərdiyiniz əmək rəşadəti xüsusilə yüksək qiymətə layiqdir. Bu illər ərzində torpaqların irriqasiya və meliorasiya tikintisinə respublikada böyük kapital qoyuluşu hesabına çoxsaylı əsas fondlar, 270 min hektar yeni suvarılan sahələr istifadəyə verilmiş, 550 min hektar sahədə kompleks meliorativ işlər görülmüşdür.

Ölkəmizdə kənd təsərrüfatının inkişafı üçün son dərəcə böyük əhəmiyyət kəsb edən Ağstafaçay, Xanbulançay, Tərtərçay, Viləçay, Əyriçay, Arpaçay, Vayxırçay və onlarca müxtəlif həcmli su anbarları, Əzizbəyov kanalı və Tovuz rayonunda Kür çayı üzərində güclü nasos stansiyaları, Lənkərançay və Arpaçay suqəbuledici qurğuları, Baş Mil Və Baş Şirvan magistral kanalları, Əlincəçay, Şəmkir suvarma sistemləri, Baş Şirvan, Baş Mil-Muğan kollektorlarının və yüzlərlə mürəkkəb hidrotexniki qurğuların tikintisi bütün melioratorların gərgin əməyinin bəhrəsidir. Əkinçiliyin əsas mənbəyi sayılan Kür-Araz ovalığındakı şoran torpaqların meliorasiyası sahəsindəki xidmətləriniz əvəzsizdir. Siz eləcə də bir çox şəhər, kənd və qəsəbələrimizdə sosial obyektlər tikintisinin və abadlıq işlərinin aparılmasının fəal iştirakçısı olmusunuz.

Mülkiyyət formalarından asılı olmayaraq respublikada tor[375-376]pağın münbitliyi məsələsi dövlətin həmişə diqqət mərkəzində olacaqdır. Odur ki, müstəqil Azərbaycanın qarşısında duran sosial-iqtisadi problemlərin həll edilməsində sizin üzərinizə daha mühüm vəzifələr düşür. Əminəm ki, müstəqil respublikamızın inkişafı naminə siz bundan sonra da böyük əzm və yaradıcılıqla çalışacaqsınız.

Yarıməsrlik yubileyiniz münasibətilə bir daha hamınızı təbrik edir, sizə həyatda xoşbəxtlik, cansağlığı və şərəfli işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*29 fevral 1996-cı il* [376-377]

## ATƏT-in SƏDRİ, İSVEÇRƏNİN XARİCİ İŞLƏR NAZİRİ FLAVİO KOTTİ İLƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*29 fevral 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli mətbuat nümayəndələri!

Siz bu gün ATƏT-in Azərbaycana gəlmiş indiki sədri, İsveçrənin xarici işlər naziri cənab Kotti ilə və nümayəndə heyətinin üzvləri ilə görüşümüzün çox hissəsində olmusunuz və danışıqlarımızdan xəbəriniz var. Buna baxmayaraq, əvvəldən nəzərdə tutulduğu kimi, sizin qarşınıza gəlmişik və suallarınıza cavab verməyə hazırıq.

Ancaq öncə onu bildirmək istəyirəm ki, biz çox səmərəli söhbət apardıq. Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması barədə ətraflı müzakirələr oldu. ATƏT-in sədri sabah Ermənistana gedəcəkdir. O Azərbaycana, ümumiyyətlə bizim regiona ilk dəfə gəlibdir. O, Ermənistanın rəhbərləri ilə də danışıqlar aparacaqdır. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu danışıqlar nəticəsində ATƏT və onun tərkibində olan Minsk qrupu məsələlərin sülh yolu ilə həlli üçün yeni bir addım atılması qərarına gələcəkdir.

Bu məsələnin həlli üçün bizim şərtlərimizi mən həm cənab sədrə, nazirə, həm də bütün nümayəndə heyətinə bildirmişəm. Sonra aparılan danışıqlarda və xüsusən ikimizin arasında gedən təkbətək söhbətdə bu məsələləri daha konkret, daha dəqiq araşdırmışıq və mən öz mövqelərimizi bildirmişəm. Bizim əsas mövqeyimiz ondan ibarətdir ki, bütün sazişlər, qərarlar Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında qəbul oluna bilər. Təəssüf ki, Ermənistan tərəfi indiyə qədər Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Şübhəsiz ki, belə halda istənilən sazişi əldə etmək çox çətindir. Ona görə də biz bu məsələlər üzərində çox ətraflı dayandıq. İşğal edilmiş ərazilərdən, o cümlədən Laçın və Şuşa rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılması [377-378] bizim əsas şərtimizdir. Biz Dağlıq Qarabağın əhalisinə Ermənistanla əlaqə üçün Laçın rayonu ərazisində beynəlxalq qüvvələrin nəzarəti altında tranzit zona verilməsinə də öz razılığımızı bildirdik. Ancaq şübhəsiz ki, Laçın rayonu işğalçılardan azad olunmalıdır.

Ermənistan tərəfini maraqlandıran əsas məsələlərdən biri – Dağlıq Qarabağda ermənilərin təhlükəsizliyinin təmin edilməsi barədə də biz prinsipial mövqeyimizi bildirmişik və buna zəmanət veririk. Dağlıq Qarabağa Azərbaycanın tərkibində, Azərbaycanın bir hissəsi olaraq yüksək status verilməsi haqqında əvvəl bəyan etdiyimiz mövqeyimizi təsdiq etdik.

Bunların nə cür, nə yolla həyata keçirilməsi haqqında cənab nazir, ATƏT-in sədri ilə bizim aramızda çox səmərəli, əhəmiyyətli söhbətlər olmuşdur.

**Sual: Mənim sualım cənab Flavio Kottiyədir. Sizdən əvvəl burada səfərdə olan Amerika diplomatı Pressel və siz bildirmisiniz ki, problemin həllinin açarı sizin əlinizdə deyil, əsas məsələ tərəflərin siyasi iradəsindən asılıdır. Beləliklə, ATƏT əslində bu prosesin kənar, passiv müşahidəçisi mövqeyi tutur. Lakin bizə elə nümunələr məlumdur ki, beynəlxalq birlik istədikdə ən mürəkkəb problemləri həll edir. Məsələn, Yuqoslaviyada və İsraildə olduğu kimi. Sizin fikrinizi bilmək maraqlıdır: necə bilirsiniz, bu münaqişədə, indiki halda ATƏT nə üçün belə passiv mövqe tutur və sizcə tərəflərin bərabər məsuliyyət daşıması prinsipi, – halbuki Ermənistanın təcavüzkar, Azərbaycanın isə təcavüzün qurbanı olması hamıya çoxdan bəllidir, – məsələnin həlli yolunda irəliləməyə mane olmurmu? Beynəlxalq birlik bu faktı nə üçün qəbul etmir, buna nə mane olur?**

**F. Kotti:** Əvvəlcə onu demək istəyirəm ki, mənim burada olmağım faktının özü ATƏT-in bu münaqişəyə çox ciddi yanaşdığını göstərir. Zənnimcə, Minsk qrupunun bir neçə il ərzindəki yaxşı işi də göstərir ki, ATƏT həqiqətən münaqişənin aradan qaldırılması ilə ciddi məşğul olmaq istəyir. Əvvəl dediyimi bir də təkrar edirəm: münaqişənin qəti şəkildə aradan qaldırılmasına kömək etmək üçün biz bundan sonra da xidmətimizi əsirgəməyəcəyik. Zənnimcə, mən cənab prezidenti buna inandıra bilmişəm, ümidvaram ki, sizi də əmin edə bilə[378-379]rəm. Bununla belə, mən həqiqətən təsdiq etmək istəyirəm ki, dünyanın hansı nöqtəsində olursa-olsun, münaqişələrin aradan qaldırılmasında beynəlxalq ictimaiyyət öz rolunu oynaya bilər, lakin məsələnin qəti həllinə məhz tərəflər özləri gəlib çıxmalıdırlar. Bosniyadakı vəziyyət məni çox narahat edir. Bilirəm ki, beynəlxalq birlik orada rol oynayır və bundan sonra da oynayacaqdır. Lakin orada da sülhə məhz tərəflər özləri nail olmalıdırlar.

**Sual: Mənim sualım həm Azərbaycan prezidentinə, həm də cənab Kottiyədir. Cənab Kotti, Amerika diplomatı cənab Pressel cənab prezidentlə görüşü zamanı bildirdi ki, əgər qarşıdakı aylar ərzində Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmasa, biz ən**

**azı bir-iki il itirmiş olarıq. Bu fikirlə razısınızmı və ümumiyyətlə, sizin fikrinizcə, qarşıdakı aylar doğrudanmı bu qədər əhəmiyyətlidir?**

**F. Kotti:** Mən cənab Presselin fikri ilə razıyam. Zənnimcə, ümumiyyətlə bu məsələnin həll edilmədiyi hər ay itirilən vaxt deməkdir. Mən əminəm ki, bu məsələnin həllinə nail olmaq üçün qəti fikrə gəlməkdən ötrü zəmin var.

**Sual: Cənab prezident, Presselin fikrinə münasibətinizdə siz bildirdiniz ki, indiki şərait öz-özünə yaranmamışdır və qarşıdakı aylar ərzində biz qanunauyğun nəticəni əldə etməliyik. Bu nəticəni əldə etmək ehtimalı və Presselin narahatlığının, iraq olsun, uğursuzluğu ehtimalı nə qədər realdır.**

**H. Əliyev:** Sizin sualınız bizə qaranlıqdır. Nəyin ehtimalı?

**Müxbir: Qarşıdakı aylar ərzində uğursuzluğun ehtimalı.**

**H. Əliyev:** Hansı uğursuzluğun?

**Müxbir: Presselin dediyi kimi, birdən qarşıdakı aylar ərzində yaxşı nəticələr əldə olunmaya bilər.**

**H. Əliyev:** Presselin dediyi sözlər, şübhəsiz ki, nəzərə alınmalıdır. Qarşıdan gələn aylar çox həlledici aylardır, biz də istəyirik ki, nəticə əldə edilsin. Ancaq mən onunla razı deyiləm ki, əgər qarşıdan gələn aylarda nəticə əldə etməsək, bu məsələ uzun müddət təxirə düşə bilər. Mən bununla razı deyiləm.

**Sual: Münaqişənin aradan qaldırılması ilə bağlı** [379-380] **təkliflərin müəllifi kimdir? Laçın tranzit zonasını kim qoruyacaq? Orada Ermənistan silahlı qüvvələrinin olması mümkündürmü? Dünyada belə bir şey varmı ki, bir dövlətin daxilində iki milli ordunun qüvvələri olsun?**

**F. Kotti:** Mən həmin məsələyə indiki halda cavab verə bilmərəm. Bütün bunlar uzun müddət danışıqlarda müzakirə olunan siyasi sazişin məzmununu təşkil etməlidir. Biz xeyli vaxtdır ki, ATƏT-də bu prosesə kömək göstəririk. Burada da məhz beynəlxalq sülhü mühafizə qüvvələrinin yerləşdirilməsindən söhbət gedir. Yenə deyirəm, bütün bu məsələlər qəti qərarda əksini tapmalıdır.

**Sual: Cənab sədr, siz bu gün bir neçə dəfə dediniz ki, münaqişənin aradan qaldırılmasının başlıca prinsipi Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Azərbaycan öz tərkibində Dağlıq Qarabağa yüksək status verməyə hazırdır. Dediniz ki, ATƏT-in nümayəndə heyəti ona görə buradadır ki, problemin həllinə öz xidmətini göstərsin. Elə isə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasında ATƏT-in və onun Minsk qrupunun xidməti nədən ibarət olacaqdır?**

**F. Kotti:** Bir kəlmə ilə deyə bilərəm ki, biz məhz bu istiqamətdə danışıqlar aparırıq. Cənab prezidentin indicə dediyi kimi, mən sabah Ermənistanda olacağam və məhz belə məsələləri Ermənistan tərəfi ilə müzakirə edəcəyəm. Burada da, Minsk qrupunda da işimizin məqsədi belə konkret məsələləri, o cümlədən Azərbaycanın ərazi bütövlüyü məsələsini müzakirə etməkdir.

**Sual**: **Yəni Ermənistan rəhbərliyi ilə görüş müzakirə xarakteri daşıyacaqdır. İki ildir ki, Ermənistanın belə mövqe tutması problemin həllinə mane olur. Siz hansı tədbirlər görmək niyyətindəsiniz? Mən müzakirələri deyil, konkret tədbirləri nəzərdə tuturam.**

**F. Kotti:** Mən yalnız təkrar edə bilərəm: bu məsələnin son dərəcə mühümlüyünü başa düşürəm. Lakin bilirsiniz ki, mən hələ Ermənistan rəhbərliyi ilə görüşməmişəm. Hesab edirəm ki, onlarla görüşməmiş indidən deyə bilmərəm ki, danışıqlarımızın məzmunu necə olacaqdır. ATƏT-ə gəldikdə isə bu məsələ ilə bağlı onun özünün hansısa iri addımlar ata biləcəyi barədə xülyalara qapılmaq lazım deyildir. İstəyirəm, [380-381] ATƏT-də qərarların qəbul olunması qaydasını sizə bir qədər aydınlaşdırım. Yəqin bilirsiniz ki, ATƏT-də hər hansı qərarın qəbul olunmasına onun bütün üzvləri razılıq verməlidirlər. Belə olan halda ATƏT-in səmərəliliyinin səviyyəsi bütünlüklə üzv ölkələrin buna nə dərəcədə hazır olmalarının səviyyəsindən asılıdır. Elə ATƏT-in də rolu ilk növbədə məhz siyasi diplomatik ünsiyyətlər yaratmaqdan, aradan qaldırılmasının vaxtı çoxdan yetişmiş münaqişələrə son qoyulmasında irəliləyişə nail olmaqdan ibarətdir.

**Sual: Mənim sualım cənab prezidentə və cənab Kottiyədir. Siz qeyd etdiniz ki, 1996-cı il münaqişənin aradan qaldırılmasında həlledici il olmalıdır. Bəs 1994-cü ildə ATƏT-in Zirvə görüşündə qəbul olunmuş qərar 1995-ci ildə niyə həyata keçirilmədi? Bu, nə ilə bağlıdır – Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ilə, yoxsa vasitəçilərin fəaliyyətinin zəifliyi ilə?**

**H. Əliyev:** Həm Ermənistan tərəfin qeyri-konstruktiv mövqeyi ilə, – mən bu gün qonağımızla danışıqlar zamanı da bunu demişəm, bir də deyirəm, əgər Ermənistan tərəfi normal, konstruktiv mövqe tutsa idi, məsələləri həll etmək olardı. Çünki bizim şərtlərimiz tam ədalətli şərtlərdir. Ermənistan təcavüzkardır, torpaqlarımızı işğal edib, bu torpaqlardan çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bunları etmədiyinə görə məsələ həll oluna bilmədi, – həm də, şübhəsiz ki, vasitəçilik edən ölkələrin və ATƏT-in Minsk qrupunun bu sahədə lazımınca təsirli tədbirlər görə bilməməsi ilə bağlıdır.

**F. Kotti:** Mən yalnız təkrar etmək istəyirəm: biz həqiqətən istəyirik ki, 1996-cı il bu prosesdə dönüş ili olsun. Əslində 1994, 1995-ci illərdə də istəyirdik ki, o illər həlledici olsun. Bunu sözlə demək asandır. Lakin belə arzuların qəti şəkildə reallaşması Minsk qrupu da daxil olmaqla bütün əlaqədar tərəflərin intensiv səylərindən asılı olacaqdır. Bu məsələdə Minsk qrupunun rolu mühümdür, daha doğrusu, bununla məşğul olmaq üçün onun mandatı var.

**Sual: Sualım cənab sədrədir. Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinə dair hazırlanmaqda olan sazişə "qalib tərəflə məğlub tərəf arasında saziş" deyil, ATƏT-in prinsipləri əsasında bərabər hüquqları olan tərəflərin sazişi xarakteri vermək üçün hansı təshihlər edilə bilər?** [381-382]

**F. Kotti:** Mən hər hansı gələcək sazişin konkret məzmununu indi burada müzakirə etmək imkanından məhrumam. Yalnız onu deyə bilərəm ki, istənilən konkret qərar münaqişəyə cəlb olunmuş bütün tərəflərin mənafeyini əks etdirməlidir. Belə təfərrüatları isə tərəflər arasında real, əməli danışıqlar zamanı aydın olacaqdır. İndiki halda isə hansısa gələcək layihələrin cəhətlərini müzakirə etməyə sadəcə ixtiyarım yoxdur və müzakirə edə bilmərəm.

**H. Əliyev:** Mən əlavə edə bilərəm ki, Azərbaycan bütün bu danışıqlarda və hazırlanan sazişdə heç də özünü məğlub olmuş tərəf kimi hiss etmir. Biz bərabər hüquqlu ölkəyik. Beynəlxalq hüquq normaları əsasında öz hüquqlarımızın təmin olunmasını tələb edirik və bu cür də danışıqlar aparırıq.

**Sual: Mənim sualım cənab Kottiyədir. Siz birinci dəfədir ki, bizim gözəl Vətənimizə gəlmisiniz. İcazə verin sizi torpağımızda salamlayım və bu işinizdə uğurlar arzulayım. Yəqin ki, bu az müddətdə xalqımızla tanış ola bilmisiniz. Xalqımız sülhsevərdir, öz Vətənini, diyarını sevən xalqdır. Ona heç bir başqa torpaq lazım deyildir. Bizə məlumdur ki, siz buradan birbaşa Yerevana gedirsiniz. Bilmək istərdim, Azərbaycanda olan bir milyondan artıq qaçqınlarla görüşmək səfər proqramınıza daxildirmi? Əgər onlarla görüşsəniz, çadırlarda yaşayan bu adamlar sizə çox şey danışarlar, onlar sizdən çox şey gözləyirlər. Belə olan halda siz daha ətraflı məlumat ala bilərsiniz.**

**F. Kotti:** Bilirsiniz, mənim vaxtım azdır, sabah axşam evdə olmalıyam. Təklifiniz yaxşıdır, lakin ATƏT-in indiki sədrinin taleyi belədir. O, bu gün burada, sabah başqa ölkədə olur. Mənim həyatım bax, belədir. Əlbəttə, istərdim ki, burada 24 saat deyil, daha çox qalım. Lakin mümkün olmur. Qaçqınlara gəldikdə isə, – hiss etdim ki, onlarla sizin əlaqəniz var, – xahiş edirəm onlara çatdırasınız ki, onların vəziyyətinə ürəkdən acıyıram.

**H. Əliyev:** Sağ olun. [382-383]

## RESPUBLİKA HÜQUQİ İSLAHAT KOMİSSİYASININ İLK İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*4 mart 1996-cı il*

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, – bir il, iki il, – hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun. Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Ancaq qanunların əksəriyyəti keçmiş Sovetlər İttifaqından qalmış qanunlardır. Onlara müəyyən dəyişikliklər, əlavələr. olunubdur, ancaq hazırkı qanunların əsası, kökü Sovetlər İttifaqı vaxtında qəbul edilmiş qanunlardır.

Aydındır ki, bu, asan məsələ deyil və qısa bir zamanda bunu etmək mümkün deyil. Ancaq eyni zamanda bu sahədə planlı iş getməlidir. Şübhəsiz ki, bu işi də parlament aparır və aparmalıdır. Bu sahələrə rəhbərlik edən nazirliklər, orqanlar bu işlərlə məşğul olmalıdır və qanun layihələrini hazırlayıb parlamentə təqdim etməlidirlər.

Məhkəmə, hüquq orqanlarının islahatı çox mühüm əhəmiyyətli olduğuna görə sizə məlumdur ki, həmin islahatların keçirilməsi üçün müəyyən bir komissiyanın yaradılması zərurəti meydana çıxmışdır və mən belə bir komissiyanın yaradılması barədə sərəncam vermişəm. Siz – buraya dəvət olunanlar həmin komissiyanın üzvlərisiniz. Komissiyanın sədri prezidentdir, müavini Milli Məclisin sədridir və siz də komissiyanın üzvlərisiniz. Mən hesab edirəm ki, belə bir komissiyanın fəaliyyət göstərməsinə ehtiyac var. Çünki bu komissiya bizim üçün əsas, zəruri olan qanunların hazırlanması ilə kollektiv [383-384] şəkildə məşğul ola bilər və qanunların layihələrinin hazırlanıb komissiyada baxılandan sonra parlamentə göndərilməsi onların orada müzakirə edilib qəbul olunmasına çox yaxşı şərait yaradar. Ona görə də bir daha qeyd edirəm ki, belə bir komissiyanın yaranmasını lüzumlu hesab etmişəm və bu gün bu komissiyanın birinci iclasını çağırmışam.

Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Mən sadəcə, istəyirəm birlikdə müəyyən edək ki, hansı qanunların layihələrini biz birinci növbədə hazırlayıb təqdim edə bilərik. Müəyyən hazırlıq işləri görülübdür. Yəni Milli Məclisdə, nazirliklərdə, Prezident Aparatında hazırlıq işləri görülüb, müəyyən qanunların layihələrinin hazırlığı var. Mən istəyirəm indi müəyyən edək ki, hansı layihələrin hazırlığı hansı səviyyədədir və biz onları necə hazırlayıb komissiyadan keçirə bilərik.

* * *

... Beləliklə adları çəkilən qanun layihələri üzərində ilkin hazırlıq işləri görülüb. Şahin Əliyevin və Fuad Ələsgərovun verdiyi məlumatlara əsasən deyirəm ki, bu layihələr sənəd kimi var. Lakin bunları layihə şəklinə gətirib parlamentə təqdim etmək üçün hesab edirəm ki, onlarla tanış olmaq, üzərində işləmək və bundan sonra komissiyanın müzakirəsinə vermək lazımdır. Şahin Əliyev və Fuad Ələsgərov mənə məruzə ediblər ki, onların fikrincə, bu layihələr hazır vəziyyətdədir. Ancaq mən hesab edirəm ki, bu layihələrə baxılmalıdır, onlar yenidən işlənməlidir və sonra komissiyaya təqdim olunmalıdır.

Ona görə də biz bu komissiyanın işçi qrupunu yarada bilərik. İşçi qrupu hazırlanmış layihələrə müəyyən müddətdə baxar, komissiyaya təqdim edər, komissiya üzvləri həmin layihələrlə tanış olar və bundan sonra biz bu layihələrin hansının birinci, hansının ikinci növbədə baxılıb parlamentə təqdim edilməsini müəyyənləşdirərik.

Mən belə bir iş prinsipi təklif edirəm. Əgər bununla razılaşmaq olarsa, gəlin razılaşaq. Əgər başqa fikir varsa və yaxud burada deyilənlərdən əlavə müvafiq orqanlarda hansı layihələr varsa, onların da komissiyaya təqdim edilməsi lazımdırsa, gəlin bunları da müzakirə edək.

* * *

... Mən görüşümüzün əvvəlində də dedim, konstitusiya əsasında onlarla, yüzlərlə qanun olacaqdır. Şübhəsiz ki, bunlarla [384-385] parlamentin komissiyaları məşğul olmalıdır. Ancaq məhkəmə, hüquq orqanlarının islahatı ilə əlaqədar qanunların zəruriliyini və onların ümumiliyini nəzərə alaraq mən hesab etdim ki, bu layihələri belə bir komissiyada müzakirə edib parlamentə təqdim edək. Bütün qanun layihələrini bu komissiyada müzakirə etmək olmaz. Məsələn, iqtisadi məsələlərlə əlaqədar nə qədər böyük qanunlar var. Onları buraya daxil etmək olmaz. Eyni zamanda bu fikir doğrudur ki, bu qanunlar bir-biri ilə bağlanmalıdır. Məhz komissiya çərçivəsində

bu qanunların paralel hazırlanması və bir-biri ilə uyğunlaşdırılması həmin qanunların bağlılığını təmin edə bilər. Çox qanunlar qəbul olunmalıdır. Ancaq bu sahəyə aid olan qanunlar bunlardır. Burada Səfa Mirzəyev doğru dedi ki, Konstitusiya Məhkəməsi barədə qanun da lazımdır. Çünki biz gərək Konstitusiya Məhkəməsini təşkil edək və bu bizim üçün çox lazımdır. Ancaq qalan qanunları da bunlarla uyğunlaşdırmaq lazımdır.

* * *

... Gəlin, işçi qrupu müəyyən edək. Dediyim kimi işçi qrupu hazır olan bu layihələri götürüb baxsın və işçi qrupunda müzakirə olunandan sonra, bütün əlavələr, dəyişikliklər edildikdən sonra 3-4 qanun hazır olan kimi məlumat versinlər, biz bunları komissiya üzvlərinə paylayaq, onlar bu layihələrə baxsınlar, yığışaq müzakirə edək və parlamentin müzakirəsinə verək...

... Gəlin, işçi qrupunu bu tərkibdə qəbul edək. Amma mən səlahiyyət verirəm ki, işçi qrupu istənilən mütəxəssisləri, alimləri və yaxud əməli işdə işləyən adamları bu layihələr üzərində işə cəlb etsin.

20 gün ərzində birinci dəst qanun layihələri komissiyaya təqdim olunmalıdır. Bu dəst qanunlar təqdim olunan kimi mən onların bütün komissiya üzvlərinə paylanması haqqında sərəncam verəcəyəm. Vaxt verəcəyəm ki, komissiya üzvləri müəyyən müddətdə həmin layihələri oxuyub hazırlaşsınlar və bundan sonra biz müzakirəyə yığışacağıq. [385-386]

## İSRAİLDƏ YAŞAYAN KEÇMİŞ AZƏRBAYCAN VƏTƏNDAŞLARI ASSOSİASİYASININ TƏŞƏBBÜSÜ İLƏ HAZIRLANMIŞ VƏ ÇAPDAN ÇIXMIŞ "HEYDƏR ƏLİYEV: SİYASİ PORTRETİN CİZGİLƏRİ" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQİ

*Axundov adına Respublika Dövlət Kitabxanası*

*4 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün mən Azərbaycan-İsrail dostluq cəmiyyətinin dəvətini qəbul edərək buraya gəlmişəm. Fürsətdən, yəni İsraildə nəşr olunmuş kitabın təqdimatından istifadə edərək Azərbaycan Respublikası ilə İsrail arasında qarşılıqlı əlaqələrə münasibətimi bildirmək istəyirəm. Bu gün elə hadisə baş verir ki, bəlkə də bir neçə il əvvəl bunun mümkünlüyünə inanmaq çətin olardı. Bizim sevimli aktrisamız Dina Tumarkina 1974-cü ildə çəkilmiş fotoşəkili təqdim etdi. 22 il ötmüşdür. Təsəvvür etmək olardımı ki, illər ötdükdən sonra dünya bu qədər dəyişəcəkdir. O zaman, biz sosialist dövləti rejimində yaşayarkən kim xaricə yaşamağa gedirdisə, üstəlik bunu qanunlardan yan keçməklə edirdisə, o, cinayətkar sayılır, yaxud da dövlətin və cəmiyyətin yanında heç bir hörməti olmayan adama çevrilirdi. Vaxt var idi ki, Sovetlər İttifaqından adamların müxtəlif ölkələrə, o cümlədən İsrailə getmələrinə mane olurdular. Xaricə getmək cəhdləri dövlət əleyhinə hərəkət kimi qiymətləndirilirdi. İndi böyük dəyişikliklər baş veribdir. Bunlar təbiidir, bütün dünyada baş verən təbii ictimai-tarixi inkişafın nəticəsidir. Bu dəyişikliklər bir çox xoşagəlməz hallar, çoxlu mürəkkəb problemlər doğurubdur. Bununla belə azadlıq, müstəqillik gətiribdir, şəxsiyyətin, insanın həqiqi azadlığını təmin etmək üçün şərait yaradılıbdır. Bunun müsbət və mənfi cəhətlərini müqayisə edəndə görürsən ki, müsbət olanlar mənfilərdən daha çoxdur. Hamımızın birlikdə yaşadığımız həmin əmin-amanlıq illəri ilə müqayisədə nə qədər mürəkkəb, nə qədər çətin olsa da biz [386-387] baş vermiş bütün bu hadisələri müsbət, tarixi prosesə, təbii-ictimai tarixi dəyişikliklərə uyğun olan hadisələr kimi qiymətləndirməliyik.

İndi tamamilə başqa şərait, başqa vəziyyətdir. Azərbaycanda, Bakıda doğulmuş insanlar bizə qonaq kimi gəlirlər və deyirlər ki, İsraildə, iyirmi il əvvəl olanlardan ötrü tamamilə bağlı olan ölkədə, bəzi məlumatlara görə, Azərbaycandan gedən 30 min, 50 və ya 60 min adam yaşayır. Əksəriyyəti Azərbaycanda doğulub boya-başa çatan, burada təhsil alan, formalaşan adamlar indi İsraildə yaşayırlar. Hərə öz həyatını yaşayır, lakin İsraildə yaşayan keçmiş azərbaycanlıları əhatə edən cəmiyyətdə birləşiblər. Mən hesab edirəm ki, bu da Azərbaycanın bir hissəsidir. Həmyerlilərimizin buradan getdiyi vaxtdan beş il, yaxud on il keçsə də, əminəm ki, onlar özlərini Azərbaycan torpağı, Azərbaycan xalqı, gözəl Bakı şəhəri ilə birləşdirən hisslərdən heç cür ayrıla bilmirlər.

Hesab edirəm ki, bu mənada biz İsraildə yaxşı diaspor və yaxşı lobbi əldə etmişik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, buradan gedərək hazırda İsraildə yaşayanların hamısı bu dövlətin qarşısındakı vətəndaşlıq borcları ilə yanaşı, doğulduqları, təhsil, ixtisas aldıqları, təcrübə əldə etdikləri, yəni əvvəllər onlara tanış olmayan ölkədə yaşayıb-işləməkdə kömək edən baza qazandıqları torpağın – Azərbaycanın mənafeyini də qoruyacaq və müdafiə edəcəklər.

Bu mənada hesab edirəm ki, İsraildəki bu cəmiyyət, həmin Azərbaycan diasporu ölkəmiz haqqında həqiqəti dünyaya çatdırmaq üçün təkcə İsraildə deyil, həm də başqa ölkələrdə bizdən ötrü böyük dayaqdır. Azərbaycan haqqında həqiqətləri dünyaya çatdırmağa bizim çox ehtiyacımız var. Dörd il öncə Azərbaycan özünün dövlət müstəqilliyini əldə edibdir. Bu, tarixi hadisə, bizim tarixi nailiyyətimizdir, onu yüksək qiymətləndirir, qoruyur və əbədi olaraq qoruyacağıq.

Eyni zamanda sizə məlumdur ki, səkkiz il öncə Ermənistan Azərbaycana qarşı hərbi təcavüzə başlayıb və bu təcavüz torpağımıza, ölkəmizə, xalqımıza hədsiz zərər vurubdur. Biz insanlarımızı itirmişik, Azərbaycan torpaqlarının bir qismi işğal edilibdir. İşğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız zorla qovulub və indi çox ağır vəziyyətdə yaşayırlar. Bu gün biz müharibə vəziyyətindəyik. Bununla belə, biz döyüşləri dayandırmağa, barışıq haqqında sazişə nail ola bilmişik, 21 aydır ki, atəşkəs davam edir. Biz sülhsevər ölkəyik. [387-388] Regionumuzda sülhü möhkəmləndirməyi, münaqişəni dinc yolla aradan qaldırmağa nail olmağı qarşımıza məqsəd qoymuşuq. Lakin bütün bunlar asan deyildir, çünki Azərbaycan haqqında əsl həqiqətləri dünyanın heç də hər yerində bilmirlər. Mən açıq deyirəm, hətta son vaxtlar müxtəlif dövlətlərin ayrı-ayrı

nümayəndələri ilə görüşlərim zamanı getdikcə daha çox aydın olur ki, Ermənistan ilə Azərbaycan arasında baş verən hadisələrin heç də hamısı dünyanın digər ölkələrində yaxşı məlum deyildir.

Bu günlərdə mən ATƏT-in indiki sədri, İsveçrənin Xarici İşlər naziri cənab Kotti ilə görüşdüm. Geniş söhbətimiz oldu. Lakin mən bir cəhətə xüsusi diqqət yetirdim. O deyir: Sizin danışdıqlarınızın çoxunu Qərbdə heç də hamı bilmir. Çalışın ki, sizin haqqınızdakı həqiqəti, yəni respublikanız, Azərbaycan barədə, burada, Azərbaycanda baş verən hadisələri daha çox bilsinlər, mən Ermənistan ilə Azərbaycan arasında baş verən, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı hadisələri nəzərdə tuturam. Bu, bir faktdır, amma belə faktlar çoxdur. Mən bunlarla tez-tez rastlaşıram və ona görə də bu gün diqqəti bir məsələyə xüsusi cəlb edirəm ki, İsraildəki Azərbaycan diasporu, yəni Azərbaycan cəmiyyəti, həmyerlilərimiz, Azərbaycandan getmiş dostlarımız ölkəmiz haqqında, bu münaqişə, Ermənistanın təcavüzü haqqında həqiqəti deyəcəklər. Özü də təkcə İsraildə deyil, öz imkanları daxilində başqa ölkələrdə, bütün dünyada da deyəcəklər. Hesab edirəm ki, dostlarımızın belə imkanları var.

Axı sizlərdən bir çoxunuz Azərbaycanı, Bakını məhz Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün başlanması ilə əlaqədar burada vəziyyətin mürəkkəbləşdiyi vaxtdan tərk etmisiniz. Əlbəttə, mən doğma diyarımızdan getdiyinizə görə heç birinizi qınamıram. Bayaq dedim ki, son illərdə, son onillikdə gedən proseslərin böyük nəticəsi budur ki, insan azad olmuşdur. O, güzəranının harada yaxşı keçəcəyi yeri sərbəst seçə bilər. Eyni zamanda bir faktdır ki, siz, mən buradan İsrailə, başqa ölkələrə gedənləri nəzərdə tuturam, əsasən ona görə getmisiniz ki, burada vəziyyət mürəkkəbləşmiş, Azərbaycana qarşı hərbi təcavüz başlanmış, çox mürəkkəb proseslər, hadisələr cərəyan etmiş, təkcə cəbhəyanı ərazilərdə deyil, Azərbaycanın digər bölgələrində də qan tökülmüşdür. Təbii ki, belə vəziyyətdə bir çoxları yaşayış yerini dəyişməyi qərara almış, o [388-389] cümlədən siz də İsrailə getmisiniz. Mən bunu xatırladıram, lakin siz İsraildəki həmyerlilərimizsiniz və özünüz bilirsiniz Qafqazda, xüsusən Ermənistan ilə Azərbaycan arasında nə baş vermişdir və indi nə baş verir?

Əminəm ki, bu cəmiyyətin – Azərbaycandan gedərək İsraildə yaşayanların şəxsində bizim yaxşı dayağımız var. Biz Azərbaycanda sizə, sizin cəmiyyətinizə böyük hörmət bəsləyirik. İsrail-Azərbaycan dövlətlərarası münasibətlərindən əlavə, biz hər bir həmyerlimizlə və ümumən sizin cəmiyyətinizlə əlaqələrimizi inkişaf etdirmək istəyirik. Əmin ola bilərsiniz ki, bizim tərəfimizdən həmişə ən xoş, ən ehtiramlı münasibətlə qarşılaşacaqsınız.

Mən burada eşidəndə ki, Azərbaycandan gedənlərin İsraildəki cəmiyyəti ən mütəşəkkil, dostumuz Bromberqin dediyi kimi, ən möhkəm, ən yaxşı cəmiyyətdir, bundan sevindim. Əgər belədirsə, sual doğur: nəyə görə o, ən yaxşı cəmiyyətdir? Odessalıların cəmiyyətindən, moskvalıların, kiyevlilərin cəmiyyətindən yaxşıdır? Axı, siz hamınız bir millətdən, eyni dindənsiniz. İstər-istəməz düşünürsən: deməli, hansısa bir təsir var? Yəqin ki, Azərbaycan torpağının, Azərbaycan mühitinin və ənənələrinin əhəmiyyəti az deyildir. Doğrudan da keçmişdəki və indiki bütün çatışmazlıqlara baxmayaraq, biz burada, Azərbaycanda uzun illər, onilliklərlə böyük dostluq, qarşılıqlı anlaşma şəraitində, hörmət-ehtiram və xeyirxahlıq mühitində yaşamışıq.

Bilirsiniz, adamlar birlikdə yaşayanda bəlkə də çox şeyi dərk etmir və lazımınca qiymətləndirmirlər, ayrılanda, bir-birindən uzaq düşəndə isə daha ayıq başla təhlil etməyə və daha obyektiv qiymət verməyə başlayırlar. İndi də belədir. İsraildə yaşayan dostlarımız yəqin ki, Azərbaycanda olub keçənləri burada yaşadıqları vaxtdakından indi daha çox qiymətləndirirlər. Bu, tamamilə təbiidir, özü də təkcə onlara deyil, hər bir adama aiddir. Məsələn, mən özüm də bir müddət Azərbaycandan kənarda yaşamışam, lakin çox yüksəkdə olduğum illər və qəzəbə düçar olduğum illər də olmuşdur. Amma mən əvvəl də və bütün bunlar baş verdikdən sonra da Azərbaycan üçün, doğma torpaq, Bakı üçün darıxırdım. Ötən vaxtları xatırlayırdım: bəli, həqiqətən də o zaman çəkişərdik də, küsüşərdik də və bir-birimizdən daha çox şey də tələb edərdik, lakin hər halda yaxşı idi.

Əgər indi İsraildəki diasporumuz mütəşəkkil və deyildiyi [389-390] kimi, digər cəmiyyətlərlə müqayisədə bir çox keyfiyyətlərinə görə yüksəkdirsə, bu, yəqin ki, burada, Azərbaycanda mövcud olmuş dostluq, həmrəylik mühitinin təzahürüdür.

Aydındır ki, son illər Azərbaycanda dəyişikliklər baş verib və bunlar müəyyən dərəcədə həm də mənfi səciyyə daşıyıbdır. Müxtəlif ictimai-siyasi proseslər də gedib, heç də hər şey sivilizasiyalı səviyyədə, insanlıq səviyyəsində olmayıbdır. Biz hamımız həddən artıq çətinliklərdən keçmişik və bu gün də mürəkkəb, çətin şəraitdə yaşayırıq. Amma bütün bunlara baxmayaraq, əvvəlki ənənələr – Azərbaycanda onilliklər, yüzilliklər ərzində yaranmış milli və ümummilli ənənələr itməyib, qorunub saxlanıbdır. Mən əminəm ki, biz çətinlikləri aradan qaldıraraq, bu ənənələri daha da zənginləşdirəcəyik. Bu ənənələr müstəqil Azərbaycan Respublikası şəraitində, azadlıq şəraitində yeni inkişafını tapacaqdır. Hesab edirəm ki, biz Azərbaycanın gözəl gələcəyinin şahidi olacağıq.

Bununla əlaqədar mən Azərbaycan ilə İsrail arasında olan münasibətlərə böyük əhəmiyyət verirəm. İsrailin tarixi, xalqın tarixi yaxşı məlumdur, bu ölkədə baş vermiş və indi də baş verən proseslər də məlumdur. Budur dünən İsraildə daha bir faciə olubdur. Bomba partlayışı nəticəsində 20-dən çox adam həlak olub, bir çoxları yaralanıblar. Terrorçular əməllərini davam etdirirlər. Fürsətdən istifadə edərək demək istəyirəm ki, biz terrorçuluğun bütün təzahürlərini pisləyir, onu rədd edirik. Terrorçuluq – vəhşilikdir, ümumbəşəri dəyərlərlə, sivilizasiya və azadlıqla bir araya sığa bilməz.

Biz hər cür separatçılığı pisləyirik. Səkkiz ildir ki, Azərbaycan separatçılıqdan, terrorçuluqdan əzab çəkir. Ona görə də bu iyrənc təzahürlərin faciəli nəticələrini xalqımızın taleyində hiss etdiyimizə görə, biz daim separatçılığın və terrorçuluğun əleyhinə olmuşuq və bu gün də əleyhinə olacağıq. Mən hər yerdə, o cümlədən İsraildə baş verən terrorçuluq hərəkətini qətiyyətlə pisləyirəm.

Bu imkandan istifadə edərək, faciə ilə əlaqədar İsrail dövlətinin rəhbərlərinə, həlak olanların ailələrinə başsağlığı verir, ümidvar olduğumu bildirirəm ki, tərəqqi, demokratiya, irtica, terror, separatçılıq qüvvələrinə üstün gələcəkdir.

Bizim qarşılaşdığımız təkcə erməni terrorçuluğu, Ermənistanın təcavüzü deyildir. Daxildə də terrorçuluq faktları ilə qarşılaşırıq. Terrorçuluq əməlləri nəticəsində adamlarımız, dövlət xadimlərimiz həlak olublar. Terrorçular bizim özümüzü [390-391] də təkcə fiziki cəhətdən məhv etməklə deyil, həm də dövlətçiliyimizi məhv etməklə hədələyiblər. Lakin bunların hamısını aradan qaldırmışıq. Əminəm ki, Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik möhkəmlənəcək və inkişaf edəcəkdir. Əminəm ki, Azərbaycanın bütün vətəndaşları terrorçuluğun təhlükəsini, cinayətkarlığın artmasının təhlükəsini dərk edəcək, hər biri Azərbaycan dövlətçiliyini müdafiə edərək bu təzahürlərin əleyhinə çıxacaqdır.

Bəli, mən qonaqlarımıza da, bütün dünyaya da cəsarətlə deyə bilərəm ki, indi Azərbaycanda sabitlik yaranıbdır, biz vəziyyətə nəzarət edirik, ayrı-ayrı cinayətkar ünsürlərin müxtəlif cəhdlərinin qarşısı alınır və alınacaqdır. Hazırda dövlətin kifayət qədər gücü, ən başlıcası isə özünə inamı var. İndən belə biz heç kəsə qanunlarımızı pozmağa, cəmiyyətimizi, dövlətçiliyimizi laxlatmağa imkan verməyəcəyik, əgər kimsə belə cinayətkar hərəkətlərə cəsarət edərsə, qanunlarımıza əsasən cəzasını alacaqdır. Ona görə də indi Azərbaycanda xarici investisiyalar üçün yaxşı şərait var, mən bunu həm qonaqlarımıza, həm də İsraildəki dostlarımıza deyirəm.

Biz qarşılıqlı fayda, mehriban münasibətlər prinsipləri əsasında bütün ölkələrlə əməkdaşlıq edirik və bütün imkanlarımızı, qapılarımızı açaraq xarici investorları Azərbaycana dəvət edirik. Biz bunu iqtisadiyyatımızı, dövlətimizi inkişaf etdirmək üçün çox mühüm vasitə sayırıq.

İndi isə kitab haqqında, ümumiyyətlə mən özüm haqqında kitablar yaradılmasının böyük pərəstişkarı deyiləm. Azərbaycan Prezidentinin siyasi portreti haqqında İsraildə, ivrit dilində kitabın nəşr olunmasından tamamilə xəbərsiz idim. Bu, məndən ötrü gözlənilməz, lakin xoş hadisə oldu. Ona görə yox ki, mənim həyat yolumu müəyyən dərəcədə əks etdirən kitab nəşr olunubdur, ona görə ki, bu, Azərbaycan haqqında, onun xalqı, müstəqil Azərbaycan Respublikası haqqında daha çox şey bilməyə kömək edəcəkdir.

Bu təşəbbüsü göstərənlərin, bu gün burada kitabı təqdim edənlərin hamısına öz təşəkkürümü bildirmək istəyirəm. Hesab edirəm ki, bu xalqlarımız və ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsi yolunda yaxşı addımdır. Kitabın təqdimatı ilə əlaqədar İsraildən buraya gəlmiş dostlarımıza təşəkkür edirəm, həmyerlilərimi görməyimə şadam. Xüsusən də ona görə ki, onlar buraya uzun fasilədən sonra gəliblər, vəziyyəti qiymətləndirmək imkanları var. Əgər iki, yaxud [391-392] üç il əvvəl burada olsaydılar, ötən müddətdə baş vermiş dəyişikliklər onları bəlkə daha çox heyrətə salardı.

Dəyişikliklər isə çoxdur. 1993-cü ildə mən özüm buraya gələrkən respublikada, Bakıda vəziyyət çox mürəkkəb idi. Küçələrdə gəzmək mümkün deyildi, fövqəladə vəziyyət tətbiq olunmuşdu, hər tində avtomatçılara rast gəlirdim, dövlətə xidmət edənlər, əksinə çıxanlar və ya gizli silahlı dəstələrdən olanlar – bir sözlə hər cürəsi vardı. Şübhəsiz ki, bütün bunlar qorxu, inamsızlıq şəraiti, hərc-mərclik vəziyyəti yaradırdı. Biz bunların hamısını aradan qaldırdıq. Mən şadam ki, dostlarımız indi başqa vəziyyəti görürlər. Amma hesab edirəm ki, gələcəkdə vəziyyət daha yaxşı olacaqdır.

Mənə belə gəlir ki, teatrımızın ulduzu Dina Tumarkinanı dinləmək hamımız üçün xoş oldu. Biz həmişə onun sənətinə pərəstiş etmişik. Azərbaycanda Rus Dram Teatrının daim böyük nüfuzu olub və bu gün də var. Bu teatrın həmişə daimi tamaşaçıları olubdur. Zənnimcə, bir çoxları bu teatra ümumən incəsənətdən, eləcə də Dina Tumarkina kimi gözəl aktrisanın sənətindən zövq almaq üçün gedirdilər. Mən şadam ki, o, yenə buradadır və Nizaminin şerlərini unutmaması xoş təsir bağışladı.

Bir daha hamınıza təşəkkürümü bildirirəm. Yenə deyirəm, bugünkü görüşü sadəcə olaraq kitabın təqdimatı kimi deyil, daha geniş qiymətləndirirəm. Mən bu gün buraya gəlib bəzi fikir və mülahizələrimi söylədim. Sağ olun. [392-393]

## AZƏRBAYCAN VƏ DAĞISTAN RƏHBƏRLİYİ ARASINDA DANIŞIQLARIN YEKUNLARINA ƏSASƏN SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ BƏYANAT

*Prezident Sarayı*

*5 mart 1996-cı il*

Mən burada olanların hamısını və desəm ki, Azərbaycan və Dağıstan vətəndaşlarının hamısını bu hadisə münasibətilə təbrik edirəm, səhv etmərəm. Biz belə mühüm sənədləri ilk dəfə imzalayırıq. Elə sənədlər ki, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət edəcəkdir.

Dağıstanla Azərbaycan yaxın qonşu, qardaş və dostdurlar. Əsrlərdən bəri xalqlarımız yanaşı, birlikdə yaşayırlar. Xalqlarımızın tarixi ərzində Dağıstan və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərdə mühüm mərhələlər, unudulmaz dövrlər çox olmuşdur, lakin indiki mərhələ çox mühüm bir mərhələdir və belə düşünürəm ki, bugünkü və gələcək nəsillər üçün olduqca əhəmiyyətlidir. Bu gün biz qarşılıqlı münasibətlərimizin xarakterini, Dağıstan ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi, xalqlarımız arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi məsələsinin əməli həlli yollarını reqlamentləşdirən və müəyyənləşdirən mühüm sənədlər imzalamaq imkanına malikik. Bu, mühüm hadisədir, böyük nailiyyətdir. Buna görə də hesab edirəm ki, hazırda yaşadığımız mərhələnin vacibliyi bununla müəyyənləşdirilir.

Mən indi, bu sənədləri imzaladıqdan sonra sizə bir daha demək istəyirəm ki, Dağıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq inkişaf edəcək və möhkəmlənəcəkdir. Öz tərəfimizdən biz hər şey edəcəyik ki, bu dostluq dəyanətli, möhkəm, əbədi olsun və biz Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında səmimi münasibətlərin daha da inkişaf etməsi naminə, Dağıstan və Azərbaycan xalqlarının gələcək səadəti və rifahı naminə əməkdaşlıq edəcəyik. [393-394]

Sizin hamınızı bir daha təbrik edir, Dağıstan və Azərbaycan xalqlarına xoşbəxtlik və firavanlıq arzulayıram. Mən əminəm ki, bu sənədlər xalqlarımızın xoşbəxt gələcəyini təmin edəcəkdir.

## DANIŞIQLARIN YEKUNLARI İLƏ ƏLAQƏDAR BİRGƏ MƏTBUAT KONFRANSI

**Sual: Siz dediniz ki, buraya gəlməzdən əvvəl Rusiya prezidenti Yeltsinin və Rusiya hökumətinin başçısı Çernomırdinin qəbulunda olmusunuz. Xahiş edirəm deyəsiniz, Rusiya rəhbərliyi hər hansı təminat vermişdirmi ki, Azərbaycan-Rusiya sərhədindəki məhdudiyyətlər yaxın vaxtlarda götürüləcəkdir? Siz sərhəd məsələləri barəsində Azərbaycan prezidenti ilə konkret olaraq hansı qərarları qəbul etdiniz? Siz tam nəqliyyat blokadası şəraitində bu cür iqtisadi sazişi necə həyata keçirmək fikrindəsiniz? Yoxsa bu məsələlər artıq həll edilmişdir? Sağ olun.**

**M. Məhəmmədov:** Biz ən əvvəl iqtisadi blokadanın icbari qaydada götürülməsini nəzərdə tuturuq. Bildiyiniz kimi, Rusiya Federasiyasının prezidenti rəsmən demişdir ki, çeçen probleminin həllini tapmaq, ən əvvəl dinc yolla tapmaq üçün ən fəal tədbirlər görüləcəkdir. Özünün xüsusi fərmanı ilə prezident hökumətin sədri Viktor Stepanoviç Çernomırdin başda olmaqla komissiya yaratmışdır. Bəli, biz bu məsələləri qaldırırıq, özü də kifayət qədər təkidlə. Lakin indi biz başa düşürük ki, Rusiya hökuməti bu məhdudiyyəti bir günün içində götürməyəcəkdir, çünki bu, hər halda yenə də Çeçenistan hadisələri ilə və Dağıstanın istər cənubunda, istərsə də şimalında sərhədlərin qorunmasının zəruriliyi ilə bağlıdır. Lakin bununla yanaşı, hökumət və prezident bizi başa düşür, bu məsələdə təkliflərimizi dəstəkləyirlər. Burada deyildiyi kimi, biz xüsusi təkliflər hazırlamışıq və Rusiya Federasiyası hökumətinin müzakirəsinə təqdim etmişik. Əldə edilmiş razılaşmaya uyğun olaraq, biz yaxın vaxtlarda sərhəddə rejimi sadələşdirməli, nəticə etibarı ilə bu sahədə iqtisadi maneələri aradan götürməliyik. Rusiya Federasiyasının rəhbərliyi tərəfindən bax, belə anlaşma var.

**Sual: Əgər olarsa, daha bir sual. Lütfən deyin, bu müddət ərzində Dağıstanın hüquq-mühafizə orqanları sərhədin qanunsuz keçilməsi, Azərbaycan ərazisindən** [394-395] **çeçen yaraqlıları üçün silah aparılması hallarını qeydə almışlarmı? Sizdə belə faktlar varmı?**

**M. Məhəmmədov:** Bəzi hallar qeydə alınıb, amma mən hesab etmirəm ki, bunlar Azərbaycan ərazisindən olmuşdur.

**Sual: Yox, məhz Azərbaycan ərazisindən olmuşdurmu?**

**M. Məhəmmədov:** Azərbaycan ərazisindən və ya Gürcüstan ərazisindən, yaxud digər ərazilərdən belə hallar olmuşdur, lakin bütün bunlar sərhədləri bağlamaq zəruriyyəti doğurmur. Belə hallar olmuşdur, amma onlar Azərbaycan və Gürcüstanın rəsmi orqanlarının icazəsi olmadan edilmişdir. Bu, qaçaqmalçılıq kimi bir şeydir. Sərhəd xidməti, gömrük xidməti də məhz bu cür faktlara qarşı, bu cür cinayətlərə qarşı mübarizə aparırlar.

**Sual: Siz Azərbaycan ilə nə kimi real əməkdaşlıq nəzərdə tutursunuz? Hansı sahələrdə?**

**M. Məhəmmədov: Ən** əvvəl, energetika, maşınqayırma sahəsində, balıqçılıq təsərrüfatında, ümumiyyətlə, bütün sahələrdə. Biz Azərbaycan Respublikası ilə, Azərbaycan iqtisadiyyatı ilə, mədəniyyət, elm sahələrində çox sıx bağlıyıq – biz bütün məsələlərdə olduqca sıx bağlıyıq. Bu əlaqələr qədim zamanlardan mövcuddur, onları süni surətdə qırmaq sadəcə olaraq mümkün deyildir. Onlar indi də mövcuddur, onları inkişaf etdirmək, möhkəmlətmək, onlara müvafiq əlavə təkan vermək lazımdır. Elə bugünkü səfərimiz, imzaladığımız sənədlər də bu işə əlavə təkan verir. Əgər konkret surətdə desək, həyatın bütün sahələrini sadalamaq olar. Onların hamısında Azərbaycanın da, Dağıstanın da bilavasitə münasibətləri, bilavasitə əlaqələri var.

**Sual: Siz dediniz ki, blokadadasınız, iqtisadi vəziyyətiniz çox ağırdır. Bəs Rusiya sizə hansı köməyi göstərir, büdcədən sizə nə qədər vəsait ayrılmışdır?**

**M. Məhəmmədov:** Rusiya bizə daim kömək edir, yardım göstərir, məsələn, iqtisadi blokada nəzərə alınaraq, ötən il Dağıstana iqtisadi kömək kimi büdcədən əlavə bir trilyon rubldan çox vəsait ayrılmışdır. Bu il də belə ağır vəziyyət və respublikanın çəkdiyi zərər nəzərə alınmaqla, bir trilyon rubldan artıq vəsait ayırmaq nəzərdə tutulur. Bu da iqtisadi kömək, Rusiya büdcəsindən Dağıstan Respublikasına maliyyə yardımı kimi ediləcəkdir. [395-396]

**Sual: Bu kifayətdirmi?**

**M. Məhəmmədov:** Əlbəttə, kifayət deyildir.

**Sual: Dağıstan ilə Azərbaycan arasında əvvəlki səviyyədə nəqliyyat əlaqələrinin bərpası nə vaxt gözlənilir?**

**M. Məhəmmədov:** Biz buna çalışırıq, müvafiq şərait olan kimi bu əlaqələr tamamilə bərpa ediləcəkdir.

**Sual: Sizcə hansı tərəfdən maneələr daha çoxdur?**

**M. Məhəmmədov:** Azərbaycan tərəfdən heç bir maneə yoxdur.

**Sual: Cənab Məhəmmədov, şayiələr gəzir ki, Milli Məclisin mərhum deputatı Əli Ansuxskinin Çeçenistan və Dağıstanla kommersiya əlaqələri olmuşdur. Bu barədə siz nə fikirdəsiniz?**

**M. Məhəmmədov:** Əli Ansuxskini mən sizdən az tanıyıram. Onunla cəmi bir dəfə görüşmüşdüm. O, Azərbaycan parlamentinin deputatı idi. Biz onun simasında həm Azərbaycanda, həm də Dağıstanda hörməti olan bir insanı görürdük. Əlbəttə, onun ölümü Dağıstan üçün böyük itkidir. Azərbaycan Milli Məclisi deputatının ölümü ilə əlaqədar mən prezidentə başsağlığı vermişəm. Məndə olan məlumata görə, mərhum deputatın respublikamızla heç bir iqtisadi əlaqəsi yox idi. Azərbaycanın isə bu məsələyə münasibəti onun öz işidir.

**Heydər Əliyev:** Prinsip etibarilə bu sual yersizdir, çünki istintaq gedir və cavabı o verəcəkdir. Aydınlıq yaratmaq üçün isə deyə bilərəm ki, Əli Ansuxski Azərbaycanın hörmətli vətəndaşlarından biri idi, bizim parlamentin, Milli Məclisin üzvü seçilmişdi, cəmiyyətimizdə və bizim nəzərimizdə böyük nüfuzu vardı. İstintaq orqanlarımız mənə bildirirlər ki, bu cinayətin üstü açılır və onlar yaxın vaxtlarda bu barədə məlumat verəcəklər. Şübhəsiz ki, bu terrorçuluq hərəkəti, bu faciəli hadisə bizi çox sarsıtdı, bu bizdən ötrü böyük itkidir və bu hadisədən heç kim sui-istifadə etməməlidir.

**Sual: Mənim ikinci sualım Heydər Əliyevədir. Xalqlarımızın bir-birinə yaxınlaşması üçün birtərəfli addım atılmışdır, cavab addımı, ikinci addım nə vaxt olacaqdır?**

**Heydər Əliyev:** Bu, birtərəfli addım deyil, ikitərəfli addımdır. Özü də bu görüş bizim razılığımıza uyğun olaraq keçirilir. Mən Məhəmmədəli Məhəmmədoviçi və onun [396-397] nümayəndə heyətinin bütün üzvlərini Azərbaycana dəvət etmişdim, həm də bu dəvət çoxdan olmuşdur. Onlar həm özləri üçün, həm də bizdən ötrü münasib vaxt tapdılar və səfər baş tutdu. Mən də ondan dəvət almışam və hökmən bu dəvətdən istifadə edəcəyəm.

**M. Məhəmmədov:** Mən Heydər Əliyeviçi və Azərbaycanın digər rəhbərlərini respublikamıza dəvət etmişəm. Dağıstanlılar istənilən vaxt sizi görməyə şad olacaq və səmimi, qardaşcasına qonaqpərvərlik göstərəcəklər. Sizi bir daha dəvət edirəm.

**Sual: Bəs sizin səfəriniz Rusiya Federasiyası rəhbərliyinin imzaladığı sənədlərlə necə razılaşdırılmışdır. Ona görə ki, mən bilən, Rusiyanın Azərbaycandakı səfiri Bloxin İlümjinov buraya gəldikdə narazılığını bildirmişdi. Belə olmayacaq ki?**

**M. Məhəmmədov:** Xeyr, belə olmayacaq. Bütün sənədlər Rusiya Federasiyasının Konstitusiyası çərçivəsindədir, Dağıstan Konstitusiyası çərçivəsindədir. Sizin axtardığınız burada yoxdur.

**Sual: Azərbaycanın, Dağıstan və Rusiyanın iqtisadi vəziyyətini nəzərə alaraq, biz Xəzər dənizinin problemini birlikdə necə həll edə bilərik? Siz hər hansı nəticəyə gəldinizmi?**

**M. Məhəmmədov:** Biz bu məsələni də nəzərdən keçirdik, müzakirə etdik. Bu, Dağıstan vasitəsi ilə Rusiyanın və Azərbaycanın münasibətlərində həm də dövlətlərarası əhəmiyyətə malik qlobal məsələdir. Şübhə yoxdur ki, burada digər sahil dövlətlərinin də marağı var. Mən bu məsələ barəsində Heydər Əliyevi böyük maraqla dinlədim.

**Sual: İlkin Azərbaycan nefti Dağıstan ərazisi vasitəsi ilə də nəql ediləcəkdir. Odur ki, siz çeçen yaraqlılarının Dağıstan ərazisində terror əməlləri ilə əlaqədar nə deyə bilərsiniz? Təhlükəsizliyə təminat veriləcəkmi?**

**M. Məhəmmədov:** Dağıstan ərazisində yalnız bir terror hərəkəti – Kizlərə və sonra da Pervomayska basqın olmuşdur. Dağıstan ərazisi etibarlı surətdə qorunur. Hər hansı magistralın Dağıstan ərazisindən keçməsi üçün heç bir təhlükə yoxdur. O ki qaldı Çeçenistan Respublikasının ərazisinə, orada hadisələr baş verir və belə vəziyyət yaranmışdır.

**Heydər Əliyev:** Bizim jurnalistlərin hər şeylə [397-398] maraqlandıqlarını nəzərə alaraq, mən daxili işlər nazirindən bu faktlar barədə danışmağı xahiş edirəm.

**Məhəmməd Abdurazakov, Dağıstan Respublikasının daxili işlər naziri:** Silah və narkotik maddələr keçirilməsi faktları olmuşdur. Hərçənd biz bunun yayılmasına yol vermirik. Yayda yeddi nəfər tutmuşduq. Onlar milliyyətcə çeçendirlər. Burada söhbət Azərbaycan milliyyətindən deyil, ərazimiz vasitəsilə silah və narkotik maddələr, digər şeylər daşıyan çeçenlərdən gedir. Belə faktlar olmuşdur. Bir neçə ayda kriminal məqsədlə Dağıstan ərazisindən keçib Azərbaycana gedən və ya Azərbaycandan Dağıstana tərəf keçən təxminən 30 nəfər yaralanmışdır.

**Sual: Siz 30 nəfərin hamısını tutmuşdunuzmu?**

**M. Abdurazakov:** Onlarla müvafiq surətdə işlədik. Orada onların hər birini tutmağa ehtiyac yox idi. Lakin tutulanlar da oldu.

**Sual: Onlarda nə var idi, silah, yoxsa döyüş sursatı?**

**M. Abdurazakov:** Silah da var idi, döyüş sursatı da. Çeçen yaraqlıları üçün nəzərdə tutulmuş kamuflyaj forması da tapılmışdı.

**Sual: Bəs onlar necə izah edir, bu silahı haradan almış, haradan gətirir, haraya aparırdılar? Bunu özləri necə izah edirlər?**

**M. Abdurazakov:** Əlbəttə, biz Azərbaycanın daxili işlər naziri ilə bir-birimizə daha konkret məlumat verəcəyik. Mən bir daha demək istəyirəm: biz Azərbaycanın Daxili İşlər Nazirliyi ilə normal əlaqələr saxlayırıq. Haradasa bir hadisə baş verdikdə bir-birimizə kömək edirik. Elə indi də kiçik bir qrup bir gəncin oğurlanması məsələləri ilə əlaqədar bizim respublikamızdadır. Bir daha təkrar edirəm, bu faktlar çeçen millətindən olan şəxslərə bilavasitə aiddir. Odur ki, görünür, biz, güc orqanları onları aşkara çıxarmaq, onların bizdə vəziyyəti gərginləşdirməməsi üçün daha səmimi işləməliyik.

**Heydər Əliyev:** Yaxşı, bəs bu haradandır – İrandanmı, Türkiyədənmi, Əfqanıstandanmı?

**M. Abdurazakov:** Yox, əsla yox. Hərçənd belə imkan da istisna edilmir. Hər halda dedilər ki, kamuflyaj forması və silahın bir hissəsi respublikaya gətirilmişdir.

**Sual: Xahiş edirəm deyəsiniz, Azərbaycan tərəfi sizə əməkdaşlıq haqqında təkliflərlə müraciət etmiş**[398-399]**dirmi, yaxud siz bu məsələnin aradan qaldırılması üçün Azərbaycan tərəfinə müraciət etmisinizmi?**

**M. Abdurazakov:** Sizə deyirəm ki, 1993-cü ildə şəxsən mən burada bir qrup yoldaşla görüşdüm. Amma təəssüflər olsun, məlum hadisələrlə əlaqədar və məlum daxili işlər naziri ilə biz hadisələrin konkret inkişafına nail ola bilmədik. Buna baxmayaraq, kriminal milis və digər işçilərimiz arasında qarşılıqlı münasibətlər bu günədək qalmaqdadır. Belə münasibətlər var. Elə bu gün də işdə gələcək əlaqələr barədə konkret söhbət oldu. [399-400]

## NİKOLAY KONSTANTİNOVİÇ BAYBAKOVA

Möhtərəm Nikolay Konstantinoviç!

Sizi, görkəmli dövlət xadimini və ictimai-siyasi xadimi əlamətdar yubileyiniz – anadan olmağınızın 85 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, bu yubiley gününüzdə siz uşaqlıq çağlarınızı və Bakı Neft İnstitutunda təhsil aldığınız illəri, Balaxanı mədənlərində neftçi kimi yetişdiyiniz dövrü, sizə böyük siyasətə yol açmış neftçilərin Bakıda keçirilmiş Ümumittifaq müşavirəsini dəfələrlə xatırlayacaqsınız.

Sovetlər İttifaqı hökumətinin tərkibində olduğunuz qırx ilin hamısı sizin üçün insan qüvvəsi və imkanlarının son həddində olan gərgin əməkdə keçmişdir. İnkişafımızın müxtəlif tarixi dövrlərinə nə kimi siyasi damğalar vurulsa da, bu dövrlər necə səciyyələndirilsə də, bu, sizdən ötrü hər şeydən əvvəl iş – Vətənin faşizm təhlükəsindən müdafiəsi naminə, insanların rifahı üçün iqtisadiyyatı inkişaf etdirmək naminə iş olmuşdur.

Siz məhz öz Vətəninizdə, Azərbaycanda deputat seçilərək qırx üç il ölkənin ali qanunvericilik orqanının üzvü olmusunuz. Bu illər bizdən ötrü sizinlə əməkdaşlıq və ünsiyyət illəri idi. Azərbaycanda minlərlə adam ölkəmizin iqtisadiyyatının inkişafı üçün gördüyünüz konkret işlər barədə xatirəni qəlbində ehtiramla yaşadır. İndiki dövrdə bu ənənələri sizin başçılıq etdiyiniz Rusiya – Azərbaycan Dostluq Cəmiyyəti ahəngdar şəkildə davam etdirir.

Siz canlı bir tarixsiniz və geniş tərcümeyi-halınızın hər bir səhifəsi bizim üçün əzizdir. Bizim bir məsələdə şübhəmiz yoxdur – "Baybakov üsulu" – bu, təkcə neft laylarının problemləri deyil, hər şeydən öncə yüksək peşəkarlığın tükənməz əməksevərliklə və seçdiyi işə sədaqətlə vəhdətidir.

Qeyri-adi fitri ixtiraçılıq və alimlik istedadınız sizə bu gün də dənizdə və quruda neft yataqlarının işlənməsi sahəsində fəal axtarışlarınızı davam etdirməyə, neftçi alimlərin sırasında qalmağa imkan verir. [400-401]

Siz həm keçmiş İttifaqın, həm də Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvü olan ölkələrin çoxsaylı yüksək mükafatlarını almısınız. Bunların bir hissəsi Azərbaycanın neft mədənlərində işinizə görə, "İkinci Bakı"ya, "Üçüncü Bakı"ya görə verilmişdir. Bu gün biz "Birinci", yeganə və bənzərsiz Bakıdan sizi müstəqil Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmağınız münasibətilə təbrik edirik.

Əziz Nikolay Konstantinoviç!

Hamımız üçün əlamətdar olan bu gündə sizə möhkəm cansağlığı, xoşbəxtlik, səadət və uğurlar diləyirik.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 mart 1996-cı il* [401-402]

## BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ TƏBRİK SÖZÜ

*Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı*

*7 mart 1996-cı il*

Əziz, hörmətli qadınlar!

Sizi və sizin simanızda bütün Azərbaycan qadınlarını bayram münasibətilə – Qadınlar günü münasibətilə təbrik edirəm. Sizin hamınıza və ayrılıqda hər birinizə cansağlığı, xoşbəxtlik, səadət arzulayıram.

Qadınlar müstəqil Azərbaycan Respublikasının, Azərbaycan vətəndaşlarının, xalqımızın böyük bir hissəsini təşkil edir. Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır. Ona görə qadınların bayramını həm kişilər, həm qadınlar, bütün cəmiyyətimiz birlikdə bir əziz bayram kimi qeyd edir. Mən də bu hisslərlə, bu duyğularla sizin yanınıza gəlmişəm. Bu bayramı bu axşam sizinlə bir yerdə keçirmək məqsədi ilə buraya gəlmişəm.

Mən sizə və sizin simanızda bütün Azərbaycan qadınlarına təşəkkür edirəm. Qəhrəmanlığınıza görə, dözümlülüyünüzə görə, ölkəmizə, millətimizə, dövlətimizə sədaqətinizə görə və xüsusən Azərbaycanın son illərdəki ağır anlarında, dövrlərində dövlətçiliyimizə, bir prezident kimi şəxsən mənə dayaq olduğunuza görə sizə təşəkkür edirəm. Çox sağ olun, sizə xoşbəxtlik, cansağlığı arzulayıram. [402-403]

## GÜRCÜSTANA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALINA CAVAB

*8 mart 1996-cı il*

**Sual:** Cənab prezident, Siz bu yaxınlarda Moskvada Eduard Şevardnadze ilə görüşəndə o, qısa bəyanat verdi. Biz hiss etdik ki, Gürcüstan torpağında Sizi gözləyirlər və səfər uğurlu nəticələr verəcəkdir.

**Cavab:** Əlbəttə, şübhəsiz, Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var. Bu əlaqələri inkişaf etdirmək üçün mənim Gürcüstana səfərim çox əhəmiyyətlidir və güman edirəm, çox yaxşı nəticələr verəcəkdir. Gürcüstanda azərbaycanlılar da yaşayırlar. Onların vəziyyəti Azərbaycan üçün və şəxsən mənim üçün çox maraqlıdır. Mənim onlarla da görüşlərim olacaqdır. Səfərimin əsas məqsədi həm gürcü xalqı ilə Azərbaycan xalqı arasında dostluq əlaqələrini möhkəmləndirmək, inkişaf etdirmək, həm də Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə bir daha tanış olmaq və onlara əlimdən gələn köməyi etməkdən ibarətdir. [403-404]

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA DANIŞIQLAR BAŞA ÇATDIQDAN VƏ SƏNƏDLƏR İMZALANDIQDAN SONRA GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Tbilisi*

*8 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mənim dostum, Gürcüstan prezidenti cənab Eduard Amvrosiyeviç Şevardnadze görüşümüzün birinci günü imzalanmış sənədlər barədə sizə ətraflı məlumat verdi. Bu, məni hansısa bir informasiya verməkdən azad edir. Mən Eduard Amvrosiyeviçin dedikləri ilə, verdiyi qiymətlərlə, şərhlərlə tamamilə razıyam.

Eyni zamanda Gürcüstan ilə Azərbaycan Respublikası arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə"nin xüsusi əhəmiyyətini qeyd etmək istəyirəm. Gürcüstan ilə Azərbaycan Respublikası arasında bir çox onilliklər, yüzilliklər ərzində mövcud olan ənənəvi dostluq münasibətlərini, qonşu və yaxın dost olduğumuz, bir çox məsələləri birlikdə, lakin hərənin öz ölkəsində, regionumuzda həll etdiyini və beynəlxalq sahələrdə fəal əməkdaşlıq etdiyimizi əsas götürsək, bunun müstəsna əhəmiyyəti var.

"Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında" imzaladığımız bəyannamə çox mühümdür. Mən deyərdim ki, bu, həmin qəbildən olan ilk belə ciddi, mühüm siyasi sənəddir. Onun mühümlüyü və böyük əhəmiyyəti də bundadır ki, Qafqaz qeyri-sabitlikdən, münaqişələrdən əziyyət çəkir, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimizin, xüsusən də Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açmaqdır. İmzaladığımız sənəd məzmununa və xarakterinə görə belə bir əməkdaşlığa yol açır. O, başqalarının da qoşulması üçün açıqdır. Ona görə də ümid[404-405]var olmaq istəyirəm ki, regionumuzun digər dövlətləri, eləcə ə başqa dövlətlər bu sənədə qoşulacaqlar.

Azərbaycanda ilkin neftin Gürcüstan ərazisi vasitəsilə Qara dəniz sahilinə nəqli barədə bu gün imzalanmış sənədlərin də ox mühüm əhəmiyyəti var. Həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadiyyatı üçün əhəmiyyəti həqiqətən böyükdür. Bu, həm də dostluq, əməkdaşlıq xəttidir. Ümidvaram ki, gələcək nəsillərimiz indi bizim bu istiqamətdə gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər. Çünki Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Qara dəniz sahilinə neft kəmərinin çəkilməsi gələcəkdə iqtisadi, sosial xarakterli bir çox maraqlan özünə cəlb edəcəkdir.

Şübhəsiz ki, imzaladığımız hər bir sənəd əhəmiyyətlidir. Ona görə də mən danışdıqlarımızdan və imzaladığımız sənədlərdən, bu gün burada, Tbilisidə qarşılıqlı münasibətlərimizdə hökm sürən səmimi dostluq şəraitindən son dərəcə məmnunam. Gürcüstana dəVət olunduğuma görə, mənə və nümayəndə heyətimizin bütün üzvlərinə göstərilən səmimi münasibətə görə, – biz burada özümüzü evimizdəki kimi, qardaşlarımızın yanındakı kimi hiss edirik, buraya da bu hisslərlə gəlmişik və Tbilisidə, Gürcüstan torpağında keçirdiyimiz saatlar hisslərimizi və ümidlərimizi tamamilə doğruldur, – cənab Eduard Şevardnadzeyə minnətdarlığımı bildirirəm.

Hesab edirəm ki, ünsiyyət üçün hələ imkanımız olacaq, çünki mənim səfər proqramım kifayət qədər genişdir və yəqin ki, mətbuatla yenə görüşəcəyik. İndi isə dediklərimlə kifayətlənir, əlavə edirəm ki, mən Gürcüstan prezidenti cənab Eduard Şevardnadzeni Azərbaycana dəvət etmişdim və bu gün bu dəvəti bir daha təsdiq edirəm. Zənnimcə, burada gördüyümüz çoxlu işdən sonra belə səfər həyata keçiriləcəkdir. Diqqətinizə görə sağ olun.

**Sual: Hər iki prezident dinc Qafqaz barədə danışdılar. Ona görə də sualım hər ikisinədir. İlkin neftin Gürcüstan ərazisi vasitəsilə nəqli haqqında müqavilənin imzalanması ilə əlaqədar Rusiya yəqin ki, Qafqazda özünün təsir dairəsini müəyyən qədər itirmişdir. Sizcə, o, öz təsir dairəsini nə yolla – sülhyaratma rolu oynadığı Dağlıq Qarabağ və Abxaziya hesabına bərpa etməyə çalışacaq, yoxsa bunu nə isə başqa şeyə dəyişə bilərmi?** [405-406]

**E. Şevardnadze:** Zənnimcə, Xəzər neftinin Gürcüstan ərazisi vasitəsilə, yəni Qərb istiqamətində nəqli məsələsində heç bir sualtı maneə axtarmaq lazım deyildir. Bu, həm Gürcüstan, həm də bütün Qafqaz üçün tarixi əhəmiyyətə malik olsa da, mən deyərdim ki, adi qərardır. Burada heç bir ziddiyyət, heç bir qarşıdurma, yaxud hansısa dövlətə qarşı qəbul edilmiş qərar yoxdur. Sizə məlumdur ki, bu məsələdə iki istiqamət – Şimal və Qərb istiqamətləri var. Korporasiyaların paralel marşrutlara malik olmaq istəyi tamamilə təbii və qanunauyğundur.

Başqa sözlə, burada digər ölkələrin, üçüncü ölkələrin mənafeyinə toxunulmamışdır. Əksinə, zənnimcə, bu mənafelər maksimum nəzərə alınmışdır.

**H. Əliyev** : Mən belə hesab edirəm ki, heç kim heç nə itirməmişdir, hamı qazanmışdır.

**Sual: Cənab prezidentlər, siz Qafqazda sülh yaratmaq təşəbbüsü barədə danışdınız. "Qafqazda sülh" formulu nə dərəcədə real şəkildə işə düşəcək, bu regionun digər dövlətlərinin rəhbərlərinin sizin təşəbbüsünüzü dəstəkləyəcəyinə nə dərəcədə əminsiniz? İkinci sualım cənab Əliyevədir:**

**Siz Çeçenistandakı vəziyyəti necə qiymətləndirirsiniz və bu baxımdan neftin Şimal istiqamətində nəqlini nə dərəcədə perspektivli sayırsınız?**

**H. Əliyev:** Mən imzaladığımız bəyannamənin əhəmiyyəti barədə danışdım. Hesab edirəm ki, Eduard Şevardnadze və Heydər Əliyev çox mühüm təşəbbüs – Qafqazda sülhü möhkəmləndirmək təşəbbüsü göstərmişlər. Bundan yüksək heç nə ola bilməz. Bu təşəbbüsün həyata keçirilməsinə necə çalışacağımıza gəldikdə isə, təbii ki, asan olmayacaqdır. Amma eyni zamanda Qafqazda sülhün bərqərar olmasına kimsə müqavimət göstərsə, təbii ki, Qafqazda da, dünya ictimaiyyəti gözündə də təcavüzkar, münaqişə tərəfdarı, qeyri-sabitlik tərəfdarı kimi görünəcəkdir. Ona görə də hesab edirəm ki, sağlam düşüncə üstün gələcəkdir, Qafqazda münaqişələr və qeyri-sabitlik ucbatından indiyədək çəkdiklərimizə baxmayaraq, Qafqazda sülhə doğru inamla irəliləməliyik. Qafqaz dinc, təhlükəsiz olmalı, dinc, mehriban qonşuluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq regionu olmalıdır. Bu sualla əlaqədar bunu deyə bilərəm.

Çeçenistandakı vəziyyəti isə yəqin, məndən yaxşı bilirsiniz, xüsusən də ona görə ki, Çeçenistanla sərhədiniz var, bizim isə [406-407] yoxdur. Mən oradakı vəziyyəti qiymətləndirmək istəmirəm, şərait hər gün dəyişir. Lakin bir şeyi deyə bilərəm ki, həmişə separatçılığın, terrorçuluğun əleyhinə çıxmışıq və indi də əleyhinəyik. Bu barədə bəyanatım bundan ibarətdir. Bu vəziyyətin Azərbaycan neftinin Şimala, Rusiya ərazisi vasitəsilə Qara dəniz sahilinə nəqlinə nə dərəcədə təsir göstərəcəyinə gəldikdə isə, hesab edirəm ki, Rusiyanın dövlət və hökumət rəhbərliyi bunun qayğısına qalacaqdır.

**E. Şevardnadze:** Mən Heydər Əliyeviçin dedikləri ilə razıyam. O, bizim təşəbbüsümüz barədə ətraflı cavab verdi. Təkcə bir şeyi əlavə etmək istəyirəm. Qafqazla Birləşmiş Millətlər Təşkilatı, Avropanın təhlükəsizlik strukturları, Təhlükəsizlik Şurası, MDB məşğul olurlar. Rusiya vasitəçilik vəzifələrini yerinə yetirir. Lakin indiyədək biz Qafqaz amilinin özünü işə sala bilməmişik. Mən son illər özünü göstərən və çox ağır nəticələri olan münaqişələri nəzərdə tuturam. Zənnimcə, təşəbbüsümüzün bütün dəyəri bundadır ki, məhz Qafqaz amili işə salınacaqdır – mən Qafqaz dövlətlərini və Qafqaz xalqlarını deyirəm.

**Sual: Dağlıq Qarabağda, Abxaziyada və Çeçenistandakı münaqişələrin ümumi və fərqli cəhətləri haqqında rəyinizi bilmək istərdim.**

**H. Əliyev**: Bunların üçü də çox dəhşətli münaqişələrdir. Ancaq ən dəhşətlisi və tarixcə, zamanca ən köhnəsi Ermənistan ilə Azərbaycan arasında olan münaqişədir. Bunun səkkiz illik tarixi var. Səkkiz il öncə Ermənistan silahlı qüvvələri Azərbaycana hərbi təcavüz ediblər və Azərbaycan ərazisinin 20 faizini işğal ediblər. İşğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız qaçqın düşüb. Bu, şübhəsiz ki, nə Abxaziya – Gürcüstan münaqişəsinə, nə də Çeçenistan münaqişəsinə bənzəyir. Ona görə hesab edirəm ki, bunların hər biri xalqlar, ölkələr üçün həm dəhşətli, həm də faciəlidir. Ancaq hərəsinin özünə görə xüsusiyyətləri var. [407-408]

## GÜRCÜSTAN PARLAMENTİNİN XÜSUSİ İCLASINDA NİTQ

*Tbilisi*

*8 mart 1996-cı il*

Hörmətli Gürcüstan prezidenti cənab Eduard Şevardnadze, hörmətli parlament üzvləri! Sizi Azərbaycan xalqı adından, Azərbaycan Respublikasının vətəndaşları adından səmimi qəlbdən salamlayıram, sizə və sizin simanızda dost, qardaş gürcü xalqına, Gürcüstanın bütün vətəndaşlarına xoş arzularımı bildirirəm. Bu gün müstəqil Gürcüstan parlamentində çıxış etməkdən çox böyük iftixar hissi duyuram və bunu həyatımda əlamətdar bir hadisə hesab edirəm. Gürcüstan ilə Azərbaycan arasında, Gürcü xalqı ilə Azərbaycan xalqı arasında dostluq, qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. Biz əsrlər boyu dost, qardaş xalqlar kimi həm xoşbəxt günləri, həm də kədərli günləri, faciəli günləri bir yerdə keçirmişik. Xalqlarımız azadlıq uğrunda, milli azadlıq uğrunda, öz torpaqlarının müdafiəsi uğrunda, müstəqillik uğrunda yadelli qəsbkarlara qarşı əsrlər boyu bir yerdə mübarizə aparıb, döyüşüb, vuruşublar və öz milli mənliyini, öz milli qürurunu daim qoruyublar.

Dostluğumuz, qardaşlığımız böyük sınaqlardan keçibdir. Ötən dövrlərdə əlaqələrimiz daim sıx olubdur və biz bir-birimizə həmişə kömək etmişik, bir-birimizə dayaq olmuşuq. Bunların hamısı bizim tariximizdir, bizim keçmişimizdir, xalqlarımızın əldə etdikləri nailiyyətlərdir. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir.

Keçmiş dövrlərdə, keçmiş illərdə mən Gürcüstanda, Tbilisi şəhərində dəfələrlə olmuşam, burada keçirilən təntənəli mərasimlərdə iştirak etmişəm. Gürcüstan vətəndaşlarına, gürcü xalqına qəlbimdə, ürəyimdə olan səmimi sözlərimi çatdırmışam və keçmiş dövrlərdə Gürcüstan torpağında olan görüşlərin mənim üçün əziz xatirələrdir. Mən onları yüksək qiymətləndirirəm və heç vaxt unutmayacağam. [408-409]

Ancaq bu gün mən Gürcüstana Azərbaycan Respublikasının prezidenti kimi gəlmişəm və Gürcüstan da müstəqil dövlətdir, müstəqil respublikadır. Bizim xalqlarımız əsrin əvvəlində də müstəqillik uğrunda mübarizə aparıblar, 1918-ci ildə burada, Tbilisidə ilk dəfə həm Gürcüstan, həm də Azərbaycan xalqları ilk demokratik respublikalarının qurulması haqqında bəyanat veriblər. O vaxt yaranmış müstəqil demokratik respublikalarımız – həm Gürcüstanda, həm də Azərbaycanda çox yaşaya bilmədi. Lakin o tarixi hadisələr bizim xalqlarımızın müstəqil yaşamağa qadir olduğunu dünyaya nümayiş etdirdi. Bu gün mən böyük ehtiram hissi ilə xatırlatmaq istəyirəm ki, ilk Azərbaycan Demokratik Respublikası Azərbaycanın mütərəqqi insanları tərəfindən məhz burada, Gürcüstan torpağında, Tbilisidə 1918-ci il mayın 28-də elan olunmuşdur.

Bu gün, həm Gürcüstan, həm də Azərbaycan müstəqil dövlət kimi yaşadığı və müstəqilliyin ilk addımlarını atdığı bir zamanda mən yenə də buradayam, Gürcüstan torpağındayam, Tbilisi şəhərindəyəm və buradan müstəqil Azərbaycan dövlətinin başçısı kimi, Azərbaycan prezidenti kimi müstəqil Gürcüstan dövlətinin prezidentinə, müstəqil Gürcüstan dövlətinin parlamentinə müraciət edirəm.

Dörd ildir ki, ölkələrimiz öz dövlət müstəqilliyini əldə ediblər. Bu dörd il Gürcüstan üçün də, Azərbaycan üçün də çox ağır, əzab və əziyyətli illər olubdur. Bəzən keçmiş illəri xatırlayarkən çoxları düşünür ki, ötən illərdə sülh şəraitində yaşayırdıq, insanlar firavan yaşayırdı, belə maddi çətinliklər yox idi və bəlkə də keçmiş illəri biz gərək əlimizdən verməyəydik. Doğrudur, keçmişdə Gürcüstanın da, Azərbaycanın da böyük nailiyyətləri olubdur, bizim çox şən bayramlarımız olubdur, biz bayramlarda görüşmüşük. O vaxtlar indiki kimi ağır və çətin problemlər olmayıbdır. Biz bunları unutmamalıyıq. Ancaq eyni zamanda keçmişə nisbətən indi çox fəxr etməyə haqqımız var. Çünki bizim xalqımız üçün ən əziz, ən qiymətli olan milli azadlığı əldə etmişik, dövlət müstəqilliyini əldə etmişik.

Hesab edirəm ki, bu nailiyyətlərə görə biz bütün əzab-əziyyətlərə dözməliyik. Ümidvaram ki, biz bütün çətinliklərə dözərək milli azadlığın və dövlət müstəqilliyinin gözəl nəticələrini görəcəyik və xalqlarımızın daha da firavan həyatının şahidi olacağıq.

Mən bu gün qardaş Gürcüstan parlamentinin qarşısında bəyan edirəm ki, biz Azərbaycanda əldə etdiyimiz milli azad[409-410]lığı, dövlət müstəqilliyimizi XX əsrin ən yüksək neməti, ən yüksək nailiyyəti hesab edirik. Biz müstəqilliyimizi daimi edəcəyik, əbədi edəcəyik, qoruyub saxlayacağıq və heç vaxt dövlət müstəqilliyimizi əlimizdən verməyəcəyik.

Şübhəsiz ki, müstəqilliyin ilk addımlarını atarkən biz çox çətinliklərlə qarşılaşırıq. Bizim respublikamızda bu çətinlikləri daha da gərginləşdirən, ağırlaşdıran amil Azərbaycanın müharibə şəraitində olmasıdır. Ermənistan Respublikası tərəfindən Azərbaycana hərbi təcavüz edilməsidir. Mən böyük təəssüf hissi ilə deyirəm ki, uzun illər ərzində – on illərlə, yüz illərlə dostluq və mehribanlıq şəraitində yaşadığımız Qafqazda xüsusən Zaqafqaziyada dostluq və mehribanlıq şəraitində yaşadığımız Ermənistanla Azərbaycan arasında olan münasibətlər səkkiz il bundan öncə pozulub, Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz edilib və bunlar da çox ağır nəticələr veribdir. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində Azərbaycan

Respublikasının ərazi bütövlüyü pozulub, torpaqlarının 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunub, işğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıbdır, onlar Azərbaycanın başqa bölgələrində ağır şəraitdə yaşayırlar, əksəriyyəti neçə illərdir çadırlarda yaşayır. Müharibə nəticəsində on minlərlə vətəndaşımız həlak olub, şəhid olubdur. Azərbaycan xalqının işğal olunmuş torpaqlardakı varidatı, əmlakı viran edilib, dağıdılıb, yandırılıbdır. Bunların hamısı bizə qarşı edilən hərbi təcavüzün və Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ problemi ilə əlaqədar olan münaqişənin acı nəticələridir.

Mən hesab etmirəm ki, bu təcavüz və bu münaqişə Ermənistana çox böyük xeyir gətiribdir. Məlumdur ki, Ermənistan da bu hərbi əməliyyatları apararkən insanlar itirib, Ermənistanın iqtisadiyyatı pozulub, Ermənistan çox böyük çətinliklərlə qarşılaşıbdır. Bunlar bu günün reallığıdır. Azərbaycan sülhsevər ölkədir, Azərbaycan xalıq sülhsevər xalqdır. Biz müharibə istəmirik. Müharibəni də biz başlamamışıq. Müharibə Azərbaycanın Dağlıq Qarabağ regionunu ələ keçirmək üçün Ermənistan tərəfindən başlanıbdır. Dağlıq Qarabağ və onun ətrafında olan ərazilər erməni silahlı qüvvələri tərəfindən işğal olunub. Amma bu, müvəqqəti haldır. Biz heç vaxt ərazimizin bütövlüyünün pozulmasına razı olmayacağıq və heç vaxt da Dağlıq Qarabağı bəzi erməni millətçilərinin arzuladığı kimi Ermənistan dövlətinə birləşdirə bilməyəcəklər. [410-411]

Dünyada hökm sürən beynəlxalq hüquq normaları bir ölkə tərəfindən digər ölkənin ərazisini zəbt etməyə imkan verməyib və verməyəcəkdir. Mən əminəm ki, Azərbaycan Respublikasının işğal olunmuş torpaqları azad ediləcək. Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq. Azərbaycan Respublikasının pozulmuş sərhədləri bərpa ediləcəkdir. Ancaq biz buna artıq müharibə yolu ilə nail olmaq istəmirik. Biz sülh istəyirik. Biz hər bir təcavüzün, hər bir separatizmin, hər cür güc işlədilməsinin əleyhinəyik. Bu prinsipləri əsas tutaraq biz 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalamışıq və 21 aydır ki, atəşkəs rejiminə sadiq qalırıq. Mən bu gün bəyan edirəm ki, biz Ermənistanla Azərbaycan arasında müharibəyə son qoyulması üçün, böyük sülhün yaranması üçün atəşkəs rejiminə bundan sonra da riayət edəcəyik və bizim tərəfimizdən hərbi əməliyyatlar baş verməyəcəkdir.

Eyni zamanda Ermənistan tərəfi də bilməlidir ki, bu müharibə onlar üçün heç vaxt istənilən nəticəni verməyəcəkdir və bir daha qeyd edirəm, heç vaxt biz öz ərazimizi başqa ölkəyə verməyəcəyik. Ona görə də sülh danışıqları aparılmalıdır və bu münaqişə sülh yolu ilə aradan qaldırılmalıdır. Biz bu sahədə çox ciddi fəaliyyət göstəririk. ATƏT-in Minsk qrupu və xüsusən onun tərkibindəki ölkələr vasitəçilik edirlər. Biz Ermənistanla da birbaşa danışıqlar aparırıq və böyük sülhün əldə olunması üçün öz tərəfimizdən əlimizdən gələni edirik. Bunun üçün bizim sadə şərtlərimiz var: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, işğal olunmuş ərazilərdən silahlı qüvvələr çıxmalıdır, yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz evlərinə, obalarına qayıtmalıdırlar. Azərbaycanın sərhədləri bərpa olunmalıdır. Belə olan halda biz Dağlıq Qarabağda yaşayan ermənilərin – Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təmin olunmasına və Dağlıq Qarabağa yüksək status verilməsinə zəmanət veririk.

Biz bu şərtlərlə danışıqlar aparırıq və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu şərtlər əsasında böyük dövlətlərin, ATƏT-in, ATƏT-in Minsk qrupunun köməyi ilə xüsusən Rusiya kimi böyük dövlətin, Amerika Birləşmiş Ştatları kimi böyük dövlətin və başqa böyük dövlətlərin köməyilə bu məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Biz Azərbaycanda bilirik ki, buna bənzər problemlər Gürcüstanda da mövcuddur. Gürcüstanın da ərazi bütövlüyü pozu[411-412]lubdur. Gürcüstanda da hərbi münaqişə var və separatçı qüvvələr ölkə ərazisinin bir qismini Gürcüstandan ayırmaq istəyirlər. Biz bu cür hərəkətləri, meylləri, cəhdləri daim pisləmişik və pisləyirik. Qeyd etdiyim kimi, biz separatizmin əleyhinəyik və bu gün də separatizmin əleyhinə çıxırıq. Terrorizmin əleyhinəyik və bu gün də terrorizmin əleyhinə çıxırıq. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Gürcüstan dövlətinin və gürcü xalqının sülhsevər siyasəti və onun öz ərazi bütövlüyünün bərpa edilməsi üçün apardığı siyasət, göstərdiyi cəhdlər nəticə verəcək və biz vahid, bütöv Gürcüstanın bu bəlalardan xilas olmasını təbrik edəcəyik, alqışlayacağıq.

Bu il yanvarın 19-da Müstəqil Dövlətlər Birliyinin dövlət başçılarının Moskvadakı görüşündə Gürcüstanın Abxaziya ilə əlaqədar məsələsi müzakirə edilərkən, Gürcüstan prezidenti hörmətli cənab Şevardnadzenin təklifi müzakirə olunarkən Azərbaycan, onun prezidenti – mən Heydər Əliyev birinci olaraq Gürcüstanın mövqeyini və təkliflərini müdafiə etdim və Gürcüstanın təkliflərinin həyata keçirilməsi üçün səy göstərdim. Bu, tamamilə təbiidir, çünki Azərbaycanın da öz ərazi bütövlüyü uğrunda apardığı mübarizə, Gürcüstanın da öz ərazi bütövlüyü uğrunda apardığı mübarizə ədalətli işdir, ədalətli mübarizədir, haqq işidir və haqq işinə, ədalət işinə biz, Azərbaycan xalqı həmişə tərəfdar olmuşuq və bundan sonra da tərəfdar olacağıq.

Əziz dostlar, gördüyünüz kimi, dörd ildir ki, müstəqilik şəraitində yaşayırıq, amma nə qədər ağır problemlərlə rastlaşmışıq. Problemlər də bir-birinə bənzərdir, bir-birinə oxşayır, yəni dərdimiz birdir, ağır dərddir, çətin dərddir. Amma mən inanıram ki, biz bu dərdlərdən xilas olacağıq. İnanıram ki, gürcü xalqı da, Azərbaycan xalqı da xoşbəxt gələcəyə çıxacaqdır. İnanıram ki, müstəqil Gürcüstan və müstəqil Azərbaycan Respublikası müstəqil dövlət kimi yaşayacaqlar və xoşbəxt gələcəyə nail olacaqlar.

Bunun üçün biz çalışırıq ki, Gürcüstan ilə Azərbaycan arasında olan dostluq əlaqələrini daha da möhkəmləndirək, daha da inkişaf etdirək. Məhz buna görə mən dostum cənab Şevardnadzenin dəvətini qəbul

edib Gürcüstana rəsmi səfərə gəlmişəm. Məhz buna görə mən bu gün sizinlə, Gürcüstan parlamenti ilə görüşə gəlmişəm. Hesab edirəm ki, indiyədək gördüyümüz işlərə əlavə olaraq bu səfər ərəfəsində bir çox [412-413] işlər görmüşük və o işlərin də nəticələri bu gün imzalanmış çox əhəmiyyətli sənədlərdə öz əksini tapıbdır.

Bu gün biz Gürcüstan ilə Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında böyük bir müqavilə imzaladıq. İlk dəfə olaraq Azərbaycan Respublikasının prezidenti və Gürcüstan prezidenti Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında çox dəyərli bir bəyannamə imzaladılar. Bu iki tarixi sənəd bir-birini tamamlayan sənədlərdir, ikisi birlikdə böyük bir kompleks təşkil edir. Əgər birinci sənəd yalnız Gürcüstanla Azərbaycan Respublikası arasında olan əlaqələrin hüquqi əsasını yaradır və inkişaf etdirirsə, ikinci sənəd Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün böyük yollar açır. Mən əminəm ki, cənab Şevardnadzenin və mənim imzaladığımız bu bəyannaməyə Qafqazın sülhsevər qüvvələri, sülhsevər dövlətləri, respublikaları da qoşulacaqlar və bu, Qafqazda sülh, əmin-amanlıq yaratmaq üçün yaxşı bir əsas olacaqdır.

Azərbaycanda bundan sonra çıxarılacaq neftin Qara dənizə nəql olunması üçün neft kəmərinin Gürcüstan ərazisindən çəkilməsi haqqında bu gün Gürcüstan ilə Azərbaycan Respublikası arasında bir neçə çox mühüm, dəyərli sənəd imzalandı. Azərbaycan neftinin iki marşrut ilə – şimaldan Rusiya ərazisi ilə və qərbdən Gürcüstan ərazisi ilə Qara dəniz sahilinə ixrac olunması haqqında qəbul edilmiş qərar Azərbaycan Respublikasının Gürcüstan ilə dostluq və qardaşlıq əlaqələrini geniş nümayiş etdirən bir amildir. Biz bu qərarı qəbul edərkən üzərimizə böyük məsuliyyət götürmüşük və bu məsuliyyətin ağırlığını da dərk edirik. Lakin bu qərarı qəbul edərkən həm cəsarət nümayiş etdirmişik, həm də Qafqazda Gürcüstan ilə Azərbaycan Respublikası arasında dostluğun, qardaşlığın daha da möhkəm olması üçün dəyərli bir addım atmışıq. Mən ümidvaram ki, bizim bu qərarımız böyük gələcək işlərin başlanğıcıdır.

Bilirsiniz ki, Azərbaycanda 1994-cü ilin sentyabrında imzalanmış neft müqaviləsi 30 il müddətində bağlanıbdır. Ancaq hesab edirəm ki, 30 il də son hədd deyildir. Azərbaycanın çox bol, zəngin neft yataqları var, onların istismar olunması və onun bir hissəsinin Gürcüstan ərazisindən ixrac edilməsi bundan sonra nəinki illər, hətta on illər ərzində davam edəcəkdir və bu da bizim aramızda olan dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirəcəkdir. [413-414]

Deyiləsi sözlərim çoxdur. Lakin vaxtınızı çox almaq istəmirəm, çünki məsələlərin çoxunu siz özünüz bilirsiniz. Mən yalnız bir-iki məsələnin üzərində dayandım. Ancaq bir neçə kəlmə də Azərbaycanda indiki vəziyyət barədə demək istəyirəm.

Qeyd etdim ki, Azərbaycan dörd ildir müstəqil dövlət kimi yaşayır. Biz Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq. Bu, strateji yolumuzdur və biz bu yoldan heç vaxt dönməyəcəyik. Həyatımızın bütün sahələrində demokratiyanın inkişafı üçün lazımi tədbirlər görürük. Azərbaycanda siyasi plüralizm, din azadlığı, vicdan azadlığı – insanların bütün azadlıqları təmin olunur və təmin olunacaqdır. Azərbaycan çoxmillətli ölkədir və biz buna görə iftixar hissi duyuruq. Bunu müsbət bir hal hesab edirik. Azərbaycanda yaşayan bütün vətəndaşlar dilindən, dinindən, milliyyətindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər və Azərbaycan onların hamısı üçün doğma vətəndir.

Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir. Biz aqrar sektorda və iqtisadiyyatın bütün sahələrində islahatlar aparırıq. Mülkiyyətin özəlləşdirilməsini bazar iqtisadiyyatına böyük bir yol kimi qəbul etmişik. Biz iqtisadiyyatı bu yolla aparacağıq və iqtisadiyyatımızda, ictimai-siyasi həyatımızda demokratiya yolu ilə gedəcəyik. Keçmiş sosialist rejiminə Azərbaycanda daha yol yoxdur. Azərbaycan xalqının yolu demokratiya yoludur, bazar iqtisadiyyatı yoludur, dövlət müstəqilliyi yoludur.

Bu prinsiplər əsasında biz 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik. Noyabrın 12-də müstəqil Azərbaycan Mili Məclisini ilk dəfə çoxpartiyalı sistem əsasında, demokratik prinsiplər əsasında seçmişik.

1988-ci ildən sonra Azərbaycanın həyatında Ermənistanın təcavüzü ilə yanaşı, daxildə də çox mürəkkəb proseslər gedibdir. Azərbaycan xalqının başına gəlmiş bəlalardan ən faciəlisi 1990-cı il yanvarın 20-də xalqımıza qarşı sovet ordusu tərəfindən edilmiş hərbi təcavüzdür və baş vermiş faciədir. Erməni silahlı qüvvələrinin Azərbaycana təcavüzü nəticəsində, dediyim kimi, çox şəhidlər, çox qurbanlar olubdur. Ancaq dörd il bundan öncə, 1992-ci il fevralın 26-da Qarabağda Xocalı adlı böyük bir yaşayış məntəqəsində Azərbaycan xalqına qarşı [414-415] soyqırımı törədilib və yüzlərlə, minlərlə azərbaycanlı qadın, qoca, körpə, günahsız insan vəhşicəsinə öldürülübdür.

Bu faciəli hallarla yanaşı, Azərbaycanın daxilində cürbəcür qüvvələr, cürbəcür qruplar hakimiyyət uğrunda mübarizə apararaq ictimai-siyasi vəziyyətin sabitliyini pozmuş və uzun illər Azərbaycanın daxilində vəziyyət çox gərgin olmuşdur. 1993-cü ilin ortalarında – iyun ayında Azərbaycanda vətəndaş müharibəsi baş vermiş, Azərbaycanda dövlət böhranı meydana gəlmiş və Azərbaycan böyük bir fəlakət qarşısında durmuşdu. Respublikanın ziyalıları, ağsaqqalları, hörmətli adamları məni Bakıya dəvət etdilər və o vaxtdan mən yenə də Azərbaycandayam, Bakıdayam.

Ötən iki il yarım müddətində Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi üçün çox tədbirlər görülübdür. Bir neçə dəfə dövlət çevrilişi cəhdləri olmuşdur. Bunların qarşısını biz xalqın gücü ilə, xalqın milli həmrəyliyi ilə ala bildik və indi artıq Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir. Doğrudur,

bu cinayətkarların, terrorçuların bir hissəsi qaçıb xarici ölkələrdə, o cümlədən Moskva şəhərində gizlənir. Ancaq artıq bütün dünya da bilir və Azərbaycan xalqı da bilir ki, Azərbaycanda daxili ictimai-siyasi sabitliyi pozmaq mümkün deyildir, Azərbaycan xalqı həmrəydir, yekdildir və Azərbaycanın dövlətçiliyini, Azərbaycanın müstəqilliyini əzmlə qoruyur.

Bu proseslər sizin ölkənizdə də olubdur. Siz bunlarla tanışsınız. Ona görə də siz bizim vəziyyətimizi başqalarından daha yaxşı başa düşə bilərsiniz. Biz sizin ölkədə bu proseslər gedəndə həmişə narahatlıq hissi keçirmişik və bilirəm ki, sizin ölkə də, gürcü xalqı da Azərbaycanın daxilində bu ağır proseslər gedən zaman narahat olmuşdur. Əminəm ki, bundan sonra Gürcüstanda da, Azərbaycanda da ictimai-siyasi sabitlik davam edəcək və biz də, siz də əl-ələ verib bu sabitliyi qoruyacağıq.

Gürcüstanda bizi cəlb edən cəhətlərdən biri də odur ki, ölkədə azərbaycanlı millətinə mənsub olan yüz minlərlə vətəndaşınız yaşayır. Gürcüstanda olan azərbaycanlılar Gürcüstan vətəndaşlarıdır. Onlar eyni zamanda bizim soydaşlarımızdır, doğma bacı və qardaşlarımızdır. Mən çox məmnunam ki, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcü xalqı ilə Azərbay[415-416]can xalqı arasında olan dostluq əlaqələrinin daha da möhkəmlənməsi üçün çalışırlar və bu əlaqələr üçün böyük bir körpüdürlər.

Gürcüstan parlamentinə ilk dəfə bir qrup azərbaycanlının – Gürcüstan vətəndaşlarının seçilməsi Azərbaycanda çox müsbət hadisə kimi qarşılandı və mən böyük məmnuniyyət hissi ilə bunu Gürcüstanda demokratiyanın mövcud olduğunun və inkişaf etdiyinin təzahürü kimi qiymətləndirirəm. Ümidvaram ki, Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra Gürcüstanın ictimai-siyasi həyatında daha fəal iştirak edəcək, Gürcüstanın müstəqilliyinin qorunmasına səy göstərəcək və vahid Gürcüstanın möhkəmlənməsi üçün Gürcüstan dövlətinin dayağı olacaqlar.

Əziz dostlar, əziz qardaşlar, mən hələ sabah da burada olacağam. Cənab Şevardnadze ilə bizim danışıqlarımız davam edəcəkdir. Ümidvaram ki, bizim bu görüşlərimiz, danışıqlarımız Gürcüstan ilə Azərbaycan Respublikası arasında olan dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Gürcü xalqına, Gürcüstana əmin-amanlıq və qarşıda duran bütün vəzifələrin həyata keçirilməsində uğurlar diləyirəm. Ümidvaram ki, Gürcüstan parlamenti ilə Azərbaycan Respublikasının parlamenti arasında yaranmış dostluq əlaqələri bundan sonra inkişaf edəcək və parlamentlər də bizim ölkələrin prezidentlərinə bu dostluğun, bu qardaşlığın inkişaf etməsi üçün öz səylərini göstərəcəklər.

Sizin hamınıza öz hörmətimi, məhəbbətimi, sevgimi bildirirəm. Bütün gürcü xalqına, Gürcüstan vətəndaşlarına hörmətimi və məhəbbətimi bildirirəm. Sağ olun. [416-417]

## GÜRCÜSTAN PREZİDENTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

*8 mart 1996-cı il*

Cənab prezident, hörmətli parlament sədri, hörmətli xanımlar və cənablar! Bu gün bizim üçün, mənim üçün və mənimlə Gürcüstana, onun paytaxtı Tbilisi şəhərinə gələn Azərbaycan nümayəndə heyəti üçün çox əlamətdar bir gündür. Mənim dostum Eduard Şevardnadze bunu tarixi bir hadisə kimi qiymətləndirdi. Güman edirəm o mənada ki, müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan Respublikası arasında çox böyük əhəmiyyətli sənədlər imzalanıbsa və iki ölkənin, iki respublikanın, iki xalqın, iki müstəqil dövlətin başçıları bir araya gəlib, görüşüb gələcək əməkdaşlığı daha da inkişaf etdirmək üçün lazımi qərarlar qəbul ediblərsə, bu, doğrudan da tarixi hadisədir.

Allah-Taala bizim xalqlarımıza böyük nemət bəxş edibdir. Bu da ondan ibarətdir ki, xalqlarımıza qonşu olmaq, bir-biri ilə sıx əlaqədə yaşamaq taleyi qismət edibdir. Bu, doğrudan da böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyin bəhrələrini bizim əcdadlarımız, ulu babalarımız görüblər. Bizim üzərimizə düşən vəzifə bu ənənələri yaşatmaqdan, davam etdirməkdən və gələcək nəsillərə daha yüksək səviyyədə çatdırmaqdan ibarətdir. Allah-Taalanın bizə bəxş etdiyi bu tale bizi əsrlər boyu bir-birimizlə bağlayıb və biz də bir-birimizə dost və qardaş olaraq bərabər yaşayıb, bərabər çalışıb bu günlərə, bu xoşbəxt günlərə gəlib çıxmışıq. Bizdən əvvəl neçə-neçə nəsillər bu dostluğu, qardaşlığı yaradıblar, yaşadıb inkişaf etdiriblər. Bizim də xoşbəxtliyimiz ondadır ki, biz bu dostluq, qardaşlıq əlaqələrini XX əsrin ikinci yarısında, XX əsr sona çatan zaman yaşadıb gələcək nəsillərə çatdıracağıq.

Tarix boyu xalqlarımızın bir-biri ilə sıx əlaqələri haqqında burada saysız-hesabsız dəlillər, faktlar gətirmək olar. Bizim mütəfəkkir insanlar, ziyalılar, alimlər, yazıçılar, bəstəkarlar, [417-418] rəssamlar, adi adamlar daim dostluq edib, ağır gündə bir-birinə dayaq olub, şən gündə isə bir-birinin məclisində əyləşiblər. Dostum Eduard Şevardnadze bizim böyük şairimiz Səməd Vurğunun sözlərini xatırladı. Mənim isə Səməd Vurğunla Georgi Leonidzenin dostluğu xatirimdədir. Bu, nə qədər də səmimi bir dostluq idi! Onlar bizim xalqlara nə qədər böyük töhfələr verib gediblər! Onların və eyni zamanda Qriqol Abaşidzenin və Rəsul Rzanın. İrakli Abaşidzenin və Səməd Vurğunun, müasirlərimizin bizə bəxş etdikləri irslər hamımız üçün həm qiymətlidir, həm də bu dostluğumuzu irəliyə aparmaq üçün böyük mənbədir. Bu gün bizim nümayəndə heyətinə mərhum Səməd Vurğunun oğlu Yusif Səmədoğlu da daxildir. O, bizim parlamentin üzvü və parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının sədridir.

Bütün bunlar birgə tariximizin gözəl səhifələridir. Bu gün biz də tarix yazırıq. Eduard Şevardnadze ilə mənim dostluğumun 30 illik tarixi var. Bəlkə də bundan bir qədər artıqdır. Mən 30 il deyirəm ki, tamamilə dəqiq olsun. Eduard Şevardnadze Gürcüstanda, mən isə Azərbaycanda çox mühüm məsələlərin həlli ilə məşğuluq. 1969-cu ildə mən Azərbaycanın başçısı seçildim, 1972-ci ildə isə Eduard Şevardnadze Gürcüstanın başçısı seçildi. Biz çox səmərəli dostluq və əməkdaşlıq etdik.

Mən bütün tarixi keçmişə çox yüksək qiymət verirəm. Ancaq eyni zamanda hesab edirəm ki, Eduard Şevardnadze ilə Heydər Əliyev Gürcüstanın və Azərbaycanın başçıları olduqları dövr Gürcüstan-Azərbaycan əlaqələrinin ən parlaq dövrü olmuşdur. Sonra tale bizim ikimizi də Moskvaya apardı. Mən Zaqafqaziyada Eduarddan qabaqda getdiyimə görə Moskvaya da ondan əvvəl getmişəm. 1982-ci ilin sonunda mən Moskvaya getdim. 1985-ci ilin ortalarında isə Eduard Şevardnadze Moskvaya gəldi. Orada da bir neçə il çox səmərəli əməkdaşlıq etdik. Mənə belə gəlir ki, fəaliyyətimizin əsas cəhəti ondan ibarət olub ki, biz xalqımıza, millətimizə, ölkəmizə sadiq olmuşuq və axıra qədər də sadiq qalmışıq.

Sonra yenə bizim həyatımızda olan dəyişikliklər eyni zamanda baş veribdir. 1987-ci ilin sonunda mən Moskvada işdən istefa verdim. Məndən bir neçə il sonra, 1991-ci ildə Şevardnadze istefa verdi. Doğrudur, məndən sonra nədənsə bir qədər gecikdi. Buna görə də mən ona xəbər göndərdim ki, yaxşı [418-419] deyil, gecikmə. Nəhayət, Eduard Şevardnadze 1991-ci ilin sonunda yenidən Gürcüstanın rəhbərliyinə gəldi.

**Eduard Şevardnadze:** Bizim tərəfimizdən hər şey əvvəlcədən razılaşdırılmışdı.

**Heydər Əliyev:** Bu dəfə o, məni qabaqladı. Sonra mənə xəbər göndərdilər ki, mən də gəlməliyəm. Amma mən gəlmədim. Nəhayət, 1992-ci ildə mən də gəlməli oldum və beləliklə, Eduard Şevardnadze Gürcüstanın, Heydər Əliyev də Azərbaycanın rəhbəri oldular. Bu, tarixdə bəlkə də nadir bir hadisədir. Ancaq ikimizin də həyat yolumuz, talelərimiz bir-birinə çox bənzərdir və bir-biri ilə çox sıx əlaqədardır.

Mən deyə bilərəm, keçmiş Sovetlər İttifaqında elə bir respublika yoxdur ki, onların rəhbərləri bir çox illər əvvəl vəzifədən getmiş olsun, sonra da başqa bir keyfiyyətdə yenidən respublikanın rəhbərliyinə qayıtsınlar. Deməli, bu onu göstərir ki, biz xalqımıza sədaqətlə xidmət etmişik ki, xalq bizi ikinci dəfə də dəvət edir.

Məsələn, bizim keçmiş həmkarlarımızdan Qorbaçov yenidən gedib Stavropolda qubernator ola bilərmi? Ola bilməz! Yaxud Liqaçov gedib Tomskda qubernator ola bilərmi? O da ola bilməz! Bax, budur, bizim onlardan fərqimiz.

Biz öz xalqımıza, millətimizə daim minnətdar olmalıyıq. Ona görə yox ki, biz yenidən bu yüksək vəzifələrə gəlmişik. Ona görə ki, ağır proseslər getdiyi bir zamanda xalq bizi unutmayıb və bizə ehtiyac duyubdur, bizi yenə də özünə rəhbər dəvət edibdir. Sizin vaxtınızı alıb bunları danışmaqda məqsədim dostum, qardaşım Eduard Şevardnadzenin Gürcüstan üçün nə qədər böyük xidmətlər göstərdiyini bir daha qeyd etmək və Gürcü xalqı qarşısında onun nə qədər böyük hörmət qazandığını bir daha bildirməkdir.

Özüm haqqında isə sadəcə olaraq ona görə dedim ki, biləsiniz, mən də Eduard Şevardnadze ilə birlikdə olmuşam. Çünki bunu deməsəydim, mənzərə tamamilə aydın olmazdı. Biz keçmişdə nə qədər böyük xidmətlər göstərmiş olsaq da, indi qarşımızda duran vəzifələr onlardan daha ağır, daha çətin və eyni zamanda daha yüksək vəzifələrdir. Mən əminəm ki, dostum Eduard Şevardnadze Gürcüstan dövlətinin başçısı kimi, Gürcüstanın prezidenti kimi bu vəzifələri keçmişdə olduğu təki, yenə də layiqincə yerinə yetirəcək və Gürcüstanı, Gürcü xalqını bu ağır mərhələdən məharətlə keçirib gözəl gələcəyə [419-420] aparacaqdır. Ona görə də Azərbaycan ilə Gürcüstan arasındakı əlaqələrin yeni mərhələsi bizim üçün çox mühüm, çox əhəmiyyətlidir və çox da məsuliyyətlidir. Mən bu məsuliyyəti dərk edərək, dostum Eduard Şevardnadzenin dəvətini qəbul edib sizin yanınıza gəlmişəm, sizə qonaq gəlmişəm. Bu məsuliyyətimi dərk edərək bu gün böyük məmnuniyyətlə ölkəmiz arasında, dövlətlərimiz arasında olan çox əhəmiyyətli və çox böyük gələcəyə malik sənədləri imzalamışıq.

Əziz gürcü qardaşlarım və bacılarım, əmin ola bilərsiniz ki, azərbaycanlılar dostluğa çox sadiq adamlardır. Şəxsən mən də o sadiq adamlardan biriyəm. Sizi əmin edirəm ki, bundan sonra da Gürcüstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrini inkişaf etdirmək üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün imzaladığımız sənədlər haqqında Eduard Şevardnadze çox gözəl danışdı. Mən onun fikirləri ilə tamamilə razıyam. Kür çayı həmişə Gürcüstandan axıbdır. Amma o öz mənbəyini Türkiyədən götürüb. Kür çayı bundan sonra da axaraq gəlib Xəzər dənizinə töküləcəkdir. Azərbaycan nefti də neft kəməri ilə Gürcüstana, Gürcüstan ərazisindən isə Qara dənizə daim axacaqdır.

Mən rica edirəm bu badələri Gürcü xalqının şərəfinə qaldıraq. Azad, müstəqil, demokratik Gürcüstanın şərəfinə, Gürcüstanın çox dəyərli rəhbəri və gürcü xalqının böyük oğlu Eduard Şevardnadzenin şərəfinə, Gürcüstan parlamenti sədrinin şərəfinə, Gürcüstanın burada iştirak edən başqa rəhbərlərinin şərəfinə, Gürcü və Azərbaycan xalqlarının əbədi dostluğunun şərəfinə. Sağ olun. [420-421]

## TBİLİSİ NƏBATAT BAĞINDA FƏTƏLİ XAN XOYSKİNİN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*9 mart 1996-cı il*

Hörmətli cənab prezident Eduard Şevardnadze!

Hörmətli dostlar, hörmətli gürcü qardaşlarımız, bacılarımız!

Biz ikinci gündür ki, əziz Gürcüstan torpağında qonağıq. Gürcüstanın prezidenti, mənim əziz .dostum Eduard Şevardnadzenin, gürcü xalqının qonağıyıq. İki gündür ki, biz gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan dostluğun keçmiş səhifələrini vərəqləyirik, dostluğun bu gün möhkəmlənməsi və gələcəkdə daha da möhkəm olması üçün çalışırıq.

Biz indi, bu dəqiqələrdə Gürcüstanın Tbilisi şəhərində, təbiətin gürcü xalqına bəxş etdiyi ən gözəl guşələrdən birindəyik. Böyük iftixar, məhəbbət hissi ilə qeyd edirəm ki, bu gözəl guşələrdən birində Azərbaycanın böyük övladları, böyük şəxsiyyətləri əbədiyyətə qovuşublar, əbədi uyuyurlar.

Azərbaycan xalqının böyük oğlu, mütəfəkkir insan, yazıçı, şair, alim, filosof, dövlət xadimi Mirzə Fətəli Axundovun məzarı buradadır. Onun övladlarının, qohum-əqrəbalarının məzarları da buradadır. Mirzə Fətəli Axundovun məzarı qarşısında, onun ruhu qarşısında Azərbaycan xalqı adından baş əyirəm, ona Allahdan bir daha, bir daha rəhmətlər diləyirəm.

Biz Azərbaycan xalqının görkəmli oğlu Mirzə Şəfi Vazehin qəbri önündəyik. Azərbaycan xalqının elminin, mədəniyyətinin inkişafında Mirzə Şəfi Vazehin böyük xidmətləri olubdur. O öz yaradıcılığı, fəaliyyəti ilə tarixdə böyük iz qoyubdur. Biz onun məzarı qarşısındayıq. Mən onun ruhu qarşısında baş əyirəm və ona Allahdan rəhmət diləyirəm.

Biz Azərbaycanın görkəmli oğlu, böyük dövlət xadimi, ictimai-siyasi xadim Fətəli xan Xoyskinin məzarı önündəyik. Fətəli xan Xoyskinin xatirəsini əbədiləşdirmək üçün məzarı üzərində onun büstünü gürcü qardaşlarımızla birlikdə təntənəli surətdə açdıq. Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin Azərbaycan elminin, mədəniyyətinin inkişafında böyük xidmətlərini qeyd edərək, eyni zamanda Fətəli xan Xoyskinin xalqımızın həyatında, ilk Azərbaycan Demokratik Respublika[421-422]sının yaradılmasında böyük xidmətlərini biz bu gün minnətdarlıq hissi ilə qeyd edirik.

1918-ci ildə Cənubi Qafqazda – Gürcüstanda, Azərbaycanda, Ermənistanda çox böyük ictimai-siyasi proseslər gedən vaxt, bizim xalqlarımız – gürcü və Azərbaycan xalqları öz milli azadlıqları uğrunda mübarizə apardığı, öz müstəqil dövlətçiliyini qurmaq əzmində olduğu zaman bu böyük hadisələr, bu siyasi proseslər məhz burada, Gürcüstan torpağında, Tbilisidə baş vermişdir və Azərbaycanın görkəmli şəxsiyyətləri, o cümlədən Fətəli xan Xoyski də burada Azərbaycanın müstəqilliyi üçün çalışmış və böyük xidmətlər göstərmişdir.

Biz Azərbaycan Respublikasında, müstəqil ölkəmizdə bu gün müstəqil dövlət kimi yaşayırıq, öz milli azadlığımızın möhkəmlənməsi üçün çalışaraq 1918-ci ildə Azərbaycanda ilk demokratik, müstəqil dövlətin, müstəqil demokratik hökumətin yaranmasını böyük iftixar hissi ilə qeyd edirik. İlk Azərbaycan Demokratik Respublikasının yaradıcılarını bu gün böyük minnətdarlıq hissi ilə xatırlayırıq. İlk Azərbaycan Demokratik Respublikasının yaradıcıları, rəhbərləri Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyov və başqaları Azərbaycan xalqının tarixində böyük xidmətlər göstərmişlər və Azərbaycanda ilk dəfə müstəqilliyin, müstəqil dövlətçiliyin, demokratiyanın əsasını qoymuşlar. Çox səciyyəvidir ki, bu proseslər burada – Tbilisidə olmuşdur. Bizim Azərbaycanın nümayəndələri o vaxt Cənubi Qafqaz Seymi yaratmaq üçün gürcü qardaşlarımızla bərabər çalışmışlar. Nəhayət, bu proseslərin nəticəsi ondan ibarət olmuşdur ki, 1918-ci il mayın 26-da Gürcüstanın görkəmli şəxsiyyətləri Gürcüstan Demokratik Respublikasını dünyaya bəyan etmişlər və ondan iki gün sonra – 1918-ci il mayın 28-də məhz burada, Gürcüstan torpağında, Tbilisi şəhərində Azərbaycanın görkəmli şəxsiyyətləri ilk Azərbaycan Demokratik Respublikasının yaranmasını bütün dünyaya bəyan etmişlər.

Bu gün qeyd etmək lazımdır ki, o günlər Bakıda erməni daşnak qüvvələri hakimiyyətdə olduğuna görə, xalqımıza qarşı təxribat edən, Azərbaycan xalqının müstəqilliyinə maneçilik törədən başqa qüvvələr olduğuna görə ilk Azərbaycan Demokratik Respublikası bir müddət burada, Tbilisi şəhərində fəaliyyət göstərmiş, 1918-ci ilin iyun ayında buradan Gəncə şə[422-423]hərinə və nəhayət, 1918-ci ilin sentyabrında Azərbaycanın paytaxtı Bakı şəhərinə köçə bilmişdir.

O ağır və çətin dövrdə ilk Azərbaycan Demokratik Respublikasının baş naziri vəzifəsini Azərbaycanın görkəmli oğlu Fətəli xan Xoyski öz üzərinə götürmüş, bu vəzifəni layiqincə həyata keçirmiş və xalqımız qarşısında böyük xidmətlər göstərmişdir. Azərbaycanın ilk demokratik respublikası cəmi 23 ay yaşaya bilmişdi. O, sonra devrilmiş, amma buna baxmayaraq, Azərbaycanda dövlətçiliyin, müstəqilliyin, demokratiyanın ilk carçısı olmuş, ilk addımlar atmışdır. 1991-ci ildə Azərbaycan xalqı öz milli azadlığına nail olandan və dövlət

müstəqilliyini əldə edəndən sonra, şübhəsiz ki, bu şəxsiyyətlər və onların arasında Fətəli xan Xoyski öz tarixi xidmətlərinə görə bizim üçün daha da əziz, daha da yaxın olmuşlar.

Gürcü xalqı ilə Azərbaycan xalqı arasında tarixi dostluğu bu gün nümayiş etdirən faktlar məhz bundan ibarətdir ki, Azərbaycan Demokratik Respublikasını yaradanlar onu Gürcüstan torpağında yaratmışlar, burada fəaliyyət göstərmiş, gürcü xalqının köməyindən istifadə etmişlər.

Azərbaycanın dəyərli oğulları Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Fətəli xan Xoyski dünyalarım dəyişəndən sonra da məhz Tbilisidə – Gürcüstan torpağında əbədiyyətə qovuşmuşlar. Fətəli xan Xoyski burada – Tbilisidə ilk Azərbaycan Demokratik Respublikasının baş naziri vəzifəsinə seçilmiş və 1920-ci ildə erməni terrorçularının gülləsindən Tbilisi torpağında həlak olaraq burada dəfn edilmişdir.

Azərbaycan xalqı gürcü xalqına daim minnətdardır və daim minnətdar olacaq, bir də ona görə ki, Azərbaycanın görkəmli şəxsiyyətləri Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh və Fətəli xan Xoyskinin məzarlarını on illərlə, yüz illərlə burada qoruyub saxlayıb. Azərbaycanın görkəmli şəxsiyyətləri bu müqəddəs torpaqda əbədiyyətə qovuşublar və beləliklə, bu müqəddəs torpaq, Gürcüstanın bu gözəl guşəsi – indi bizim olduğumuz bu guşə Azərbaycanın da bir hissəsini təşkil edir.

Bu gün biz Fətəli xan Xoyskinin məzarı üzərində ona layiq olan büstü açdıq. Bu büstün hazırlanmasında, bu qəbrin üzərinin götürülməsində və onun layiqli şəklə salınmasında Azərbaycanın Şəmkir rayonu icra hakimiyyətinin başçısı Aslan Aslanovun xidmətlərini mən qeyd etmək istəyirəm. Ancaq durduğumuz bu ərazidə, bu gözəl guşədə Azərbaycan övladlarının məzarlarının qorunub saxlanılması üçün keçmişdə də, bu gün[423-424]də xidmətlər göstərən gürcü xalqına, gürcü qardaşlarımıza, müstəqil Gürcüstana və onun dəyərli rəhbəri, əziz Eduard Şevardnadzeyə hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Gürcüstana dünəndən başlanmış rəsmi səfərimizdə Azərbaycandan gələn nümayəndələrə, mənə gürcü xalqı, prezident Eduard Şevardnadze tərəfindən göstərilən qonaqpərvərlik, mehribanlıq, dostluq hissləri bizi daha da coşdurur, sevindirir, bizdə yeni böyük hissiyyatlar yaradır. Biz bunu heç vaxt unutmayacağıq. Bu günlər, bu dəqiqələr, bax, bizim indiki bu görüşümüz Gürcüstan və Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin parlaq səhifələrindən biri olacaqdır. Mən heç şübhə etmirəm ki, bu yer, bu gözəl guşə, Azərbaycanın görkəmli övladlarının, şəxsiyyətlərinin qəbirləri xalqımız üçün və o cümlədən gürcü qardaşlarımız üçün ibadətgah olacaqdır. Həm Gürcüstanda yaşayan azərbaycanlılar, həm də Gürcüstana qonaq gələn azərbaycanlılar buranı daim ziyarət edəcəklər və bu yer Gürcüstan ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələrinin daim rəmzi olacaqdır.

Azərbaycanın görkəmli şəxsiyyətləri Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin, Fətəli xan Xoyskinin ruhları qarşısında, onların qəbirləri önündə mən bir daha baş əyirəm. Onlara Allahdan rəhmət diləyirəm. Azərbaycan xalqına və gürcü xalqına qarşıda duran ağır və çətin vəzifələrin həyata keçirilməsində, Azərbaycanın və Gürcüstanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində nailiyyətlər, xalqlarımıza səadət, xoşbəxtlik, bütün işlərində uğurlar diləyirəm. Bir daha təşəkkür edirəm, cənab Şevardnadze, əziz dostum, qardaşım, mən sənə minnətdaram ki, biz burada bir yerdəyik və siz Azərbaycan oğullarına bu qədər hörmət və ehtiram etmisiniz. Çox sağ olun. [424-425]

## CÜMƏ MƏSCİDİNDƏ MÖMİN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ

*Tbilisi*

*9 mart 1996-cı il*

Əziz bacılar və qardaşlar!
Əziz dostlar!

Azərbaycan Respublikasının Prezidenti kimi mən Gürcüstan Prezidenti Eduard Şevardnadzenin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Biz iki gündür ki, gürcü xalqının qonaqpərvərliyi ilə əhatə olunmuşuq və burada gürcü xalqı ilə Azərbaycan xalqı arasında və respublikalarımız arasında olan dostluq əlaqələrinin möhkəmlənməsi və inkişaf etməsi üçün lazımi tədbirlər görürük.

Mən buraya Azərbaycanın böyük şəxsiyyətləri Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh və Fətəli xan Xoyskinin qəbirlərini ziyarət edəndən sonra, Azərbaycanın böyük şəxsiyyəti, Azərbaycanın ilk demokratik respublikasının Baş naziri Fətəli xan Xoyskinin qəbri üzərindəki abidənin açılması mərasimindən sonra gəlmişəm.

Bura Azərbaycan müsəlmanlarının məscididir. Bu, Allah evidir, müqəddəs evdir. Məscidə gəlmək, Allaha itaət etmək, Allahın əmrlərini yerinə yetirmək hər bir insanın, müsəlmanın borcudur. Mən çox məmnunam ki, Gürcüstan torpağında, Tbilisi şəhərində azərbaycanlıların belə bir ibadət yeri var, özlərinin məscidi var. Bu məsciddə hər bir azərbaycanlı, hər bir müsəlman gəlib Allaha ibadət edir, dua edir, öz müsəlmanlıq borcunu yerinə yetirir. Bu, böyük nemətdir. Eyni zamanda bu, gürcü xalqının Azərbaycan xalqına və bütün xalqlara nə qədər xoş münasibəti olduğunu göstərir. Bu, gürcü xalqının başqa dinlərə çox dəyərli münasibətini göstərir. Mən bunu çox qiymətləndirirəm.

Siz, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın vətəndaşlarısınız. Gürcüstanın həyatının bütün sahələrində öz fəaliyyətinizi göstərirsiniz və bundan sonra da göstərəcəksiniz. Məmnuniyyətlə qeyd edə bilərəm ki, mənim dostum, hörmətli Eduard Şevardnadze Gürcüstana başçılıq edəndən sonra Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti yaxşılaşıb, Gürcüstanda yaşayan azərbaycanlılar, doğrudan da, bütün hü[425-426]quqlarına malik olublar və bu hüquqlardan istifadə etmək imkanı qazanıblar. Sizin bu hüquqlarınızdan biri də vicdan, din azadlığınızdır. Bizim Azərbaycanda da və Gürcüstanda da indi bütün insan azadlıqları bərqərar olubdur və o cümlədən din, vicdan azadlığı tamamilə bərqərar olubdur.

Siz burada – Gürcüstan torpağında azərbaycanlı, müsəlman kimi öz dininizi indiyədək qoruyub saxlamısınız, bu günlərdə isə dininizi yaşatmaq, inkişaf etdirmək üçün daha da geniş imkanlar əldə etmisiniz. Bu, indi Gürcüstanda hökm sürən demokratiyanın, azadlığın parlaq nümayişidir. Buna görə mən Gürcü xalqına, Gürcüstan dövlətinə və Prezidentinə Azərbaycan xalqı adından öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bir daha deyirəm, siz Gürcüstanın vətəndaşlarısınız Gürcüstanın bütün qanun-qaydaları həyatınızın qanun və qaydalarıdır. Sizin də borcunuz Gürcüstanda hörmətli Eduard Şevardnadzenin rəhbərliyi altında görülən bütün tədbirlərdə fəal iştirak etməkdir. Gürcüstanın dövlətçiliyinin, müstəqilliyinin möhkəmləndirilməsinə çalışmaq və Gürcüstanda bu ağır vəziyyətdən çıxmaqdan ötrü aparılan tədbirlərdə iştirak etmək, ona dəstək vermək sizin vətəndaşlıq borcunuzdur.

Mən çox məmnunam ki, siz burada azad, sərbəst yaşayırsınız, öz hüquq və azadlıqlarınızdan istifadə edə bilirsiniz. Ancaq eyni zamanda əmin olduğumu bildirmək istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra da bütün hüquqlarından istifadə edə biləcək, Gürcüstanın bərabər hüquqlu vətəndaşları kimi yaşayıb-yaradacaq və Gürcüstan Respublikasının, dövlətinin möhkəmləndirilməsi üçün öz səylərini əsirgəməyəcəklər.

Gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan dostluq, qardaşlıq əlaqələri çoxəsrlik tarixə malikdir. Onlar sarsılmazdır və biz də bu günlərdə bundan sonra da bu dostluq əlaqələrinin möhkəmlənməsi üçün çalışmışıq, çalışacağıq.

Mən sizin hər birinizə bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Gürcüstanda yaşayan hər bir azərbaycanlını bağrıma basıram, öpürəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Gürcüstan Respublikasına, Gürcüstan dövlətinə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsini arzulayıram. Sağ olun.

Buraya gəlişim münasibətilə mən Qurani-Kərimi Azərbaycan dilində öz adımdan sizə təqdim edirəm ki, onu öz dilimizdə oxuya biləsiniz. Sizin məscidə mənim hədiyyəm olan xalçanı qəbul edin və yadigar kimi saxlayın. Sağ olun. [426-427]

## TBİLİSİ DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*9 mart 1996-cı il*

Hörmətli cənab prezident Eduard Şevardnadze!

Hörmətli cənab rektor Roin Metreveli, hörmətli alimlər, hörmətli xanımlar və cənablar!

Mən bu gün böyük iftixar hissi ilə sizin qarşınızda çıxış edirəm. Bu dəqiqələri, bu günü həyatımın xoşbəxt anları sayıram. Çünki dünyada ən məşhur universitetlərdən biri olan Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin məşhur alimlərindən ibarət elmi şurası mənə bu təhsil ocağının fəxri doktoru adı verilməsi haqqında qərar qəbul edib və bu fəxri mükafat artıq mənə təqdim olunubdur. Sizin bu qərarınıza görə, mənim fəaliyyətimə, xidmətlərimə, xüsusən gürcü və Azərbaycan xalqları arasındakı dostluq əlaqələrinin möhkəmlənməsi sahəsində xidmətlərimə verdiyiniz yüksək qiymətə görə mən sizə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Mən bu mükafatı, yəni fəxri doktorluq adını eyni zamanda müstəqil Azərbaycan Respublikasına, onun əldə etdiyi nailiyyətlərə və onun müstəqillik yolunda uğurlar qazanmasına göstərdikləri gözəl bir münasibət kimi qəbul edirəm. Əmin ola bilərsiniz ki, mən çalışacağam, sizin mənə göstərdiyiniz yüksək şərəfi və dostluq, qardaşlıq münasibətlərini, mənim siyasi fəaliyyətimə və xidmətlərimə verdiyiniz yüksək qiyməti bundan sonrakı əməli işlərimlə doğruldum.

İki gündür ki, mən və mənimlə bərabər Azərbaycandan gəlmiş böyük nümayəndə heyəti dost və qardaş gürcü xalqının qonaqpərvərliyi, dostpərvərliyi ilə əhatə olunmuşuq. Biz iki gündür ki, böyük bir bayram keçiririk. Müstəqil Gürcüstan ilə müstəqil Azərbaycan Respublikası arasında, xalqlarımız arasında dostluğun, qardaşlığın, əməkdaşlığın, möhkəmlənməsi və inkişaf etməsi üçün çox dəyərli və cəsarətli addımlar atırıq. Güman edirəm ki, bu günlər bizim birgə gördüyümüz işlər və imzaladığımız çox böyük əhəmiyyətə malik sənədlər xalqımızın və dövlətimizin gələcəyi üçün olduqca böyük xidmətlər göstərəcəkdir. [427-428]

Mənim əziz dostum, qardaşım Eduard Şevardnadze bizim bu iki gün müddətində gördüyümüz işlər və əldə etdiyimiz nailiyyətlər haqqında sizə məlumat verdi. Mən təkrar etmək istəmirəm. Sadəcə demək istəyirəm ki, mən onun bütün fikirləri ilə razıyam, onun dediyi sözlər mənim dediyim sözlərdir. Bu da çox əhəmiyyətli haldır. Biz həm Gürcüstan-Azərbaycan əlaqələrinin bu günü və gələcəyi haqqında, həm də dünya problemləri, Qafqaz problemləri haqqında eyni fikirdəyik. Bu böyük problemlər haqqında bizim eyni fikirdə olmağımız xalqlarımızın və ölkələrimizin qarşısındakı vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə çox kömək edəcəkdir.

Biz Gürcüstan ilə Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında çox dəyərli bir sənəd imzalamışıq. Əminəm ki, hər iki tərəf bu sənədin bütün müddəalarının həyata keçirilməsi üçün əzmlə çalışacaqdır. Bizim bu görüşümüzün mühüm nəticələrindən biri cənab Şevardnadze ilə mənim Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olunması haqqında imzaladığımız birgə bəyannamədir. Bu, çox əhəmiyyətli sənəddir. Eyni zamanda bu, dünya miqyasında qiymətləndiriləcək böyük bir təşəbbüsdür. Bu bəyannamə bütün Qafqaz dövlətləri üçün də, başqa dövlətlər üçün də açıqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasını istəyən başqa sülhsevər dövlətlər, respublikalar da bu bəyannaməyə qoşulacaqlar.

Adətən, alimlər tarixi hadisələrə onların mənasını əks etdirən xüsusi adlar verirlər. Mən dünən imzalanmış bəyannaməni sizin qarşınızda "Tbilisi bəyannaməsi" adlandırmaq istəyirəm. Bir daha əmin olduğumu bildirmək istəyirəm ki, Tbilisi bəyannaməsi Qafqazda sülhün möhkəmləndirilməsi üçün çox faydalı olacaqdır.

Gürcüstanın və Azərbaycan Respublikasının son illərdəki vəziyyəti bir-birinə çox bənzərdir və bir çox hallarda eynidir. Biz həm ölkələrimizin daxilində, həm də ölkələrimizin təhlükəsizliyinin və ərazi bütövlüyünü qorumaq üçün eyni problemlərlə qarşılaşmışıq. Bu problemlər bizim həyatımızı çox gərginləşdiribdir. Ancaq mən ümidvaram ki, həm gürcü xalqı, həm də Azərbaycan xalqı bu problemlərin öhdəsindən gələcəkdir, həm Gürcüstanın, həm də Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunacaqdır. [428-429]

Ölkələrimizin daxilində baş vermiş problemləri də xalqın dəstəyi ilə, xalqın həmrəyliyi ilə müvəffəqiyyətlə həll edirik. Gürcüstanın həyatında 1992-ci ildən indiyədək baş vermiş çox ağır və çətin problemlərin həll olunmasında gürcü xalqının milli həmrəyliyini və gürcü xalqının görkəmli oğlu, mənim dəyərli dostum Eduard Şevardnadzenin xüsusi fəaliyyətini mən burada qeyd etmək istəyirəm. Eduard Şevardnadzenin gürcü xalqı qarşısında xidmətləri keçmişdə də çox böyük olmuşdur. Ancaq Gürcüstan müstəqil dövlət kimi yaşamağa başladığı bir zamanda, Gürcüstan xarici qüvvələr tərəfindən böyük təzyiqlər altında olduğu bir zamanda, Gürcüstanın ərazi bütövlüyü pozulduğu bir zamanda, Gürcüstanın daxilində çox gərgin və mürəkkəb proseslər getdiyi bir zamanda Eduard Şevardnadzenin Gürcüstan rəhbərliyinə qayıtması və onun böyük siyasi təcrübəsi, gərgin əməyi, hesab edirəm ki, gürcü xalqının, Gürcüstanın tarixində əvəzsizdir, yüksək qiymətə layiqdir.

Biz Azərbaycanda Gürcüstanı sevdiyimizə görə, gürcü xalqına əsrlər boyu böyük hörmət etdiyimizə görə Gürcüstanda gedən prosesləri daim çox maraqla izləmiş və çalışmışıq ki, bu proseslərin normal istiqamətdə getməsi üçün kənardan da olsa həm öz həmrəyliyimizi bildirək, həm də dost əlimizi uzadaq. Ona görə də indi artıq Gürcüstanda ictimai-siyasi sabitlik bərqərar olduğu üçün, bir çox proseslərin qarşısı alındığı üçün və ölkəmizdə demokratik hüquqi dövlət quruculuğu sürətlə həyata keçirildiyi üçün, Gürcüstanda dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda çox gərəkli addımlar atıldığı üçün biz bir qonşu kimi, dost kimi ürəkdən sevinirik və mən Azərbaycan xalqı adından sizi bu nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm.

Əmin ola bilərsiniz ki, biz, azərbaycanlılar, Azərbaycan xalqı dostluğa sadiqik və dostluğumuzun əbədi olması üçün bundan sonra da əlimizdən gələni edəcəyik.

Azərbaycanda çıxarılan təbii qaz 1959-cu ildə ilk dəfə Gürcüstan torpağına gəldi, Tbilisidə ilk dəfə olaraq qaz məşəli yandırıldı. İndi isə bizim ölkələrimiz müstəqil dövlətlər olduğu bir zamanda Azərbaycanın zəngin neft yataqlarından çıxarılan neftin Gürcüstan ərazisindən keçməsi haqqında və böyük neft kəmərinin çəkilməsi haqqında qəbul edilmiş qərar da Azərbaycan ilə Gürcüstan arasında, xalqlarımız arasında mövcud dostluq və qardaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir. [429-430]

Şəxsən mən ən gənc yaşlarımdan Gürcüstana, gürcü xalqına çox böyük hörmət və ehtiram hissi ilə yanaşdığıma görə bu hisslərimin keçmişdə də əməli surətdə həyata keçirilməsinə çalışmışam, indi də çalışıram və gələcəkdə də çalışacağam. Bizim dostluğumuzun gözəl nümunələrindən biri də Gürcüstanda yaşayan azərbaycanlılara göstərilən qayğı və diqqətdir. Biz bu gün mənim dostum, cənab Eduard Şevardnadze ilə bərabər, Azərbaycanın dəyərli şəxsiyyətləri olan Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin və ilk Azərbaycan Demokratik Respublikasının baş naziri, 1920-ci ildə Tbilisidə erməni terrorçularının gülləsindən həlak olmuş Fətəli xan Xoyskinin məzarlarını ziyarət etdik.

Buraya toplaşan azərbaycanlıların və bu gün məsciddə olan azərbaycanlıların hamısı Azərbaycan xalqının adət və ənənələrini, o cümlədən Azərbaycan xalqının dəyərli şəxsiyyətlərinin ruhunu və qəbirlərini Gürcüstan torpağında qoruyub saxladığınıza görə sizə böyük minnətdarlıq və təşəkkürlərini bildirirlər. Şübhəsiz ki, bu sahədə alimlərin, müəllimlərin, Gürcüstan ziyalılarının xüsusi rolu var və mən sizə Azərbaycan xalqı adından minnətdarlıq və təşəkkürümü yetirirəm.

Burada Tbilisi universitetində təhsil alan gənc bir azərbaycanlı çıxış etdi. Bu, məni sevindirdi ki, Gürcüstan torpağı burada yaşayan azərbaycanlıların da vətənidir və azərbaycanlılar bu son illərdə, Gürcüstanda çox ağır vəziyyət olduğu dövrdə də Gürcüstan torpağını heç vaxt tərk etməmişlər. Eyni zamanda Gürcüstanda əmin-amanlıq bərqərar olduğuna görə həddindən artıq sevinmiş və bu əmin-amanlığın yaranması üçün əllərindən gələni etmiş, Gürcüstan parlamentinə seçkilərdə, Gürcüstan prezidentinin seçkilərində iştirak etmişlər. Mənə verilən məlumatlara görə, Gürcüstanda yaşayan azərbaycanlıların 99 faizi Eduard Şevardnadzenin Gürcüstan prezidenti seçilməsinə səs vermişdir. Bütün bunlar, bir tərəfdən, əziz dostlarım, sizin tərəfinizdən, Gürcüstan dövləti tərəfindən, hər bir gürcü tərəfindən azərbaycanlılara göstərilən diqqətin və qayğının təzahürüdür, digər tərəfdən isə Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan vətəndaşı kimi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyini nümayiş etdirir.

Bunların hamısı birlikdə gürcü – Azərbaycan dostluğu deməkdir. Zənnimcə, dünən və bu gün biz bu dostluğun daha da möhkəmlənməsi üçün çox dəyərli addımlar atdıq. Hörmətli alimlər, hörmətli universitet rəhbərləri, bu münasibətlə sizinlə [430-431] görüşmək mənim üçün unudulmaz bir hadisədir. Bu görüş münasibətilə, sizin mənə göstərdiyiniz bu diqqət və hörmətə görə sizə bir daha təşəkkür edirəm. Sizi əmin edirəm ki, mən bu günləri heç vaxt unutmayacağam və Gürcüstan ilə Azərbaycan arasında olan əlaqələrin, dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Burada Gürcüstanın görkəmli alimi Maryam xanım Lordkipanidze çox dəyərli sözlər dedi. Mən Gürcüstan və Azərbaycan alimlərinin, universitetlərinin əlaqələrinin möhkəmləndirilməsi və inkişafı ilə bağlı təklifləri nəzərdə tuturam. Mən bu təklifləri məmnuniyyətlə qəbul edirəm və hesab edirəm ki, bizim ölkələrimizin alimlərinin, ziyalılarının, elm və mədəniyyət xadimlərinin, o cümlədən universitetlərin, akademiyaların əlaqələrinin daha da sıx olması xalqlarımız və ölkələrimiz arasında əlaqələrin daha da sıx olması üçün çox lazımdır. Mənim tərəfimdən siz bu sahədə hər bir dəstəyi ala bilərsiniz.

Sizə bir daha təşəkkür edirəm. Elmə, mədəniyyətə, ali təhsilə öz hörmət və ehtiramımı bildirirəm. Gürcüstan alimlərinə daim olan hörmət və ehtiramımı bildirirəm. Sizə cansağlığı və xoşbəxtlik arzulayıram. Çox sağ olun, təşəkkür edirəm. Gələn görüşlərədək.

Şota Rustavelinin dövründə yaşayıb-yaratmış, Azərbaycan xalqının böyük şairi Nizami Gəncəvinin portreti toxunmuş xalçanı bu görüşümdən yadigar olaraq Tbilisi Dövlət Universitetinə bağışlayıram. [431-432]

## GÜRCÜSTANDA YAŞAYAN AZƏRBAYCANLILARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Tbilisi, Z. Paliaşvili adına Dövlət Akademik Opera və Balet Teatrı*

*9 mart 1996-cı il*

Hörmətli prezident Eduard Şevardnadze!
Hörmətli xanımlar və cənablar!
Əziz, hörmətli bacılar və qardaşlar!

Mən sizin hamınıza Azərbaycandan, xalqımız adından atəşin salamlar gətirmişəm. Hamınızı Azərbaycan xalqı adından, müstəqil Azərbaycan Respublikası adından ürəkdən salamlayıram. Hamınıza, Gürcüstanın bütün vətəndaşlarına, xalqına öz hörmət, ehtiramımı və ən xoş arzularımı bildirirəm.

Hörmətli prezident, cənab Eduard Şevardnadzenin dəvəti ilə mən müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə olaraq Gürcüstana rəsmi səfərə gəlmişəm. Bu həm Gürcüstan müstəqillik əldə etdiyi vaxtdan indiyədək, həm də Azərbaycan Respublikasının müstəqillik qazandığı vaxtdan indiyədək Azərbaycan prezidentinin Gürcüstana ilk səfəridir.

Mən və mənimlə Gürcüstan torpağına gəlmiş nümayəndə heyətinin üzvləri iki gündür ki, gürcü xalqının, Gürcüstan dövlətinin və onun başçısı Eduard Şevardnadzenin qonaqpərvərliyi və mehribanlığı ilə əhatə olunmuşuq. Hesab edirəm, Gürcüstan-Azərbaycan əlaqələri tarixinə iki gündür ki, yeni, gözəl, demək olar, qızıl hərflərlə səhifələr yazılır.

Gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan dostluq və qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. Əsrlər boyu biz bir yerdə, yan-yana yaşamışıq, bir-birimizə dayaq olmuşuq. Torpaqlarımızı yadelli qəsbkarlardan birlikdə qorumuşuq. Xalqlarımızın milli azadlığı, müstəqilliyi uğrunda birlikdə mübarizə aparmışıq.

Bizim dostluğumuz, əməkdaşlığımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçib, möhkəmlənib, güclənib və artıq sarsılmazdır. Bizim bu dostluq, qardaşlıq tariximizdə şübhə[432-433]siz ki, gərgin dövrlər də, bəzən qaranlıq izlər, mərhələlər də olubdur. Xalqlarımızı incidən, narahat edən dövrlər də, illər də olubdur. Xalqlarımızın mənəviyyatına zidd hərəkətlər də olubdur. Ancaq bunlar xalqlarımızın dostluğunun, qardaşlığının o saf, müqəddəs duyğuları altında məhv olub və dostluğumuz, qardaşlığımız daim yüksəklərə qalxıb, heç bir qüvvə onu poza, sındıra bilməyibdir və bundan sonra da sındıra bilməyəcəkdir.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, keçmiş tariximizə böyük hörmət və ehtiram bəsləyərək, onu yüksək qiymətləndirərək indi, dövlət müstəqilliyini əldə etdikdən sonra biz xalqlarımız, dövlətlərimiz, ölkələrimiz arasında yeni əlaqələrin yaranmasının şahidiyik və bu yeni əlaqələr iki xalqın – gürcü və Azərbaycan xalqlarının, iki müstəqil dövlətin əlaqələridir.

Biz əsrlər boyu milli azadlıq, müstəqillik uğrunda mübarizə aparmışıq, əsrlər boyu milli dövlətimizin olmasını arzulamışıq, bunun həsrəti ilə yaşamışıq. Nəhayət, biz buna XX əsrin 90-cı illərində nail olmuşuq və bu, həm gürcü xalqının, həm də Azərbaycan xalqının çoxəsrlik tarixində ən yüksək zirvədir, ən böyük nailiyyətdir. Biz bu nailiyyətlə fəxr edirik və bundan sonra da fəxr edəcəyik.

1918-ci ildə gürcü və Azərbaycan xalqları öz milli dövlətini qurmağa çalışmışlar. İlk dəfə Gürcüstanda da, Azərbaycanda da demokratik respublika yaranmışdır. Ancaq bu respublikaların, dövlətlərin ömrü az olmuş, onlar sonralar süqut etmiş, məhv olmuşlar. Nəhayət, 1991-ci ilin sonunda gürcü xalqı da, Azərbaycan xalqı da öz milli azadlığına, müstəqilliyinə nail olmuşdur. Artıq dörd ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Biz bu nailiyyəti yüksək qiymətləndiririk. Bu gün bütün Gürcüstan vətəndaşlarının, gürcü xalqının, Gürcüstanda yaşayan azərbaycanlıların qarşısında bəyan edirəm ki, Azərbaycan xalqı öz müstəqilliyini əbədi edəcək, öz dövlət müstəqilliyini heç vaxt əldən verməyəcəkdir.

Ona görə də bizim bu mərhələdə olan əlaqələrimiz çox böyük əhəmiyyət kəsb edir. Doğrudur, biz bu mərhələdə də bu günlərə asanlıqla gəlib çatmamışıq. Müstəqillik əldə edildikdən sonra Gürcüstanın da, Azərbaycanın da həyatında çox mürəkkəb proseslər olmuş, xalqlarımız çox əzab-əziyyətli yol keçmiş, dövlət çevrilişləri, vətəndaş müharibələri baş vermiş, [433-434] xalqlarımıza əziyyət verən, onları ağır vəziyyətə salan cürbəcür hadisələr cərəyan etmişdir. Allaha şükürlər olsun ki, həm gürcü xalqı, həm də Azərbaycan xalqı bu bəlalardan xilas olmuşdur. Gürcüstanda da, Azərbaycanda da müstəqil dövlətlər artıq ayaq üstündə durmuş, möhkəmlənmiş və ictimai-siyasi sabitlik yaranmışdır. İndi həm Gürcüstan, həm də Azərbaycan tam müstəqil dövlət kimi yaşayır və bundan sonra da yaşayacaqdır.

Gürcüstanın həyatında gedən proseslər sizə məlumdur. Siz – Gürcüstanda yaşayan azərbaycanlılar bu proseslərin şahidisiniz, onların içində olmusunuz və bu proseslərdən nə qədər zərbələr almısınız, itkilər

vermisiniz, – özünüz yaxşı bilirsiniz. Gürcüstanı, gürcü xalqını, Gürcüstanda yaşayan bütün millətləri, o cümlədən azərbaycanlıları, Gürcüstanın bütün vətəndaşlarını bu ağır vəziyyətdən çıxaran gürcü xalqının mütərəqqi qüvvələrinin milli həmrəylik əldə etməsi və gürcü xalqının böyük oğlu Eduard Şevardnadzenin yenidən Gürcüstana qayıtması və öz xalqına əvvəlki illərdəki kimi, böyük xidmətlər göstərərək, Gürcüstanı bugünkü günlərə çatdırmasıdır.

Mən bir dost, qonşu kimi Gürcüstanda gedən proseslərin bugünkü müsbət nəticələrə gəlib çıxmasına sevinirəm, məmnun olduğumu bildirmək istəyirəm. Gürcü xalqına, onun görkəmli başçısı Eduard Şevardnadzeyə cansağlığı, xoşbəxtlik və gələcək illərdə yeni-yeni uğurlar arzulayıram.

Son illər Azərbaycanda gedən proseslər sizə məlumdur. Bu barədə mən burada bir neçə kəlmə deyəcəyəm. Ancaq əvvəlcə qeyd etmək istəyirəm ki, mən buraya Gürcüstan ilə Azərbaycan arasında əlaqələri daha yüksək zirvələrə qaldırmaq üçün gəlmişəm. Hesab edirəm ki, mənim əziz dostum Eduard Şevardnadze ilə, Gürcüstanın başqa rəhbərləri ilə dünən və bu gün apardığımız danışıqlar, əldə etdiyimiz razılıq və imzalanan sənədlər Azərbaycan-Gürcüstan əlaqələrini həqiqətən yüksək zirvəyə qaldırıbdır, bizim dostluğumuzu, qardaşlığımızı daha da möhkəmləndiribdir və dostluğumuzun gələcəyi üçün yeni-yeni gözəl yollar açıbdır.

İki gün müddətində aparılan danışıqlar və əldə edilən nailiyyətlər haqqında cənab Şevardnadze çox ətraflı məlumat verdi. Mən sadəcə onu qeyd etmək istəyirəm ki, Gürcüstan ilə Azərbaycan Respublikası arasında bizim imzaladığımız dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında müqavilə ölkələrimizin gələcək inkişafı üçün çox qiymətli bir sənəddir. Biz bu [434-435] sənəddən irəli gələn vəzifələrin öz tərəfimizdən layiqincə, vaxtlı-vaxtında yerinə yetirilməsini təmin edəcəyik.

Biz – Eduard Şevardnadze ilə mən Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün çox mühüm əhəmiyyət kəsb edən bəyannamə imzaladıq. Bu bəyannamə onu göstərir ki, həm cənab Eduard Şevardnadze, həm də mən Qafqazda sülhü həqiqətən möhkəmləndirməyə, sülhü bərqərar etməyə çalışırıq. Nəinki öz ölkələrimiz, öz xalqlarımız haqqında düşünürük, bütün Qafqaz haqqında, Qafqazın bu günü, gələcəyi haqqında düşünürük. Bu bəyannamə açıq bir sənəddir və mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazın bütün respublikaları, dövlətləri də və başqa dövlətlər də bu bəyannaməyə qoşulacaqlar. Çünki Qafqazda sülhü, əmin-amanlığı bərqərar etmək təkcə Gürcüstan, Azərbaycan üçün deyil, Qafqazda yaşayan bütün xalqlar üçündür. Bu təkcə Qafqaz üçün yox, Qafqazla əlaqəsi olan bütün ölkələr, xalqlar üçündür, bütün dünya üçündür.

Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq.

Nəhayət, imzaladığımız sənədlərin ən mühümlərindən biri də Azərbaycanda hasil olunacaq neftin Gürcüstan ərazisindən, Qərb istiqamətində Qara dənizə ixracı ilə əlaqədar müqavilədir. Bu, çox əhəmiyyətli bir sənəddir. Bu barədə dünən də, bu gün də çox sözlər deyilib. Mənim əziz dostum Eduard Şevardnadze bu sənədə çox yüksək qiymət verib. Öz çıxışlarınızda siz də bu barədə danışmısınız.

Mən deyilən sözlərin hamısı ilə razıyam. Sadəcə onu əlavə etmək istəyirəm ki, bəli, bu müqavilə, sənəd, – onu Eduard Şevardnadze ilə mən imzalamışam, – nəinki bugünkü insanlar üçün, bütün gələcək nəsillər üçün gözəl imkanlar açır. Ümidvaram ki, bu gün də, qarşıdan gələn illərdə də bizim vətəndaşlarımız və gələcək nəsillər atdığımız bu addımın gözəl nəticələrini, bəhrələrini görəcəklər.

Bildiyiniz kimi, bu neft kəmərinin çəkilməsi haqqında qərarı 1995-ci il oktyabrın 9-da biz Bakıda qəbul etmişik. Bəli, bu qərarın qəbul olunması çox böyük müqavimətlərlə, maneələrlə rastlaşmışdı. Ancaq iradəmiz və amalımızın saflığı bizi bu [435-436] qərarın qəbul olunmasına gətirib çıxardı və mən bundan çox məmnunam. Ancaq mən belə hesab etdim ki, bu qərar əsasında Gürcüstan ilə Azərbaycan arasında müqaviləni Gürcüstanda, Tbilisidə imzalamaq lazımdır. Ona görə də mən buraya, Gürcüstana dostum Eduard Şevardnadzenin yanına, sizin yanınıza gəlmişəm.

İmzalanan bütün başqa sənədlər də, şübhəsiz ki, ölkələrimiz, xalqlarımız arasında olan dostluq, qardaşlıq əlaqələrini inkişaf etdirəcəkdir. Biz – Gürcüstanın, Azərbaycanın bütün vətəndaşları bu proseslərin həm şahidiyik, həm də iştirakçısıyıq. Mənə və mənimlə buraya gələn nümayəndə heyətinin üzvlərinə dünən və bu gün burada çox böyük qayğı və diqqət, qonaqpərvərlik, hörmət göstərilmişdir. Dünən mənə Gürcüstan parlamentində – müstəqil Gürcüstanın ilk parlamentində çıxış etmək nəsib oldu. Mən orada öz ürək sözlərimi dedim. Bu gün dünyanın ən məşhur universitetlərindən biri olan Tbilisi Dövlət Universitetində Gürcüstanın böyük alimləri mənə universitetin fəxri doktoru adı verilməsi münasibətilə toplaşmışdılar və bu adı, diplomu mənə təqdim etdilər, mənə böyük şərəf verdilər, böyük hörmət etdilər.

Gürcüstanda yaşayan azərbaycanlıların nümayəndələri bu gün buraya, bu gözəl, məşhur tarixi teatra – Gürcüstanın fəxri və iftixarı olan teatra toplaşıblar. Eyni zamanda burada Gürcüstanın başqa nümayəndələri – həm azərbaycanlılar, həm də gürcülər, həm Azərbaycan Respublikasının dövlət rəhbərləri, məsul şəxsləri, həm Gürcüstanın başçısı, həm də dövlət, hökumət rəhbərləri vardır. Bu gün bu salon Gürcüstan-Azərbaycan dostluğu salonuna çevrilibdir. Burada çox dəyərli çıxışlar oldu. Ən dəyərli çıxışlardan biri, əsası mənim dostum, qardaşım Eduard Şevardnadzenin çıxışı oldu. Onun burada söylədiyi sözlər – Azərbaycan Respublikasının

ünvanına, mənim ünvanıma, Azərbaycan-Gürcüstan dostluğuna aid dediyi sözlər bu günümüz, gələcəyimiz üçün məndə böyük razılıq, məmnuniyyət hissi doğurmuşdur. Həmin sözlərə görə də, bu gün burada bu gözəl görüşü keçirdiyinə görə də ona və buraya toplaşan Gürcüstan vətəndaşlarına öz hörmət və təşəkkürümü bildirirəm.

Azərbaycan Respublikasının həyatında, mən qeyd etdiyim kimi, son illər asan illər olmayıb. Biz bu günlərə çox acı, əzab-əziyyətli yollardan gəlib çıxmışıq. Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən ən böyük bəla 1988-ci ildə Ermənista[436-437]nın Azərbaycana etdiyi təcavüzdür. Bilirsiniz ki, bu təcavüz nəticəsində 8 ildir Azərbaycan ilə Ermənistan arasında müharibə vəziyyəti mövcuddur. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan çox böyük itkilər vermiş, ölkəmizə böyük zərbələr vurulmuş, respublikamızın iqtisadiyyatına, mənəviyyatına böyük zərbələr dəymişdir.

Bu təcavüz nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan olmuş, didərgin, qaçqın vəziyyətinə düşmüşdür. Onların əksəriyyəti neçə illərdir ki, çadırlarda ağır vəziyyətdə yaşayır. Xalqımız şəhidlər, böyük itkilər vermişdir. Bu dövrdə Azərbaycan xalqına vurulan zərbələrdən biri də 1990-cı ilin yanvarında keçmiş sovet ordusu tərəfindən xalqımıza qarşı edilmiş hərbi təcavüzdür. Bütün bunlar hamısı Azərbaycanın həyatında ictimai-siyasi vəziyyəti həddindən artıq gərginləşdirmişdir.

Bizim son illər apardığımız siyasət, tədbirlər nəticəsində vəziyyət xeyli dəyişmişdir. Birincisi, 1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında gedən müharibəni, hərbi münaqişəni biz dayandıra bilmişik, atəşkəs haqqında saziş əldə etmişik. Artıq iyirmi bir aydır, iki-üç gündən sonra 22 ay olacaqdır ki, atəş yoxdur, qan tökülmür, müharibə getmir və Ermənistan ilə Azərbaycan arasında atəşkəs rejimi davam edir.

1988-ci ildə başlanmış hərbi münaqişədə ilk dəfə belə bir atəşkəs rejiminin əldə olunması və onun 22 ay müddətində saxlanması, hesab edirəm ki, böyük nailiyyətdir. Bu, onu göstərir ki, Azərbaycan xalqı nə qədər itkilər veribsə, ona nə qədər zərbələr dəyibsə, buna baxmayaraq, öz sülhsevər niyyətləri ilə, sülhsevər xarakteri ilə yaşayır. Azərbaycan xalqı müharibə istəmir. Azərbaycan xalqı sülhsevər xalqdır. Azərbaycan xalqı bütün bölgədə – həm ölkəmizdə, həm regionda, həm də dünyada sülh istəyir. Bax, biz bu arzu ilə, bu istəklə 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalamışıq və bu arzu, bu istəklə də o vaxtdan indiyədək dünyanın beynəlxalq təşkilatlan çərçivəsində, ATƏT, onun Minsk qrupu çərçivəsində, dünyanın böyük dövlətlərinin – Rusiyanın, Amerikanın, Türkiyənin və başqa dövlətlərin iştirakı ilə tam sülhə nail olmaq istəyirik. Tam sülhə nail olmaq üçün də bizim çox sadə şərtlərimiz vardır. [437-438]

Şərtlərimiz ondan ibarətdir ki, işğal olunmuş Azərbaycan torpaqlarından erməni silahlı qüvvələri qeyd-şərtsiz çıxmalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır. İşğal olunmuş torpaqlardan silahlı qüvvələr çıxarkən, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz evinə-obasına qayıtmalıdırlar. Azərbaycanın sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Azərbaycanın suverenlik hüquqları tam təmin edilməlidir. Biz bu şərtlər daxilində Azərbaycanda, Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyinin təmin olunmasına zəmanət veririk və Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycanın tərkibində ən yüksək status verilməsinə razıyıq.

Biz istəyirik ki, bu şərtlər əsasında sülhə nail olaq və müharibəyə son qoyaq, müharibənin bir daha baş verməsinin qarşısını alaq və Qafqazda, o cümlədən Cənubi Qafqazda, sülh yaranması üçün öz addımımızı ataq, öz payımızı verək.

Doğrudur, danışıqlar çətin gedir. Asan getmir. Ermənistan tərəfi müəyyən hərbi üstünlüyündən istifadə edərək irəli sürülən şərtlərin hamısını qəbul etmək istəmir. Ona görə də biz danışıqlar aparırıq. Ancaq biz dözümlüyük, səbirliyik. Biz bu danışıqları səbrlə, təmkinlə, dözümlə aparacağıq. Mən bəyan edirəm ki, atəşkəs rejimi bizim tərəfimizdən pozulmayacaq, bizim tərəfimizdən müharibə, döyüşlər yenidən başlanmayacaq və əmin olduğumu bildirmək istəyirəm ki, bütün dünyanın sülhsevər qüvvələrinin köməyi ilə, o cümlədən qonşu Gürcüstanın, gürcü xalqının bu məsələlərin həllinə köməyi ilə biz nəhayət, sülhə nail olacağıq.

Biz bu günləri səbirsizliklə gözləyirik. Təkcə gözləmirik, bunlara nail olmaq üçün gecə-gündüz çalışırıq, bütün vasitələrdən istifadə edirik və əmin olun ki, biz Azərbaycan xalqının torpaqlarının müqəddəsliyini, respublikamızın ərazisinin bütövlüyünü qorumuşuq, bundan sonra da qoruyacaq və Azərbaycanın ərazi bütövlüyünü heç vaxt əlimizdən verməyəcəyik.

Biz sizinlə yaxşı bilirik ki, Gürcüstan da eyni problemlərlə rastlaşıb. Gürcüstanın da ərazi bütövlüyü pozulub. Gürcüstan Abxaziya ilə əlaqədar olan məsələləri sülh yolu ilə həll etməyə çalışır. Gürcüstanın bu işi haqq işidir. Gürcüstan dövlətinin, gürcü xalqının tələbi haqlı tələbdir, ədalətli tələbdir. Biz bu tələbləri, Gürcüstan dövlətinin bu fəaliyyətini dəstəkləmişik və dəstəkləyirik. Gürcüstanın bir dövlət, respublika kimi [438-439] ərazi bütövlüyünün təmin olunması yolunda qoyduğu səylərə biz tərəfdarıq və bundan sonra da tərəfdar olacağıq.

Biz separatizmin əleyhinəyik və dünyanın heç bir yerində separatizmə tərəfdar çıxmamışıq və çıxmayacağıq. Biz terrorizmin əleyhinəyik və bundan sonra da terrorizmin əleyhinə çıxacağıq. Biz ölkəmizdə sülh istəyirik. Biz Qafqazda sülh istəyirik. Biz Cənubi Qafqazda sülh istəyirik. Biz sülh tərəfdarıyıq və sülh yolunda bundan sonra da çalışacağıq, vuruşacağıq.

Son illər Azərbaycanın daxilində gedən proseslər də sizə məlumdur. Onu deyim ki, təxminən 1990-cı ildən indiyədək Azərbaycanın dövlətçiliyi bir neçə dəfə təhlükə altında olmuşdur. Təəssüf ki, xarici düşmənlərlə yanaşı, Azərbaycanın daxilində olan cürbəcür təxribatçı qüvvələr, hakimiyyət uğrunda mübarizə aparan cürbəcür qüvvələr, öz mənafelərini ümumxalq mənafeyindən, ümummilli mənafedən üstün tutan qüvvələr Azərbaycanda daim sabitliyi pozmuş, respublikamızın daxili vəziyyətini gərginləşdirmişlər.

Bu hadisələr sizə məlumdur. Ən dəhşətlisi 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin başlanması idi. O zaman – 1993-cü ilin iyununda Azərbaycan parçalanma təhlükəsi qarşısında, faciə qarşısında idi. Vətəndaş müharibəsi baş vermişdi. O vaxt xalqın dəvəti ilə mən yenidən Azərbaycana gəldim. Vətəndaş müharibəsinin qarşısını almağa nail ola bildik. Ancaq təəssüf olsun ki, ondan sonra yenə də dövləti devirmək üçün cəhd göstərən qüvvələrin törətdiyi hadisələr səngimədi, onlar öz səhvlərini anlamadı və yenə də dövləti dağıtmağa çalışdılar. 1994-cü ilin oktyabrında Azərbaycanda dövlət çevrilişinə cəhdlər baş verdi. Biz xalqın milli həmrəyliyi ilə onun qarşısını ala bildik. Cinayətkarların bir qismi həbs olundu, bir qismi şübhəsiz ki, dünyasını dəyişdi, bir qismi isə xarici ölkələrdə gizlənir.

1995-ci ilin martında Azərbaycanda dövlət çevrilişinə yenidən cəhdlər göstərildi. O zaman Azərbaycanın daxilində olan bütün təxribatçı qüvvələr, vaxtilə bir-birinə zidd qüvvələr birləşdilər və Azərbaycanda dövlət çevrilişi edib, respublikanın prezidentini fiziki yolla aradan götürüb ölkəni dağıtmağa çalışdılar. Biz bunun da qarşısını aldıq. Həmin o cinayətkarların bir qismi yenə də qaçıb xarici ölkələrdə gizləndi və onların bir çoxu indi Moskvadadır, orada özlərinə sığınacaq tapıb. [439-440]

Belə cəhdlər yenə də bir neçə dəfə olmuşdur. Bunların da qarşısı alınmışdır. Nəticədə bizim cəmiyyətimizdə, respublikamızda Azərbaycan vətəndaşları daha da sıx birləşib, milli həmrəylik əldə olunub. Nəhayət, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olubdur. Buna görə də biz keçən ilin noyabrında ilk dəfə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını qəbul etdik və müstəqil Azərbaycan Respublikasının parlamentinə ilk demokratik seçkilər keçirdik. İndi bizim yeni parlamentimiz, ilk konstitusiyamız var.

Bunlar hamısı Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi üçün gözəl əsas yaratmışdır. Biz bunlardan istifadə edib Azərbaycanda dövlətçiliyi inkişaf etdiririk. Azərbaycan demokratiya yolu ilə gedir, ölkəmizdə insan azadlığı bərqərar olubdur. Respublikamızda milliyyətindən, dinindən, dilindən, baxışlarından asılı olmayaraq vətəndaşlarımızın hamısı bərabər hüquqlara malikdir və biz dövlətçiliyimizi bu demokratik prinsiplər əsasında qururuq, inkişaf etdiririk.

Siz əmin ola bilərsiniz ki, Azərbaycanın taleyi indi etibarlı əllərdədir. Siz əmin ola bilərsiniz ki, biz müstəqil Azərbaycan dövlətini qoruyub saxlayacağıq, ölkəmizdə sabitliyi qoruyacağıq və Azərbaycanı bu ağır, çətin sosial-iqtisadi vəziyyətdən çıxarıb gözəl, xoşbəxt gələcəyə aparacağıq.

Biz Azərbaycanda bütün bu prosesləri apararkən Gürcüstan dövlətinin, gürcü xalqının təcrübəsindən daim istifadə etmişik. Ona görə də Gürcüstan ilə Azərbaycan arasında əlaqələrin sıx olması, bir-birimizlə daha yaxından fikir mübadiləsi aparmağımız gələcək işlərimizdə də bizə kömək edəcəkdir. Əminəm ki, biz bundan gələcəkdə də bəhrələnəcəyik.

Bir daha deyirəm, indi Gürcüstanda əldə olunmuş nailiyyətlər bizi sizin qədər sevindirir. Biz ona görə sevinirik ki, birincisi, gürcü xalqı bizim üçün dost və qardaş xalqdır. Biz istəyirik ki, o, əmin-amanlıq şəraitində yaşasın. Biz istəyirik ki, Gürcüstan inkişaf eləsin, gürcü xalqı qarşısında duran vəzifələrin hamısını həyata keçirə bilsin. Biz bunu bir də ona görə istəyirik ki, Gürcüstanda azərbaycanlılar da yaşayır. Yüz minlərlə azərbaycanlı yaşayır. Azərbaycanlılar Gürcüstanda öz vətənlərində yaşayır, öz torpaqlarında, öz əcdadlarının, öz ulu babalarının yaşadığı diyarda, eldə, obada yaşayırlar. Borçalı diyarı Azərbaycan xalqının ən dəyərli diyarlarından biridir.

Borçalı diyarı Gürcüstan üçün əziz olduğu kimi, Azərbaycan üçün də əziz olmuşdur, bu gün də əzizdir. Ona görə də [440-441] Gürcüstanda yaşayan azərbaycanlılar öz vətənlərində yaşayırlar. Mənim dostum cənab Şevardnadze bu gün çıxış edərkən dedi ki, Gürcüstanda yaşayan azərbaycanlılara o, diaspor demək istəmir. Tamamilə düzgün deyir, heç diaspor demək olmaz. Çünki bu kənardan gəlmiş azərbaycanlılar deyir ki, onlara diaspor deyək. Onlar burada əsrlər boyu yaşamış, yaratmış azərbaycanlılardır. Bugünkü çıxışlarda deyildi ki, hələ XÜ əsrdə burada, Gürcüstanda yaşayan azərbaycanlılar, sizin ulu babalarınız, gürcü xalqı ilə Azərbaycan xalqı yadellilərə qarşı birlikdə vuruşublar və öz torpaqlarını müdafiə ediblər. Bu dostluq XII əsrdən indiyədək davam edir. Ona görə də, əziz bacılar, qardaşlar, bu, sizin doğma vətəninizdir. Bu, sizin doğma torpağınızdır. Siz öz vətəninizdə, doğma torpağınızda yaşayırsınız. Güman edirəm ki, Gürcüstan Respublikasına, müstəqil Gürcüstan dövlətinə şan-şöhrət gətirən bir haldır ki, müstəqil, azad, demokratik Gürcüstanda azərbaycanlılar azad, sərbəst yaşayırlar.

Bu gün sizin həyatınızda çoxlu problemlər var. Bugünkü çıxışlarınızda siz bu problemlər barədə müəyyən fikirlər, təkliflər irəli sürdünüz. Şübhəsiz ki, bunların bir hissəsini Gürcüstanın dövlət orqanları həll edəcəklər. Güman edirəm ki, həll edəcəklər. Bir hissəsini isə biz həll etməliyik. Sərhədlər haqqında sizin dediyiniz fikirlər – sərhədlərin şəffaf olması, gömrük məsələlərinin aradan götürülməsi və ümumiyyətlə Gürcüstandan Azərbaycana, Azərbaycandan Gürcüstana gediş-gəlişin sadələşdirilməsi bizim qarşımızda duran böyük

məsələlərdən biridir. Güman edirəm ki, cənab Şevardnadze ilə mən və bizim müvafiq dövlət və hökumət orqanları bu məsələlərlə məşğul olub lazımi bir yol tapacaqlar və biz bu problemi həll edəcəyik.

Siz burada məktəblər haqqında söhbət açdınız. Bu, çox böyük məsələdir. Mən hesab edirəm ki, hər bir xalqa, millətə mənsub olan insan harada, hansı ölkədə yaşayırsa-yaşasın, öz dilini, dinini, milli ənənələrini heç vaxt unutmamalıdır.

Mən çox məmnunam ki, Gürcüstanda yaşayan azərbaycanlılar tarixin cürbəcür mərhələlərində rastlaşdıqları çətinliklərə baxmayaraq, dilini də, dinini də, adət-ənənələrini də qoruyub saxlayırlar. Bu, böyük nailiyyətdir. Ona görə mən Gürcüstanda yaşayan azərbaycanlılara – keçmiş nəsillərə və bu gün yaşayan azərbaycanlılara hörmət və ehtiramımı bildirirəm. [441-442]

Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin, Fətəli xan Xoyskinin bu gün ziyarət etdiyimiz qəbirləri buna əyani sübutdur. Bu gün biz Azərbaycan məscidində olduq. Demək, 70 il dinin əleyhinə mübarizə aparılmasına baxmayaraq, din qəlblərdə yaşayıb. Həm gürcülərin dini, həm də azərbaycanlıların dini yaşayıbdır. Bunun özü də çox gözəl bir hadisədir və yüksək tərifəlayiq bir haldır. Dinləri indiyədək yaşada bilmisinizsə, bu gün demokratik, müstəqil, azad Gürcüstanda siz bunları daha da çox yaşadıb, gələcək nəsillərə çatdıracaqsınız.

Hesab edirəm ki, Azərbaycan məktəblərində tədris Azərbaycan dilində keçməlidir. Bunun üçün bizim tərəfimizdən nə görmək lazımdırsa biz bunu edəcəyik. Azərbaycanda gürcülər də yaşayırlar. Onlar da məktəblərdə dərsləri gürcü dilində keçməlidir. Biz buna da qayğı göstəririk, göstərəcəyik və Gürcüstanda da onlara qayğı göstərən, kömək etmək istəyən adamlar üçün yol açıqdır. Əminəm ki, biz ümumi səylərimizlə bu məsələləri həll edə biləcəyik.

Burada çıxış edənlər daha bir çox mühüm məsələ də qaldırdılar ki, Azərbaycan məktəblərində gürcü dili də tədris olunsun. Bu, tamamilə doğru, düzgün fikirdir. Mən bu yaxınlarda Azərbaycanda gənclər qarşısında çıxış edərkən bu sözləri demişəm, onu təkrar etmək istəyirəm. Bizdə insanlar var ki, öz dilində, ana dilində, dövlət dilində yaxşı danışa bilmir. Onlar vaxtilə, uzun illər rus dilində təhsil alıblar, ana dilinə o qədər fikir verməyiblər. Gürcüstanda gürcü dili olduğu kimi, Azərbaycanda da Azərbaycan dili dövlət dilimizdir. Ona görə də mən dedim ki, qoy hər bir azərbaycanlı gənc Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini, Mirzə Fətəli Axundovu Azərbaycan dilində oxusun. İndi isə mən demək istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlı da qoy həm Azərbaycan dilini bilsin, həm rus dilini bilsin, həm ingilis dilini bilsin, başqa dilləri bilsin. Ancaq gürcü dilini mükəmməl bilsin. Çünki gürcü dili Gürcüstanın dövlət dilidir. Burada yaşayan azərbaycanlı gürcü dilini bilməlidir.

Mən verilən təklifi müdafiə edirəm ki, Azərbaycan məktəblərində gürcü dili də tədris olunsun. Amma eyni zamanda mən çox arzu edərdim ki, Gürcüstanda yaşayan bütün azərbaycanlılar Azərbaycan dilində təhsil alsın, onu unutmasın, Azərbaycan dilini inkişaf etdirsin. Bu, mənim arzumdur və güman edirəm ki, belə də olacaqdır. [442-443]

Burada Gürcüstanda yaşayan azərbaycanlılar çıxış etdilər. Mən çox sevindim. Onlar sərbəst olaraq həm gürcü dilində, həm rus dilində, həm də Azərbaycan dilində çox gözəl danışdılar. Deyə bilərəm ki, respublikamızda yaşayan bəzi azərbaycanlılar sizin kimi, burada çıxış edənlər kimi heç Azərbaycan dilində danışa bilmirlər. Bu, onu göstərir ki, Azərbaycan dili Gürcüstanda yaşayır, inkişaf edir. Ümidvaram ki, bundan sonra daha da çox inkişaf edəcəkdir.

Burada "Gürcüstan" qəzeti haqqında danışıldı. Doğrudan da, bu qəzet bizim üçün əziz olan qəzetdir. Bu qəzet Gürcüstanla Azərbaycan arasında, xalqlarımız arasında əlaqələrin inkişaf etməsində çox xidmətlər göstərib. Hesab edirəm ki, bu qəzet yaşamalıdır. Bu gün bunu mənə xatırlatdılar, mən onu heç vaxt unutmamışam.

Bilirsiniz ki, 1987-ci ildən sonra bir neçə il böyük təqib altında idim, böyük təcridə məruz qalmışdım. Mənim həyatımın ağır dövrləri var idi. Mən o dövrləri yaşadım, nə əqidəmdən, nə məsləkimdən, nə də ki, öz mənəviyyatımdan geri çəkilmədim. Mən necə varam, eləcə də yaşadım. Ancaq çətinliklərim də çox oldu.

O vaxt Naxçıvanda idim. Naxçıvan blokada şəraitində idi. Gediş-gəliş yox idi. Mən o vaxtkı dövlətlər tərəfindən – həm Moskvadan, həm Azərbaycandan çox təzyiq altında yaşayan bir adam idim. Mənim yanıma o vaxt gəlib-getmək də təhlükəli idi. Ancaq məni sevindirən iki halı demək istəyirəm. Mənim üçün gözlənilməyən bir hal idi ki, iki gürcü müxbir Tbilisidən Naxçıvana gəldi. Tamamilə qəflətən. Mən orada bacımın kiçik bir evində yaşayırdım. Bu gün siz deyirsiniz ki, elektrik, qaz, su çatmır. Naxçıvanda vəziyyət bundan da pis idi. Mən belə bir vəziyyətdə orada yaşayırdım. İki gürcü müxbiri – təəssüf ki, adları yadımdan çıxıb – Naxçıvana gəldi. Məni arayıb-axtarıb tapdılar. Məndən bir çox məsələlər barəsində müsahibə götürdülər. Mən azad, müstəqil bir adam idim. Hansı bir qəzetçi, yaxud jurnalist mənə müraciət edirdisə, suallarına cavab verirdim. Onlar mənimlə geniş müsahibəni Tbilisidə gürcü dilində dərc etdirmişdilər, mənə göndərdilər. Bundan sonra həmin müsahibəni o vaxt "Sovet Gürcüstanı" deyilən, indi "Gürcüstan" adını daşıyan qəzet Azərbaycan dilində dərc etdi və onu mənə göndərdilər. O vaxt mənim üçün bu, böyük mənəvi dayaq idi. Baxmayaraq ki, mən Naxçıvanda sürgündə idim, bir tərəfdən gürcülər, o [443-444] biri tərəfdən Gürcüstanda yaşayan azərbaycanlılar məni unutmamışdılar. Bunu qəzetlər vasitəsilə etmişdilər.

Ona görə də "Gürcüstan" qəzetini yaşatmaq lazımdır. Mən böyük vədlər verən adam deyiləm. Ancaq bu gün bəyan edirəm ki, "Gürcüstan" qəzetinin yaşaması, mütəmadi çıxması üçün Azərbaycan dövləti və şəxsən mən lazımi tədbirlər görəcəyik. İnanıram ki, mənim dostum Eduard Şevardnadze də bu təşəbbüsə qoşulacaqdır.

Mən bir daha qeyd etmək istəyirəm ki, bu günlər çox əlamətdar günlərdir. Cənab Şevardnadze bu hadisələri tarixi hadisələr kimi qiymətləndirdi. Doğrudan da biz tarixi günlər yaşayırıq. Tbilisi dövri-qədimdən azərbaycanlılar üçün sevimli bir şəhər, bir yer olubdur. Burada bizim böyük-böyük şəxsiyyətlərimiz yaşayıb, yaradıb, böyük-böyük işlər görüblər. Burada Mirzə Fətəli Axundovun, Mirzə Şəfi Vazehin adları çəkildi. 1918-ci ildə Azərbaycan demokratik dövlətini yaradanlardan biri – Əlimərdan bəy Topçubaşov da Tbilisidə doğulmuşdur. Nəriman Nərimanov da Tbilisidə doğulmuşdur. Bizim böyük yazıçımız, filosofumuz, böyük mütəfəkkir Cəlil Məmmədquluzadə fəaliyyətinin çoxunu Tbilisidə, Gürcüstanda keçirib. Bütün dünyada, xüsusən müsəlman Şərqində məşhur olan "Molla Nəsrəddin" jurnalı məhz Tbilisidə Cəlil Məmmədquluzdənin təşəbbüsü, rəhbərliyi ilə nəşrə başlayıb və uzun illər burada fəaliyyət göstərib, bütün Qafqaza, Orta Asiyaya, İrana, Türkiyəyə, bütün Şərqə böyük, mütərəqqi təsir bağışlayıb.

Böyük bəstəkarlarımız Üzeyir Hacıbəyov, Müslüm Maqomayev – Azərbaycan professional musiqisinin baniləri Qori seminariyasını qurtarıblar, öz böyük təhsillərini burada alıblar. Onlar Qori seminariyasında oxuyarkən bəstəkarlığa başlayıblar. Azərbaycan musiqisini Gürcüstan torpağında yaşadıblar. Belə misalları çox saymaq olar. Ona görə də Tbilisi, Gürcüstan bizim üçün əziz bir şəhər və diyardır. Bu iki gündə biz özümüzü elə bil cənnətdə hiss etdik. Biz sizinlə bir yerdəyik, mehriban bir mühit içərisindəyik.

Ona görə, mən əziz dostumuz Eduard Şevardnadzeyə və onun bütün həmkarlarına Azərbaycan xalqı adından, öz adımdan bu iki gün üçün bir daha təşəkkürümü bildirirəm.

Əziz bacılar və qardaşlar, Azərbaycan nümayəndələrinə, mənə göstərdiyiniz hörmət və ehtirama görə sizə təşəkkürümü bildirirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu iki [444-445] gün ərzində gördüyümüz işlər gələcəkdə gözəl nəticələr, bəhrələr verəcəkdir. Biz dostluğumuzu, qardaşlığımızı möhkəmləndirəcəyik. Gürcüstan-Azərbaycan, gürcü – azərbaycanlı dostluğu bundan sonra daha da möhkəm olacaq, əbədi, sarsılmaz olacaqdır!

Gürcü xalqına eşq olsun!

Müstəqil Gürcüstana eşq olsun!

Gürcüstanın görkəmli rəhbəri Eduard Şevardnadzeyə eşq olsun!

Sarsılmaz Gürcüstan-Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun! Eşq olsun! Eşq olsun! [445-446]

## GÜRCÜSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*Tbilisi*

*10 mart 1996-cı il*

**Müxbir**: **Cənab prezident, səfəriniz başa çatır, siz vətənə yola düşürsünüz. Sizin Gürcüstana gəlməyiniz ərəfəsində bir çoxları bu səfəri Xəzərdən çıxarılacaq ilkin neftin nəqli məsələsinin həlli ilə əlaqələndirirdilər. Lakin bu günün reallıqları göstərdi ki, sizin Gürcüstanda olduğunuz müddətdə ən mühüm məsələ təkcə bu olmayıb, həm də çoxcəhətli xarakter daşıyan sənədlər imzalanıbdır. Əgər imzalanmış bəyannaməni də nəzərə alsaq, Xəzər nefti ilə bağlı mövzu bir qədər arxa plana keçdi.**

**Heydər Əliyev:** Xəzər neftinin nəqli məsələsini biz prinsipcə ötən ilin oktyabrında həll etmişdik. Lakin Gürcüstan ilə Azərbaycan arasında sazişi imzalamaq lazım idi. Ötən müddətdə biz bununla məşğul olduq, mən buraya tam hazırlanmış sənədlərlə gəldim və sazişi imzaladıq. Digər mühüm sənədləri imzalamağımız isə heç də həmin sazişin əhəmiyyətini azaltmır. Bununla yanaşı, biz Gürcüstanla Azərbaycan Respublikası arasında dostluq, əməkdaşlıq və təhlükəsizlik haqqında çox mühüm müqavilə də imzaladıq. Eduard Amvrosiyeviç Şevardnadze və mən Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında mühüm bəyannamə də imzaladıq. Digər əhəmiyyətli sənədlər də imzalanmışdır. Bütün bunlar hamısı gələcək fəal əməkdaşlığımız üçün hüquqi baza yaradan sənədlər toplusunu təşkil edir.

**Müxbir**: **Demək olarmı ki, həmin bəyannamənin təşəbbüsçüləri Gürcüstan və Azərbaycandır?**

**Heydər Əliyev:** Nəinki demək olar, əslində də belədir, təşəbbüsçü bizik. Bu fikri kənardan bizə heç kim deməyib. Mən özüm bu məsələ barədə çox düşünmüşəm. Eduard Amvrosiyeviçlə fikir mübadiləsi etmişik, o da bu haqda düşünürdü. Məhz Qafqazın qayğısına qalaraq birlikdə bu fikrə gəldik. Qafqaz dünyanın mühüm regionudur. Burada çox ciddi hadisələr baş verir, münaqişələr gedir, çox qan tökü[446-447]lür. Qafqaz təkcə burada yaşayan xalqlar, Qafqazı təşkil edən ölkələr üçün deyil, həm də ətrafdakı ölkələr, habelə dünyanın bir çox digər ölkələri üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də biz bu məsələ barədə düşünürdük və ümumi səylərimiz, problemə ümumi baxışımız bəyannamə imzalamağımızla nəticələndi. Şübhəsiz ki, bu, bizim təşəbbüsümüz, Şevardnadze və Əliyevin təşəbbüsüdür.

**Müxbir**: **Bəyannamənin gələcək taleyini, perspektivini necə görürsünüz? Yəqin belə bir fikirlə razılaşmaq olar ki, Qafqazda sülh olmasını istəməyən qüvvələr var.**

**Heydər Əliyev:** Bilirsiniz, bu bəyannamə məhz belə qüvvələrə qarşı yönəldilib. Əlbəttə, kimin Qafqazda sülh, əmin-amanlıq, sabitlik olmasını istəməsini, kimin istəməməsini zaman göstərəcək. Biz bu bəyannamədə Qafqazın hər hansı ölkəsinin, yaxud Qafqaza maraq göstərən başqa ölkələrin hüquqlarını, mənafelərini tapdalayan heç bir şey təklif etmirik.

**Müxbir**: **Zaman məsələsi barədə dediyiniz çox maraqlıdır. Bütün bunlar Qafqazla bağlı məsələlərin siyasi cəhətidir. Xəzər neftinə gəldikdə isə, bu məsələnin həlli göstərir ki, indi Qafqazın iqtisadi baxımdan dirçəldilməsi də siyasi problemlərin nizamlanması kimi reallıqdır.**

**Heydər Əliyev:** Əlbəttə, bunlar bir-biri ilə əlaqəlidir. Çünki iqtisadi dirçəliş, Qafqazın böyük iqtisadi potensialından istifadə edilməsi üçün imkanlar yaradılması siyasi məsələlərin həllinə də fəal təsir göstərəcəkdir.

**Müxbir**: **Deyirlər ki, siz, indi jurnalistlərin xoşladıqları ifadə ilə desək, "durğunluq illərinin" siyasi lideri olarkən Eduard Şevardnadze ilə bir növ rəqabətiniz olub, özü də bu, təkcə regionda liderlik üstündə getməyib. Bu, nə dərəcədə doğrudur və indi Gürcüstan prezidenti ilə münasibətləriniz necə inkişaf edir?**

**Heydər Əliyev:** Bilirsiniz, rəqabətin olması barədəki fikirlə razı deyiləm. Burada, Tbilisidə birinci gün biz məsələlərimizi həll edərkən dedim ki, ölkələrimiz, xalqlarımız bir-birinə yaxındırlar. Onların qonşuluqda yaşamalarını, deməli, həm də dostluq etmələrini tale özü müəyyən etmişdir. Lakin iş elə gətirmişdir ki, Gürcüstan və Azərbaycanın rəhbərləri kimi bizim keçdiyimiz yollar çox oxşar olmuşdur. Biz zaman, vaxt etibarilə az fərqlə, təxminən eyni vaxtda Azər[447-448]baycan və Gürcüstana rəhbərlik etməyə başlamış, eyni vaxtda da Moskvada, keçmiş Sovetlər İttifaqının rəhbərliyində olmuşuq.

Şübhəsiz ki, mən "durğunluq illəri" ifadəsi ilə razı deyiləm, tarix özü bunu təkzib etmişdir. O dövr əsla durğunluq illəri deyildi.

**Müxbir: Mən bu fikri jurnalistlərin adına çıxıram.**

**Heydər Əliyev:** Bu, jurnalistlərin deyil, Qorbaçovun uydurması idi. Hesab edirəm ki, o özü də həyatının ən yaxşı illərini həmin dövrdə, Stavropolda işləyərkən yaşamışdır. Sonra isə bütün bu illəri pisləməyə, "durğunluq illəri" adlandırmağa başladı və müvəffəqiyyətsizliyə uğradı. Həmin dövrdə biz çox şeyə nail olmuşduq. Gürcüstanda da, Azərbaycanda da belə idi. Bu, keçmiş Sovetlər İttifaqında da, dünyada da məlum idi. Görünür, dediyiniz fikir başqa şeylə – Eduard Amvrosiyeviç Şevardnadzenin də, mənim də digər respublikaların liderləri

arasında seçilməyimizlə bağlıdır, deyə bilərəm ki, məşhurluğumuzla bağlı idi. Yəqin, bu, ondan irəli gəlirdi ki, Qafqazdan, Zaqafqaziyadan olan hər ikimiz Sovetlər İttifaqının rəhbərliyinə gəlib çıxmışdıq. Rəqabət yox idi, xeyirxah münasibət, yaxşı, dostluq əlaqələri vardı. Biz bir-birimizdən yaxşı cəhətləri götürməyə çalışırdıq. Bu mənada rəqabət demək olardı – Gürcüstanda yaxşı bir şey görəndə biz onu Azərbaycanda tətbiq etməyə çalışırdıq, Azərbaycanda da müəyyən bir yenilik olanda hiss edirdim ki, bir müddət sonra təxminən eyni şey Gürcüstanda da meydana gəlir. Vəziyyət təxminən belə idi.

İndiki münasibətlərimizə gəldikdə isə, zənnimcə, Tbilisidə olduğum bu üç gün bunların xarakterini kifayət qədər əyani şəkildə nümayiş etdirir. Edurad Amvrosiyeviç Şevardnadze də, mən də bunu çox demişik: bizim münasibətlərimiz mehriban, dostluq xarakteri daşıyır. Hesab edirəm, bu, sadə adamlar kimi bizdən daha çox, xalqlarımızdan ötrü lazımdır ki, həm hərbi münaqişələrlə bağlı, həm də, şübhəsiz sosial-iqtisadi xarakterli problemlərlə bağlı olan indiki mürəkkəb dövrü yaşaya, ağır vəziyyətdən çıxa bilsinlər.

**Müxbir: Cənab prezident, bütün sivilizasiyalı dövlətlərdə milli hərəkatı prezidentin adı ilə bağlayırlar. Sovet İttifaqı dağıldıqdan sonra yaranmış dövlətlərdə vəziyyət bir qədər başqadır. İş belə gətirmiş**[448-449]**dir ki, bir qayda olaraq, prezident və milli hərəkat bir-birinə qarşı duran iki qüvvədir. Bunu sizin barənizdə deməyə çətinlik çəkirəm. Hər halda bu vəziyyət bəzi dövlətlər üçün xarakterikdir. Siz bunu nə ilə izah edirsiniz?**

**Heydər Əliyev:** Bilirsiniz, müxtəlif respublikalarda vəziyyət eyni olmamışdır. Bu vəziyyət Sovetlər İttifaqının dağıldığı dövrdə və xüsusən də o dağıldıqdan sonra xarakterik olmuşdur. Əvvələn, vaxt keçdikdən sonra bütün bu proseslər təhlil edilmişdir. İkincisi, hər bir respublikanın özünəməxsus səbəbləri, xüsusiyyətləri var, ona görə də hər birində vəziyyət də müxtəlif olmuşdur.

Məsələn, mən hesab etmirəm ki, Gürcüstanda Eduard Şevardnadze ilə hərəkat arasında hansısa qarşıdurma var. Milli hərəkat nə deməkdir? Əgər o, həqiqi, xalqın mənafeyini, milli mənafeni ifadə edən hərəkatdırsa, eyni mənafeləri ifadə edən, amma, necə deyərlər, küçədə qışqırmayan, böyük siyasi təcrübəsinə əsaslanaraq məsələləri həll edən siyasi liderə qarşı çıxmaz.

Bu, Azərbaycana da aiddir. Azərbaycanda milli hərəkatın başlanması ən çox Dağlıq Qarabağdakı hadisələrlə və mərkəzin, Moskvanın bu problemin həllinə ədalətsiz yanaşması ilə bağlı idi. Əslində bu, xalqın Azərbaycandakı və Moskvadakı kommunist rejiminə qarşı coşqun etirazının mayasını təşkil edirdi. 20 Yanvar faciəsinə gətirib çıxaran hadisələri də bilirsiniz.

Sonra milli hərəkatın özündə də müəyyən fərqlər əmələ gəldi. Milli inkişaf uğrunda real şəkildə, həqiqətən mübarizə aparmış və aparan qüvvələr, milli hərəkatda iştirak etmiş qüvvələr bu gün də fəaliyyət göstərirlər. Hərəkata yalnız özlərinin şəxsi mənafeləri üçün qoşulanlar, populistlər, yaxud siyasi cəhətdən səriştəsiz olanlar isə tədricən sıradan çıxdılar. Zənnimcə, Gürcüstanda da belə olmuşdur.

**Müxbir**: **Bəli. Mən ayrılıqda konkret bir dövləti deyil, ümumi meyli nəzərdə tuturdum.**

**Heydər Əliyev:** Bilirsiniz, bu meylləri birmənalı qiymətləndirmək, ümumi meyllər hesab etmək olmaz. Tarixi, milli xüsusiyyətlərdən, konkret regionla bağlı şəraitdən asılı olaraq, – məsələn, burada, sizdə Abxaziya – Gürcüstan, Cənubi Osetiya – Gürcüstan münaqişələri, bizdə Dağlıq Qarabağ [449-450] üstündə gedən Ermənistan-Azərbaycan münaqişəsi, münaqişə olmayan yerlərdə isə nəsə başqa şey vardı, – keçmiş Sovetlər İttifaqının ayrı-ayrı regionlarında vəziyyət müxtəlif olmuşdur.

**Müxbir: Bilirəm, çox tələsirsiniz. Sonuncu sualımdır. Cənab prezident, səhv etmirəmsə, on beş il olar Gürcüstana gəlmirdiniz. İş elə gətirib ki, indiki səfəriniz martın 8-nə düşüb. Xüsusi olaraq bu vaxtı seçmisiniz, yoxsa təsadüfdür? 8 Mart münasibətilə Gürcüstanda ilk təbrik etdiyiniz qadın kimdir?**

**Heydər Əliyev:** Şübhəsiz, bu vaxt xüsusi olaraq seçilməmişdir. Təxminən bir il idi ki, təkcə danışıqlar aparmır, həm də görüşümüzlə bağlı məsələləri müzakirə edirdik. Mən Eduard Amvrosiyeviçi səfərə dəvət edirdim, o da məni dəvət edirdi. İş belə gətirdi ki, əvvəlcə mənim Gürcüstana səfərim barədə razılığa gəldik. Biz bir neçə dəfə səfərin vaxtını nəzərdə tutmuş, lakin müxtəlif səbəblər üzündən təxirə salmışdıq. Amma bütün məsələlər, xüsusən Qərb marşrutu ilə neftin nəqli məsələsi həll edildikdən – sonuncu ilə əlaqədar çox şeyi həll etmək lazım idi, – sonra qərara gəldim ki, səfəri daha təxirə salmaq olmaz, getmək lazımdır. Bu da təsadüfən martın 8-nə düşdü.

8 Marta gəldikdə isə, mən bilirəm ki, bu, Gürcüstanda bayram günü deyil, Azərbaycanda isə bayram günüdür. Ona görə də səfərimin qadınlar bayramı ilə bir vaxta düşməsi barədə fikir özünü doğrultmur. O ki qaldı 8 Mart münasibətilə Gürcüstanda kimi təbrik etməyimə, mən çox gözəl qadını – kinorejissor Lana Qoqoberidzeni təbrik etmişəm. O, parlamentdə Eduard Amvrosiyeviç Şevardnadzenin partiyasının fraksiyasına başçılıq edir. Buraya, Tbilisiyə gələndə onunla görüşdük, həm də o, mənim çox xoşuma gəldi.

**Müxbir: Parlamentin iclasında deputatlara və ümumiyyətlə Gürcüstan ictimaiyyətinə müraciət etmək imkanınız olub, indi vətənə yola düşürsünüz, əgər istəyirsinizsə, Gürcüstan milli televiziyası vasitəsilə Gürcüstan ictimaiyyətinə müraciət edə bilərsiniz.**

**Heydər Əliyev:** Hesab edirəm ki, biz burada böyük iş görmüşük. Buraya səfərim ərəfəsində və Gürcüstanda olduğum müddətdə Eduard Amvrosiyeviçlə gördüyümüz birgə işlər çox yaxşı nəticələr vermiş, gələcək əməkdaşlığımızın və dostluğumuzun daha da möhkəmlənməsi üçün yaxşı zəmin ya[450-451]ratmışdır.

Gürcüstanda əvvəllər də və indi də gedən proseslərə biganə qala bilmərəm. Çünki Gürcüstan dost ölkə, gürcülər dost xalqdır. Mən Gürcüstana, gürcü xalqına həmişə böyük hörmət bəsləmişəm. On beş ildən sonra yenidən buraya gələndə, şübhəsiz ki, keçmiş vaxtları da xatırladım və ona da sevindim ki, indi Tbilisidə, Gürcüstanda ictimai-siyasi sabitlik var. Bu, həm Gürcüstanın, həm də Azərbaycanın düşdükləri ağır vəziyyətdən çıxmaq üçün çox mühümdür. Mən bu zərurəti Azərbaycanda hiss edirəm. Ona görə də bunun Gürcüstan üçün nə dərəcədə mühüm olduğunu bilirəm. Çünki hər iki ölkədə vəziyyət hər baxımdan oxşar, demək olar, eynidir.

Mən gürcü xalqına, Gürcüstan vətəndaşlarına səmimi salamlarımı və xoş arzularımı yetirmək, onlara xoşbəxtlik və səadət diləmək istərdim. Onlara demək istərdim ki, bu vəziyyətdən çıxmaq üçün dözüm, dözüm və yenə də dözüm, son dərəcə mətinlik lazımdır. Mən Azərbaycan xalqına bunu deyirəm, bir dost kimi gürcü xalqına da deyirəm, xoşbəxtlik və səadət arzulayıram.

**Müxbir**: **Çox sağ olun. Sizə yaxşı yol və gələcək həyatınızda uğurlar diləyirəm.**

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm. [451-452]

## BAKIDA BEYNƏLXALQ VALYUTA FONDUNUN SƏRƏNCAMÇI DİREKTORU MİŞEL KAMDESSÜ İLƏ DANIŞIQLAR BAŞA ÇATDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

*12 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli mətbuat işçiləri!

Bilirsiniz ki, Beynəlxalq Valyuta Fondunun direktoru cənab Kamdessü Bakıya gəlibdir. Bu gün səhərdən bir çox görüşlər keçirilibdir. İndi isə biz çox uzunsürən danışıqlar apardıq. Bu danışıqlar Azərbaycan Respublikası ilə Beynəlxalq Valyuta Fondunun gələcək əməkdaşlığına həsr olunmuşdur.

Beynəlxalq Valyuta Fondu dünyanın ən böyük maliyyə mərkəzidir, 180-dən artıq ölkə bu fondun üzvüdür. Onun əsas vəzifələrindən biri dünyanın iqtisadi cəhətdən geridə qalmış ölkələrinə kömək və xüsusən bu ölkələrdə müasir iqtisadi islahatların həyata keçirilməsinə yardım göstərməkdən ibarətdir.

Azərbaycan Beynəlxalq Valyuta Fondunun üzvüdür və qeyd edə bilərəm ki, bizim əməkdaşlığımız müvəffəqiyyətlə gedir. Beynəlxalq Valyuta Fondu Azərbaycanda iqtisadi islahatların aparılmasında, ölkəmizin bazar iqtisadiyyatı yolu ilə getməsi sahəsində çox dəyərli məsləhətlər verir və biz bu məsləhətlərdən istifadə etməyə çalışırıq. Eyni zamanda fond Azərbaycanda iqtisadi islahatların keçirilməsi, iqtisadiyyatda struktur dəyişikliklərin aparılması, özəlləşdirmə və başqa bu cür tədbirlər üçün respublikamıza kreditlərlə maliyyə yardımı edir. Biz Beynəlxalq Valyuta Fondundan 100 milyon dollarıdək kredit almışıq. Bu, çox güzəştli, uzunmüddətli kreditdir və gələcəkdə çox az faizlə ödəniləcəkdir.

Bu ayın axırında kreditin – buna stend-bay krediti deyirlər – təxminən 75 milyon dollar məbləğində ikinci hissəsi yəqin ki, Azərbaycana veriləcəkdir. İndi böyük bir proqram hazırlanır və gələcəkdə iqtisadi islahatların keçirilməsi üçün onun əsasında Beynəlxalq Valyuta Fondu bizimlə əməkdaşlıq edəcəkdir. Bu əməkdaşlıq da uzunmüddətli kreditlərlə təmin olu[452-453]nacaqdır. Bunlar hamısı Azərbaycanda bütün sahələrin, o cümlədən iqtisadiyyatın demokratiya yolu ilə getməsini bir daha sübut edir və gələcəkdə də bu yolla getməyimizə imkanlar yaradır.

Cənab Kamdessü on ilə yaxındır ki, Beynəlxalq Valyuta Fonduna rəhbərlik edir, dünyanın tanınmış iqtisadçılarından, maliyyəçilərindən biridir. Bu vəzifədə dünyanın bir çox ölkələri qarşısında böyük xidmətlər göstəribdir. Azərbaycana ilk dəfə gəlib, biz onu böyük hörmət və ehtiramla qarşılamışıq. Mən apardığımız danışıqlardan və bunların nəticələrindən məmnunam. Ümidvaram ki, bu danışıqlar, görüşlər əsasında Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasında əməkdaşlıq bundan sonra daha sürətlə inkişaf edəcəkdir.

**Sual: Cənab Kamdessü, bizə səxavətlə vaxt ayırdığınız üçün təşəkkür edirik. Əgər Azərbaycana maliyyə vəsaitini də belə səxavətlə ayırsanız, respublikamızın işləri çox yaxşı olacaq. Dediniz ki, Beynəlxalq Valyuta Fondunun nizamnaməsinin ilk maddəsinə görə ehtiyacı olan üzv ölkələrə özlərinə inam yaratmağı, habelə başqa ölkələrdə onlara inam yaratmağı nəzərdə tutursunuz. Azərbaycana inam yaratmaq istəyinizi buraya səfərinizdən və ölkəmizdə keçirilən islahatlar haqqında dediklərinizdən başa düşdük. Başqa ölkələrdə Azərbaycana qarşı inam yaratmaq üçün nə işlər görmüsünüz, görürsünüz və görəcəksiniz?**

**Mişel Kamdessü:** Mən başqa ölkələri əmin etmək istəyirəm ki, Azərbaycan inama, etimada layiqdir. Bundan ötrü ən münasib məclisdən – 181 dövləti təmsil edən Beynəlxalq Valyuta Fondunun İcraiyyə Şurasından istifadə edirəm. Onlar ölkənin vəziyyəti, uğurları barədə bizim verdiyimiz qiyməti nəzərə alırlar. Əgər müsbət qiymət veririksə – bu dəfə də belə fikirdəyik – həmin ölkənin maliyyələşdirilməsi təsdiq olunur. Əks halda belə qərar qəbul edilmir. Demək istəyirəm ki, biz başqa beynəlxalq məclislərdə də sizin nailiyyətlərinizə müsbət qiymət verəcəyik. Əgər siz ən yaxın gələcəkdə bu qiymətin nəticələrini görməsəniz, bu, məni çox təəccübləndirər.

Ölkəyə inamı gücləndirməyin çox mühüm cəhəti onun ətraf dünya ilə, o cümlədən qonşularla əməkdaşlığa hazır olması, regional səviyyədə ümumi məqsədlər irəli sürə bilməsi və bunu istəməsidir. Bununla əlaqədar bu günlərdə sizin pre[453-454]zidentin və Gürcüstan prezidenti cənab Şevardnadzenin Qafqaz təşəbbüsü haqqında imzaladıqları bəyannamənin – regionda sabitliyə və tərəqqiyə nail olmağa yönəldilmiş sənədin əhəmiyyətini qeyd etmək istəyirəm. Məsələyə belə ümumi baxışın regionda geniş yayılması çox mühümdür. Xüsusən ona görə ki, Qafqaz regionunun digər ölkələrinin də bu bəyannaməyə qoşulması üçün imkan var. Beynəlxalq birlik məhz belə təşəbbüsləri dəstəkləməyə hazır olacaqdır.

**Sual: Azərbaycan prezidenti ilə hansı konkret razılaşmalar əldə olunmuşdur? Məsələn, siz üçüncü kreditin verilməsini respublikada özəlləşdirmənin keçirilməsi ilə bağlayırsınızmı?**

**Mişel Kamdessü:** Bizim hansısa konkret danışıqlar apardığımıza əmin deyiləm, çünki bir çox məsələlərdə eyni fikirdə idik. Söhbətimiz əsasən ona həsr olunmuşdu ki, baxışlarımızı aydınlaşdıraq və həm də görək

Azərbaycan öz gələcəyini necə təsəvvür edir. Stend-bay mexanizmi çərçivəsində razılaşmalara gəldikdə isə, deyə bilərəm ki, bu proqramın uğurla yerinə yetiriləcəyi təqdirdə biz dərhal struktur dəyişikliklərinin geniş müəyyənləşdirilməsinin üçillik proqramına keçməyə hazırıq. Özü də bu kreditlər daha güzəştli şərtlərlə, yəni daha az faizlə və daha uzun müddətə verilir. Şübhəsiz ki, özəlləşdirmə bu proqramın mərkəzində dayanacaqdır. Ona görə ki, sizin ölkəniz bazar iqtisadiyyatına, iqtisadi demokratiyaya keçmək istəyir. Biz də, sizin rəhbərlik və hökumət də gələcəyə bu cür baxırıq. Belə razılığa gəlmişik ki, stend-bay kreditləri üzrə nəzərdə tutulduğu kimi, əvvəlcə tam miqyasda kiçik özəlləşdirmə keçirilməlidir. İndiki halda təxminən səkkiz min kiçik müəssisədən söhbət gedir. Özəlləşdirmənin sonrakı mərhələsini isə biz hələlik konkret olaraq müzakirə etməmişik.

**Sual: Cənab direktor, qeyd etdiniz ki, respublikada makroiqtisadi sabitlik yaradılması sahəsində böyük nailiyyətlər əldə olunubdur. Buna baxmayaraq, əhalinin sosial vəziyyəti olduqca ağırlaşır və bəzi qüvvələr bunu Azərbaycan hökumətinin Beynəlxalq Valyuta Fondunun şərtlərinə əməl etməsi ilə əlaqələndirirlər. Siz dediniz ki, əhalinin vəziyyətinin yaxşılaşdırılması, sosial təsisatların yaradılması üçün Azərbaycan hökumətinə kömək göstərəcəksiniz. Bu kömək nədən ibarət olacaqdır?** [454-455]

**Mişel Kamdessü:** Sabitləşdirmə proqramı yerinə yetirilərkən çox vaxt adamlar iddia edirlər ki, onların bütün məhrumiyyətləri və məqsədləri məhz bu proqramdan irəli gəlir. Biz belə iradları tez-tez eşidirik. Bu, xəstəxanada müalicə olunan xəstənin vəziyyətini xatırladır. O, öz əzablarına görə dərmanlardan, yaxud müalicə kursundan, şikayətlənir, xəstəxanaya nə səbəbdən düşməsini isə unudur. Lakin dərman gələcək sağlamlığın təməlidir. Bizim vəzifəmiz ölkənizi bu vəziyyətdən çıxaracaq və tərəqqiyə çatdıracaq yolu qısa bir müddətdə tapmaqdır. Ona görə də sizi tezliklə sağalmaq və tərəqqiyə nail olmaq naminə ağrılı hisslərdən qorxmamağa çağırıram.

**Sual: Siz 1993-cü ildə Türkmənistanda olarkən, səhv etmirəmsə, belə bir bəyanat vermisiniz ki, əgər Ermənistan və Azərbaycan sülhə gələrlərsə, Beynəlxalq Valyuta Fondu dağıdılmış ərazilərin bərpasının maliyyələşdirilməsini öz üzərinə götürə bilər. Bu gün də həmin fikrinizdə qalırsınızmı?**

**Mişel Kamdessü:** Həmişəkindən daha çox. Biz sizə kömək göstərməyə başlamışıq, Ermənistana da yardım edirik. Hər iki tərəfin öz ölkəsinin iqtisadiyyatını düzgün yola çıxarmağa səy göstərdiyini görürük. İqtisadiyyatı, onun sağlamlığını bərpa edərkən biz düşünürük ki, bu prosesin ən mühüm labüd, ilkin şərti, onun uğurla getməsinin rəhni sülh prosesinin sürətlənməsidir. Bu proses konkret nəticələrə gətirib çıxardıqda, biz beynəlxalq aləmdə katalizator, səfərbəredici vasitə rolunu yerinə yetirməyə şad olacağıq. Bu isə müharibənin dağıtdığı ərazilərin bərpası üçün zəruridir. [455-456]

## 1991-ci il DEKABRIN 8-də RUSİYANIN, UKRAYNANIN VƏ BELORUSİYANIN İMZALADIĞI "BELOVEJSK SAZİŞİ"Nİ LƏĞV ETMİŞ RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ 1996-cı il 15 MART TARİXLİ QƏRARI İLƏ ƏLAQƏDAR BƏYANAT

*16 mart 1996-cı il*

Rusiya Federasiyasının Dövlət Duması dünən bir qərar qəbul etmişdir. Bu qərar dünyada çox böyük əks-sədaya və təşvişə səbəb olmuşdur. Dövlət Duması həmin qərarla 1991-ci il dekabrın 8-də üç dövlətin – Rusiyanın, Ukraynanın və Belorusiyanın imzaladığı "Belovejsk sazişi" adlı sənədi ləğv edibdir. Bu da Sovet İttifaqının yenidən bərpa olunması kimi səslənibdir, Rusiyada və başqa ölkələrdə çox böyük maraq oyadıbdır.

Bu barədə nə deyə bilərəm? Təəccüb doğuran bir qərardır. Eyni zamanda təəccüb doğuran orasıdır ki, artıq Dövlət Dumasında Sovetlər İttifaqının dağıdılmasında günahkarları axtarırlar və onları cəzalandırmaq istəyirlər. Hesab edirəm ki, bu, mənasız bir işdir. Çünki 1980-ci ilin əvvəllərindən başlayaraq dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqında gedən tarixi, ictimai-siyasi və tamamilə təbii, obyektiv qanunlara uyğun olan proseslərin nəticəsində Sovetlər İttifaqı dağılmışdır. O, dağılmalı idi və dağıldı. Geriyə yol yoxdur. Heç kəs yenidən Sovetlər İttifaqını bərpa edə bilməz.

Rusiya Dövlət Dumasının qərarı onun, yəni Rusiyanın daxili işidir. Şübhəsiz ki, bu, başqa dövlətlərə, müstəqil dövlətlərə heç bir təsir edə bilməz. O ki qaldı bizim – Azərbaycanın mövqeyinə, bu barədə bizim mövqeyimiz aydındır. Mən bunu dəfələrlə bəyan etmişəm.

Biz keçən il müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik. Bu konstitusiya ümumxalq səsverməsi ilə qəbul olunubdur. Konstitusiyamızın əsasını, özəyini təşkil edən Azərbaycanın milli azadlığıdır, suverenliyidir və dövlət müstəqilliyidir. Biz öz dövlət müstəqilliyimizdən əl çəkə bilmərik, yəni onu əlimizdən verə bilmərik. Mən dəfələrlə demişəm, bu gün də bəyan edirəm ki, Azərbaycanın dövlət müs[456-457]təqilliyi əbədidir. Biz də onu əbədi etmək üçün çalışacağıq və hamı çalışmalıdır.

Bu gün bu məsələ haqqında müəyyən fikirlər söyləmək zərurətində olduğum üçün, eyni zamanda beş il bundan əvvəl olan hadisələrə də bir balaca nəzər salmaq istəyirəm. Beş il bundan əvvəl, məhz o vaxt – 1991-ci ilin əvvəllərindən Sovetlər İttifaqının dağılması prosesi gedirdi. Sovetlər İttifaqının o vaxtkı rəhbərləri, o cümlədən bu ittifaqa daxil olan ayrı-ayrı müttəfiq respublikaların rəhbərlərinin bəziləri Sovetlər İttifaqını saxlamaq istəyirdilər. Dağılma prosesi o qədər güclü idi ki, onun qarşısını almaq üçün bir tədbir görməyə çalışırdılar. O vaxt belə bir qərar meydana çıxdı ki, indiyədək mövcud olan Sovetlər İttifaqı doğrudan da günün tələblərinə cavab vermir. Ancaq Sovetlər İttifaqını qoruyub saxlamaq və İttifaqa yeni bir xarakter vermək üçün ümumxalq referendumu keçirilməsi qərara alındı.

Azərbaycanda bu qərara birmənalı münasibət yox idi. Mən bilirəm, o vaxt da hiss edirdim ki, əhalimizin əksəriyyəti bu İttifaqın dağılmasının tərəfdarı idi, yeni bir İttifaqın yaranması və onun saxlanması haqqında referendum keçirilməsinin əleyhinə idi. Ancaq təəssüf ki, o vaxt Azərbaycan Respublikasının rəhbərləri həm respublikanın mənafeyini anlaya bilmirdilər, həm də Moskvadan verilən göstərişləri öz şəxsi mənafelərinə görə çox böyük itaətlə yerinə yetirməyə çalışırdılar və Azərbaycanı Sovetlər İttifaqının saxlanması üçün referendum keçirilməsinə sürükləyib salmaq istəyirdilər.

Xatirinizdədir, 1991-ci il martın 7-də Azərbaycan Respublikası Ali Sovetinin xüsusi sessiyası keçirildi və bu sessiyada həmin məsələ müzakirə olunurdu, yəni Sovetlər İttifaqının saxlanması ilə əlaqədar referendumun keçirilməsi. Referendum martın 17-də keçirilməli idi. O vaxt mən də həmin sessiyada iştirak edirdim – Naxçıvan Muxtar Respublikasından seçilmiş Azərbaycan Ali Sovetinin deputatı kimi. Mən orada çıxış etdim və Sovetlər İttifaqının dağılacağını bir daha bildirdim. Bildirdim ki, bu prosesin qarşısını almaq mümkün deyil, Sovetlər İttifaqı dağılır və dağılmalıdır. Azərbaycan heç bir yeni İttifaqa girməməlidir və Azərbaycan Sovetlər İttifaqının saxlanması ilə əlaqədar olan referendumda iştirak etməməlidir.

Təəssüflər olsun ki, o vaxt Ali Sovetin sessiyasında respublikanın keçmiş rəhbərliyinin şübhəsiz ki, göstərişi ilə, onların dirijorluğu ilə mənə qarşı cürbəcür ədəbsiz hərəkətlər oldu və [457-458] mənim bu çıxışımın əleyhinə çıxışlar oldu. Hətta mənim bu çıxışıma görə qərar qəbul olundu ki, komissiya yaradılsın və mənim Azərbaycanda rəhbər olduğum zaman bütün fəaliyyətim yoxlanılsın və guya məni cəzalandırsınlar. Ancaq mən öz sözümü dedim. Bu, düz beş il bundan öncə olubdur – 1991-ci ilin mart ayında. Bu gün yenə biz mart ayındayıq. Beş il sonra mənim dediyim o sözlər hamısı təsdiq olundu, Azərbaycan da müstəqil oldu.

Bu gün kimsə yenidən o İttifaqı yaratmaq istəyirsə, bu, çox düşünülməmiş bir şeydir. Çünki əgər İttifaqı o zaman saxlamaq mümkün olmadısa və o dağıldısa, İttifaqda olan respublikalar bu beş il müddətində müstəqil dövlətlər olublarsa, Dünya Birliyinə daxil olublarsa, indi kim bu dövlət müstəqilliyindən əl çəkib yenidən bir

İttifaqa girə bilər? Yenə də deyirəm, bəlkə də indi Rusiyanın daxilində gedən proseslərə görə bu qərarı qəbul edən qüvvələr müəyyən məqsəd daşıyırlar. Onların öz işidir və bu, ümumiyyətlə, Rusiyanın daxili işidir, biz buna qarışmırıq, mən də buna qarışmıram. Ancaq mən sadəcə öz mövqeyimi bildirirəm və bu fürsətdən istifadə edib, həmin 1991-ci ilin mart ayını xatırlayıram, o günləri xatırlayıram.

Azərbaycan üçün o, ağır, çətin günlər idi və o günlərdə də – hələ Azərbaycan Sovetlər İttifaqının daxilində olduğu zaman mən öz mövqeyimi bildirmişdim. Doğrudur, o vaxtlar mənim sözümə baxmadılar. Tək mən yox, bir çox başqa deputatlar da belə fikirdə idilər ki, bu referendum Azərbaycanda getməməlidir. Bunun əksinə olaraq Azərbaycanın rəhbərliyinin təzyiqi ilə sessiyada qərar qəbul olundu ki, Azərbaycan Respublikası referenduma getsin və 1991-ci il mart ayının 17-də Azərbaycanda referendum keçirilmədi. Ancaq onu da qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasında, – mən o vaxt orada yaşayırdım və oradan Azərbaycan parlamentinə deputat seçilmişdim – Sovet İttifaqının saxlanması ilə əlaqədar referendum keçirilmədi. Bu, orada mənim və mənimlə bərabər olan adamların iradəsi nəticəsində oldu. Azərbaycanın bütün başqa bölgələrində referendum keçirildi. Şübhəsiz ki, Azərbaycanın ümumi səsində Naxçıvanın xüsusi çəkisi o qədər böyük olmadığına görə, məlumat verdilər ki, Azərbaycan əhalisinin doxsan neçə faizi Sovetlər İttifaqının saxlanmasının tərəfdarıdır. Beləliklə, o vaxt Azərbaycan Respublikası Sovetlər İttifaqının saxlanmasına səs verdi. [458-459] Ancaq hesab edirəm ki, xalqımız səs verməmişdi, bu, saxtakarlıq nəticəsində olmuşdu.

Ondan sonrakı aylarda gedən proseslər təsdiq etdi ki, bu qərar çox yanlış qərardır, Azərbaycan xalqının mənafeyinə zidd olan qərardır. Çünki bir neçə aydan sonra – avqust ayında, bilirsiniz ki, Moskvada məşhur qiyam hadisələri baş verdi və Azərbaycan Respublikasının rəhbərliyi artıq müstəqillik haqqında bəyanat verməyə məcbur oldu. Başqa yol yox idi. Çünki artıq Moskvada – Sovetlər İttifaqının mərkəzində SSRİ dağılırdı. Başqa yol da yox idi. Ondan sonra da Azərbaycan Respublikasının müstəqil olması prosesi getdi.

Mən bunları bu gün ona görə xatırlayıram ki, bunlardan nəticə çıxarılsın və bu gün də, gələcəkdə də siyasətlə məşğul olan adamlarımız səhv yola düşməsinlər, səhv addımlar atmasınlar. Mənim 1991-ci il mart ayının 7-də parlamentdə etdiyim çıxış qalıbdır. Yəqin ki, oxucularımız onu oxuyub, o günləri xatirlərinə sala bilərlər.

Bunlarla əlaqədar mən buraya toplaşan mətbuat nümayəndələrinə – həm xarici ölkələrin, həm də bizim respublikanın mətbuat nümayəndələrinə bir də qətiyyətlə deyirəm ki, biz müstəqilliyimiz yolundan heç vaxt dönməyəcəyik və Rusiya Dövlət Dumasının qəbul etdiyi qərar onlar üçün heç bir nəticə verə bilməz. Bir də deyirəm, bu, onların daxili işidir, ancaq bizim mövqeyimiz bundan ibarətdir. Sağ olun. [459-560]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLƏN TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV – TÜRKMƏNBAŞININ BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*18 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Türkmənistanın prezidenti, bizim hörmətli dostumuz, qardaşımız cənab Saparmurad Niyazov – Türkmənbaşı mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Əziz dostumuz, qardaşımız, mən sizi Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram, sizə və sizinlə bərabər Azərbaycan Respublikasına gəlmiş qonaqlarımıza "Xoş gəlmisiniz!" deyirəm.

Türkmənistan ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin çoxəsrlik tarixi var. İndi Türkmənistan və Azərbaycan müstəqil dövlətlər kimi öz həyatının yeni mərhələsini yaşayırlar və bu mərhələdə Türkmənistan ilə Azərbaycanın əlaqələrini daha da inkişaf etdirmək üçün sizin, hörmətli prezident, Azərbaycana səfərinizin çox böyük əhəmiyyəti var. Biz sizi çox böyük səbirsizliklə gözləyirdik. Mən çox şadam ki, siz gəlmisiniz, Azərbaycan torpağındasınız. Ümidvaram ki, burada sizin səfəriniz zamanı biz çox səmərəli danışıqlar aparacağıq, ölkələrimiz, xalqlarımız arasında olan əlaqələrin daha da möhkəmlənməsi üçün çox səmərəli tədbirlər görəcəyik və bizim üçün tarixi əhəmiyyətli sənədlər imzalayacağıq.

Mən sizi bir daha salamlayıram, sizə "Xoş gəlmisiniz!" deyirəm. Öz torpağınıza, öz Vətəninizə xoş gəlmisiniz! Sağ olun. [460-461]

## AZƏRBAYCAN – TÜRKMƏNİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*

*18 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar, informasiya orqanlarının nümayəndələri! Bir az əvvəl Türkmənistan və Azərbaycan arasında çox mühüm dövlət sənədləri imzalandı. Bu müstəqil Türkmənistan ilə müstəqil Azərbaycan Respublikası arasında münasibətləri daha möhkəm müqavilə – hüquqi əsas üzərində qurmaq üçün həm Türkmənistan tərəfindən, həm Azərbaycan tərəfindən, həm də iki prezident tərəfindən göstərilmiş səylər nəticəsində mümkün olmuşdur. İndicə imzaladığımız bütün sənədlər son aylar, Türkmənistan prezidenti hörmətli Saparmurad Niyazovun Azərbaycana rəsmi səfəri ərəfəsində aparılmış böyük səmərəli işin nəticəsidir.

Bunlar çox mühüm sənədlərdir və Türkmənistan ilə Azərbaycan arasında bütün sahələrdə dostluq, mehriban qonşuluq münasibətlərinin daha uğurlu inkişafını təmin edəcəkdir. Dostluq və əməkdaşlıq haqqında sənəd çox böyük əhəmiyyətə malikdir və əvvəlki dövr ərzində xalqlarımız və ölkələrimiz arasında mövcud olmuş xoş münasibətləri, dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirir.

Xalqlarımız və ölkələrimiz arasında münasibətlər yaxşı məlumdur və zəngin, çoxəsrlik tarixə malikdir. İndi onlar yeni hüquqi forma və zəmin, yeni məzmun kəsb edir. Bu, ondan ibarətdir ki, suveren müstəqil dövlətlər olan Azərbaycan və Türkmənistan öz aralarında münasibətləri beynəlxalq hüquq normaları əsasında, xalqlarımızın nəsillərdən-nəsillərə keçmiş səmimi dostluq ənənələri əsasında qururlar.

Mən dostumuz, Türkmənistan prezidenti Saparmurad Niyazovun Azərbaycana səfərinin başlanğıcından, bu bir neçə saatda gördüyümüz işdən çox məmnunam. Əminəm ki, biz bundan sonra da səmərəli işləyəcəyik. Bütün bunlar nəinki Türkmənistan ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsinə, həm də ölkələr, müstəqil dövlətlər ara[461-462]sında sülhün, əməkdaşlığın, mehriban qonşuluğun və xoş münasibətlərin möhkəmlənməsinə böyük töhfə olacaqdır.

Möhtərəm Saparmurad Atayeviç, Sizi Azərbaycana səfərin uğurla başa çatması münasibətilə təbrik edirəm. Bugünkü gün ərzində müşahidə etdiklərimizdən, imzalanmış sənədlərdən çox məmnun qaldığımı və əmin olduğumu bildirirəm ki, bu sənədlər əməli surətdə həyata keçiriləcəkdir. Bildirirəm ki, Azərbaycan əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi üçün bütün bu sənədlərin yerinə yetirilməsini təmin etmək əzmindədir. Əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi üçün isə ehtiyat mənbələri və imkanları var. Qarşıda hələ çox böyük imkanlar durur. Ümidvaram ki, biz onlardan istifadə edəcəyik.

Vaxtı çox almaq istəmirəm. Sənədlərin məzmunu məlumdur. Burada kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirlər. Biz onların suallarına cavab verə bilərik.

**Sual: Hörmətli Saparmurad Atayeviç, mən sizin həmyerlinizəm, Aşqabatda doğulmuşam. İndi mənə "Bakinski raboçi" qəzetinə başçılıq etmək etibar olunub. Azərbaycan ilə Gürcüstan arasında nəqliyyat əlaqələrini təkmilləşdirmək üçün bu yaxınlarda Poylu körpüsü yenidən quruldu. İndi Azərbaycan Avropaya çıxmaq imkanına malikdir. Sizə elə gəlmirmi ki, körpüdən sağ əli uzatmaqla bərabər Xəzərə tərəf sol əli də uzatmaq olar. Belə olan halda Türkmənistan da, bütövlükdə Orta Asiya da Avropaya və dünya okeanına çıxmaq üçün daha qısa yola malik ola bilərlər.**

**S. Niyazov:** Həmyerlimizə təşəkkür edirəm. Biz Heydər Əliyeviçlə dedik ki, Türkmənistanda təxminən 100 min azərbaycanlı yaşayır. Onlar türkmənlərlə bərabər hüquqlara malikdirlər. Biz onları öz qardaş-bacılarımız sayırıq. Biz hər şeyi edəcəyik ki, bundan sonra da etnik əlaqələr, gediş-gəliş azad – sərbəst olsun.

"Bakinski raboçi" qəzeti barəsində demək istəyərəm ki, biz bu qəzeti SSRİ dövründə həmişə oxuyurduq. Lakin SSRİ parçalandıqdan sonra əlaqələr qırıldı. Belə düşünürəm ki, sizin qəzeti Türkmənistanda da yaymaq olar.

O ki qaldı Eduard Amvrosiyeviç Şevarnadze tərəfindən də imzalanmış regionda sülh haqqında bəyannamənin Heydər Əliyeviçin təşəbbüsü ilə imzalanmasına, biz bu sənədi dəstəkləyirik. Biz Heydər Əliyeviçlə Xəzər dənizi vasitəsilə nəqliyyat [462-463] əlaqələrindən danışdıq. Bizim limanımız texniki təchizat baxımından geri qalır. Bununla əlaqədar yaxın vaxtlarda burada aparacağımız işlər iki xalqın mənafeyi naminə dənizdə nəqliyyatın gecə-gündüz səmərəli işləməsinə imkan verəcəkdir. Gələcəkdə bizim Krasnovodsk dəniz limanını da yenidən qurmaq fikrindəyik. Artıq bundan sonra Mərkəzi Asiyaya Azərbaycan üçün yol tamamilə açılacaqdır. Bu məsələdə də Heydər Əliyeviçlə mövqelərimiz tamamilə uyğun gəlir.

**H. Əliyev:** Saparmurad Atayeviç, doğru deyirsiniz mövqelərimiz tamamilə uyğun gəlir. İradə Vəkilova nəqliyyat xəttini nəzərdə tutur. Elə nəqliyyat xəttini ki, onu Türkmənistandan, sizin Türkmənbaşı limanınızdan başlayıb Bakı limanından keçərək dəmir yolu ilə Gürcüstana, Qara dənizə yönəltmək olar. Zənnimcə, burada da perspektivləri var.

**S. Niyazov:** Biz bu sahədə əməkdaşlıq edəcəyik. Bu nəqliyyat yolu bizim üçün çox sərfəlidir.

**Sual: Xəzər dənizinin Türkmənistan sektoru onun beşdə bir hissəsini əhatə edir. Bir vaxtlar Azərbaycan neftçiləri Xəzərin sizə aid hissəsində təxminən 60 perspektivli struktur aşkara çıxarmışlar. Biz bilirik ki, bir sıra xarici şirkətlər Xəzərin Türkmənistan sektorunda axtarış – kəşfiyyat işləri aparılması barədə təkliflə Türkmənistan rəhbərliyinə müraciət etmişlər. Lütfən deyin, siz həmin şirkətlərdən hər hansı konkret təkliflər almısınızmı, Xəzərdəki öz hissənizi kimlə və hansı prinsiplərlə işlətmək niyyətindəsiniz? İkinci sual: Belovejsk sazişlərinin ləğv edilməsi haqqında Rusiya Federasiyası Dövlət Dumasının məlum qərarına münasibətiniz necədir? Bəlkə Heydər Əliyeviç də bu barədə öz fikrini bir daha bildirdi?**

**S. Niyazov:** Biz Heydər Əliyeviç lə Xəzər dənizindən istifadə edilməsi barədə fikir mübadiləsinə yenicə başlamışıq. Sənədlərin imzalanmasından sonra bu söhbəti davam etdirmək haqqında razılığa gəlmişik. Hollandiya və Amerika şirkətlərindən biri ilə Xəzər dənizinin bizə aid şelfində seysmika, hasilat sahəsində iş görürük. Bizim Xəzərdəki şelfimizdən istifadə olunması haqqında Amerikanın bir sıra iri şirkətləri ilə, Avropa şirkətləri, o cümlədən Rusiyanın "Rosqazprom" səhmdar şirkəti ilə danışıqlar aparılır. Biz Bakı neftçiləri və qaz işçiləri ilə əməkdaşlığı istisna etmirik. Onla[463-464]rın təcrübəsi dünyada diqqətəlayiqdir. Düşünürəm ki, bu məsələ barəsində yaxın vaxtlarda məsləhətləşmələrə başlanacaqdır. Ölkələrlə, xüsusən də Azərbaycanla əməkdaşlıqda bizim tərəfimizdən məhdudiyyət yoxdur. Bizim şelfdən birgə istifadə olunmasında Azərbaycan neftçiləri, neft şirkətləri ilə əməkdaşlığa hazırıq.

O ki qaldı Xəzərin problemlərinə, biz Heydər Əliyeviçlə bu barədə danışacağıq. Biz müxtəlif fikirlərdə idik. Lakin düşünürəm ki, ümumi rəyə gələcəyik. Rəylərimiz bir-birinə zidd deyildir və üçüncü ölkələrə toxunmur. Zənnimcə, bu barədə Heydər Əliyeviçin özü daha yaxşı danışar.

Rusiya Dövlət Dumasının qərarına gəldikdə, məncə, bu, daxili siyasi, seçkiqabağı bir işdir. 1991-ci il oktyabrın 27-də Türkmənistan müstəqillik statusu haqqında referendum keçirdi və xalq elliklə öz iradəsini bildirdi və həmin gün, yəni 27 oktyabr Milli Müstəqillik günü elan edildi. Bu, heç cür dəyişdirilə bilməz. Qərar qəbul edərkən bizimlə məsləhətləşmədilər. Buna görə də belə düşünürük ki, bu qərarın həyata keçirilməsi mümkün deyildir.

**H. Əliyev:** Neft və qaz kəşfiyyatı, hasilatı sahəsində Xəzər dənizində əməkdaşlığımıza dair məsələ barəsində. Bu məsələ dünyanın müxtəlif ölkələrində bir çox dairələrin müzakirə mövzusu olmuşdur. Lakin biz bildirmişik və bir daha bildiririk ki, Azərbaycan Respublikası neft və qazın kəşfiyyatı və hasilatı sahəsində işi Xəzər dənizinin Azərbaycan sektorunda aparır. Bundan ötrü biz dünyanın iri şirkətləri ilə həm Amerika, həm Avropa, həm də Rusiya şirkətləri ilə əməkdaşlıq edirik. Bunu olduqca perspektivli sayırıq. 1994-cü ildə imzalanan birinci müqavilə 30 il üçün nəzərdə tutulub. Bu əməkdaşlığı daha da genişləndirməyə hələ ehtiyat mənbələri var.

Xəzər dənizində neft və qaz ehtiyatlarının hasilatı və onlardan istifadə edilməsi üçün keçmişdə Türkmənistanla Azərbaycan arasında çox sıx əlaqələr var idi. Azərbaycan neftçiləri Türkmənistan sektorunda çoxlu kəşfiyyat və qazma işləri aparmışlar. Azərbaycan geoloqları, alimləri, neftçiləri Xəzərin Türkmənistan sektorunda nə varsa hamısını yaxşı bilirlər. Bu, gələcək əməkdaşlığımız üçün şərait və əsas yaradır. Yeri gəlmişkən, mənə məlumdur ki, hazırda Türkmənistanda seysmik-kəşfiyyat işlərini bizim neft şirkətinin gəmisi aparır.

Lakin elə məsələlər var ki, onları hələ müzakirə etmək və [464-465] onlarla bağlı mövqeləri müəyyənləşdirmək gərəkdir. Saparmurad Atayeviç dedi ki, bu gün biz həmin məsələ barəsində fikir mübadiləsi etdik. Mən onunla razıyam. Düşünürəm ki, ümumi və ya bir-birinə yaxın olan mövqeləri müəyyən etmək üçün gün ərzində biz yenə də fikir mübadiləsi aparacağıq.

O ki qaldı ikinci suala – Rusiya Federasiyası Dumasının qərarına münasibət barədə suala, mən bu haqda öz fikrimi söyləmişəm. Bir daha demək istəyirəm ki, bu, faydasız işdir. Sovet İttifaqının varlığına son qoyulduğu vaxtdan beş il keçmişdir. Onun süquta uğraması o dövrdə bütün dünyada və keçmiş Sovet İttifaqında getmiş obyektiv ictimai-siyasi və tarixi proseslərin nəticəsidir. Bu proseslər Sovet İttifaqının süqutuna gətirib çıxarmalı idi və gətirib çıxartdı. Bundan sonra müstəqil dövlətlər meydana. gəldi. Onlar keçmişdə Sovet İttifaqının tərkibinə daxil idi. Ötən illər ərzində bu dövlətlərdən hər biri müstəqilik, öz iqtisadiyyatının, həyatının təşəkkülü sahəsində böyük yol keçmişdir. Zənnimcə, bütün bunlar dönməz hal almışdır, hər halda Azərbaycan üçün. Azərbaycan Respublikası müstəqillik əldə olunmasını tarixi nailiyyət sayır. Biz bu müstəqilliyi əziz tutur, onu qoruyub saxlayır və heç vaxt ondan üz döndərməyəcəyik.

Hesab edildiyinə görə, Sovet İttifaqının süqutuna gətirib çıxaran Belovejsk sazişini ləğv etmək cəhdlərinə gəldikdə, zənnimcə, bu cəhdlər əbəsdir. Məşələ heç də təkcə Belovejsk sazişində deyildir. Bu saziş Sovet İttifaqının süqutu faktını sadəcə olaraq müəyyən dərəcədə qeydə aldı və Sovet İttifaqının ali orqanı – Ali Sovet o vaxtlar Sovet İttifaqının buraxılması haqqında qərar qəbul etdi. Buna görə də həmin məsələyə qayıtmaq cəhdləri tamamilə mənasız və faydasızdır. Bəs nə üçün belə cəhdlər göstərilir. Bu, təbii olaraq, həmin qərarı qəbul edənlərin işidir. Lakin bunun Azərbaycan Respublikasına, onun müstəqilliyinə heç vəchlə dəxli ola bilməz.

Yeri gəlmişkən demək istəyirəm ki, bu qərar Rusiyanın özünə də xeyir gətirməyəcəkdir. Çünki Sovet İttifaqının süqutundan sonra Rusiya Federasiyası öz müstəqilliyini möhkəmlətmək, iqtisadi, sosial islahatlar aparmaq sahəsində böyük yol keçmişdir. Keçmişə qayıtmaq isə Rusiyada indiyədək həyata keçirilmiş nə varsa hamısının üstündən, təbii olaraq xətt çəkəcəkdir. Zənnimcə, keçmişə qayıdış ola bilməz. Həqiqətən, ola bilsin ki, bu, hansısa daxili siyasi mübarizənin nəticəsidir. La[465-466]kin, zənnimcə, bu səylər həmin qərarı qəbul edən qüvvələrə arzu olunan nəticələri verməyəcəkdir.

**Sual: Mənim sualım Türkmənistan prezidentinədir. Siz türkdilli ölkələrin ümumi bazarını yaratmağın faydalı olduğunu qeyd etdiniz. Bəs bu ölkələrin lap mərkəzində yerləşən Türkmənistan bununla əlaqədar nə kimi tədbirlər görmək niyyətindədir? Siz belə bir bazarın yaradılmasında Xəzərin rolunu necə qiymətləndirirsiniz?**

**S. Niyazov:** Mən həmişə belə hesab etmişəm ki, milli, dini əsasda dövlət qurumları yaratmaq çətindir, çünki hər dövlətin öz təfəkkürü, öz iqtisadi bazası, öz etnik, mənəvi adətləri var. O ki qaldı mədəniyyətə, iqtisadiyyata, malların ümumi hərəkətinə, burada türkdilli ölkələrin oxşar cəhətləri çoxdur, o cümlədən də xalq istehlakı malları, adət-ənənələr, sənətlər sahəsində. Buna görə də mən demişəm ki, türkdilli ölkələrin açıq ümum-iqtisadi bazarı olmalıdır. Bizə deyirlər ki, gəlin, keçmiş Sovet İttifaqı çərçivəsində birləşək. Bu, bəzi dövlətlərlə mümkün olan iş deyildir. Ümumi çərçivə sazişi qəbul etmək olar, amma birləşmək çox çətindir. Biz Türkiyə ilə toxuculuq sənayesi sahəsində əməkdaşlıq edirik. Türkiyə qabaqcıl toxuculuq texnologiyasına malikdir, bizdə isə pambıq var. Buna görə də burada inteqrasiya çox yaxşı getdi. Mən nəqliyyat kommunikasiyaları, istilik-energetika əlaqələri yaradılmasından danışarkən bundan türkdilli xalqların və millətlərin ayrılması üçün və fövqəldövlət strukturları yaradılması üçün deyil, iqtisadi, mədəni, mənəvi həyatda sərbəst ünsiyyət, azad əməkdaşlıq üçün istifadə edilməsini nəzərdə tuturdum.

**Sual: Danışıqlar zamanı Türkmənistan neftinin tranzitlə Azərbaycan vasitəsilə ixracının mümkünlüyü məsələsi müzakirə edildimi? Məlum olduğu kimi, dörd alternativi olan bu varianta sizin şəxsi münasibətiniz necədir?**

**S. Niyazov:** Biz Heydər Əliyeviçlə bu məsələyə yenicə baxmağa başlamışıq. Mən nəqliyyat, istilik-energetika yollarının çoxvariantlılığına tamamilə tərəfdaram. Türkmənistan, İran, Türkiyə vasitəsilə Avropaya qaz kəməri çəkilməsi layihəsi bizdə müxtəlif siyasi və digər səbəblərə görə ləngidikdə, biz alternativ yollar axtarmağa başladıq və sizdə də işləyən Amerikanın "Yunokal" şirkəti ilə indi Əfqanıstan vasitəsilə Pakistana qaz kəməri çəkilməsini layihələşdiririk. İki il bundan [466-467] əvvəl bir çox ölkələr Türkmənistan qazının Xəzər dənizindən, Bakıdan keçərək Qafqaz və ya Rusiyanın Avropa hissəsi ilə Qara dəniz sahillərinə nəql olunması variantına fəal qoşulmuşdular. Düşünürəm ki, biz Heydər Əliyeviçlə bunun Üzərində hələ işləyəcəyik. Biz neft kəmərlərinin Gürcüstan və Rusiya ərazisindən çəkilməsi haqqında sizin imzaladığınız sazişləri dəstəkləyirik. Əgər bu, bizim üçün iqtisadi cəhətdən sərfəli olarsa, əlbəttə, burada iştirak edəcəyik. Biz bunun üzərində işləyirik.

**Sual: Cənab Niyazov, bəzi Xəzəryanı ölkələrin müəyyən siyasi dairələri 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Əsrin müqaviləsi"ni qeyri-legitim sayırlar. Onlar hesab edirlər ki, bu müqavilə digər Xəzəryanı ölkələrin dövlət mənafelərinə ziddir. Xahiş edirəm deyəsiniz, həmin müqavilə Türkmənistanın mənafelərinə ziddirmi?**

**S. Niyazov:** Xeyr, o, bizim mənafelərimizə zidd deyildir. Buna görə də burada aramızda mübahisəli məsələlər yoxdur. Əgər sizin müqavilə Xəzərin statusu haqqında bizim normalarımıza uyğun olaraq digərlərinin mənafelərinə toxunmursa, biz bunu alqışlayırıq. Xəzər ümumi sərvətdir. Sizin müqavilə də bunu nəzərə alaraq bağlanmışdır. Odur ki, Türkmənistan heç vaxt bu müqavilənin əleyhinə çıxmamışdır. Allah eləsin ki, siz onu Azərbaycan xalqının rifahı naminə həyata keçirə biləsiniz. Mən heç vaxt bu müqavilənin əleyhinə çıxmamışam, yalnız onun çətinliklərindən danışmışam.

**Sual: Cənab Niyazov, mən bilən, Azərbaycandan sonra siz Ermənistana gedəcəksiniz. Bu, təsadüfdür, yoxsa səfərlərin növbəliliyi müəyyən məntiqə malikdir? Siz prezidentlər Heydər Əliyevin və Eduard Şevardnadzenin imzaladıqları və digərləri tərəfindən imzalanmaq üçün açıq olan Qafqaz bəyannaməsini imzalamaq niyyətindəsinizmi?**

**S. Niyazov:** Biz Heydər Əliyevin dəvətindən həqiqətən istifadə etdik və eyni zamanda Ermənistanın və Gürcüstanın da dəvətlərini qəbul etməyi qərara aldıq. Bizim onlarla iqtisadi əlaqələrimiz var və bu əlaqələr hələ Sovet hakimiyyəti dövründə yaranmışdır. Məsələ burasındadır ki, Türkmənistandan .çəkilən qaz kəməri Gürcüstana da gedir, Ermənistana da. İndiki halda da bizim həll edilməli olan bir çox mə[467-468]sələlərimiz var. Ermənistana səfərimiz Azərbaycana səfərimizlə əsla bağlı deyildir. Bitərəf ölkə olan Türkmənistan Heydər Əliyevin və Eduard Şevardnadzenin regionu sülh və əməkdaşlıq bölgəsinə çevirməyə yönəldilmiş addımlarını alqışlayır. Biz Dağlıq Qarabağ məsələsinin dincliklə aradan qaldırılması və işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün sizin prezidentiniz, bizim dostumuz Heydər Əliyeviçin səylərini alqışlayırıq. Sizin və beynəlxalq birliyin səyləri sayəsində atəşkəs 22 aydır davam edir. Bu məsələni beynəlxalq birliyin köməyi ilə ədalətlə həll etmək olar. Bu, ən yaxşı yoldur. Ona görə də beynəlxalq təşkilatlar vasitəsilə çalışacağıq ki, Qafqazda sülh əbədi bərqərar olsun. Heydər Əliyevıç mənimlə söhbətdə dedi ki, qonşuları seçmirlər,

qonşularla sülh və həmrəylik axtarıb tapmaq, bütün mübahisəli məsələləri həll etmək lazımdır. Mən əminəm ki, bunu ATƏT, onun Minsk qrupu, Birləşmiş Millətlər Təşkilatı vasitəsilə və Amerika Birləşmiş Ştatları, Rusiya kimi böyük dövlətlərlə intensiv danışıqlar vasitəsilə etmək mümkün olacaqdır. Biz buna həmişə kömək göstərəcəyik.

O ki qaldı Qafqaz bəyannaməsinin imzalanmasına, biz Qafqaz zonasında deyilik. Biz öz Mərkəzi Asiya bəyannaməmizi yaratmalıyıq. [468-469]

## TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOV – TÜRKMƏNBAŞI İLƏ BAKI DƏMİR YOLU NƏQLİYYATI TEXNİKUMUNUN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞAN FÜZULİ, ZƏNGİLAN, ŞUŞA, XOCALI QAÇQINLARININ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*18 mart 1996-cı il*

Hörmətli bacılar və qardaşlar! Əziz balalar! Bu gün Türkmənistanın prezidenti, bizim dostumuz Saparmurad Niyazov respublikamıza səfərə gəlmişdir. Səhər tezdən bir çox işlərlə məşğul olmuşuq. Ancaq indi o, sizin vəziyyətinizlə tanış olmaq üçün, sizinlə görüşmək üçün, sizə öz diqqət və qayğısını göstərmək üçün sizin yanınıza gəlmişdir.

Bizim dostumuz, Türkmənistanın prezidenti Saparmurad Niyazov bilir ki, səkkiz il bundan öncə Ermənistan Respublikası tərəfindən Azərbaycana hərbi təcavüz olubdur, bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının bir qismi qəsbkarlar tərəfindən işğal edilibdir və bu torpaqlardan azərbaycanlı soydaşlarımız – qardaşlarımız, bacılarımız, övladlarımız qaçqın və didərgin düşüblər. Siz də bizim həmin vətəndaşlarımızsınız ki, işğal olunmuş o torpaqlardan didərgin düşmüsünüz, burada, ağır vəziyyətdə yaşayırsınız.

Mən hamısını bilirəm və sizin dərdiniz, qayğınız mənim daim ürəyimdədir, qəlbimdədir və bütün fəaliyyətimi buna həsr edirəm. Ancaq bizim qonaq da, dostumuz – Türkmənistan prezidenti Saparmurad Niyazov da sizinlə görüşüb, vəziyyətinizdən hali olmaq istədi və ona görə də biz sizin yanınıza gəlmişik. Mən sizin adınızdan dostumuz Saparmurad Niyazovu salamlayıram və ona deyirəm: Xoş gəlmisiniz! Xüsusən sizin yanınıza, yerindən-yurdundan didərgin düşmüş, varını-yoxunu itirmiş insanlarla, böyük itkilər vermiş insanlarla görüşə gəldiyinə görə mən ona təşəkkür edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, o öz ölkəsinin prezidenti kimi Dünya Birliyində öz fəaliyyətində Azərbaycanın bu bəlalardan çıxmasına kömək edəcəkdir, bizim vəziyyətimizi, sizin vəziyyətinizi yaxından görəndən sonra imkanları çərçivəsində öz addımlarını atacaqdır.

Mən sizin adınızdan bizim qonağımızı bir daha salamlayıram, ona "Xoş gəlmisiniz!" deyirəm. [469-470]

## M. Ə. RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVA – TÜRKMƏNBAŞIYA BDU-nun FƏXRİ DOKTOR DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*18 mart 1996-cı il*

Hörmətli qonağımız, hörmətli dostumuz, Türkmənistanın prezidenti cənab Saparmurad Niyazov – Türkmənbaşı!

Hörmətli xanımlar və cənablar!

Bu gün Bakı Dövlət Universitetinin həyatında əlamətdar hadisə baş verir. Bakı Dövlət Universiteti qardaş Türkmənistanın prezidenti Saparmurad Niyazova Dövlət Universitetinin fəxri doktoru adını vermiş və hörmətli qonağımıza bu münasibətlə diplom təqdim olunmuşdur. Mən bu hadisə münasibətilə əziz dostum, qardaşım Saparmurad Niyazovu ürəkdən təbrik edir, ona cansağlığı, xoşbəxtlik arzulayır və gələcək fəaliyyətində yeni-yeni uğurlar diləyirəm.

Mənim xatirimdədir, 1970-ci ildə, yəni 26 il bundan öncə respublikanın rəhbəri kimi Bakı Dövlət Universitetinin – o vaxt Azərbaycan Dövlət Universiteti adlanırdı, – yığıncağına gəlmişdim. O zaman burada çıxış etdim. Şübhəsiz ki, çıxışım mənim ana dilimdə, Azərbaycan dilində oldu. Onda mən bir il idi ki, respublikaya rəhbərlik edirdim. Bu çıxışdan sonra mən bir çox yerlərdən təbriklər alırdım. Soruşdum ki, nə üçün məni təbrik edirsiniz? Hamı dedi ki, siz Azərbaycan dilində danışmısınız, ona görə təbrik edirik. Mən təəccübləndim, dedim, bunun üçün təbrik etməkmi lazımdır? İnsan öz ana dilində danışmalıdır. Ancaq eyni zamanda başa düşürdüm ki, bu, o vaxtlar Azərbaycanın həyatı üçün qeyri-adi bir hadisə idi. Çünki biz daim rus dilində danışırdıq və bəziləri də hesab edirdilər ki, bəlkə Heydər Əliyev də bəziləri kimi öz ana dilini – Azərbaycan dilini bilmir. Ona görə də burada Azərbaycan dilində nitq söylədiyimə görə məni təbrik edirdilər.

İndi o vaxtdan 26 il keçibdir. O vaxtlar – mən respublikaya [470-471] rəhbərlik etdiyim dövrdə, sonra Azərbaycanın prezidenti kimi burada fəaliyyət göstərdiyim zaman bizim azərbaycanlıların əksəriyyəti öz dilini öyrənibdir və onlar öz dillərində danışırlar. Ona görə də mənim burada hansı dildə danışmağımın fərqi yoxdur. O vaxt Azərbaycan Dövlət Universitetində Azərbaycan dilində danışmağım təkcə bu dili bilməyimi göstərmək məqsədi daşımırdı. Ən əsası bu idi ki, mən istəyirdim azərbaycanlılar və xüsusən yüksək vəzifələrdə olanlar öz dilini sevsinlər, ona hörmət etsinlər, öz dilini qiymətləndirsinlər, bu dildə nitqlər söyləsinlər. Mən buna nail olmuşam. Doğrudur, bəziləri indi də öz dilində istənilən səviyyədə danışa bilmirlər. Amma əksəriyyəti Azərbaycan dilində, Azərbaycanın dövlət dilində danışır.

Sizə bu qısa tarixi məlumatı verdikdən sonra əziz dostum Saparmurad Niyazov və onu müşayiət edən qonaqlar üçün dediklərimin tamamilə aydın olmasından ötrü çıxışımı rus dilində davam etdirirəm.

Çox hörmətli Türkmənistan prezidenti, əziz qonağımız və qardaşımız Saparmurad Niyazov, çox hörmətli qonaqlar, xanımlar və cənablar! Mən Türkmənistan prezidentini böyük hadisə – ona Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu, universitetin həyatında böyük və əlamətdar hadisədir. Bununla bərabər, belə hesab edirəm ki, bu, bizim dostluğumuzun, Türkmənistan prezidentinin həyatında da əlamətdar hadisədir.

Hörmətli dostum Saparmurad Niyazov, sizə möhkəm cansağlığı, xoşbəxtlik, dövlət və siyasi fəaliyyətinizdə yeni-yeni uğurlar, Türkmənistan xalqına firavanlıq arzulayıram.

Türkmənistan prezidenti Saparmurad Niyazova fəxri doktor adı verilməsi bizim universitetimiz üçün də böyük şərəfdir. Saparmurad Niyazov nəinki öz xalqının, öz ölkəsinin, həm də dünya birliyinin görkəmli dövlət xadimlərindən biridir. Türkmənistan müstəqil dövlətdir. Artıq beş ildir ki, Türkmənistan xalqı müstəqillik şəraitində yaşayır və Saparmurad Niyazov Türkmənistan prezidenti kimi öz xalqını milli azadlıq yolu ilə, müstəqillik yolu ilə, suverenlik yolu ilə uğurla aparır.

Qardaş türkmən xalqı üçün böyük hadisədir ki, o, nəhayət, dövlət müstəqilliyi, azadlıq əldə etmişdir, türkmən xalqı öz taleyinin sahibidir, geniş Türkmənistan məkanında özünün bütün problemlərini özü həll edir, öz sərvətlərinin, öz ehtiyatlarının sahibi onun özüdür. Başlıcası budur ki, Türkmənistan müs[471-472]təqil dövlət kimi dünya birliyinə daxil olaraq, burada layiqli yer tutmuşdur. Bütün bunlarda Türkmənistan prezidenti Saparmurad Niyazovun olduqca böyük xidməti var. O, Türkmənistana 10 ildən çoxdur ki, rəhbərlik edir. Əvvəllər də, indi də Türkmənistan prezidenti kimi o, çox işlər görür və türkmən xalqı onun xidmətlərini layiqincə qiymətləndirir. O, öz ölkəsində böyük nüfuza və hörmətə, öz xalqı arasında yüksək etibara malikdir. Bu isə hər bir rəhbər üçün böyük işdir.

Buna görə də ona Bakı Universitetinin fəxri doktor adı verilməsi qərarı tamamilə doğru və əsaslı qərardır. Saparmurad Niyazov həm öz böyük siyasi fəaliyyəti ilə, həm Türkmənistan elminin, təhsil və mədəniyyətinin

inkişafına böyük töhfəsi ilə, həm də Türkmənistan iqtisadiyyatının inkişafında, ən başlıcası isə Türkmənistanın müstəqilliyinin möhkəmlənməsi və inkişafında öz fəaliyyəti ilə yüksək hörmət, yüksək etimad, yüksək qiymət qazanmışdır. Buna görə də Bakı Dövlət Universiteti onu yüksək mükafatla – universitetin fəxri doktoru adı ilə təltif etmişdir.

Mən bayaq dedim və bir daha nəzərə çarpdırmaq istəyirəm: bu, həm də Bakı Dövlət Universiteti üçün böyük şərəfdir, çünki öz heyətində, Bakı Universitetinin fəxri doktorları, fəxri üzvləri arasında Türkmənistan prezidentinin olması, zənnimcə, Bakı Dövlət Universiteti üçün böyük şərəf və böyük iftixardır. Buna görə də mən sizi, Bakı Universitetinin kollektivini də təbrik edirəm ki, sizin sıralarınızda bizim dostumuz – Türkmənistan prezidenti də var.

Bu, Azərbaycan xalqı ilə türkmən xalqı arasında dostluğun sarsılmaz olduğunu bir daha nümayiş etdirir. Dostluğumuzun, qardaşlıq münasibətlərimizin çoxəsrlik tarixi var. Biz eyni köklərə mənsubuq, eyni əcdadlara, bir dilə, bir dinə malikik, bizim taleyimiz də tarixən birdir. Məhz bu, çoxəsrlik dostluğumuzun əsası olmuşdur və uzun əsrlər ərzində biz öz azadlıq və müstəqilliyimizi birlikdə qorumuşuq, bir-birimizə kömək edərək irəliləmişik və gəlib indiki xoşbəxt günlərə çatmışıq. Azərbaycan da müstəqil respublika, müstəqil dövlətdir. Türkmənistan da müstəqil dövlətdir. Azərbaycan xalqı da, türkmən xalqı da öz məsələlərini özləri həll edir, öz talelərinin sahibidirlər.

Keçmişdə onların hamısını, bir çox əsrlər ərzində bizi birləşdirmiş olan nə varsa hamısını və yaxın keçmişdə olanların hamısını, – bu barədə burada natiqlər, – Türkmənistanda ya[472-473]şamış və işləmiş azərbaycanlılar gözəl danışdılar, – yüksək qiymətləndirərək indi bizim haqqımız var ki, münasibətlərimizin yeni mərhələsindən, dostluğumuzun yeni mərhələsindən, əməkdaşlığın yeni mərhələsindən, müstəqil dövlətlərin qarşılıqlı əlaqələrinin yeni mərhələsindən söhbət açaq.

Odur ki, Türkmənistan prezidenti Saparmurad Niyazovun Azərbaycana rəsmi səfəri bizim həyatımızda əlamətdar hadisədir. Bu gün biz ikitərəfli münasibətlərə, bizim Qafqaz regionunda vəziyyətə, Mərkəzi. Asiya, Orta Asiya regionlarında, bütün MDB, keçmiş Sovet İttifaqı məkanında vəziyyətə aid bir çox məsələlər barəsində müvəffəqiyyətlə danışıqlar apardıq, fikir mübadiləsi etdik və bir çox məsələlərdə baxışların tamamilə uyğun gəldiyini aşkara çıxardıq. Misal üçün, ikitərəfli münasibətlərlə bağlı məsələlərdə aramızda tam yekdillik və tam qarşılıqlı anlaşma var.

Bu da ona gətirib çıxarmışdır ki, biz çox mühüm sənədləri imzaladıq. Onların barəsində burada Saparmurad Niyazov danışdı. Bu sənədlər, bu səfər Türkmənistan ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın yeni mərhələsinin başlandığını xəbər verir. Elə həmin sənədlərdə nəzərdə tutulan proqram da şərait yaradır ki, bu əməkdaşlıq Türkmənistan üçün də, Azərbaycan üçün də uğurlu, qarşılıqlı surətdə faydalı olsun.

Bu gün mən sizə deyə bilərəm ki, biz imzaladığımız sənədlərdə nəzərdə tutulanların ardıcıl surətdə həyata keçirilməsi üçün hər şeyi edəcəyik, Türkmənistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə və güclənməsinə nail olmaq üçün hər şeyi edəcəyik.

Mən dostum Saparmurad Niyazova çox minnətdaram ki, dəvətimi qəbul etdi və Azərbaycana rəsmi səfərə gəldi. Mən görməyə nail olduğumuz işlərdən razıyam. Əminəm ki, biz bu səfərin həqiqətən böyük uğurlarla nəticələnməsi üçün hələ çox şeyi edəcəyik. Bu uğurlar var və imzaladığımız sənədlərdə öz əksini tapmışdır.

Bu gün burada elmimizin, universitetin nümayəndələri, Azərbaycan Tibb Universitetində təhsil alan türkmən qız çıxış etdilər. Onlar bizi birləşdirmiş olan və indi də birləşdirən hisslərdən danışdılar. Saparmurad Atayeviç dedi ki, Türkmənistanda təxminən 100 min azərbaycanlı yaşayır, onlar Türkmənistanın bərabərhüquqlu vətəndaşlarıdır, bütün hüquqlara malikdirlər və öz doğma diyarında, doğma respublikasında, doğma ölkəsində öz dostları ilə birlikdə yaşayırlar. Bu, [473-474] tamamilə qanunauyğun, tamamilə məntiqi haldır. Ona görə ki, bayaq dediyim kimi, keçmiş zamanlarda bizi birləşdirmiş olan nə varsa hamısı ölkələrimiz və dövlətlərimiz arasında, insanlar – Azərbaycanda da, Türkmənistanda da türkmənlərlə azərbaycanlılar arasındakı mövcud münasibətlərə gətirib çıxarmışdır.

Mən belə düşünürəm ki, bugünkü görüş Azərbaycanın və Türkmənistanın elmi müəssisələri, ali məktəbləri arasında gələcək inkişaf üçün həm də təkandır. Biz bu barədə çox mühüm sazişlər imzaladıq və əminəm ki, Bakı Dövlət Universiteti, ali məktəblərimiz, Elmlər Akademiyası bu sazişlərin əməli surətdə həyata keçirilməsində çox yaxından iştirak edəcəklər.

Burada istər Türkmənistanda, istərsə də Azərbaycanda keçid dövrünün bəzi çətinliklərindən danışdılar. Bu çətinliklər bizim elmi müəssisələr, təhsil ocaqları arasında münasibətlərin normal ahəngini müəyyən dərəcədə mürəkkəbləşdirir. Bununla bərabər, bu gün burada çıxış edən professor Aşqabaddan – Türkmənistandan yenicə qayıtmış, doktorluq dissertasiyasının müdafiəsi üzrə elmi şuranın iclasında iştirak etmişdir. O, digər faktlar gətirdi. Söz yox ki, çətinliklər var. Onlar obyektiv xarakter daşıyır. Lakin bununla bərabər imkanlar da var və onlardan daha fəal istifadə etmək lazımdır. Biz hər şey edəcəyik ki, bu çətinliklər az olsun, yaxud ümumiyyətlə olmasın. Eyni zamanda arzu edərdim ki, Bakı Universiteti də, Azərbaycanın digər ali məktəbləri də, elmi müəssisələri də Türkmənistanla öz əlaqələrini fəallaşdırsınlar, çünki bu əlaqələr bizim dövlətlərarası münasibətlərimizin gələcək inkişafı üçün baza olacaqdır.

Buna çox böyük ehtiyac var. İndi Türkmənistan da, Azərbaycan da müstəqil dövlətlər olduğu bir dövrdə, biz keçid dövrünün bir çox çətinlikləri ilə qarşılaşdığımız, ölkələrimizdə həyatın yeni prinsipləri, demokratiya, siyasi plüralizm, bazar iqtisadiyyatı prinsipləri bərqərar edildiyi, iqtisadi islahatlar aparıldığı bir dövrdə bizə qarşılıqlı fəaliyyət həmişəkindən daha çox gərəkdir, fəal əlaqələr, daha fəal münasibətlər gərəkdir. Bu mənada elmi müəssisələrin, ali məktəblərin əlaqələri bizim üçün böyük əməli kömək olacaqdır. Biz isə öz tərəfimizdən hər şey edəcəyik ki, bu əlaqələr inkişaf etsin.

Ölkələrimiz qonşudurlar. Bizi Xəzər birləşdirir və ayırır. Lakin bununla yanaşı, Xəzər dənizi, həm də fəal əməkdaşlıq etdiyimiz yerdir. Burada Türkmənistan üçün bizim ali məktəb[474-475]lərdə neftçi, geoloq kadrlar hazırlanmasından danışdılar. Lakin neft sənayesi sahəsində əməkdaşlığımıza dair faktlar da çoxdur. Burada Türkmənistanda işləmiş olan adamlardan da danışdılar. Bu, keçmişdə olub. Lakin Xəzərin ehtiyatlarından neft və qaz ehtiyatlarından Türkmənistanın və Azərbaycanın rifahı naminə istifadə edilməsi sahəsində birgə fəaliyyətimiz üçün bu gün böyük perspektiv var və bu perspektiv gələcəkdə də olacaqdır. Burada da elmi müəssisələrin əlaqələri, alimlərimizin, ali məktəblərimizin əlaqələri bizə çox kömək edə bilər.

Bir sözlə, Türkmənistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə yeni səhifə açılır. Biz münasibətlərimizin yeni tarixini yazırıq. Odur ki, alimlərimizin borcu, ali təhsil xadimlərinin borcu, bu prosesin fəal iştirakçıları olmaqdır.

Düşünürəm ki, bugünkü görüş bunun üçün yaxşı zəmindir. Çox hörmətli Saparmurad Niyazov, sizi bu hadisə münasibətilə bir daha təbrik edirəm, Bakı Dövlət Universitetinin kollektivini bu hadisə münasibətilə təbrik edirəm və sizin hamınıza cansağlığı və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək, Türkmənistan xalqına qardaş salamı göndərirəm, türkmən xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Çox hörmətli Saparmurad Atayeviç, sizə cansağlığı, firavanlıq və qardaş Türkmənistana rəhbərlikdə yeni uğurlar diləyirəm. [475-476]

## TÜRKMƏNİSTAN PREZİDENTİ SAPARMURAD NİYAZOVUN –TÜRKMƏNBAŞININ ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" Sarayı*

*18 mart 1996-cı il*

Hörmətli Türkmənistan prezidenti cənab Saparmurad Niyazov!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Türkmənistan prezidentinin Azərbaycana rəsmi səfəri başa çatır. Bu, müstəqil Türkmənistanın prezidentinin müstəqil Azərbaycan Respublikasına ilk səfəridir. Bizim xalqlarımızın – türkmən xalqının Azərbaycan xalqının zəngin çoxəsrlik tarixi, dostluğu, qardaşlığı və əməkdaşlığı var. Bu, ümumi köklərimizə, ümumi tarixi taleyimizə, ümumi tariximizə əsaslanır. Oğuz, Dədə Qorqud bizi əsrlərlə birləşdirən dərin köklərimizdir və onlar bu gün də bizdən ötrü mənəviyyat mənbəyi, əxlaq mənbəyidir.

Xalqlarımızın dilinin, dininin, adət və ənənələrinin ümumiliyi də göstərir ki, biz əsrlərlə bir yerdə olmuş, birlikdə yaşamış, öz həyatımızı birlikdə qurmuş, torpağımızı yadelli işğalçılardan birlikdə qorumuş, azadlıq haqqında birlikdə düşünmüş və onun uğrunda birlikdə mübarizə aparmışıq. Bunlar hamısı bizim keçmişimizdir. Biz öz keçmişimizlə – türkmən xalqının keçmişi, Azərbaycan xalqının keçmişi ilə fəxr edə bilərik. Milli ənənələrimizlə, milli adətlərimizlə fəxr edə bilərik. Dilimizlə, dinimizlə, təkrar edirəm, mənəviyyatımızın, əxlaqımızın mənbəyi olan hər şeylə fəxr edə bilərik.

Lakin indi xalqlarımız yeni mərhələdədirlər. XX əsr, Yer kürəsində böyük dəyişikliklər əsri kimi tarixə daxil olacaq yüzillik başa çatır. Biz – türkmən xalqı və Azərbaycan xalqı bu əsrdə bir çox sınaqlardan çıxmış, bir çox çətinliklərdən keçmişik. Amma əsrin əvvəlindən sonunadək öz milli ləyaqətimizi, milli xarakterimizi, əcdadlarımızın bizə vəsiyyət etdikləri hər şeyi, ulu əcdadlarımızdan bizə qalmış çox böyük irsi qoruyub [476-477] saxlamışıq. Biz XX əsri xalqlarımızın həyatında böyük dəyişikliklərlə, həm də müsbət dəyişikliklərlə başa çatdırırıq. Türkmən xalqı və Azərbaycan xalqı milli azadlıq, dövlət müstəqilliyi, suverenlik əldə etmişdir. İndi biz öz ölkələrimizdə, öz torpağımızda, öz müstəqil dövlətimizdə yaşayırıq.

Bu, çox böyük nailiyyət, xalqlarımızın tarixi nailiyyətidir. Xalqlarımızın, ölkələrimizin yaradıcılıq qüvvələrinin və potensial imkanlarının tam tərəqqisi üçün biz həmin nailiyyəti möhkəmləndirməyə və inkişaf etdirməyə borcluyuq. Müstəqil Türkmənistanın prezidenti, dostumuz və qardaşımız Saparmurad Niyazovun Azərbaycana səfəri də məhz bu mərhələdə, bu şəraitdə baş verir.

Hörmətli Saparmurad Atayeviç, mənim dəvətimi qəbul edərək rəsmi səfərə gəldiyinizə, bu gün səhərdən başlayaraq ikitərəfli münasibətlərimizə dair məsələləri müzakirə etmək, regional problemlərlə, bütün dünyada, o cümlədən də keçmiş Sovetlər İttifaqı məkanında gedən proseslərlə bağlı məsələlər, habelə MDB ilə əlaqədar problemlərlə bağlı məsələlər barədə fikir mübadiləsi etmək imkanına görə sizə təşəkkürümü bildirmək istəyirəm.

Biz bir çox məsələlərdə tam qarşılıqlı anlaşmaya gəldik. İkitərəfli münasibətlərdə bizim baxışlarımız, səylərimiz bir-birinə tam uyğun gəlir. Yəni biz daha sıx əməkdaşlıq etməli, iqtisadi əməkdaşlıq, elm, mədəniyyət, təhsil, idman sahələrində, bütün başqa sahələrdə əməkdaşlıq üçün mövcud imkanlardan yaranan gözəl şəraitdən istifadə etməliyik ki, ölkələrimizdə milli dövlət quruculuğunu təmin edək, bir-birimizin potensial imkanlarından istifadə etməklə, bir-birimizə kömək göstərməklə hazırda həm Türkmənistanın, həm də Azərbaycanın yaşadığı mürəkkəb keçid dövründən uğurla çıxaq.

Biz indi mürəkkəb zamanda yaşayırıq, bununla yanaşı, dövlət müstəqilliyi əldə etdiyimizi, öz taleyimizin sahibi olduğumuzu, torpağımızda, ərazimizdə, öz dövlət sərhədlərimiz daxilində tam sərbəst olduğumuzu nəzərə alaraq çətinliklərə dözür və onları aradan qaldırırıq. Yenə deyirəm, bu, böyük sərvətdir, xalqlarımızın ən böyük tarixi nailiyyətidir. Ona görə də biz – Türkmənistana və Azərbaycana rəhbərlik edən adamlar bu keçid dövründə üzərimizə düşən vəzifəni məhz uğurla yerinə yetirmək üçün həm xalqlarımız, həm də gələcək nəsillər qarşısında məsuliyyət daşıyırıq. Bu baxımdan bu gün görə bildiyimiz işlərin hamısı ümumi məqsədlərə, Türkmənistanın [477-478] mənafeyinə, Azərbaycanın mənafeyinə, əməkdaşlığımızın, dostluq və qardaşlığımızın mənafeyinə xidmət edir.

Bu gün imzalanmış sənədlər əməkdaşlığımızın müqavilə – hüquqi əsasını müəyyənləşdirmiş və həmin əməkdaşlığın müvəffəqiyyətlə inkişafı üçün yaxşı zəmin yaratmışdır. Sizi əmin edirəm ki, imzaladığımız sənədlərdə nəzərdə tutulanların hamısını həyata keçirmək üçün hər şeyi edəcəyik. Hesab edirəm ki, bu sənədlərdə nəzərdə tutulanlar da hələ son hədd deyildir, daha bir çox məsələlərimiz var ki, biz ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığı bundan sonra da genişləndirmək üçün razılığa gəlməli və yeni sənədlər imzalamalıyıq.

Bu gün Bakı Dövlət Universiteti bizim qonağımız Saparmurad Niyazova həmin universitetin fəxri doktoru adı vermişdir. Bu qərarda Türkmənistan prezidenti Saparmurad Niyazovun həm öz xalqı və öz ölkəsi qarşısındakı, həm də şübhəsiz ki, regionumuzda, xüsusən hazırda Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə sülh və təhlükəsizliyin bərqərar edilməsi sahəsində görkəmli xidmətlərinin etirafı əksini tapmışdır. Bu qərarda prezident Saparmurad Niyazovun şəxsiyyətinə, onun çox böyük fəaliyyətinə təkcə alimlərin, universitetin deyil, həm də bütün Azərbaycan xalqının yüksək hörməti ifadə olunmuşdur. Biz yaxşı bilirik ki, Saparmurad Niyazovun rəhbərliyi ilə Türkmənistanda böyük müsbət dəyişikliklər baş verir. O, on ildən çoxdur Türkmənistana rəhbərlik edir, xüsusən son illər, xalq tərəfindən seçilmiş prezident kimi rəhbərlik etdiyi illər türkmən xalqının yaradıcılıq imkanlarının və Türkmənistanın zəngin sərvətlərinin sürətlə inkişaf etdiyi illərdir.

Türkmənistan zəngin ölkədir, bol təbii ehtiyatlara malikdir, onun ərazisi 480 min kvadrat kilometrdən artıqdır. Bu ölkənin zəngin təbii ehtiyatları, xüsusən yeraltı ehtiyatları var. Ən başlıcası isə burada əməksevər, istedadlı xalq yaşayır və bu xalq zəngin tarixə malikdir, dünya sivilizasiyasına layiqli töhfə vermişdir, onun dünya birliyinə daha böyük töhfə vermək üçün olduqca geniş potensial imkanları var.

Çıxışımın əvvəlində dediyim kimi, xalqlarımızın zəngin, qədim tarixi var. Əməkdaşlığımıza, birgə yaşayışımıza dair çox faktlar gətirmək olar. Türkmənistanda təxminən yüz min azərbaycanlı yaşayır. Onlar Türkmənistan torpağında yaşayan köklü azərbaycanlılardır. Ona görə köklü deyirəm ki, onlar ölkənizdə heç də birinci il deyil, on illərdən, yüz illərdən bəri yaşayırlar. Türkmənistan azərbaycanlıları türkmən xalqı ilə bir [478-479] dost ailədə yaşayır və bərabərhüquqlu vətəndaşlar kimi bütün hüquqlara malikdirlər.

Bizi bağlamış olan və indi də bağlayan təkcə bu cəhətlər deyildir. Dostluğumuzun, qardaşlığımızın olduqca dərin təsir bağışlayan səhifələri də çoxdur. 1948-ci ildə Aşqabatda viranedici zəlzələ baş verdi. Orada çox dağıntılar oldu, çox adam tələf oldu. Yadımdadır, bu müsibətə, bu fəlakətə birinci hay verən Azərbaycan oldu. O il mənim çox yaxşı yadımdadır. Azərbaycanda qardaş türkmən xalqına yardım göstərilməsi üçün bütün qüvvələr səfərbərliyə alınmışdı – bizə ərzaq da, dava-dərman da, həkimlər də və başqa mütəxəssislər də göndərilirdi. Yadımdan çıxmayıb, Bakı, Azərbaycan xəstəxanaları zəlzələdən zərər çəkmiş çox xəstəni, çox uşağı qəbul etmişdi, bu uşaqlar bu dəhşətli zəlzələ nəticəsində yetim qalmışdılar.

Bu, böyük və dəhşətli fəlakət idi. Biz bu faciənin dəhşətlərini türkmən xalqı ilə birlikdə keçirdik. Məhz həmin ağır və acılı günlərdə hər bir xalqın həyatı və dəyanəti, dostluğa sədaqəti sınaqdan çıxıb. Bizim dostluğumuz da çox sınaqlardan keçdi. Elə bu faciənin özü belə sınaqlardan biridir. Türkmənistanda çox azərbaycanlı çalışmışdır. Onlar neft sənayesində, elm sahəsində, digər bir çox sahələrdə bu günədək işləyirlər. Yadımdadır, mən 1970-ci ildə Türkmənistanda, daha doğrusu, Türkmənistan Dövlət Universitetində olarkən bir çox azərbaycanlı alim və professorlarla, o cümlədən də universitetin prorektoru Abdulla Qurbanovla görüşdüm. O orada nüfuzlu şəxslərdən biri idi, akademik idi.

Mənə dedilər ki, o, türkmən dilinin qrammatikasına dair dərsliyin müəlliflərindən biridir. Bu, heç də yeganə bir hal deyildir. Bizim məşhur neftçilərimiz, alimlərimiz uzun illər ərzində Türkmənistanda çalışmışlar. Türkmənlər də uzun illər ərzində Azərbaycanda təhsil almışlar və bu gün mən. Türkmənistan prezidentinin tələbələrlə – Azərbaycan Tibb İnstitutunda təhsil alan tələbələrlə görüşünün şahidi oldum. Keçmişdə də bir çox türkmən tələbələr bizim Neft və Kimya İnstitutunda, Tibb İnstitutunda və digər institutlarımızda oxumuşlar. Təkrar edirəm, Türkmənistanın ali məktəblərində də azərbaycanlılar təhsil almış, sənaye, elm, təhsil sahəsində çalışmışlar. Türkmənlər kimi onlar da təhsil almış, burada oxumuşlar.

Çox söz demək olar, amma mən vaxtınızı almaq istəmirəm. Tarix yaxşı bilir ki, bizim görkəmli səhnə ustalarımız, artistlərdən Ərəblinski, Hacıbababəyov, Sidqi Ruhulla əsrin hələ əv[479-480]vəllərində Aşqabada qastrol səfərlərinə getmiş, orada Azərbaycan dilində də, türkmən dilində də tamaşalar vermişlər. Əsrin əvvəllərində görkəmli Azərbaycan mütəfəkkiri, yazıçısı Cəlil Məmmədquluzadə tərəfindən nəşr edilən "Molla Nəsrəddin" jurnalı Türkmənistanda geniş yayılırdı. Molla Nəsrəddin, Türkmənistanda Xoca Nəsrəddin kimi tanınmış bu şəxs həmişə eyni dərəcədə qiymətləndirilmişdir.

Təkrar edirəm, bütün bunlar çoxillik dostluğumuzu, əməkdaşlığımızı səciyyələndirən yalnız ayrı-ayrı səhifələrdir. Həm də bütün bunlar indi, bir daha təkrar edirəm, xalqlarımızın azadlıq və dövlət müstəqilliyi əldə etdiyi bir dövrdə əməkdaşlığımızın daha uğurla inkişaf etməsi üçün yaxşı əsasdır. Sözün düzü, bu gün məhz bununla məşğul olduq və qonağımızın – Türkmənistan prezidentinin Azərbaycana səfərindən məqsəd də məhz bu idi. Bizim ümumi qayğımızın mövzusu da məhz bu olmuşdur və məhz budur.

Hesab edirəm ki, bu gün biz Türkmənistanın mənafeyi naminə, Azərbaycanın mənafeyi naminə böyük iş gördük. Zənnimcə, münasibətlərimizin daha da inkişaf etməsi üçün yaxşı bünövrə qoyduq. Əminəm ki, bu münasibətlər gələcəkdə də müvəffəqiyyətlə inkişaf edəcəkdir.

Mən müstəqil, azad Türkmənistanın şərəfinə, türkmən xalqının şərəfinə, Türkmənistan xalqının layiqli oğlunun, Türkmənistanın rəhbərinin, müstəqil Türkmənistanın prezidenti dostumuz və qardaşımız Saparmurad Niyazovun – Türkmənbaşının şərəfinə badə qaldırıram. Var olsun Türkmənistan və Azərbaycan xalqları arasında dostluq. Var olsun əbədi dostluğumuz. Bizə təşrif gətirən bütün qonaqların şərəfinə badə qaldırıram. Çox hörmətli Saparmurad Atayeviç, sizin sağlığınıza, əziz Türkmənbaşının sağlığına badə qaldırıram. Sağ olun! [480-481]

## AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN BİNƏ HAVA LİMANINDA BİRGƏ İMZALADIQLARI BAKI BƏYANATI

*19 mart 1996-cı il*

Azərbaycan Respublikasının prezidenti H. Əliyev və Türkmənistan prezidenti S. Niyazov ikitərəfli və çoxtərəfli dövlətlərarası münasibətlərə dair məsələləri və aktual beynəlxalq məsələləri müzakirə edərək milli dövlətçiliyi möhkəmləndirmək siyasətini davam etdirmək, öz ölkələrinin siyasi və iqtisadi suverenliyinin təmin edilməsi üçün lazımi şərait yaratmaq əzmində olduqlarını öz dövlətləri və xalqları adından təsdiq etmişlər. Bu baxımdan Azərbaycan Respublikasının və Türkmənistanın prezidentləri 1991-ci il "Belovejsk sazişi"ni ləğv etmək haqqında Rusiya Federasiyası Dövlət Dumasının 1996-cı il 15 mart tarixli qərarını da nəzərdən keçirmişlər.

Bununla əlaqədar olaraq Azərbaycan və Türkmənistan prezidentləri bəyan edirlər:

Azərbaycan Respublikası və Türkmənistan xalqlarının iradəsi ümummilli referendumlarla təsdiq olunmuşdur və onların öz seçdikləri yolla – müstəqil və suveren inkişaf yolu ilə irəliləmək qətiyyətini əks etdirir;

xalqların inkişaf yolunu öz iradəsinə əsasən azad surətdə təyin etməsi BMT nizamnaməsinə və hamı tərəfindən qəbul edilmiş beynəlxalq normalara uyğun şəkildə onların ayrılmaz hüququdur;

Azərbaycan Respublikasının və Türkmənistanın müstəqillik statusu beynəlxalq birlik tərəfindən tanınmışdır və heç bir digər dövlət, yaxud onun orqanı tərəfindən müzakirə mövzusu ola bilməz.

Azərbaycan və Türkmənistan xalqlarının seçdikləri yol iki ölkənin dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində ən ali meyar və müəyyənedici amildir və onların milli mənafelərini əks etdirir. [481-482]

Azərbaycan Respublikasının və Türkmənistanın prezidentləri MDB çərçivəsində birlik ölkələrinin xalqları arasında hüquq bərabərliyi, qarşılıqlı hörmət və əməkdaşlıq əsasında əlaqələrin inkişafını bundan sonra da davam etdirməyə hazır olduqlarını təsdiq edirlər. Onlar belə hesab edirlər ki, tarixin təkərini geri döndərmək üçün göstərilən hər hansı cəhdlərin, o cümlədən Rusiya Federasiyası Dövlət Dumasının adı çəkilən qərarının hər hansı hüquqi əsası yoxdur və o, həyata keçirilə bilməz.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Prezidenti H. ƏLİYEV.** | **Türkmənistan Respublikasının Prezidenti S. NİYAZOV.** [482-483] |

## BAKIDA BEYNƏLXALQ BANKIN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*19 mart 1996-cı il*

Yeni, müasir tipli bu bank binasının istifadəyə verilməsi respublikamızda, Bakı şəhərində əlamətdar bir hadisədir. Azərbaycanda bank işi keçmişdə indiki səviyyədə olmayıb. Ancaq buna baxmayaraq Azərbaycanın vaxtilə tikilmiş bir bank binası var. O, Bakıda çox məşhur bir bina hesab olunur. Şəhərin mərkəzində yerləşən həmin bina öz vaxtına görə doğrudan da çox cəlbedici bir bina idi. Ondan sonra Azərbaycanda elə bir böyük bank binası olmayıb. Doğrudur, keçmişdən, yəni əsrin əvvəlindən tikilmiş bank binaları var. Məsələn, mənim xatirimdədir, şəhərin mərkəzində İnşaat Bankı binası, gərək ki, daha bir bank binası var idi və onu Azərittifaqa vermişlər. Dediyim kimi, əsrin əvvəllərində Azərbaycanda bank binaları tikilib. Ancaq onların binaları qalıb, özlərindən isə digər məqsədlər üçün istifadə olunub. Ona görə də belə yeni, müasir tələblərə uyğun olan bank binasının tikilməsi Azərbaycanın həyatında şübhəsiz ki, əlamətdar bir hadisədir.

Mən bu binanın xaricinə o qədər də nəzər sala bilmədim, ancaq daxildən baxdım və burada yüksək keyfiyyətli işin nəticəsini gördüm. Bu çox sevindirici haldır. Çünki biz həmişə yeni bir şey yaradanda gərək elə yaradaq ki, o həm müasir tələblərə, həm gələcək tələblərə cavab versin, eyni zamanda başqa işlərimiz üçün də nümunə, örnək olsun.

Bu baxımdan indi respublikamızda, ölkəmizin iqtisadiyyatında gedən proseslər heç bir şübhə etmirəm ki, yaxın gələcəkdə Azərbaycanda yeni-yeni binaların yaranmasına gətirib çıxaracaqdır. Ona görə də yaranan hər bir yeni bina öz memarlıq keyfiyyətlərinə görə və bu binanın nə üçün tikildiyinə görə, ondan istifadənin tələblərinə görə nə qədər müasir olsa, şübhəsiz ki, həm iş üçün o qədər yararlı olacaq, həm də şəhərimizin mənzərəsini zənginləşdirəcəkdir. Çünki Bakı gözəl şəhərdir. Burada keçmişdə də, son 20, 30, 40 ildə də çox gözəl binalar tikilib. Ancaq son illər ölkəmizin sosial-iqtisadi vəziyyəti gər[483-484]gin olduğuna görə tikinti işləri hələlik dayandırılıb. Lakin Bakı bundan sonra da tikiləcək, inkişaf edəcəkdir. Şəhərimizdə inşa edilən hər bir yeni bina gərək Bakını daha da gözəlləşdirsin, memarlıq abidələri olan şəhərə çevirsin.

Mən bu fikri çoxdan demək istəyirdim. Təəssüf ki, son illər, təxminən 1985-ci ildən sonra Bakıda şəhərin memarlıq nizam-intizamı pozulub. Vaxtilə tikilmiş binalarda cürbəcür qurğular qurulduğuna görə, ayrı-ayrı şəxsi adamlar, yaxud şəxsi şirkətlər istədiyi kimi haradasa bir bina tikdiyinə görə, yaxud keçmişdə tikilmiş, on illərlə istifadə olunmuş gözəl binaların ya qapısını, pəncərəsini, yaxud balkonunu dəyişdirdiklərinə görə binaların özünəməxsus memarlıq keyfiyyəti itir. Bu, məni çox narahat edir. Çünki Bakıda yaşayan bir adam, vətəndaş, sakin kimi, eyni zamanda Bakıdakı binaların tikintisində çox səylər qoyduğuma görə mən burada hər bir küçədəki dəyişikliyə də çox həssas münasibət göstərirəm. Əgər dəyişiklik müsbət xarakter daşıyırsa, bu, məni sevindirir. Amma təəssüflər olsun ki, çox vaxt, xüsusən 5-6 il içərisindəki bu dəyişikliklər mənfi xarakter daşıyır. Bakının mənzərəsini ləkələyir, korlayır, çirkləndirir. Bunlarla mübarizə aparmaq lazımdır.

Bakının baş memarı bu işlərə gərək çox məsuliyyətlə yanaşsın. Bilirsiniz, başa düşürəm ki, qanun-qayda, nizam-intizam bir az pozulub. Ancaq kimsə nəyin naminəsə, yaxud şəxsi mənafeyinə, ya kiminləsə tanış olduğuna görə Bakının ümumi memarlıq mənzərəsini pozursa o, böyük cinayət edir. Bakıda gözəl-gözəl binalar var. Həmin binaların memarları orada balkonlar düzəldiblər. Ancaq hərə gətirib bu balkonların yerində yeni bir qurğu qurur, yeni-yeni balkonlar yaradır. Onlar nəinki bizim şəhərin ümumi memarlıq görkəmini pozur, eyni zamanda təhlükəlidir.

Mənim Bakıda vaxtilə yaşadığım Azərbaycan prospektindəki ev çox gözəl bir ev idi. Bakıya gələndən sonra gedib həmin binanın həyətinə baxdım, dəhşətə gəldim. Binanın həm küçəyə olan tərəfi, həm də içəri tərəfi çox gözəl memarlıq üslubunda idi. Ancaq di gəl ki, indi hərə özü üçün bir balkon düzəldib və binanı bütünlüklə korlayıblar, dağıdıblar. Gətirib kimsə, keçmişdə evlər idarəsi deyirdilər, ona pul verir, biri rayon icraiyyə komitəsini, başqasını görür, hərəsi qanunsuz bir iş görür. Bu, biabırçılıqdır.

Bilirsiniz, bir adam öz geyimini istədiyi kimi dəyişdirsə – bu, ola bilər. Çünki o, bu paltarı sonra ata bilər. Amma axı, [484-485] bu, binadır. Səkkiz-doqquzmərtəbəli bina tikilib, bu, dağılmayacaq. Ancaq o cür əcaib-əcaib işlər görəndə, cürbəcür balkonlar, hərə öz istədiyi kimi pəncərə düzəldəndə, bu pəncərəni istədiyi kimi rəngləyəndə axı, bütün şəhərin gözəlliyi itir.

Ona görə də mən bu gün geniş danışa bilərdim, amma vaxt yoxdur. Şəhər ictimaiyyəti ilə görüşdə mən bu barədə geniş danışacağam. Bilirsiniz, hər bir sakin şəhəri sevməlidir, şəhərin ümumi mənafeyini öz şəxsi mənafeyindən üstün tutmalıdır, şəhərin gözəlliyini qorumalıdır. Əgər sən şəhərin gözəlliyini, onun arxitekturasını, mənzərəsini pozan balkon düzəldib qeyri-qanuni yolla özün üçün bir şərait yaradırsansa, sən şəhərə nə qədər böyük zərbə vurursan. Belə şey olarmı?

Qərbdə, böyük-böyük gözəl şəhərlərdə, – siz də gedib görmüsünüz, mən də görmüşəm, – bizi nə heyran edir? İnsanlar o binanı qoruyurlar. Balkonlarda, pəncərələrdə gül-çiçəkdən savayı başqa bir şey görməzsən.

Ancaq bizdəki balkonlarda nəinki gül-çiçək yoxdur, – mən bunu 20 il bundan qabaq da demişəm, yeni bir şey deyil, – həmin binadan hərə öz istədiyi kimi istifadə edir. Rayonların rəhbərləri də, şəhərin baş arxitektoru da, bu işə cavabdeh olan başqa adamlar da artıq bununla razılaşıblar. Kim nə istəyir, onu da edir. Şəhər anarxiya vəziyyətinə dönüb.

Şəhərin hər bir rayonuna rəhbərlik edən adamlar var, gərək ki, hər bir rayonun arxitektoru da var. Bu arxitektor nədən ötrüdür? Ondan ötrüdür ki, ondan-bundan pul alsın, öz cibinə işləsin və rayonun arxitektura görkəmini pozsun? Yaxud ondan ötrüdür ki, rayonun memarlıq səviyyəsini daha da yuxarıya qaldırsın. Ona görə də mən xəbərdarlıq və tələb edirəm ki, şəhərimizi bu cür çox korlayan hallara son qoyulsun. Hesab edirəm ki, belə qurğuları da dağıtmaq lazımdır.

Xatirimdədir, mən vaxtilə belə hallara qarşı mübarizə aparırdım. 70-ci illərdə o vaxtkı Basin küçəsində bir bina tikilmişdi, onun həyət tərəfində hərə özü üçün qapalı balkon qurmuşdu. Mən sadəcə öz fikrimi dedim ki, burada qeyri-qanuni işlər görülüb, dağıtmaq lazımdır. Sonra bəzi təxribatçı adamlar balta götürüb onları sındırmağa, dağıtmağa başladılar. Hamı da dedi ki, bu, Heydər Əliyevin göstərişidir. Bəziləri də bununla süni təxribat yaranmasına nail oldular. Mən bunların heç birisindən qorxmuram, narahat da deyiləm. Çünki, yenə də deyirəm, Bakının xüsusiyyətləri, keyfiyyəti, [485-486] arxitektura görkəmi mənim üçün hər bir şeydən üstündür. Ancaq mən bu cür təxribat halları ilə rastlaşmışam və ona görə də xəbərdarlıq edirəm ki, heç kəs belə təxribatçı yollara getməsin.

Şəhərdə arxitektura nizam-intizamı yaratmaq lazımdır. Şəhərin baş arxitektoru, arxitektura idarəsi, rayonların arxitektorları və onlarla birlikdə şəhərin rəhbərləri və onların rəhbərləri bu işə cavabdehdirlər, məsuldurlar, bu işlə ciddi məşğul olmalıdırlar. Mən bir il idi ki, bu fikirləri demək istəyirdim, bu gün sadəcə olaraq bunu deməyə fürsət tapmışam. Tam səmimiyyətlə deyirəm ki, mən hər dəfə şəhərə çıxıb görüşə gedib-gələndə, belə halları görəndə əsəblərim, ola bilər, iki-üç gün pozulur. Çünki mən şəhərin hər bir daşını, hər bir küçəsini, binasını özüm üçün doğma hesab edirəm. Əgər hər kəs millətini, şəhərini, Vətənini və paytaxtımız olan Bakını sevirsə, belə hissiyyatla yaşamalıdır. Yoxsa hərə özü üçün hansısa yaramaz bir şərait yaradır, həmin şəraitin özü də sən deyən bir mədəni şərait deyil, şəhərin arxitektura görkəmini pozur. Bunlara son qoymaq lazımdır.

Bax, həmin bu mənfi hallarla müqayisə edəndə belə bir yeni binanın tikilməsi çox müsbət işdir, şəhərə yeni bir gözəllik verir. Özü də bura şəhərin ən mərkəzi nöqtələrindən biridir. Bu gözəllik, şübhəsiz ki, təqdirəlayiqdir. Bu binanı yaradanlar böyük iş görüblər. Bu münasibətlə mən şəhərin, Beynəlxalq Bankın rəhbərliyini və Türkiyə Cümhuriyyətinin bu inşaatı aparan şirkətinin rəhbərliyini də təbrik edirəm.

Yaxşı binadır. Yenə də deyirəm, mən hər yerə, hər bir detala baxa bilmədim. Amma gördüyümdən belə bir təəssürat əldə etdim, topladım ki, yaxşı binadır – həm görkəmlidir, həm yararlıdır, gözəldir, həm də işləmək üçün burada yaxşı şərait yaradılıb. Təbrik edirəm. Tikintinin bir xüsusiyyəti də ondan ibarətdir ki, bu, Azərbaycan ilə Türkiyə arasında əməkdaşlığın nəticəsidir. Mən dəfələrlə demişəm ki, xarici ölkələrdən, xüsusən bizimlə dost, yaxın olan Türkiyədən iş adamları gəlib burada iş görsünlər. Belə iş adamlarından biri də bu binanı tikən şirkətin rəhbəridir. Onlar çox yaxşı iş görüblər. Bu, bir daha sübut edir ki, respublikamız Türkiyə Cümhuriyyəti ilə və onun ayrı-ayrı özəl şirkətləri ilə əməkdaşlıq edə bilər. Mən bunu bəyənirəm. Dəfələrlə demişəm, bir daha bəyan edirəm ki, belə yararlı, faydalı işlər üçün Azərbaycanda şərait yaranıb və bundan istifadə etmək lazımdır. [486-487]

İndi bu bankın qarşısında duran vəzifələr haqqında bir neçə kəlmə demək istəyirəm. Bu bank respublikamızda çox əhəmiyyətli bir müəssisədir. Ümumiyyətlə, hər bir ölkənin bankı onun iqtisadiyyatının, maliyyəsinin ən mötəbər bir hissəsidir. Keçmişdə biz uzun müddət sosialist quruluşu sistemində yaşamışıq və bankın əhəmiyyətini o qədər də hiss edə bilməmişik. Çünki o vaxt bank dövlətin qoyduğu qanun-qaydalarla fəaliyyət göstərirdi və ola bilər, onun əhəmiyyətini hər bir kəs hiss etmirdi. Adi bir vətəndaş heç vaxt bilmirdi ki, bank nə iş görür, nə edir. O gedib işləyir, kassir onun məvacibini verir, bəzən də bu məvacibi verəndə ondan bir balaca kəsib götürür. Ancaq hər halda verir, o da heç bankın harada olduğunu bilmir.

Keçmiş dövrdə insanların bankla əlaqələri ən çox əmanət kassaları ilə idi: pulunu aparıb ora qoyurdun, onlar da iki faiz verirdilər, ya da vermirdilər. Yəni vətəndaşlarımız bank sistemi ilə heç vaxt yaxın münasibətdə olmamışdılar. Amma indiki quruluşumuzda, həyatımızda, vətəndaşlarımız və geniş kütlə bank sistemi ilə çox yaxın münasibətdə, əlaqədə olmalıdır. Çünki bu, həyatın tələbidir. Beynəlxalq bank bu baxımdan həm respublikamızın iqtisadiyyatına, həm də vətəndaşlarımıza xidmət etmək üçün çox böyük məsuliyyət daşıyır və onun qarşısında çox mühüm vəzifələr durur.

Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, belə gözəl, yaraşıqlı, yaxşı işləmək üçün şəraiti olan bina əldə edən Beynəlxalq Bankın kollektivi bundan sonra daha da səmərəli işləməli, fəaliyyətini yüksəklərə qaldırmalıdır. Onun fəaliyyəti necə olmalıdır, – mən bu təfərrüata toxunmaq istəmirəm, – bu, bankın daxili, spesifik işləridir. Bunları siz məndən də yaxşı bilirsiniz. Ancaq bircə məsələni demək istəyirəm, o da ondan ibarətdir ki, bank sisteminin təkmilləşdirilməsini təmin etmək lazımdır. İqtisadi islahatların həyata keçirilməsində, respublikamızın bazar iqtisadiyyatı yolu ilə inkişaf etməsində qarşımızda duran əsas vəzifələrdən biri bank sistemi islahatlarının aparılması və təkmilləşdirilməsidir.

Azərbaycanda mövcud olan bank sistemi bugünkü, xüsusən gələcək tələblərimizə cavab vermir. Ona görə də biz bu sahədə ciddi islahatlar aparmalıyıq. Mən Milli Bankın və Beynəlxalq Bankın, digər bankların və Nazirlər Kabinetinin qarşısında bu vəzifələri qoymuşam. Mən tələb edirəm ki, bu barədə təkliflər verilsin, biz həmin təkliflər əsasında bu [487-488] islahatları həyata keçirə bilək. Bu baxımdan Beynəlxalq Bank xüsusi əhəmiyyət kəsb edir. Başqa banklara nisbətən Beynəlxalq Bank dünyanın böyük bankları ilə daha sıx əlaqədə olduğuna görə respublikada bank sistemini təkmilləşdirmək üçün daha çox iş görə bilər. Mən Beynəlxalq Bankın kollektivindən bunu gözləyirəm. Arzu edirəm ki, siz bu vəzifələri yerinə yetirəsiniz.

Təəssüflər olsun ki, respublikanın bank sistemində xoşa gəlməyən müxtəlif mənfi hallar – vəsaitlərin mənimsənilməsi, qeyri-qanuni kreditlərin verilməsi, yaxud kredit alan adamın krediti qaytara bilməyəcəyini əvvəlcədən bilərək ona kredit verilməsi və beləliklə də bizim onsuz da çətinliklər şəraitində yaşayan maliyyə sistemimizə zərbələr vurulması halları da vardır. İstintaq orqanlarımız belə halları indi xüsusi olaraq araşdırırlar. Bu sahədə cinayət etmiş adamların hamısı məsuliyyətə alınacaqdır. Təəssüf ki, bu sahədə son illər hərc-mərclik olubdur. Dövlətin maliyyə krediti imkanlarından hərə öz şəxsi məqsədləri üçün istifadə edib, vəsaiti mənimsəyibdir. Biri o tərəfə, biri bu tərəfə gedib, başqa biri beş-on milyon dollar götürüb xarici ölkəyə gedib. Ona görə də maliyyə vəziyyətimiz belə ağırdır. Biz burada adamlara məvacib verə bilmirik, yaxud onların məvacibinin artırılması üçün çətinliklər çəkirik. Bir də görürsən fırıldaq bir adam hansısa bir bankla əlaqəyə girir, ya kredit götürür, ya başqa bir iş edir, sonra da yox olur, çıxıb gedir. Belə fırıldaqçılar, oğrular, həyatımıza zərər vuran adamlar təəssüf ki, bizim aramızda var. Əgər bizim bank, maliyyə işçilərimiz öz işlərinə sadiq olsalar, öz vəzifələrini layiqli aparsalar və səhvlərə yol verməsələr, vəzifələrindən sui-istifadə etməsələr, onlar bu cür bəd əməllərini həyata keçirə bilməzlər.

Belə hallar çox vaxt ona görə baş verir ki, həmin oğrular, vəsaitlərimizi mənimsəyənlər bank işçiləri ilə əlaqəyə girirlər, bu işləri müştərək görürlər. Hər iki tərəf mənfəət götürür. Biri krediti verir, onun bir hissəsini də özü götürür. Ancaq sonra kredit gəlməyəndə nə edir? İş çətinə düşür. Həmin krediti alıb qaytarmayan da, – düşünərək ki, bu kredit qayıtmayacaq, – onu verən də cəzalanacaqdır.

Həmin bu Beynəlxalq Bankın da bu barədə günahları çox olub. Siz bunu bilirsiniz. Orqanlar istintaq aparır, mənə məlumat verirlər ki, buradan dönərli valyuta ilə kreditlər verilib, lakin bu kreditlər qayıtmayıb. Respublikanın baş [488-489] prokuroru on gün bundan qabaq mənə demişdir ki, həmin kreditin bir hissəsini qaytarmışıq, qalanlarını da qaytarmağa çalışırıq. Mən göstəriş vermişəm və sizə də deyirəm, o kreditlər nə qədər tez qayıtsa, ola bilər, siz də özünüz üçün yüngül vəziyyət qazana biləsiniz. Ancaq əgər belə olmasa, şübhəsiz ki, çox adamlar çox ciddi cəza alacaqlar. Ona görə də mən bütün bank işçilərini, xüsusən Beynəlxalq Bankın işçilərini xəbərdarlıq edirəm.

Burada bir, iki, üç milyon dollar xərcləmək üçün baş nazir məktub yazır, fikirləşirəm ki, bunu vermək olar, ya vermək olmaz, biz düşünürük. Ancaq eşidirəm ki, üç milyon dollar ora veriblər, beş milyon dollar, nə bilim neçə milyon dollar bura veriblər. Bunu kim verib? Beynəlxalq Bank veribdir. İndi də onların arxalarına düşüb axtarırlar ki, bu vəsaitləri geri qaytarsınlar.

Birincisi, geri qaytarmaq haqqında necə söhbət gedə bilər? Hər bir kredit ona görə verilir ki, bank bundan qazanc götürsün. Onu müəyyən faizlə verir və hər ay onun faizini almalıdır. Yaxud hansı müddətə verirsə, onun faizini almalıdır. İndi faiz kənarda qalıb, verilən kreditin özünü qaytara bilmirlər. Bu qədər dəhşətli hallara yol vermək olarmı? Heç kəs güman etməsin ki, bunlar bağışlanacaq, heç kəs güman etməsin. Mən, ola bilər, bu sözləri bu yaxınlarda deyəcəkdim. Bu gün mənə yaxşı fürsət vermisiniz, mən bunları deyirəm və həm Beynəlxalq Bankın, həm Milli Bankın, həm Maliyyə Nazirliyinin, həm də başqa bankların rəhbərliyindən tələb edirəm ki, bu məsələləri tezliklə həll etmək lazımdır. Verilmiş kreditlər qaytarılmalıdır və banklar gələcəkdə yalnız sağlam prinsiplər əsasında fəaliyyət göstərməlidirlər. Bizim valyuta imkanlarımız onsuz da məhduddur. Bu, respublikamızın iqtisadiyyatında baş vermiş çətinliklərlə əlaqədardır. Bunun bir çox obyektiv səbəbləri vardır. Belə bir şəraitdə hər bir manat, dollar, sent bizim üçün əhəmiyyətlidir. Amma yüz minlərlə, yaxud milyonlarla kredit verirsiniz, mən də prokurorluq işçilərini səfərbər edirəm, üç-dörd ay bunu axtarsınlar ki, krediti alan bu adam hara gedib, haradadır, nə cür gedib, bunu qaytaraq, qaytaranda da mənə çox sevinclə məlumat versinlər ki, iki, üç milyon qaytardıq. Guya böyük iş görülüb. Özümüz öz əlimizdə olan valyutanı yaramaz adamlara veririk, ondan sonra da nə qədər vaxt, iş sərf olunur ki, bunları geri qaytaraq. Kimdir günahkar? Bunun gü[489-490]nahkarları bank işçiləridir, həmin bu bank işçilərinə havadarlıq edən, onlarla bu çirkin əlaqələrə girən adamlardır. Təəssüf ki, vəzifəli adamlar da bu çirkin əməllərə girirlər.

Güman edirəm ki, dediklərim hər şeyə aydınlıq verir. Mən tələb edirəm ki, belə hallara son qoyulsun. Beynəlxalq Bankın direktoru gənc mütəxəssisdir, şəxsən mən ona çox böyük etimad göstərmişəm, onu böyük bir maliyyə təşkilatına rəhbər təyin etmişik. Beynəlxalq Bankın başçısı da, bütün kollektiv də bunu bilməlidir. Hər kəs bilməlidir ki, siz məsuliyyət daşıyırsınız. İşçilərinizin əksəriyyəti gəncdir. Yaxşı təhsil alıblar, maliyyə işini bilirlər. Bunlar hamısı çox yaxşı haldır. Mən bütün bunlar üçün məmnun olduğumu bildirmək istəyirəm. Bütün bunlarla yanaşı, hər bir bank işçisi yüksək mənəviyyat sahibi olmalı və bilməlidir ki, bank işçisi bütün başqa sahələrin işçilərindən dəqiq, düz, doğru işləməlidir.

Ümumiyyətlə, uzun illərdir dünyada belə bir fikir var ki, bank işçiləri çox dəqiq, tələbkar olurlar, elə bir

təbəqədirlər ki, onlar tərəfindən heç bir mənfi hal baş verə bilməz. Bank işçiləri haqqında belə bir ümumi fikir var. Bu da təbiidir və əsassız deyildir. Yəqin ki, dünyada bank işində belə bir ənənə yaranıbdır. Keçmişdə bizim banklarda da belə təmiz, çox saf mənəviyyatla uzun illər işləmiş adamlar çox olubdur. Ancaq təəssüf ki, son illər insanların çoxu o qədər pozulub ki, bilmirsən hansı adam safdır, hansı adam saf deyil. Ona görə də kollektivinizin müsbət keyfiyyətlərinə görə məmnun olduğumu bildirirəm. Ancaq bununla yanaşı saflıq, təmizlik, yüksək mənəviyyat, maliyyəmizi, valyutamızı qorumaq, maliyyəmizin keşiyində durmaq əsas vəzifədir və sizin hamınız üçün bu tələblər birinci yerdədir.

Sizi və buraya toplaşanları mən bu hadisə münasibətilə təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Beynəlxalq Bank indiyədək buraxdığı səhvləri bundan sonra etməyəcəkdir. Nalayiq, mənfi hallara son qoyulacaq, bu gözəl binanın divarları içərisində, bu gözəl salonlarda, iş yerində saf, yüksək mənəviyyatlı işlər görüləcəkdir. Bunlar hamısı Azərbaycanın maliyyə imkanlarının, iqtisadiyyatının inkişaf etdirilməsinə yönəldiləcək və respublikamızın vətəndaşlarının bu işlərlə əlaqədar olan tələblərini ödəyəcəkdir. Bunların hamısı da Azərbaycan Respublikasında bazar iqtisadiyyatının, iqtisadi islahatların inkişafına kömək edəcəkdir. [490]

Kitabın hazırlanmasında iştirak edənlər:
Tofiq Babayev, Qəzənfər Zalıyev, Müzəffər Maşayev, Arif Məmmədov, Kamil Muxtarov, Azər Fərzəliyev.

Rəssamı *Fuad Fərəcov*

Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*

Texniki redaktoru *Zoya Nəcəfova*

Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 31.25. Uçot nəşr vərəqi 32,0. Tirajı 5000. Sifariş 156. Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.

Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.